# AZƏRBAYCAN PROKURORLUĞU

Elmi-praktiki jurnal




№ 2
2024

www.genprosecutor.gov.az




**COP29-a ev sahibliyi edəcək ölkə kimi yekdil qərarla seçilmək bizim üçün həqiqətən böyük şərəfdir. Biz bunu beynəlxalq ictimaiyyətin Azərbaycana və gördüyümüz işlərə, o cümlədən yaşıl enerji sahəsindəki fəaliyyətimizə hörmətinin əlaməti hesab edirik.**

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

# AZƏRBAYCAN PROKURORLUĞU

**Təsisçi:**
Azərbaycan Respublikasının
Baş Prokurorluğu

**REDAKSİYA HEYƏTİ**

**Baş redaktor:**
Heydər Məmmədov

**Baş redaktorun müavini:**
Mübariz Əhmədov

**Redaksiya heyətinin üzvləri:**
Tural Aslanov
Natiq Hüseynov
Aynur Osmanova
Erkin Əlixanov
Elnur Musayev
Vüqar Əliyev
Mahir Abbasov
Asəf Sarıkişiyev
Şəfahət İmranov

**Məsul katib:**
Talıb Cəfərov

**Redaksiyanın ünvanı:**

Bakı şəhəri, Binəqədi rayonu, Dərnəgül yaşayış sahəsi, 21-ci Dağlıq küçəsi, 3105-ci məhəllə.

**Tel. / Faks:** 361 14 02
**www.genprosecutor.gov.az**

*Elmi-praktiki jurnalın 2-ci nömrəsi*

*Aprel - İyun (2024-cü il)*

"Media haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq qaydada təsis edilmişdir.

Jurnal 2003-cü ildən etibarən rübdə bir dəfə dövriliklə dərc edilir.

Azərbaycan Respublikası Baş prokurorunun 19 may 2021-ci il tarixli, 09/06 nömrəli əmri ilə "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalının redaksiya heyətinin yeni tərkibi təsdiq edilmişdir. "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalının fəaliyyəti üçün məsul qurum Baş Prokurorluğun Elm-Tədris Mərkəzidir.

Yazılardakı məlumatların doğruluğuna jurnalın redaksiya heyəti məsuliyyət daşımır.

Jurnalda dərc edilmiş məlumatlardan istifadə zamanı jurnala istinad etmək vacibdir.

Azərbaycan Respublikası Baş Prokurorluğunun mətbəəsində səhifələnmiş və 350 nüsxə kağız, 150 nüsxə elektron daşıyıcıda çap edilmişdir.

*Jurnalın çapına məsul:* Rövşən Abdullayev
*Texniki heyət:* Samir Vahidov, Səttar Əliyev

Çapa imzalanmışdır: 17. 07. 2024
60x84 1/8 formatda 264 səhifə həcmdədir.

© "Azərbaycan Prokurorluğu", 2024

# MÜNDƏRİCAT

## ÖLKƏDƏ


**5** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiyaya işgüzar səfər edib
**15** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Almaniyaya işgüzar səfər edib
**28** Slovakiya Respublikasının Baş naziri Robert Fitso ölkəmizə rəsmi səfər edib
**34** İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ulu Öndər Heydər Əliyevin Fəxri xiyabanda məzarını ziyarət ediblər
**36** Bolqarıstan Prezidenti Rumen Radev ölkəmizə rəsmi səfər edib
**43** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Misirə rəsmi səfər edib
**51** İlham Əliyevə İtaliyanın “Leonardo” şirkətinin istehsalı olan hərbi nəqliyyat təyyarəsi təqdim edilib


## PROKURORLUQDA


**52** “Rəqəmsal cinayət prosesi: müasir çağırışlar və hədəflər” mövzusunda konfrans keçirilib
**54** Baş Prokurorluq ilə Hesablama Palatası arasında memorandum imzalanıb
**55** İranın Baş prokurorunun müavini Qolam Abbas Torki ölkəmizdə işgüzar səfərdə olub
**57** Qazaxıstanın Baş prokurorunun müavini ölkəmizə işgüzar səfər edib
**59** Türkmənistanın Baş prokurorunun müavini ölkəmizdə işgüzar səfərdə olub
**61** Bakıda Xəzəryanı dövlətlərin Baş Prokurorluqlarının beştərəfli görüşü təşkil edilib
**64** Baş prokuror Kamran Əliyev Rusiya Baş prokurorunun müavini ilə görüşüb
**66** Baş prokuror Kamran Əliyev Çin Xalq Respublikasına işgüzar səfər edib
**68** Baş prokuror İordaniyalı həmkarı ilə görüşüb
**69** Prokurorluq əməkdaşları ağacəkmə kampaniyası keçirib
**70** Baş prokuror TİHEK-in rəhbəri ilə görüşüb
**71** Prokurorluq əməkdaşları Fəxri Xiyabanı ziyarət edib
**72** Baş Prokurorluqda Ulu Öndər Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü qeyd edilib
**74** Baş prokuror Kamran Əliyev Düşənbədə işgüzar səfərdə olub
**77** İtaliyanın Baş prokuroru ölkəmizə səfər edib
**80** Qazaxıstanın Korrupsiyaya qarşı Mübarizə Agentliyinin sədri ölkəmizə səfər edib
**83** Baş prokuror beynəlxalq konfransda mühüm məsələləri diqqətə çatdırıb
**85** Baş prokuror beynəlxalq konfrans iştirakçıları ilə görüşüb
**86** Latviyanın Baş prokuroru ölkəmizdə səfər edib
**88** “Dövlət qulluqçularının peşə bayramı” münasibətilə Baş Prokurorluqda tədbir keçirilib
**89** İyunun 24-də Xankəndi şəhər prokurorluğunun inzibati binası istifadəyə verilib
**91** Xankəndi şəhərində elmi-praktiki konfrans keçirilib
**96** Prokurorluq əməkdaşları Qazax Müəllimlər Seminariyası ADA Universiteti Qazax Mərkəzində olublar
**97** Baş prokuror bölgələrdə vətəndaşları qəbul etmişdir


## BEYNƏLXALQ KONFRANS


**107** Bakı şəhərində “Türk Dövlətlərinin hüquq tətbiqetmə fəaliyyətlərində rəqəmsallaşma və inteqrasiya” mövzusunda beynəlxalq konfrans keçirilib


## PROKURORLUQDA


**114** Elm-Tədris Mərkəzində "Etik davranışın qayda və prinsipləri, həmçinin onlara əməl edilməsi" mövzusunda təlim keçirirlib
**114** Həkim səhvləri ilə bağlı məlumatların daha peşəkarcasına araşdırılması tədris olunub
**115** Baş Prokurorluqda icbari tibbi sığortaya dair təlim keçirilib
**116** Baş Prokurorluq tərəfindən Sumqayıtda “Ekoloji təhlükəsizlik və yaşıl dünya” adlı işgüzar konfrans keçirilib
**118** Sumqayıt şəhər prokurorluğunda “Açıq qapı günü” keçirilib
**119** Baş Prokurorluğun Elm-Tədris Mərkəzi ilə Hesablama Palatasının Təlim Mərkəzi arasında əməkdaşlıq haqqında protokol imzalanıb
**120** Baş Prokurorluq tərəfindən Astara rayonunda təmizlik aksiyası təşkil olunub
**121** Prokurorluq əməkdaşları Mir Cəlal Paşayevin İçərişəhərdə yaşadığı evi ziyarət edib
**122** Baş Prokurorluqda Milli Aviasiya Akademiyasının tələbələri ilə görüş keçirilib
**123** Baş Prokurorluğun əməkdaşları tərəfindən “Narkomaniyaya qarşı mübarizə” mövzusunda seminar təşkil edilib
**124** Naxçıvanda “28 Aprel – Ümumdünya əməyin mühafizəsi günü” ilə əlaqədar tədbir keçirilib
**125** Baş Prokurorluqda “Yaşıl Dünya naminə həmrəylik ili”nə həsr olunmuş tədbir keçirilib
**126** Xətai rayon prokurorluğunda “Yaşıl dünya üçün hüquqi yeniliklər” adlı tədbir keçirilib
**128** Daxili İşlər Nazirliyinin Polis Akademiyasının nümayəndələri Baş Prokurorluğun inzibati binalar kompleksi ilə tanış olublar
**129** Hüquq sahəsində elmi jurnalların elektron axtarış bazasının yaradılması müzakirə olunub
**130** Prokurorluq əməkdaşları “Bakı Marafonu – 2024”də iştirak edib
**130** Polis Akademiyasında prokurorluğun təcrübəli əməkdaşları ilə kursantlar arasında görüş keçirilib
**131** Gənc prokurorluq əməkdaşları Heydər Əliyev Mərkəzini ziyarət edib
**132** Gənc prokurorluq əməkdaşları üçün peşə vərdişlərinin formalaşması məqsədilə hazırlıq kursu təşkil edilib
**133** Hakim vəzifəsinə təyin edilmiş prokurorluq işçiləri ilə Baş Prokurorluqda görüş keçirilib
**134** Baş Prokurorluğun Elm-Tədris Mərkəzində Hesablama Palatasının işçiləri üçün təlim təşkil edilib
**135** Baş Prokurorluğun əməkdaşı elmi-praktiki konfransda iştirak edib
**135** Baş Prokurorluq tərəfindən növbəti təmizlik aksiyası Xaçmaz rayonunda təşkil olunub
**136** Gəncə şəhər prokurorluğunda “Açıq qapı günü” təşkil edilib
**138** Baş prokurorun müavini, eləcə də 15 rayon (şəhər) prokuroru Gəncədə ağacəkmə kampaniyasında iştirak edib
**140** Baş Prokurorluq tərəfindən Gəncədə «Ekoloji hüquqpozmalar: maarifləmə və qanunvericiliklə nizamlanma» adlı işgüzar konfrans keçirilib
**142** Baş prokurorun müavini: Ətraf mühitin mühafizəsi üzrə dövlət fonduna 2 milyon yarım manatdan çox məbləğdə pul ödənilib
**143** Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına qarşı mübarizə ilə bağlı növbəti təlim keçirilib
**144** Baş Prokurorluq tərəfindən Naxçıvan və Qazaxda növbəti təmizlik aksiyaları keçirilib
**145** Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində “Gələcəyin hüquqşünasları ilə görüş” adlı tədbir keçirilib
**146** Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda qəsdən adam öldürmə və digər ağır cinayətlərin istintaqına həsr edilmiş geniş kollegiya iclası keçirilib
**148** Hərbi Prokurorluq və Dövlət Sərhəd Xidməti tərəfindən Qubadlıda birgə tədbir keçirilib
**149** Azərbaycan Respublikası Hərbi Prokurorluğunda Ümummilli Liderin anadan olmasının 101-ci ildönümü münasibətilə tədbir keçirilib
**151** Ağcabədi rayonunda Hərbi Prokurorluq və Müdafiə Nazirliyi birgə tədbir keçirib
**153** Bərdə rayonunda Hərbi Prokurorluq və Daxili İşlər Nazirliyinin Daxili Qoşunları birgə tədbir keçirib

# MÜNDƏRİCAT


**154** Hərbi Prokurorluq əməkdaşları Daxili Qoşunların Vətən Müharibəsi qəhrəmanları ilə birgə "Ağac əkmə" aksiyası keçiriblər

**156** Hərbi Prokurorluğun nümayəndə heyəti Rusiyaya səfər edib

**158** Azərbaycanın Hərbi prokuroru Tatarıstanın Rəisini ölkəmizin qazandığı misilsiz uğurlar barədə məlumatlandırıb

**159** Hərbi Prokurorluq və Müdafiə Nazirliyi Şəmkir rayonunda birgə tədbir keçirib

**160** Hərbi Prokurorluq və Dövlət Sərhəd Xidməti Şəmkirdə birgə tədbir keçiriblər

**161** Hərbi Prokurorluq və Dövlət Sərhəd Xidməti Cəlilabadda birgə tədbir keçiriblər

**162** Hərbi Prokurorluqda qazilərlə görüş keçirilib

**165** Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən "Vətənpərvərlik" mövzusunda maarifləndirmə tədbirləri keçirilib

**166** Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən narkomaniyaya qarşı mübarizə ilə bağlı maarifləndirici tədbirlərin keçirilməsinə başlanılıb

**167** Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illik yubileyi ilə əlaqədar "Açıq Qapı" günü keçirilib

**168** Naxçıvan Muxtar Respublikası Prokurorluğunda inzibati xətalar haqqında işlər seminarların mövzusu olub

**170** Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində tədbirlər keçirilib

**172** Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilatçılığı ilə sudan səmərəli və qanuni istifadə ilə bağlı tədbirlər keçirilib

**174** Naxçıvan Muxtar Respublikasında keçirilən konfransda Muxtar Respublikanın prokuroru iştirak edib

**174** Naxçıvan Muxtar Respublikası Prokurorluğunun əməkdaşları Ulu Öndər Heydər Əliyevin anadan olmasının 101 illiyini qeyd edib

**175** Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən narkomaniyaya qarşı mübarizə ilə bağlı keçirilən tədbirlər davam etdirilib

**176** Naxçıvan Muxtar Respublikasının prokurorluğunun mərkəzi aparatı, rayon (şəhər) və Naxçıvan hərbi prokurorluğunun əməkdaşları arasında futbol turniri keçirilib

**177** Naxçıvan Muxtar Respublikası Prokurorluğunun əməkdaşları şəhid ailələrini ziyarət ediblər

**179** Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən narkomaniyaya qarşı mübarizə ilə bağlı silsilə tədbirlər keçirilib

**180** Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən korrupsiyaya qarşı mübarizə mövzusunda tədbirlər keçirilib


## BEYNƏLXALQ ƏLAQƏLƏR


**181** Baş Prokurorluğun nümayəndəsi Qazaxıstan Respublikasının Baş Prokurorluğu yanında Hüquq-mühafizə orqanlarının Akademiyasında keçirilən konfransda iştirak edib

**182** Cinayət aktivlərinin bərpası sahəsində beynəlxalq əməkdaşlıq davam etdirilir

**182** Baş Prokurorluğun əməkdaşları beynəlxalq vebinarda iştirak ediblər

**183** UNODC-nin Mərkəzi Asiya və Cənubi Qafqaz Şəbəkəsi (CASC) ilə əməkdaşlıq uğurla davam etdirilir

**183** ABŞ-nin nüfuzlu Vaşinqton Universitetinin nümayəndə heyəti Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin fəaliyyəti ilə tanış olub

**184** Xarici dövlətlərin hüquq-mühafizə orqanları ilə əməkdaşlıq uğurla davam etdirilir

**185** Azərbaycan Respublikası Baş Prokurorluğunun nümayəndə heyəti beynəlxalq forumda iştirak edib

**187** Baş Prokurorluqda BMT-nin nümayəndəsi ilə görüş keçirilib

**187** Prokurorluğun nümayəndəsi BMT-nin Cinayətkarlığın Qarşısının Alınması və Cinayət Ədliyyəsi Komissiyasının 33-cü sessiyasında iştirak edib

**188** "Emosional-Psixoloji maarifləndirmə" sorğu layihəsi çərçivəsində tədbir keçirilib

**189** Baş Prokurorluğun əməkdaşı Səmərqənd şəhərində keçirilmiş beynəlxalq təlimdə iştirak edib

**190** Baş Prokurorluğun əməkdaşı BMT tərəfindən təşkil olunan tədbirdə iştirak edib

**190** Azərbaycan və Rusiya prokurorluqları arasında hüquqi əməkdaşlıq genişlənir

**191** Azərbaycan Prokurorluğu nüfuzlu beynəlxalq təşkilat və xarici ölkələrin səlahiyyətli qurumları ilə qarşılıqlı əməkdaşlıq əlaqələrini davam etdirir

**192** Prokurorluq əməkdaşı ətraf mühitin qorunması ilə bağlı beynəlxalq tədbirdə iştirak edib


## PROKURORLUQ VƏ CƏMİYYƏT


**193** Mətbuat xidmətinin məlumatı

**200** *Səbuhi Şahverdiyev* – Xarici ölkələrin qanunvericiliyi kontekstində şəxsi həyat anlayışı

**204** *Faiq Səfərov* – Hüseyn Cavid yaradıcılığında ədalət axtarışı

**207** *Adil Vəliyev* – O Günəşin zühuru...

**213** *Leyla Əlizadə* – Xalqımızın görkəmli şəxsiyyəti Heydər Əliyevin idarəçilik siyasəti


## İKİ HÜQUQŞÜNAS – İKİ FƏRQLİ HÜQUQİ MÖVQE


**217** *Anar Məmmədov* – İnzibati xəta haqqında işlər üzrə icraatın başlanılmasında müddətlərin əhəmiyyəti

**219** *Yasin Mikayıllı* – Mülkiyyət əleyhinə cinayətlərlə mübarizənin müasir problemləri

**223** *Sərdar İmanov* – Narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı aparılan cinayət işlərində qeyri-aşkar istintaq hərəkətlərinin rolu, onun həyata keçirilməsi qaydası və nəticələri


## HƏMKARLARIMIZLA MÜSAHİBƏ


**226** İtaliya Respublikasının Ali Kassasiya Məhkəməsinin Baş prokuroru Luici Salvatonun müsahibəsi


## PROKURORLUĞUN VETERANLARI


**227** Qulluqda olmanın son yaş həddinə çatmış prokurorluq işçiləri təltif olunub

**228** Baş Prokurorluğun əməkdaşları prokurorluğun veteranları ilə görüşüblər

**228** Qulluqda olmanın son yaş həddinə çatmış prokurorluq işçisi təqaüdə çıxıb

**229** Baş Prokurorluğun əməkdaşları prokurorluğun veteranı ilə görüşüb

**229** Prokurorluğun veteranları təltif ediliblər

**230** Prokurorluğun veteranı Firəngiz Həsənovanın "Azərbaycan Prokurorluğu" jurnalına müsahibəsi


## HÜQUQİ AKTLAR


**234** Qanunvericiliyə dəyişikliklər

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiyaya işgüzar səfər edib







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə aprelin 22-də Moskvaya işgüzar səfərə gedib.

Moskvanın Vnukovo-2 beynəlxalq hava limanında dövlətimizin başçısını Rusiya xarici işlər nazirinin müavini Mixail Qaluzin və digər rəsmi şəxslər qarşıladılar.

***

Aprelin 22-də Moskvada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə təkbətək görüşü olub.





Azərbaycan Prezidenti İlham Əliyevi salamlayan **Rusiya Prezidenti Vladimir Putin** dedi:

– Hörmətli İlham Heydər oğlu. Gəldiyiniz üçün sağ olun.

Bu günlərdə BAM-ın (Baykal-Amur Magistralının) 50 illiyini qeyd edirik. Hamı yaxşı bilir ki, hökumət komissiyasına rəhbərlik edən atanız dəfələrlə tikintiyə baş çəkərək bu məsələdə çox əhəmiyyətli rol oynayıb. Əslində o, bütün Sovet İttifaqı üçün mühüm olan bu nəhəng layihənin təşkilatçılarından biri olub. Biz təkcə bu barədə bilməklə kifayətlənmirik, həm də bunu xatırlayırıq və ona çox minnətdarıq, onun xatirəsini yad edirik.

Bu gün bizim həm də BAM-ın veteranları ilə görüşümüz olacaq, danışılacaq bir çox mövzu var. İndi biz, yəqin ki, Siz bu barədə bilirsiniz, Şərq poliqonu adlı marşrutu inkişaf etdiririk, həm BAM, həm də Transsib onunla bağlıdır. Beləliklə, bütün bunlar bu gün də bizim üçün əhəmiyyətlidir, həm də çox böyük əhəmiyyətə malikdir.

Düşünürəm, hətta əminəm ki, atanızın bu nəhəng layihənin həyata keçirilməsinə sərf etdiyi bütün səylər, zəhmət çəkdiyi illər bu gün də təkcə Rusiya üçün deyil, həm də bütün Müstəqil Dövlətlər Birliyi üçün mühüm

rola malikdir. Onu nəzərdə tuturam ki, bir çox tərəfdaşlarımız bu və ya digər dərəcədə bu nəqliyyat arteriyasından istifadə edirlər.

Əlbəttə, bizim yüksək səviyyədə olan və inkişaf edən ikitərəfli münasibətlərimizdən danışmaq imkanımız olacaq. Əmtəə dövriyyəmiz artır: o, artıq 4 milyard dollardan da çoxdur. Dollar ekvivalentində desək, Azərbaycan iqtisadiyyatına yatırılan Rusiya investisiyası 6 milyarddır. Hökumətlərarası komissiya fəal işləyir. İqtisadiyyatın real sektorunda, kooperasiyada, infrastrukturda əməkdaşlığın bir çox maraqlı istiqamətləri var, zənnimcə, onların bir neçəsi ölkələrimizin ictimaiyyətinə məlumdur.

Sözsüz ki, regionda təhlükəsizliyin təmin edilməsi ilə bağlı vəziyyətdən də danışacağıq. Bir çox məsələlər var ki, onlar olduqca həssasdır. Biz Sizinlə onların hər birini müzakirə edəcəyik.

Sizi görməyimizə çox şadıq. Xoş gəlmisiniz.

**Azərbaycan Prezidenti İlham Əliyev** dedi:

– Hörmətli Vladimir Vladimiroviç.

Dəvətə görə sağ olun. Yenidən görüşməyimizə şadam.

BAM-ın tikintisinin başlanmasının 50 illiyinə həsr olunmuş bugünkü tədbirdə iştirakla bağlı dəvətinizə görə ayrıca təşəkkürümü bildirirəm. Rusiya rəhbərliyinin, həmçinin ictimaiyyətinin Heydər Əliyevin xatirəsinə göstərdikləri ehtiramı Azərbaycanda yüksək qiymətləndiririk. Qeyd etdiyiniz kimi Heydər Əlirza oğlu Əliyev vaxtilə Ümumittifaq tikintisi adlandırılan bu nəhəng layihənin həyata keçirilməsində fəal iştirak edib və onun reallaşdırılmasına öz töhfəsini verib. Ona görə bizim üçün əlbəttə ki, bu tədbirdə iştirak etmək çox xoşdur və böyük şərəfdir. Bu gün bu qlobal layihənin həyata keçirilməsinə öz töhfəsini verən insanlarla da görüşəcəyik.

Tarixin yaddaqalan bu məqamları ölkələrimizi, xalqlarımızı daha da yaxınlaşdırır, münasibətlərimizin gələcəkdə də ardıcıl inkişafına töhfə verir. Biz əlaqələrimizin inkişafından çox razıyıq. Artıq iki ildən çoxdur ki, 2022-ci ilin fevralında burada, Kremldə imzaladığımız və əsas siyasi sənəd olan, gələcəkdə münasibətlərimizin ardıcıl inkişafını müəyyən edən müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə çərçivəsində işləyirik.

Sizin də qeyd etdiyiniz kimi gündəlik kifayət qədər genişdir. Orada nəqliyyat komponenti də var, bu gün onu da müzakirə edəcəyik. Ölkələrimizi və tərəfdaşlarımızı birləşdirən "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi yük daşımalarının təhlükəsizliyi baxımından və bir çox ölkələr arasında ticari münasibətləri stimullaşdırmaq üçün qlobal əhəmiyyətə malikdir.

Regional təhlükəsizlik məsələləri həmişə bizim görüşümüzün gündəliyindədir. Biz, həmçinin şadıq ki, onlar öz həllini tapır. Rusiya Qafqazda və daha geniş coğrafiyada regional təhlükəsizlik üzrə əsas ölkədir. Ölkələrimiz arasında əməkdaşlıqdan, qarşılıqlı fəaliyyətdən çox şey asılıdır. Biz qarşılıqlı fəaliyyət və qarşılıqlı maraqlar ruhunda etimad tədbirlərinin, əməkdaşlığın, qarşılıqlı anlaşmanın möhkəmləndirilməsinə və bütün məsələlərin nizamlanmasına çalışırıq.

Bugünkü görüşə görə bir daha minnətdarlığımı bildirirəm və əminəm ki, bu, münasibətlərimizin inkişafına yeni təkan verəcək.

Sağ olun.

**Prezident Vladimir Putin:** Sağ olun.

***



Aprelin 22-də Moskvada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Baykal-Amur Magistralının 50 illik yubileyi münasibətilə dəmir yolu sahəsinin veteranları və işçiləri ilə birgə görüşü keçirilib.

Görüşdə çıxış edən **Rusiya Prezidenti Vladimir Putin** dedi:

– Hörmətli İlham Heydər oğlu.

Əziz dostlar.

Yarım əsr əvvəl – elə bu günlərdə Baykal-Amur Magistral xəttinin tikintisinə başlanıldı. Bu, dünyanın ən böyük dəmir yolu arteriyalarından biridir, gə-



ləcəyin əsl yoludur. Təbii ki, bunu icra edənlərin, bu layihəni həyata keçirənlərin çoxu üçün, – o vaxt deyirdilər və indi də bunu təsdiq etmək olar, – BAM bütöv bir nəslin arzularının və romantik istəklərinin simvoludur.

BAM, həmçinin Sovet İttifaqının hər yerindən olan iki milyon gəncin nəhəng əməyinin və cəsarətinin təcəssümüdür. Onlar dünya tarixində tayı-bərabəri olmayan, hər mənada bənzərsiz bir layihə həyata keçirdilər.

Bu gün biz görürük ki, BAM əsasən XXI əsr üçün qlobal logistikanı müəyyən edir. Ölkəmiz Sibirin və Uzaq Şərqin mənimsənilməsi və inkişafı, Sakit Okeana doğru yük daşımalarının genişləndirilməsi üçün çox böyük imkanlar əldə etmişdir. Birbaşa deyə bilərik ki, indiki mərhələdə Şərqə dönüş məhz Baykal-Amur Magistralı sayəsində mümkün olmuşdur.

Görüşümüzün iştirakçılarını BAM-ın tikintisinə başlanması münasibətilə təbrik etmək istərdim. Burada, ilk növbədə, dəmir yolu sənayesinin, tikinti sənayesinin, dəmir yolu qoşunlarının veteranları haqqında danışmaq istərdim. Mən bu münasibətlə sizinlə həm çətinliyi, həm də qələbələri bölüşən, sizinlə hər şeyə sahib olan qohumlarınızı, yaxınlarınızı, dostlarınızı, həmkarlarınızı və xidmət yoldaşlarınızı təbrik etmək istəyirəm. İndi veteranlara müraciət edirəm, orada hər şey vardı, tonqallar ətrafında mahnılar oxunurdu, amma ən əsası, çətin və ağır zəhmət idi.

Göstərdiyiniz əmək şücaətinə, çətin vaxtlarda, keçən əsrin 90-cı illərində həyatınızın amalına sadiq qaldığınıza, əmək kollektivlərini qoruyub saxladığınıza, BAM-ın etibarlı işini təmin etdiyinizə görə hamınızın, sizinlə bərabər çalışan hər kəsin qarşısında baş əyirəm.

Bu gün BAM-da yaşayan və işləyən, qabaqcılların şanlı ənənələrini davam etdirən, bu ən mühüm dəmir yolu xəttinin yenidən qurulmasında, inkişafında və ona xidmət göstərilməsində iştirak edən hər kəsə ən səmimi sözlərimi ifadə etmək istəyirəm.

Bildiyiniz kimi, şücaətli əməyə görə təşəkkür və minnətdarlıq əlaməti olaraq, tikinti və dəmir yolu sənayesi veteranlarının və işçilərinin yüksək dövlət mükafatları ilə təltif edilməsi haqqında Fərman imzalanıb.

BAM-ın tikintisinə başlanmasının yarıməsrlik yubileyi münasibətilə Azərbaycan Prezidenti İlham Heydər oğlu Əliyevi şəxsən təbrik etməkdən çox məmnunam. Onun atası, – bunu bütün BAM inşaatçıları yaxşı bilir, – Heydər Əlirza oğlu BAM-ın tarixində müstəsna, böyük rol oynayıb. Heydər Əlirza oğlu SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində Baykal-Amur Magistralının tikintisinə rəhbərlik edir və bu çətin layihənin həyata keçirilməsi üçün əlindən gələni əsirgəmirdi.

Bu işdə ona böyük bilik və təcrübə, idarəçilik istedadı, ən mürəkkəb problemləri həll etmək bacarığı və əlbəttə ki, xüsusi şəxsi keyfiyyətlər, ilk növbədə, çalışdığı insanlara qayğıkeş, hörmətli münasibət kömək etdi

və o, bu nəhəng problemləri həll edə bildi. O, özü BAM-ın obyektlərində oldu, inşaatçılar, yeni qəsəbə və şəhərlərin sakinləri ilə söhbət etdi. Necə deyərlər, rahatlıqla ona yaxınlaşa, problemlərini danışa, cari məsələləri müzakirə edə bilərdin.

Bilirəm ki, bizim görüşümüzdə Heydər Əlirza oğlu ilə birlikdə çalışanlar da iştirak edirlər. Sizdən xahiş edərdim ki, mütləq xatirələrinizi bölüşəsiniz, Heydər Əlirza oğlunun həyatınızda oynadığı roldan danışasınız.

Onu da əlavə edim ki, Heydər Əlirza oğlunun dəstəyi ilə azərbaycanlı layihəçilər və inşaatçılar BAM-ın tikintisi zamanı stansiya kompleksləri olan iki qəsəbə - Ulkan və Anqoyanı salıblar və hazırda Xabarovsk diyarında və Yakutiyada Baykal-Amur Magistral xəttinin hissələrinin yenidən qurulması və müasirləşdirilməsində iştirak edirlər.

Rusiya-Azərbaycan əməkdaşlığının digər sahəsi bu gün BAM-ın miqyasına və tarixi əhəmiyyətinə uyğundur. Söhbət "Şimal-Cənub" nəqliyyat dəhlizinin inkişafından gedir. Əslində, o, Şimal dənizi marşrutunu Fars körfəzi ilə birləşdirir və ya demək olar ki, birləşdirə bilər və birləşdirməlidir.

Həqiqətən ümumittifaq tikinti layihəsinə çevrilən və bütün İttifaq respublikalarının mənafeyinə xidmət edən BAM kimi, "Şimal-Cənub" nəqliyyat dəhlizi də ən geniş beynəlxalq əməkdaşlığın nümunəsinə çevrilməlidir. Söhbət Avrasiya və qlobal Cənub ölkələrinin sürətli iqtisadi və sosial inkişafı məqsədilə yeni logistik marşrutların formalaşdırılmasından gedir.

Bir daha vurğulamaq istərdim, biz bütün maraqlı dövlətləri bu layihədə iştiraka dəvət edirik, gözləyirik ki, bu layihədə BAM inşaatçılarının – ümumi məqsədlərin birləşdirdiyi müxtəlif millətlərdən olan insanların ən yaxşı, zamanın sınanmış dostluq və qarşılıqlı yardım ənənələrindən mütləq istifadə ediləcək.

Biz öz tərəfimizdən tərəfdaşlarımıza Asiya-Sakit okean regionunun sürətlə inkişaf edən bazarlarına çıxış təklif etməyə hazırıq. Bu məqsədlə qabaqcıl texnologiyalar əsasında BAM və Trans-Sibir dəmir yollarının sürətlə modernləşdirilməsi, bütün Şərq poliqonu dəmir yolu xəttinin inkişafı planlarını həyata keçirmək niyyətindəyik.

Bu planların həyata keçirilməsi ölkəmizin birliyinin möhkəmləndirilməsi, siyasi və iqtisadi suverenliyimiz üçün böyük əhəmiyyət kəsb edir. Təsadüfi deyil ki, Rusiyanın Şərq sərhədlərinə kommunikasiya yollarının yaradılması ideyaları XIX-XX əsrlərin əvvəllərində görkəmli siyasətçilər və ictimai xadimlər tərəfindən irəli sürülüb.

Belə ki, 1908-ci ildə Pyotr Stolıpin o dövrdə həqiqətən parlamentin yuxarı palatası rolunu oynayan Dövlət Şurasının iclasında Amur dəmir yolunun tikintisi layihəsini müdafiə etdi, bunun sayəsində Trans-Sibir dəmir yolu tamamilə ölkəmizin ərazisindən keçdi.

Mən tam əminəm ki, Şərq poliqonunun inkişafı üçün yeni böyük vəzifələrə əsl döyüşçülər, məsələn, BAM komandası nail ola bilər. Bu, məqsədlərinə necə çatmağı bilən güclü xarakterə malik insanların xüsusi birliyidir.

BAM icmasının yaranmasına ürəkdən şadam. O, necə deyərlər, BAM-da iştirak edən hər kəsi - veteranları, Rusiyadan, keçmiş sovet respublikalarından və digər dövlətlərdən olan mütəxəssisləri birləşdirir. BAM inşaatçılarının dostluğunu canlandırmağınız və möhkəmləndirməyiniz, gənclərə insanların taleyindən, bu nəhəng layihənin şərəfli tarixindən danışmağınız və təbii ki, veteranlara yardım göstərməyiniz vacibdir.

BAM inşaatçılarını dəstəkləmək üçün təkcə ictimai səylər deyil, təbii ki, dövlətin konkret addımları da lazımdır. BAM inşaatçıları çox vaxt ağır şəraitdə – müvəqqəti daxmalarda və kazarmalarda yaşayırdılar. İndi, hazırkı mərhələdə bu, şübhəsiz ki, belə olmamalıdır.

Bununla əlaqədar qeyd etmək istərdim ki, Rusiya Federasiyası Hökuməti artıq Baykal-Amur Magistralının Tında, Severobaykalsk, Neryunqri, Komsomolsk-na-Amur kimi əsas şəhərlərinin hərtərəfli sosial-iqtisadi inkişafı planlarını təsdiq edib.

Söhbət onların nəqliyyat infrastrukturunun, mənzil-kommunal təsərrüfatının genişmiqyaslı yenidən qurulmasından və inkişafından, məktəblərin, xəstəxanaların, uşaq bağçalarının, idman obyektlərinin əsaslı təmirindən və tikintisindən gedir. Təbii ki, biz mütləq müasir evlər, yeni yaşayış binaları tikəcək, ümumilikdə bu gün BAM-da yaşayan və işləyənlər üçün layiqli şərait yaradacağıq.

Diqqətinizə görə çox sağ olun.

Sözü məmnuniyyətlə qonağımıza və dostumuza vermək istəyirəm. Buyurun, Azərbaycan Prezidenti İlham Əliyev, söz Sizindir.

***



**Prezident İlham Əliyev** çıxış edərək dedi:

– Möhtərəm Vladimir Vladimiroviç!

Əziz dostlar!

İlk növbədə, Vladimir Vladimiroviç, bugünkü tədbirdə iştirak üçün dəvətinizə görə Sizə təşəkkürümü bildirmək istərdim. Bu gün BAM-ı inşa edənlərin, həyatlarını, gəncliklərini Ümumittifaq tikintisinə həsr edənlərin əhatəsində olmaq mənim üçün böyük şərəfdir.

Habelə Baykal-Amur Magistralının inşasına başlanmasının 50 illiyi münasibətilə bütün inşaatçıları, mütəxəssisləri, bütün BAM-çıları təbrik etmək istərdim.

Vladimir Vladimiroviç qeyd etdi ki, bu tikinti Sovet İttifaqının bütün respublikalarını birləşdirib, bu, həqiqətən də belədir, onun Ümumittifaq tikintisi adlandırılması təsadüfi deyil. Biz, əlbəttə, fəxr edirik ki, Azərbaycan inşaatçıları və mütəxəssisləri də bu tikintidə fəal iştirak ediblər, Vladimir Vladimiroviçin qeyd etdiyi kimi, iki dəmir yolu stansiyasını inşa ediblər.

Əlbəttə, Heydər Əlirza oğlu Əliyevin xatirəsinə dərin ehtirama görə Vladimir Vladimiroviçə xüsusi təşəkkürümü bildirmək istərdim. Biz yaxşı bilirik ki, 2000-ci illərin əvvəllərində ölkələrimiz arasındakı dostluq və mehriban qonşuluq münasibətlərinin əsasını məhz Vladimir Vladimiroviç Putin və Heydər Əlirza oğlu Əliyev qoyublar. Vladimir Vladimiroviç 2001-ci ildə Azərbaycana səfər edib və bu, bizim bu gün birlikdə keçdiyimiz böyük yolun başlanğıcı olub.

Bu gün biz iki ildən artıqdır ki, müttəfiqlik qarşılıqlı fəaliyyəti çərçivəsində həyata keçirilən əməkdaşlığımızın bir çox planlarının icra edilməsi məsələlərini müzakirə etdik. Əlbəttə, Heydər Əliyev amili dövlətlərarası münasibətlərimizdə həmişə mühüm rol oynayıb və oynayacaqdır. Çünki o, Moskvada bu binada, Kremldə işlədiyi illərdə sovet dövlətinin və ona tapşırılan sahənin inkişafına rəvac vermək üçün böyük səylər göstərib. Onlardan biri də nəqliyyat sahəsi idi.

Biz, həmçinin BAM-çılara və inşaatçılara, Rusiyanın bütün nəqliyyatçılarına Heydər Əlirza oğlunun xatirəsini əbədiləşdirdiklərinə görə minnətdarıq – Anqoya qəsəbəsindəki vağzal onun adını daşıyır. BAM-çıların da yaxşı bildiyi kimi, o, Bratskdan Vladivostoka və Naxodkaya qədər çətin şəraitdə, demək olar ki, piyada, qatarla, vertolyotla uzun bir yol qət edərək, on gün ərzində BAM-çılarla sevincini və kədərini bölüşüb.

Onu da xatırlayıram ki, o, qayıdanda yalnız sovet dövlətinin həyata keçirə biləcəyi tikintinin miqyasından deyil, ilk növbədə, ən çətin şəraitdə, bəzən daim donuşluq içində olan keçilməz meşələrdə, yolsuzluq şəraitində həyatlarını riskə atan BAM-çıların fədakarlığından təsirlənmişdi. Çünki bu insanlar demək olar ki, hər gün şücaət göstərərək, möcüzələr yaradaraq, sovet dövlətinin və bu gün isə həm Rusiyanın, həm də qonşu ölkələrin gələcək inkişafının müqəddəratını əvvəlcədən təyin edərək, uzun illər - 50 il və ya daha çox müddət ərzində həm regional, həm də beynəlxalq əməkdaşlığın inkişafı işinə xidmət edəcək unikal infrastruktur nümunəsi yaratmağa müvəffəq olublar.

Heydər Əlirza oğlunun anadan olmasının 100 illiyinin qeyd edilməsinə görə Vladimir Vladimiroviçə və rusiyalı dostlarımıza minnətdarlığımı bildirmək istərdim. Ötən il Azərbaycanda və Rusiyada onun yubileyi xüsusi ehtiramla qeyd edildi. Bu, bizim ümumi tariximizdir, biz bunu çox yüksək qiymətləndiririk.

Bu gün sevindirici haldır ki, müasir Rusiya-Azərbaycan münasibətləri dostluq, qarşılıqlı anlaşma, qarşılıqlı dəstək və məqsədyönlülük kimi möhkəm təmələ əsaslanır. Bu gün biz, Vladimir Vladimiroviçin qeyd etdiyi kimi, təkcə böyük nəqliyyat layihələri həyata keçirmirik, həm də "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin yaradılmasında fəal iştirak edirik, həm iqtisadi, həm siyasi, enerji, humanitar və bir çox digər sahələrdə fəal əməkdaşlıq aparırıq.

"Şimal-Cənub" nəqliyyat dəhlizinə gəldikdə, bu gün Vladimir Vladimiroviçlə bu məsələni bir daha ətraflı müzakirə etdik. Hökumət üzvlərinə müvafiq təlimatlar verilib. Əminəm ki, yaxın vaxtlarda bütün məsələlər razılaşdırılacaq və biz daha bir möhtəşəm layihənin icrasına başlayacağıq.

Bildirməliyəm ki, Azərbaycan ərazisində Azərbaycan-Rusiya sərhədini Azərbaycan-İran sərhədi ilə birləşdirən dəmir yolu mövcuddur. Lakin yükgöndərənlərin tələbatları bizə bu yolun yeni hissələrinin inşa edilməsinin zəruriliyini diktə edir ki, biz bu yolda yük daşımalarını artıra bilək və bununla Şimaldan Hind okeanına unikal nəqliyyat yolunu təmin edək.

Bu tədbirdə iştirak etdiyim üçün bir daha minnətdarlığımı bildirmək, bütün BAM-çıları yubiley münasibətilə təbrik etmək, Azərbaycan, Rusiya və bütün MDB ölkələrinin inşaatçılarına yeni uğurlar və nailiyyətlər arzulamaq istəyirəm.

Təşəkkür edirəm.

***



**Prezident Vladimir Putin:** Yefim Vladimiroviç Basin SSRİ nəqliyyat tikintisi nazirinin müavini işləyib, o, Heydər Əlirza oğlu ilə də ünsiyyətdə olub, onunla görüşüb, faktiki olaraq birgə işləyiblər. Hazırda o, “BAM birliyi” ictimai təşkilatının prezidentidir.

**Yefim Basin** dedi:

– Çox sağ olun, hörmətli Vladimir Vladimiroviç! Hörmətli İlham Heydər oğlu!

Əvvəlcə “BAM birliyi” adından Prezidentimizə BAM-ın bərpasına görə minnətdarlığımı bildirmək istəyirəm. Bu tikinti həyatımızın ən vacib işidir. Siz təxminən belə də dediniz. BAM-dan həqiqətən də iki milyona yaxın insan keçib. Əsasən onlar bu böyük işdə iştirak etməyə cəhd göstərən gənclərdir. İnanılmaz səylərə və çətinliklərə, ekstremal şəraitə baxmayaraq yol tikildi. 1990-cı illərdə BAM-a “heç yerə getməyən yol” damğası vurulanda, biz bunu dəhşətli ədalətsizlik kimi qəbul etdik. Bu, olub. Buna görə də insanları dəstəkləmək üçün 25 il bundan əvvəl biz “BAM birliyi” ictimai təşkilatını yaratdıq, hansı ki, indi ölkənin 54 regionundan 50 mindən çox veteranı birləşdirir. BAM-ın inşasına başlanmasının 50 illiyinin qeyd olunması haqqında Fərmanınız isə insanlarda əvvəlki həvəsi oyatdı, yeri gəlmişkən, Siz də onun haqqında danışmısınız. Bu günlərdə hər yerdə veteranların gənclərlə, məktəblilərlə, tələbələrlə görüşləri keçirilir. Veteranlar BAM-ı necə tikdikləri və çətinliklərə necə sinə gərdikləri barədə danışırlar.

“Bamstroyput”, “Bamtransvzrıvprom”, “Bamstroymexanizasiya”, körpü dəstələri, mexanikləşdirilmiş kalonlar kimi məşhur trestlərimiz fəal işləyir, bu gün qonşum Ruslan Baysarovun rəhbərliyi ilə “Bamtonnelstroy-Most” artıq praktik olaraq Severomuysk tunelində, onun ikinci xəttində işlərə başlayır. Bu, çox vacibdir. İnsanlar inşaatçıların əmək şücaətinin unudulmadığına sevinirlər. BAM bizi nəhəng tikintilərin genişləndirilməsi təcrübəsi ilə zənginləşdirib. Biz körpülərin yüksək sürətlə tikintisi, daimi donuşluq şəraitində alt qatların doldurulması, – hətta o vaxtlar öyrənmək üçün bizə çinlilər gəlirdilər, - tektonik qırılmalar və güclü su axınları şəraitində tunellərin keçməsi təcrübəsini inkişaf etdirmişik. BAM-ın inkişafı üçün genişmiqyaslı layihə ilə bağlı qərarınızı hamımız böyük həvəslə qəbul etdik.

Bu gün magistral yolda iş aşıb-daşır. Magistral ikiyollu olacaq. Alternativ tunellər tikiləcək. Təəssüf ki, çox vaxt itirildi. Ancaq ümid edirəm ki, Şərq poliqonunun inkişafı məsələsi yalnız yollar şəbəkəsi ilə bitməyəcək. Axı, BAM zonasının inkişafı üçün çox böyük iş görməliyik, bu isə Rusiyanın təbii ehtiyatlarının üçdəbiridir, tam Mendeleyev cədvəlidir. Eyni zamanda, şübhəsiz, Şimal ekstremal şəraitindəki tikinti təcrübəmizə də tələbat olacaq. BAM-ın ümumxalq tikintisi adlandırılması təsadüfi deyil. Onun tikintisində həqiqətən də bütün ölkə iştirak edib. BAM-da tikilmiş 60 stansiyaətrafı qəsəbənin yarısından çoxu Rusiyanın və Azərbaycan da daxil olmaqla, demək olar ki, bütün sovet respublikalarının müxtəlif böyük şəhərlərinin nümayəndələri tərəfindən inşa olunub.

Hökumət tərəfindən, artıq dediyiniz kimi, tikintiyə Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əlirza oğlu Əliyev nəzarət edirdi. O, möhkəm iradəli, böyük erudisiyaya malik və səriştəli bir insan idi. O, mənim taleyimdə də əhəmiyyətli rol oynayıb. Mənim taleyimdə o, BAM-ın tikinti rəisi – SSRİ nəqliyyat tikintisi nazirinin müavini vəzifəsinə təyin edilməyimdə də mühüm rol oynayıb. Heydər Əliyevin BAM-a gəlişini dəqiq

xatırlayıram. 1984-cü ilin iyun ayı idi. Bu, bütün BAM boyu "qızıl birləşmənin" ərəfəsi ili idi. Gərginlik pik nöqtəsinə çatmışdı. İvan Varşavski və Aleksandr Bondarın rəhbərlik etdikləri bütün briqadalar bir-biri ilə qarşılaşmağa tələsirdilər. Lakin onların yolunda, xüsusən, böyük körpülər və tunellər kimi bir çox maneələr var idi. Məhz bu problemlərin həlli üçün Heydər Əlirza oğlu Əliyev BAM-a gəldi. Təxminən on gün bizimlə bir yerdə qaldı. Bu səfər zamanı o, məni tikintisi o vaxt cədvəldən geri qalan Kodar tunelinin vəziyyətini öyrənmək üçün iki baş idarənin rəisi ilə birlikdə vertolyotla həmin əraziyə göndərdi. Obyektin işə salınmasına cəmi altı ay qalmışdı. Biz tunelin sonuna çatmağa müvəffəq olduq, geri qayıdanda isə onun tavanı çökdü. Məsələ orasındadır ki, tunel daimi donuşluq şəraitində inşa edilmişdi. Təəssüf ki, tuneli inşa edənlər qazma işlərində irəliləsələr də, tunelin çuqun tubinqlər qoyulması işində yubanmışdılar.

Təbii ki, biz vəziyyət barədə Heydər Əlirza oğluna məlumat verməli olduq. Gözləntilərimizin əksinə olaraq, o, yaranmış vəziyyəti sakit şəkildə qəbul etdi. Təkcə bunu dedi: "Yaxşı, burada Kodar tunelinə gedən kəsə yol inşa etmək lazımdır". Yadımdadır, Heydər Əlirza oğlu 15 kilometrlik tunelin girişinin necə çəkildiyini qiymətləndirmək üçün Severomuysk tunelinə enmişdi. Bundan sonra, o, mürəkkəbliyinə görə unikal olan bu obyektin inşası ilə bağlı ən aktual məsələlərin həll olunduğu böyük bir iclas keçirmişdi. Aydın idi ki, 1989-cu ilədək, yəni, Baykal-Amur Magistralının istismara verildiyi ilə qədər tuneli tikmək mümkün olmayacaq. Buna görə 18 minlik yamacı olan ikinci kəsə tunelin inşa edilməsinə qərar verildi. Mən bu keçidi kiçik BAM adlandırıram. Çünki dağ şəraitində təkcə 64 kilometrlik yol çəkmək yox, həm də yeni iki tunel və 12 körpü, o cümlədən sonradan sürücülərin "Şeytan körpüsü" adlandırdıqları 30 metr hündürlüyündə körpü inşa etmək lazım idi. Lakin bu qərar bizə 1989-cu ilin oktyabrına qədər bütün BAM-ı vaxtında daimi istismara verməyə imkan yaratdı. Daha doğrusu, bu, dahiyanə qərar idi.

Azərbaycanlı mütəxəssislər, İlham Heydər oğlunun dediyi kimi, BAM üzərində iki gözəl qəsəbə tikdilər. Amma əsas odur ki, onların memarlığı Azərbaycan milli üslubunda hazırlanıb. Bu qəsəbələr Ulkan və Anqoyadır. 2008-ci ildə Anqoya stansiyasındakı vağzala Heydər Əlirza oğlu Əliyevin adı verilib. Bu gün də həmin lövhə stansiyanı bəzəyir.

Bu heyrətamiz insanın portretinə daha bir cizgi əlavə etmək istəyirəm. Azərbaycan BAM-dakı mütəxəssislərinə verdiyi vədi yerinə yetirən yeganə respublikadır - tikinti başa çatdıqdan sonra ölkə onları mənzillə təmin edib. Bu, bizim üçün çox vacibdir. Bu gün Prezidentin özünün də dediyi kimi, veteran BAM-çıların yaşayış şəraitinin yaxşılaşdırılması üçün dövlət tərəfindən bundan sonra da tədbirlərin görülməsi xəbəri, həqiqətən də insanlarımız tərəfindən daha böyük coşqu ilə qarşılanacaq.

Heydər Əliyev bunu da, bu insanları da unutmurdu. Onun adı xalqlarımızın dostluğunun rəmzinə çevrilib. Bu gün də BAM-ın bütün inşaatçıları adından mən onun oğlu, Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlunu və əlbəttə ki, Vladimir Vladimiroviç, Sizi iyulun 8-də BAM-ın paytaxtı Tındada onun 50 illik yubileyinin qeyd olunması mərasimində iştirak etməyə dəvət etmək istərdim. Düşünürəm ki, həmin vaxta qədər Siz Severomuysk tunelinin tikintisi işlərinə başlaya bilərsiniz. Bu, möhtəşəm hadisə olacaq. Orada - Tındada, BAM inşaatçılarına gözəl, müsabiqədə birinci yerə layiq görülmüş çox yaxşı bir abidə qoyulacaq. Yeri gəlmişkən, Moskvada merin qərarı ilə üç vağzalın ərazisindəki meydan BAM inşaatçıları meydanı adlandırılıb. Çünki ilk komsomolçular birbaşa komsomolun 17-ci qurultayından sonra bu meydandan, bu vağzallardan BAM-a yola düşürdülər. Onların bir çoxu burada, bu masanın ətrafında əyləşiblər.

Çox sağ olun.

***

**Prezident Vladimir Putin:** Təşəkkür edirəm, Yefim Vladimiroviç.

İki dəfə Rusiya Federasiyasının nəqliyyat yolları naziri olmuş Gennadi Matveyeviç Fadeyev də BAM ilə birbaşa əlaqəsi olan şəxsdir. Buyurun, Gennadi Matveyeviç.

**Gennadi Fadeyev** dedi:

– Yubilyara – Baykal-Amur Magistralına həsr olunmuş belə qeyri-adi görüşdə iştirak etmək imkanı yaradıldığına görə Sizə təşəkkür edirəm. Əvvəlcə nə demək istərdim? İnsanlar mənə "BAM nədir" sualını verəndə, mən belə



cavab verirəm: "BAM insanlar deməkdir. BAM tikinti sərəncamlarını imzalayan insanlardır. Onlar böyük insanlardır. BAM, tikinti üçün birbaşa şərait yaradan insanlardır. BAM, təbii ki, tikinti işlərini görən insanlar deməkdir. Yəni, BAM, ilk növbədə, məhz bu deməkdir". Onu vurğulamaq istəyirəm ki, biz Heydər Əlirza oğlu haqqında danışanda insanlarda belə bir təəssüratın yarandığını görürük: o, insanları çox sevən insan idi. O, kilometrlərlə deyil, tonlarla deyil, talelərlə, BAM-çıların bu və ya digər müddət ərzində işlədiyi şəraitlə maraqlanırdı. O, heyrətamiz rəhbər idi. Yalnız hansısa yekun məqamda o, təkrarən zəruri mövzuya yenidən qayıdar, işin daha səmərəli olması üçün sabah nə ediləcəyini və digər məsələləri düşünərdi.

Onunla şəxsən tanış olmaq şərəfinə nail olmuşam. Məsələ Nəqliyyat Yolları Nazirliyindəki kadrlarla bağlı idi. O, nəqliyyat sahəsinə də rəhbərlik etdiyi üçün məni onun yanına göndərdilər. Biz burada, Kremldə əyləşmişdik. İnsana dövlət məmuru kimi yox, məhz əsl insan kimi yanaşırdı, nə üçün gəldiyini, narahatlığının nədən ibarət olduğunu soruşurdu, insanla həqiqətən maraqlanırdı. O, vəziyyəti xəbər almağa başladı, - mən o vaxt nazir müavini vəzifəsində idim, – şəbəkədə vəziyyət necədir? Sonra isə dedi: "Partiyanın Mərkəzi Komitəsi Nəqliyyat Yolları Nazirliyi rəhbərliyinin gücləndirilməsi barədə qərar qəbul edib və sizə nəqliyyat yolları nazirinin birinci müavini vəzifəsi təklif olunur". Təbii ki, mən ona təşəkkür etdim. O, sözünə davam edərək dedi: "Siz yarım ildir ki, nazir müavini işləyirsiniz, bu məsələləri həll edə bilmisiniz və ümid edirik ki, siz bundan əlavə, daha çox iş görəcəksiniz". Ona söz verdim ki, çalışacağam. Həmin il şəbəkəyə 4 milyard 100 milyon ton yük daxil oldu. Belə bir hal heç vaxt olmamışdı. İndi Sovet İttifaqı yoxdur, amma necə işləmək lazım olduğuna dair təlimatlar artıq o dövrdə müəyyən edilmişdi.

Baykal-Amur Magistralının tikintisinə kimin daha çox töhfə verdiyi barədə danışanda, əlbəttə ki, orada bir çox mütəxəssisin, alimin və digərlərinin çalışdığından bəhs edirik. Ancaq təcrübəm, həyat yolum onu deməyə imkan verir ki, Heydər Əlirza oğlu BAM-a nəzarət edən rəhbərlərin ən yaxşısı idi. O, mahiyyət etibarilə, BAM-ın həyata keçirilməsinə nail oldu. O illərin necə çətin olduğunu xatırlayarsınız, həmin çətin illərdə belə bir tikinti sahəsinə rəhbərlik etmək böyük hünər idi. Onu da vurğulamaq istəyirəm ki, inşaatçılar özləri də başa düşürdülər, maaş almadıqlarına görə işdən çıxsalar, Severomuysk tunelində qarşısıalınmaz proseslər baş verə bilər. O vaxt ən çətin dövr idi. Yekdil olmaq, bir-birini anlamaq lazım idi. Tikintidə iş davam edirdi. Demək istəyirəm ki, ölkəmizin Prezidenti Vladimir Vladimiroviç Federal Məclisə göndərdiyi məktubda Baykal-Amur Magistralının üçüncü mərhələsinin obyektlərini bir-bir sadalayıb. Bu, bir möcüzədir, mahiyyət etibarilə, Severomuysk, Kuznetsk, Kodar tunellərinin, Komsomolsk yaxınlığında Amur üzərindəki ikinci dəmir yolu körpüsünün eynisidir. Məktubdan bir gün sonra Oleq Valentinoviç Belozerov məni telefonla baş podratçı ilə işə başlamaq barədə müqavilə imzalamağa dəvət edəndə inanmadım. Bu təcrübəmlə, yaşımla belə bir təəssürat yaşadım ki, mən xoşbəxt insanam, bunu da görmək mənə nəsib oldu. Müqaviləni imzalamaq üçün gələndə və Ruslan Baysarovla yaxından tanış olanda ona dedim: sinəmdə "Fəxri dəmiryolçu" nişanı gəzdirirəm, işin qrafikə uyğun təhvil verilməsi üçün zaman məhdudiyyətinə, keyfiyyətə və digər amillərə görə böyük məsuliyyət daşıyacağını bildiyin halda bu obyektlərə getməklə bağlı cəsarətli qərar verdiyin üçün indi onu sənə verəcəyəm.

Zənnimcə, bu, çox böyük hadisədir. Severomuysk tuneli 26 ilə inşa edildiyi halda, o, bu işi 6-10 il ərzində görməyə hazır olduğunu deyirsə, onun və inşaatçıların qarşısında baş əymək lazımdır. Mən başa düşürəm ki, Prezidentimiz bütün iştirakçıların işin icrasına nə qədər hazır olduqlarını və bunun üçün onlara nə lazım olduğunu yoxlamaq üçün xüsusilə belə edib. Zənnimcə, Prezidentimizin həmkarının - Prezident Əliyevin iştirakı ilə keçirilən bu görüş çox gözəldir, məsuliyyətlidir, burada məhz işinin ustası olan məharətli insanlar toplaşıblar.

İki ölkənin prezidentləri ilə görüş gününün əlamətdar olduğunu vurğulayan Gennadi Fadeyev dost Azərbaycan Respublikasının Baykal-Amur Magistralının yaradılmasına və inkişafına böyük töhfə verdiyini vurğulayaraq dedi: Azərbaycan da, insanları da gözəldir. Hamı oraya artıq böyük maraqla getməyə başlayıb. Bu, əladır. "Şimal-Cənub" layihəsinə gəldikdə isə mən əminəm ki, iki ölkə prezidentlərinin böyük səyləri və imkanların birləşdirilməsi sayəsində bu layihə icra olunacaq.

Mən ayrıca olaraq, Sizə müraciət etmək istərdim, İlham Heydər oğlu, Vətənə qayıdanda atanızın ruhu qarşısında baş əyin və ona çatdırın ki, biz onu sevirik, onu hörmətlə yad edirik. Bugünkü görüş və gələcək işlər üçün Sizin qarşınızda ehtiramla baş əyirəm.

***

**Prezident Vladimir Putin:** Mən giriş nitqimdə hərbi inşaatçılar haqqında da bəhs etdim. Sergey Aleksandroviç, Şərq hərbi dairəsinin 50-ci ayrıca dəmir yolu briqadasının komandiri.

**Sergey Vasilyanov** dedi:

-Yoldaş Rusiya Federasiyası Silahlı Qüvvələrinin Ali Baş Komandanı.

Hörmətli İlham Heydər oğlu.



Uzaq 1984-cü ildə briqadamızın hərbi dəmiryolçuları Vətənin fəxri tapşırığının icrasına – Baykal-Amur dəmir yolu magistralının Şərq hissəsinin tikintisinə ilk başlayanlardan oldular. Şəxsi heyətin gündəlik əməyi cəsarət, əzmkarlıq və qəhrəmanlıq nümunəsi idi. Vəzifələrini şərəflə yerinə yetirdikləri sərt iqlim, yolsuzluq, çətin şərait onları ciddi imtahana çəkdi, peşəkar bacarıqlarının və ən yaxşı insani keyfiyyətlərinin ciddi sınağı oldu. Bütün çətinliklərə baxmayaraq, briqada BAM stansiyasından Tında stansiyasına qədər Baykal-Amur dəmir yolu magistralı sahəsinin inşası, Şimanov zavoduna giriş yollarının tikintisi və Uzaq Şərqin dəmir yolu kommunikasiyalarının inkişafı ilə bağlı üzərinə düşən vəzifələri şərəflə yerinə yetirdi. 1984-cü ildə Heydər Əlirza oğlu Əliyev dəmir yolu hərbçilərinə tapşırılmış Şərq hissəsindən keçərək inşaat işlərinin təhvil alınmasında iştirak edib. Sərt iqlim şəraitində tikintinin təşkilində qazanılmış təcrübədən bu günlərdə də Baykal-Amur dəmir yolu magistralının Ulak-Fevralsk sahəsində yenidənqurma işləri zamanı briqadanın şəxsi heyəti tərəfindən geniş istifadə edilir. Bu, bizim üçün böyük şərəf və ciddi məsuliyyətdir. Biz öz əməyimizlə yaşlı nəsillərin işini davam etdiririk. İcazə verin, Sizi əmin edək ki, bundan sonra da mənə tapşırılmış birlik qarşıya qoyulmuş vəzifələri şərəflə yerinə yetirəcək və gərgin əməyi ilə nəhəng Rusiyanın qüdrətinə töhfəsini verəcək.

***

**Prezident Vladimir Putin:** BAM gənclərin çalışdığı yer idi. Ancaq əslində, indi də bu miqyasda olan layihələr mahiyyətcə eynidir. Gənclər əsasən işləyirlər və belə böyük perspektivlər, platformalar və layihələr yaradırlar. Uşakova Viktoriya Aleksandrovna, İrkutsk Dövlət Nəqliyyat Yolları Universitetinin tələbəsi, buyurun.

**Viktoriya Uşakova** dedi:



– Hörmətli Vladimir Vladimiroviç, İlham Heydər oğlu, Siz dediyiniz kimi, mən İrkutsk Dövlət Nəqliyyat Yolları Universitetinin tələbəsiyəm və bu gün mən təkcə Rusiya tələbələrini deyil, həm də Rusiyanın tələbə dəstələrini təmsil edirəm. Əvvəlcə, Sibir, İrkutsk bölgəsi və Rusiya tələbələri adından inkişaf etmək və hər zaman daha çox səy göstərmək imkanlarının yaradılmasına görə təşəkkür edirəm. Etimadınıza görə Rusiya tələbə dəstələri adından minnətdarlığımızı bildirirəm. Çünki ölkəmizin ən vacib strateji obyektini gənclərə həvalə etmək asan iş deyil. Artıq üçüncü ildir ki, "BAM 2.0" Ümumrusiya Tələbə Əmək Layihəsi çərçivəsində Baykal-Amur Magistralının tikinti obyektlərində işgüzar bacarıqlarımızı sübuta yetiririk. Axı, biz iş adamlarıyıq. Biz gəncik və gələcək bizimlədir. Vladimir Vladimiroviç, icazə verin, bütün tələbələri, o cümlədən tələbə dəstələrinin cəsur üzvlərini maraqlandıran bir sual verim. Bilirəm ki, siz də vaxtilə tələbəlik illərində "Femida" tələbə dəstəsinin üzvü olmusunuz. Mənim üçün çox maraqlıdır, indi tələbə olsaydınız, bizimlə BAM-a gedərdinizmi?

**Vladimir Putin:** Tələbə olmağı çox istərdim. Əgər tələbə ola bilsəydim, BAM haqqında eşitdiklərimdən sonra böyük məmnuniyyətlə oraya gedərdim.

**Viktoriya Uşakova:** Sağ olun.

***

Sonda xatirə şəkilləri çəkdirildi.





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına işgüzar səfəri aprelin 22-də başa çatmışdır.

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Almaniyaya işgüzar səfər edib





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Almaniya Federativ Respublikasının Federal Kansleri Olaf Şoltsun dəvəti ilə "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində iştirak etmək üçün aprelin 25-də Füzuli şəhərindən Almaniyaya işgüzar səfərə gedib.

Berlin şəhərinin Brandenburq "Willy Brandt" Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Almaniyanın paytaxtı Berlində keçirilən "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində iştirak edib.





Azərbaycan Prezidenti İlham Əliyevi Almaniyanın Federal Kansleri Olaf Şolts və xarici işlər naziri xanım Annalena Berbok qarşıladılar.

Sonra tədbir iştirakçıları birgə foto çəkdirdilər.







**Aparıcı:** İndi isə biz Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevin çıxışını dinləyəcəyik.

## Prezident İlham Əliyevin çıxışı




– Hörmətli cənab Kansler.

Hörmətli xanım nazir.

Xanımlar və cənablar.

Əvvəlcə, “Petersberq Dialoqu”nda iştirak etmək üçün məni dəvət etdiyinə görə cənab Kanslerə təşəkkürümü bildirmək istəyirəm. Bu gün burada sizinlə olmaq böyük şərəfdir. COP29-a ev sahibliyi edəcək ölkə kimi Azərbaycan qlobal tədbirə hazırlığın fəal mərhələsindədir. Hazırlıq üçün bizim bir ildən də az vaxtımız qalırdı. Beləliklə, biz yaxşı nəticələrə nail olmaq üçün əlimizdən gələni edirik.

COP29-a ev sahibliyi edəcək ölkə kimi yekdil qərarla seçilmək bizim üçün həqiqətən böyük şərəfdir. Biz bunu beynəlxalq ictimaiyyətin Azərbaycana və gördüyümüz işlərə, o cümlədən yaşıl enerji sahəsindəki fəaliyyətimizə hörmətinin əlaməti hesab edirik. Nəhayət bu, böyük məsuliyyətdir, çünki biz nəinki yaxşı tədbir təşkil etməli, o cümlədən yaxşı nəticələrə nail olmalıyıq. Hesab edirəm ki, Azərbaycanın müxtəlif beynəlxalq təşkilatlarla beynəlxalq əlaqələri və onlarda fəal iştirakı bizə müxtəlif qitələrin ölkələri arasında körpülər salmaq və ya onları gücləndirmək, eləcə də onların həmrəyliyini möhkəmləndirmək imkanını yaradacaq.

Bunları söyləyəndə, mən 120 ölkəni birləşdirən hərəkatda, yəni Qoşulmama Hərəkatında bir neçə il – dörd il ərzində sədrliyimizi nəzərdə tuturam. Biz yekdil qərarla seçildik və sədrliyimiz yekdil qərarla bir il də uzadıldı. Sədrliyimiz zamanı biz Hərəkatın bir çox üzvləri ilə olduqca məhsuldar münasibətlər qurduq. Sədrliyimiz COVID-19-a təsadüf etdi. Beləliklə, biz çox məsuliyyətlə davrandıq və 80-dən artıq ölkəyə humanitar, maliyyə və texniki yardım göstərdik. Bir sözlə, ümid edirəm ki, həmin beynəlxalq platforma bizə Qlobal Cənub ölkələrini ümumi gündəliyə əlavə etmək imkanını yaradacaq. Eyni zamanda, bir çox Avropa ölkələri ilə münasibətlər uğurla inkişaf edir. Avropa İttifaqının doqquz üzvü ilə Azərbaycan “Strateji Tərəfdaşlıq” haqqında razılaşmalar və bəyannamələr imzalayıb, yaxud qəbul edib. Bunları söylədikdə, ümid edirəm ki, həmin beynəlxalq əlaqələr bizə həmrəyliyi gücləndirməyə imkan verəcək. Bizə məhz bu lazımdır. Bizə maliyyə lazımdır. Bizə həmrəylik lazımdır və bizə ortaq məsuliyyət lazımdır.

Azərbaycan faydalı qazıntı ilə zəngin olan ölkə kimi OPEC+ platformasının üzvüdür. Hesab edirəm ki, bu, həmçinin əlavə üstünlükdür, çünki təbii sərvətləri, xüsusən də neft və qazı zəngin olan ölkə iqlim dəyişmələri məsələlərinin həllində ön cərgədə olmalıdır. Beləliklə, həmin müxtəlif rollar, fikrimcə, yaxşı həmrəylik ruhunu yaradacaq və bizə məqsədlərimizə nail olmağa imkan verəcək. COP-a ev sahibliyi edəcək ölkə kimi seçilməyimizdən dərhal sonra bəzi mətbuat orqanları əsas diqqətini bizim enerji quruluşumuza və enerji tarixçəmizə yönəltdilər. Mən hər zaman demişəm ki, neft və qaz ehtiyatları bizim günahımız deyil. Bu, Tanrıdan verilən



vəsilədir. Buna görə biz mühakimə olunmalı deyilik. Biz həmin ehtiyatların ölkənin inkişafına, yoxsulluğun və işsizliyin azaldılmasına, yaşıl gündəliklə bağlı tutduğumuz hədəflərə yönəldilməsinə görə dəyərləndirilməliyik.

Neft və qazımız, həmçinin Avropa bazarlarına hələ uzun illər ərzində lazım olacaq. 2022-ci ildə Avropa İttifaqı və Azərbaycan arasında enerji sahəsində Strateji Tərəfdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb və bizim Avropa İttifaqına təbii qaz təchizatımız artmaqdadır. Bu, Avropa Komissiyasının xahişi idi. Biz buna müsbət cavab verdik. Hazırda təbii qaz ixracımızın yarısı, xüsusən də 12 milyard kubmetri Avropa İttifaqının bazarına gedir. Qeyd edilən Memoranduma əsasən, 2027-ci ilə qədər Avropa İttifaqına ixracımız 20 milyard kubmetrə çatmalıdır. Hamımız anlayırıq ki, bu geosiyasi durumda həmin məsələ Azərbaycanın məsuliyyətli olmağının təzahürüdür, çünki biz qaz hasilatımızın artırılmasına böyük həcmdə sərmayə yatırırıq və Avropaya yeni mənbələrdən daha çox qaz lazımdır. Eyni zamanda, yaşıl gündəliyimiz hələ COP29 qərarından əvvəl icra olunmağa başlanıb.

Biz xarici tərəfdaşlar və sərmayədarlarla yaşıl keçid üzrə artıq nəhəng layihələrə başlamışıq. Bu il Azərbaycanda “Yaşıl dünya naminə həmrəylik ili” elan edilib. Yalnız bu il ərzində 1300 meqavat Günəş və külək enerjisini istehsal etmək imkanını yaradacaq enerji stansiyalarının təməlqoyma mərasimi keçiriləcək. 2027-ci ilin sonuna qədər ümid edirik və əslində, müqavilələr imzalandığına görə əminik ki, 2000 meqavat Günəş və yaşıl enerji imkanlarımız olacaq. Doqquz elektrik enerjisi stansiyası olacaq və 2030-cu ilə qədər əlavə 10 Günəş və külək enerjisi stansiyaları qurulacaq ki, onların gücü 5000 meqavat (5 qiqavat) təşkil edəcək. Bu potensialdan istifadə edərək, biz qaz istehlakımızı əksər hissədə elektrik enerjisi istehsalı ilə əvəzləyəcəyik. Həcmlərə gəldikdə isə düşünürəm ki, Avropaya ən azı əlavə 5 milyard kubmetr qaz ixrac olunacaq. Bir sözlə, bu, əslində, hər kəs üçün uduşlu variantdır. Biz olduqca münbit sərmayə mühitini yaratmışıq. Qeyd etdiyim bütün həmin yaşıl enerji layihələri xarici sərmayədarlar tərəfindən maliyyələşdirilir.

Azərbaycan, sadəcə, öz infrastrukturunu və çox yaxşı sərmayə mühitini təmin edir. Biz Avropaya lazım olan böyük həcmdə təbii qaza qənaət edəcəyik. Eyni zamanda, hazırda Xəzərdə külək enerjisi stansiyalarından Avropaya vahid ötürülmə xətlərini, o cümlədən Qara dənizin dibi ilə kabeli çəkmək üçün texniki əsaslandırma işlərinin son mərhələsindəyik. Bu, dörd qiqavat həcmində Azərbaycanın yaşıl enerjisini Avropaya ixrac etmək imkanını yaradacaq. Dənizdə külək enerjisinin təsdiqlənmiş ehtiyatlarımız 157 qiqavatdır. Bu, potensialın təzahürüdür. Uzun illər külək Bakı sakinləri üçün müəyyən narahatlıq yaradırdı. Lakin indi külək enerjisi böyük işlər, əməkdaşlıq və tərəfdaşlıq şəraitini yaradacaq və enerji təhlükəsizliyini gücləndirəcək. Bir sözlə, yekun fikrim ondan ibarətdir ki, enerji təhlükəsizliyi birmənalı olaraq ölkələrin milli təhlükəsizlik məsələsi hesab edilməlidir. Ayrı-seçkilik olmamalıdır. Faydalı qazıntı ilə zəngin olan ölkənin rəhbəri kimi, əlbəttə ki, biz həmin ölkələrin sərmayəni və hasilatı davam etdirmək hüququnu müdafiə edəcəyik, çünki dünyanın buna ehtiyacı var. Lakin, eyni zamanda, artıq qeyd etdiyim kimi faydalı qazıntısı olan ölkələr iqlim dəyişmələri məsələlərinə aid həmrəyliyi nümayiş etdirən ölkələr sırasında olmalıdırlar.

Cənab Kansler, xanım nazir, dəvətə görə bir daha minnətdaram. Sizin aranızda olmaqdan böyük şərəf və iftixar hissi duyuram. Sizə uğurlu müzakirələr arzulayıram. Sağ olun.




Sonra **Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts** çıxış edərək dedi:

– Hörmətli cənab Prezident Əliyev. Mən Sizi növbəti İqlim Konfransının təşkilatçısı, bizim qonağımız kimi salamlamaqdan məmnunam.

Hörmətli xanım Annalena Berbok, cənab nazirlər.

Xanımlar və cənablar, sizin hamınızı Berlində salamlamaqdan çox məmnunam.

Kansler Olaf Şolts Berlində keçirilən "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentinin iqlim dəyişikliyi ilə bağlı qarşıda duran vəzifələrin həlli baxımından mühüm əhəmiyyətini vurğuladı. O, yaşıl enerjiyə keçidlə bağlı bütün ölkələrin səyləri birləşdirməsinin vacibliyini xüsusi diqqətə çatdırdı. Artıq həmin istiqamətdə 78 dövlətin konkret iş birliyi yaratdığını dedi.

Olaf Şolts Dubayda keçirilmiş COP28-dən sonra bu sahədə məqsədyönlü tədbirlərin daha da gücləndirildiyini bildirərək dedi:

– Biz buradan Dubayda keçirilmiş beynəlxalq İqlim Konfransının uğurlarına boylanırıq. Eyni zamanda, biz səy göstəririk ki, bu ilin noyabrında Bakıda, gələn il isə Belemdə keçiriləcək konfranslarla bugünkü konfransın uğurunu əlaqələndirək. Bizim məqsədimiz "Petersberq İqlim Dialoqu" vasitəsilə buna töhfə verməkdir.

Almaniyanın Kansleri iqlim dəyişikliyi ilə bağlı 2030-cu ilə qədər dünyada əsaslı irəliləyişə nail olunacağına əminliyini vurğuladı. O, qarşıda duran vəzifələrin həlli üçün Azərbaycanda keçiriləcək COP29-a qədər də ardıcıl iş aparılacağını vurğulayaraq bildirdi:

– Birləşmiş Ərəb Əmirlikləri, Azərbaycan və Braziliya birlikdə "üçlük" olaraq öz qarşılarına məqsəd qoyublar ki, COP29 və COP30 istiqamətində milli səviyyədə müəyyən edilmiş töhfələrin birgə təqdim olunması üçün fəaliyyət göstərsinlər. Məhz bu istiqamətdə olan format uzunmüddətlidir və mən bunu alqışlayıram. Federal hökumət bütün gücü ilə bunu dəstəkləyəcək. Xanımlar və cənablar, Almaniya artıq bu istiqamətdə kurs götürüb.

Kansler Olaf Şolts iqlim dəyişikliyi ilə bağlı tədbirlərin lazımınca həyata keçirilməsi üçün ilkin hesablamaya görə təqribən 2,4 trilyon dollar vəsaitin lazım olacağını bildirdi. O, yaşıl texnologiyalara keçid və qarşıda duran digər çoxsaylı vəzifələrin öhdəsindən bacarıqla gəlmək üçün birgə səyləri daha da gücləndirməyin zəruriliyini bildirərək vurğulayıb:

– Bakıda keçiriləcək konfransda 2025-ci ildən sonra da iqlimin maliyyələşdirilməsi əsas danışıqlar predmeti olaraq qalacaq. On beş il bundan əvvəl olduğu kimi, biz artıq gələcəyin texnologiyasından qoşqu kimi istifadə etmirik. Biz artıq nail olmuşuq ki, texnologiyaların qlobal səviyyədə maliyyələşməsi, yayılması mümkün olsun, özü də mümkün münasib qiymətlərlə.

***

Aprelin 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Berlində Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts ilə təkbətək görüşü olub.





Aprelin 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Berlində Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts ilə geniş tərkibdə görüşü keçirilib.



***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts aprelin 26-da birgə mətbuat konfransı keçiriblər.



Əvvəlcə Almaniya Kansleri bəyanatla çıxış etdi.

## Kansler Olaf Şoltsun bəyanatı



– Hörmətli cənab Prezident, Berlinə xoş gəlmisiniz.

Mən Sizi bizim hər ikimizin elə indicə iştirak etdiyimiz "Petersberq İqlim Dialoqu" münasibətilə buraya təşrif buyurduğunuza görə təşəkkür edirəm və salamlayıram.

Siz son 14 ay ərzində Almaniyaya dörd dəfə səfər etmisiniz. Sonuncu dəfə fevral ayında Münxen Təhlükəsizlik Konfransına gəlmişdiniz. Bu, onu göstərir ki, bizim müzakirə edəcəyimiz mövzular çoxdur, bu gün olduğu kimi. Təbii ki, biz xüsusən də Ermənistan və Azərbaycan arasında mövcud olan münaqişə haqqında da söhbət etdik. Hər ikimiz eyni fikirdəyik ki, bu münaqişə ancaq sülh yolu ilə həll olunmalıdır. Bunun üçün şanslar mövcuddur. Ona görə də çox gözəl bir amildir ki, Siz hazırda baş nazir Paşinyanla birbaşa əlaqədəsiniz. Münxendə bizim sonuncu görüşümüz çərçivəsində hər ikiniz məni əmin etdiniz ki, açıq olan suallar öz həllini yalnız sülh yolu ilə tapacaq. Bu, məni sevindirir.

Mən icazənizlə, bir daha onu bildirmək istəyirəm ki, Almaniya sizi məsələnin uzunmüddətli və davamlı həllinin tapılmasında dəstəkləməyə hazırdır, əgər siz hər ikiniz bunu istəyirsinizsə. Mən hər iki tərəfi həvəsləndirmək istərdim ki, lazımi kompromislər üçün istək və cəsarət göstərəsiniz. Mən düşünürəm ki, 2024-cü il regionda sülh ili ola bilər və olmalıdır. Bu, özündə şanslar və məsuliyyətlər gətirir.

Onu da qeyd edim ki, demarkasiya ilə əlaqədar ilkin razılıqlar bizi sevindirir. Yəni, eşitdik ki, razılıq əldə etmisiniz. İndi bu dinamikanı saxlamaq və bu istiqamətdə cəsarətli addım atmağınızı istəyirəm. Həm Sizi, həm də Sizin əks tərəfiniz olan baş nazir Paşinyanı buna çağırıram.

Bizim görüşümüzün növbəti mövzusu da Rusiyanın Ukraynaya hücumudur və bu müharibənin Azərbaycana, Cənubi Qafqaza olan təsiridir. Biz hamımız bilirik ki, Rusiya özünün beynəlxalq hüquqazidd müharibəsi ilə Ukraynaya yüz minlərlə ağrı-acı gətirib. Bu amansız qırğın öz sonunu tapmalıdır. Putin öz müharibəsini sona çatdırmalı, əsgərlərini geri çəkməli, Ukraynanın suverenliyini və ərazi bütövlüyünü axır ki, tanımalı, qəbul etməlidir.

Cənab Prezident, Sizin bugünkü səfəriniz əsasən iqlim siyasəti çərçivəsindədir və Azərbaycan COP29-un sədrliyini üzərinə götürüb, yəni, ev sahibi olacaq. COP28 çərçivəsində Dubayda vacib qərarlar qəbul olundu. Deməli, 2030-cu ilə qədər bərpaolunan enerji üç dəfə, enerji səmərəliliyi iki dəfə artırılmalıdır, metan tullantıları azaldılmalıdır. Həmçinin qeyd etmək istərdim ki, 2030-cu ilə qədər Azərbaycanın enerji sektorunda külək, Günəş və su elektrik enerjisinin payını 30 faiz artırması çox gözəl bir xəbərdir. Almaniya 80 faizi hədəfləyib.

Düşünürəm ki, yaşıl enerji və hidrogen enerjisi sahələrində əməkdaşlıq üçün regionda böyük potensial mövcuddur və alman şirkətləri Azərbaycanda əməkdaşlıq etməyə maraqlıdırlar, əsasən də, qeyd etdiyim kimi, hidrogen və bərpaolunan enerji sahələrində. Təbii ki, bunun üçün müvafiq çərçivə şərtləri mövcud olmalıdır.

Bakıda keçiriləcək Dünya İqlim Konfransı region üçün böyük şanslar gətirəcək. Biz iqlim siyasətinə aid sualları və Dubayda qəbul olunan qərarları birgə müzakirə edib yenidən qiymətləndirərək 2035-ci ilə qədər yeni iqlim məqsədləri, hədəfləri formalaşdıra və təbii ki, eyni zamanda, iqlim maliyyələşdirmə məsələsini də irəliyə apara bilərik.

Bildiyiniz kimi, Almaniya bu məsələdə özünün böyük töhfəsini göstərir. İqlim maliyyələşdirilməsi məsələsində biz büdcəmizdən 6 milyard avro ayırmışıq. Almaniya bununla etibarlı maliyyəçi olaraq qalır və özünün ədalətli töhfəsini göstərir.

İndi isə biz təbii ki, investisiya tələbatı məsələsini diqqət mərkəzinə gətirməliyik, özəl sektora iqlim mühafizəsinə sərmayə ayırmağa imkan yaratmalıyıq. Eyni zamanda, bu günədək töhfə verən tərəflər daha

çox töhfə verməlidir. Amma bununla yanaşı, digər ölkələr də iqlimin maliyyələşdirilməsi məsələsinə daha fəal töhfə verməlidirlər. Mən əmin olmaq istərdim ki, biz COP29 tədbiri çərçivəsində bununla əlaqədar müəyyən razılıqlar əldə edə biləcəyik.

Azərbaycan Avropanın enerji təhlükəsizliyi məsələsində çox böyük rol oynayır və vacib tərəfdaşdır. Mən bu əməkdaşlıq üçün və enerji təchizatı sabitliyinə göstərdiyiniz vacib töhfənizə görə Sizə təşəkkürümü bildirmək istəyirəm.

Biz, həmçinin vətəndaş cəmiyyəti, azad media haqqında da müzakirə apardıq. Mən deyərdim ki, sivil cəmiyyətdə demokratiyanın ayrılmaz hissəsi canlı tənqidin mövcud olmasıdır. Fikir azadlığı, mətbuat azadlığı mövcud olmalıdır. Cənab Prezident, mən Sizə bu çətin dövrdə müxtəlif sahələr üzrə apardığımız danışıqlarımıza görə təşəkkürümü bildirmək istəyirəm. Biz hər ikimiz eyni fikirdəyik ki, mövcud olan əməkdaşlığı davam etdirə və dərinləşdirə biləcəyik. Sizə təşəkkür edirəm.

***

Sonra Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.

## Prezident İlham Əliyevin bəyanatı



– Hörmətli cənab Kansler.

Hörmətli xanımlar və cənablar.

İlk növbədə, dəvətə görə Sizə təşəkkürümü bildirirəm. Siz də qeyd etdiyiniz kimi, son vaxtlar mənim Almaniyaya səfərlərim müntəzəm xarakter alıb. Deyə bilərəm ki, son müddət ərzində Almaniya-Azərbaycan əlaqələri öz sürətli inkişaf dövrünü yaşayır. Mən keçən ilin mart ayında burada idim, iki ay bundan əvvəl biz Münxendə cənab Kansler ilə görüşmüşdük. İkitərəfli gündəlik kifayət qədər genişdir. Almaniya-Azərbaycan əlaqələrinin inkişafı həm ölkələrimiz üçün, həm də bütövlükdə Cənubi Qafqazın inkişafı və sabitliyi üçün çox böyük əhəmiyyət kəsb edir.

Bu gün səhər "Petersberq İqlim Dialoqu" forumunun işində iştirak edərkən bir daha öz niyyətimizi ifadə etdik. Sizə COP29-la bağlı Azərbaycana göstərdiyiniz dəstəyinizə görə təşəkkürümü bildirmək istəyirəm. Bizim komandalarımızın üzvləri bir-biri ilə sıx təmasdadırlar. COP29-a ev sahibliyi etmək bizim üçün həm böyük şərəf, həm də məsuliyyətdir. Biz buna hazırıq və Azərbaycanın yaşıl gündəliyi artıq dünyaya bəllidir.

Bu gün səhər çıxış edərkən bildirdim ki, 2027-ci ilin sonuna qədər 9 Günəş və külək elektrik stansiyası istismara veriləcək. Onların enerji potensialı 2 qiqavata bərabərdir. 2030-cu ilə qədər isə əlavə 10 külək və Günəş elektrik stansiyası tikiləcək ki, onun da potensialı 5 qiqavata qədərdir. Biz indi Avropaya yaşıl enerjini ixrac etmək üçün fəal çalışırıq və hesab edirəm ki, təbii qaz təchizatçısı olan Azərbaycan Avropa üçün yaşıl enerji təchizatçısı da olacaqdır.

Təbii qaza gəldikdə, Avropa İttifaqının Energetika Komissiyası Azərbaycanı panavropa qaz təchizatçısı kimi qiymətləndirir. Bizim Avropaya qaz təchizatımız strateji tərəfdaşlıq əsasında həyata keçirilir. 2022-ci ildə Avropa İttifaqı ilə Azərbaycan müvafiq memorandum qəbul etmişlər. 2027-ci ilə qədər biz Avropaya ixrac edəcəyimiz qazın həcmini 20 milyard kubmetrə çatdırmaq əzmindəyik. Avropada təbii qaza - yeni mənbələrdən olan qaza tələbat artır. Əgər 2021-ci ildə biz Avropa İttifaqı ölkələrinə 8 milyard kubmetr qaz təchiz etmişdiksə, bu il bu rəqəm 12 milyarda çatıb. Biz əlavə sərmayə qoyuruq, əlavə vəsait ayırırıq ki, Avropa ölkələrini bu məsələdə dəstəkləyək. Beləliklə, həm ənənəvi enerji növləri, eyni zamanda, bərpaolunan enerji növləri ilə zəngin Azərbaycan Avropa üçün uzun illər bundan sonra da əhəmiyyətli tərəfdaş olacaqdır.

Regional təhlükəsizliyə gəldikdə, Azərbaycan ilə Ermənistan arasında gedən sülh danışıqlarını biz yüksək qiymətləndiririk. Cənab Kansler, Sizin dəvətinizlə Azərbaycan və Ermənistan xarici işlər nazirləri bu yaxınlarda Almaniyada görüşmüşlər. Almaniyanın xarici işlər naziri xanım Berbok da öz dəstəyini göstərmişdir. Növbəti

görüş Qazaxıstanda keçiriləcək və beləliklə, biz sülh sazişinin imzalanmasına doğru əlavə addımlar atırıq.

Azərbaycan 2020-ci ildə öz suveren ərazisinin böyük hissəsini işğaldan azad etmişdir. Keçən ilin sentyabr ayında isə suverenliyini tam bərpa etmişdir. Bu gün Azərbaycanın ərazi bütövlüyü tam bərpa edilib. Təbii ki, bu, tarixi nailiyyətdir və onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmaq fikrində deyildi. Biz beynəlxalq hüququn norma və prinsiplərini əsas tutaraq, BMT Nizamnaməsinin 51-ci maddəsinə söykənərək öz ərazi bütövlüyümüzü hərbi-siyasi yollarla təmin etdik.

Bu gün isə artıq Azərbaycanla Ermənistan arasında gedən proses nəticəsində sərhədlərin delimitasiyası və hətta demarkasiyası prosesi də başlamışdır. 1990-cı və 1992-ci illərdə işğal edilmiş 4 Azərbaycan kəndi bizə qaytarılır. Onu da bildirməliyəm ki, Azərbaycanda yerləşmiş Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzi də öz fəaliyyətini bu gün səhər dayandırmışdır, buna artıq ehtiyac duyulmur.

Yəni, sülhə nail olmaq üçün çox yaxşı fürsətlər var. Bütün bu işdə bizə kömək etmək istəyən ölkələrlə biz əməkdaşlıq etməyə hazırıq. Ümid edirik ki, çox vaxt keçmədən bu istiqamətdə də müsbət addımlar atılacaq. Biz Almaniyanın bu sahədəki dəstəyini xüsusilə qiymətləndiririk və buna görə Sizə minnətdarıq.

***



Daha sonra Prezident İlham Əliyev və Kansler Olaf Şolts jurnalistlərin suallarını cavablandırdılar.

**Sual:** Cənab Prezident, Azərbaycanda insan hüquqları və mətbuat azadlığı ilə əlaqədar fikrinizi bilmək istərdim. Bir neçə kəskin tənqidi yanaşması olan İmran Əliyev adlı jurnalist həbs edilmişdi. İmran Əliyevin ailəsi deyir ki, guya, onun hüquqları pozulur və o, hazırda həbsdədir. Bununla əlaqədar nə deyə bilərsiniz?

Cənab Kansler, Siz cənab Prezidentlə insan hüquqları haqqında da ətraflı danışdınızmı?

**Prezident İlham Əliyev:** Azərbaycanda media azadlığı təmin edilir. Azərbaycanda heç bir senzura yoxdur, azad internet, yüzlərlə media orqanı fəaliyyət göstərir. Ona görə Azərbaycanı medianın inkişafını guya əngəlləmək istiqamətində atılmış addımları ilə tənqid etmək ədalətsiz olardı. Əgər internet azaddırsa, hansı məhdudiyyətdən söhbət gedə bilər?

Fərdi məsələlərə, hadisələrə gəldikdə isə təbii ki, hüquq-mühafizə orqanları bütün məsələləri araşdırırlar. Bir müddət bundan əvvəl xaricdən qanunsuz maliyyələşən bəzi media orqanlarının nümayəndələri istintaq orqanları tərəfindən saxlanılıb. Bu da Azərbaycan qanunvericiliyinə tam uyğun şəkildə aparılıb. İstənilən ölkə öz qanunlarını müdafiə etməlidir. Əgər xaricdən qanunsuz vəsait alan hansısa media nümayəndəsi istintaqa cəlb edilibsə, o demək deyil ki, bizdə media azad deyil. Sadəcə olaraq, hər kəs qanun çərçivəsində fəaliyyət göstərməlidir. Biz istənilən ölkə kimi öz media məkanımızı xarici neqativ təsirdən qorumalıyıq və hər kəs qanunlara əməl etməlidir. Bir sözlə, demək istərdim ki, Azərbaycanda azad cəmiyyət var, insanlar tam azad və sərbəst şəkildə yaşayırlar, qururlar, yaradırlar, o cümlədən media nümayəndələri də.

**Kansler Olaf Şolts:** Mən də suala cavab verim. Təbii ki, biz söhbətimiz çərçivəsində bu məsələyə də toxunduq və ətraflı danışdıq. Bildiyiniz kimi, biz federal respublikayıq, ümumiyyətlə, bütün dünya üzrə insan hüquqlarının qorunmasına öz töhfəmizi veririk. Təbii ki, hər bir ölkədə azad mətbuat olmalıdır, insan hüquqları pozulmamalıdır. Bu, ümumi bir vəziyyətdir. Əlbəttə, bu da özlüyündə bir sirr deyil ki, müxtəlif ölkələrdə bu vəziyyətin yaxşılaşdırılmasına ehtiyac var.

**Sual:** Mən Kərimova Fatimə, "Mikroskop media"nın həmtəsisçisiyəm. Azərbaycanlı jurnalistəm. Həmkarım sualımın əsas hissəsini məndən əvvəl verdi. Ona görə mən Sizə digər sualımı verəcəyəm. Cənab Prezident, müharibədən sonra Qarabağda yenidənqurma-bərpa işləri başlayıb və bir çox layihələr icra olunur. Bu müddət ərzində buraya milyardlarla manat yatırılıb. Amma həmin layihələrlə bağlı bir çox detallar şəffaf

deyil, yəni, həm ictimaiyyətin, həm jurnalistlərin bu məlumatlara əlçatanlığı kifayət qədər deyil. Həm tenderlərin, tenderlərdə iştirak edən şirkətlərin və digər şirkətlərin seçilməsi və sair kimi detallar. Mən bunun səbəbini öyrənmək istəyirəm ki, bəzi məsələlər niyə qapalıdır və niyə bu detallar şəffaf deyil, açıq deyil bizə. Təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Əslində, sualınız təəccüb doğurur, çünki Qarabağda və Şərqi Zəngəzurda bütün bərpa, yenidənqurma işləri maksimum şəffaf şəkildə aparılır. Ayrılan vəsaitlə bağlı, müntəzəm olaraq ictimaiyyətə, o cümlədən media nümayəndələrinə məlumat verilir və sirr deyil. Bu yaxınlarda elan edilmiş məlumat göstərir ki, işin həcmi doğrudan da genişmiqyaslıdır. Bu ilin sonuna qədər, müharibə başa çatandan sonra Qarabağa və Şərqi Zəngəzura 12 milyard manat, yəni, təqribən 7 milyard dollar ətrafında vəsait yatırılır və yatırılacaqdır. Görülən bütün işlər göz qabağındadır. Tender prosedurlarına tam əməl edilir. Mən sözün düzü bilmirəm, sizdə bu məlumat haradandır. Yəqin ki, siz bunu hansısa dəqiqləşdirilməmiş mənbədən götürürsünüz. Amma azad olunmuş torpaqlara müntəzəm surətdə media turları təşkil edilir. O cümlədən xarici media nümayəndələri də vəziyyətlə tanış olurlar. Əgər sizin belə imkanınız olsaydı, görərdiniz ki, Ermənistan bizim torpaqlarımızı necə viran qoyub və azad edilmiş torpaqlara bu gün qayıdan vətəndaşlar hansı sevinc hissləri yaşayırlar.

Müharibədən cəmi üç il yarım vaxt keçib, artıq 6 min keçmiş köçkün öz dədə-baba torpağına qayıdıb və bu proses davam etdirilir. Bu ilin sonuna qədər 20 min köçkün qayıdacaq və hər qayıdan insan Azərbaycan Ordusuna, Azərbaycan rəhbərliyinə minnətdarlıq hissi ilə qayıdır, şəhidlərə Allahdan rəhmət diləmək sözləri ilə qayıdır. Bu, ümumxalq məsələsidir. Necə ki, torpaqlarımızın azad edilməsi ümumxalq məsələsi idisə, bu gün torpaqların bərpa edilməsi də ümumxalq məsələsidir. Mən bilirəm ki, Azərbaycan mediasının mütləq əksəriyyəti bizim fəaliyyətimizi bəyənir, dəstəkləyir və görülən işləri də təqdir edir.

**Sual:** Hörmətli cənab Kansler, iqlim məsələlərinə dair sualım var. İkinci dəfədir, beynəlxalq İqlim Konfransına o ölkələr tərəfindən ev sahibliyi edilir ki, onlar qazıntı enerjisi istehsal edirlər. Bu, nəyə görə belədir? Bunun səbəbi nədir? İkinci sualım, Siz cənab Makronun dünənki çıxışı ilə əlaqədar bəzi şərhlər vermişdiniz. Sizin şərhlərinizi dəqiq bilmək istərdik. Siz Avropa Birgə Fondu ilə əlaqədar bəzi şərhlər vermişdiniz, xahiş edirəm, onu aydınlaşdırın.

Cənab Prezident, Sizə də konkret bir sualım var. Bilmirəm, Siz yaxın Şərqdə - Qəzza zolağında baş verən hadisələr haqqında da danışmısınızmı? Elə fikirlər var ki, guya, İsrailin Baş nazirinə qarşı həbs cəzası, həbs əmri mövcuddur. Belə bir fikir varmı? Siz belə bir fikri dəstəkləyərdinizmi? Təşəkkür edirəm.

**Kansler Olaf Şolts:** Sualın birinci hissəsi ilə bağlı qeyd etmək istərdim ki, mən ənənəvi enerjini istehsal edən ölkələrin iqlim konfransına ev sahibliyi etməsinə şans kimi baxıram. Ona görə ki, burada şanslar yaranır və həmçinin müəyyən maliyyələşdirmə məsələlərini də nəzərə almaq lazımdır. Bir dəfə Almaniya da öz böyük maliyyə töhfəsini verib. Düşünürəm ki, bu kimi ölkələrin də buraya qatılması, konfransı təşkil etməsi, dəstəyini göstərməsi böyük şansdır. Nəyə görə yox? Yəni, təbii ki, eyni zamanda, qalıq enerjinin belə deyək, miqdarını azaltmaq da bir iqlim mühafizəsi kontekstində olan mövzulardan biridir. Həmçinin enerji təhlükəsizliyi məsələləri nəzərə alınmalıdır, amma bununla yanaşı, bərpaolunan enerji məsələləri də diqqət mərkəzində qalmaqdadır. Yəni, düşünürəm ki, bu, bizlərə müəyyən şanslar verən simbiozdur, qısa desəm çətin yoldur, qəliz yoldur, amma ağıllı yoldur. Sonuncu COP da çox gözəl keçmişdi. Ona görə də düşünürəm ki, qarşıdan gələn konfrans da uğurlu olacaq. Mən qarşıdakı tədbirə də sevinirəm. Orada geniş debat və diskussiya aparılmalıdır.

**Prezident İlham Əliyev:** Bu gün biz cənab Kanslerlə daha çox Almaniya-Azərbaycan ikitərəfli münasibətlərini və regional təhlükəsizlik məsələlərini, o cümlədən COP29 ilə bağlı hazırlıq işlərini müzakirə etmişik. Digər beynəlxalq məsələlərin müzakirəsi aparılmamışdır.

O ki qaldı, Yaxın Şərqdəki vəziyyətə, Azərbaycanın mövqeyi hər zaman birmənalı olub. Fələstin xalqının azadlığı və müstəqilliyi hər zaman Azərbaycan tərəfindən dəstəklənib. Yaxın Şərqdə müharibənin və hərbi əməliyyatların tezliklə dayandırılması hər zaman Azərbaycan tərəfindən ifadə edilib.

Qaldı ki, sualın digər hissəsinə, deyə bilərəm, neftlə, qazla zəngin olan ölkələr məhz buna görə qınaq obyektinə çevrilməməlidir. Dünyada bu məsələ ilə bağlı ayrı-seçkilik, diskriminasiya aparılmamalıdır. Neft və qaz Tanrıdan verilən böyük nemətdir və ölkələrə bu nemətə görə qiymət verilməlidir. Azərbaycan neftdən, qazdan əldə olunmuş gəlirlərdən düzgün istifadə edir. Buna görə də Azərbaycanda yoxsulluq şəraitində yaşayanların faizi son 20 il ərzində 50 faizdən 5 faizə düşmüşdür. Məhz buna görə Azərbaycan öz iqtisadi potensialını ortaya qoya bilib. Bizim birbaşa xarici borcumuz ümumi daxili məhsulumuzun cəmi 7,9 faizinə bərabərdir. Neftdən, qazdan gələn gəlirlər cəmiyyətdə ədalətli bölünür və bu gün, ilk növbədə, Qarabağın və Şərqi Zəngəzurun bərpasına istiqamətləndirilir.



Ona görə neftlə, qazla zəngin olan ölkələr haqqında hansısa miflər yaradılmamalıdır. Bu ölkələr, o cümlədən bizdən əvvəl COP-u keçirmiş Misir və Birləşmiş Ərəb Əmirlikləri iqlim məsələlərinin həlli üçün çox böyük səylər göstərmişdir və bu gün Birləşmiş Ərəb Əmirlikləri, Azərbaycan və Braziliya, – bildiyiniz kimi, Braziliyada da təbii sərvətlər kifayət qədər böyükdür, – üçlük şəklində fəaliyyət göstərirlər. Bizim niyyətimiz budur. Biz istəyirik ki, əldə edilmiş gəlirləri yaşıl enerjiyə sərf edək, bu istiqamətdə addımlar atırıq və COP29 da qarşıdurma arenası olmayacaq. Azərbaycan ev sahibi kimi körpülər yaradacaq. Azərbaycan Qərblə Qlobal Cənub arasında körpü rolunu oynamaq fikrindədir, o cümlədən yaşıl enerjiyə keçidlə və iqlim dəyişikliyi ilə bağlı.

**Sual:** Vüqar Seyidov, Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC). Mənim sualım cənab Kanslerədir. Cənab Kansler, Almaniyanın Federal Daxili İşlər Nazirliyinin 2023-cü ilin iyun ayında yaydığı islamofobiya üzrə ekspertlər cəmiyyətinin hesabatına əsasən, ölkədə keçirilmiş sorğunun iştirakçılarının təxminən yarısı islamofob fikirlər səsləndirmişdir. Almaniya cəmiyyətində ksenofobiya və irqçilik kimi təhlükəli tendensiyaları Siz nə ilə izah edə bilərsiniz və ümumiyyətlə, bu istiqamətdə Sizin hökumətiniz hansı tədbirlər görür? Təşəkkür edirəm.

**Kansler Olaf Şolts:** Siz bildiyiniz kimi, dövlət bu məsələyə çox böyük diqqətlə yanaşır. Biz qanun çərçivəsində hərəkət edirik və digər siyasi maarifləndirmə tədbirləri həyata keçiririk. Ümumiyyətlə, müsəlmanlara qarşı, rasizm məsələlərinə çox ciddi yanaşırıq və bunun qarşısının alınması üçün əlimizdən gələni edirik. Dünya miqyasında siz müqayisə etsəniz görərsiniz ki, burada səylər çoxdur. Almaniya o ölkədir ki, bir çox millətlərin üzvləri burada bir-biri ilə sülh şəraitində yaşayırlar və burada dini mənsubiyyət, dini fərqlilik heç bir rol oynamır.

***



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 26-da Berlində Almaniya Federativ Respublikasının xarici işlər naziri Annalena Berbok ilə görüşü olub.

Annalena Berbok “Petersberq İqlim Dialoqu” çərçivəsində aparılmış müzakirələrin vacibliyini və Prezident İlham Əliyevin bu əsnada çıxışını qeyd etdi. O, COP29-la əlaqədar Almaniya ilə Azərbaycanın müvafiq heyətləri arasında sıx əməkdaşlığın olduğunu və mütəmadi əsasda məsləhətləşmələrin aparıldığını müsbət hal kimi qiymətləndirdi. Almaniyanın Azərbaycanın COP29-a sədrliyinin dəstəklənməsi üçün bundan sonra da səylərini davam etdirəcəyini dedi.

Azərbaycan Prezidenti COP29-la əlaqədar Almaniya ilə əməkdaşlığa və “Petersberq İqlim Dialoqu” formatındakı müzakirələrə dəvətə görə bir daha təşəkkürünü bildirdi.

Dövlətimizin başçısı qeyd etdi ki, COP29-un Azərbaycanda keçirilməsi prosesi Ermənistanla Azərbaycan arasında sülh gündəliyinin tərkibi olaraq ərsəyə gəlib.

Annalena Berbok Almaniyanın Ermənistanla Azərbaycan arasında sülh gündəliyini bundan sonra da dəstəkləyəcəyini vurğuladı.



Prezident İlham Əliyev Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Almaniya Kanslerinin dəstəyi ilə Ermənistanla Azərbaycan arasında keçirilmiş görüşün önəmini qeyd etdi, bu görüş çərçivəsində aparılmış müzakirələrin sərhədlərin delimitasiyası və demarkasiyası prosesinə ciddi təkan verdiyini bildirdi.

Dövlətimizin başçısı Almaniya xarici işlər nazirinin dəstəyi ilə Ermənistan və Azərbaycan xarici işlər nazirləri arasında sülh müqaviləsi üzrə danışıqların aparıldığını vurğuladı, bunun sülh müqaviləsi üzrə danışıqların irəli aparılması üçün vacib addım olduğunu dedi.

Prezident İlham Əliyev Ermənistanla Azərbaycan arasında birbaşa danışıqlar və dialoq vasitəsilə sərhədlərin delimitasiyası, hətta demarkasiyası sahəsində əldə olunmuş uğurları müsbət addım kimi qiymətləndirdi, regionda sabitliyin artıq təmin olunduğunu qeyd etdi.

Azərbaycanın sülh gündəliyinin irəli aparılması üçün səylərini bundan sonra da davam etdirəcəyini deyən Prezident İlham Əliyev ölkəmizin sülh gündəliyinə sadiq olduğunu vurğuladı.

Dövlətimizin başçısı Qazaxıstan tərəfinin təklifi ilə Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri səviyyəsində növbəti görüşün Qazaxıstanda keçiriləcəyini dedi.

***



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 26-da Berlində Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabir ilə görüşü keçirilib.

Sultan Əhməd Əl-Cabir Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanın salamlarını Prezident İlham Əliyevə çatdırdı.

Dövlətimizin başçısı salamlara görə təşəkkürünü bildirdi, onun da salamlarını BƏƏ Prezidentinə çatdırmağı xahiş etdi.

Sultan Əhməd Əl-Cabir BƏƏ-nin COP28-in sədri və ev sahibi olaraq Azərbaycanla yaxından işləməkdən məmnunluğunu bildirərək, COP29 ilə bağlı BƏƏ-nin Azərbaycana dəstəyini əsirgəmədiyini diqqətə çatdırdı, bu istiqamətdə birgə işləməyə və əməkdaşlığa hazır olduqlarını vurğuladı.

Dövlətimizin başçısı Azərbaycanla BƏƏ arasında birgə fəaliyyətin əhəmiyyətini və COP28-də "üçlük" mexanizminin yaradılmasının vacibliyini qeyd etdi.

Söhbət zamanı Azərbaycanla BƏƏ arasında ikitərəfli əməkdaşlıq məsələləri müzakirə olundu, ölkəmizin yaşıl enerji sahəsinə BƏƏ tərəfindən yatırılan investisiyalar nəticəsində bərpaolunan enerji ixracı imkanlarının yaranması və bu istiqamətdə potensialın artması məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olundu.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer ilə təkbətək görüşü olub.









***



Aprelin 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer ilə geniş tərkibdə görüşü keçirilib.

Görüşdə "Petersberq İqlim Dialoqu"nun əhəmiyyəti və Prezident İlham Əliyevin bu tədbirdə çıxışı qeyd olundu.

Dövlətimizin başçısı tədbirə dəvətə görə təşəkkürünü bildirdi.

Söhbət zamanı COP29-la əlaqədar Almaniya ilə Azərbaycan arasında uğurlu əməkdaşlıq və heyətlər arasında görüşlərin önəmi xüsusi vurğulandı. COP29-la bağlı yaradılan "üçlük" mexanizminin əhəmiyyətinə toxunuldu, Almaniyanın COP29-la əlaqədar Azərbaycana bundan sonra da dəstək göstərəcəyi diqqətə çatdırıldı.

Prezident İlham Əliyev qeyd etdi ki, Ermənistan ilə Azərbaycan arasında sülh gündəliyinin təşəbbüskarı məhz Azərbaycan tərəfi olub. Belə ki, sülh gündəliyinin əsasını təşkil edən fundamental prinsiplər Azərbaycan tərəfindən formalaşdırılıb və təqdim olunub. Azərbaycan tərəfi, həmçinin bunun əsasında sülh müqaviləsinin mətnini hazırlayıb.

Dövlətimizin başçısı Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Almaniya Kansleri Olaf Şoltsun dəstəyi ilə Ermənistanın baş naziri ilə keçirilmiş görüşü, bu görüş çərçivəsində də məhz delimitasiya və demarkasiya məsələlərinin, sülh gündəliyinin irəlilədilməsinə dair müsbət müzakirələrin olduğunu qeyd etdi. Prezident İlham Əliyev vurğuladı ki, Almaniyanın xarici işlər nazirinin dəstəyi ilə Ermənistanın və Azərbaycanın xarici

işlər nazirləri arasında görüş keçirildi və bu görüşdə sülh müqaviləsi üzrə əsaslı müzakirələr aparıldı.

Söhbət zamanı sərhədlərin delimitasiyası və demarkasiyası istiqamətində iki ölkə arasında birbaşa danışıqlarda əldə edilmiş nəticələr qeyd olundu.

Prezident İlham Əliyev Qazaxıstan tərəfinin təklifi ilə Ermənistanın və Azərbaycanın xarici işlər nazirlərinin sülh müqaviləsi üzrə danışıqları davam etdirmələri üçün növbəti görüşün Qazaxıstanda təşkil olunacağını dedi.



Frank-Valter Ştaynmayer qeyd etdi ki, Almaniya tərəfi Ermənistanla Azərbaycan arasında sülh gündəliyini yaxından dəstəkləyir və bundan sonra da dəstəkləyəcəkdir.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparıldı.

***









Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniya Federativ Respublikasına işgüzar səfəri aprelin 26-da başa çatmışdır.





# Slovakiya Respublikasının Baş naziri Robert Fitso ölkəmizə rəsmi səfər edib





Mayın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizdə rəsmi səfərdə olan Slovakiya Respublikasının Baş naziri Robert Fitso ilə təkbətək görüşü olub.
Prezident İlham Əliyev Baş nazir Robert Fitsonu qarşıladı.
Sonra birgə foto çəkdirildi.

***





Mayın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Slovakiya Respublikasının Baş naziri Robert Fitso ilə geniş tərkibdə görüşü keçirilib.

Görüşdə çıxış edən **Prezident İlham Əliyev** dedi:

– Hörmətli cənab Baş nazir.

Hörmətli qonaqlar.

Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz.

Bu, Sizin birinci səfərinizdir, əminəm ki, səfər çox uğurlu keçəcək.

Biz indi təkbətək görüşdə bir çox önəmli məsələləri müzakirə etdik. Slovakiya-Azərbaycan əlaqələrinin perspektivləri haqqında fikir mübadiləsi apardıq və biz bir fikirdə həmrəyik ki, bu əlaqələrin çox gözəl gələcəyi var. Həm siyasi, həm iqtisadi, enerji, sənaye istehsalı sahələrində əməkdaşlığın perspektivləri çox müsbətdir.

Mən hesab edirəm ki, Sizin səfəriniz əlaqələrimizin yeni səhifəsini açacaq. Çünki bu gün müzakirə edilən məsələlərin əhatə dairəsi o qədər genişdir ki, bu məsələlərin həlli bizim münasibətlərimizi çox yüksək səviyyəyə qaldıracaqdır.

Eyni zamanda, bu gün bundan bir qədər sonra biz Strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə imzalayacağıq. Bu da çox ciddi siyasi sənəddir, faktiki olaraq münasibətlərimizi ən yüksək səviyyəyə qaldıran bir sənəddir. Sənədin özü və onun məzmunu təbii ki, bizim niyyətimizi göstərir, bir-birimizə olan hörməti, qarşılıqlı dəstəyi göstərir.

İndi biz nümayəndə heyətlərinin iştirakı ilə müzakirələrimizi davam etdirəcəyik. Əminəm ki, əldə ediləcək razılaşmalar vaxtlı-vaxtında icra olunacaq və beləliklə, bizim əməkdaşlığımız daha sürətlə inkişaf edəcək.

Bir daha xoş gəlmisiniz.

***

**Slovakiyanın Baş naziri Robert Fitso** dedi:

– Hörmətli Prezident.

Hörmətli qonaqlar və dostlar.

Bizi qəbul etdiyiniz üçün və ölkənizə xas ənənəvi qonaqpərvərliyinizə görə bütün Slovakiya nümayəndə heyəti adından Sizə minnətdarlığımı bildirirəm.

Hörmətli cənab Prezident, bu yaxşı haldır ki, biz artıq konkret layihələr barədə danışmağa hazırıq və indi bu mövzuları müzakirə edirik.

Hörmətli cənab Prezident, çox təfərrüata varmadan deyə bilərəm ki, bizi birləşdirən məfhumlar, birgə məqamlar çoxdur. Avropa İttifaqına üzv ölkə olmağımıza baxmayaraq, bizi birləşdirən praqmatik yanaşmadır. Bizi birləşdirən suveren xarici siyasətdir, o siyasət ki, Siz də həyata keçirirsiniz və biz də buna çalışırıq. Eyni zamanda, bizi o fakt birləşdirir ki, biz dünyaya hər dörd istiqamətdə baxırıq, yalnız Qərb və ya bir istiqamətdə köklənmirik. Biz beynəlxalq hüquqa hörmətlə yanaşırıq. Əlbəttə ki, başqalarının işlərinə müdaxilə olunmaması, ərazi bütövlüyünün aliliyi bizim üçün ən başlıca amillərdir.

Cənab Prezident, Sizi yenidən seçilməyiniz münasibətilə təbrik edirəm. Bu, Sizin beşinci prezidentliyinizdir. Bu, çox mühüm bir nailiyyət və uğurdur. Eyni zamanda, Sizi ölkənizdə aydın görünən tərəqqi münasibətilə təbrik edirəm.

Ərazi bütövlüyünün bərpası məsələsinə gəldikdə, Siz dünyanın digər bölgələri üçün nümunəsiniz. Məncə, bu, ən yüksək səviyyədə qiymətləndirilməlidir.

Cənab Prezident, Sizi Slovakiyada görməyimizə çox şad olardıq. Siz sadəcə tarixi seçin və özünüzlə ən böyük nümayəndə heyəti gətirin, işgüzar dairələri cəlb edin. İnanıram ki, müzakirə etməyə mövzularımız çox olacaq. Çünki bir az bundan öncə müzakirə etdiyimiz məsələlər onu nümayiş etdirir ki, perspektivlər çox böyükdür.

***





Mayın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Slovakiya Respublikasının Baş naziri Robert Fitsonun iştirakı ilə Azərbaycan-Slovakiya sənədlərinin imzalanması mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Slovakiya Respublikasının Baş naziri Robert Fitso “Azərbaycan Respublikası ilə Slovakiya Respublikası arasında strateji tərəfdaşlığın yaradılması haqqında Birgə Bəyannamə”ni imzaladılar.

Azərbaycan Respublikasının müdafiə sənayesi naziri Vüqar Mustafayev və Slovakiya Respublikasının Baş nazirinin müavini, müdafiə naziri Robert Kalinak “Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi ilə Slovakiya Respublikasının Müdafiə Nazirliyi arasında hərbi-texniki əməkdaşlıq sahəsində Anlaşma Memorandumu”nu imzaladılar.





Azərbaycan Respublikasının müdafiə naziri Zakir Həsənov və Slovakiya Respublikasının Baş nazirinin müavini, müdafiə naziri Robert Kalinak "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Slovakiya Respublikasının Müdafiə Nazirliyi arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş"i imzaladılar.

***

Mayın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Slovakiya Respublikasının Baş naziri Robert Fitso mətbuata bəyanatlarla çıxış ediblər.



Əvvəlcə dövlətimizin başçısı mətbuata bəyanatla çıxış etdi.

## Prezident İlham Əliyevin bəyanatı



– Hörmətli cənab Baş nazir.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Bu gün Slovakiya-Azərbaycan əlaqələrinin tarixində çox əlamətdar bir gündür. Hörmətli cənab Baş nazir Azərbaycana səfər edir və səfər çərçivəsində strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə imzalanmışdır. Bu, çox ciddi siyasi sənəddir və bizim əlaqələrimizi ən yüksək səviyyəyə qaldıran sənəddir. Strateji tərəfdaşlıq Bəyannaməsində əks olunan maddələr bizim niyyətimizi əks etdirir, eyni zamanda, gələcək əməkdaşlığın perspektivlərini də müəyyən edir.



Hesab edirəm ki, bu gün Slovakiya-Azərbaycan əlaqələrində yeni səhifə açılır və ümid edirəm, bizim müştərək yolumuz çox uğurlu olacaq.

Biz bu gün cənab Baş nazirlə həm təkbətək görüş əsnasında, eyni zamanda, nümayəndə heyətlərinin iştirakı ilə keçirilmiş danışıqlarda bir çox məsələləri müzakirə etdik. Bizim siyasi əlaqələrimizin yüksək səviyyədə olmasını bir daha təsdiqlədik. Eyni zamanda, bir çox sahələr üzrə aparılacaq işlərə də öz münasibətimizi bildirdik.

Bildiyiniz kimi, bu gün imzalanan sənədlər arasında, müdafiə və müdafiə sənayesi sahələrinə aid sənədlər var. Bu iki istiqamət üzrə geniş fikir mübadiləsi aparılmışdır və müdafiə sənayesi sahəsində birgə istehsal sahələrinin yaradılması haqqında da artıq konkret danışıqlara da start verilmişdir.

Təbii ki, bu gün energetika sektorundakı əməkdaşlıq çox geniş müzakirə edilmişdir. Azərbaycan hazırda 8 ölkəyə öz təbii qazını ixrac edir və ümidvaram ki, 9-cu ölkə Slovakiya olacaq. Keçən ilin aprel ayında “Həmrəylik Halqası” adlanan sənəd imzalanmışdır və beləliklə, Azərbaycan qazını Slovakiya bazarına da nəql etmək üçün yaxşı imkanlar yaradılmışdır.

Avropa İttifaqı ilə Azərbaycan arasında qaz və enerji sahəsində imzalanmış strateji tərəfdaşlıq Bəyannaməsi icra edilir. Azərbaycan öz təbii qazını Avropa məkanına etibarlı yollarla nəql edir. Avropaya təchizat 2021-ci ildəki 8 milyard kubmetrdən bu il 12 milyard kubmetrə qədər qalxacaq. Bu da Azərbaycanın ümumi qaz ixracının 50 faizini təşkil edir. Bizim planlarımızda 2027-ci ilin sonuna qədər təkcə Avropa İttifaqı məkanına 20 milyard kubmetr qazın nəql edilməsi məsələsi dayanmışdır və mən hesab edirəm ki, biz buna nail olacağıq.

Azərbaycanda qaz hasilatı artır, yeni yataqlar kəşf olunur və o yataqlarda istismar artıq başlamışdır. Eyni zamanda, bizim genişmiqyaslı yaşıl gündəliyimiz də icra edilir və bir çox bərpaolunan külək və günəş enerjisi stansiyalarının inşa olunması bizə qaza qənaət etmək imkanı yaradacaqdır və təbii ki, bu qazın əsas istiqaməti və əsas ünvanı Avropa olacaqdır.

Bu gün, eyni zamanda, ticarət dövriyyəsinin artırılması istiqamətində aparılacaq işlərə də diqqət yetirildi. Bildiyiniz kimi, bu gün Slovakiya-Azərbaycan biznes forumu keçirildi, onlarla slovakiyalı iş adamı Azərbaycanda səfərdədir. Bir çox sərmayə layihələri də müzakirə edilir. Bu gün bu məsələlər də müzakirə edildi və hər iki tərəfdən buna, necə deyərlər, yaşıl işıq yandırılmışdır.

Əməkdaşlığımızın bir əlamətdar istiqaməti də azad edilmiş torpaqlarda Slovakiya şirkətinin fəaliyyətidir. Ağdamın Qərvənd kəndinin yenidən qurulması Slovakiya şirkəti tərəfindən icra ediləcək. Bu da təbii ki, həm böyük rəmzi məna daşıyır, çünki əlaqələrimizin səmimiliyinin dərəcəsini göstərir. Eyni zamanda, işğaldan azad edilmiş torpaqlarda ən müasir standartlara cavab verən “Ağıllı şəhər”, “Ağıllı kənd” konsepsiyası əsasında slovakiyalı mütəxəssislər tərəfindən görüləcək işlər, əlbəttə ki, oraya qayıdacaq insanları sevindirəcək.

Bir sözlə, bu gün müzakirə edilmiş gündəlik kifayət qədər geniş olub. Bu, cənab Baş nazirlə mənim birinci şəxsi tanışlığımdır və eyni zamanda, biz bir çox beynəlxalq məsələlərlə əlaqədar fikir mübadiləsi apardıq və burada da fikir ayrılığı yoxdur. Slovakiya və Azərbaycan bu gün suverenlik və ləyaqət əsasında qurulmuş siyasətlə idarə olunurlar. Mən cənab Baş naziri yenidən Baş nazir vəzifəsinə seçilməsi münasibətilə təbrik etdim və bildirdim ki, bu, onun fəaliyyətinə Slovakiya xalqı tərəfindən verilən böyük qiymətdir. Cənab Fitso birinci dəfə deyil ki, Baş nazir seçilib və onun yenidən seçilməsi Slovakiya xalqının müstəqilliyə, suverenliyə, milli ləyaqətə göstərdiyi münasibətin, hörmətin əlamətidir və bu seçim Slovakiya xalqının dostları kimi bizi də həddindən artıq sevindirir. Deyə bilərəm ki, cənab Fitso Baş nazir vəzifəsində yenidən fəaliyyətə başlamasından dərhal sonra konkret addımlar da atılmışdır, yüksəkvəzifəli şəxslər Slovakiyadan Azərbaycana və Azərbaycandan Slovakiyaya səfərlər etmişlər və bu gün biz hörmətli qonağımızı qəbul edirik.

Bir daha, hörmətli cənab Baş nazir, xoş gəlmisiniz. Əminəm ki, səfəriniz xoş keçəcək və əməkdaşlığımız üçün yeni imkanlar açacaqdır.

***

Sonra Slovakiyanın Baş naziri bəyanatla çıxış etdi.

## Baş nazir Robert Fitsonun bəyanatı



– Cənab Prezident.

Xanımlar və cənablar.

Bizə göstərilən qonaqpərvərliyə görə Slovakiya nümayəndə heyəti adından Sizə təşəkkür edirəm. Sizin ölkəniz qonaqpərvərliyi ilə məşhurdur.

Cənab Prezident, ümid edirəm, Sizin də münasib bildiyiniz bir vaxtda nümayəndə heyətinizlə Slovakiyaya səfər edəcəksiniz ki, biz bu gün başladığımız konstruktiv və faydalı müzakirələrimizi davam etdirək. Hesab edirəm ki, bu günün nəticələri gözlədiyimdən də artıq oldu.

Cənab Prezident, Siz beşinci dəfə prezident seçilmisiniz. Bu, həqiqətən onun göstəricisidir ki, Siz bu ölkə üçün çox önəmli bir şəxsiyyətsiniz və Sizi yenidən seçilməyiniz münasibətilə təbrik edirəm. Sizə açıq şəkildə deyə bilərəm ki, təkbətək görüşümüzdə müzakirələrimiz ölkəniz və Sizin haqqınızda düşündüyümün təsdiqi oldu. Siz suveren xarici siyasətin tərəfdarısınız. Siz beynəlxalq hüququ müdafiə edən şəxsiyyətsiniz. Siz praqmatik şəxsiyyətsiniz və Sizin xarici siyasətiniz təkcə bir istiqamətdə köklənməyib. Siz ərazi bütövlüyünün nə dərəcədə vacib olduğunu çox gözəl bilirsiniz. Bununla yanaşı, Avropa İttifaqının üzvü olan ölkənin nümayəndəsi kimi deyə bilərəm ki, Avropa İttifaqı ara-sıra digərlərinə təlimat verməyi xoşlayır. Mən isə siyasi təcrübəmdə heç vaxt heç bir ölkənin daxili işlərinə qarışmamağa üstünlük verirəm.

Cənab Prezident, bəzi beynəlxalq təsisatlarda kiçik ölkələrə qarşı ayrı-seçkilik, ədalətsizlik və qeyri-obyektivlik məni məyus edir. Çünki əhali sayına baxdıqda biz kiçik ölkə hesab edilirik. Sizi çox diqqətlə dinləyirdim və bunu dünən məni hava limanında qarşılayan nümayəndə heyətinə də bildirdim. Biz Azərbaycan ilə Avropa İttifaqı arasında körpü olmağa hazırıq və Azərbaycandakı obyektiv vəziyyəti Avropa İttifaqında təqdim etmək istəyirik. Biz haqq-ədalət uğrunda mübarizə aparmalıyıq. Slovakiya 2020-2023-cü illərdə Avropa İttifaqı tərəfindən nə dərəcədə biganə yanaşmanın nümunəsidir. O vaxt ölkənin cinayət məcəlləsindən müxalifətlə mübarizə üçün istifadə edilirdi. O zaman biz müxalifətdə idik, bu gün isə həmin dövrdə - 2020-2023-cü illərdə baş verənlərə görə parlamentimizdə çox mühüm qanunlar qəbul etdik. Ancaq Avropa İttifaqının diqqəti də məhz bunun üçün bizim üzərimizdədir. Yəni, bizim bu təsisatlarla bağlı belə bir təcrübəmiz var. Mən həm buradan bizim Xarici İşlər Nazirliyinə və parlamentimizə deyə bilərəm ki, biz Azərbaycandakı vəziyyəti maksimum şəkildə obyektiv işıqlandırmalıyıq.

Cənab Prezident, biz böyük tərəqqiyə nail olmuşuq. Əlbəttə ki, ticarət dövriyyəmiz olduqca aşağıdır, ancaq burada hər hansı maneə yoxdur, bizim heç bir sahədə fikir ayrılığımız yoxdur.

Mən cənab Prezidentin Ukrayna ilə bağlı mövqeyini eşidəndə sanki Slovakiya hökumətinin mövqeyinin səsləndirildiyini düşündüm. Biz qlobal səviyyədə baş verənlər haqqında danışdıq, Ukraynada münaqişə bitəndən sonra işlər necə olacaq, Çinin dünyadakı rolu. Yəni, bizim çox oxşar mövqeyimiz var. Təəssüf ki, ticarət dövriyyəmiz 70 milyon avrodan bir az çoxdur və əlbəttə, burada üstünlük də bizim tərəfimizdədir, çünki biz Azərbaycana avtomobillər ixrac edirik. Slovakiyada bu sahədə çoxsaylı müəssisələr var. Biz əməkdaşlığımızı genişləndirməliyik. Əgər güclü Prezident və siyasi baxımdan güclü Baş nazir varsa, biz bir neçə layihəni öz üzərimizə götürüb onu uğurla həyata keçirə bilərik.

Cənab Prezident, bu əməkdaşlığa, xüsusilə hərbi sahədə əməkdaşlığa böyük önəm verirəm, bunu yüksək qiymətləndirirəm. Azərbaycanda birgə istehsal sahələrinin yaradılması fikri hər kəs üçün cəlbedici olmalıdır. Biz bunun müəyyən detallarını artıq müzakirə etdik və bizim Baş nazirin müavini, müdafiə naziri cənab Kalinak bu sahədə də çox böyük fəallıq göstərir. O da əlindən gələni edəcək ki, bu layihələr uğurlu olsun. Söhbət Slovakiyanın xaricindəki istehsal sahələrindən gedir.

Cənab Prezident, Qarabağdakı təşəbbüsümüzü dəstəklədiyinizə görə Sizə təşəkkür edirəm. Bu, "Ağıllı kənd" layihəsidir. Bu, çox maraqlı bir layihədir. Mən imkan düşən kimi böyük məmnuniyyətlə oraya səfər



etmək istərdim və ümid edirəm ki, Siz də tez bir zamanda bizə - Slovakiyaya səfər edəcəksiniz. Orada biz bu irəliləyişlə bağlı müzakirələr apara bilərik. Eyni zamanda, biz kiçik hava limanının inşası ilə də maraqlanırıq və enerji sahəsində əməkdaşlıq da bizə maraqlıdır.

Əlbəttə ki, Ukraynada baş verən müharibə səbəbindən Slovakiyanın nəqliyyat infrastrukturunun istifadəsi mürəkkəbləşib. Azərbaycan qazının Rusiya-Ukrayna sərhədindəki məntəqə vasitəsilə Ukrayna ərazisindən idxal edilməsi layihəsi var. Söhbət 20 milyard kubmetrlik həcmdən gedirsə, bu, hamı üçün maraqlı olmalıdır. Əlbəttə, mən hesab etmirəm ki, Azərbaycan xeyriyyəçiliklə məşğuldur. Biz, sadəcə olaraq, ədalətli qiymətlərə ümid edirik və sizin maraqlarınıza hörmətlə yanaşırıq.

Cənab Prezident, əminəm ki, biz Avropa səviyyəsində də müsbət ab-hava yaradacağıq. Bilirsiniz ki, Avropada hamı spekulyasiyanı xoşlayır, ən pis niyyət görməyə çalışır. Biz təkcə Azərbaycandan qaz almaq istəmirik, biz qazı Ukrayna ərazisindən Slovakiyaya idxal etmək istəyirik və bu məsələdə Sizin konstruktiv yanaşmanızı çox yüksək qiymətləndirirəm.

Ukraynanın Baş nazirinin dediyi kimi, Azərbaycan qazı olduğu yerdə Rusiya ilə Ukrayna arasında müəyyən razılığa gəlmək olar. Bu, hər kəs üçün faydalı olar, həm Slovakiya üçün, həm Sizin üçün, həm də Ukrayna üçün. Çünki onlar bunun tranzitini həyata keçirəcək. Bu, nümunəvi bir layihə ola bilər və cənab Prezident, bununla bağlı da verdiyiniz məlumata görə Sizə təşəkkür edirəm.

Cənab Prezident, şəxsən Sizə uğurlar arzulamaq istəyirəm, Sizin ölkənizə və xalqınıza ən xoş arzularımı çatdırıram.

Siz suveren bir ölkəsiniz və suverenliyə gəldikdə nümunəvi ölkəsiniz. Suveren mövqe və fikirlərə gəldikdə, mən hər zaman belə ölkələri yüksək qiymətləndirmişəm. Siz ədalətsizliyə sinə gərirsiniz. Eyni yanaşmanı mən Slovakiyada tətbiq etməyə çalışacağam ki, Slovakiya da suveren xarici siyasət apara bilsin və bizim kimi suveren ölkələr bir araya gəldikdə nəticələr çox gözəl ola bilər.

Cənab Prezident, Sizə, Azərbaycana və Azərbaycan xalqına ən xoş hisslərimi çatdırıram və işlərinizdə uğurlar arzu edirəm. Əməkdaşlığa görə təşəkkür edirəm və bu işdə Sizin çox böyük şəxsi töhfəniz var. Slovakiya-Azərbaycan əməkdaşlığına töhfənizə görə təşəkkürümü bildirirəm.

***

Mayın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Slovakiya Respublikasının Baş naziri Robert Fitsonun şərəfinə rəsmi nahar verilib.



# İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ulu Öndər Heydər Əliyevin Fəxri xiyabanda məzarını ziyarət ediblər





Müasir müstəqil Azərbaycanın memarı və qurucusu, xalqımızın dahi oğlu və Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü günüdür.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ulu Öndərin Fəxri xiyabanda məzarını ziyarət ediblər.

Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin məzarı önünə əklil qoydu, Ulu Öndərin xatirəsini ehtiramla andı.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.













Sonra birinci xanım Mehriban Əliyeva Ümummilli Liderin xatirəsini dərin hörmətlə yad etdi.

Dövlətimizin başçısı və birinci xanım Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini yad edərək məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad olundu.

# Bolqarıstan Prezidenti Rumen Radev ölkəmizə rəsmi səfər edib







Azərbaycan Respublikasına rəsmi səfərə gələn Bolqarıstan Respublikasının Prezidenti Rumen Radevin mayın 8-də rəsmi qarşılanma mərasimi olub.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Bolqarıstan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bolqarıstan Prezidenti Rumen Radevi və birinci xanım Desislava Radevanı qarşıladılar.

Fəxri qarovul dəstəsinin rəisi Bolqarıstan Prezidentinə raport verdi.

Bolqarıstan Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.

Azərbaycan nümayəndə heyəti Bolqarıstan Prezidenti Rumen Radevə və birinci xanım Desislava Radevaya, Bolqarıstan nümayəndə heyəti isə Azərbaycan Prezidenti İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya təqdim olundu.









Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Bolqarıstan Prezidenti Rumen Radevin qarşısından keçdi.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.



***

Mayın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev ilə təkbətək görüşü olub.

***

Mayın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev ilə geniş tərkibdə görüşü keçirilib.

Görüşdə çıxış edən **Prezident İlham Əliyev** dedi:

– Cənab Prezident, nümayəndə heyətinin üzvləri, bir daha xoş gəlmisiniz.

Ölkəmizə yenidən səfər edən əziz dostum Prezident Radevi görməyə çox şadam.





Bildiyiniz kimi, bizim mütəmadi təmaslarımız olur və qarşılıqlı səfərlərin həyata keçirilməsi artıq yaxşı bir ənənəyə çevrilib. Mən şadam ki, biz səmərəli müzakirələrimizi davam etdirəcəyik və tərəfdaşlığımızı gücləndirəcəyik.

Cənab Prezidentlə görüşümüzdə əməkdaşlığımızın müxtəlif aspektlərini müzakirə etdik və əlbəttə ki, əsas diqqəti yeni nəticələr əldə olunmasına yönəltdik. Bilirəm ki, nümayəndə heyətlərinin üzvləri artıq təmasda olublar, bəziləri dünən, bəziləri bu gün. Müzakirə etməli çox məsələlər var. Gündəlik həqiqətən də çox genişdir, güclü siyasi əlaqələr var. Bu gün biz strateji tərəfdaşlığımızın gücləndirilməsinə dair Bəyannamə imzalayacağıq. İqtisadi, enerji, nəqliyyat sektorları - hamısı çox yaxşı səviyyədədir. Mən tərəfdaşlığımızı nəzərdə tuturam və əlbəttə ki, humanitar əlaqələri. Əməkdaşlıq razılaşması imzalamış iki şəhərdən - Veliko Tırnova və Şuşadan olan təmsilçilər də əməkdaşlığımızın əhəmiyyətli hissəsinə töhfə verir.

Biz şadıq ki, hazırda Bolqarıstan və Azərbaycan enerji təhlükəsizliyi məsələləri üzərində sıx şəkildə çalışır. Bizim Bolqarıstana qaz təchizatımız artır. Ümidvaram ki, bu il də artım müşahidə edəcəyik. Biz, həmçinin yaşıl gündəlik üzərində birlikdə işləyirik. Mən cənab Prezidenti COP29-da iştirak etməyə dəvət etdim və onu noyabrda yenidən görməyə şad olaram. Eyni zamanda, yaşıl enerji kabeli layihəsində heyətlərimiz sıx şəkildə işləyirlər. Əminəm ki, səfərin yaxşı nəticələri olacaq və tərəfdaşlığımız uğurla davam edəcək. Beləliklə, cənab Prezident, bir daha Azərbaycana xoş gəlmisiniz.

***

**Prezident Rumen Radev** çıxış edərək dedi:

– Cənab Prezident, əziz dostum İlham Əliyev, ənənəvi səmimi qonaqpərvərliyinizə görə təşəkkür edirəm. Bildiyimiz kimi, bu, son iki ildə bizim dördüncü görüşümüzdür və bu, çox yaxşı haldır. Çünki yüksək səviyyəli siyasi təmaslar bizim qarşılıqlı maraq doğuran sahələrin hamısının inkişaf etdirilməsinə zəmin yaradır. Biz enerji sektorunda aparılan əməkdaşlıqdan çox məmnunuq. Son iki il ərzində biz çoxlu iş görmüşük. Yunanıstan və Bolqarıstan arasında rəsmi interkonnektorun açılışında şəxsən iştirak etdiniz. Bununla yanaşı, SOCAR-ın nümayəndəliyinin açılışında iştiraka görə Sizə təşəkkür edirəm. Həmçinin Sizin iştirakınızla biz "Həmrəylik Halqası" layihəsi çərçivəsində Bolqarıstan, Rumıniya, Macarıstan və Slovakiyanın qazötürücü şəbəkələri, habelə SOCAR arasında Anlaşma Memorandumunu imzaladıq. Bu, Avropa Komissiyasının strateji baxışına və Avropa Komissiyasının Prezidenti ilə 2022-ci ildə imzaladığınız strateji tərəfdaşlığa dair Memoranduma əsasən həyata keçirilir.

Biz Azərbaycan qazının əlavə həcmlərinin Avropaya nəql edilməsi üçün ölkənizlə birlikdə işləyə biləcəyimizə görə çox məmnunuq. Aydındır ki, biz birlikdə işləməklə təkcə ikitərəfli əməkdaşlığımızı gücləndirmirik. Bu, Qafqaz və Qara dəniz regionunun sabitliyi və iqtisadi inkişafı üçün atılan bir addımdır. Bu, ümumilikdə Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsi üçün atılan bir addımdır.

***

Mayın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Bolqarıstan Respublikasının Prezidenti Rumen Radevin iştirakı ilə Azərbaycan-Bolqarıstan sənədlərinin imzalanması mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev "Azərbaycan Respublikası ilə Bolqarıstan Respublikası arasında strateji tərəfdaşlığın gücləndirilməsi haqqında Birgə Bəyannamə"ni imzaladılar.

Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Elmin Məmmədov və "Bulgaria Air" aviaşirkətinin İdarə Heyətinin üzvü Xristo Todorov "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar









Cəmiyyəti və "Bulgaria Air" Səhmdar Cəmiyyəti arasında kod paylaşma Sazişi"ni imzaladılar.

Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Elmin Məmmədov və Bolqarıstan Respublikasının energetika nazirinin vəzifəsini icra edən Vladimir Malinov "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Bolqarıstan Respublikasının İnnovasiya və İnkişaf Nazirliyi arasında texnoloji innovasiya sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzaladılar.



Azərbaycan Respublikasının iqtisadiyyat naziri Mikayıl Cabbarov və "Asarel Investment" şirkətinin müşahidə şurasının sədri Dimitar Tsosorkov "Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə "Asarel Investment" arasında Anlaşma Memorandumu"nu imzaladılar.



***

Mayın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə dövlətimizin başçısı mətbuata bəyanatla çıxış etdi.

## Prezident İlham Əliyevin bəyanatı



– Hörmətli cənab Prezident, əziz dostum.

Hörmətli xanımlar və cənablar.

Hörmətli qonaqlar.

Bu gün Bolqarıstan Respublikasının Prezidentinin Azərbaycana səfəri zamanı bir neçə önəmli sənəd imzalanmışdır. Onların arasında təbii ki, strateji tərəfdaşlığın gücləndirilməsi haqqında Birgə Bəyannaməni xüsusilə qeyd etmək istərdim. Bolqarıstan və Azərbaycan 2015-ci ildən strateji tərəfdaşdırlar. Bu illər ərzində əlaqələrimiz sürətlə və uğurla inkişaf edib. Bolqarıstan Prezidentinin budəfəki səfəri bunun növbəti təzahürüdür.

Bizim Prezident Radevlə görüşlərimiz müntəzəm xarakter daşıyır. Keçən il həm Prezident Radev Azərbaycana, həm də mən Bolqarıstana səfərlər etmişdik. Eyni zamanda, keçən il biz Bolqarıstan-Serbiya sərhədində görüşmüşdük. Bir sözlə, fəal siyasi dialoq imkan verir ki, bütün istiqamətlər üzrə əlaqələrimiz genişlənsin, dərinləşsin və yeni nəticələr əldə edilsin.

Təbii ki, bu gün Bolqarıstan-Azərbaycan əlaqələrinin geniş spektri müzakirə edilmişdir və gələcək addımlarımız haqqında fikir mübadiləsi aparılmışdır. Son vaxtlar ticarət dövriyyəsi bir neçə dəfə artmışdır. Bunun əsas səbəbi təbii ki, enerji sektorundakı əməkdaşlıqdır. Bu əməkdaşlığın bugünkü səviyyəsi və perspektivləri də çox müsbətdir. Təkcə onu demək kifayətdir ki, təbii qaz təchizatı sahəsində ildən-ilə Azərbaycan qazının Bolqarıstana ixracı artmaqdadır. Keçən il 1 milyard 250 milyon kubmetr Azərbaycan qazı Bolqarıstan bazarına nəql edilmişdir. Müqayisə üçün deyə bilərəm ki, 2022-ci ildə bu rəqəm cəmi 600 milyon kubmetr idi. Bizim hesablamalarımız onu göstərir ki, bu ilin sonuna qədər 1,5 milyard kubmetr Azərbaycan qazı Bolqarıstana ixrac ediləcək. Bu da Bolqarıstanın qaz istehlakının təqribən 50 faizini təşkil edir. Yəni, bu gün Azərbaycan Avropa Komissiyasının dili ilə desək, Panavropa qaz təchizatçısı kimi fəaliyyətini Avropa məkanında genişləndirir və enerji təhlükəsizliyi məsələlərinin həlli üçün öz dəstəyini əsirgəmir.

Bolqarıstan, eyni zamanda, qaz nəqli istiqamətində önəmli tranzit ölkəyə çevrilibdir. Hazırda Azərbaycan qazı Bolqarıstan ərazisindən digər qonşu ölkələrə ixrac edilir və şübhəsiz ki, gələcəkdə bu ölkələrin sayı daha da artacaq. Yəni, bu, əməkdaşlığımızın konkret nəticələridir, çox güclü ikitərəfli əlaqələrimizin məntiqi nəticəsidir. Çünki bizim əməkdaşlığımız gərək konkret nəticələrlə sonuclansın. Yəni, əməkdaşlığın əsas məqsədi daha yaxşı nəticələri əldə etməkdir və biz həm ticarət dövriyyəsinin artımında, eyni zamanda, energetika sahəsindəki əməkdaşlıqda bunu görürük.

Bu gün biz bir layihəni də müzakirə etdik, o da yaşıl enerji kabelidir. Bildiyiniz kimi, Azərbaycan tərəfdaş ölkələrlə, o cümlədən Bolqarıstanla bu istiqamətdə çox fəal iş aparır. Hesab edirik ki, bir neçə aydan sonra hazır olacaq texniki-iqtisadi əsaslandırma işlərin başlanması üçün gözəl zəmin olacaq. Beləliklə, Azərbaycan Avropa məkanı üçün təkcə neft-qaz təchizatçısı kimi deyil, eyni zamanda, yaşıl enerji təchizatçısı kimi özünü göstərəcək. Potensial kifayət qədər genişdir və biz bu barədə, eyni zamanda, ilin sonunda COP29 konfransında da danışacağıq. Mən Prezident Radevi bu tədbirdə iştirak etmək üçün Azərbaycana dəvət etmişəm.

Bir önəmli istiqamət isə nəqliyyatla bağlıdır. Bu da müzakirə edildi. Mən Prezident Radevə məlumat verdim ki, Azərbaycanın sərmayəsi sayəsində bir neçə gün bundan əvvəl Bakı-Tbilisi-Qars dəmir yolunun modernləşdirilməsi tam başa çatmışdır. Onun ötürmə qabiliyyəti bir neçə dəfə artırılmışdır. Vaxtilə Azərbaycan tərəfindən təşəbbüs kimi irəli sürülmüş, bu gün isə artıq imkanları genişləndirilmiş bu layihə Orta Dəhlizin önəmli seqmenti kimi təbii ki, mühüm rol oynayacaq. Həm Şərq-Qərb istiqaməti və həm də əks istiqamət üzrə daha böyük həcmdə yüklərin daşınması bizim münasibətlərimizi daha da gücləndirəcək.

Bir sözlə, hesab edirəm ki, artıq bugünkü səfərin nəticələri haqqında danışmaq olar. Nəticələrdən biri odur ki, strateji tərəfdaşlığımızın artıq gücləndirilmiş versiyası rəsmən qəbul edilib, təsdiqlənib. Bütün qeyd etdiyim və bir neçə başqa məsələ ilə bağlı da bizim fikir ayrılığımız yoxdur. Bizim məqsədimiz ikitərəfli

əməkdaşlığı dərinləşdirmək, yeni məzmunla zənginləşdirmək və strateji tərəfdaşlar kimi birgə səylər göstərməkdir.

Hörmətli cənab Prezident, bir daha Sizi salamlayıram və Sizə xoş səfər arzulayıram.

***

Sonra Bolqarıstan Prezidenti bəyanatla çıxış etdi.

## Prezident Rumen Radevin bəyanatı



– Hörmətli cənab Prezident.

Hörmətli nümayəndə heyətinin üzvləri.

Hörmətli media nümayəndələri.

Əvvəlcə mən Bolqarıstanın dostu və mənim şəxsi dostum Azərbaycan Prezidenti İlham Əliyevə dəvətə və səmimi qonaqpərvərliyə görə təşəkkürümü bildirmək istərdim. Bu, ənənəvi Azərbaycan qonaqpərvərliyinə uyğun olan bir qarşılanmadır.

Bizi ənənəvi dostluq, anlaşma və qarşılıqlı etimad əlaqələri birləşdirir. Biz ən yüksək səviyyədə siyasi-strateji dialoqu aparırıq. Cənab Prezident Əliyev qeyd etdiyi kimi, bu, bizim son dövrdə dördüncü görüşümüzdür. Bu, təkcə vacib bir göstərici deyil, bizim ən yüksək səviyyədə olan siyasi dialoqumuz yaxşı zəmin yaradır ki, təkcə ölkələrimizin deyil, Qafqazın və Qara dəniz hövzəsinin iqtisadi firavanlığını təmin edir, həmçinin Avropanın enerji təhlükəsizliyinə töhfə verir. Mən icazənizlə bir neçə nailiyyətimizi sadalamaq istərdim. Birincisi, Azərbaycan Bolqarıstan üçün enerji sahəsində mühüm, həlledici tərəfdaşa çevrilib və bizim qaz təchizatının şaxələndirilməsində vacib rol oynayır. 2022-ci ilin payızında Prezident Əliyevin iştirakı ilə Sofiya şəhərində biz Yunanıstanla Bolqarıstan arasında qaz şəbəkəsindən istifadə etməyə başladıq və beləliklə də Cənub Qaz Dəhlizi Mərkəzi və Şərqi Avropaya birləşdi. Bu, əlbəttə, Avropa Komissiyasının siyasətinə uyğun idi ki, enerjinin şaxələndirilməsi və mənbələrin təhlükəsizliyi təmin edilsin. Çünki müvafiq Avropa İttifaqı-Azərbaycan strateji tərəfdaşlıq Sazişi imzalanmışdır. Bundan sonra cənab Prezident bir daha Bolqarıstana səfər etdi və orada bizim təşəbbüsümüzlə "Həmrəylik Halqası" layihəsi ilə bağlı memorandum imzaladıq ki, burada səylərimizi birləşdirəcəyik və Bolqarıstan, Rumıniya, Macarıstan, Slovakiya və SOCAR-ın imkanları səfərbər edilsin ki, Azərbaycandan əlavə qaz həcmləri bizim istiqamətdə daxil ola bilsin. Bu da bütün regionun təhlükəsizliyi üçün vacib bir məsələdir. Biz, eyni zamanda, Sofiyada SOCAR-ın ofisinin birlikdə açılışını etdik. Bu da onun göstəricisi idi ki, biz enerji sahəsində əməkdaşlığı dərinləşdirmək əzmindəyik.

Bizim müzakirələrimizdə enerji aparıcı rol oynayır. Ancaq bu, bizim əməkdaşlığımızı məhdudlaşdıran bir amil deyil. Bizim digər sahələrdə də həm hökumət səviyyəsində, həm də işgüzar dairələr arasında əlaqələrimiz var. Hətta bələdiyyələr səviyyəsində də təmaslarımız var ki, biz əlaqələri və əməkdaşlığı gücləndirək. Burada həm nəqliyyat, həm rəqəmsallaşma aspektləri də mövcuddur, yaşıl enerji layihələri, təhsil, mədəniyyət və turizm sahələrində birgə layihələrimiz var. Ona görə, təbii bir haldır ki, bu gün biz çox əhəmiyyətli bir sənəd – Azərbaycan ilə Bolqarıstan arasında strateji tərəfdaşlığın gücləndirilməsi haqqında Birgə Bəyannaməni imzaladıq. Bu isə bizim mühüm, nəhəng potensialımızın və qarşılıqlı istəyimizin göstəricisi idi ki, ölkələrimiz çox gözəl, əla səviyyədə olan əlaqələri daha da yüksək səviyyəyə qaldırsınlar. Bundan əlavə, bir neçə sazişin imzalanmasının şahidi olduq. Ancaq təkcə bu auditoriyada deyil, digər tədbirdə - biznes forumda da müvafiq sazişlər imzalanır.

Cənab Prezident, Sizi əmin etmək istəyirəm ki, bizim birgə marağımız və istəyimiz ondan ibarətdir ki, ölkələrimizin geosiyasi, geostrateji yerləşməsini nəzərə alaraq, təkcə enerji, nəqliyyat və əməkdaşlıq deyil, digər sahələrdə də strateji mövqeyə malik olaq. Biz əlimizdən gələni edəcəyik ki, bütün sahələrdə, xüsusilə də bağlantı məsələsində regionlarımızda sabitliyi təmin edək. Biz Asiya və Avropa arasında əlaqələrin intensivləşməsinə töhfə veririk və bu, bizim üçün prioritetdir.

Prezident Əliyevin təşəbbüsü ilə biz tariflərin uyğunlaşdırılması və gömrük inzibatçılığı məsələlərində də



sadələşdirmə prosesləri ilə məşğul oluruq ki, biz həmin məsələləri həll edə bilək. Gördüyünüz kimi, burada AZAL və Bolqarıstan hava yolları arasında saziş imzalandı. Biz Sofiya-Bakı müntəzəm uçuşlarının bərpa edilməsini görəcəyik. Eyni zamanda, biz "Asarel Investment" və SOCAR arasında Sazişin imzalanmasının şahidi olduq və bu sahədə də görüləcək işlərimiz çoxdur.

Mən Prezident Əliyevlə yeddi ildən artıqdır ki, tanışam və bu dövr ərzində bizim çoxsaylı müzakirələrimiz olub. Mən onun cəsarətli baxışına şahidəm, ona çox gözəl bələdəm. O, Azərbaycanı dinamik şəkildə inkişaf etdirmək əzmindədir. Yaşıl enerji layihələri bunun bariz nümunəsidir. Bununla yanaşı, onun fəal diplomatiyası da imkan verdi ki, bu gün biz beynəlxalq səviyyədə sülh və təhlükəsizlik, sabitlik haqqında danışaq. Ona görə mənə heç də təəccüblü gəlmədi ki, Azərbaycan COP29 kimi olduqca mötəbər bir tədbirə ev sahibi seçildi. Biz Bolqarıstan olaraq o zaman Azərbaycanın namizədliyini qəti şəkildə dəstəklədik. Bu gün mən Prezident Əliyevə məlumat verdim ki, biz də öz növbəmizdə institusional və ekspert səviyyəsində COP29-a dəstək verməyə hazırıq.

Bu gün bir çox şirkətlərin nümayəndələri mənimlə Bakıda səfərdədirlər. Artıq onlar müxtəlif həllər təklif edirlər ki, Azərbaycan bu regionda öz liderlik rolunu inkişaf etdirməkdə davam etsin, xüsusilə də yaşıl enerji, ətraf mühitin qorunması sahələrində. Sizə bir nümunə deyə bilərəm, bizim işlənmiş neft məhsulundan yeni məhsullar əldə etmək layihəmiz var. Bu materiallardan həm gübrə kimi, həm də tikinti materialı kimi istifadə oluna bilər. Eyni zamanda, karqodronların istehsalı sahəsini yarada bilərik. Yəni, söhbət yüklərin pilotsuz aparatlar vasitəsilə daşınmasından gedir, əlbəttə, söhbət, kiçikhəcmli yüklərdən gedir. Bununla da Azərbaycana regionda aparıcı, yüksək texnologiyaya sahib olan və xüsusilə də ətraf mühit üçün zərərsiz olan həllər və layihələr təklif edirik. Biz nəinki bu layihələri müzakirə edirik, bəziləri ilə bağlı artıq sazişlər imzalanıb, müqavilələr bağlanıb.

Biz cənab Prezidentin Bolqarıstana səfəri çərçivəsində Azərbaycanın qədim mədəniyyət paytaxtı Şuşa və Veliko-Tırnovo ilə əlaqələr qurduq. Mən Sizə təşəkkür edirəm ki, Sizin dəstəyinizlə bir neçə gözəl layihə həyata keçirilib. Bu işdə Heydər Əliyev Fondunun da fəal rolu olub. Bu Fond bizim ölkədə tarixi-mədəni abidələrin qorunması layihələrini həyata keçirib.

Bir daha Sizi bu gözəl abidələrin bərpadan sonra açılışı ilə bağlı Bolqarıstana dəvət edəcəyik, cənab Prezident. Çox səmərəli, məhsuldar müzakirələrə görə Sizə bir daha təşəkkür edirəm, bu dəvətə görə təşəkkür edirəm. İnanıram ki, bu müzakirələr zamanı əldə etdiyimiz razılaşmalar və imzalanmış sənədlər bizim strateji tərəfdaşlığımızı daha da dərinləşdirəcək və artıq çox güclü olan əməkdaşlığın təməlini daha da gücləndirəcək. Sağ olun.



***

Mayın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın adından Bolqarıstan Respublikasının Prezidenti Rumen Radevin və birinci xanım Desislava Radevanın şərəfinə rəsmi nahar verilib.

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Misirə rəsmi səfər edib









Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 7-də Misir Ərəb Respublikasına rəsmi səfərə gedib.

Qahirə Beynəlxalq Hava Limanında Azərbaycan Prezidentini rəsmi şəxslər qarşıladılar.

***

İyunun 8-də Misirin paytaxtı Qahirədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olub.





Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısının şərəfinə toplardan yaylım atəşi açıldı.

Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı.

Azərbaycan Respublikasının və Misir Ərəb Respublikasının Dövlət himnləri səsləndirildi.

Fəxri qarovul dəstəsinin rəisi dövlətimizin başçısına raport verdi.









Azərbaycan və Misir prezidentləri fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Misir nümayəndə heyəti Prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyəti isə Prezident Əbdülfəttah əs-Sisiyə təqdim olundu.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.

***




İyunun 8-də Qahirədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisi ilə təkbətək görüşü olub.



İyunun 8-də Qahirədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisi ilə geniş tərkibdə görüşü keçirilib.

Görüşdə Azərbaycan ilə Misir arasında ikitərəfli siyasi əlaqələrin səviyyəsindən məmnunluq ifadə olundu. Ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı yüksək qiymətləndirildi, bu xüsusda Qoşulmama Hərəkatında və İslam Əməkdaşlıq Təşkilatında işbirliyi vurğulandı. Misirin COP27-yə, Azərbaycanın isə COP29-a sədrlik etməsi vurğulanaraq, ölkələrimiz arasında bu sahədə əməkdaşlıq və təcrübə mübadiləsinin aparılması qeyd olundu.

BMT-nin Məskunlaşma Proqramı (UN-HABITAT) vasitəsilə Dünya Şəhərsalma Forumuna Misirin bu il, Azərbaycanın isə 2026-cı ildə ev sahibliyi edəcəyi nəzərə alınaraq, bu sahədə də təcrübə mübadiləsinin və birgə əməkdaşlığın önəmi vurğulandı.

Söhbət zamanı ölkələrimiz arasında enerji, tikinti, sənaye, əczaçılıq, nəqliyyat və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olundu, hökumətlərarası komissiyanın növbəti iclasının Misirdə keçiriləcəyi bildirildi. Azərbaycanın biznes nümayəndə heyətinin Misirə səfər etdiyi və müxtəlif sahələrdə əməkdaşlıq imkanlarının hazırda nəzərdən keçirildiyi qeyd olundu.

Həmçinin Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin imkanlarının artırılması, Misirin Türkiyənin Mersin limanı vasitəsilə bu xətdən istifadə edərək, Mərkəzi Asiya ölkələri ilə iqtisadi-ticari əlaqələrin genişləndirilməsi məsələləri müzakirə olundu. Şimal-Cənub Nəqliyyat Dəhlizi və bu xüsusda əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

Görüşdə Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşma prosesinin Misir tərəfindən dəstəkləndiyi, dörd kəndin danışıqlar yolu ilə Azərbaycana qaytarıldığı, iki ölkə arasında sərhədlərin delimitasiyası və demarkasiyası istiqamətində aparılan işlər təqdir olundu.

Misir şirkətlərinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində bərpa-quruculuq işlərində iştirak etməkdə maraqlı olduqları vurğulandı.

***

İyunun 8-də Qahirədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisinin iştirakı ilə Azərbaycan-Misir sənədlərinin imzalanması mərasimi olub.

Misirin xarici işlər naziri Sameh Həssən Şukri və Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə Misir Ərəb Respublikasının Gənclər və İdman Nazirliyi arasında gənclər və idman sahələrində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu və "Azərbaycan Respublikasının Bakı Şəhər İcra Hakimiyyəti ilə Misir Ərəb Respublikasının Qahirə Qubernatorluğu arasında dostluq və əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzaladılar.

Misirin xarici işlər naziri Sameh Həssən Şukri və Azərbaycanın energetika naziri Pərviz Şahbazov "Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Misir Ərəb Respublikasının Elektrik və Bərpaolunan

Enerji Nazirliyi arasında elektrik və bərpaolunan enerji sahələrində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzaladılar.

Misirin xarici işlər naziri Sameh Həssən Şukri və Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov "Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO) ilə Misir Ərəb Respublikasının Sərmayə və Azad Zonalar üzrə Baş Qurumu (GAFI) arasında 2024-2025-ci illər üzrə Birgə Fəaliyyət Planı"nı imzaladılar.

Misirin neft və mineral ehtiyatlar naziri Tarek Əhməd Əl Molla və Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Misir Ərəb Respublikasının Neft və Mineral Ehtiyatlar Nazirliyi arasında əməkdaşlıq haqqında Niyyət Protokolu"nu imzaladılar.

Misirin beynəlxalq əməkdaşlıq naziri xanım Raniyə Əl Maşat və Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Misir Ərəb Respublikasının Beynəlxalq Əməkdaşlıq Nazirliyi arasında təcrübə mübadiləsi haqqında Anlaşma Memorandumu"nu imzaladılar.









Misirin rabitə və informasiya texnologiyaları naziri Amr Talaat və Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Misir Ərəb Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzaladılar.

***

İyunun 8-də Qahirədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisi mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə Misir Prezidenti bəyanatla çıxış etdi.

## Prezident Əbdülfəttah əs-Sisinin bəyanatı



– Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyev.

Zati-alilərinizi və Sizi müşayiət edən nümayəndə heyətinizi qəbul etməkdən xoşbəxtəm. Bu səfəriniz ikitərəfli əlaqələrimizin möhkəmləndirilməsinə xidmət edir və yol açacaq. Eyni zamanda, Zati-alinizin Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm. Həmçinin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına ev sahibliyi etməyiniz münasibətilə də ürəkdən təbrik edirəm.

Bu gün Azərbaycan Respublikasının Prezidenti ilə keçirdiyim danışıqlar ikitərəfli əlaqələrin müxtəlif sahələrdə möhkəmləndirilməsinə xidmət edir. Eyni zamanda, qarşılıqlı maraq kəsb edən regional və beynəlxalq məsələlər ətrafında müzakirələr apardıq. O cümlədən inşaat, nəqliyyat, əczaçılıq, neft və infrastruktur sahələrində mümkün əməkdaşlıq imkanlarını müzakirə etdik. Həmçinin iki ölkə arasında birgə komissiyanın fəaliyyətinin və növbəti iclasının təşkilinin önəmini qeyd etdik. Tezliklə komissiyanın növbəti iclasının keçirilməsini qərara aldıq ki, iqtisadi-ticari sahədə əlaqələrimiz daha da inkişaf etsin.

Xanımlar və cənablar, regional məsələlər Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri ilə müzakirələr əsnasında diqqət mərkəzində olub. Cənab Prezidentlə müzakirələrdə, eyni zamanda, Qəzzada fələstinli insanlar üçün humanitar yardımların həcminin artırılması istiqamətində Misirin səylərini müzakirə etdik və 1967-ci il iyunun 4-dən əvvəlki sərhədlər çərçivəsində müstəqil Fələstin Dövlətinin yaradılmasının zəruriliyini vurğuladıq.

Cənab Prezidentə Cənubi Qafqazda sülhün, təhlükəsizliyin təmin edilməsi istiqamətində səylərin vacibliyini və bu səyləri dəstəklədiyimizi bir daha bildirdim. Bu səylər region ölkələrinin və xalqlarının inkişafı üçün böyük töhfə olacaq. Həmçinin cənab Prezidentə bildirdim ki, növbəti mərhələdə ikitərəfli əlaqələrin bütün sahələrdə inkişafının şahidi olacağıq.

Buyurun, cənab Prezident, söz Sizindir.

***

Sonra Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.

## Prezident İlham Əliyevin bəyanatı



– Hörmətli cənab Prezident, Zati-aliləri.

İlk növbədə, dəvətə və qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Qədim tarixə malik ölkənizdə olmağımdan çox məmnunam.

Bu səfər Misir-Azərbaycan əlaqələrinin inkişafına böyük töhfə verəcək. Keçən il biz Prezident əs-Sisini Azərbaycanda qəbul etmişdik, bu il mən səfər edirəm. Yəni, bu onu göstərir ki, siyasi dialoq müntəzəm xarakter daşıyır. Biz razılaşdıq ki, bu siyasi dialoq bundan sonra da davam etdirilsin. Mən Prezident əs-Sisini Bakıda keçiriləcək COP29 konfransına dəvət etdim və şadam ki, mənim dəvətim qəbul edilmişdir. Eyni zamanda, bildirdim ki, Misirin COP27 sədrliyi və ev sahibliyi böyük uğurlarla nəticələndi. Bu münasibətlə həmkarımı təbrik etdim və eyni zamanda, Misirin bu sahədəki təcrübəsini öyrənmək üçün müraciət etdim və bizim nümayəndələrimiz daim təmasdadırlar.

Beynəlxalq məsələlərin müzakirəsi zamanı aydın oldu ki, fikir ayrılığımız yoxdur. Bütün beynəlxalq məsələlərdə bizim fikrimiz üst-üstə düşür. Əslində, biz beynəlxalq təşkilatlar çərçivəsində fəal çalışırıq, o



cümlədən BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində fəal əməkdaşlıq edirik, İslam həmrəyliyinin gücləndirilməsi istiqamətində birgə səylər göstəririk. Bildiyiniz kimi, Misirin dəstəyi ilə Azərbaycan dörd il ərzində Qoşulmama Hərəkatına sədrlik etmişdir. Bu sədrliyin nəticəsində Hərəkat daha böyük imkanlara malik olmuşdur.

Fələstin-İsrail münasibətlərinin tənzimlənməsi və müstəqil Fələstin Dövlətinin yaradılması bizim Qoşulmama Hərəkatına sədrliyimiz dövründə hər zaman diqqət mərkəzində idi, bir çox tədbirlər keçirilmişdir və Azərbaycanın mövqeyi birmənalıdır - müstəqil Fələstin Dövləti qurulmalıdır, Şərqi Qüds onun paytaxtı olmalıdır. Bu gün Qəzzada yaşanan faciə tezliklə dayandırılmalıdır, müharibə dayandırılmalıdır və bütün məsələlər danışıqlar yolu ilə həll olunmalıdır. Mən Prezident əs-Sisiyə bildirdim ki, biz Misirin bu istiqamətlərdəki səylərini dəstəkləyirik və Misir tərəfindən irəli sürülmüş təşəbbüslər diqqətə alınmalıdır.

Eyni zamanda, biz Cənubi Qafqazdakı prosesləri də müzakirə etdik. Mən bildirdim ki, hazırda Azərbaycan və Ermənistan öz dövlət sərhədlərini müəyyənləşdirmək işində müəyyən uğurlara nail olublar. Demək olar ki, 12,7 kilometr dövlət sərhədi razılaşdırıldı. Azərbaycanın Qazax rayonunun otuz ildən çox müddət ərzində işğal altında olmuş dörd kəndi danışıqlar yolu ilə Azərbaycana geri qaytarılmışdır və biz bunu müsbət hal kimi qiymətləndiririk. Eyni zamanda, hesab edirəm ki, danışıqlar prosesində də irəliləyiş üçün yaxşı imkanlar var. Hər halda Azərbaycan buna hazırdır.



Onu da bildirdim ki, Azərbaycan keçən ilin sentyabr ayında öz dövlət suverenliyini və ərazi bütövlüyünü tam bərpa etmişdir. Əlbəttə ki, bu, Ermənistan ilə normallaşdırma yolumuzda önəmli amil olacaqdır. Həmkarımın diqqətinə o da çatdırıldı ki, iki ilə yaxındır Azərbaycan-Ermənistan şərti sərhədində sakitlikdir, heç bir atəşkəs pozuntusu müşahidə edilmir.

İkitərəfli münasibətlərə gəldikdə, ticarət həcminin artırılması təbii ki, müsbət haldır. Əgər statistik rəqəmlərə baxsaq görərik ki, ticarət dövriyyəsi bir neçə dəfə artıb. Ancaq mütləq rəqəmlər hələ bizi qane etmir və bu gün imzalanmış sənədlər, əldə edilmiş razılaşmalar əminəm ki, bu istiqamətdə də bizə kömək edəcək. Əminəm ki, ilk növbədə, energetika, bərpaolunan enerji növlərinin istehsalı, neft sənayesi, əczaçılıq, alüminium sənayesi sahələrində və digər sahələrdə yaxşı nəticələr əldə etmək mümkün olacaq.

Biz bu gün, eyni zamanda, yeni nəqliyyat dəhlizləri ilə əlaqədar fikir mübadiləsi apardıq. Həm Şərq-Qərb, həm Şimal-Cənub nəqliyyat dəhlizləri Azərbaycan ərazisindən keçir. Azərbaycan ərazisində bütün infrastruktur yaradılıb və beləliklə, nəqliyyat-logistika sahəsində əməkdaşlıq üçün çox gözəl imkanlar açılmaqdadır.

Birgə hökumətlərarası komissiyanın növbəti iclası ilə bağlı nümayəndə heyətlərinin üzvləri bizə məlumat vermişlər. Komissiyanın sonuncu iclası iki il bundan əvvəl Azərbaycanda keçirilmişdir. Yəqin ki, komissiyanın növbəti iclası bu il keçiriləcək və prezidentlər tərəfindən verilmiş bütün göstərişlər, əminəm, ciddi müzakirə ediləcək və beləliklə, biz əməkdaşlıq istiqamətində növbəti önəmli addım atacağıq.

Hörmətli cənab Prezident, Zati-aliləri, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə bir daha təşəkkürümü bildirmək istəyirəm. Əminəm ki, noyabr ayında Bakıda COP29 çərçivəsində biz Sizinlə yenidən görüşəcəyik.

***

İyunun 8-də Qahirədə Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah Əs-Sisinin adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi nahar verilib.

***





İyunun 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qahirədə Əl-Əzhəri Şərifin şeyxi, böyük imam Əhməd Məhəmməd Əhməd Əl Tayyib ilə görüşü olub.

Görüşdə Prezident İlham Əliyev Əl-Əzhərdə ikinci dəfə olduğunu xatırladı, Misirə rəsmi səfəri çərçivəsində yenidən burada olmağından və Əl-Əzhəri Şərifin şeyxi, böyük imam Əhməd Məhəmməd Əhməd Əl Tayyib ilə görüşündən məmnunluğunu bildirdi.

Dövlətimizin başçısı Azərbaycan-Misir münasibətlərinin çox yaxşı səviyyədə olduğunu, ölkələrimiz arasında tarixi əlaqələrin mövcudluğunu qeyd etdi. Prezident İlham Əliyev bütövlükdə ərəb dövlətləri ilə əlaqələrin inkişaf etdirilməsinin Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən biri olduğunu vurğuladı.

Dövlətimizin başçısı Azərbaycanda dinlər, mədəniyyətlər və sivilizasiyalar arasında dialoqun inkişafı ilə bağlı mühüm tədbirlərin keçirildiyini, ölkəmizin dinlərarası dialoqa öz töhfəsini verdiyini bildirdi, böyük imam Əhməd Məhəmməd Əl Tayyibi ölkəmizə səfərə dəvət etdi.

Azərbaycan Prezidenti ölkəmizin bu il COP29-a ev sahibliyi edəcəyini diqqətə çatdırdı. Prezident İlham Əliyev Azərbaycanın Əl-Əzhər ilə birlikdə dini liderlərin növbəti görüşünün COP29 çərçivəsində keçirilməsi təşəbbüsü ilə çıxış etdiyini vurğuladı.

Dövlətimizin başçısı Azərbaycan torpaqlarının otuz ilə yaxın müddətdə işğal altında qaldığını xatırladaraq, işğal dövründə Azərbaycanın İslam dininə aid maddi-mədəniyyət abidələrinin, o cümlədən 67 məsciddən 65-nin tamamilə dağıdıldığını diqqətə çatdırdı. Prezident İlham Əliyev bu münaqişənin həllinin siyasi yolla mümkün olmadığını təəssüf hissi ilə vurğulayaraq, Azərbaycanın özünümüdafiə hüququndan istifadə edib

işğala son qoyduğunu, ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdiyini dedi. Dövlətimizin başçısı azad olunmuş ərazilərdə məscidlərin, İslam irsinin bərpası istiqamətində tədbirlərin həyata keçirilməsinə başlandığını, artıq beş məscidin bərpa olunduğunu bildirdi. Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycan İslam həmrəyliyinə töhfə verir və bu istiqamətdə qardaş müsəlman ölkələri ilə birlikdə səylərini davam etdirir.

Azərbaycan Prezidenti Şuşa şəhərinin İslam mədəniyyətinin paytaxtı elan olunmasının və bu çərçivədə Şuşada keçirilən tədbirlərin önəmini vurğuladı. Dövlətimizin başçısı, həmçinin vaxtilə Şuşada mövcud olmuş 17 məsciddən 16-sının işğal dövründə tamamilə dağıdıldığını dedi.

Əl-Əzhəri Şərifin şeyxi, böyük imam Əhməd Məhəmməd Əhməd Əl Tayyib bu ziyarətə görə dövlətimizin başçısına təşəkkürünü bildirdi və Misirlə Azərbaycan arasında əlaqələrin çox yaxşı səviyyədə olduğunu qeyd etdi. O, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam təmin etməsindən məmnunluğunu bildirdi. COP29-a dəvətə görə təşəkkürünü bildirən Əhməd Məhəmməd Əhməd Əl Tayyib bu tədbirdə məmnunluqla iştirak edəcəyini dedi.

Əl-Əzhəri Şərifin şeyxi Bakıda dünya dini liderlərinin II Sammitinin keçirildiyini xatırladaraq, Azərbaycanın İslam həmrəyliyinə verdiyi töhfəyə görə Prezident İlham Əliyevə şəxsən təşəkkürünü bildirdi və COP29 çərçivəsində də dini liderlərin toplantısının keçirilməsi üçün birgə işlərin aparıldığını qeyd etdi.

O, Əl-Əzhəri Şərifin Azərbaycanda ərəb dilinin tədrisinə öz dəstəyini verməyə hazır olduğunu vurğuladı, Əl-Əzhərdə azərbaycanlı tələbələrin də təhsil aldıqlarını diqqətə çatdırdı.




Ölkəmizdə ərəb dilinin tədrisinə dəstək niyyətinə görə təşəkkürünü ifadə edən Prezident İlham Əliyev tarixən Azərbaycanda ərəb dilinin və İslam mədəniyyətinin tədqiqinə və tədrisinə böyük diqqət yetirildiyini vurğuladı, Bakı Dövlət Universitetində şərqşünaslıq fakültəsinin, Azərbaycan Milli Elmlər Akademiyasında Şərqşünaslıq İnstitutunun fəaliyyət göstərdiyini qeyd etdi.

Sonra xatirə hədiyyələri təqdim olundu.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Misir Ərəb Respublikasına rəsmi səfəri iyunun 8-də başa çatıb.




Qahirə Beynəlxalq Hava Limanında dövlətimizin başçısını rəsmi şəxslər yola saldılar.

# İlham Əliyevə İtaliyanın "Leonardo" şirkətinin istehsalı olan hərbi nəqliyyat təyyarəsi təqdim edilib



İyunun 26-da Heydər Əliyev Beynəlxalq Aeroportunda Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə İtaliya Respublikasının "Leonardo" şirkətinin istehsalı olan "C-27J Spartan" tipli hərbi nəqliyyat təyyarəsi təqdim olunub.

Tədbirdə İtaliyanın müdafiə naziri Quido Krosetto, İtaliyanın xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavini Edmondo Çirielli, "Leonardo" şirkətinin prezidenti Stefano Pontekorvo iştirak ediblər.

Azərbaycan Respublikasının müdafiə









naziri general-polkovnik Zakir Həsənov Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verdi.

Dövlətimizin başçısına təyyarənin taktiki-texniki xüsusiyyətləri, istismarı və digər göstəriciləri barədə məlumat verildi. Bildirildi ki, təyyarə mürəkkəb coğrafi relyef və əməliyyat şəraitində həm müdafiə, həm də mülki müdafiə tapşırıqlarını yerinə yetirməyə qadirdir.

"C-27J Spartan" tipli təyyarədən hərbi nəqliyyat, paraşütçülərin və yüklərin havadan atılması, eləcə də tibbi tapşırıqların yerinə yetirilməsi əməliyyatlarında istifadə olunacaq.

# “Rəqəmsal cinayət prosesi: müasir çağırışlar və hədəflər” mövzusunda konfrans keçirilib







Aprel ayının 2-də “Ritz-Carlton” otelində Azərbaycan Respublikasının Baş Prokurorluğunun təşkilatçılığı ilə “Rəqəmsal cinayət prosesi: müasir çağırışlar və hədəflər” mövzusunda geniş konfrans keçirilmişdir.

Ümumilikdə 20-dək müxtəlif dövlət qurumu və hüquq-mühafizə orqanlarının rəhbər vəzifəli şəxsləri, Baş prokuror yanında Elmi-Məsləhət Şurasının üzvləri, ali təhsil ocaqlarının nümayəndələri və vətəndaş cəmiyyəti üzvlərinin iştirak etdiyi tədbirdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov, Prezident Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Gündüz Kərimov, Ali Məhkəmənin sədri İnam Kərimov, ədliyyə naziri Fərid Əhmədov, Vəkillər Kollegiyasının Rəyasət Heyətinin sədri Anar Bağırov, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti rəisinin müavini Allahverən İsmayılov, Baş prokurorun xüsusi tapşırıqlar üzrə böyük köməkçisi İlqar Səfərov tərəfindən çıxışlar edilmiş, Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsinin rəisi Elnur Musayev tərəfindən “Elektron prokurorluq” informasiya sisteminin təqdimatı keçirilmişdir.

Tədbirdə çıxış edən Baş prokuror Kamran Əliyev bildirib ki, hüquq-mühafizə orqanlarında şəffaflığın, peşəkarlığın artırılması istiqamətində işlər görülür: Rəqəmsallaşma əsas sahələrdən biridir. Bu, cinayət prosesi ilə bağlı xüsusi sahədir. Artıq qanunvericilikdə müəyyən dəyişiliklər edilməsi zəruriyyəti yaranmışdır.

Baş prokuror qeyd edib ki, bütün sahələrdə olduğu kimi, ədalət mühakiməsinin həyata keçirilməsində, o



cümlədən cinayət mühakimə icraatında rəqəmsallaşma müasir dövrün tələbidir.




Ölkəmizdə hüquq-mühafizə orqanlarının, o cümlədən prokurorluğun fəaliyyətində də rəqəmsal texnologiyaların tətbiqi ilə bağlı bir sıra işlər görülüb: "Prezidentin 7 may 2021-ci il tarixli Fərmanı ilə “Elektron prokurorluq” informasiya sistemi yaradılılıb. 1 aprel 2023-cü il tarixdən “Elektron prokurorluq” informasiya sisteminin əsas modulları istifadəyə verilmişdir. 2023-cü ilin sentyabr ayından isə cinayət təqibinin rəqəmsallaşdırılmasına dair ilk addımlar atılaraq informasiya sisteminin “İstintaq” və “Cinayət xarakterli materiallar” modulları istifadəyə verilib. Hazırda prokurorluq orqanlarında icraatda olan bütün cinayət işlərinin və törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumatların araşdırılmasına dair materialların bu modullar vasitəsilə aparılması təmin edilir".

Baş prokuror vurğulayıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı çoxşaxəli inkişafını davam etdirir. Bu, eyni zamanda bizim təmsil etdiyimiz sahə, hüquq mühafizə orqanları, məhkəmə orqanlarının fəaliyyəti ilə də bağlıdır. Bu sahədə şəffaflığın artırılması, çevikliyin təmin edilməsi, peşəkarlığın artırılması vətəndaşları narahat edən bütün məsələlərin təhlil edilməsi, araşdırılması və onlara qarşı qabaqlayıcı tədbirlərin görülməsi ilə bağlı işlər aparılır. Burada təbii ki, rəqəmsallaşma da ön plana çıxır.

"Rəqəmsallaşma cəmiyyətin bütün sahələrində gedir. Lakin cinayət proseslərində bu xüsusi sahədir və çox həssaslıq və dəqiqliklə bu prosesi həyata keçirməliyik. Cinayət prosessual qanunvericilikdə müəyyən dəyişikliklərin edilməsi zərurəti yaranıb", – deyə K.Əliyev bildirib.

Daha sonra konfrans iştirakçıları tərəfindən ibtidai araşdırmanın elektron qaydada həyata keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində və digər qanunvericilik aktlarında əlavə və dəyişikliklər edilməsi və mərhələli şəkildə elektron cinayət təqibinin tətbiqi, ibtidai araşdırmanın elektron qaydada həyata keçirilməsi ilə əlaqədar cinayət prosesi iştirakçılarının və cinayət prosesində iştirak edən digər şəxslərin prosessual hüquqlarının və ibtidai araşdırmanın elektron qaydada həyata keçirilməsi zamanı informasiya təhlükəsizliyinin təmin edilməsi, elektron cinayət prosesinə keçidlə əlaqədar aidiyyəti qurumların əməkdaşlarının bu sahədə peşəkarlığının, bilik, bacarıq və vərdişlərinin artırılması və digər aktual məsələlər geniş müzakirə edilmişdir.

# Baş Prokurorluq ilə Hesablama Palatası arasında memorandum imzalanıb













Aprelin 2-də Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Azərbaycan Respublikası Hesablama Palatası arasında qarşılıqlı əməkdaşlıq barədə memorandum imzalanıb.

Tədbirdə çıxış edən Baş prokuror Kamran Əliyev iki orqan arasında əməkdaşlığın hər zaman yüksək səviyyədə olduğunu bildirməklə yanaşı, bu memorandumun yeni mərhələyə keçid olduğunu ifadə edib. Tərəflər arasında münasibətlərin korrupsiyaya qarşı, dövlət maliyyə sahəsində, o cümlədən iqtisadi xarakterli cinayətlərə qarşı mübarizəyə töhfə verdiyini bildirib.

Sonra çıxış edən Hesablama Palatasının sədri Vüqar Gülməmmədov ali audit orqanlarının korrupsiyanın qarşısının alınmasına cəlb edilməsi təcrübəsinin son illərdə genişləndiyini, korrupsiyaya qarşı mübarizənin Hesablama Palatasının vəzifələrindən biri olduğunu və əməkdaşlıq çərçivəsində müxtəlif təlim proqramlarının həyata keçirilməsinin nəzərdə tutulduğunu qeyd edib.

Qeyd edək ki, memorandum çərçivəsində tərəflər korrupsiyaya qarşı mübarizə səylərini birləşdirmək, bu sahədə sistemli, kompleks və innovativ xarakterli tədbirlərin icrasının davam etdirilməsi və qarşılıqlı maraq doğuran digər sahələrdə mövcud təcrübəni bölüşməklə ikitərəfli münasibətlərin səmərəli təşkil edilməsi və inkişafının təşviqi məqsədilə səlahiyyətləri daxilində funksiyalarını daha operativ və səmərəli icra etmək üçün əməkdaşlıq əlaqələrinin genişləndirilməsi barədə razılıq əldə ediblər.

# İranın Baş prokurorunun müavini Qolam Abbas Torki ölkəmizdə işgüzar səfərdə olub



İran İslam Respublikası Baş prokurorunun ədliyyə, ictimai hüquq və cinayətlərin qarşısının alınması üzrə müavini Qolam Abbas Torkinin rəhbərlik etdiyi nümayəndə heyəti Bakıda keçiriləcək Xəzəryanı dövlətlərin baş prokurorluqlarının nümayəndələrinin beştərəfli görüşündə iştirak etmək üçün ölkəmizə işgüzar səfər edib.



Aprelin 2-də nümayəndə heyətini qəbul edən Baş prokuror Kamran Əliyev ölkə rəhbərlərinin siyasi iradəsi nəticəsində dövlətlərarası əlaqələrimizin bir çox sahələrdə dinamik inkişaf etdiyini vurğulayıb. Azərbaycan və İran prokurorluqları arasında işgüzar əlaqələrin inkişaf etdirilməsinə yönələn tədbirlərin əhəmiyyətindən bəhs edən Baş prokuror ikitərəfli əməkdaşlığın bundan sonra da davam etdiriləcəyinə ümidvar olduğunu bildirib.

Kamran Əliyev ötən ilin yanvar ayında Azərbaycanın Tehrandakı səfirliyinə qarşı terror aktını törətmiş şəxsin müvafiq cəzaya məhkum edilməsi ilə bağlı İranın hüquq mühafizə orqanlarının obyektiv qərarının təqdirəlayiq olduğunu bildirib.

Qolam Abbas Torki qonaqpərvərliyə və qəbula görə təşəkkürünü bildirərək, Azərbaycan Prezidenti cənab İlham Əliyevin növbədənkənar prezident seçkilərində qazandığı inamlı qələbəsi, həmçinin 30 ildən artıq erməni işğalı altında olan torpaqlarımızın azad olunması münasibətilə təbriklərini ifadə edib.

Baş prokurorun müavini ölkəmizdə keçirilən Xəzəryanı dövlətlərin baş prokurorluqlarının nümayəndələrinin beştərəfli görüşünün Azərbaycanın ekoloji problemlərin həllinə verdiyi önəmin bariz nümunəsi olduğunu vurğulayıb.

Baş prokuror Kamran Əliyev təbriklərə görə təşəkkürünü bildirərək dövlət başçısının və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın



diqqət və qayğısı ilə torpaqlarımızın işğaldan azad edilməsindən sonra Qarabağ və Şərqi Zəngəzurda sürətli bərpa və quruculuq işlərinin aparıldığını qeyd edib.

Baş prokuror həmçinin, dünyanın ən mötəbər beynəlxalq tədbirlərindən biri olan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının – COP29-un ölkəmizdə keçirilməsinin dünya ölkələrinin növbəti dəfə Azərbaycana olan böyük etimad və hörmətinin, o cüm-





lədən ölkəmizin dünya miqyasında artan nüfuzu və güclü mövqelərinin göstəricisi olduğunu xüsusilə vurğulayıb.

Hər iki ölkə vətəndaşlarının hüquqlarının qorunması, sərhəd, gömrük, ekoloji, cinayət işləri üzrə hüquqi yardım, ekstradisiya, humanitar və digər məsələlər barədə səmərəli fikir mübadiləsi aparılıb.

Görüşdə İran İslam Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Seyid Abbas Musəvi iştirak edib.

# Qazaxıstanın Baş prokurorunun müavini ölkəmizə işgüzar səfər edib





Qazaxıstan Respublikası Baş prokurorunun müavini Jandos Umiraliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Baş prokuror Kamran Əliyevin dəvətilə Bakıda keçiriləcək Xəzəryanı dövlətlərin baş prokurorluqlarının nümayəndələrinin beştərəfli görüşündə iştirak etmək üçün ölkəmizə işgüzar səfər edib.

İkitərəfli görüşdə Baş prokuror Kamran Əliyev ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin inkişafı, ikitərəfli münasibətlərin möhkəmlənməsi və yeni əməkdaşlıq imkanlarının yaranmasında Azərbaycan Prezidenti cənab İlham Əliyev və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev arasında olan qarşılıqlı etimad və dialoqun mühüm rol oynadığını vurğulayıb. Cari ilin 11-12 mart tarixlərində Qazaxıstan Prezidentinin ölkəmizə dövlət səfəri çərçivəsində işğaldan azad edilmiş Füzuli rayonunda Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin istifadəyə verilməsi xalqlarımızın qardaşlığının daha bir göstəricisi olduğu qeyd edilib.

Həmçinin, Baş prokuror bütün sahələrdə olduğu kimi ölkələrimizin prokurorluq və hüquq mühafizə orqanları arasında da əməkdaşlığın yüksək






səviyyədə olduğunu qeyd edərək, hüquqi sahədə əlaqələrin bundan sonra da uğurla davam etdiriləcəyinə əminliyini ifadə edib.

Baş prokuror Kamran Əliyev Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan torpaqlarının 30 illik işğalına son qoyulduğunu, 2023-cü ildə isə Azərbaycan Ordusu tərəfindən aparılmış lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkəmizin ərazi bütövlüyünün tam şəkildə bərpa olunduğu, dövlət başçısının və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə Qarabağ və Şərqi Zəngəzurda sürətli bərpa və quruculuq işlərinin aparıldığı barədə qonaqları məlumatlandırıb.

Baş prokuror həmçinin, dünyanın ən mötəbər beynəlxalq tədbirlərindən biri olan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının – COP29-un ölkəmizdə keçirilməsinin dünya ölkələrinin növbəti dəfə Azərbaycana olan böyük etimad və hörmətinin, o cümlədən ölkəmizin dünya miqyasında artan nüfuzu və güclü mövqelərinin göstəricisi olduğunu xüsusilə vurğulayıb.

Baş prokuror Kamran Əliyev cari ilin 29 sentyabr- 2 oktyabr tarixlərində Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu illik konfransı və ümumi yığıncağının ölkəmizdə keçiriləciyini və bununla bağlı qazaxıstanlı həmkarı Berik Asılova dəvət məktubu ünvanladığını bildirib.

Səmimi qəbula görə təşəkkürünü ifadə edən Jandos Umiraliyev iki ölkə arasında mövcud əlaqələrin yüksək səviyyədə olmasını və bunun məntiqi nəticəsi kimi xalqlarımızın üzləşdiyi bütün çətinliklərdə bir-birinə dəstək verdiyini diqqətə çatdırıb.

Baş prokurorun müavini Xəzəryanı dövlətlərin baş prokurorluqlarının nümayəndələrinin beştərəfli görüşünün vacibliyi vurğulayaraq, qarşılıqlı səmərəli fəaliyyətin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə edib.

# Türkmənistanın Baş prokurorunun müavini ölkəmizdə işgüzar səfərdə olub






Türkmənistan Baş prokurorunun müavini Rəhim Atayevin rəhbərlik etdiyi nümayəndə heyəti Baş prokuror Kamran Əliyevin dəvətilə Bakıda keçirilən Xəzəryanı dövlətlərin Baş Prokurorluqlarının nümayəndələrinin beştərəfli görüşündə iştirak etmək üçün ölkəmizə işgüzar səfər edib.






Baş Prokurorluqda keçirilmiş ikitərəfli görüşdə qonağı səmimi salamlayan Kamran Əliyev Türkmənistanın Azərbaycan üçün yaxın dost ölkə olduğunu qeyd edərək dövlət başçılarının səyləri nəticəsində dövlətlərarası münasibətlərin bütün sahələrdə, o cümlədən prokurorluqlarımız arasında əlaqələrin yüksək səviyyədə inkişaf etdiyini vurğulayıb.

Baş prokuror hər iki ölkənin beynəlxalq və regional təşkilatlar, xüsusilə ortaq irsə əsaslanan Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlıq etdiyini diqqətə çatdırıb.

Kamran Əliyev Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycanın ərazi bütövlüyünün tam şəkildə bərpa olunduğu, dövlət başçısının və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə Qarabağda sürətli bərpa və quruculuq işlərinin aparıldığı barədə qonaqları məlumatlandırıb.

Səmimi qəbula görə təşəkkürünü ifadə edən Rəhim Atayev ölkəsinin prokurorluq orqanlarının Azərbaycan Respublikasının prokurorluq orqanları ilə əməkdaşlığa daim önəm verdiyini, bu əməkdaşlığın gələcəkdə daha da möhkəmləndirilməsinin vacibliyini vurğulayıb.

Baş prokurorun müavini Xəzəryanı dövlətlərin baş prokurorluqlarının nümayəndələrinin beştərəfli görüşünün uğurlu keçməsini vurğulayaraq, qarşılıqlı səmərəli fəaliyyətin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə edib.

Görüşdə Türkmənistanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Qurbanmammet Elyasov da iştirak edib.

# Bakıda Xəzəryanı dövlətlərin Baş Prokurorluqlarının beştərəfli görüşü təşkil edilib









Aprelin 4-də Bakıda "Xəzər dənizinin akvatoriyasında ekoloji təhdidlər və hüquqpozmalar: dəniz mühitinin qorunması üçün prokurorluq orqanlarının strategiyaları" mövzusunda Xəzəryanı dövlətlərin baş prokurorluqlarının nümayəndələrinin beştərəfli görüşü keçirilib.

Tədbirdə Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev, Ekologiya və təbii sərvətlər nazirinin müavini Umayra Tağıyeva, Azərbaycan Respublikasının və digər Xəzəryanı dövlətlərin Baş Prokurorluqlarının yüksək rütbəli şəxsləri və digərləri iştirak etmişdir.

Görüşdən öncə Azərbaycan, İran, Qazaxıstan, Rusiya və Türkmənistanın baş prokurorlarının müavinlərinin rəhbərlik etdikləri nümayəndə heyətləri Fəxri Xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, eləcə də görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarını ziyarət ediblər.

Qonaqlar Şəhidlər Xiyabanını ziyarət edərək Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş Vətən övladlarının xatirəsini yad ediblər.

Açılış nitqi ilə çıxış edən Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev nümayəndə heyətlərini salamlayaraq, ölkəmizdə ekoloji problemlərin həllini daim diqqətdə saxlayan xalqımızın Ümummilli lideri Heydər Əliyevin Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan bölməsində ətraf mühitin qorunması, təbii sərvətlərdən səmərəli istifadə edilməsi və proqnozlaşdırılması sahəsində uğurlu dövlət siyasətini həyata keçirdiyini vurğulayıb.

Həmin strateji kursun davamı olaraq dövlət başçısı cənab İlham Əliyevin 25 dekabr 2023-cü il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" elan edildiyini, ölkəmizin 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edildiyini, o cümlədən cari ilin noyabr ayının 11-dən 24-dək dövlətimizin BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə




Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına – COP29-a ev sahibliyi edəcəyini qeyd edib.

Xəzər dənizinin ətraf mühitinin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadə məsələləri, bu sahədə prokurorluq orqanlarının rolu, o cümlədən 12 avqust 2006-cı il tarixli "Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında" Çərçivə Konvensiyası çərçivəsində əməkdaşlığın vacibliyini vurğulayıb.

Baş prokuror bildirib ki, 2020-ci ildə ərazilərimiz erməni işğalından azad edildikdən sonra ölkəmiz digər çağırışlarla üzləşib. Kamran Əliyev qeyd edib ki, işğal dövründə Azərbaycanın şəhər və kəndləri Ermənistan tərəfindən qəsdən dağıdılmış, talan olunmuş, bütün mədəni və dini abidələr dağıdılmış, məscidlər təhqir olunmuş, qarət edilmişdir.




Ermənistan işğal etdiyi ərazilərimizdə bir milyona yaxın mina basdırmış, urbisid, kultursid və ekosid cinayətləri törətmişdir. Baş prokuror bildirib ki, işğala son qoyulan kimi dövlətimiz bütün gücünü səfərbər edərək bu ərazilərdə geniş quruculuq və bərpa işlərinə, erməni vandalizminin nəticələrini aradan qaldırmağa başlamışdır.

Bundan başqa, Kamran Əliyev martın 22-də Moskvada "Crocus City Hall" konsert zalında baş vermiş dəhşətli terror aktını şiddətlə qınayaraq terrorçuluqla mübarizədə səylərin beynəlxalq səviyyədə birləşdirilməsinin zəruriliyindən bəhs edib.

Baş prokuror Kamran Əliyev vurğulayıb ki, Xəzər dənizi bizim dövlətlərin ortaq dəyəridir, tarixən bizim xalqlarımızın inkişafında öz rolunu oynayıb. O bildirib ki, Xəzərin təbiətinin mühafizəsi və biomüxtəlifliyinin qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsi bizim mənəvi borcumuzdur. Burada aparılacaq qarşılıqlı müzakirələr regionumuzda ətraf mühitin mühafizəsi, ələlxüsus da cinayətkarlığa qarşı mübarizə tədbirlərinin gücləndirilməsi baxımından faydalı olacaq, bu sahədə gələcək əməkdaşlığın möhkəmlənməsinə xidmət edəcəkdir.

Baş prokuror qeyd edib ki, Xəzər dənizinin ekoloji problemlərinin həlli istiqamətində Xəzəryanı dövlətlərin əməkdaşlığını dəstəkləyirik. Ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır. Ətraf mühit və ekoloji sahədə aparılan dövlət siyasətinin uğurlu nəticəsidir ki, cari ilin noyabr ayının 11-dən 24-dək ölkəmiz BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına – COP29-a ev sahibliyi edəcək. Qürurverici haldır ki, bu mötəbər tədbir çərçivəsində ölkəmizin Baş Prokurorluğu tərəfindən iqlim fəaliyyətində hüquq mühafizə orqanlarının səfərbər edilməsinə həsr olunmuş sessiyanın təşkili planlaşdırılır.

Baş prokuror qeyd edib ki, Ermənistan tərəfindən işğaldan azad olunan ərazilərdə ekoloji cinayətlər törədilib. Hazırda bu cinayətlər Baş Prokurorluq tərəfindən yaradılmış istintaq qrupu tərəfindən araşdırılır. Bu cinayətlərin hüquqi nəticələri ilə bağlı beynəlxalq ictimaiyyətin məlumatlandırılması, milli və beynəlxalq qanunvericiliyə uyğun lazımi hüquqi tədbirlərin görülməsi təmin olunacaq.

Kamran Əliyev qeyd edib ki, ekoloji cinayətlərlə bağlı digər ölkələrin hüquq-mühafizə orqanlarına da qarşılıqlı hüquqi yardımın göstərilməsi ilə bağlı müraciətlər edilib Onlarla intensiv əlaqələr saxlanılır. Nəticələr toplandıqdan sonra istintaq materialları beynəlxalq məhkəmələrdə istifadə olunacaq.

Tədbirdə ekologiya və təbii sərvətlər nazirinin müavini Umayra Tağıyeva çıxış edərək Xəzər dənizində bioresursların azalması, dəniz mühitinin çirklənməsi, iqlim dəyişikliyi nəticəsində dəniz səviyyəsinin uzunmüddətli aşağı düşməsi və dəniz ekosistemlərinin deqradasiyasını qeyd edərək ölkəmiz tərəfindən Xəzərin ətraf mühitinə mənfi təsirləri minimuma endirmək üçün xüsusi mühafizə olunan təbiət əraziləri şəbəkəsinin yaradılmasından, brakonyerliklə mübarizə















ilə yanaşı dəniz bioresurslarının bərpası və artırılmasına yönəldilmiş işlərdən, o cümlədən dənizin ekoloji vəziyyətinin qiymətləndirilməsi, bioloji ehtiyatlarının və hidroloji vəziyyətinin öyrənilməsi və dəniz ətraf mühitinə mümkün neqativ təsirlərin müəyyənləşdirilməsi məqsədilə nazirlik tərəfindən mütəmadi ekspedisiyaların keçirilməsindən danışıb.

İclasda Baş prokurorun müavini Elmar Camalov, İran İslam Respublikası Baş prokurorunun müavini Qulam Abbas Torki, Qazaxıstan Respublikası Baş prokurorunun müavini Jandos Umiraliyev, Rusiya Federasiyası Baş prokurorunun müavini Pyotr Qorodov və Türkmənistanın Baş prokurorunun müavini Rahim




Atayev Xəzər dənizində ekoloji hüquqpozmalara qarşı mübarizədə prokurorluqların rolu mövzusunda çıxışlar edərək bu sahədə aktual probemlərə toxunublar.

# Kamran Əliyev Rusiya Baş prokurorunun müavini ilə görüşüb





Rusiya Federasiyası Baş prokurorunun müavini Pyotr Qorodovun rəhbərlik etdiyi nümayəndə heyəti Baş prokuror Kamran Əliyevin dəvətilə Bakıda keçirilən Xəzəryanı dövlətlərin baş prokurorluqlarının nümayəndələrinin beştərəfli görüşündə iştirak etmək üçün ölkəmizə işgüzar səfərə etmişdir.




Aprelin 5-də keçirilmiş ikitərəfli görüşdə Baş prokuror Kamran Əliyev ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin strateji xarakter daşıdığını, dövlət başçılarının birgə səyləri və siyasi iradələri sayəsində ikitərəfli münasibətlərin bütün istiqamətlərdə uğurla inkişaf etdiyini vurğulayıb.

Baş prokuror digər sahələrdə olduğu kimi ölkələrimizin prokurorluq və hüquq mühafizə orqanları arasında da əməkdaşlığın yüksək səviyyədə olduğunu qeyd edərək, cinayət işləri üzrə hüquqi yardım, ekstradisiya və elm-tədris sahələrində son illər ərzində effektiv işbirliyinin olduğunu diqqətə çatdırıb.

Kamran Əliyev Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycanın ərazi bütövlüyünün tam şəkildə bərpa olunduğu, dövlət başçısının və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə Qarabağda sürətli bərpa və quruculuq işlərinin aparıldığı barədə qonaqları məlumatlandırıb.

Baş prokuror həmçinin, dünyanın ən mötəbər beynəlxalq tədbirlərindən biri olan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının – COP29-un ölkəmizdə keçirilməsinin dünya ölkələrinin növbəti dəfə Azərbaycana olan böyük etimad və hörmətinin, o cümlədən ölkəmizin dünya miqyasında artan nüfuzu və güclü mövqelərinin göstəricisi olduğunu xüsusilə vurğulayıb.

Səmimi qəbula görə təşəkkürünü ifadə edən

Pyotr Qorodov  iki ölkə arasında, həmçinin iki dost və tərəfdaş dövlətin prokurorluqları arasında uzunmüddətli sıx əlaqələrin nümunəvi xarakter daşıdığını bildirib. Aprelin 4-də Bakıda keçirilmiş Xəzəryanı dövlətlərin baş prokurorluqlarının nümayəndələrinin beştərəfli görüşünün vacibliyini vurğulayaraq bu formatın qarşılıqlı səmərəli fəaliyyətin davam etdirilməsinə töhfə verəcəyinə əminlik ifadə edib.

Görüşdə Rusiya Federasiyasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Mixail Yevdokimov da iştirak edib.








# Baş prokuror Kamran Əliyev Çin Xalq Respublikasına işgüzar səfər edib





Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraiyyə Komitəsinin 57-ci iclasında iştirak etmək üçün Çin Xalq Respublikasının Makau Xüsusi İnzibati Bölgəsinə işgüzar səfərə getmişdir.

Aprelin 18-də Kamran Əliyev Çinin Ali Xalq Prokurorluğunun Baş prokurorunun birinci müavini Tonq Cianminq və Makaunun Baş prokuroru İp Son Sanq ilə ikitərəfli görüş keçirib.

Nümayəndə heyətini səmimi salamlayan Baş prokurorun birinci müavini və Makaunun Baş prokuroru Azərbaycan və Çinin dost dövlətlər olduğunu bildirərək, bir çox sahəni əhatə edən uğurlu əməkdaşlığın davam etdirildiyini vurğulayıblar.

Baş prokuror Kamran Əliyev qonaqpərvərliyə görə minnətdarlığını bildirərək ölkələrimiz arasında əsrlər boyu mövcud olan ikitərəfli əlaqələrin tarixindən danışıb. Müstəqilliyin ilk illərində Ulu Öndər Heydər Əliyevin, hazırda isə Prezident cənab İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri cənab Si Cinpinin uzaqgörən siyasətləri nəticəsində iki ölkə arasında olan münasibətlərin yüksələn xətlə və uğurla inkişaf etdiyini vurğulayaraq, Azərbaycanın vahid Çin siyasətini, Çinin ərazi bütövlüyünü daim dəstəklədiyini vurğulayıb.

Baş prokuror cari ilin 29 sentyabr - 2 oktyabr tarixlərində Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu İllik Konfransı və Ümumi Yığıncağının ölkəmizdə keçiriləciyini və bununla bağlı həmkarına dəvət məktubu ünvanladığını bildirib.

Daha sonra tərəflər prokurorluqlarımız arasında hüquqi və institusional əməkdaşlığın ikitərəfli və beynəlxalq platformalar çərçivəsində genişləndirilməsi perspektivləri barədə fikir mübadiləsi aparıblar.

Elə həmin gün ölkəmizin Baş prokuroru Kamran Əliyev Çinin Makau Xüsusi İnzibati Bölgəsinin İcra Hakimiyyətinin başçısı Ho İat Senq ilə görüşüb.

Baş prokuror keçirdiyi görüşlərdə Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycanın ərazi bütövlüyünün tam şəkildə bərpa olunduğunu, dövlət başçısının və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə Qarabağda sürətli bərpa və quruculuq işlərinin aparıldığını bildirilərək, bu proseslərdə Çin şirkətlərinin də yer aldığını qeyd edib.

Kamran Əliyev həmçinin, dünyanın ən mötəbər beynəlxalq tədbirlərindən biri olan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un ölkəmizdə keçiriləcəyi barədə həmkarlarına məlumat verib.

Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraiyyə Komitəsinin 57-ci iclasında çıxış edən Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq ölkəmizin prokurorluq orqanlarında davam etdirilən islahatlar, habelə Azərbaycan prokurorluğunun BPA-nın işinə verdiyi töhfə haqda məlumat verib.

Baş prokuror həmçinin, dünyanın ən mötəbər beynəlxalq tədbirlərindən biri olan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un ölkəmizdə keçiriləcəyini bildirməklə dünya ölkələrinin növbəti dəfə Azərbaycana olan böyük etimad və hörmətinin, o cümlədən ölkəmizin dünya miqyasında artan nüfuzu və güclü mövqelərinin göstəricisi olduğunu xüsusilə vurğulayıb.

İclasda bir sıra mühüm xüsusatlar, o cümlədən təşkilatın rəhbər vəzifələrinə seçkilərin keçirilməsi, yeni üzvlərin qəbul edilməsi, hesabatların dinlənilməsi ilə bağlı tövsiyələr, Assosiasiyanın növbəti illik iclas və konfranslarının keçirilməsi və digər məsələlərə baxılıb.

Keçirilmiş səsvermə nəticəsində Baş prokuror Kamran Əliyev yekdilliklə Assosiasiyanın növbəti










səlahiyyət müddətinə vitse-prezidenti seçilib.

İclasda həmçinin cari ilin 29 sentyabr - 2 oktyabr tarixlərində ölkəmizdə keçiriləcək Assosiasiyanın İllik Konfransı və Ümumi Yığıncağı ilə bağlı təşkilati məsələlər müzakirə edilib.



Səfər çərçivəsində Baş prokuror Çin Xalq Respublikasının Honq Konq Xüsusi İnzibati Bölgəsinin Korrupsiyaya Qarşı Müstəqil Komissiyasının (ICAC) rəhbəri Vu Denni ilə görüşüb.

Nümayəndə heyətini salamlayan Komissar Azərbaycanın hüquq mühafizə orqanları ilə, xüsusilə Baş Prokurorluqla münasibətlərə önəm verdiyini bildirərək, qarşılıqlı əlaqələrin genişlənməsinin perspektivlərindən danışıb, uzumüddətli institusional əməkdaşlığın təsis edilməsinin zəruriliyini vurğulayıb.

Baş prokuror Komissiyanın korrupsiya ilə mübarizədə uğurlu fəaliyyətini yüksək qiymətləndirərək, təcrübə mübadiləsi üçün qarşılıqlı səfərlərin və təlimlərin təşkil edilməsi məqsədilə qurumlar arasında işbirliyinin vacibliyini qeyd edib.

Kamran Əliyev Komissiyanın nəzdində fəaliyyət göstərən Honq-Konq Beynəlxalq Anti-Korrupsiya Akademiyası ilə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi arasında səmərəli əməkdaşlığın təmin edilməsinin hər iki qurumun əməkdaşları üçün faydalı olacağını bildirib.



# Baş prokuror İordaniyalı həmkarı ilə görüşüb




Baş prokuror Kamran Əliyev İordaniya Haşimilər Krallığının Baş prokuroru Yusuf Tiabat ilə videokonfrans formatında ikitərəfli görüş keçirib.

Aprelin 24-də keçirilən görüş zamanı Baş prokuror dövlətlərimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin dövlət başçıları cənab İlham Əliyev və Kral II Abdullah ibn Al Hüseynin birgə səyləri nəticəsində siyasi, iqtisadi, hərbi, humanitar, mədəni və digər sahələrdə əlaqələrin hazırki yüksək inkişaf dinamikasına çatdığını vurğulayıb.

Kamran Əliyev dünyanın ən mötəbər beynəlxalq tədbirlərindən biri olan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının – COP29-un ölkəmizdə keçiriləcəyi barədə həmkarına məlumat verib.

Yusuf Tiabat ölkələrimiz arasında mövcud əməkdaşlığın səviyyəsindən məmnunluq ifadə edərək, cari ilin 29 sentyabr - 2 oktyabr tarixlərində ölkəmizdə keçiriləcək Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu İllik Konfransı və Ümumi Yığıncağına dəvət edildiyi üçün təşəkkürünü ifadə edib. Ölkəmizin hüquq mühafizə orqanlarının, xüsusilə də Baş Prokurorluğun müsbət təcrübəsinin öyrənilməsi üçün qurumlararası işbirliyinin vacibliyi qeyd edilib.

Tərəflər qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə Anlaşma Memorandumunun imzalanması barədə razılığa gəliblər.





# Prokurorluq əməkdaşları ağac əkmə kampaniyası keçirib








Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə əlaqədar aprelin 27-də Baş Prokurorluq, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi, Hərbi Prokurorluq, Bakı şəhər və paytaxtın tabe rayon prokurorluqlarının əməkdaşları, həmçinin prokurorluğun veteranları Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yaxından dəstəyi ilə növbəti ağac əkmə kampaniyası keçirib.

Tədbir çərçivəsində ümumilikdə 2 hektar ərazidə 1500-dən çox ağac əkilib.

Kampaniyadan sonra Baş prokuror Kamran Əliyev prokurorluğun veteranları ilə görüşərək onlarla səmimi söhbət edib.




# Baş prokuror TİHEK-in rəhbəri ilə görüşüb



Aprelin 29-da Baş prokuror ölkəmizdə səfərdə olan Türkiyə İnsan Hüquqları və Bərabərlik Qurumunun sədri Muharrem Kılıçın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Kamran Əliyev qonağı salamlayaraq, ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin inkişafının dövlət başçıları cənab İlham Əliyev və cənab Rəcəb Tayyib Ərdoğanın birgə səyləri nəticəsində ən yüksək müttəfiqlik səviyyəsinə yüksəldiyini qeyd edib.

Baş prokuror Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsi və ondan sonrakı proseslərdə Türkiyə dövlətinin və xalqının siyasi və mənəvi dəstəyinə görə təşəkkürünü ifadə edib. Kamran Əliyev ölkə rəhbərliyinin diqqət və qayğısı nəticəsində işğal dövründə ermənilərin xalqımızın tarixi, dini və mədəni abidələrinə qarşı törətdikləri vəhşiliklərin və onların fəsadlarının aradan qaldırılması istiqamətində Qarabağda aparılan sürətli quruculuq-bərpa işləri barədə qonağa məlumat verib.

Kamran Əliyev qonaqlara ölkəmizdə həyata keçirilən hüquq islahatları çərçivəsində prokurorluq orqanlarının fəaliyyətinin müasirləşdirilməsi istiqamətində aparılan köklü islahatlar barədə məlumat verib.

Səmimi qəbula görə öz təşəkkürünü bildirən Muharrem Kılıç ölkələrimiz arasında hüquqi sahədə əlaqələrin yüksək səviyyədə inkişaf etməsi və səmərəli əməkdaşlığın həyata keçirildiyi bildirib.

Görüş zamanı tərəflər insan hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı mühüm əhəmiyyət kəsb edən məsələləri müzakirə edərək, birgə əməkdaşlıq istiqamətləri barədə fikir mübadiləsi aparıblar.








# Prokurorluq əməkdaşları Fəxri Xiyabanı ziyarət edib













Xalqımızın Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, müdrik rəhbər və dahi şəxsiyyət Heydər Əliyevin anadan olmasının 101 illiyi ilə əlaqədar Baş prokuror Kamran Əliyev, prokurorluğun rəhbər heyəti və prokurorluq əməkdaşları Fəxri xiyabanı ziyarət edərək dünya şöhrətli siyasətçinin əziz xatirəsini dərin ehtiramla yad edib.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın, həmçinin tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad olunub, məzarları üzərinə gül dəstələri qoyulub.

# Baş Prokurorluqda Ulu Öndər Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü qeyd edilib





Mayın 8-də Azərbaycan Respublikasının Baş Prokurorluğunda müasir Azərbaycanın xilaskarı və qurucusu, müstəqil dövlətimizin banisi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş tədbir keçirilib.

Tədbirdə Baş Prokurorluğun rəhbərliyi və prokurorluq əməkdaşları ilə yanaşı, Milli Məclisin Sədrinin 1-ci müavini, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli və digər deputatlar, eləcə də media nümayəndələri iştirak edib.

İştirakçılar Baş Prokurorluğun inzibati binasında yerləşən Ulu Öndərin büstü önünə gül dəstələri qoyub, əbədiyaşar liderin əziz xatirəsini dərin ehtiramla yad ediblər.

Tədbir başlamazdan öncə Ümummilli Lider Heydər Əliyev və ölkəmizin azadlığı uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib, daha sonra isə Dövlət Himni səsləndirilib.

Çıxış edən Baş prokuror Kamran Əliyev müstəqil Azərbaycanın qurucusu və memarı, dünya miqyaslı siyasi təfəkkürə, zəngin və qətiyyətli idarəçilik bacarığına malik Ümummilli Lider Heydər Əliyevin xalqımız qarşısında misilsiz tarixi xidmətlərindən, şərəfli ömür yolundan və dərin dövlətçilik təcrübəsindən bəhs edib, görkəmli dövlət xadiminin müəyyən etdiyi siyasi kursu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə üçrəngli bayrağımızın ən yüksək zirvələrdə qürurla dalğalanmasını diqqətə çatdırıb.

Baş prokuror qeyd edib ki, Azərbaycan xalqına və millətinə əvəzsiz xidməti həyatının məqsədi və mənası kimi qəbul edən, bu yolda mümkün olan bütün addımları atan Heydər Əliyev siyasi hakimiyyətdə olduğu bütün dövrlərdə müstəqil Azərbaycan dövlətçiliyinin, azərbaycançılıq məfkurəsinin formalaşdırılması və möhkəmləndirilməsi, eləcə də ölkəsinin rifahı uğrunda mübarizə meydanında olmuş və millətinə rəhbərlik etmişdir.










Qeyd olunub ki, dahi dövlət xadimi öz uzaqgörənliliyi, siyasi müdrikliyi, əyilməz iradəsi və qətiyyəti, ən əsası – milli ümumxalq həmrəyliyi nəticəsində müstəqil Azərbaycanı hazırki və gələcək nəsillər üçün qoruyub saxlamış və müasir inkişaf yoluna çıxarıb.

Vurğulanıb ki, Prezident İlham Əliyev tərəfindən davam etdirilən uğurlu siyasət nəticəsində Azərbaycan qalib dövlətə çevrilib, onun qətiyyətli siyasi iradəsi, apardığı məqsədyönlü siyasət və Şanlı Azərbaycan Ordusunun misilsiz şücaəti nəticəsində Qarabağ düşmən işğalından azad edilib və dövlətimizin ərazi bütövlüyünün bərpası Azərbaycan xalqının və dövlətinin həyatında yeni bir tarixi mərhələnin başlanğıcı olub.

Prezident İlham Əliyevin rəhbərliyi, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın yaxından iştirakı ilə qısa müddət ərzində işğaldan azad edilmiş torpaqlarımızda sürətli bərpa və yenidənqurma işlərinin icra edildiyini bildirən Baş prokuror görülən titanik fəaliyyətin hər bir vətəndaşımıza qürur və sevinc, dünya dövlətlərinə isə heyrət hissi yaşatdığını vurğulayıb.

Daha sonra tədbirdə çıxış edən Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri, deputat Sadiq Qurbanov və Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsinin rəisi Elnur Musayev bildirib ki, Ulu Öndər Heydər Əliyev tərəfindən Respublikamızda ekoloji təhlükəsizliyin təmin olunması istiqamətində ardıcıl tədbirlər həyata keçirilib, ölkədəki ekoloji problemlər həmişə xüsusi diqqət mərkəzində olub, ətraf mühitin mühafizəsi ilə bağlı müəyyən olunmuş prioritetlər üzrə mütəmadi olaraq silsilə tədbirlər görülüb.

Tədbirin sonunda Ulu Öndər Heydər Əliyev haqqında film nümayiş olunub.





# Baş prokuror Kamran Əliyev Düşənbədə işgüzar səfərdə olub



Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Tacikistan Respublikasının Baş prokuroru Yusuf Raxmonun dəvətilə İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) üzv dövlətlərin baş prokurorlarının 5-ci iclasında iştirak etmək məqsədilə mayın 16–17-də Düşənbə şəhərində işgüzar səfərdə olub.






Səfər çərçivəsində nümayəndə heyətlərinin rəhbərləri Tacikistan Prezidenti cənab Emomali Raxmon tərəfindən qəbul ediliblər. Prezident iclasın işinə uğurlar arzu edərək İƏT-ə üzv dövlətlər arasında hüquq mühafizə sahəsində əməkdaşlığın önəmini, xüsusən cinayətkarlığa qarşı mübarizədə birgə səylərin regionumuzda sabitliyin və təhlükəsizliyin qorunmasında prokurorluq orqanlarının rolunu qeyd edib.

Görüşdə Baş prokuror Kamran Əliyev İƏT-ə üzv dövlətlərin baş prokurorları adından Tacikistan Prezidentinə qəbula görə təşəkkürünü bildirərək ölkəmizin Prezidenti cənab İlham Əliyevlə Tacikistan Prezidenti cənab Emomali Raxmonun sarsılmaz səyləri nəticəsində ikitərəfli əlaqələrin yüksək səviyyədə olduğunu vurğulayıb.

Daha sonra İƏT-ə üzv dövlətlərin baş prokurorlarının 5-ci iclası keçirilib. İclası giriş nitqi ilə açan Tacikistanın Baş prokuroru Yusuf Raxmon qonaqları salamlayaraq tədbirin əhəmiyyətini və beynəlxalq əməkdaşlığın mahiyyətini qeyd edib.

Baş prokuror Kamran Əliyev çıxışında Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə







həyata keçirilən hüquq islahatları çərçivəsində prokurorluq orqanlarının fəaliyyətinin müasirləşdirilməsi istiqamətində aparılan köklü islahatlar barədə danışaraq terrorçuluğa və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə mövzusunda çıxış edib. Ölkəmizin terrorçuluğa qarşı mübarizə üzrə mövcud 12 beynəlxalq konvensiyaya qoşulduğunu, həmçinin milli qanunvericiliyin mövcud beynəlxalq standartlara uyğunlaşdırıldığını bildirib.

Kamran Əliyev torpaqlarımızın bir hissəsini uzun illər işğal altında saxlamış Ermənistanın bu ərazilərdə mina terrorunun müəllifi olduğunu qeyd edərək, işğal dövründə 1.5 milyondan çox mina basdırıldığını, birinci və ikinci Qarabağ müharibəsindən bu günə kimi təxminən 3500 nəfər azərbaycanlının minadan zərər çəkdiyini, 4000 şəxsin itkin düşdüyünü, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən əsaslı bərpa-quruculuq işləri çərçivəsində aparılan qazıntı işləri zamanı basdırılmış vəziyyətdə kütləvi insan qalıqlarının aşkar edildiyi barədə ətraflı məlumat verib, terrorçuluqla mübarizədə səylərin beynəlxalq səviyyədə birləşdirilməsinin zəruriliyindən bəhs edib.

Baş prokuror çıxışında Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında ölkəmizin ərazi bütövlüyünün tam şəkildə bərpa olunduğu və ölkə rəhbərliyinin diqqət və qayğısı ilə Qarabağda sürətli bərpa və quruculuq işlərinin aparıldığı barədə həmkarlarına məlumat verib.

Eyni zamanda, Kamran Əliyev cari ilin sentyabr ayında ölkəmizin Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu İllik Konfransı və Ümumi Yığıncağına, noyabr ayında isə dünyanın ən mötəbər beynəlxalq tədbirlərindən biri olan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına - COP29-a ev sahibliyi edəcəyini bildirib.

Yüksək səviyyəli iclasda İƏT-in Baş katibi, Türkiyə, Özbəkistan, İran, Qazaxıstan, Tacikistan, Pakistan, Qırğızıstan, Türkmənistan və qonaq qismində dəvət olunmuş Səudiyyə Ərəbistanı Krallığının prokurorluq orqanlarının rəhbərləri iştirak ediblər.

***

Mayın 17-də keçirdiyi görüşlərdə Baş prokuror Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycanın ərazi bütövlüyünün tam şəkildə bərpa olunduğu, dövlət başçısının və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə Qarabağda sürətli bərpa və quruculuq işlərinin aparıldığı barədə həmkarlarını məlumatlandırıb.

Tacikistanın Baş prokuroru Yusuf Raxmonla keçirilmiş görüşdə qarşılıqlı hüquqi yardım sahəsində əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılaraq, həm ikitərəfli, həm də çoxtərəfli formatda, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətin səmərəliliyindən danışılıb. Tərəfləri maraqlandıran məsələlər





müzakirə edilərək, iki ölkənin prokurorluq orqanları arasında qarşılıqlı münasibətlərin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə edilib.

İranın Baş prokuroru Məhəmməd Azad Movahedi ilə keçirilmiş görüşdə prokurorluqlarımız arasında əlaqələrin dinamikası müsbət qiymətləndirilib. Kamran Əliyev iranlı həmkarını ölkəmizə rəsmi səfərə dəvət edərək əməkdaşlığın bundan sonra yüksələn xətlə inkişaf edəcəyinə ümidvar olduğunu bildirib.

Bundan başqa, Baş prokuror İƏT-in Baş katibi Xosrov Noziri ilə görüş keçirib. Baş Katib bildirib ki, baş prokurorların Düşənbə görüşü ötən ilin sentyabrında Bakıda keçirilmiş iclasın uğurundan bəhrələnir. Kamran Əliyev ölkəmiz tərəfindən İƏT-lə əlaqələrə hər zaman böyük önəm verildiyini qeyd edib.

Görüş zamanı təşkilatın işinin təkmilləşdirilməsi, təşkilata üzv olan dövlətlər arasında hüquqi müstəvidə qarşılıqlı münasibətlərin, cinayətkarlığa qarşı mübarizə, eləcə də qarşılıqlı beynəlxalq hüquqi yardım üzrə birgə fəaliyyətin inkişaf etdirilməsi, əməkdaşlığın gələcək perspektivləri mövzusunda müzakirələr aparılıb.

Həmçinin, Baş prokuror Pakistanın Baş prokurorunun müavini Raşdin Navaz Kasuri ilə görüşüb. İki dost və qardaş dövlətlər arasında hərtərəfli əməkdaşlıq əlaqələrindən məmnunluq ifadə edilib, prokurorluqlarımız arasında əməkdaşlığın inkişaf etdirilməsinin zəruriliyi vurğulanıb. Görüşdə hər iki ölkə vətəndaşlarının hüquq və azadlıqlarının qorunması, cinayət işləri üzrə hüquqi yardım və ekstradisiya məsələləri müzakirə olunub.

Səfər çərçivəsində 2021-ci ilin noyabrın 1-də Bakıda təsis edilmiş Türk Dövlətləri Təşkilatının Baş prokurorlarının görüşü keçirilib. Görüşdə TDT çərcivəsində gələcək əməkdaşlıq perspektivləri, o cümlədən, cari ilin iyul ayında Qırğızıstanda keçiriləcək Şuranın 3-cü iclası ilə bağlı təşkilati məsələlər müzakirə edilib.







# İtaliyanın Baş prokuroru ölkəmizə səfər edib



Baş prokuror Kamran Əliyevin dəvəti ilə İtaliya Respublikasının Ali Kassasiya Məhkəməsinin Baş prokuroru Luici Salvatonun rəhbərlik etdiyi nümayəndə heyəti mayın 24-25-də ölkəmizdə işgüzar səfərdə olub.

İlk öncə nümayəndə heyəti Fəxri Xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil qoyub, eləcə də görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarını ziyarət edib. Qonaqlar, həmçinin Şəhidlər xiyabanına gedərək, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş Vətən övladlarının xatirəsini anıblar.






Baş Prokurorluqda keçirilmiş görüşdə qonaqları səmimi salamlayan Baş prokuror Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və İtaliya Respublikasının Prezidenti cənab Sercio Mattarellanın siyasi iradələri sayəsində ölkələrimiz arasında tarixən mövcud olan əlaqələrin uğurla inkişaf etdiyini qeyd edərək hüquqi əməkdaşlığın genişlənməsinin vacibliyini vurğulayıb.

Baş prokuror dövlət başçısının həyata keçirdiyi strateji kursun və dövlət siyasətinin prioritetlərinə uyğun olaraq ölkəmizdə hüquq qaydasının möhkəmləndirilməsi və qanunun aliliyinin təmin olunması istiqamətində aparılan islahatlar, həmçinin Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycanın ərazi bütövlüyünün tam şəkildə bərpa olunduğu, dövlət başçısının və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə Qarabağda sürətli bərpa və quruculuq işlərinin aparıldığı, bu prosesdə italyan şirkətlərinin də yaxından iştirak etdiyi barədə həmkarına məlumat verib.



Kamran Əliyev prokurorluq orqanlarının rəqəmsallaşması və bu sahədə aparılan islahatlara toxunaraq, müasir tələblərə cavab verən "Elektron prokurorluq" informasiya sisteminin fəaliyyəti barədə danışıb.

Səfərə dəvətə və səmimi qəbula görə təşəkkürünü bildirən Luici Salvato ölkəmizin dinamik inkişafının canlı şahidi olmaqdan məmnun olduğunu bildirib. Qonaq prokurorluq orqanlarımız arasında əlaqələrin qurulmasında maraqlı olduqlarını qeyd edib.





Luici Salvato ölkələrimizin tərəfdar çıxdığı beynəlxalq konvensiyalar çərçivəsində cinayətkarlığa qarşı mübarizədə hüquq mühafizə orqanlarımız arasında əməkdaşlığın müvəffəqiyyətlə həyata keçirildiyini vurğulayıb.

İtaliyanın Baş prokuroru Azərbaycan Respublikasının 12 noyabr 1995-ci ildə qəbul edilmiş Konstitusiyasının insan hüquq və azadlıqlarının qorunması, demokratiya və qanunun aliyininin təminatı olduğunu bildirib.

Baş prokuror Kamran Əliyev dünyanın ən mötəbər beynəlxalq tədbirlərindən biri olan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının – COP29-un, cari ilin 29 sentyabr- 2 oktyabr tarixlərində Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu illik konfransı və ümumi yığıncağının ölkəmizdə keçiriləcəyini bildirib.

Görüşdə İtaliyanın ölkəmizdəki səfirliyinin müşaviri Rikardo Kursi iştirak edib.

Daha sonra baş prokurorlar ölkələrimiz arasında hüquqi əməkdaşlığın gücləndirilməsi, mövcud əlaqələrin gələcəkdə daha da intensivləşdirilməsi məqsədilə Əməkdaşlığın inkişaf etdirilməsi haqqında Anlaşma Memorandumu imzalayıblar.





Mayın 25-də Luici Salvato Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov tərəfindən qəbul edilib. Görüşdə Baş prokuror Kamran Əliyev iştirak edib.

Səfər çərçivəsində nümayəndə heyəti Baş Prokurorluğun yeni inzibati binası və Zəfər muzeyi ilə tanış olaraq, prokurorluğun struktur qurumlarının rəhbərləri ilə görüş keçirib. Qonaqlara ölkəmizin prokurorluq və digər hüquq mühafizə orqanlarının fəaliyyəti barədə ətraflı məlumat verilib.

Daha sonra qonaqlar Heydər Əliyev Mərkəzini ziyarət edərək, görkəmli dövlət xadiminin həyat və fəaliyyətini, o cümlədən italiyalı heykəltəraş Canfranko Megiatonun fərdi sərgisində əks etdirilən stendlərlə tanış olublar.

İtalyalı prokurorlar "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğunu ziyarət edərək, Şirvanşahlar Sarayı Kompleksi və Qız Qalası, həmçinin UNESCO-nun Ümumdünya irs siyahısına daxil edilmiş digər tarixi-memarlıq abidələri ilə tanış olublar.

Qonaqlar tarixi-mədəni abidələrlə zəngin olan Bakı şəhərinin Balaxanı qəsəbəsini ziyarət edərək, orada xalçaçılıq, dulusçuluq, milli geyimlərin hazırlanması və digər yerli sənətkarlıq nümunələri ilə yaxından tanış olublar.

Heydər Əliyev Fondunun dəstəyi ilə bərpa olunaraq 2008-ci ilin sentyabr ayında istifadəyə verilmiş Bakı şəhərindəki Müqəddəs Məryəm katolik kilsəsini ziyarət edən qonaqlara tikilinin tarixi barədə ətraflı məlumat verilib.






# Qazaxıstanın Korrupsiyaya qarşı Mübarizə Agentliyinin sədri ölkəmizə səfər edib



Baş prokuror Kamran Əliyevin dəvəti ilə Qazaxıstan Respublikasının Korrupsiyaya qarşı Mübarizə Agentliyinin sədri Asxat Jumağalinin rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə işgüzar səfər edib.

Fəxri Xiyabanı ziyarət edən qonaqlar xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək, məzarı önünə əklil qoyub, eləcə də görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarını ziyarət ediblər. Daha sonra qonaqlar Şəhidlər Xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman vətən övladlarının məzarları üzərinə tər qərənfillər düzərək, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

Baş Prokurorluqda keçirilən ikitərəfli görüşdə qonaqları salamlayan Baş prokuror, tarixi, mədəni və dini ortaqlıqlar olan ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən Türk Dövlətləri Təşkilatı çərçivəsində əlaqələrin inkişafında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti cənab Kasım-Jomart Tokayevin birgə siyasi səylərinin nəticəsi olduğunu vurğulayıb.

Kamran Əliyev dövlət başçısının siyasi iradəsi və rəhbərliyi ilə demokratik və hüquqi dövlət quruculuğu yolunu tutan ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən ardıcıl və sistemli qabaqlayıcı tədbirlər, aparılmış hüquqi və institusional islahatlar, milli antikorrupsiya qanunverciliyinin təkmilləşdirilməsi, prokurorluq orqanlarının fəaliyyətinin hərtərəfli müasirləşdirilməsi, strukturunun daha da təkmilləşdirilməsi, kadr korpusunun tamamilə yenidən formalaşdırılması istiqamətində aparılan köklü islahatlar, həmçinin qarşıda duran digər vəzifələr barədə qonaqlara ətraflı məlumat verib.




Baş prokuror Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycanın ərazi bütövlüyünün tam şəkildə bərpa olunduğunu, dövlət başçısının və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə Qarabağda sürətli bərpa və quruculuq işlərinin aparıldığını qeyd edərək, Füzuli şəhərində Qazaxıstanın təşəbbüsü ilə inşa olunan və bu ilin 12 mart tarixində hər iki dövlət başçısının iştirakı ilə istifadəyə verilən Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin qardaş dövlətin işğaldan azad edilmiş torpaqlarda fəaliyyətinin bariz nümunəsi olduğunu bildirib.

Həmçinin, bu ilin noyabrında dünyanın ən mötəbər beynəlxalq tədbirlərindən biri olan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un və 29 sentyabr-2 oktyabr tarixlərində Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu illik konfransı və ümumi yığıncağının ölkəmizdə keçiriləcəyi barədə məlumat verilib.

Səmimi qəbula görə təşəkkürünü bildirən Asxat Jumağali rəhbərlik etdiyi qurumun Azərbaycanla əlaqələrin inkişafına böyük önəm verdiyini bildirməklə iki ölkə arasında mövcud iqtisadi, siyasi, sosial, mədəni

əlaqələrin yüksək səviyyədə olmasını və bunun məntiqi nəticəsi kimi xalqlarımızın üzləşdiyi bütün məsələlərdə bir-birinə bundan sonra da dəstək verəcəklərinə əminliyini ifadə edib. Ölkəmizin korrupsiya ilə mübarizə sahəsində təcrübəsindən bəhs edən qonaq, bu sahədə qarşılıqlı təcrübə mübadiləsinin faydalı olacağını vurğulayıb.

Görüşdə Qazaxıstanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Alim Bayel iştirak edib.

Baş prokuror Kamran Əliyev və Qazaxıstanın Korrupsiyaya qarşı Mübarizə Agentliyinin sədri Asxat Jumağali ölkələrimiz arasında korrupsiyaya qarşı mübarizə sahəsində əməkdaşlığın gücləndirilməsi, mövcud əlaqələrin gələcəkdə daha da intensivləşdirilməsi məqsədilə Anlaşma Memorandumu imzalayıblar.

Qonaqlar Baş Prokurorluğun Tarix muzeyində Ulu Öndər Heydər Əliyevin həyat və yaradıcılığına həsr olunan, həmçinin Azərbaycan Prokurorluğunun keçdiyi inkişaf yolunu özündə əks etdirən guşə və eksponatlarla tanış olublar.

Səfərin növbəti günü nümayəndə heyətinin üzvləri Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş idarəsinin inzibati binası ilə tanış olublar.

Qarşılıqlı müzakirələr formatında baş tutmuş ikitərəfli görüş zamanı Azərbaycan Respublikasının Baş prokurorunun müavini - Baş İdarə rəisi Nazim Rəcəbov tərəfindən ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində görülmüş işlər və bu sahədə mövcud müsbət təcrübə haqqında ətraflı məlumat verilib, habelə, görüş çərçivəsində qurumların fəaliyyəti barədə qarşılıqlı məlumat mübadiləsi həyata keçirilib.

Qonaqların Baş Prokurorluğun müasir informasiya-kommunikasiya texnologiyaları ilə təchiz edilmiş yeni inzibati binasına səfəri zamanı













əməkdaşlar üçün yaradılmış şərait və prokurorluğun fəaliyyəti barədə ətraflı məlumat verilməklə yeni inzibati binanın 44 günlük Vətən müharibəsinə həsr olunmuş muzeyi də ziyarət olunub.

Daha sonra qonaqlar Heydər Əliyev Mərkəzini ziyarət edərək, görkəmli dövlət xadiminin həyat və fəaliyyətini əks etdirən stendlərlə tanışlıq nümayəndə heyətinin üzvlərində xoş təəssürat yaradıb, həmçinin Mərkəzdə yerləşən muzey və eksponatlar barədə onlara ətraflı məlumat verilib.

Nümayəndə heyəti "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğunu ziyarət edərək, Şirvanşahlar Sarayı Kompleksi və Qız Qalası, həmçinin UNESCO-nun Ümumdünya irs siyahısına daxil edilmiş digər tarixi-memarlıq abidələri ilə tanış olublar.

Bundan başqa, nümayəndə heyəti Hərbi Qənimətlər Parkında olaraq vətən müharibəsində qüdrətli ordumuzun işğalçılardan tərksilah etdiyi hərbi eksponatlar barədə məlumatlandırılıb.







# Baş prokuror Kamran Əliyev beynəlxalq konfransda mühüm məsələləri diqqətə çatdırıb





İyunun 4-ü və 5-i tarixlərində Bakı şəhərində Ədliyyə Nazirliyi və Baş Prokurorluq tərəfindən Türk Ədliyyə Təlim Şəbəkəsinin fəaliyyəti çərçivəsində "Türk Dövlətlərinin hüquq tətbiqetmə fəaliyyətlərində rəqəmsallaşma və inteqrasiya" mövzusunda beynəlxalq konfrans keçirilmişdir.

Konfransın açılış mərasimində Baş prokuror Kamran Əliyev, ədliyyə naziri Fərid Əhmədov, Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov, Vəkillər Kollegiyasının Rəyasət Heyətinin sədri Anar Bağırov, Türk Akademiyasının prezidenti Şahin Mustafayev və Türk Dövlətləri Təşkilatının Baş katibinin müavini Sədi Cəfərov iştirak edib.

Konfransda Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Şimali Kipr Türk Respublikasından 30-a yaxın nümayəndə iştirak etmişdir.

İki gün davam edən konfransda Türk dövlətlərində məhkəmə, eləcə də prokurorluq sistemlərində elektron informasiya texnologiyalarından istifadə, ölkələrin mülki qanunvericiliyinin təhlili və yaxşılaşdırılması, hakim və prokurorların tədrisində elmi tədqiqatların və tədrisin təşkilində elektron texnologiyaların rolu mövzularında panel sessiyalar və müzakirələr keçirilmişdir.







Tədbirdə çıxış edən Baş prokuror Kamran Əliyev bildirilib ki, Türk Dövlətləri Təşkilatı türkdilli ölkələrin birliyi və əməkdaşlığı üçün əhəmiyyətli bir platformadır. Təşkilatın əsası 2009-cu ildə Naxçıvan Sazişi ilə qoyulmuş və o gündən bəri türk dövlətləri arasında iqtisadi, siyasi və mədəni əlaqələri gücləndirməyə xidmət etmişdir.

Baş prokuror nəzərə çatdırdı ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dəfələrlə Təşkilatın əhəmiyyətini vurğulayıb və bu təşkilatın türkdilli xalqların birliyini daha da möhkəmləndirdiyini bildirib. Cənab Prezidentin sözləri ilə desək, "Türk Dövlətləri Təşkilatı türk dünyasının ortaq maraqlarını qorumaq və irəlilətmək üçün möhkəm bir təməldir."



Əlavə olaraq qeyd olunub ki, müzakirə olunan və həyatımıza inteqrə edilmiş müasir texnologiyalardan istifadə sahəsində türk dövlətlərinin prokuror, hakim və mütəxəssislərinin apardığı təcrübə mübadiləsi mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Prokurorluğunun "EPİS"i, Türkiyə ədliyyə sisteminin "UYAP"ı, Qazaxıstan hüquq mühafizə orqanlarının "Zandılık"ı və digər rəqəmsal platformaların bir-birimizdən öyrənərək daha da üst səviyyəyə daşınması üçün effektiv müzakirələrin aparılması olduqca əhəmiyyətlidir.

Baş prokuror Kamran Əliyev konfransda çıxışında deyib ki, Türk Dövlətləri Təşkilatına üzv ölkələrin hüquq mühafizə orqanları ilə əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsi prioritetdir. O, bildirilib ki, tarixi bağlarımız, ortaq dinimiz və dilimizlə qardaşlıq münasibəti olan Türk Dövlətləri Təşkilatına üzv ölkələrin hüquq mühafizə orqanları ilə əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsi prioritet məsələlərdəndir.

Qeyd edilib ki, 1 noyabr 2021-ci il tarixində Bakıda Türk Dövlətləri Təşkilatının Baş Prokurorlar Şurasının yaradılması da bu istiqamətdə atılan mühüm addımlardan biri idi. Bu şura üzv ölkələrin hüquq mühafizə orqanları arasında əməkdaşlığı daha da dərinləşdirəcək və effektiv fəaliyyət göstərmələrinə imkan verəcəkdir.

"Sahəvi dövlət qurumlarını birləşdirən şuralar türk dövlətləri arasında effektiv əməkdaşlığın inkişaf etdirilməsi üçün təqdirəlayiq platformadır. Bu şuralar vasitəsilə türkdilli ölkələr arasında bütün sahələrdə əməkdaşlıq daha da irəli gedəcəkdir" – deyə Baş prokuror əlavə edib.

# Baş prokuror beynəlxalq konfrans iştirakçıları ilə görüşüb

İyunun 5-də Baş prokuror Kamran Əliyev ölkəmizdə "Türk Dövlətlərinin hüquq tətbiqetmə fəaliyyətlərində rəqəmsallaşma və inteqrasiya" mövzusunda keçirilən beynəlxalq konfransın iştirakçıları ilə görüşüb.

Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Şimali Kipr Türk Respublikasından olan qonaqları salamlayan Baş prokuror tarixi bağları və ortaq dəyərləri olan qardaş və dost türk dövlətlərinin müxtəlif qurumları, o cümlədən prokurorluq orqanları arasında əlaqələrin gücləndirilməsinin önəmli olduğunu bildirib.







Kamran Əliyev Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycanın ərazi bütövlüyünün tam şəkildə bərpa olunduğu, dövlət başçısının və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə Qarabağda sürətli bərpa və quruculuq işlərinin aparıldığı barədə qonaqları məlumatlandırıb.

2021-ci ilin noyabr ayında Bakıda Türk Dövlətləri Təşkilatının Baş Prokurorlar Şurasının yaradılmasının bu istiqamətdə atılan mühüm addımlardan biri olduğu vurğulanıb. Şuranın üzv ölkələrin hüquq mühafizə orqanları arasında əməkdaşlığı daha da dərinləşdirəcəyi və effektiv fəaliyyət göstərmələrinə imkan verəcəyi qeyd olunub.

Baş prokuror böyük coğrafiyanı əhatə edən türk dünyasının hüquq mühafizə orqanlarının akademik dairələri arasında qarşılıqlı və səmərəli əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini diqqətə çatdırmaqla, keçirilmiş konfransın müasir zamanın tələblərinə uyğun hüquq tətbiqetmə sahəsində rəqəmsallaşma üçün çağırışlara tutarlı cavab verməyə xidmət edəcəyini, mövcud potensialın inkişafında və qarşılıqlı fəaliyyətin əlaqələndirilməsində səmərəli vasitə olacağını bildirib.



Konfrans iştirakçıları göstərilmiş qonaqpərvərliyə görə təşəkkür ifadə edərək dövlətlərimiz və xalqlarımız arasında dostluq və qardaşlıq münasibətlərinə böyük önəm verdiklərini qeyd etmiş, peşəkar platformada, o cümlədən elm-tədris sahəsində əməkdaşlığın vacibliyini qeyd etmişlər.

Qonaqlar Baş Prokurorluğun Tarix muzeyində Ulu Öndər Heydər Əliyevin həyat və yaradıcılığına həsr olunan, həmçinin Azərbaycan Prokurorluğunun keçdiyi inkişaf yolunu özündə əks etdirən guşə və eksponatlarla tanış olublar.

Sonda xatirə fotosu çəkilib.

# Latviyanın Baş prokuroru ölkəmizdə səfər edib

Baş prokuror Kamran Əliyevin dəvəti ilə Latviya Respublikasının Baş prokuroru Yuris Stukansın rəhbərlik etdiyi nümayəndə heyəti iyunun 12-də ölkəmizdə işgüzar səfərdə olub.

İlk öncə nümayəndə heyəti Fəxri Xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil qoyub, eləcə də görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarını ziyarət edib. Qonaqlar, həmçinin Şəhidlər xiyabanına gedərək, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş Vətən övladlarının xatirəsini anıblar.








Baş Prokurorluqda keçirilmiş görüşdə qonaqları səmimi salamlayan Baş prokuror ölkələrimiz arasında tarixən mövcud olan əlaqələrin uğurla inkişaf etdiyini qeyd edərək hüquqi əməkdaşlığın genişlənməsinin vacibliyini vurğulayıb. Kamran Əliyev ötən ilin fevral ayında Riqaya işgüzar səfərini və latviyalı həmkarları ilə keçirdiyi görüşləri məmnuniyyətlə xatırladığını bildirib.

Baş prokuror Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi strateji kursun və dövlət siyasətinin prioritetlərinə uyğun olaraq ölkəmizdə hüquq qaydasının möhkəmləndirilməsi və qanunun aliliyinin təmin olunması istiqamətində aparılan islahatlar, həmçinin Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycanın ərazi bütövlüyünün tam şəkildə bərpa olunduğu, dövlət başçısının və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə Qarabağda sürətli bərpa və quruculuq işlərinin aparılması barədə həmkarına məlumat verib.

Səfərə dəvətə və səmimi qəbula görə təşəkkürünü bildirən Yuris Stukans ölkəmizin dinamik inkişafının canlı şahidi olmaqdan məmnun olduğunu bildirib. Qonaq prokurorluq orqanlarımız arasında əlaqələrin inkişaf etdirilməsində maraqlı olduqlarını qeyd edib.

Tərəflər ölkələrimizin tərəfdar çıxdığı beynəlxalq konvensiyalar və təşkilatlar, o cümlədən Avrocast və Beynəlxalq Prokurorlar Assosiasiyası çərçivəsində cinayətkarlığa qarşı mübarizədə hüquq mühafizə

orqanlarımız arasında əməkdaşlığın müvəffəqiyyətlə həyata keçirildiyini vurğulayıb.

Baş prokuror Kamran Əliyev dünyanın ən mötəbər beynəlxalq tədbirlərindən biri olan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un, cari ilin 29 sentyabr - 2 oktyabr tarixlərində Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu illik konfransı və ümumi yığıncağının ölkəmizdə keçiriləcəyini bildirib.

Görüşdə tərəfləri maraqlandıran bir sıra məsələlər, o cümlədən korrupsiyaya qarşı mübarizə, çirkli pulların yuyulması və digər sahələrdə törədilmiş cinayət işləri üzrə hüquqi yardım və aktivlərin bərpası haqqında sorğuların icrası, həmçinin qurumlararası əlaqələrin inkişaf etdirilməsi məqsədilə yaxın gələcəkdə Anlaşma Memorandumunun imzalanması müzakirə olunub.

Görüşdə Latviyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Edqars Skuya iştirak edib.

Səfər çərçivəsində nümayəndə heyəti Baş Prokurorluğun yeni inzibati binası və Zəfər muzeyi ilə tanış olaraq, prokurorluğun struktur qurumlarının rəhbərləri ilə görüş keçirib. Qonaqlara ölkəmizin prokurorluq və digər hüquq mühafizə orqanlarının fəaliyyəti barədə ətraflı məlumat verilib.

Nümayəndə heyəti Milli Xalça muzeyi, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğunu ziyarət edərək, Şirvanşahlar Sarayı Kompleksi və Qız Qalası, həmçinin UNESCO-nun Ümumdünya irs siyahısına daxil edilmiş digər tarixi-memarlıq abidələri ilə tanış olublar.

Latviyalı prokurorlar Heydər Əliyev Mərkəzini ziyarət edərək, görkəmli dövlət xadiminin həyat və fəaliyyətini əks etdirilən stendlərlə tanış olublar.












# “Dövlət qulluqçularının peşə bayramı” münasibətilə Baş Prokurorluqda tədbir keçirilib



23 iyun – Azərbaycan Respublikasında Dövlət Qulluqçularının Peşə Bayramı günü münasibətilə Azərbaycan Respublikasının Baş Prokurorluğunda Baş prokurorun rəhbərliyi ilə prokurorluğun dövlət qulluqçuları və veteran dövlət qulluqçularının iştirakı ilə tədbir keçirilib.

Tədbirdə çıxış edən Baş prokuror Kamran Əliyev Azərbaycan Respublikasında demokratik, hüquqi və dünyəvi dövlət qurulması prosesində dövlət qulluğunun rolunu və xalqımızın Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə müstəqil və müasir dövlət qulluğu sisteminin yaradıldığını, “Dövlət qulluğu haqqında” 21 iyul 2000-ci il tarixli Qanun da daxil olmaqla dövlət qulluğuna dair bir sıra qanunvericilik aktlarının qəbul edildiyini, həmçinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 25 may 2006-cı il tarixli Sərəncamı ilə 23 iyun tarixinin ölkəmizdə Dövlət qulluqçularının peşə bayramı günü kimi təsis edildiyini diqqətə çatdırıb.









Çıxış zamanı ölkədə dövlət qulluqçularının sayının 27 min nəfər olduğu və onların 29,7 faizini qadınların təşkil etdiyi, həmçinin prokurorluq orqanlarında 642 nəfər dövlət qulluqçusunun fəaliyyət göstərdiyi, həmin şəxslərdən isə 32,9 faizini qadınların təşkil etdiyi qeyd olunaraq ölkə başçısı tərəfindən dövlət qulluqçularına göstərilən xüsusi diqqət və qayğıya, həmçinin Möhtərəm Prezidentin dövlət qulluqçularının fəaliyyətində müəyyən etdiyi prinsiplərə toxunulub.

Tədbirdə Baş prokuror tərəfindən peşə bayramı ilə əlaqədar müvafiq əmrlə təltif edilmiş 24 dövlət qulluqçusu və 4 prokurorluq orqanlarında çalışmış veteran dövlət qulluqçularına hədiyyələr təqdim edilib.

Dövlət qulluqçuları və veteranlar göstərilən diqqət və qayğı ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildirib.

# İyunun 24-də Xankəndi şəhər prokurorluğunun inzibati binası istifadəyə verilib



Açılış mərasimində Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev iştirak edib.

Baş prokurorluğun rəhbərliyinin də iştirak etdiyi tədbirə, həmçinin, digər dövlət və hüquq mühafizə orqanlarının əməkdaşları qatılıb.

Əvvəlcə mərasim iştirakçıları inzibati binanın foyesində Ulu Öndər Heydər Əliyevin barelyefi önündə dahi insanın unudulmaz xatirəsinə dərin hörmət və ehtiramlarını bildirib.

Tədbiri giriş sözü ilə açan Azərbaycan Respublikası Baş prokuroru Kamran Əliyev deyib ki, Azərbaycan xalqı bu gün sözlə ifadə edilməsi mümkün olmayan misilsiz qələbə sevinci, yüksək fəxarət duyğuları, hədsiz fərəh, qürur hissləri yaşayır:

"Ümummilli Lider Heydər Əliyev, eləcə də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin prokurorluq orqanlarına göstərdikləri daimi diqqət və qayğı hər zaman hiss olunub.











Ölkə prezidentinin cari ilin 24 may tarixli Sərəncamı ilə Xankəndi şəhər prokurorluğunun təsis edilməsi və qısa müddətdə qurumun bina, avadanlıq, rabitə, nəqliyyat vasitələri ilə təmin edilməsi, habelə digər maddi-texniki təminatı məsələlərinin həlli bunun göstəricisidir" – deyə Baş prokuror vurğulayıb.

Bildirilib ki, Xankəndi şəhər prokurorluğunun inzibati binasının qısa müddətdə istifadəyə verilməsi çox əlamətdar bir dövrə təsadüf edir.

Prokurorluq orqanlarının formalaşmasında Ümummilli Lider Heydər Əliyevin tarixi xidmətlərindən danışan Baş prokuror Azərbaycan prokurorluğunun keçdiyi şərəfli yol və hazırkı fəaliyyəti barədə bəhs edib.

Kamran Əliyev prokurorluq orqanlarında aparılan kompleks islahatlar və sağlam iş mühitinin formalaşdırılması məqsədilə görülən məqsədyönlü tədbirlərdən söz açıb.

İnzibati binanın istifadəyə verilməsini prokurorluq əməkdaşlarının əməyinə verilən yüksək qiymət kimi dəyərləndirən Baş prokuror Azərbaycan dövlətinin inkişafı naminə bundan sonra da böyük səylə çalışacaqlarını bildirərək kollektivə uğurlar arzu edib.

Daha sonra iştirakçılar  inzibati binada yaradılan şəraitlə tanış olub.

Məlumat verilib ki, binada vətəndaşların qəbul otağı, prokuror, prokuror köməkçiləri, müstəntiq və inspektorlar üçün otaqlar,  dəftərxana və arxiv yaradılıb.

Bildirilib ki, bina  bütün zəruri avadanlıq, kompüter sistemi, kommunikasiyalar və mühəndis qurğuları ilə təchiz edilib, mebel və digər inventarlarla təmin olunub.

Sonda xatirə fotoşəkli çəkilib.



# Xankəndi şəhərində elmi-praktiki konfrans keçirilib



İyunun 24-də Xankəndi şəhərində Baş Prokurorluğun təşkilatçılığı ilə "Ətraf Mühitinin Gücləndirilməsində Maarifləndirmə və Hüquq Mühafizə Tədbirlərinin rolu" mövzusunda Elmi-Praktiki Konfrans keçirilib.

Baş prokuror Kamran Əliyevin sədrliyi ilə keçirilən tədbirdə müxtəlif dövlət orqanlarının nümayəndələri, aparıcı ali təhsil müəssisələri, ixtisaslaşmış akademiya və elm ocaqlarını təmsil edən görkəmli hüquqşünaslar, həmçinin Baş prokuror yanında Elmi-Məsləhət Şurasının üzvləri və prokurorluq əməkdaşları iştirak edib.

Tədbir başlamazdan öncə Ulu Öndər Heydər Əliyev və vətənimizin azadlığı uğrunda canlarını qurban verən şəhidlərimizin əziz xatirəsi konfrans iştirakçıları tərəfindən bir dəqiqəlik sükutla yad olunub, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.






Konfrans iştirakçılarını salamlayan Baş prokuror Kamran Əliyev qeyd etmişdir ki, Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi və yenilməz, rəşadətli Azərbaycan Ordusunun misilsiz qəhrəmanlığı nəticəsində 10 milyonluq Azərbaycan xalqı 44 gün ərzində ərazi bütövlüyümüzü bərpa etmişdir.

Əlavə olunmuşdur ki, 2023-cü ilin sentyabrın iyirmisində 24 saatdan da az müddətdə yekunlaşan "ildırımsürətli", lokal xarakterli antiterror tədbirləri nəticəsində Azərbaycan öz suverənliyini tam bərpa etməsi bir daha sübut etdi ki, ölkəmiz qüdrətli dövlətdir və onun sarsılmaz, qətiyyətli mövqeyə, dəmir iradəyə malik rəhbəri – Ali Baş Komandanı vardır.

Kamran Əliyev qeyd etmişdir ki, məhz Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu düşmən üzərində qəti qələbə qazanaraq, yüz ildən bəri bizə "miras" qalan bu ağrılı-acılı problemi birdəfəlik həll edib. Ali Baş Komandan İlham Əliyev "Dağlıq Qarabağ" probleminin həllinə öz imzasını, möhürünü atdı. Əminliklə deyə bilərik ki, İlham Əliyev öz adını milli tariximizin son 200 ildə ən şanlı və müzəffər sərkərdəsi kimi Azərbaycan xalqının yaddaşına qızıl hərflərlə əbədi həkk etdi. Bu tarixi dəyişikliyin dərk olunması üçün çox vaxt tələb olunacaq, bəlkə də tamlığı ilə qəbul olunması zəfərlə yoğrulmuş yeni nəsilə nəsib olacaq.

Qeyd edilmişdir ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərarın verilməsi beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması,



iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir.

Baş prokuror qeyd etmişdir ki, ölkəmiz qlobal iqlim dəyişmələrinin təsirindən kənarda qalmayıb. O, bildirib ki, kənd təsərrüfatı, su resursları, enerji, meşə, turizm, səhiyyə sektoru və sahilyanı zonaları Azərbaycanda iqlim dəyişikliyinə həssasdır. Bu problemə qarşı mübarizədə diqqətin artması, beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 25 dekabr 2023-cü il tarixdə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında sərəncam imzalayıb. Bu sərəncam Azərbaycanın qlobal təşəbbüslərə ilk qoşulan ölkələrin sırasında olduğunu bir daha sübut edir. Digər tərəfdən dövlət başçımızın 2024-cü ili "Yaşıl dünya naminə həmrəylik ili" elan etməsi bütün il ərzində bu sahədə fəaliyyətimizi genişləndirəcəyimizdən və ətraf mühitin qorunması istiqamətində görüləcək işlərin xeyli dərəcədə intensivləşəcəyindən xəbər verir.

Baş prokuror qeyd edib ki, ekoloji hüquqpozmalarla bağlı 4 il ərzində 4,2 milyon manatın dövlət büdcəsinə ödənilməsi təmin edilib.



O bildirib ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərarın verilməsi beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir.

Prokurorluq olaraq biz də bu reallıqlara uyğun fəaliyyət göstərməliyik. Azərbaycan Respublikasının Baş Prokurorluğunda və yerlərdə ekoloji hüquqpozmalara qarşı mübarizə, maarifləndirmə və həmin qəbildən pozuntuların qarşısının alınması məqsədilə dərin ixtisaslaşma işi aparılıb.

2020-ci ildə təsis olunan Cinayət təqibindən kənar icraatlar idarəsi və yerlərdə həmin sahəyə cavabdeh olan rayon prokurorlarının köməkçiləri tərəfindən bu günədək 701 cinayət xarakterli məlumat araşdırılıb, 407 cinayət işi başlanılıb. 4.193.168 (dörd milyon yüz doxsan üç min yüz altmış səkkiz) manat məbləğində pulun dövlət büdcəsinə ödənilməsi təmin edilib.

Ümumilikdə, inzibati xəta haqqında işlər üzrə başlanılmış icraatlardan 418-i fiziki, 530-u vəzifəli, 84-ü hüquqi şəxslər barəsində olub. Bunların əhəmiyyətli hissəsi ekoloji pozuntularla bağlı olub.

"Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə əsasən, idarə tərəfindən qanun pozuntularının, onları doğuran səbəb və şəraitin aradan qaldırılmasına dair müvafiq təşkilatlara, yaxud vəzifəli şəxslərə 229 təqdimat və qanun pozuntularından çəkindirmək məqsədilə 197 rəsmi xəbərdarlıq edilib.

Qanun pozuntularına yol vermiş şəxslərin məsuliyyətə cəlb olunması və dəymiş ziyanın ödənilməsi ilə yanaşı Baş Prokurorluq tərəfindən maarifləndirici, qabaqlayıcı və bərpaedici effekt daşıyan ECOLEAD platforması formalaşdırılır.

Biz bu layihəni Azərbaycan Respublikasının Ekologiya Və Təbii Sərvətlər Nazirliyi, Bakı Dövlət Universiteti və bu sahədə fəal olan qeyri-hökumət təşkilatları ilə qururuq.

ECOLEAD platformasının məqsədi maarifləndirmə və hüquq mühafizə tədbirləri yolu ilə ətraf mühitin gücləndirilməsi, ətraf mühitin mühafizəsi sahəsində mütəxəssislərin əlaqələndirilməsi, bu sahələrdə mövcud təcrübəni

bölüşməklə çoxtərəfli münasibətlərin səmərəli təşkil edilməsi və inkişafının təşviqi, ətraf mühitin əleyhinə qeyri-qanuni əməllərin araşdırılması, bu sahədə pozuntuların qarşısının alınması, toplanmış bilik və məlumatların paylaşılması, öz səlahiyyətləri daxilində funksiyalarını daha operativ və səmərəli icra etmək üçün əməkdaşlıq əlaqələrinin genişləndirilməsidir.



Baş Pprokuror vurğulayıb ki, ECOLEAD platforması işinin əsasını “ECOLAB”, “Ecoclinic” və “Cərima Parkı - Təbiətin Qisası” komponentlər təşkil etməklə prokurorluq əməkdaşları, ekoloqlar, ali təhsil ocaqları və QHT-lərin birgə səyləri nəticəsində ətraf mühit əleyhinə cinayətlərin araşdırılması, bu sahədə pozuntuların qarşısının alınması, bu zaman toplanmış bilik və məlumatların paylaşılmasına yönəlir:

Vahid istiqamətdə fəaliyyət göstərəcək peşəkarlar üçün formalaşan ECOLEAD platforması Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında münaqişədən sonrakı ekoloji problemlərin daha yaxşı həlli üçün tədqiqat ehtiyaclarını, ekoloji pozuntuların qarşısının alınması və həllinə maraqlı tərəflərin cəlb edilməsini, ekoloji sahədə peşəkarlararası dialoqun təkmilləşdirilməsinə xidmət edəcək.

Baş prokuror konfrans iştirakçılarına məlumat verdi ki, separatçılarla bağlı cinayət işi üzrə ibtidai istintaq başa çatıb.




Azərbaycanın Qarabağ bölgəsinin və digər suveren ərazilərinin Ermənistanın hərbi təcavüzü nəticəsində işğal olunduqdan sonra yaradılmış qondarma qurumun separatçı rəhbərləri barəsində olan cinayət işləri yaxın vaxtlarda məhkəməyə göndəriləcək.

O bildirib ki, artıq 15 nəfərlə bağlı aparılan ibtidai istintaq başa çatıb. Onların bütün hüquqları təmin olunub, ölkədaxili qanunlar və beynəlxalq konvensiyalarının tələblərinə uyğun bütün hüquqları təmin olunub, vəkil və tərcüməçi ilə təmin olunublar. Hazırda təqsirləndirilən şəxslər, vəkillər və zərərçəkmiş şəxslər cinayət işi materialları ilə tanış olurlar. Tanışolma mərhələsi başa çatandan sonra, ittiham aktı məhkəməyə göndəriləcək.

Çıxış edən Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov Xankəndi şəhərində hazırda əhalinin öz yurdlarına qayıtması, regionun inkişafı ilə bağlı işlər görüldüyünü, habelə təsdiq olunmuş köç planına əsasən, Xocalı şəhəri, Kərkicahan qəsəbəsi və Malıbəyli kəndində, eləcə də Ağdərə rayonunun Umudlu kəndinə bu il ərzində yüzlərlə ailənin yerləşdirilməsinin nəzərdə tutulduğunu bildirib.

Xankəndi şəhərində hazırda əhalinin öz yurdlarına qayıtması, regionun inkişafı ilə bağlı işlər görülür. Xankəndi və ətraf rayonlara yaxın zamanlarda köç













davam edəcək. Hazırda 3 mindən çox vətəndaş Xankəndidə məskunlaşıb. Onlar burada çalışan dövlət müəssisələrinin əməkdaşları və bizneslə bağlı çalışan işçilərdir. Xankəndidə hazırda 43 obyekt fəaliyyət göstərir. Obyektlərdə 322 nəfər işlə təmin edilib. Yaxın vaxtlarda daha 37 obyektin açılması nəzərdə tutulub. Qarabağ Universitetinin açılmasından sonra burada yaşayış sayının çoxalması və yeni obyektlərin açılması nəzərdə tutulub.




Konfransda Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər nazirinin müavini xanım Umayra Tağıyeva, Azərbaycan Respublikası Milli Məclisinin VI çağırış deputatı Kamal Cəfərov, Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri Vüqar Süleymanov, Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev, Qarabağ Universitetinin rektoru Şahin Bayramov, Ankara Üniversitesi Hukuk Fakültesi Ceza ve Ceza Muhakemesi Hukuku Anabilim Dalı Başkanlığı ile Kamu Hukuku Bölüm Başkanı və Ankara Üniversitesi Hukuk Fakültesi Dekanı Muharrem Özen, Milli Aviasiya Akademiyasının "İqtisadiyyat və hüquq" fakültəsinin dekanı Ayxan Rüstəmzadə, Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyinin sədri Samir İdayətov, Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsinin rəisi Elnur Musayev, həmin idarənin böyük prokuroru Zamir Paşayev və Elm-Tədris Mərkəzinin rəis müavini Talıb Cəfərov tərəfindən çıxışlar edilmiş və mövzu ətrafında səmərəli müzakirələr aparılmışdır.

Qeyd edilmişdir ki, yaşıllıqların artırılmasına bütün dövlət orqanları qoşulur. Lakin ekoloji problem hələ də qalmaqdadır, problemlərin həlli üçün böyük işlər görülməlidir, böyük maliyyə lazım olduğundan bunlar mərhələli şəkildə həyata keçirilir. Problemlərin həlli üçün yeni texnoloji işlər aparılır. Ətraf mühitə olan risklər də müşahidə olunur. Qanunvericilik təkmilləşdirilir və maarifləndirmə işləri aparılır. Məlumat üçün bildirilib ki, Bakıda orta hesabla bir nəfərə 5 kv metr yaşıllıq düşür. Norma isə 20-25 kv metrdir.

İqlim dəyişikliyinə diqqət hazırda ən önəmli və

təcili çağırışlardan biridir. Bu çağırış milli və qlobal səyləri şərtləndirir. Azərbaycan Respublikası beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişimlərin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verir. Bu sahədə həyata keçirilən tədbirlərin fonunda təsadüfi deyil ki, COP 29-a ev sahibliyi etməsi Azərbaycanın iqlim dəyişikliyi ilə mübarizədə təkcə milli deyil, qlobal miqyasda göstərdiyi səylərin tanınmasının bariz nümunəsidir. COP 29 beynəlxalq konfransı çərçivəsində Azərbaycan Parlamentinin də üzərinə mühüm vəzifələr düşür. Şübhəsiz ki, məqsədimizə çatmaq üçün bu prosesdə beynəlxalq birliyin bütün üzvlərinin iştirakı vacibdir.

Qeyd edilmişdir ki, Azərbaycan Respublikasının Milli Məclisi Parlamentlərarası İttifaq ilə birlikdə COP-29 çərçivəsində Parlament İclası təşkil etməyi planlaşdırır. Bu tədbir parlamentarilərə geniş fikir mübadiləsi aparmaq və iqlim dəyişikliyi ilə mübarizədə hansı addımları ata biləcəyimizi müəyyən etmək imkanı verəcəkdir.






Daha sonra, konfrans iştirakçıları tərəfindən “Azərbaycan Respublikasında ekoloji siyasətə dair” və “Azərbaycan Respublikasında ekoloji hüquqpozmalara qarşı mübarizə” mövzularında videoçarxlar izlənilmiş, “Azərbaycan Respublikası ərazisində ağackəsmə cinayətləri və inzibati xətaların araşdırılmasının xüsusiyyətləri ilə əlaqədar” metodik vəsaitin və “Ətraf mühitin mühafizəsinin hüquqi əsasları” adlı vəsaitin təqdimatı keçirilmişdir.

Konfransın sonunda, Azərbaycan Respublikasının Baş Prokurorluğu, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Bakı Dövlət Universiteti arasında ECOLEAD layihəsinə dair Anlaşma Memorandumu imzalanmışdır.

Anlaşma Memorandumunu Baş prokurorun müavini Heydər Məmmədov, Ekologiya və təbii sərvətlər nazirinin müavini Umayra Tağıyeva və Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev imzalamışlar.

Memorandum ətraf mühitin mühafizəsi əleyhinə törədilmiş qeyri-qanuni əməllərin araşdırılması, bu sahədə yol verilmiş qanun pozuntularının qarşısının alınması, toplanmış bilik və məlumatların paylaşılması, öz səlahiyyətləri daxilində funksiyalarını daha operativ və səmərəli icra etmək üçün əməkdaşlıq əlaqələrinin genişləndirilməsi məqsədilə imzalanıb.

Memorandumla bağlı media nümayəndələrinin sualları cavablandırılmışdır.

Sonda Baş prokuror tərəfindən imzalanmış müvafiq əmrlə Qarabağ və Şərqi Zəngəzur bölgəsində çalışan prokurorluq əməkdaşları təltif olunmuşdur.



# Prokurorluq əməkdaşları Qazax Müəllimlər Seminariyası ADA Universiteti Qazax Mərkəzində olub

İyunun 28-də Baş prokuror Kamran Əliyev və prokurorluq əməkdaşları Qazax Müəllimlər Seminariyası ADA Universiteti Qazax Mərkəzində olublar.



Prokurorluq əməkdaşları tarixi Qazax Müəllimlər Seminariyasının muzeyi ilə tanış olub və onlara təhsil müəssisəsi ilə bağlı ətraflı məlumat verilib.

Bildirilib ki, Qazax Müəllimlər Seminariyasının tarixi 1876-cı ildə Qoridə yaradılmış Zaqafqaziya Müəllimlər Seminariyası ilə bağlıdır. Ümumilikdə 250 azərbaycanlı, o cümlədən Cəlil Məmmədquluzadə, Firidun bəy Köçərli, Səfərəli bəy Vəlibəyov, Nəriman Nərimanov, Süleyman Sani Axundov, Üzeyir bəy Hacıbəyli Qori Seminariyasını bitirib.



Qeyd olunub ki, xalqımızın Ümummilli Lideri Heydər Əliyev 1999-cu ildə Qazax Müəllimlər Seminariyasının 80 illik yubileyinin keçirilməsi haqqında göstəriş verib və bu məqsədlə təşkil olunmuş ümumrespublika elmi-praktiki konfransının iştirakçılarına təbrik məktubu ünvanlayıb.

Həmçinin, vurğulanıb ki, Azərbaycan Prezidenti İlham Əliyev 2018-ci il noyabrın 3-də Qazax Müəllimlər Seminariyasının 100, 2013-cü il fevralın 14-də isə Firidun bəy Köçərlinin 150 illik yubileylərinin keçirilməsi haqqında sərəncamlar imzalayıb.

Nəzərə çatdırılıb ki, Qazax Müəllimlər Seminariyasının tarixi binasında 2022-ci ilin oktyabrından ADA Universitetinin Qazax Mərkəzi fəaliyyət göstərir. Hazırda Mərkəzdə tədrisə ADA Universitetinin müəllim və professor heyəti cəlb olunub. Onlar mütəmadi olaraq Qazax şəhərinə ezam edilirlər.

Prokurorluq əməkdaşları tələbə-müəllim heyəti ilə söhbət edib, onlarla səmərəli fikir mübadiləsi aparılıb.

Sonda xatirə fotoşəkli çəkilib.



# Baş prokuror bölgələrdə vətəndaşları qəbul etmişdir

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.**

## NEFTÇALA RAYONU
















Aprelin 6-da Baş prokuror Kamran Əliyev Neftçala rayon prokurorluğunun inzibati binasında Neftçala, Hacıqabul, Salyan rayon, Şirvan şəhər və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 29 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

**SABUNÇU RAYONU**









Aprelin 23-də Baş prokuror Kamran Əliyev Sabunçu rayon prokurorluğunun inzibati binasında Bakı şəhərinin Sabunçu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbulda iştirak edən 116 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

## AĞDAŞ RAYONU








Aprelin 26-da Baş prokuror Kamran Əliyev Ağdaş rayon prokurorluğunun inzibati binasında Ağdaş, Yevlax, Ucar, Zərdab rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 44 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və






törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

## TƏRTƏR RAYONU













Mayın 3-də Baş prokuror Kamran Əliyev Tərtər rayon prokurorluğunun inzibati binasında Tərtər, Ağdam, Bərdə, Goranboy və Xocalı rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.





Qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 71 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.




## GÖYÇAY RAYONU









Mayın 14-də Baş prokuror Kamran Əliyev Göyçay rayon prokurorluğunun inzibati binasında Göyçay, Kürdəmir, İsmayıllı, Qəbələ rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.





Qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək aziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 67 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.




## NİZAMİ RAYONU









Mayın 21-də Baş prokuror Kamran Əliyev Nizami rayon prokurorluğunun inzibati binasında Bakı şəhərinin Nizami rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbulda iştirak edən 50 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.




## AĞSU RAYONU














İyunun 7-də Baş prokuror Kamran Əliyev Ağsu rayon prokurorluğunun inzibati binasında Ağsu, Şamaxı, Qobustan rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 40 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

## BİNƏQƏDİ RAYONU









İyunun 21-də Baş prokuror Kamran Əliyev Binəqədi rayon prokurorluğunun inzibati binasında Bakı şəhərinin Binəqədi rayon və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbulda iştirak edən 46 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.




## QAZAX RAYONU

İyunun 28-də Baş prokuror Kamran Əliyev Qazax rayon prokurorluğunun inzibati binasında Qazax, Ağstafa, Tovuz, Şəmkir, Gədəbəy rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.








Qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 24 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

**Qəbullardan sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb, eləcə də prokurorluq orqanlarının fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən "Elektron prokurorluq" informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olaraq işin daha da təkmilləşdirilməsi və səmərəliliyin artırılmasına dair təklifləri dinləyib.**


"Türk dövlətlərinin hüquq tətbiqetmə fəaliyyətlərində rəqəmsallaşma və inteqrasiya"
Beynəlxalq Konfrans
"Digitalization and Convergence in the Legal Enforcement Activities of Turkic States"
International Conference
4,5 İyun/ June 2024
Baku - Azerbaijan

# Bakı şəhərində “Türk Dövlətlərinin hüquq tətbiqetmə fəaliyyətlərində rəqəmsallaşma və inteqrasiya” mövzusunda beynəlxalq konfrans keçirilib









Türkdilli ölkələrin əməkdaşlığının miqyasının genişlənməsi və qanunvericilik sistemlərinin yaxınlaşdırılması məqsədilə bu ölkələrin hüquqşünasları, eləcə də hüquq mühafizə orqanlarının əməkdaşlarının tədrisi ilə məşğul olan müəssisələr bir platforma altında toplaşmağı qərara almışlar. 12 dekabr 2022-ci ildə İstanbul şəhərində Türk Ədliyyə Təlimi Şəbəkəsi haqqında Türkiyə, Azərbaycan, Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Macarıstanın ədliyyə sahəsində təlim-tədris təşkilatları arasında Anlaşma Memorandumu imzalanmış və bununla da Türk Dövlətləri Təşkilatının fəaliyyəti çərçivəsində Türk Ədliyyə Təlimi Şəbəkəsi yaradılmışdır.

2024-cü ilin iyun ayının 4 və 5 tarixlərində Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin və Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının birgə təşkilatçılığı ilə Bakı şəhərində “Türk Dövlətlərinin hüquq tətbiqetmə fəaliyyətlərində rəqəmsallaşma və inteqrasiya” mövzusunda beynəlxalq konfrans keçirilmişdir.

Tədbirdə iştirak etmək üçün Türkiyə Ədliyyə Akademiyasının, Türkiyə Respublikası Ədliyyə Nazirliyinin, Türkiyənin regional məhkəmələrinin və prokurorluqlarının, Qazaxıstan Respublikası Ali Məhkəməsi yanında Ədliyyə Akademiyasının, Qa-

zaxıstan Respublikası Baş Prokurorluğu yanında Hüquq Mühafizə Orqanları Akademiyasının, Özbəkistan Respublikası Məhkəmə-Hüquq Şurası yanında Ali Hakimlər Məktəbinin, Özbəkistan Respublikası Hüquq Mühafizə Orqanları Akademiyasının, Qırğızıstan Respublikası Baş Prokurorluğunun, Qırğızıstan Respublikası məhkəmələrinin, eləcə də Şimali Kipr Türk Respublikası Ali Məhkəməsinin və Baş Prokurorluğunun əməkdaşları Bakı şəhərinə səfər etmişlər.

Konfrans iştirakçıları ilk öncə Ümummilli lider Heydər Əliyevin məzarını, Türk Əsgərləri Memorialını və Şəhidlər Xiyabanını ziyarət etmişlər, gül dəstələri düzərək dünya şöhrətli siyasətçinin və şəhidlərin əziz və unudulmaz xatirəsinə dərin ehtiram ifadə etmişlər.

***

Bakı şəhərində yerləşən Fairmont mehmanxanasında keçirilmiş konfransın açılışında Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev, Ədliyyə naziri Fərid Əhmədov, Ali Məhkəməsinin sədri İnam Kərimov, Vəkillər Kollegiyasının Rəyasət
























Heyətinin sədri Anar Bağırov, Türk Akademiyasının prezidenti Şahin Mustafayev, Türk Dövlətləri Təşkilatının Baş katibinin müavini Sədi Cəfərov salamlama nitqi ilə çıxış etmişlər.

Konfransın ilk günü 3 panel mövzu üzrə müzakirələrin aparılması formatında təşkil olunmuşdur. Xüsusən də 1-ci panel Bakı Apellyasiya Məhkəməsinin hakimi Ramin Qaraqurbanlının moderatorluğu ilə "Məhkəmə sistemində elektron informasiya texnologiyalarından istifadə" mövzusunda keçirilmişdir. Mövzu ətrafında Türkiyə Ədliyyə Nazirliyində Baş idarə rəisi Servet Gül, Azərbaycan Ədliyyə Nazirliyində idarə rəisi vəzifəsini icra edən Qismət Qurbanov, Qazaxıstan Ədliyyə Akademiyasının rektoru Zaureş Baymoldina, Qırğızıstan Narın Vilayət Məhkəməsinin sədri






Bekmukhammet Musurmankulov, Özbəkistan Ali Hakimlər Məktəbinin direktoru Xoci-Murad İsakov, Şimali Kipr Ali Məhkəməsinin hakimi Cenkay İnan çıxış etmişlər.



***

2-ci panel "Prokurorluq orqanlarının fəaliyyətində elektron informasiya sistemlərinin tətbiqi" mövzusuna həsr edilmiş və onun moderatorluğunu Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəisi Mübariz Əhmədov həyata keçirmişdir. Mövzu ilə bağlı Mərkəzin şöbə rəisi Əmir Ocaqverdiyev, Qazaxıstan Hüquq Mühafizə Orqanları Akademiyasının prorektoru Gülnar Şuşikova və həmin Akademiyanın dosenti Dauren Utepova, Qırğızıstan Baş Prokurorluğunun ofis prokuroru Timurbek uulu Baxtiyar, Özbəkistan Hüquq Mühafizə Orqanları Akademiyasının prokuroru Şerzod Matçanov, Şimali Kipr Baş Prokurorluğunun prokuroru Enver Atilla öz fikirlərini bildirmişlər.




3-cü paneldə Azərbaycan Ədliyyə Akademiyasının prorektoru Elçin Xələfovun moderatorluğu ilə "Türk dövlətlərinin mülki qanunvericiliyinin təhlili və yaxınlaşdırılması" mövzusu üzrə müzakirələr aparılmış, müzakirələrdə Beynəlxalq Türk Akademiyasının prezidentinin müavini Ashat Kesikbayev,





Türkiyə Ədliyyə Nazirliyində Baş idarənin rəis müavini Ahmet Üstünbaş, Azərbaycan Ədliyyə Akademiyasının rektoru Şahin Əliyev, Qazaxıstan Hüquq Mühafizə Orqanları Akademiyasının baş müəllimi Adil Alibekov, Qırğızıstanın Oş Şəhər Məhkəməsinin hakimi Qalina Şin, Özbəkistan Ali Hakimlər Məktəbinin müəllimi Dilmurad Artikov, Şimali Kipr Ali Məhkəməsinin hakimi Rauf Kürşad iştirak etmişlər.

2024-cü ilin iyun ayının 5-də Konfrans öz işini davam etdirmiş və 4-cü panelin mövzusu “Hakim və prokurorların tədrisində elmi tədqiqatların və tədrisin təşkilin olunmasında elektron texnologiyaların rolu” olaraq, ona moderatorluğu Türkiyə Ədliyyə Akademiyasının rektoru Muhittin Özdemir etmişdir. Bu mövzu ətrafında Azərbaycan Ədliyyə Akademiyasının bölmə rəisi Gülarə Məmmədovanın və Elm-Tədris Mərkəzinin şöbə rəisi Əmir Ocaqverdiyevin, Özbəkistan Hüquq Mühafizə Orqanları Akademiyasının şöbə müdiri Askar İbrahimovun, Türkiyə Ədliyyə Akademiyasının şöbə rəhbəri Abdullah Muratın, Qazaxıstan Ədliyyə Akademiyasının dosenti Raushan Yusupovanın və Şimali Kipr Baş prokurorluğunun prokuroru Enver Atillanın məruzələri dinlənilmişdir.

***

Konfrans dörd panel mövzu üzrə müzakirələrin aparılması formatında keçirilərək maraqlı təcrübə mübadiləsi ilə yadda qalmışdır. Müzakirələr başa çatdıqdan sonra iştirakçılara müvafiq sertifikatlar və milli suvenirlər təqdim edilmiş, ölkələrin bayraqları, eləcə də fotostend qarşısında xatirə fotoları çəkilmişdir.

***

























Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Şimali Kiprdən olan konfrans iştirakçıları üçün Bakının diqqətə layiq yerlərinə ekskursiyalar təşkil olunmuşdur.

Mədəni tədbirlər çərçivəsində qonaqlar Mərkəzi parkda, Nizami küçəsində və Fəvvarələr meydanında gəzmişlər, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu ilə tanış olmuşlar, orada qədim memarlıq abidəsi olan Qız qalasını və Şirvanşahlar sarayını ziyarət etmişlər. Bakı bulvarında









(Dənizkənarı Milli Park) gəzərkən qonaqlar üçün Xalça muzeyinə ekskursiya təşkil edilmişdir.



Şəhərimizin qonaqları Heydər Əliyev Mərkəzini ziyarət edərək buradakı sərgilərlə tanışlıqdan məmnun olmuş, “Atəşgah Məbədi” Dövlət Tarix-Memarlıq və “Qala” Dövlət Tarix-Etnoqrafiya Qoruqlarında yaradılmış şəraitə heyrət etmişlər.

Konfrans çərçivəsində görüşlər zamanı tədbir iştirakçıları göstərilmiş qonaqpərvərliyə görə təşəkkür ifadə edərək dövlətlərimiz və xalqlarımız arasında dostluq və qardaşlıq münasibətlərinə böyük önəm verdiklərini, peşəkar platformada elm-tədris sahəsində əməkdaşlığın vacibliyini qeyd etmişlər.



# Elm-Tədris Mərkəzində “Etik davranışın qayda və prinsipləri, həmçinin onlara əməl edilməsi” mövzusunda təlim keçirilib



2024-cü ilin aprel ayının 1-də tabe rayon (şəhər) prokurorluqlarının əməliyyat işçiləri üçün “Etik davranışın qayda və prinsipləri” mövzusunda distant formada təlim keçirilib.

Təlim zamanı vətəndaş qəbulu, ibtidai araşdırma, eləcə də sosial media sahəsində prokurorluq əməkdaşlarının etik davranış standartları, həmçinin əməkdaşların kollektiv daxili ünsiyyət qaydaları, habelə etik davranış standartları üzrə beynəlxalq norma və tələblər barədə təlim iştirakçılarına məruzə və təqdimatlar edilib.

Baş Prokurorluğun Elm-Tədris Mərkəzi tərəfindən təşkil edilmiş təlimdə 342 nəfər prokurorluq işçisi iştirak edib.

Tədbir zamanı tədris olunan mövzulara böyük maraq göstərilib və əldə olunan biliklər müzakirə edilib.

# Həkim səhvləri ilə bağlı məlumatların daha peşəkarcasına araşdırılması tədris olunub



Baş Prokurorluğun Elm-Tədris Mərkəzi tərəfindən aprelin 4 və 5-də prokurorluq əməkdaşları üçün “Həkim səhvləri ilə bağlı məlumatlar üzrə istintaq-araşdırma təcrübəsi” mövzusunda distant təlim təşkil edilib.

Təlim çərçivəsində ilk öncə əhalinin sağlamlığının qorunmasının hüquqi əsasları, o cümlədən bu sahədə milli qanunvericilik, həkim səhvləri ilə bağlı cinayət qanunvericiliyi və bu sahədə məlumatların araşdırılması vəziyyəti, tibbi yardım sahəsində xarici ölkələrin




cinayət qanunvericiliyi (ABŞ, İngiltərə, Almaniya, Fransa, BƏƏ, Çin, Koreya, Yaponiya, Türkiyə, Rusiya, Belarus, Ukrayna, Qazaxıstan və digər) barədə geniş məlumat verilib.

Həmçinin, dinləyicilərə həkim səhvləri ilə bağlı hadisələr və bu sahədə mövcud risk göstəriciləri barədə məlumat verilərək, ölkəmizdə bu cür məlumatların araşdırılması vəziyyəti, həkim səhvləri ilə bağlı məlumatların araşdırılmasına, keçirilən ekspertizalara və əməllərin tövsifinə dair metodiki tövsiyələr verilib.

## Baş Prokurorluqda icbari tibbi sığortaya dair təlim keçirilib

Prokurorluq orqanları tərəfindən əhalinin sağlamlığının etibarlı şəkildə qorunması, bu sahədə insan və vətəndaşın hüquq və azadlıqlarının müdafiəsinin təmin olunması daim diqqətdə saxlanılmaqla zəruri tədbirlərin həyata keçirilməsi ilə yanaşı, prokurorluq əməkdaşlarının da bu sahədə biliklərinin artırılması istiqamətində mütəmadi işlər görülür.






Aprelin 9-da Baş Prokurorluqda İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Marketinq və ictimaiyyətlə əlaqələr Departamentinin rəhbəri Aynurə Əhmədova və həmin Departamentin əməkdaşı Fuad Bayramov tərəfindən prokurorluq əməkdaşlarına maarifləndirici təlim keçirilib.

Təlim zamanı qurumun nümayəndələri təqdimatla çıxış edərək icbari tibbi sığorta haqları, xidmətlər zərfi ilə təminata alınan tibbi xidmətlər, Agentliyin müqavilə bağladığı özəl tibb müəssisələri barədə, habelə dövlət və özəl tibb müəssisələrində icbari tibbi sığortadan istifadə qaydası, sağlam həyat tərzinin təbliği və s. mövzuda ətraflı məlumat veriblər.

Sonda təlimə cəlb olunan əməkdaşların verdiyi suallar ətrafında fikir mübadiləsi aparılıb.

# Baş Prokurorluq tərəfindən Sumqayıtda "Ekoloji təhlükəsizlik və yaşıl dünya" adlı işgüzar konfrans keçirilib







Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə əlaqədar həyata keçirilən silsilə tədbirlərin davamı olaraq, aprelin 16-da Sumqayıtda "Ekoloji təhlükəsizlik və yaşıl dünya" adlı işgüzar konfrans keçirilib.

Konfrans iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Sumqayıt şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib.

Daha sonra isə iştirakçılar "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində şəhərdə yerləşən Heydər Əliyev adına parkda ağaclar əkiblər.

Tədbir başlamazdan öncə Ulu Öndər Heydər Əliyev və vətənimizin azadlığı uğrunda canlarını qurban verən şəhidlərimizin əziz xatirəsi konfrans iştirakçıları tərəfindən bir dəqiqəlik sükutla yad olunub, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən Baş Prokurorluğun idarə rəisi Vüqar Əliyev müasir Azərbaycan dövlətinin memarı və qurucusu, dahi lider









Heydər Əliyevin rəhbərliyi ilə ölkə ərazisində ekoloji mühitin sağlamlaşdırılması, ətraf mühitin mühafizəsi, eləcə də paytaxtda və respublikamızın bütün bölgələrində yaşıllaşdırma işinə xüsusi önəm verildiyini qeyd edib.

Konfrans zamanı çıxış edən Sumqayıt şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfə verdiyini, aparılan kompleks tədbirlərin Sumqayıt şəhəri ərazisində də davam etdirildiyini qeyd edib.

Dahi lider Heydər Əliyevin ekoloji siyasəti barədə danışan Sumqayıt şəhər prokuroru Mürvət Həsənov uğurlu siyasətin bu gün də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən davam etdirildiyini bildirib.

Baş Prokurorluğun Mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov çıxış zamanı prokurorluq orqanları tərəfindən digər dövlət qurumları ilə birgə respublika ərazisində ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində kompleks işlərin həyata keçirildiyini vurğulayıb.

Konfransda, həmçinin, Ombudsman Aparatının sektor müdiri Müqalib Mahmudov, aqrar elmlər üzrə fəlsəfə doktoru Tünzalə Babayeva və digərləri aktual mövzular üzrə çıxış edib.







Daha sonra dövlət qurumları ilə qeyri-hökumət təşkilatları və media arasında “Yaşıl dünya naminə” səmərəli müzakirələr aparılıb, təkliflər ətrafında fikir mübadiləsi aparılıb.

# Sumqayıt şəhər prokurorluğunda “Açıq qapı günü” keçirilib








Azərbaycan Respublikasında 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi ilə əlaqədar həyata keçirilən silsilə tədbirlərin davamı, o cümlədən prokurorluq orqanlarının fəaliyyətinə olan ictimai maraq nəzərə alınaraq, aprelin 16-da Sumqayıt şəhər prokurorluğunda “Açıq qapı günü” keçirilib.

Tədbirdə media qurumları və qeyri-hökumət təşkilatlarının nümayəndələri, eləcə də dövlət qurumları



və hüquq-mühafizə orqanlarının əməkdaşları iştirak edib.

Tədbir zamanı açılış nitqi ilə çıxış edən Sumqayıt şəhər prokuroru Mürvət Həsənov qonaqları salamlayaraq, təşkil olunmuş tədbirin əhəmiyyətindən bəhs edib, eləcə də şəhər prokurorluğunun fəaliyyəti, cinayətkarlığa qarşı aparılan mübarizə tədbirləri, habelə insan hüquq və azadlıqlarının müdafiəsi naminə görülən işlər barədə danışıb.

Baş Prokurorluğun Mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov çıxış zamanı prokurorluq orqanlarının digər dövlət qurumları ilə birgə ekoloji problemlərin həlli, ətraf mühitin mühafizəsi və ekoloji tarazlığın bərpa edilməsi istiqamətində gördüyü kompleks işlər barədə məlumat verib.

İnzibati bina barədə məlumatlandırılan iştirakçılar binada əməkdaşlar üçün yaradılmış iş şəraiti ilə tanış olublar.

İştirakçıların sualları ətraflı cavablandırılmaqla onlara “Elektron prokurorluq” informasiya sistemi əyani olaraq nümayiş olunub.

Kriminalistik avtomobil və avadanlıqlarla tanış olan qonaqlara istintaq hərəkətlərinin keçirilməsi zamanı müasir texnikadan istifadənin əhəmiyyəti izah olunub.

Sonda xatirə fotoşəkli çəkilib.





# Baş Prokurorluğun Elm-Tədris Mərkəzi ilə Hesablama Palatasının Təlim Mərkəzi arasında əməkdaşlıq haqqında protokol imzalanıb

Cari il aprelin 2-də Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Azərbaycan Respublikası Hesablama Palatası arasında qarşılıqlı əməkdaşlıq barədə memorandum imzalanıb.

Həmin sənəd qurumlar arasında yeni əməkdaşlıq imkanlarını açmaqla yanaşı müxtəlif təlim proqramlarının həyata keçirilməsinə hədəflənib.

Memorandumda öz əksini tapan bu məsələlərin, eləcə də hər iki tərəfdaş qurum tərəfindən peşə hazırlığı sahəsində həyata keçiriləcək birgə layihələrin müzakirəsi məqsədilə Azərbaycan Respublikası Hesablama Palatasının Təlim Mərkəzinin rəhbəri Ramal Əzizovun rəhbərlik etdiyi nümayəndə heyəti aprelin 16-da Baş Prokurorluğun Elm-Tədris Mərkəzində olub.

Qonaqlar Baş Prokurorluğun inzibati binalar kompleksi, Vətən müharibəsinə həsr olunmuş tarixi-memorial qalereya, tədris auditoriyaları və kitabxana ilə tanış olub.

Daha sonra peşə hazırlığının təşkili sahəsində qarşılıqlı əməkdaşlıq istiqamətləri müzakirə edilib, bu sahədə səylərin birləşdirilməsi qərara alınıb.

Görüşün nəticələrinə uyğun olaraq, Baş Prokurorluğun Elm-Tədris Mərkəzi və Hesablama Palatasının Təlim Mərkəzi arasında əməkdaşlıq haqqında protokol imzalanıb.











# Baş Prokurorluq tərəfindən Astara rayonunda təmizlik aksiyası təşkil olunub





Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamı əsasında Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə əlaqədar keçirilən kompleks tədbirlərin davamı olaraq, aprelin 20-də Baş Prokurorluğun təşkilatçılığı ilə Astara rayonunda, Xəzər dənizinin sahilində təmizlik aksiyası keçirilib.

Keçirilən aksiyada Baş Prokurorluğun, eləcə də Astara, Lənkəran, Masallı, Lerik və Yardımlı rayon prokurorluqlarının əməkdaşları, rayon ictimaiyyəti, Astara Pedoqoji Kolleci və Astara rayon Gənclər idarəsinin könüllüləri də daxil olmaqla ümumilikdə, 100-dən çox şəxs iştirak edib.

"Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" şüarı altında təşkil edilən aksiyanın əsas məqsədi ətraf mühitin sağlamlaşdırılması, dəniz sahillərində təmizliyə riayət olunmasını təbliğ etmək, sahilyanı ərazilərin məişət tullantıları ilə zibillənməsinin qarşısını almaq və bütün gəncləri dənizətrafı mühitin mühafizəsi uğrunda mübarizəyə cəlb etməkdir.

Tədbir zamanı zəruri sanitar ləvazimatlarla təchiz olunmuş aksiya iştirakçıları tərəfindən 4 hektara yaxın sahil zolağı plastik və digər məişət tullantılarından təmizlənib, toplanmış tullantılar aidiyyəti üzrə təhvil verilib.



# Prokurorluq əməkdaşları Mir Cəlal Paşayevin İçərişəhərdə yaşadığı evi ziyarət edib







Aprelin 24-də prokurorluğun gənc əməkdaşları görkəmli yazıçı, pedaqoq, Əməkdar elm xadimi, professor Mir Cəlal Paşayevin anadan olmasının 116-cı ildönümü ilə əlaqədar yazıçının vaxtilə İçərişəhərdə yaşadığı – "Ədibin Evi" mədəniyyət ocağını ziyarət ediblər.

"Ədibin Evi" Ədəbiyyata Dəstək Fondunun icraçı direktoru Şəfəq Mehrəliyeva prokurorluq əməkdaşlarına XX əsr milli ədəbi-bədii fikir tarixinin görkəmli nümayəndəsi Mir Cəlal Paşayevin həyat və yaradıcılığı haqqında ətraflı məlumat verib. Bildirib ki, "Ədibin evi" yazıçının 1929-1941-ci illərdə İçərişəhərdə yaşadığı məkanda yaradılıb və 2017-ci ildən etibarən mədəniyyət ocağı kimi istifadəyə verilib.

Yazıçının "Bir gəncin manifesti", "Dirilən adam", "Füzuli sənətkarlığı" kimi əsərlərinin, həmçinin bir çox məşhur hekayələrinin bu evdə qələmə alındığı diqqətə çatdırılıb.

Ekskursiya çərçivəsində prokurorluq əməkdaşları Mir Cəlal Paşayevə aid şəxsi əşyalar və onun haqqında yazılmış kitablarla tanış olublar.







# Baş Prokurorluqda Milli Aviasiya Akademiyasının tələbələri ilə görüş keçirilib





Gənc hüquqşünasların prokurorluq orqanlarının fəaliyyətinə olan marağını nəzərə alaraq, aprelin 22-də Baş Prokurorluqda Milli Aviasiya Akademiyasının hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələri ilə görüş keçirilib.

Tədbirin əvvəlində Baş Prokurorluğun müxtəlif struktur qurumlarının təcrübəli əməkdaşları tərəfindən prokurorluq orqanlarının fəaliyyəti barədə tələbələrə ətraflı məlumatlar verilib. Tədbir çərçivəsində tələbələr prokurorluq əməkdaşlarının vəzifə funksiyaları, iş şəraiti, gündəlik fəaliyyətlərində tətbiq etdikləri müasir texnoloji və kriminastik vasitələrlə yaxından tanış olub.

Tələbələr Vətən Müharibəsi qalereyası, istintaq otaqları,







mühazirə, məşğələ zalları, kitabxanalar, kriminalistik avtomobil və avadanlıqlarla əyani şəkildə tanışlıq imkanı əldə edib.

Görüş çərçivəsində gənc hüquqşünaslarla fikir mübadiləsi aparılıb, prokurorluq orqanlarının fəaliyyəti ilə bağlı onları maraqlandıran suallar cavablandırılıb.

# Baş Prokurorluğun əməkdaşları tərəfindən "Narkomaniyaya qarşı mübarizə" mövzusunda seminar təşkil edilib

Gənclər arasında narkomaniyanın yayılmasına qarşı mübarizənin gücləndirilməsi məqsədi ilə 25 aprel 2024-cü il tarixində Baş Prokurorluğun əməkdaşları tərəfindən Milli Aviasiya Akademiyasında seminar təşkil edilib.





Tədbirdə Baş Prokurorluğun əməkdaşları, Milli Aviasiya Akademiyasının professor-müəllim heyəti və 300 nəfər tələbə iştirak edib.

Seminarda prokurorluq orqanlarının əməkdaşları tərəfindən narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı aparılan mübarizə tədbirləri, narkomaniyanın qarşısının alınmasında dövlət və hüquq-mühafizə orqanların vəzifələri, bu sahədə qəbul edilmiş qanunvericilik aktları barədə ətraflı məlumat verilib. Həmçinin, təbliğat və maarifləndirmə işinin genişləndirilməsi, narkomaniyanın törətdiyi fəsadlara qarşı mübarizənin gücləndirməsinin vacibliyi xüsusilə vurğulanıb.



Tədbirin sonunda gəncləri maraqlandıran suallar cavablandırılıb.



# Naxçıvanda “28 Aprel – Ümumdünya əməyin mühafizəsi günü” ilə əlaqədar tədbir keçirilib




Naxçıvanda 28 Aprel - Ümumdünya Əməyin Mühafizəsi Günü və Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr olunmuş “İqlim dəyişikliyi şəraitində təhlükəsiz və sağlam əməyin təmin edilməsi” mövzusunda konfrans keçirilib.



Aprelin 27-də keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, Naxçıvan Muxtar Respublikasının Baş naziri Ceyhun Cəlilov, millət vəkilləri, Azərbaycan Respublikası Baş Prokurorluğunun Cinayət təqibindən kənar icraatlar idarəsinin rəisi Elnur Musayev, həmin idarənin prokuroru Araz Tağıyev, Naxçıvan Muxtar Respublikasının prokuroru Sənan Paşayev, Türkiyənin Əmək və Sosial Müdafiə Nazirliyinin Əməyin Mühafizəsi və Təhlükəsizliyi Baş İdarəsinin rəisi M.Fatih Bilal Alodalı və digər rəsmilər iştirak ediblər.

Tədbir zamanı çıxış edən Elnur Musayev bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin prokurorluq orqanlarına verdiyi tövsiyələrə uyğun olaraq, prokurorluq orqanlarında aparılmış islahatlardan sonra yaradılmış Cinayət təqibindən kənar icraatlar idarəsi tərəfindən vətəndaşların sosial-iqtisadi hüquqlarının qorunması məqsədilə kompleks tədbirlər həyata keçirilir, qeyd olunan sahədə pozuntu hallarına yol vermiş onlarla hüquqi şəxslər barəsində inzibati xəta haqqında icraatlar başlanılaraq onların məsuliyyətə cəlb edilmələri təmin edilib.

Həmçinin, çıxış zamanı Elnur Musayev prokurorluq orqanların tərəfindən texniki təhlükəsizlik və əmək mühafizəsi qaydarının qorunması ilə bağlı davamlı olaraq profilaktik və preventiv tədbirlərin görüldüyünü iştirakçıların diqqətinə çatdırıb.

# Baş Prokurorluqda “Yaşıl Dünya naminə həmrəylik ili”nə həsr olunmuş tədbir keçirilib









Mayın 3-də Azərbaycan Respublikasının Baş Prokurorluğunun və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının birgə təşkilatçılığı ilə “Yaşıl dünya naminə həmrəylik ili”nə həsr olunmuş seminar keçirilib.

Giriş nitqi ilə çıxış edən Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini Elçin Məmmədov tədbirin əhəmiyyəti, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bu istiqamətdə görülmüş işlər və həyata keçirilən tədbirlər, habelə işğaldan azad edilmiş torpaqların “Yaşıl enerji” zonası elan edilməsi və COP-29 kimi mötəbər bir tədbirin ölkəmizdə keçirilməsinin önəmi barədə məlumat verib.

Daha sonra Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov “Prezident İlham Əliyevin innovativ dövlət idarəçilik texnologiyaları: COP29-a aparan yol” mövzusunda mühazirə ilə çıxış edib.

Seminar zamanı iştirakçılar tərəfindən mövzu ilə bağlı verilmiş suallar cavablandırılmaqla geniş fikir mübadiləsi aparılıb.









# Xətai rayon prokurorluğunda "Yaşıl dünya üçün hüquqi yeniliklər" adlı tədbir keçirilib



Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə əlaqədar həyata keçirilən silsilə tədbirlərin davamı olaraq, o cümlədən prokurorluq orqanlarının fəaliyyətinə olan ictimai maraq nəzərə alınaraq, mayın 3-də Xətai rayon prokurorluğunun inzibati binasında "Yaşıl dünya üçün hüquqi yeniliklər" adlı tədbir keçirilib.

Tədbirdə media qurumları və qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak edib.

Ətraf mühitin mühafizəsi, habelə prokurorluq orqanlarının fəaliyyəti ilə bağlı məlumatlılığın artırılması məqsədilə təşkil olunmuş tədbir zamanı açılış nitqi ilə çıxış edən Xətai rayon prokuroru Sərdar İmanov qonaqları salamlayaraq, rayon prokurorluğunun fəaliyyəti, cinayətkarlığa qarşı aparılan mübarizə tədbirləri, habelə insan hüquq və azadlıqlarının müdafiəsi naminə görülən işlər barədə danışıb.

Bakı şəhər prokurorunun köməkçisi Famil Axundov çıxışında prokurorluq orqanlarının digər dövlət qurumları ilə birgə ətraf mühitin mühafizəsi və ekoloji tarazlığın bərpa edilməsi istiqamətində gördüyü kompleks işlər barədə məlumat verib, yaşıl dünya naminə beynəlxalq əməkdaşlığın əhəmiyyətindən bəhs edib.









Baş Prokurorluğun Mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov çıxış zamanı yaşıl dünya üçün hüquqi tənzimləmələrdən bəhs edərək təbii resurslar və bioloji çeşidliliyin qorunması, tullantıların idarə olunması, enerji effektliliyi və alternativ enerji istehsalı, zərərli kimyəvi maddələrin idarə edilməsi kimi sahələrdə formalaşmış hüquqi strukturlar, normativ əsaslar və hüquqi məsuliyyət tədbirləri barədə məlumat verib.

Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsinin böyük prokuroru Şəbnəm Məmmədova çıxışı zamanı ekoloji təhlükəsizliyin təmin edilməsi istiqamətində görülən tədbirlər barədə məlumat verərək bəzi statistik göstəricilərə toxunub.

Həmçinin, tədbir zamanı rayon prokurorluğunun əməkdaşları tərəfindən fəaliyyət sahələri üzrə dinləyicilərə ətraflı məlumatlar verilib.

İnzibati bina barədə məlumatlandırılan iştirakçılar binada əməkdaşlar üçün yaradılmış iş şəraiti ilə tanış olub, onlara “Elektron prokurorluq” informasiya sistemi əyani olaraq nümayiş olunub.

Kriminalistik avtomobil və avadanlıqlarla tanış olan qonaqlara istintaq hərəkətlərinin keçirilməsi zamanı müasir texnikadan istifadənin əhəmiyyəti izah olunub.

Prokurorluq orqanlarında görülmüş işlərlə bağlı videoçarxı izlədikdən sonra iştirakçılarla fikir mübadiləsi aparılıb, prokurorluq orqanlarının fəaliyyəti ilə bağlı onları maraqlandıran suallar cavablandırılıb.

Sonda xatirə fotoşəkli çəkilib.









# Daxili İşlər Nazirliyinin Polis Akademiyasının nümayəndələri Baş Prokurorluğun inzibati binalar kompleksi ilə tanış olublar

Baş Prokurorluğun Elm-Tədris Mərkəzi ilə ölkəmizin elm, ali təhsil müəssisələri, habelə ixtisaslaşdırılmış xüsusi təyinatlı akademiyaları arasında əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi istiqamətində tədbirlər davam etdirilir.

Mayın 3-də Daxili İşlər Nazirliyinin Polis Akademiyasının Kriminalistika kafedrasının müəllimləri və Akademiyanın kursantları Baş Prokurorluğun inzibati binalar kompleksi ilə tanış olublar.









Tədbir çərçivəsində Akademiyanın müəllimləri və kursantları Baş Prokurorluğun inzibati binalar kompleksində yerləşən Vətən Müharibəsi qalereyası, istintaq otaqları, mühazirə, məşğələ zalları, kitabxanalar, kriminalistik avtomobil və avadanlıqlarla əyani şəkildə tanış oldular.

Tədbir zamanı kursantlarla fikir mübadiləsi aparılıb və prokurorluq orqanlarının fəaliyyəti ilə bağlı onları maraqlandıran suallar cavablandırılıb.

# Hüquq sahəsində elmi jurnalların elektron axtarış bazasının yaradılması müzakirə olunub









Mayın 3-də AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunda hüquq sahəsində nəşr olunan elmi jurnalların vahid elektron axtarış bazasının yaradılması, insan hüquq və azadlıqları sahəsində elmi-tədqiqat potensialının artırılması və hüquq nəşrlərinin bir bazada toplanılması məqsədilə dəyirmi masa təşkil edilib.

Tədbirdə İnstitutun İdarə Heyətinin sədri Məhəmməd Quluzadə hüquq jurnallarına dair aparılmış monitorinqin nəticələrini elan edib, tədbirdə iştirak edən 20-dən artıq hüquq jurnalının redaksiya heyətinin üzvləri, müxtəlif təhsil ocaqların hüquqşünas alimləri və aidiyyəti dövlət qurumlarının əməkdaşları sözügedən mövzu ətrafında fikir mübadiləsi aparıb.

Tədbir zamanı elektron axtarış bazasının yaradılması istiqamətində təkliflər dinlənilib, məqalələrin keyfiyyətinin artırılması üçün hüquqşünas müəlliflər üçün təlimlərin keçirilməsi qərara alınıb.

Dəyirmi masa çərçivəsində Baş Prokurorluğun “Azərbaycan Prokurorluğu” elmi-praktiki jurnalının redaksiya heyətinin məsul katibi Talıb Cəfərov tərəfindən təmsil etdiyi mətbu nəşr haqqında, eləcə də “Azərbaycan Prokuroru” elmi-praktiki jurnal, “İstintaq təcrübəsi” və “Dövlət ittihamının müdafiəsi təcrübəsi” adlı bülletenlər barədə tədbir iştirakçılarına ətraflı məlumat verilib.

## Prokurorluq əməkdaşları “Bakı Marafonu – 2024”də iştirak edib

Mayın 5-i prokurorluq əməkdaşları Heydər Əliyev Fondunun təşəbbüsü ilə keçirilən “Bakı Marafonu - 2024”də iştirak edib.

2016-cı ildən təşkil olunan və “Küləyə qalib gəl” şüarı altında keçirilən sayca 7-ci Bakı marafonu idmanın inkişafına dəstək göstərmək, sağlam həyat tərzini təbliğ etmək məqsədi daşıyır.




## Polis Akademiyasında prokurorluğun təcrübəli əməkdaşları ilə kursantlar arasında görüş keçirilib



Baş Prokurorluğun Elm-Tədris Mərkəzi ilə Daxili İşlər Nazirliyinin Polis Akademiyası arasında imzalanmış 14 iyul 2023-cü il tarixli memoranduma əsasən, hər iki qurum arasında əməkdaşlığa mühüm töhfə verən birgə tədbirlər həyata keçirilir.

Keçən müddət ərzində bir çox tədris, elmi-tədqiqat, əməkdaşlıq tədbirləri reallaşdırılmış, peşə hazırlığının təşkili sahəsində mühüm birgə nailiyyətlər əldə edilib.

Bu tədbirlərin davamı olaraq mayın 7-də Polis Akademiyasında Baş Prokurorluğun Dövlət təhlükəsizliyi, fövqəladə hallar və sərhəd xidməti orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəisi Mahir Abbasov və Sumqayıt şəhər prokuroru Mürvət Həsənovla Akademiyanın kursantları və əməkdaşları görüşüb.

Görüşdə prokurorluğun əməkdaşları istintaq təcrübəsi, cinayət, cinayət-prosessual hüquq, kriminalistika və kriminologiyadan irəli gələn bir çox aktual mövzular üzrə öz zəngin təcrübəsi ilə bölüşüb, maraq doğuran sualları ətraflı cavablanıb.

Gələcəkdə bu qəbildən olan tədbirlərin davam etdirilməsi qərara alınıb.





# Gənc prokurorluq əməkdaşları Heydər Əliyev Mərkəzini ziyarət edib













Ulu Öndər Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü, habelə Heydər Əliyev Fondunun yaranmasının 20 illiyi münasibətilə mayın 10-da gənc prokurorluq əməkdaşlarının Heydər Əliyev Mərkəzinə ziyarəti təşkil olunub.

Ziyarətdə əsas məqsəd Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyev irsinin gənc əməkdaşlar tərəfindən dərindən öyrənilməsi və mənimsənilməsi, habelə xalqımızın milli-mədəni və mənəvi dəyərlərinin qorunub saxlanılmasına, onların təbliğinə, gənclərlə iş birliyinə, təhsilin və səhiyyənin inkişafına böyük töhfələr verən Heydər Əliyev Fondunun genişmiqyaslı fəaliyyəti ilə tanışlıq olub.

Ekskursiyanın iştirakçılarına Ümummilli Liderin həyat yolu barədə maraqlı faktlar, foto və videomateriallar təqdim olunub, həmçinin, Azərbaycan mədəniyyətininin və tarixinin dünyada daha geniş tanıdılmasında əvəzsiz xidmətləri olan Heydər Əliyev Fondunun fəaliyyəti barədə məlumat verilib.

Ulu Öndərin dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq məfkurəsinin öyrənilməsi, həmçinin Azərbaycan tarixi və mədəniyyətinin, Azərbaycan dilinin və digər milli-mənəvi sərvətlərinin beynəlxalq aləmdə tanıdılmasına böyük imkanlar açan Heydər Əliyev Mərkəzindən ziyarətçilər zəngin təəssüratlarla ayrılıb.

Sonda xatirə fotoşəkli çəkilib.

# Gənc prokurorluq əməkdaşları üçün peşə vərdişlərinin formalaşması məqsədilə hazırlıq kursu təşkil edilib











Azərbaycan Respublikasının prokurorluq orqanlarına 2024-cü ildə müsabiqə yolu ilə ilk dəfə qulluğa qəbul olunmuş 51 işçi üçün 2024-cü ilin aprel ayının 16-dan may ayının 8-dək hazırlıq kursu təşkil edilib.

Hibrid formatda təşkil edilmiş kursa təlimçi qismində prokurorluq orqanlarının təcrübəli işçiləri ilə yanaşı, səhiyyə, ədliyyə orqanlarının, Vəkillər Kollegiyasının, Qeyri-Hökumət Təşkilatının, Bakı Dövlət Universitetinin peşəkar əməkdaşları cəlb olunub.

Tədris proqramında praktiki əhəmiyyət kəsb edən, öyrənilməsi dövlət proqramlarında nəzərdə tutulan, eləcə də praktiki fəaliyyətdə əhəmiyyətli, habelə mürəkkəb xarakter daşıyan mövzulara üstünlük verilib.

Müasir informasiya-kommunikasiya texnologiyalardan, eləcə də təhlil-tədqiqat materiallarından geniş istifadə etməklə tədris edilən kursun tədris proqramına ətraf mühitin mühafizəsinin hüquqi əsaslarına dair, o cümlədən "2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə əlaqədar qarşıda duran vəzifələr", "Ekoloji təhlükəsizliklə bağlı beynəlxalq konvensiyalar", "Ekoloji hüquqpozmalar: inzibati və cinayət məsuliyyəti" və sair mühazirələr daxil edilib.

Kurs dövründə dinləyicilər Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin fəaliyyəti ilə yaxından tanış olub, onlar üçün kriminalistika sahəsində müxtəlif formalı praktiki məşğələlər keçirilib.



Mədəni tədbirlər çərçivəsində gənc prokurorluq işçilərinin "Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksi"nə ekskursiyası təşkil edilib.

# Hakim vəzifəsinə təyin edilmiş prokurorluq işçiləri ilə Baş Prokurorluqda görüş keçirilib

Hakim vəzifəsinə qəbulla bağlı müsabiqədə uğur qazanaraq Azərbaycan Respublikası Prezidentinin 13 may 2024-cü il tarixli Sərəncamı ilə Bərdə Rayon Məhkəməsinin hakimi təyin olunan Fərman Abdullayev və Masallı Rayon Məhkəməsinin hakimi təyin edilmiş Coşqun Abdullayev Baş prokurorun birinci müavini Elçin Məmmədov tərəfindən qəbul edilib.



Tədbiri giriş sözü ilə açan Baş prokurorun birinci müavini hakim vəzifəsinə təyin edilmiş Fərman Abdullayev ilə Coşqun Abdullayevə gələcək fəaliyyətlərində uğurlar arzulayaraq müasir Azərbaycan dövlətinin memarı, Ümummilli Lider Heydər Əliyevin milli dövlətçilik siyasətinin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə zamanın ruhuna uyğun həyata keçirilən ardıcıl və sistemli məhkəmə-hüquq islahatları nəticəsində ölkəmizdə ədalət mühakiməsinin səmərəliliyinin artırılması sahəsində işin müasir çağırışlara uyğunlaşdırıldığını, həmçinin, yeni reallıqlara uyğun olaraq Azərbaycan gəncliyinin hərtərəfli inkişafı istiqamətində mühüm addımlar atılmaqla gənclərin bütün sferalarda fəal iştirakına geniş imkanlar yaradıldığını, onlara hərtərəfli diqqət və qayğı göstərildiyini, dövlət idarəetməsində yaxından iştirakının təmin edildiyini və bu istiqamətdə görülən tədbirlərin bu gün də uğurla davam etdirildiyini diqqətə çatdırıb.





Qəbul zamanı Fərman Abdullayev və Coşqun Abdullayevə Baş prokuror Kamran Əliyev tərəfindən qüsursuz fəaliyyətlərinə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizə, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində əldə etdikləri nailiyyətlərə görə təltif olunduqları Azərbaycan Respublikası Prokurorluğunun Fəxri fərmanları təqdim edilib.

# Baş Prokurorluğun Elm-Tədris Mərkəzində Hesablama Palatasının işçiləri üçün təlim təşkil edilib



Baş Prokurorluğun Elm-Tədris Mərkəzi və Hesablama Palatasının Təlim Mərkəzi arasında imzalanmış əməkdaşlıq haqqında protokola əsasən həyata keçirilən birgə tədris tədbirləri nəticəsində mayın 15-də Palatanın işçiləri üçün "Korrupsiya və iqtisadi fəaliyyət sahəsində olan cinayətlərin araşdırma metodikası" mövzusunda təlim təşkil edilib.

Tədris tədbirinə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin təcrübəli işçiləri təlimçi qismində cəlb edilib.








Mühazirə, təqdimat, təcrübə mübadiləsi və sair formada həyata keçirilmiş təlim çərçivəsində korrupsiya və iqtisadi fəaliyyət sahəsində olan cinayətlər, qeyd edilən cinayətlərin araşdırma metodikası, dövlət satınalmaları sahəsində korrupsiya riskləri, bu sahədə yeni normativ tənzimləmə və beynəlxalq standartlar, audit fəaliyyətində subyektiv faktorların və kənar təsirlərin neytrallaşdırılması, maraqlar toqquşması riskləri və onların qarşısının alınması üzrə tədbirlər, habelə digər aktual mövzular tədris edilib, dinləyiciləri maraqlandırılan suallar ətrafında müzakirələr aparılıb.

## Baş Prokurorluğun əməkdaşı elmi-praktiki konfransda iştirak edib



Mayın 24-də Daxili İşlər Nazirliyinin təşəbbüsü ilə "Yetkinlik yaşına çatmayanlar tərəfindən və onlara qarşı törədilmiş hüquq pozuntularının qarşısının alınması: imkanlar və perspektivlər" mövzusunda elmi-praktiki konfrans keçirilib.

Müxtəlif dövlət qurumlarının nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə Azərbaycan Respublikasının Baş Prokurorluğunu Cinayət təqibindən kənar icraatlar idarəsinin prokuroru Elşad Ağayev təmsil edib.

Baş Prokurorluğun nümayəndəsi valideynlik hüququnun məhdudlaşdırılması ilə əlaqədar 2020-ci ildən hazırki vaxta qədər prokurorluq orqanları tərəfindən mülki iddiaların verilməsi və həmin iddiaların məhkəmələrdə müdafiə edilməsi, Azərbaycan Respublikası Prezidentinin 29.03.2024-cü il tarixdə imzaladığı Qanunla Ailə, Mülki Prosessual Məcəllələri və Məişət zorakılığının qarşısının alınması haqqında qanunlara dəyişiklik edilməsi, prokurorluğun valideynlik hüququnun məhdudlaşdırılması və valideynlik hüququndan məhrum etmə ilə əlaqədar məhkəmələrə iddia ilə müraciət edən qurumların siyahısına daxil edilməsi, həmçinin yetkinlik yaşına çatmayan şəxslər tərəfindən və onlara qarşı törədilən cinayət əməlləri ilə əlaqədar aparılan araşdırmaların nəzarətdə saxlanmasının əhəmiyyəti barədə çıxış edib.

Sonda konfrans iştirakçıları mövzu ilə bağlı müzakirələr aparıb.

## Baş Prokurorluq tərəfindən növbəti təmizlik aksiyası Xaçmaz rayonunda təşkil olunub





Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı əsasında 2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə əlaqədar keçirilən kompleks tədbirlərin davamı olaraq, mayın 25-də Baş Prokurorluğun təşkilatçılığı ilə Xaçmaz rayonunda, Xəzər dənizinin sahilində təmizlik aksiyası keçirilib.

Aksiyada Baş Prokurorluğun, eləcə də Xaçmaz, Quba, Qusar, Şabran və Siyəzən rayon prokurorluqlarının əməkdaşları, Xaçmaz Rayon İcra Hakimiyyətinin məsul şəxsləri, rayon ictimaiyyəti və könüllü gənclər daxil olmaqla ümumilikdə 100-dən çox şəxs iştirak edib.

"Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" şüarı altında keçirilən aksiyanın əsas məqsədi ətraf mühitin sağlamlaşdırılması, dəniz sahillərində təmizliyə riayət olunmasını təbliğ etmək, sahilyanı ərazilərin məişət tullantıları ilə zibillənməsinin qarşısını almaq







və bütün gəncləri dənizətrafı mühitin mühafizəsi uğrunda mübarizəyə cəlb etməkdir.

Tədbir zamanı zəruri sanitar ləvazimatlarla təchiz olunmuş aksiya iştirakçıları tərəfindən 2 kilometr sahil boyu ərazi plastik və digər məişət tullantılarından təmizlənib, toplanmış tullantılar aidiyyəti üzrə təhvil verilib.

## Gəncə şəhər prokurorluğunda "Açıq qapı günü" təşkil edilib





Prokurorluq orqanlarının fəaliyyətinə olan ictimai maraq nəzərə alınaraq, mayın 30-da Gəncə şəhər prokurorluğunun inzibati binasında "Açıq qapı günü" keçirilib.

Tədbirdə media və qeyri-hökumət təşkilatlarının nümayəndələri, habelə gənclər iştirak edib.

Tədbirdə məqsəd prokurorluq əməkdaşları üçün yaradılmış iş şəraiti, istifadədə olan kriminalistik texnika, habelə prokurorluğun tarixi keçmişi ilə ictimaiyyəti tanış etmək olub.

Qonaqlara prokurorluq orqanlarında aşkarlıq və şəffaflığın, vətəndaş məmnunluğunun təmin olunması, habelə ictimaiyyətlə əlaqələrin möhkəmləndirilməsi istiqamətində həyata keçirilən ardıcıl tədbirlər barədə danışılıb, habelə Azərbaycan Respublikasının Prokurorluğunda müvafiq olaraq həyata keçirilmiş hüquqi-institusional islahatlarla bağlı iştirakçılara məlumat verilib.

Tədbir zamanı açılış nitqi ilə çıxış edən Gəncə şəhər prokuroru Azad Qarayev qonaqları salamlayaraq, şəhər prokurorluğunun fəaliyyəti, cinayətkarlığa qarşı aparılan mübarizə tədbirləri, habelə insan hüquq və azadlıqlarının müdafiəsi naminə görülən işlər barədə danışıb.

Baş Prokurorluğun Mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov prokurorluq orqanlarının ictimaiyyətlə əlaqələr sahəsi üzrə fəaliyyətinə toxunub, regional media və qeyri-hökumət təşkilatlarının nümayəndələri ilə səmərəli əməkdaşlığın əhəmiyyətindən bəhs edib.



Tədbir zamanı şəhər prokurorluğunun bir neçə struktur qurumunun təcrübəli əməkdaşları tərəfindən müvafiq qurumun fəaliyyəti barədə dinləyicilərə ətraflı danışılıb.

İnzibati bina barədə məlumatlandırılan iştirakçılar binada əməkdaşlar üçün yaradılmış iş şəraiti ilə tanış olub, onlara “Elektron prokurorluq” informasiya sistemi əyani olaraq nümayiş olunub.

Kriminalistik avtomobil və avadanlıqlarla tanış olan qonaqlara is-





tintaq hərəkətlərinin keçirilməsi zamanı müasir texnikadan istifadənin əhəmiyyəti izah olunub, iştirakçılarla fikir mübadiləsi aparılıb, prokurorluq orqanlarının fəaliyyəti ilə bağlı onları maraqlandıran suallar cavablandırılıb.

Sonda xatirə fotoşəkli çəkilib.







# Baş prokurorun müavini, eləcə də 15 rayon (şəhər) prokuroru Gəncədə ağacəkmə kampaniyasında iştirak edib





Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə əlaqədar həyata keçirilən silsilə tədbirlərin davamı olaraq, mayın 30-da Gəncədə işgüzar konfrans keçirilib.

Konfrans iştirakçıları əvvəlcə ümummilli Lider Heydər Əliyevin Gəncə şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib.

Daha sonra isə iştirakçılar "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində şəhərdə yerləşən Heydər Əliyev adına parkda ağaclar əkib.

Konfransda Baş prokurorun müavini Heydər Məmmədov, 15 ətraf regionun prokuroru, hüquq-mühafizə orqanlarının əməkdaşları, media və qeyri-hökumət nümayəndələri iştirak edib.













# Baş Prokurorluq tərəfindən Gəncədə «Ekoloji hüquqpozmalar: maariflənmə və qanunvericiliklə nizamlanma» adlı işgüzar konfrans keçirilib








Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə əlaqədar həyata keçirilən silsilə tədbirlərin davamı olaraq, mayın 30-da Gəncədə «Ekoloji hüquqpozmalar: maariflənmə və qanunvericiliklə nizamlanma» adlı işgüzar konfrans keçirilib.

Konfrans iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Gəncə şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib.

Daha sonra isə iştirakçılar "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində şəhərdə yerləşən Heydər Əliyev adına parkda ağaclar əkib.

Tədbir başlamazdan öncə Ulu Öndər Heydər Əliyev və vətənimizin azadlığı uğrunda canlarını qurban verən şəhidlərimizin əziz xatirəsi konfrans iştirakçıları tərəfindən bir dəqiqəlik sükutla yad olunub, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən Baş Prokurorun müavini Heydər Məmmədov müasir Azərbaycan dövlətinin memarı və qurucusu, dahi lider Heydər Əliyevin rəhbərliyi ilə ölkə ərazisində ekoloji mühitin sağlamlaşdırılması, ətraf mühitin mühafizəsi, eləcə də paytaxtda və respublikamızın bütün bölgələrində yaşıllaşdırma işinə xüsusi önəm verildiyini qeyd edib.

Heydər Məmmədov çıxış zamanı prokurorluq orqanları tərəfindən digər dövlət qurumları ilə birgə respublika ərazisində ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində kompleks işlərin həyata keçirildiyini vurğulayıb.









Konfrans zamanı çıxış edən Gəncə şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfə verdiyini, aparılan kompleks tədbirlərin Gəncə şəhəri ərazisində də davam etdirildiyini qeyd edib.

Konfransda aktual mövzular üzrə çıxışlar edildikdən sonra dövlət qurumları ilə qeyri-hökumət təşkilatları və media arasında "Yaşıl dünya naminə" səmərəli müzakirələr aparılıb, təkliflər ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycan Televiziyası tərəfindən ərsəyə gətirilmiş "Azərbaycanın ekoloji siyasəti" adlı sənədli film izlənilib.

Sonda xatirə fotoşəkli çəkilib.



# *Baş prokurorun müavini:* Ətraf mühitin mühafizəsi üzrə dövlət fonduna 2 milyon yarım manatdan çox məbləğdə pul ödənilib




Bu sözləri Baş prokurorun müavini Heydər Məmmədov mayın 30-da Gəncədə keçirilən «Ekoloji hüquqpozmalar: maarifləmə və qanunvericiliklə nizamlanma» adlı işgüzar konfransda deyib.

Konfransda çıxış edən Baş prokurorun müavini Heydər Məmmədov bildirib ki, təmiz və sağlam ətraf mühitin təmin edilməsi yolunda dövlət qurumlarının, hüquq-mühafizə orqanları və məhkəmələrin koordinasiyalı fəaliyyəti, effektiv ekoloji qanunlar və yaşıl dünya üçün hüquqi yeniliklərin mühüm əhəmiyyəti var.

Bu sahədə prokurorluq orqanları tərəfindən kompleks tədbirlər davam etdirilərək, Ekologiya Nazirliyi və digər dövlət qurumları ilə birgə ekoloji problemlərin həlli, ətraf mühitin mühafizəsi və ekoloji tarazlığın bərpa edilməsi istiqamətində işlər görülməkdədir.

"Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsi tərəfindən ötən ildə ekoloji hüquqpozmalar üzrə 133 cinayət işi başlanaraq istintaqının aparılması üçün aidiyyəti üzrə göndərilib, 36 inzibati xəta haqqında iş üzrə icraat başlanıb, qanun pozuntularının, onları doğuran səbəb və şəraitin aradan qaldırılmasına dair müvafiq təşkilatlara 33 halda təqdimatlar verilib.






Bundan başqa, 2023-cü ildə ətraf mühitin mühafizəsi üzrə dövlət fonduna 2 milyon 655 min manat məbləğində pulun ödənilməsi təmin edilib" – deyə Baş prokurorun müavini əlavə edib.

# Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına qarşı mübarizə ilə bağlı növbəti təlim keçirilib






29–31 may tarixlərində Baş Prokurorluğun Elm-Tədris Mərkəzində "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması əməli üzrə istintaqın xüsusiyyətləri" mövzusunda təlim keçirilib.

Təlimdə dinləyici kimi hakimlər, prokurorluq əməkdaşları və vergi xidmətinin müstəntiqləri iştirak edib.

Təlimçi qismində prokurorluq işçiləri ilə yanaşı, Maliyyə Monitorinqi və Dövlət Vergi xidmətlərinin əməkdaşlarının cəlb edildiyi təlim çərçivəsində əmlakın leqallaşdırılması ilə bağlı cinayətlərin istintaqı sahəsində metodiki tövsiyələr verilib.

Həmçinin, cari ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə əlaqədar ətraf mühitin mühafizəsinin hüquqi əsaslarını ehtiva edən mühazirə dinlənilib.

Təlim zamanı Cinayət Məcəlləsinin 193-1-ci maddəsi ilə nəzərdə tutulmuş əməlin tərkib elementləri, tövsifi aspektləri və istintaq xüsusiyyətləri, müvafiq sahədə ölkəmizdə həyata keçirilmiş dövlət proqramları, onların müsbət nəticələri, ölkə hüdudundan kənara çıxarılmış aktivlərin bərpasında beynəlxalq əməkdaşlıq, həmin çərçivədə maliyyə istintaqının aparılması və sair mövzular üzrə tədris keçirilib.

Tədbirin sonunda iştirakçıları maraqlandıran suallar ətrafında müzakirələr aparılıb.




# Baş Prokurorluq tərəfindən Naxçıvan və Qazaxda növbəti təmizlik aksiyaları keçirilib















Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı əsasında 2024-cü ilin ölkəmizdə “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi ilə əlaqədar keçirilən kompleks tədbirlərin davamı olaraq, iyunun 8-də Baş Prokurorluğun təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunda yerləşən Batabat gölü ətrafında və Qazax rayonu ərazisində yerləşən Ağstafaçay su anbarı ərazisində təmizlik aksiyası keçirilib.

Aksiyalarda ümumilikdə 70-dən çox şəxs iştirak edib.

“Təmiz ətraf mühit və yaşıl artım ölkəsi” şüarı altında keçirilən aksiyanın əsas məqsədi ətraf mühitin sağlamlaşdırılması, təmizliyə riayət olunmasını təbliğ etmək, məişət tullantıları ilə zibillənmənin qarşısını almaq və bütün gəncləri dənizətrafı mühitin mühafizəsi uğrunda mübarizəyə cəlb etməkdir.

Tədbir zamanı zəruri sanitar ləvazimatlarla təchiz olunmuş aksiya iştirakçıları tərəfindən ərazi plastik və digər məişət tullantılarından təmizlənib, toplanmış tullantılar aidiyyəti üzrə təhvil verilib.

# Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində "Gələcəyin hüquqşünasları ilə görüş" adlı tədbir keçirilib

Gənc hüquqşünasların, tələbələrin prokurorluq orqanlarının fəaliyyətinə olan marağını nəzərə alaraq cari ilin aprelin 25-də Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Bakı Dövlət Universitetinin hüquq fakültəsinin tələbələri üçün "Gələcəyin hüquqşünasları ilə görüş" adlı tədbir təşkil edilib.

Görüş zamanı Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin təcrübəli əməkdaşları tərəfindən Baş İdarənin tarixi, strukturu və funksiyaları ilə bağlı ətraflı məlumat verilib.

Daha sonra tələbələr Baş İdarənin inzibati binası ilə tanış olub, eləcə də onlara kitabxana, "161-Qaynar xətt Əlaqə Mərkəzi", "Giriş-çıxış və qeydiyyat" İdarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemindən (İAMAS) istifadə, vətəndaşların qəbulu və kriminalistika avtomaşınından istifadə ilə bağlı əyani şəkildə məlumat verilib.













# Respublikanın Hərbi Prokurorluğunda qəsdən adam öldürmə və digər ağır cinayətlərin istintaqına həsr edilmiş geniş kollegiya iclası keçirilib






26 aprel 2024-cü il tarixdə Respublikanın Hərbi Prokurorluğunda Müdafiə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının, eləcə də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəhbər vəzifəli şəxslərinin iştirakı ilə 2023-cü ildə hərbi prokurorluq orqanlarında qeydə alınmış qəsdən adam öldürmə, qəsdən adam öldürməyə cəhd və özünü öldürmə həddinə çatdırma cinayətləri üzrə ibtidai araşdırmaya prosessual rəhbərliyin vəziyyətinin, cinayət hadisələrinin baş verməsinin səbəb və şəraitinin, həmin cinayətlər üzrə istintaq təcrübəsi və məhkəmə nəticələrinin ümumiləşdirilməsinin müzakirəsinə həsr olunmuş geniş kollegiya iclası keçirilib.

Əvvəlcə kollegiya iştirakçıları Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz və unudulmaz xatirələrini bir dəqiqəlik sükutla anıblar, qazilərə şəfa diləyiblər.

Kollegiya iclasında çıxış edən Baş prokurorun müavini – Respublikanın Hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev bildirib ki, Azərbaycan Xalqının Ümummilli Lideri Heydər Əliyevin mükəmməl siyasətini dövrün tələblərinə uyğun reallaşdıran Prezident İlham Əliyevin hərtərəfli bilik və bacarığı, qətiyyəti, yorulmaz fəaliyyəti ilə xalqın müdrikliyinin və əzmkarlığının vəhdəti sayəsində dövlətimizin daha da qüdrətlənməsi və əhalinin rifahının bütün istiqamətlər üzrə yaxşılaşdırılması prosesinin davamlılığı uğurla təmin olunur. O, həmçinin vurğulayıb ki, Prezidentin ölkəyə rəhbərlik etdiyi 20 ildə əldə edilən misli görünməmiş uğurlarda Birinci vitse-prezident Mehriban xanım Əliyevanın zəngin fəaliyyəti də mühüm əhəmiyyət kəsb etməkdədir.

Bundan sonra, məruzəçilər kollegiya iclasının həsr olunduğu məsələlər barədə çıxış edərək, bununla bağlı hesabat dövründə görülmüş işlərdən danışıblar. Həmin cinayətlərin qarşısının alınması ilə əlaqədar hərbi prokurorluq orqanlarının və aidiyyəti qurumların qarşısında duran vəzifələrin yerinə yetirilməsi üçün görülməli olan tədbirlər barədə məlumat veriblər. Məruzələr ətrafında geniş fikir mübadiləsi aparılıb.

Ədliyyə general-leytenantı Xanlar Vəliyev deyib ki, Prezident İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində Silahlı Qüvvələrimizin maddi-texniki bazası

əhəmiyyətli dərəcədə möhkəmləndirilib, şəxsi heyəti peşəkar hərbi qulluqçularla komplektləşdirilib, hərbçilərin nəzəri bilik və peşə, həmçinin mənəvi-psixoloji hazırlıq səviyyəsi artırılıb, qeyd olunanlar nizam-intizamın və qanunçuluğun daha da möhkəmlənməsini şərtləndirib.

Sonra Hərbi prokuror Xanlar Vəliyev kollegiya iclasının həsr olunduğu cinayətlərin istintaq və məhkəmə təcrübəsinin ildə iki dəfə ümumiləşdirilərək Respublika Hərbi Prokurorluğunun kollegiyalarında Müdafiə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının, eləcə də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəhbər vəzifəli şəxslərinin iştirakı ilə müzakirə edilməklə, kollegiyaların qərarlarına əsasən, həmin cinayətləri doğurmuş səbəb və şəraitin aradan qaldırılması üçün zəruri qabaqlayıcı tədbirlərin görülməsinə dair aidiyyəti qurumların rəhbərlərinə məlumat məktubları, komandanlıqlara təqdimatlar, ərazi hərbi prokurorlarına icmal məktublar göndərilməsinin, həmçinin hər ilin əvvəlində tərtib edilmiş birgə tədbirlər planlarına əsasən nizam-intizamın, qanunçuluğun möhkəmləndirilməsi və cinayətkarlığa qarşı mübarizədə birlikdə görülən digər işlərin cinayətlərin qarşısının alınmasındakı xüsusi rolunu qeyd edib. O, qarşılıqlı səmərəli fəaliyyətə görə adları çəkilən qurumların rəhbərlərinə təşəkkürünü bildirib.

Ədliyyə general-leytenantı Xanlar Vəliyev xüsusi vurğulayıb ki, bütün bunların nəticəsində 2023-cü ilin birinci rübü ilə müqayisədə 2024-cü ilin eyni dövründə qeydə alınmış qəsdən adam öldürmə cinayətləri 50 faiz, özünü öldürmə hadisələri 40 faiz azalıb, qəsdən adam öldürməyə cəhd cinayətləri isə ümumiyyətlə qeydə alınmayıb.

Kollegiya iclasına yekun vuran Hərbi prokuror Xanlar Vəliyev diqqətə çatdırıb ki, cinayət hadisələrinin, o cümlədən bu qəbildən olan cinayətlərin qarşısının alınması istiqamətində Hərbi Prokurorluğun aidiyyəti qurumlarla birgə fəaliyyəti bundan sonra da uğurla davam etdiriləcək.









# Hərbi Prokurorluq və Dövlət Sərhəd Xidməti tərəfindən Qubadlıda birgə tədbir keçirilib





Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Azərbaycan Prezidentinin 2023-cü il 25 dekabr tarixli Sərəncamının icrası ilə əlaqədar 19.04.2024-cü ildə Qubadlı rayonunda Hərbi Prokurorluğun rəhbər vəzifəli şəxsləri və Dövlət Sərhəd Xidmətinin yüksək rütbəli hərbi qulluqçuları birgə tədbir keçirib.

Mərasimdə general-mayor Azad Abdullayev, Hərbi Prokurorluğun Kadrlar şöbəsinin rəisi Elmir Süleymanlı, Hərbi prokurorun böyük köməkçisi Firad Əliyev, Qubadlı rayon prokuroru Emil Kərimov, Qubadlı hərbi prokuroru Elşən Mürsəlov və digər şəxslər çıxış ediblər. Onlar çıxışlarında müstəqillik yolumuzu və firavan istiqbalımızı nurlandıran nəhəng tarixi şəxsiyyət Ulu Öndər Heydər Əliyevin Azərbaycanın parlaq gələcəyinə hesablanmış mükəmməl siyasətini yeni müstəvidə dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 il müddət ərzində ölkəmizdə görülmüş misilsiz işlərdən, həyata keçirilmiş hərtərəfli köklü islahatlardan, bütün sahələrdə qazanılmış müstəsna uğurlardan, o cümlədən ətraf mühitin daha da sağlamlaşdırılmasından və etibarlı qorunmasından, bu uğurların əldə olunmasında Birinci vitse-prezident Mehriban xanım Əliyevanın dəstəyindən və xalqın müdrikliyindən danışıblar.

Tədbirdə həmçinin hərbi prokurorluğun Dövlət Sərhəd Xidməti ilə səmərəli qarşılıqlı işgüzar münasibətləri vurğulanıb.

Bundan sonra, ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin tələblərindən, hüquq və vəzifələrdən, həmçinin, ekoloji qanun pozuntularından, o cümlədən ekoloji cinayətlərdən və məsuliyyətdən danışılıb.

Daha sonra hərbi qulluqçular qarşısında hüquqi maarifləndirici məzmunlu çıxışlar olunub, onları maraqlandıran suallar cavablandırılıb, eləcə də hərbçilərin qayğı və problemləri ilə maraqlanılıb. Sonda isə ağaclar əkilib.





# Respublika Hərbi Prokurorluğunda Ümummilli Liderin anadan olmasının 101-ci ildönümü münasibətilə tədbir keçirilib



2024-cü ilin may ayının 7-də Respublika Hərbi Prokurorluğunda müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü münasibətilə tədbir keçirilib.

Əvvəlcə Hərbi Prokurorluğun inzibati binasındakı "Heydər Əliyev guşəsi"ndə Ulu Öndərin büstü önünə gül dəstələri düzülərək, dahi şəxsiyyətin parlaq xatirəsinə dərin ehtiram ifadə olunub. Mərasim iştirakçıları həmçinin dünya şöhrətli siyasətçinin və şəhidlərimizin əziz və unudulmaz xatirəsini bir dəqiqəlik sükutla yad edib, qazilərə şəfa diləyiblər.



Tədbirdə Baş prokurorun müavini – Respublikanın Hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev çıxış edərək qəlbi daim Vətən eşqi ilə döyünən, bütün varlığı ilə xalqına bağlı olan, istiqlal yolumuzu və istiqbalımızı nurlandıran, millətini zamanın sərt sınaqlarından yüksək məharətlə çıxararaq, hər bir çətin



vəziyyətdən ən düzgün çıxış yolu tapan Ulu Öndər Heydər Əliyevin Azərbaycan tarixindəki və beynəlxalq arenadakı rolundan, o cümlədən demokratik, hüquqi dövlət quruculuğunda, ölkəmizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində misilsiz xidmətlərindən və dünya siyasətinə verdiyi töhfələrdən danışıb.

Fenomenal şəxsiyyət Heydər Əliyevin mənalı həyatından və çoxşaxəli fəaliyyətindən geniş bəhs etməklə çıxışını davam etdirən Hərbi prokuror bildirib ki, şərəfli ömür yolunu ölkəmizin tərəqqisinə və millətimizin parlaq gələcəyinə həsr edən Ümummilli Lider dövlətçiliyin ideoloji-siyasi əsaslarını yaratmaqla, xalqı əsl müstəqilliyə qovuşduraraq hafizələrdə əbədiyaşarlıq qazanıb.

Xanlar Vəliyev Ulu Öndər Heydər Əliyevin ən böyük xidmətinin Azərbaycanın taleyində müstəsna rolu olan, Vətəninin və xalqının maraqlarını hər şeydən uca tutan Prezident İlham Əliyev kimi bütün ali bəşəri keyfiyyətlərə malik böyük şəxsiyyət və müdrik rəhbər hazırlaması olduğunu xüsusi vurğulayıb. Ümummilli Liderin millətimizin və dövlətimizin parlaq gələcəyinə hesablanmış mükəmməl siyasətini yeni müstəvidə dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 il ərzində görülmüş nəhəng işlərdən, düşmən tapdağında olan dədə-baba torpaqlarımızın hərbi və siyasi-diplomatik yolla işğaldan azad edilməsindən, Vətən müharibəsində Ali Baş Komandanın rəhbərliyi ilə hərbçilərimizin şanlı tarix yazmasından, lokal xarakterli antiterror tədbirlərindən, eləcə də ölkəmizdə həyata keçirilmiş hərtərəfli köklü islahatlardan, bütün sahələrdə əldə olunmuş misli görünməmiş uğurlardan, iqtisadiyyatımızın güclənməsindən bəhs edən Hərbi prokuror bütün bunların Prezidentin iti zəkası, yüksək erudisiyası, mükəmməl rəhbərliyi, qətiyyəti, yorulmaz fəaliyyəti, xalqın müdrikliyi və əzmkarlığı sayəsində, eləcə də hakimiyyətlə xalq arasında olan sıx bağlılığın nəticəsində mümkün olduğunu vurğulayıb.











Tədbirdə Milli Məclisin deputatları Sabir Rüstəmxanlı, Nizami Cəfərov, Cavid Osmanov, Kamilə Əliyeva, Fatma Yıldırım və digərləri çıxış edərək dünyaşöhrətli siyasətçinin tarixdəki rolu, eləcə də Vətəni və xalqı qarşısındakı misilsiz xidmətləri barədə danışıblar.

Sonda Hərbi prokuror Xanlar Vəliyev qeyd edib ki, dəyərli və mənalı ömrünü Vətəninə həsr edərək, milləti qarşısında müstəsna xidmətlər göstərməklə xalqımızın Ümummilli Lideri adını qazanmış dünya siyasətinin parlaq siması Ulu Öndər Heydər Əliyev tarixdə və hafizələrdə əbədi olaraq qalacaq, nəhəng tarixi şəxsiyyətin əziz və unudulmaz xatirəsi hər zaman böyük ehtiramla yad ediləcək.

Tədbir Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən filmin nümayişi ilə başa çatıb.

# Ağcabədi rayonunda Hərbi Prokurorluq və Müdafiə Nazirliyi birgə tədbir keçirib



Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü və Azərbaycanda 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Azərbaycan Prezidentinin 2023-cü il 25 dekabr tarixli Sərəncamının icrası ilə əlaqədar 10.05.2024-cü ildə Ağcabədi rayonunda Hərbi Prokurorluğun rəhbər vəzifəli şəxsləri və Müdafiə Nazirliyinin yüksək rütbəli hərbi qulluqçuları birgə tədbir keçirib.

Hərbi prokurorun böyük köməkçisi Firad Əliyev Baş prokuror Kamran Əliyevin və Hərbi prokuror Xanlar Vəliyevin salamlarını şəxsi heyətə çatdırıb. Ardınca Firad Əliyev, Ağdam hərbi prokuroru Elnur Kərimov, polkovnik Gülməmməd Rzayev, polkovnik-leytenant Mehman Ədilov, hüquq müdafiəçisi Ceyhun İbrahimov və digər şəxslər çıxış ediblər. Onlar çıxışlarında müstəqillik yolumuzu və firavan istiqbalımızı nurlandıran dünya şöhrətli nəhəng tarixi şəxsiyyət Ulu Öndər Heydər Əliyevin həyat və yaradıcılığından, xalqımız və dövlətimiz qarşısındakı müstəsna xidmətlərindən, vətənpərvər dahinin











Azərbaycanın parlaq gələcəyinə hesablanan mükəmməl siyasəti yeni müstəvidə dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 il müddət ərzində ölkəmizdə görülən misilsiz işlərdən, həyata keçirilən hərtərəfli köklü islahatlardan, bütün sahələrdə qazanılan uğurlardan, o cümlədən qüdrətli Silahlı Qüvvələrimizin formalaşdırılmasından, eləcə də ətraf mühitin daha da sağlamlaşdırılmasından və etibarlı qorunmasından, bu uğurların qazanılmasında Birinci vitse-prezident Mehriban Əliyevanın dəstəyindən və xalqın müdrikliyindən danışıblar.

Tədbirdə, həmçinin hərbi prokurorluğun Müdafiə Nazirliyi ilə səmərəli qarşılıqlı işgüzar münasibətlərindən bəhs edilib.

Bundan sonra, ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin tələblərindən, hüquq və vəzifələrdən, həmçinin, ekoloji qanun pozuntularından, o cümlədən ekoloji cinayətlərdən və məsuliyyətdən danışılıb.

Daha sonra hərbi qulluqçular qarşısında hüquqi maarifləndirici məzmunlu çıxışlar olunub, onları maraqlandıran suallar cavablandırılıb. Eləcə də hərbçilərin qayğı və problemləri ilə maraqlanılıb, nümunəvi xidməti ilə fərqlənənlərə hədiyyələr təqdim edilib. Eyni zamanda, xidmətə yeni başlayan hərbi qulluqçuların andiçmə mərasimi keçirilib. Sonda ağaclar əkilib.





# Bərdə rayonunda Hərbi Prokurorluq və Daxili İşlər Nazirliyinin Daxili Qoşunları birgə tədbir keçirib



Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 101-ci ili və ölkəmizdə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Azərbaycan Prezidentinin 2023-cü il 25 dekabr tarixli Sərəncamının icrası ilə əlaqədar Bərdə rayonunda Hərbi Prokurorluğun rəhbər vəzifəli şəxsləri və Daxili İşlər Nazirliyinin (DİN) Daxili Qoşunlarının yüksəkrütbəli hərbi qulluqçularının iştirakı ilə 11.05.2024-cü ildə birgə tədbir keçirilib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz və unu-





dulmaz xatirələri bir dəqiqəlik sükutla yad edilib, onlara rəhmət, qazilərə şəfa arzulanıb.



Hərbi Prokurorluğun Mətbuat xidmətinin rəhbəri Firad Əliyevin, İstintaq idarəsinin rəisi Bəhruz Əhmədovun və digər şəxslərin çıxışlarında müstəqillik yolumuzu və firavan istiqbalımızı nurlandıran dünya şöhrətli nəhəng tarixi şəxsiyyət Heydər Əliyevin həyat və yaradıcılığından, xalqımız və dövlətimiz qarşısındakı müstəsna xidmətlərindən danışıblar. Çıxışlar həmçinin vətənpərvər dahinin Azərbaycanın parlaq gələcəyinə hesablanan mükəmməl siyasətini yeni müstəvidə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 il müddət ərzində ölkəmizdə görülən misilsiz işləri, həyata keçirilən hərtərəfli köklü islahatları, bütün sahələrdə qazanılan nailiyyətləri, o cümlədən qüdrətli Silahlı Qüvvələrimizin formalaşdırılmasını, eləcə də ətraf mühitin daha da sağlamlaşdırılmasını və etibarlı qorunmasını əhatə edib. Bu uğurların qazanılmasında Birinci vitse-prezident Mehriban Əliyevanın dəstəyi və xalqın müdrikliyi xüsusi qeyd olunub. Tədbir zamanı Hərbi Prokurorluğun Silahlı Qüvvələrlə, o cümlədən DİN-in Daxili Qoşunları ilə səmərəli qarşılıqlı işgüzar münasibətləri diqqət mərkəzində olub.

Bundan sonra, ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin tələblərindən, hüquq və vəzifələrdən, həmçinin ekoloji qanun pozuntularından, ekoloji cinayətlərdən və məsuliyyətdən danışılıb. Daha sonra hüquqi maarifləndirici məzmunlu çıxışlar olub, hərbi qulluqçuları maraqlandıran suallar cavablandırılıb, eləcə də onların qayğı və problemləri ilə maraqlanılıb.

## Hərbi Prokurorluq əməkdaşları Daxili Qoşunların Vətən Müharibəsi qəhrəmanları ilə birgə “Ağac əkmə” aksiyası keçiriblər

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 101-ci ili və ölkəmizdə cari ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi ilə əlaqədar 17.05.2024-cü ildə Hərbi Prokurorluğun rəhbər vəzifəli şəxsləri və Daxili İşlər Nazirliyinin (DİN) Daxili Qoşunlarının yüksəkrütbəli hərbi qulluqçuları birgə tədbir keçiriblər.

Əvvəlcə Ulu Öndərin və şəhidlərimizin əziz və unudulmaz xatirələri bir dəqiqəlik sükutla anılıb, onlara rəhmət, qazilərə şəfa arzulanıb.








Hərbi prokurorun böyük köməkçisi Firad Əliyev Baş prokuror Kamran Əliyevin və Hərbi prokuror Xanlar Vəliyevin salamlarını şəxsi heyətə çatdırıb. Sonra Firad Əliyev, Bakı hərbi prokuroru Fərid Şükürov, prokuror müavini Samir Əzimzadə, Vətən müharibəsi qəhrəmanları Zəfər Yusibov, Nicad Bədəlov və digər şəxslər çıxış ediblər. Onlar çıxışlarında müstəqillik yolumuzu və firavan istiqbalımızı nurlandıran dünyaşöhrətli nəhəng tarixi şəxsiyyət Ulu Öndər Heydər Əliyevin həyat





və yaradıcılığından, xalqımız və dövlətimiz qarşısındakı müstəsna xidmətlərindən, vətənpərvər dahinin Azərbaycanın parlaq gələcəyinə hesablanan mükəmməl siyasətini yeni müstəvidə dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 il müddətdə ölkəmizdə görülən misilsiz işlərdən, həyata keçirilən hərtərəfli köklü islahatlardan, bütün sahələrdə qazanılan nailiyyətlərdən, o cümlədən qüdrətli Silahlı Qüvvələrimizin formalaşdırılmasından, eləcə də ətraf mühitin sağlamlaşdırılmasından və etibarlı qorunmasından danışıblar. Həmin uğurların qazanılmasında Birinci vitse-prezident Mehriban Əliyevanın dəstəyi və xalqın müdrikliyi xüsusi vurğulanıb. Tədbirdə, həmçinin Hərbi Prokurorluğun DİN-in Daxili Qoşunları ilə səmərəli qarşılıqlı işgüzar münasibətlərindən söhbət açılıb.

Bundan sonra, ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin tələblərindən, hüquq və vəzifələrdən, həmçinin ekoloji qanun pozuntularından, ekoloji cinayətlərdən və məsuliyyətdən danışılıb.

Sonda hüquqi maarifləndirici məzmunlu çıxışlar edilib, hərbi qulluqçuları maraqlandıran suallar cavablandırılıb, birgə ağaclar əkilib.







## Hərbi Prokurorluğun nümayəndə heyəti Rusiyaya səfər edib







Baş prokurorun müavini – Hərbi prokuror Xanlar Vəliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Rusiya Federasiyası Baş prokurorunun müavini – Baş hərbi prokuroru Valeri Petrovun dəvəti ilə cari ilin may ayının 19-dan 24-dək Rusiyaya səfər edib.

Səfər çərçivəsində nümayəndə heyəti Rusiyanın Baş Hərbi Prokurorluğunda bir sıra tədbirlərdə iştirak edib. Baş hərbi prokuror V.G.Petrov və digər rəhbər vəzifəli şəxslərin iştirakı ilə dəyirmi masa ətrafında keçirilmiş görüşdə ölkələrimiz arasında olan yaxın dostluq münasibətlərindən və bu əlaqələrin yüksələn xətlə inkişafından, o cümlədən hər iki dövlətin Hərbi Prokurorluqları arasındakı sıx əməkdaşlığın mühüm əhəmiyyət kəsb etməsindən, daha da dərinləşməsindən danışılıb.

Dəvətə görə minnətdarlığını ifadə edən ədliyyə general-leytenantı Xanlar Vəliyev dövlətlərimiz arasındakı doğma münasibətlərin yaranmasında Ulu Öndər Heydər Əliyevin müstəsna xidmətlərini qeyd edib. Xanlar Vəliyev dövlət başçılarının hazırda səmimi münasibətləri uğurla davam etdirdiklərini, xalqlarımız arasındakı bağlılığı vurğulayıb. Bildirib ki, hər iki Hərbi Prokurorluq arasındakı əməkdaşlıq V.G.Petrovun təşəbbüsü ilə Azərbaycan Hərbi Prokurorluğunun nümayəndə heyətinin 2018-ci ildə Rusiyaya səfərindən sonra başlayıb, qarşı tərəfin nümayəndə heyətinin 2019-cu ildə Azərbaycana səfəri ilə davam edib və hazırda daha da möhkəmlənib.

Ədliyyə general-leytenantı Xanlar Vəliyev həmçinin bildirib ki, Ümummilli Liderin müdrik siyasətini müasir müstəvidə davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin ən yeni tarixi uğurlarla səciyyələnib, onun qətiyyəti, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın dəstəyi, xalqın əzmkarlığı, Silahlı Qüvvələrimizin qüdrəti və hərbçilərimizin qəhrəmanlığı sayəsində 30 ilə yaxın işğal altında qalmış dədə-baba torpaqlarımız 44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm Qələbə nəticəsində azad edilib. Bir sutkadan az müddətdə

davam edən lokal xarakterli antiterror tədbirləri nəticəsində tarixi ərazilərimiz erməni işğalçılarından təmizlənib və ərazi bütövlüyümüz bərpa olunub. Hazırda erməni vandalizminə məruz qalmış ərazilərdə dövlətimizin başçısının və birinci xanımın şəxsi nəzarətləri ilə abadlıq-quruculuq işləri həyata keçirilir.

Hərbi prokuror Xanlar Vəliyev Rusiya sülhməramlılarının səmərəli fəaliyyətindən də söz açıb. Ardınca tərəflər arasında hər iki ölkənin qanunvericiliyi, onun icra vəziyyəti, təkmilləşdirilməsi, habelə sülh və insanlıq əleyhinə, terrorçuluq, eləcə də digər cinayətlərin istintaq taktikası, ibtidai araşdırma prosesində ortaya çıxan problemlər, onların həlli yolları ilə bağlı müzakirələr aparılıb. Həmçinin bu qəbildən olan cinayətlərə qarşı mübarizə üzrə qarşılıqlı əməkdaşlığın genişləndirilməsi və digər məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində nümayəndə heyəti, həmçinin Rusiyanın Müdafiə Nazirliyinin Knyaz Aleksandr Nevski adına Hərbi Universitetinə gedərək, təhsil müəssisəsinin "Prokuror-müstəntiq", "Maliyyə-iqtisad" fakültələrində, "Kriminalistika" və digər kafedralarda təlim-tədris prosesinin gedişi ilə yaxından tanış olublar. Eyni zamanda, nümayəndə heyətinə müasir kriminalistik avadanlıqlar nümayiş etdirilib və məhkəmə-tibbi ekspertizası sahəsində qazanılmış nailiyyətlər barədə ətraflı məlumat verilib. Eyni zamanda nümayəndə heyəti azərbaycanlı kursantlarla görüşüb, onların təhsil, məişət şəraitləri, qayğı və problemləri ilə maraqlanıb.

Bundan başqa, Rusiya Silahlı Qüvvələrinin Baş Məbədi və "Yaddaş yolu" muzey kompleksi ziyarət olunaraq, Böyük Vətən müharibəsində həlak olan hərbi qulluqçularımızın əziz və unudulmaz xatirələri anılıb.










# Azərbaycanın Hərbi prokuroru Tatarıstanın Rəisini ölkəmizin qazandığı misilsiz uğurlar barədə məlumatlandırıb

Rusiya Federasiyası Baş prokurorunun müavini – Rusiyanın Baş Hərbi prokuroru Valeri Petrovun dəvəti ilə bu ölkədə rəsmi səfərdə olan Azərbaycan Respublikası Baş prokurorunun müavini – Respublika Hərbi prokuroru Xanlar Vəliyevin rəhbərlik etdiyi nümayəndə heyəti V.G.Petrovun və digər vəzifəli şəxslərin müşayiəti ilə cari ilin may ayının 22-dən 24-dək Tatarıstana səfər ediblər.

Səfərdə məqsəd Mərkəzi Hərbi Dairənin Kazan Qarnizonu Hərbi Prokurorluğunun nümunəsində Rusiyanın Hərbi Prokurorluq orqanları sisteminə daxil olan qarnizon hərbi prokurorluqlarının strukturu, fəaliyyəti və iş prinsipləri ilə yaxından tanış olmaq,







eləcə də təcrübə və fikir mübadiləsi aparmaq olmuşdur. Səfər çərçivəsində əvvəlcə hər iki ölkənin hərbi prokurorunu Tatarıstanın Rəisi Rüstəm Minnixanov qəbul edib.

Görüş zamanı Rüstəm Minnixanov ölkələrimiz və xalqlarımız arasında olan doğmalıqdan, yaxın dostluq münasibətlərindən və bu əlaqələrin daha da dərinləşməsindən, Azərbaycanın dövlət başçısı ilə aralarında olan səmimiyyətdən bəhs edilib. Dövlətlər arasındakı əlaqələrin genişlənməsində və yüksələn xətt üzrə inkişaf etməsində Rusiya Prezidenti Vladimir Putinin və Azərbaycan Prezidenti İlham Əliyevin gördüyü müstəsna işlərin əhəmiyyətindən danışılıb.

Qəbula görə minnətdarlığını bildirən ədliyyə general-leytenantı Xanlar Vəliyev millətlərimiz arasında olan qardaşlıq münasibətlərindən, bu münasibətlərin daha da möhkəmlənməsindən, Prezident İlham Əliyevlə Rüstəm Minnixanovun bir-birinə olan qarşılıqlı rəğbətindən söhbət açıb.

Hərbi prokuror görüşdə 2023-cü il iyunun 17-də Zəngilan rayonunun Ağalı kəndində keçirilən görüşü xatırladaraq, Rusiya Prezidenti Vladimir Putinlə dövlətimizin başçısı İlham Əliyev arasında səmimi münasibətlərin olduğunu xüsusi vurğulayıb.

Sonra Xanlar Vəliyev Ümummilli Lider Heydər Əliyevin müdrik siyasətini dövrün tələblərinə uyğun davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin son 20 ildə daha da qüdrətlənməsindən, əldə edilən misilsiz uğurlardan, o cümlədən Vətən müharibəsində qazanılan möhtəşəm hərbi-diplomatik qələbədən, uzun müddət işğal altında olan dədə-baba torpaqlarımızın azad edilməsindən, bir sutkadan az müddətdə davam edən lokal xarakterli antiterror tədbirləri nəticəsində tarixi ərazilərimizin erməni quldurlarından təmizlənməsindən və beləliklə də, ərazi bütövlüyümüzün bərpa olunmasından, sadalanan uğurlara Birinci vitse-prezident Mehriban xanım Əliyevanın verdiyi töhfələrdən bəhs edib.

Səfər çərçivəsində Kazan Qarnizonu Hərbi Prokurorluğunun inzibati binasında prokurorluğun iş şəraiti və fəaliyyəti ilə yaxından tanış olan nümayəndə heyətinə Kazan Qarnizonu Hərbi prokuroru prokurorluğun fəaliyyət dairəsi və istiqamətləri, görülmüş işlər və əldə edilmiş nailiyyətlər, vətəndaşların və hərbi qulluqçuların qəbulu, müraciətlərinə baxılması, təhqiqat orqanlarından daxil olan araşdırma materiallarının öyrənilməsi qaydaları və xidməti fəaliyyətə aid olan digər məsələlər barədə ətraflı məlumat verərək, təcrübə və fikir mübadiləsi aparılıb.

Nümayəndə heyəti, həmçinin Kazan Federal Universitetində, eləcə də Kazan Kremlində, "Qol Şərif" məscidində, "Tanrı Anasının Kazan İkonası" Məbədində, "Qələbə" parkında və digər tarixi-mədəni yerlərdə olublar.

# Hərbi Prokurorluq və Müdafiə Nazirliyi Şəmkir rayonunda birgə tədbir keçirib

Milli Qurtuluşun – Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışının 31-ci ildönümü və Azərbaycanda cari ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi ilə əlaqədar 21 may 2024-cü ildə Şəmkir rayonunda Hərbi Prokurorluğun rəhbər vəzifəli şəxsləri və Müdafiə Nazirliyinin yüksək rütbəli hərbi qulluqçularının iştirakı ilə birgə tədbir keçirilib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz, unudulmaz xatirələri bir dəqiqəlik sükutla anılıb, onlara rəhmət, qazilərə şəfa arzulanıb.








Hərbi Prokurorluğunun Mətbuat xidmətinin rəhbəri Firad Əliyev Baş prokuror Kamran Əliyevin və hərbi prokuror Xanlar Vəliyevin salamlarını şəxsi heyətə çatdırıb. Sonra Firad Əliyev, Hərbi Prokurorluğun şöbə rəisi Səməd Əliyev, Şəmkir hərbi prokuroru İlham Babayev və digər şəxslər çıxış ediblər.

Onlar çıxışlarında müstəqillik yolumuzu və firavan gələcəyimizi işıqlandıran dünyaşöhrətli nəhəng tarixi şəxsiyyət Ulu Öndər Heydər Əliyevin həyat və yaradıcılığından, xalqımız və dövlətimiz qarşısındakı misilsiz xidmətlərindən bəhs ediblər. Çıxışçılar, həmçinin vətənpərvər dahi şəxsiyyətin Azərbaycanın qüdrətlənməsinə hesablanan mükəmməl siyasətini yeni müstəvidə dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 il müddət ərzində ölkəmizdə görülən müstəsna işləri vurğulayıblar. Həyata keçirilən hərtərəfli köklü islahatlardan, bütün sahələrdə qazanılan uğurlardan, o cümlədən qüdrətli Silahlı Qüvvələrimizin formalaşdırılmasından, eləcə də ətraf mühitin daha da sağlamlaşdırılmasından və etibarlı qorunmasından, bu nailiyyətlərin əldə edilməsində Birinci vitse-prezident Mehriban Əliyevanın dəstəyindən və xalqın müdrikliyindən danışılıb.

Tədbirdə, həmçinin Hərbi Prokurorluğun Müdafiə Nazirliyi ilə səmərəli qarşılıqlı işgüzar münasibətlərindən söhbət açılıb. Eyni zamanda, ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin tələblərindən, hüquq və vəzifələrdən, ekoloji qanun pozuntularından, o cümlədən ekoloji cinayətlərdən və məsuliyyətdən bəhs olunub.

Daha sonra hərbi qulluqçular qarşısında hüquqi maarifləndirici məzmunlu çıxışlar olub, onları maraqlandıran suallar cavablandırılıb. Eləcə də hərbçilərin qayğı və problemləri ilə maraqlanılıb. Sonda tədbir iştirakçıları ağaclar əkiblər.





# Hərbi Prokurorluq və Dövlət Sərhəd Xidməti Şəmkirdə birgə tədbir keçiriblər



Milli Qurtuluşun – Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışının 31-ci ildönümü və ölkəmizdə cari ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə əlaqədar 2024-cü ilin may ayının 23-ü Şəmkir rayonunda Hərbi Prokurorluğun rəhbər vəzifəli şəxsləri və Dövlət Sərhəd Xidmətinin yüksək rütbəli hərbi qulluqçuları birgə tədbir keçirib.

Tədbirdən əvvəl Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz və unudulmaz xatirələri bir dəqiqəlik sükutla anılıb, Allahdan onlara rəhmət, qazilərə şəfa arzulanıb.

Hərbi prokurorun böyük köməkçisi – Mətbuat xidmətinin rəhbəri Firad Əliyev Baş prokuror Kamran Əliyevin və Hərbi prokuror Xanlar Vəliyevin salamlarını şəxsi heyətə çatdırıb.











Sonra Firad Əliyev, Şəmkir hərbi prokuroru İlham Babayev, polkovnik Anar Nəsirli və digər şəxslər çıxış ediblər. Onlar çıxışlarında müstəqillik yolumuzu və firavan istiqbalımızı nurlandıran nəhəng tarixi şəxsiyyət Ulu Öndər Heydər Əliyevin Azərbaycanın parlaq gələcəyinə hesablanmış mükəmməl siyasətini yeni müstəvidə dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 il müddətində ölkəmizdə görülmüş misilsiz işlərdən, həyata keçirilmiş hərtərəfli köklü islahatlardan, bütün sahələrdə qazanılmış müstəsna uğurlardan, o cümlədən qüdrətli Silahlı Qüvvələrimizin formalaşdırılmasından söz açıblar. Eləcə də ətraf mühitin daha da sağlamlaşdırılmasından və etibarlı qorunmasından, bu uğurların əldə olunmasında Birinci vitse-prezident Mehriban xanım Əliyevanın dəstəyindən və xalqın müdrikliyindən danışıblar.

Tədbirdə, həmçinin Hərbi Prokurorluğun Dövlət Sərhəd Xidməti ilə səmərəli qarşılıqlı işgüzar münasibətlərindən bəhs edilib.

Bundan sonra, ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin tələblərindən, hüquq və vəzifələrdən, həmçinin ekoloji qanun pozuntularından, o cümlədən ekoloji cinayətlərdən və məsuliyyətdən danışılıb. Eyni zamanda, hərbi qulluqçular qarşısında hüquqi maarifləndirici məzmunlu çıxışlar olub, onları maraqlandıran suallar cavablandırılıb, eləcə də hərbçilərin qayğı və problemləri ilə maraqlanılıb.

Tədbirdən sonra ağaclar əkilib.

# Hərbi Prokurorluq və Dövlət Sərhəd Xidməti Cəlilabadda birgə tədbir keçiriblər

Milli Qurtuluşun – Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışının 31-ci ildönümü və ölkəmizdə cari ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə əlaqədar iyun ayının 6-da Cəlilabad rayonunda Hərbi Prokurorluğun rəhbər vəzifəli şəxsləri, Dövlət Sərhəd Xidmətinin yüksək rütbəli hərbi qulluqçuları rayon rəhbərliyinin iştirakı ilə birgə tədbir keçirib.

Tədbirdən əvvəl Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz və unudulmaz xatirələri bir dəqiqəlik sükutla anılıb, Allahdan onlara rəhmət, qazilərə şəfa arzulanıb.

Hərbi prokurorun böyük köməkçiləri Firad Əliyev və Fərəc Sayılov, Lənkəran hərbi prokuroru Elşən Əli-







Məmmədov, polkovnik Niyazi Əliyev, eləcə də Vahid Mirzəyev, Musa Vəliməmmədov və digər şəxslər çıxış ediblər. Onlar çıxışlarında müstəqillik yolumuzu və firavan gələcəyimizi nurlandıran nəhəng tarixi şəxsiyyət Ulu Öndər Heydər Əliyevin Azərbaycanın parlaq istiqbalına hesablanmış mükəmməl siyasətini yeni müstəvidə dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 il müddətində ölkəmizdə görülmüş müstəsna işlərdən, həyata keçirilmiş hərtərəfli köklü islahatlardan, bütün sahələrdə qazanılmış misilsiz uğurlardan, o cümlədən qüdrətli Silahlı Qüvvələrimizin formalaşdırılmasından söz açıblar. Eləcə də ətraf mühitin daha da sağlamlaşdırılmasından və etibarlı qorunmasından, bu uğurların əldə olunmasında Birinci vitse-prezident Mehriban xanım Əliyevanın dəstəyindən və xalqın müdrikliyindən danışıblar.

Bundan sonra ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin tələblərindən, hüquq və vəzifələrdən, həmçinin ekoloji qanun pozuntularından, o cümlədən ekoloji cinayətlərdən və məsuliyyətdən danışılıb. Hərbi qulluqçular qarşısında hüquqi maarifləndirici məzmunlu çıxışlar edilərək onları maraqlandıran suallar cavablandırılıb, eləcə də hərbçilərin qayğı və problemləri ilə maraqlanılıb. Tədbirdən sonra ağaclar əkilib.





# Hərbi Prokurorluqda qazilərlə görüş keçirilib







İyunun 24-də Silahlı Qüvvələr günü münasibətilə Hərbi Prokurorluqda ictimaiyyət nümayəndələrinin iştirakı ilə Müdafiə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Vətən müharibəsində və antiterror əməliyyatlarında iştirak etmiş hərbi qulluqçuları, o cümlədən 17 nəfər Vətən müharibəsi qəhrəmanı və qazilərlə görüş keçirilib.

Tədbirdən öncə Hərbi Prokurorluğun inzibati binasında yerləşən "Heydər Əliyev guşəsi"ndə Ulu Öndərin büstü önünə gül dəstələri düzülərək, dahi insanın parlaq xatirəsinə dərin ehtiram ifadə olunub. Sonra tədbir iştirakçıları tarixi şəxsiyyət Heydər Əliyevin, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş bütün şəhidlərin əziz və unudulmaz xatirələrini bir dəqiqəlik sükutla anıb, qazilərə şəfa diləyiblər.



Tədbirdə çıxış edən Baş prokurorun müavini – Hərbi prokuror Xanlar Vəliyev iştirakçıları, bütün qaziləri və şəhid ailələrini Silahlı Qüvvələr günü münasibətilə təbrik edərək, onlara ən xoş arzularını çatdırıb. Hərbi prokuror bildirib ki, müasir Azərbaycanın memarı və qurucusu Ulu Öndər Heydər Əliyevin müdrik siyasətini zamanın tələblərinə uyğun şəkildə uğurla davam etdirən Prezident İlham Əliyevin zəngin elmi bilikləri, dərin düşüncəsi, uzaqgörən siyasi strategiyası, sarsılmaz qətiyyəti və yorulmaz fəaliyyəti ilə xalqın müdrikliyinin və əzmkarlığının vəhdəti sayəsində dünyada baş verən neqativ proseslərə, o cümlədən postpandemiya dövrünə, eləcə





də müharibədən çıxmış ölkə olmağımıza rəğmən, dövlətimiz qüdrətlənir, işğaldan azad olunmuş ərazilərimiz də daxil olmaqla regionlarımız hərtərəfli inkişaf edir və əhalinin rifahının daha da yaxşılaşdırılması prosesinin davamlılığı uğurla təmin olunur.

Ədliyyə general-leytenantı Xanlar Vəliyev vurğulayıb ki, ölkəmizin sürətli tərəqqisinə və qazanılan ardıcıl uğurlara, eləcə də dövlətimizin beynəlxalq əlaqələrinin genişləndirilməsinə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın çoxşaxəli və zəngin fəaliyyəti mühüm töhfələr verir.

Ölkəmizin sürətli inkişafının Silahlı Qüvvələrin qüdrətlənməsinə də rəvac verdiyini deyən hərbi prokuror Xanlar Vəliyev deyib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində son illər Silahlı Qüvvələrimizin maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilib, arsenalı ən müasir silah-sursat, hərbi texnika və digər avadanlıqlarla zənginləşdirilib, həmçinin hərbçilərin sosial vəziyyəti davamlı yaxşılaşdırılıb, mənəvi-psixoloji hazırlıq səviyyəsi və döyüş əhvali-ruhiyyəsi artırılıb, bir sözlə müasir tələblərə tam cavab verən, istənilən döyüş tapşırığının yüksək səviyyədə yerinə yetirməyə qadir olan Azərbaycan Silahlı Qüvvələri formalaşıb.

Xatırladılıb ki, qeyd edilənlər hərbi uğurlarımızı şərtləndirib və nəticədə düşmənin 2020-ci il sentyabrın 27-dən başlayaraq törətdikləri növbəti təxribatlarının qarşısının alınması, eləcə də antiterror əməliyyatları zamanı gedən döyüşlərdə müdrik və qətiyyətli Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri öz gücünü, qüdrətini, hərbçilərimiz isə peşəkarlığını və yüksək döyüş hazırlığını əyani şəkildə sübut edib və zəfərlərimiz təmin olunub.

Vətən müharibəsindən, qazanılan möhtəşəm qələbədən bəhs edən Xanlar Vəliyev Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə damlası düşmənin bütövlükdə vücudundan dəyərli olan qanları ilə şanlı tarix yazan vətən oğullarının qəhrəmanlığından, hərbçilərimizin əzmkarlığından, xalqımızın mübarizliyindən, prokurorluq, o cümlədən hərbi prokurorluq əməkdaşlarının xidməti vəzifələrini layiqincə icra etmələrindən danışaraq qazanılan uğurları Prezident-Xalq birliyinin şərtləndirdiyini vurğulayıb.

Hərbi prokuror diqqətə çatdırıb ki, sentyabrda uğurla həyata keçirilən antiterror əməliyyatları bir daha təsdiq etdi ki, "Dəmir yumruq" yerindədir, istənilən təxribatın qarşısını qətiyyətlə almağa və düşmənin "başını əzməyə" qadirdir. Millətinə xidməti həyat amalına çevirmiş dövlətimizin başçısı İlham Əliyevin xalq qarşısında verdiyi vədləri əməlləri ilə hər zaman doğrultduğunu xüsusi vurğulayan Xanlar Vəliyev əlavə edib





ki, dövlət başçısı hərbi və siyasi-diplomatik yolla ölkəmizin əzəli ərazilərini işğaldan azad etməklə, növbəti vədini də yerinə yetirib.

Milli Məclisin deputatları Aydın Mirzəzadə, Elşad Mirbaşir, Səbinə Xasayeva və əməkdar incəsənət xadimi, ehtiyatda olan polkovnik Abdulla Qurbani, eləcə də çıxış edən digər şəxslər Vətən müharibəsindən, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə əldə olunan tarixi qələbədən, eləcə də 44 günlük döyüşlərdə və antiterror əməliyyatlarında Hərbi Prokurorluğun özünəməxsus rolundan, onun Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, Daxili İşlər Nazirliyinin Daxili Qoşunları və aidiyyəti təşkilatlarla birgə qarşılıqlı səmərəli fəaliyyətindən bəhs ediblər. Eyni zamanda, çıxışçılar Vətən müharibəsində iştirakçılarına, o cümlədən Vətən müharibəsi qəhrəmanlarına, qazilərə göstərilən diqqət və qayğıya görə Hərbi Prokurorluğun rəhbərinə, kollektivinə dərin minnətdarlıqlarını bildiriblər.



Sonda ədliyyə general-leytenantı Xanlar Vəliyev igid oğullara bir daha dərin təşəkkürünü bildirib və onlara hədiyyələr təqdim edib. Qəhrəman Vətən övladları isə görüşdən məmnunluqlarını ifadə ediblər.



# Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanları tərəfindən "Vətənpərvərlik" mövzusunda maarifləndirmə tədbirləri keçirilib

Cari ilin aprel ayında Naxçıvan Muxtar Respublikasının orta ümumtəhsil məktəblərində keçirilən maarifləndirmə tədbirlərində prokurorluq işçiləri tərəfindən qeyd olunub ki, vətənpərvərliyin mahiyyəti Vətənə məhəbbət və həyatını Vətən yolunda qurban verməyə əsaslanan emosional bağlılıqdır. Bu bağlılıq həm də özünün mənsub olduğun millətin etnik, mədəni, siyasi və tarixi xüsusiyyətlərinə arxalanan milli hissiyyat və ya milli qürur kimi də hallanır. Burada Vətəninin xarakterini və mədəni incilərini qorumaq və özünü bu keyfiyyətlərlə millətin başqa üzvləri ilə tanımaq, vətənin və öz xalqının marağını qorumaq da vətənpərvərlik keyfiyyətlərinə aiddir. Vətənpərvərliyin tarixi kökündə min illər boyu yaşamış, möhkəmlənmiş, öz ana torpağına, dilinə və adət ənənələrinə bağlanmış dövlətçilik durur. Millətin və dövlətçiliyin formalaşması şəraitində vətənpərvərlik onun inkişafının ümummilli anlarını əks etdirən ictimai düşüncənin tərkib hissəsinə çevrilir.









Azərbaycan xalqı çoxəsrlik tarixinin şərəfli mərhələsini yaşayır, bütün dünya azərbaycanlıları ölçüyəgəlməz qürur və sevinc hissləri keçirir. Azərbaycan xalqı Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Müzəffər Ordumuzun 27 sentyabr 2020-ci il tarixdən başlanan əks-hücum əməliyyatları nəticəsində 30 ilə yaxın mənfur qonşumuz Ermənistanın işğal altında saxladığı Qarabağı azad etməklə milli çağdaş tariximizə şanlı səhifə yazdı. Çağdaş tariximizə 44 günlük Vətən Müharibəsi kimi daxil olan bu hərbi əməliyyat nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazi bütövlüyü təmin edildi. Ali Baş Komandan bütün xalqı səfərbər etdi, mübarizəyə qaldırdı, dəqiq məqsədləri göstərdi, hər bir azərbaycanlını doğma Qarabağ uğrunda mübarizəyə istiqamətləndirdi. Ali Baş Komandanın dediyi "Biz qalib gələcəyik, bizim işimiz haqq işidir" sadə sözlər deyil, bu düşüncə tərzidir, bu həqiqi vətənpərvərlikdir. Xalq ən yüksək vətənpərvərlik məqsədi naminə vətən torpaqlarının azad edilməsinə qalxdı. Ali Baş Komandanın döyüş meydanlarındakı qələbələrlə bağlı hər bir müraciəti xalqı daha sıx birləşdirdi.

Maarifləndirici tədbirlərdə həmçinin qeyd olunub ki, heç kəs sadəcə nəsihət və dərslikdən, hər hansı kitabdan oxumaq yolu ilə vətənpərvər olmur. Bu prosesdə söz və əməl birliyi, şəxsi nümunə əsas təməl şərtlərdən, vacib amillərdən sayılır. Bu gün hər bir Azərbaycan məktəbində doğma Vətənimizin ayrılmaz parçası olan Qarabağın işğaldan azad olunması uğrunda döyüşlərdə şəhid və ya qazi olmuş qəhrəman oğullarımızın misilsiz rəşadət nümunələri yetişməkdə olan gənclərimiz üçün böyük vətənpərvərlik məktəbidir. Bir sıra məktəblərimiz döyüşlərdə həlak olmuş şəhidlərimizin adını daşıyır. Bu nümunələr şagirdlərin vətənpərvərlik tərbiyəsində misilsiz rol oynayır.

Tədbirlər çərçivəsində şagirdlərin fikirləri dinlənilib, onları maraqlandıran suallar cavablandırılıb.

# Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən narkomaniyaya qarşı mübarizə ilə bağlı maarifləndirici tədbirlərin keçirilməsinə başlanılıb

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 22 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019–2024-cü illər üçün Dövlət Proqramı"nın icrası istiqamətində Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilatçılığı ilə Muxtar Respublikanın ali, orta ixtisas və orta ümumtəhsil məktəblərində "Narkomaniyaya qarşı mübarizə vətəndaşlıq borcumuzdur" mövzusunda tədbirlərin keçirilməsinə başlanılıb.



Tədbirlərdə tələbə və şagirdlərə zərərli təsirləri barədə məlumat verilərək, qeyd olunub ki, "Ağ ölüm" ilə mübarizədə vətəndaşlar da əllərindən gələni əsirgəməməli, xüsusən də ictimai qınaq mexanizminin daim işlək vəziyyətdə olması üçün ciddi səy göstərməli, vətəndaşlıq mövqeyi nümayiş etdirməlidir. Sağlam düşüncəli insanlar bilirlər ki, narkomaniya cinayət, ailələrin dağılması, çarəsiz xəstəlik, ölüm və sair bu kimi digər ağır nəticələrə gedən yolun başlanğıcı olmaqla bütün cəmiyyət üçün böyük təhlükədir.







Ona görə də hər bir insanın sağlamlığını və həyatını ciddi təhlükə altına alan, əxlaqi və mənəvi dəyərləri sarsıdan, insanlığa xələl gətirən, cəmiyyətin sosial-iqtisadi tərəqqisini ləngidən, narkomanlığa qarşı mübarizədə hər birimiz fəal iştirak etməli və ümumbəşəri bəlaya qarşı qətiyyətli mübarizə aparmalıyıq.

Aprel ayının 4-də Naxçıvan Dövlət Universitetinin Musiqi Kollecində, 23-də isə Texniki Kollecində qeyd olunan məsələyə həsr edilmiş tədbirlər keçirilib. Tədbirlərdə Naxçıvan Muxtar Respublikası Prokurorluğunun şöbə rəisi Faiq Səfərov və Psixi Xəstəliklər Dispanserinin Narkologiya şöbəsinin müdiri Azad Şükürlü mövzu ilə bağlı təqdimatla çıxış ediblər.

# Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illik yubileyi ilə əlaqədar "Açıq Qapı" günü keçirilib

Naxçıvan Muxtar Respublikası prokurorluğunun təşkilatçılığı ilə aprelin 9-da Naxçıvan Muxtar Respublikası prokurorluğunda Naxçıvan Dövlət Universitetinin Hüquq fakültəsinin tələbələri üçün "Açıq qapı" günü keçirilib.



Tədbir çərçivəsində prokurorluğun əməkdaşları Faiq Səfərov, İbrahim Mənsimov və Elvin Hüseynov tələbələrə prokurorluğun fəaliyyət istiqamətləri, eləcə də Elektron Prokurorluq İnformasiya Sistemi barədə tələbələrə ətraflı məlumat verib, onları maraqlandıran çoxsaylı sualları cavablandırıb.







Sonra isə şərti hadisə yerinə baxış zamanı hadisə yerinin müayinə üsulları, hadisə yerində olan dəlillərin rəsmiləşdirilməsi, üzərində aşkar olunan əl-barmaq və digər izlərinin fiksasiya edilməsi, götürülməsi və rəsmiləşdirilməsi qaydası, həmçinin canlı şəxsin və meyitin əl-barmaq izlərinin götürülməsi əyani olaraq tələbələrə izah olunub.

# Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanlarında inzibati xətalar haqqında işlər seminarların mövzusu olub






Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilatçılığı ilə aprel ayının 16-da Naxçıvan şəhər və Kəngərli rayon prokurorluqlarında, 17-də Babək və Şahbuz rayon prokurorluqlarında, 18-də Şərur və Sədərək rayon prokurorluqlarında, 19-da Culfa və Ordubad rayon prokurorluqlarında, may ayının 29-da isə Naxçıvan Muxtar Respublikası Prokurorluğunda inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan müvafiq dövlət orqanları əməkdaşlarının iştirakı ilə "İnzibati xətalar haqqında işlər üzrə icraat zamanı prokuror nəzarəti" mövzusunda seminarlar keçirilib.



Seminarlarda Naxçıvan Muxtar Respublikası Prokurorluğunun şöbə rəisi Faiq Səfərov Azərbaycan Respublikasının inzibati xətalar qanunvericiliyinin vəzifələri və prinsipləri, inzibati məsuliyyətin əsasları, inzibati xəta və inzibati məsuliyyət barədə məlumat verərək qeyd edib ki, inzibati xətalar qanunvericiliyinin vəzifələri insan və vətəndaş hüquqlarını və azadlıqlarını, onların sağlamlığını, əhalinin sanitariya-epidemioloji salamatlığını, ictimai mənəviyyatı, mülkiyyəti, şəxslərin iqtisadi maraqlarını, ictimai qaydanı və ictimai təhlükəsizliyi, ətraf mühiti, idarəçilik qaydalarını qorumaqdan, qanunçuluğu möhkəmləndirməkdən və inzibati xətaların qarşısını almaqdan ibarətdir. İnsan və vətəndaş hüquqları və azadlıqları isə ali də-







yərə malikdir. Bu hüquqların və azadlıqların pozulmasına yol verən bütün dövlət orqanları, qurumları və vəzifəli şəxsləri məsuliyyət daşıyırlar. İnzibati xətalar qanunvericliyi insan və vətəndaş hüquqlarının və azadlıqlarının dövlət orqanları, qurumları və vəzifəli şəxslər tərəfindən pozulmasının qarşısının alınmasını və onlara hörmət olunmasını təmin etməlidir.

Seminarlar çərçivəsində çıxış edən Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Cinayət təqibindən kənar icraatlar şöbəsinin rəisi İsfəndiyar Qasımov inzibati xətalar haqqında işlər üzrə icraatın iştirakçıları, onların hüquqları və vəzifələri, sübutlar və onların qiymətləndirilməsi, icraatın təmin edilməsi tədbirlərinin tətbiqi və mərhələləri barədə məlumat verib. İsfəndiyar Qasımov bildirib ki, prokuror inzibati xətalar haqqında işlər üzrə icraat zamanı baş vermiş qanun pozuntusunu aradan qaldırmaq üçün vaxtında tədbirlər görür və inzibati xətalar haqqında işlər üzrə icraatın aparılmasında Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının tətbiqinə və icrasına prokuror nəzarətini həyata keçirir. Prokuror, həmçinin inzibati xətalar haqqında işlərin baxılmasında iştirak etmək, işin baxılması zamanı baş verən məsələlər üzrə rəy və ya vəsatət vermək, inzibati xəta haqqında iş üzrə qəbul edilən qərardan və ya qərardaddan onun surətinin İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş rəsmi qaydada verildiyi vaxtdan on gün müddətində protest vermək hüququna malikdir.

Seminarların gedişatında tədbir iştirakçılarının mövzu ilə bağlı sualları cavablandırılıb.

# Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində tədbirlər keçirilib



Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanları tərəfindən "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində cari ilin may ayında məktəblilərin iştirakı ilə "Ətraf mühitin mühafizəsi, təbiətdən səmərəli istifadə və ekoloji-hüquqi məsuliyyət" mövzusunda maarifləndirmə tədbirləri keçirilib.

Maarifləndirmə tədbirlərində qeyd olunub ki, insan təbiətin bir hissəsi olub onunla sıx bağlıdır. İnsanın həyatında və fəaliyyətində təbiətin rolunu qiymətləndirmək olduqca çətindir. Təbiət insanların yaşayış mühiti vəzifəsini görür, onun vəziyyəti cəmiyyətin rifah və inkişaf səviyyəsini təyin edir. Hələ XIX əsrin sonlarından başlayan elmi-texniki tərəqqi, sənayenin sürətli inkişafı nəticəsində ətraf mühitə edilən təsirlər XX əsrin ortalarında öz mənfi nəticələrini büruzə verməyə başlayıb. Artıq insanlar təbiətə münasibətlərini dəyişməyəcəkləri, onun ehtiyatlarından səmərəsiz istifadəyə son qoymayacaqları təqdirdə bu prosesin onların özlərinə qarşı çevriləcəyini və arzuolunmaz nəticələrə gətirib çıxaracağını başa düşüblər.





1972-ci ildə Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin Stokholmda keçirilən iclasında 5 iyun tarixinin Dünya Ətraf Mühitin Mühafizəsi Günü kimi qeyd olunmasına qərar verilib. Dünya Ətraf Mühitin Mühafizəsi Gününün hər il geniş tədbirlərlə qeyd edildiyi Azərbaycanda da ətraf mühitin mühafizəsi və ekoloji problemlər daim diqqət mərkəzindədir. Dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə olduğu kimi, ekoloji problemlərin həlli, ətraf mühitin mühafizəsi, ekoloji tarazlığın bərpa edilməsi istiqamətində də mühüm işlər görülür. Ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa, meşələrin bərpa edilməsi və artırılmasına dair milli proqramlar, həmçinin Azərbaycanda hidrometeorologiyanın inkişafına dair Dövlət Proqramı uğurla yerinə yetirilir. Beynəlxalq

ekoloji proqramların həyata keçirilməsi, təbii sərvətlərin bərpasının təmin edilməsi və mühafizəsi, milli parkların təşkili və ekoloji şəbəkənin yaradılması istiqamətində görülən işlər də bu qəbildəndir.

Hələ 2010-cu ildə elan edilmiş "Ekologiya ili" çərçivəsində, eləcə də sonrakı illərdə ölkəmizdə milyonlarla ağacın əkilməsi, yeni parkların salınması və dövlət başçısının özünün bu kampaniyalarda iştirakı – ətraf mühitin qorunmasına xüsusi diqqətin göstəricisi sayıla bilər. Ətraf mühitin mühafizəsi, insanların sağlam təbii mühitdə yaşaması və təbii sərvətlərdən xalqımızın rifahının yaxşılaşdırılması naminə istifadə edilməsi respublikada aparılan sosial-iqtisadi islahatların tərkib hissəsindən biridir. Müstəqillik illərində ölkəmizdə ekoloji tarazlığın qorunması, ətraf mühitin mühafizəsi sahəsində əsaslı dönüş yaranmış, təbii ehtiyatların, o cümlədən faydalı qazıntıların, su, torpaq, hava kimi əvəzsiz sərvətlərin, meşələrin və biomüxtəlifliyin mühafizəsi sahəsində ardıcıl tədbirlər həyata keçirilib. Bu il isə ölkəmiz COP29-a ev sahibliyi edəcəkdir. Bu isə beynəlxalq ictimaiyyətdən dəstək alması bir daha beynəlxalq ictimaiyyətin ölkəmizə olan hörmət və ehtiramının göstəricisidir.





Həmçinin, Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsman) təşkilatçılığı ilə "Ətraf mühit faktorlarının insan sağlamlığına təsiri və sağlam ətraf mühitdə yaşamaq hüququ" mövzusunda keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Prokurorluğunun şöbə rəisi İsfəndiyar Qasımov "Sağlam ətraf mühitdə yaşamaq hüququ beynəlxalq aspektdə" mövzusunda çıxış etmişdir.



# Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilatçılığı ilə sudan səmərəli və qanuni istifadə ilə bağlı tədbirlər keçirilib

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilatçılığı ilə Muxtar Respublikanın Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti ilə birlikdə yerli icra nümayəndələrinin, bələdiyyə üzvlərinin və bu sahəyə məsul şəxslərin iştirakı ilə "Sudan səmərəli və qanuni istifadə" ilə bağlı 07.05.2024-cü il tarixdə Babək, 14.05.2024-cü il tarixdə Şərur və Sədərək, 17.05.2024-cü il tarixdə Ordubad, 21.05.2024-cü il tarixdə Culfa, 24.05.2024-cü il tarixdə







Kəngərli, 31.05.2024-cü il tarixdə isə Şahbuz rayon icra hakimiyyətlərində müvafiq maarifləndirmə tədbirləri keçirilib.

Tədbirlərdə Muxtar Respublika Prokurorluğunun əməkdaşları Faiq Səfərov və İsfəndiyar Qasımov, Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin əməkdaşı Səttar Nəsirov çıxış etmişlər. Çıxışlarda qeyd olunub ki, ölkəmizdə su təsərrüfatı ilə bağlı mövcud problemlər, o cümlədən içməli su xətlərinin və suvarma sisteminin istismarı zamanı baş verən çətinliklər öyrənilərkən müəyyən edilmişdir ki, problemlərin bir qismi təbiətdə baş vermiş iqlim dəyişiklikləri ilə bağlı olsa da, digərləri insan faktorunun təsiri nəticəsində əmələ gəlmişdir. Səlahiyyətli dövlət qurumları tərəfindən bu sahədə müvafiq tədbirlərin görülməsi istiqamətində işlər başlanmış, prokurorluğun üzərinə düşən vəzifənin icrası kimi bu sahədə hüquqpozmaları doğuran səbəb və şəraitin aradan qaldırılması, həmçinin bu sahədə prokuror nəzarətinin güclənməsi zəruridir. Belə ki, içməli su xətlərinə və suvarma sisteminə nəzarətdənkənar (qanunsuz) qoşulmaqla suyun talanmasının, su obyektlərindən və sudan istifadə qaydalarının, hidrotexniki qurğuların təhlükəsizliyinin, əhaliyə suyun paylanması zamanı ədalət prinsipinin pozulması, bu sahədə vəzifə cinayətləri və digər əlaqəli hüquqpozmaların qarşısının alınması, habelə məsuliyyətsizlik və cəzasızlığın aradan qaldırılması məqsədilə sudan istifadə sahəsində tabe rayon (şəhər) prokurorluqları tərəfindən nəzarətin gücləndirilməsi, bu növ qanun pozuntularına yol vermiş şəxslərin müvafiq olaraq inzibati və cinayət məsuliyyətinə cəlb edilməsi, həmçinin ekoloji, korrupsiya və qulluq mənafeyi əleyhinə










cinayətlərin əlamətləri aşkar olunduqda qanunla nəzərdə tutulmuş tədbirlərin görülməsi tələb olunur.

Əhalinin artması, istehsalın və kənd təsərrüfatının inkişafı bəşəriyyət üçün şirin su qıtlığına səbəb olduğundan suya qənaət etməli, su ehtiyatlarını qorumalıyıq. Suyun dünya üçün əhəmiyyəti nəzərə alınaraq BMT-nin qərarına əsasən hər il martın 22-i Ümumdünya Su Günü kimi qeyd olunur. Ölkəmizdə də bu sahədə kifayət qədər əhatəli qanunvericilik bazası mövcuddur. Azərbaycan Respublikasının Su Məcəlləsinə əsasən su obyektinin istifadəçisi su obyektlərindən istifadə hüququ verilmiş fiziki və ya hüquqi şəxs, su istehlakçısı isə öz ehtiyaclarını təmin etmək üçün su obyektlərinin istifadəçisindən su alan fiziki və ya hüquqi şəxsdir. Su təchizatı müəssisəsi ilə müqavilə əsasında sudan istifadə edən istehlakçıların hüquq və vəzifələri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17.07.2014-cü il tarixli 262 nömrəli qərarı ilə təsdiq edilmiş "Sudan istifadə qaydaları" ilə tənzimlənir. Su təchizatı şəbəkəsinə qanunsuz qoşulmaqla suyun talanması, yəni sudan qeyri-qanuni istifadə qanunla qadağandır. Su qanunvericiliyini pozan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada inzibati və cinayət məsuliyyəti daşıyırlar. Azərbaycan Respublikası İXM-nin 262-ci və CM-nin 189-1-ci maddələrində bu tələbləri pozan şəxslər barəsində məsuliyyət nəzərdə tutulub.

Daha sonra qeyd olunub ki, su çatışmazlığı ümumdünya problemidir. Bütün dünyanı cənginə alan qlobal istiləşmə, illik yağıntı miqdarının az olması, şirin su qaynaqlarından səmərəli istifadə edilməməsi bu problemin daha da dərinləşməsinə və həlli çətin böhrana çevrilməsinə şərait yaradıb. Azərbaycan da su ehtiyatları az olan ölkələrdən biridir. Bu baxımdan çalışmalıyıq ki, mövcud su ehtiyatlarından səmərəli və qənaətli istifadə edək. Bu sahədə fəaliyyət göstərən qurumlarla vətəndaşlar və təsərrüfat sahibləri birgə əməkdaşlıq etməlidir. Yaz mövsümü Naxçıvan Muxtar Respublikasında son illərə nəzərən daha yağıntılı keçir. Bu da imkan verir ki, su anbarlarına toplanan suyun miqdarı çoxalsın. Suvarma suyunun əkin sahələrinə vaxtında və bərabər paylanması üçün Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin tabe idarələrinin əməkdaşları nəzarəti gücləndirib. Sudan səmərəli və qanuni istifadədən danışarkən mütərəqqi suvarma sistemlərinin tətbiqindən də bəhs etməliyik. Ənənəvi suvarma üsullarından istifadə artıq öz yerini mütərəqqi suvarma sistemlərinə verməlidir.

Tədbirlər çərçivəsində qeyd edilən mövzu ətrafında müzakirələr aparılıb.

## Naxçıvan Muxtar Respublikasında keçirilən konfransda Muxtar Respublikanın prokuroru iştirak edib





Cari ilin may ayının 8-də Azərbaycan və Naxçıvan Muxtar Respublikası Vəkillər kollegiyalarının birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101, Naxçıvan Muxtar Respublikasının 100 illiyi münasibətilə “Blokada şəraitində hüquq təsisatlarının səmərəli fəaliyyəti və insan haqlarının müdafiəsi” mövzusunda konfrans və vəkilliyə namizədlərin təntənəli andiçmə mərasimi keçirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Azərbaycan Respublikası Vəkillər Kollegiyasının sədri Anar Bağırov, onun başçılıq etdiyi nümayəndə heyəti, Naxçıvan Muxtar Respublikasının prokuroru Sənan Paşayev, eləcə də deputatlar, vəkillər və digər dövlət rəsmiləri iştirak ediblər.

Konfrans iştirakçıları əvvəlcə Ulu Öndərin Naxçıvan şəhərindəki abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər. Daha sonra Heydər Əliyev Muzeyi ziyarət edilib, dahi şəxsiyyətin həyat və siyasi fəaliyyətini əks etdirən eksponatlarla tanışlıq olub. Tədbirdə Dövlət Himni səsləndirilib, Ümummilli Liderin və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbir çərçivəsində mövzu ətrafında çıxışlar dinlənilib, “Naxçıvanın inkişaf potensialı” mövzusunda təqdimat nümayiş etdirilib, “Pro Bono ChatBot” süni intellektin təqdimatı olub.

## Naxçıvan Muxtar Respublikası Prokurorluğunun əməkdaşları Ulu Öndər Heydər Əliyevin anadan olmasının 101 illiyini qeyd edib





Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101 illiyi ilə əlaqədar 10 may 2024-cü il tarixdə Naxçıvan Muxtar Respublikası Prokurorluğunun əməkdaşları tərəfindən Naxçıvan şəhərinin baş meydanında ucalan Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri qoyulub.

Sonra prokurorluğun əməkdaşları Heydər Əliyev Muzeyinə ekskurs ediblər və Ulu Öndərin həyatını nümayiş etdirən eksponatlarla tanış olublar, Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Ümummilli Liderin fəaliyyətinə həsr edilmiş tədbir keçirilib.

# Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən narkomaniyaya qarşı mübarizə ilə bağlı keçirilən tədbirlər davam etdirilib




Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilatçılığı ilə “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019 – 2024-cü illər üçün Dövlət Proqramı”nın icrası istiqamətində Muxtar Respublikanın təhsil ocaqlarında tədbirlər keçirilib.

Növbəti tədbir may ayının 15-də Naxçıvan Dövlət Universitetinin Tibb Kollecində, iyunun əvvəlində isə Naxçıvan Müəllimlər İnstitutunda baş tutub.

“Narkomaniyaya qarşı mübarizə vətəndaşlıq borcumuzdur” mövzusunda təşkil edilmiş tədbirlərdə Naxçıvan Muxtar Respublika Prokurorluğunun şöbə rəisi Faiq Səfərov və Psixi Xəstəliklər Dispanserinin Narkologiya şöbəsinin müdiri Azad Şükürlü mövzu ətrafında çıxış ediblər, tədbir çərçivəsində təqdimatlar nümayiş etdirilib.









# Naxçıvan Muxtar Respublikasının prokurorluğunun mərkəzi aparatı, rayon (şəhər) və Naxçıvan hərbi prokurorluğunun əməkdaşları arasında futbol turniri keçirilib



Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilatçılığı ilə mayın 15-də prokurorluq əməkdaşları arasında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101 illiyi və Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illik yubileyinə həsr olunmuş futbol turnirinin final oyunu keçirilib.

Naxçıvan Muxtar Respublikası prokurorluğunun mərkəzi aparatının komandası ilə Naxçıvan hərbi prokurorluğunun komandası qarşılaşdığı final oyunu sonuncuların qələbəsi ilə başa çatıb.

Sonda 1-ci və 2-ci yerə çıxan komandalar Naxçıvan Muxtar Respublikasının prokuroru Sənan Paşayev, Naxçıvan hərbi prokuroru Aqil Axundov və Naxçıvan Muxtar Respublikasının Gənclər və idman naziri vəzifələrini icra edən Məcid Seyidov tərəfindən mükafatlandırılıb.





# Naxçıvan Muxtar Respublikası Prokurorluğunun əməkdaşları şəhid ailələrini ziyarət ediblər





Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 101 illiyi və Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illik yubileyi ilə bağlı keçirilən tədbirlərin davamı olaraq mayın 24-də Naxçıvan Muxtar Respublikası Prokurorluğunun mərkəzi aparatı və tabe rayon (şəhər) prokurorluqlarının

















əməkdaşları 1-ci və 2-ci Qarabağ müharibələrində iştirak etmiş ümumilikdə 45 şəhid ailəsini ziyarət ediblər.

Ziyarət zamanı Naxçıvan Muxtar Respublikası Prokuroru Sənan Paşayev və rayon (şəhər) prokurorları şəhid ailələrinin qayğıları və problemləri ilə maraqlanıb, şücaətli, cəsur, eyni zamanda vətənpərvər övlad böyütdükləri üçün şəhid valideynlərinə minnətdarlıqlarını bildiriblər.

# Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən narkomaniyaya qarşı mübarizə ilə bağlı silsilə tədbirlər keçirilib





Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilatçılığı ilə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019–2024-cü illər üçün Dövlət Proqramı"nın icrası istiqamətində Muxtar Respublikanın ali, orta ixtisas və orta ümumtəhsil məktəblərində "Narkomaniyaya qarşı mübarizə vətəndaşlıq borcumuzdur" mövzusunda tədbirlərin keçirilməsinə başlanılmışdır.





İyun ayında keçirilən tədbirlərdə tələbə və şagirdlərə zərərli təsirləri barədə məlumat verilərək, qeyd olunub ki, "Ağ ölüm" ilə mübarizədə vətəndaşlar da əllərindən gələni əsirgəməməli, xüsusən də ictimai qınaq mexanizminin daim işlək vəziyyətdə olması üçün ciddi səy göstərməli, vətəndaşlıq mövqeyi nümayiş etdirməlidir. Sağlam düşüncəli insanlar bilirlər ki, narkomaniya cinayət, ailələrin dağılması, çarəsiz xəstəlik, ölüm və sair bu kimi digər ağır nəticələrə gedən yolun başlanğıcı olmaqla bütün cəmiyyət üçün böyük təhlükədir. Ona görə də hər bir insanın sağlamlığını və həyatını ciddi təhlükə altına alan, əxlaqi və mənəvi dəyərləri sarsıdan, insanlığa xələl gətirən, cəmiyyətin sosial-iqtisadi tərəqqisini ləngidən, narkomanlığa qarşı mübarizədə hər birimiz fəal iştirak etməli və ümumbəşəri bəlaya qarşı qətiyyətli mübarizə aparmalıyıq.

Prokurorluq əməkdaşlarının iştirakı ilə keçirilən bu tədbirlər cari ilin iyun ayında Naxçıvan Muxtar Respublikasının orta məktəblərində davam etdirilmişdir.

Tədbir çərçivəsində təşkilatçılar tərəfindən mövzu ilə bağlı çıxışlar dinlənilmiş, müzakirələr aparılmış, şagirdləri maraqlandırılan suallar cavablandırılmışdır.

# Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən korrupsiyaya qarşı mübarizə mövzusunda tədbirlər keçirilib





İyun ayının 6-da Naxçıvan Dövlət Universitetinin Texniki Kollecində Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən korrupsiyaya qarşı mübarizə mövzusunda tədbir keçirilib. Tədbiri giriş sözü ilə açan Kollecin direktoru tədbirin mahiyyəti barədə məlumat verib. Tədbirdə Muxtar Respublika Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsinin rəisi Faiq Səfərov mövzu ilə bağlı çıxış edib.

İyun ayının 14-də isə eyni tədbir Naxçıvan Müəllimlər İnstitutunda keçirilib. Tədbiri giriş sözü ilə açan İnstitutun prorektoru tədbirin mahiyyəti barədə məlumat verərək, mövzu üzrə Muxtar Respublika Prokurorluğunun şöbə rəisi Faiq Səfərov çıxış edib.

Çıxışlarda qeyd olunub ki, korrupsiya tarix boyu cəmiyyətlərin üzləşdiyi problemlərdən biri olmuşdur və bu gün də bütün dünya ölkələrində aktual problemlərdən biri olaraq qalmaqdadır. Ümumi inkişafa və təhlükəsizliyə mənfi təsir göstərən korrupsiya qanunun aliliyinə və sosial ədalətə ciddi təhlükə yaradır, iqtisadi və sosial inkişafı ləngidir, əlverişli biznes mühitinin yaranmasına mane olur. Korrupsiyaya qarşı mübarizənin davamlı olması, korrupsiyanın qarşısının alınması ilə bağlı müasir çağırışlara uyğun effektiv mexanizmlərin tətbiq edilməsi xüsusi əhəmiyyət kəsb edir. Buna görə də həm beynəlxalq, həm də milli səviyyədə korrupsiyaya qarşı mübarizədə yeni təşəbbüslərin irəli sürülməsi zəruridir və bu sahədə icra edilən tədbirlər korrupsiyaya şərait yaradan halların və korrupsiya hüquqpozmalarının səbəblərinin, növlərinin və nəticələrinin qarşısının alınmasına yönəldilir. Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022–2026-cı illəri əhatə edən bu çoxşaxəli Milli Fəaliyyət Planı fərqli fəaliyyət istiqamətləri olan müxtəlif qurumların korrupsiyaya qarşı mübarizə səylərini birləşdirməyə xidmət edir, eləcə də korrupsiyaya qarşı mübarizənin bütün dövlət strukturları və vətəndaş cəmiyyəti institutları ilə birgə sistemli və əlaqəli şəkildə gerçəkləşdirilməsinə imkan yaradır.





# Baş Prokurorluğun nümayəndəsi Qazaxıstan Respublikasının Baş Prokurorluğu yanında Hüquq-mühafizə orqanlarının Akademiyasında keçirilən konfransda iştirak edib




Aprelin 12-də Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin şöbə rəisi Nigar Qələndərli Qazaxıstan Respublikasının Baş Prokurorluğu yanında Hüquq-mühafizə orqanlarının Akademiyasının təşkil etdiyi “Müasir hüquq elminin inkişafı: nəzəriyyə və təcrübə” mövzusunda VII beynəlxalq elmi-praktik konfransda iştirak edib.




Konfransda hüquq elmi sahəsində tətbiq edilən yeni üsul və texnologiyalar, müasir çağırışlar, beynəlxalq standartların tətbiqi, eləcə də təhsil prosesində innovativ yanaşmaların müzakirəsi aparılıb.

Konfransda Nigar Qələndərli “Azərbaycan qanunvericiliyində ədalət mühakiməsi əleyhinə olan cinayətlərin təhlili” mövzusunda çıxış edib.

Konfrans çərçivəsində müxtəlif mövzular üzrə qarşılıqlı müzakirələr aparılıb, tədbirin ümumi nəticələri qiymətləndirilib.



# Cinayət aktivlərinin bərpası sahəsində beynəlxalq əməkdaşlıq davam etdirilir







Cari ilin 11-12 aprel tarixlərində Azərbaycan Respublikasının müşahidəçi qismində üzv olduğu Mərkəzi və Şərqi Asiya üzrə Aktivlərin bərpası üzrə qurumlararası şəbəkəsinin (ARİN) Avstriya Respublikasının Vyana şəhərində illik ümumi yığıncağı, həmçinin "Aktivlərin bərpası – müvafiq araşdırma və aktivlərin bərpası üzrə qurumların fəaliyyəti" mövzusunda regional treninq keçirilib.

Aktivlərin bərpasında dövlət-özəl sektor əməkdaşlığı, aktivlərin idarə edilməsi orqanlarının yaradılmasına ehtiyac olan yurisdiksiyaları dəstəkləmək məqsədi ilə bu sahədə ən yaxşı təcrübələrinin öyrənilməsi və cinayət aktivlərinin bərpasında əməkdaşlığın artırılması mövzularına həsr olunmuş tədbirdə Baş Prokurorluğun Xüsusi Müsadirə Məsələlərinin Əlaqələndirilməsi İdarəsinin prokuroru Aytəkin Əhmədova iştirak edib və qarşıya qoyulan məsələlərə münasibət bildirərək ölkəmizdə bu sahədə əldə edilmiş yenilikləri diqqətə çatdırıb.

Tədbirdə ARİN şəbəkəsinə üzv və müşahidəçi qismində qəbul edilmiş ölkələrin ümumilikdə 47 nümayəndəsi, o cümlədən şəbəkənin Karib dənizi (ARİN-CARİB), Qərbi və Mərkəzi Asiya (ARİN-WCA), Asiya Sakit Okean (ARİN-Asia Pacific) ofisinin əməkdaşları iştirak etmişlər. Tədbirdə həmçinin Birləşmiş Millətlər Təşkilatının Regionlararası Cinayət və Ədliyyə Araşdırma İnstitutu və Dünya Bankı kimi nüfuzlu beynəlxalq təşkilatların, Belçika Krallığının Həbs və müsadirə üzrə mərkəzi ofisi, Avropa Komissiyası, "Eurojust", "Europol", Avropa Prokurorluğunun əməkdaşları ekspert qismində iştirak edərək iştirakçılarla aktivlərin bərpası sahəsində öz təcrübələri ilə bölüşüblər.

Görüşlər zamanı ekspertlər gələcəkdə aktivlərin bərpası sahəsində effektiv nəticəyə nail olunması üçün təşkilata üzv dövlətlər arasında əlaqələrin sıxlaşdırılması, daha çox sorğu mübadiləsi, verilən cavabların müddətinin maksimal tezliyə çatdırılması, xüsusən maliyyə istintaqı institutunun tətbiqi, cinayət yolu ilə əldə edilmiş əmlakın dərhal dondurulması, məlumat bazalarına sürətli çıxışın təmin olunmasının vacib olduğunu bildiriblər.

Yekunda növbəti ildə müşahidəçi dövlətlərin ARİN şəbəkəsinə üzvlüyü məsələsinə baxılması və növbəti il üçün sədrliyin Türkmənistan Respublikasına keçməsi qərara alınıb.

# Baş Prokurorluğun əməkdaşları beynəlxalq vebinarda iştirak ediblər




Aprelin 24-də Beynəlxalq Prokurorlar Assosiasiyası tərəfindən "Ətraf mühit cinayətlərinin təqibi üzrə əməliyyat perspektivi" mövzusunda vebinar keçirilib. Tədbirdə həmməruzəçilər qismində Tayland, Cənubi Afrika və Argentinanın hüquq-mühafizə orqanlarının, BMT-nin Ətraf Mühit Proqramı (UNEP), həmçinin Baş Prokurorluğun əməkdaşları iştirak ediblər.

Vebinarda qeyd olunan mövzuda ətraflı müzakirələr aparılaraq, bu sahədə olan cinayətlərlə mübarizədə səylərin beynəlxalq səviyyədə birləşdirilməsinin zəruriliyi vurğulanıb.

# UNODC-nin Mərkəzi Asiya və Cənubi Qafqaz Şəbəkəsi (CASC) ilə əməkdaşlıq uğurla davam etdirilir

Ölkəmiz sülh və təhlükəsizliyə dair tematik məsələlərin təşviq edilməsi üçün Birləşmiş Millətlər Təşkilatının aidiyyəti qurumları, o cümlədən terrorçuluğa, mütəşəkkil cinayətkarlığa, narkotik vasitələrin yayılmasına qarşı mübarizə və digər müvafiq sahələrdə həmin təşkilatın Narkotiklər və Cinayətkarlığa qarşı Mübarizə Ofisi (UNODC) ilə səmərəli əməkdaşlıq edir.




May ayının 2-si və 3-də Qazaxıstan Respublikasının paytaxtı Astana şəhərində UNODC-nin Mərkəzi Asiya və Cənubi Qafqaz Şəbəkəsinin (CASC) 10 illik yubiley plenar görüşü baş tutub. CASC şəbəkəsinin plenar iclasları ona üzv olan dövlətlərin səlahiyyətli orqanları arasında qarşılıqlı əlaqə kanallarının yaradılması üçün mühüm vasitə olmaqla Mərkəzi Asiya və Cənubi Qafqazda regional cinayətkarlıqla mübarizə çərçivəsində qarşılıqlı hüquqi yardım və ekstradisiya məsələlərinin həllinə yönəlib.



Plenar iclasda Azərbaycan Respublikasının Baş Prokurorluğunu Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin prokuroru Nigar Yahyazadə təmsil edərək, cinayətkarlıqla mübarizə sahəsində milli mərkəzi orqanların rolu və əhəmiyyətinə dair həsr olunmuş sessiyasında çıxış edib.

# ABŞ-nin nüfuzlu Vaşinqton Universitetinin nümayəndə heyəti Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin fəaliyyəti ilə tanış olub



Baş Prokurorluğun Elm-Tədris Mərkəzi ilə ölkəmizin aparıcı ali təhsil müəssisələri arasında əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsi istiqamətində tədbirlər davam etdirilir.

"ADA" Universiteti və Baş Prokurorluğun Elm-Tədris Mərkəzi arasında 12 may 2022-ci il tarixdə imzalanmış birgə əməkdaşlıq haqqında memorandum tələbələrin prokurorluq orqanlarında təcrübə keçməsi, birgə elmi konfransların, dəyirmi masaların və görüşlərin keçirilməsi, hüquq tətbiqi fəaliyyətdə daha çox rast gəlinən problemlərin həlli məqsədilə birgə elmi-praktiki araşdırmaların aparılması və sair məsələlər üzrə geniş və səmərəli əməkdaşlığı əhatə edir.

Mayın 8-də "ADA" Universiteti ilə tərəfdaş münasibətləri olan ABŞ-nin nüfuzlu Vaşinqton Universitetinin professor və müəllimlərinin daxil olduğu geniş nümayəndə heyəti, habelə "ADA" Universitetinin nümayəndələri Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin fəaliyyəti ilə yaxından tanış olmaq məqsədilə Mərkəzi ziyarət etmişlər.










İlkin olaraq qonaqlar Baş Prokurorluğun inzibati binalar kompleksi, o cümlədən Vətən müharibəsinə həsr olunmuş tarixi-memorial qalereya, mühazirə, praktiki məşğələlər və iclas zalları, kitabxana, kriminalistika və istintaq otaqları ilə tanış olmuşlar.

Daha sonra qonaqlar üçün Elm-Tədris Mərkəzinin şöbə rəisi Əmir Ocaqverdiyev, böyük prokuroru Nigar Əskərova və baş məsləhətçisi İlkanə Qasımova tərəfindən “Prokurorluq orqanlarının strukturu və fəaliyyət istiqamətləri”, “Azərbaycanda prokurorların peşə hazırlığı” və “Prokurorluq orqanlarında dövlət qulluqçularının statusu və fəaliyyət prinsipləri” mövzularında ingilis dilində təqdimatlar edilmişdir.

Daha sonra qonaqları maraqlandıran mövzular üzrə faydalı fikir mübadiləsi aparılmışdır.

## Xarici dövlətlərin hüquq-mühafizə orqanları ilə əməkdaşlıq uğurla davam etdirilir



Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin Baş Prokurorluqları arasında əməkdaşlığın və məlumat mübadiləsinin gücləndirilməsi məqsədilə 6-10 may tarixlərində Türkiyə Respublikasının Ali Məhkəməsinin Baş Prokurorluğu tərəfindən Antalya şəhərində “İnsan hüquqlarının pozulması ilə bağlı araşdırmalarda prokurorların rolu” mövzusunda seminar təşkil edilib.

Tədbirdə Azərbaycan, Qırğızıstan, Özbəkistan və Şimali Kipr Türk Respublikasının Baş Prokurorluqlarından nümayəndə












heyətləri iştirak ediblər. Azərbaycan nümayəndə heyətini Azərbaycan Respublikasının Baş Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin rəis müavini Günay Əyyubovanın rəhbərliyi ilə Hacıqabul rayon prokuroru Lalə Hüseynova, Hərbi Prokurorluğun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsinin rəisi Səməd Əliyev, Baş Prokurorluğun Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin prokuroru Babək Əliyev və Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət şöbəsinin prokuroru Gürsel Novruzlu təmsil ediblər.

Seminarda sülh və insanlıq əleyhinə, insan alveri cinayətləri ilə mübarizə, həmçinin Beynəlxalq Cinayət Məhkəməsinin fəaliyyəti ilə bağlı çıxışlar dinlənilib, bu sahədə əməkdaşlıq mexanizmlərinin inkişafı üzrə müzakirə aparılıb.

Tədbirdə Günay Əyyubova "İnsan hüquqları və azadlıqlarının səmərəli təmin edilməsinə müasir yanaşma" mövzusunda çıxış edərək, Azərbaycanda və Azərbaycan Respublikasının Baş Prokurorluğunda insan hüquq və azadlıqlarının müdafiəsi üzrə tətbiq olunan müasir yanaşmalar və görülən mütərəqqi yeniliklər barədə ətraflı məlumat verib.

Tədbirin yekununda iştirakçılara Türkiyə Respublikasının Ali Məhkəməsi Baş Prokurorluğunun xüsusi sertifikatları təqdim olunub.

## Azərbaycan Respublikası Baş Prokurorluğunun nümayəndə heyəti beynəlxalq forumda iştirak edib

Cari il mayın 14-dən başlayaraq Rusiya Federasiyasının Tatarıstan Respublikasının Kazan şəhərində "Rusiya-İslam dünyası: KazanForum 2024" XV Beynəlxalq İqtisadi Forumu keçirilir.

Forumda Azərbaycan Respublikası Baş prokurorunun müavini Heydər Məmmədovun rəhbərlik etdiyi Baş Prokurorluğun idarə rəisinin müavini - şöbə rəisi Anar Nəsibov və idarə prokuroru Murad Bayramlıdan ibarət nümayəndə heyəti iştirak edib.














Rusiya Federasiyasının Tatarıstan Respublikasının rəisi Rüstəm Minnixanov, Rusiya, Qazaxıstan, Səudiyyə Ərəbistanı Krallığının Baş prokurorlarının müavinləri və digər mötəbər qonaqların iştirak etdiyi forumun "İqtisadi təhlükəsizliyin təminatları və İslam dünyası ilə işgüzar kommunikasiyaların genişləndirilməsi şəraitində təhlükələrin qarşısının alınması" mövzusunda sessiyasında Baş prokurorun müavini Heydər Məmmədov çıxış edib.

Baş prokurorun müavini Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sahibkarların hüquqlarının qorunması və əlverişli investisiya mühitinin yaradılması istiqamətində aparılan hüquqi islahatların müsbət nəticələri barədə tədbir iştirakçılarına ətraflı məlumat verib.

Həmçinin, iqtisadi təhdidlərin qarşısının alınması və korrupsiya ilə mübarizə sahəsində prokurorluğun struktur qurumlarının rolundan bəhs edən Heydər Məmmədov görülən tədbirlərin sahibkarlığın inkişafına müsbət təsir göstərdiyini xüsusilə vurğulayıb.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycanın ərazi bütövlüyünün tam şəkildə bərpa olunduğunu bildirən Baş prokurorun müavini, dövlət başçısı və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə Qarabağda sürətli bərpa və quruculuq işlərinin aparılması, investisiyaların cəlb edilməsi üçün yaradılan şərait və "yaşıl enerji" zonalarının yaradılması barədə danışıb.

Səfər çərçivəsində Rusiya Federasiyası Baş prokurorunun müavini Pyotr Qorodovun rəhbərlik etdiyi nümayəndə heyəti, eləcə də Qazaxıstan və Səudiyyə Ərəbistanı Krallığının Baş Prokurorluqlarının heyətləri ilə ikitərəfli görüşlər keçirilib.

Görüşlər zamanı dünyanın ən mötəbər beynəlxalq tədbirlərindən biri olan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un ölkəmizdə keçiriləcəyi barədə həmkarlara məlumat verilib.

Həmçinin, vətəndaşların təhlükəsizliyinin təmin edilməsi, onların hüquq və azadlıqlarının qorunması, habelə qarşılıqlı maraq doğuran digər məsələlərə dair faydalı fikir mübadiləsi aparılıb.

## Baş Prokurorluqda BMT-nin nümayəndəsi ilə görüş keçirilib








Mayın 17-də Baş Prokurorluqda Birləşmiş Millətlər Təşkilatının Regionlararası Cinayət və Ədalət üzrə Tədqiqat Mərkəzinin (UNICRI) regional əlaqələndiricisi Talqat Toleubayev ilə görüş keçirilib.

Baş Prokurorluğun Təşkilat və icraya nəzarət idarəsinin rəisi Tural Aslanov qonağı salamlayaraq ölkə rəhbərliyi tərəfindən Azərbaycanda 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edildiyi və BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29-un bu il Bakıda keçiriləcəyi barədə məlumat verib.

Görüş zamanı Talqat Talubayev qəbula görə minnətdarlığını bildirərək, Radioloji və Nüvə Cinayətləri üzrə Prokurorun Bələdçisi təlimat kitabçasının təqdimatını keçirib, həmçinin prokurorluq və digər hüquq-mühafizə orqanlarının əməkdaşlarının peşəkarlığının artırılması istiqamətində təlimlərin keçirilməsi ilə bağlı pilot layihəyə ölkəmizin qoşulmasını təklif edib.

Tərəflər arasında layihənin həyata keçirilməsi ilə bağlı faydalı fikir mübadiləsi aparılıb.

## Prokurorluğun nümayəndəsi BMT-nin Cinayətkarlığın Qarşısının Alınması və Cinayət Ədliyyəsi Komissiyasının 33-cü sessiyasında iştirak edib



Cari ilin 13-17 may tarixlərində Avstriyanın Vyana şəhərində BMT-nin Cinayətkarlığın Qarşısının Alınması və Cinayət Ədliyyəsi Komissiyasının 33-cü sessiyası keçirilib.

Sessiyada Azərbaycan Respublikasının Baş Prokurorluğunu Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin prokuroru Orxan Yusubov təmsil edib.

Tədbirdə Cinayətkarlığın Qarşısının Alınması və Cinayət Ədliyyəsi Komissiyasının fəaliyyət sisteminin təkmilləşdirilməsi istiqamətləri; qarşılıqlı hüquqi yardım və ekstradisiya məsələləri üzrə beynəlxalq əməkdaşlıq praktikasının inkişaf etdirilməsi; Cinayətkarlığın Qarşısının Alınması və Cinayət Ədliyyəsi üzrə 14-cü BMT Konqresinin nəticələrinin müzakirəsi və Cinayətkarlığın Qarşısının Alınması və Cinayət Ədliyyəsi üzrə 15-ci BMT Konqresinə hazırlıq məsələləri; cinayətlərin

dinamikası və dünyadakı yeni cinayət trendlərinə qarşı mübarizə vasitələri; dövlətlərarası tərəfdaşlıq zamanı meydana gələn çətinliklərin aradan qaldırılması mövzuları ilə bağlı çıxışlar edilmiş və fikir mübadiləsi aparılmışdır.






Sessiya zamanı Orxan Yusubov tərəfindən Cinayətkarlığın Qarşısının Alınması və Cinayət Ədliyyəsi Komissiyasının 33-cü sessiyasının gündəliyində yer alan məsələlərdən ümumi debat çıxışları edilib, Azərbaycan Respublikasının cinayətkarlığa qarşı mübarizədə göstərdiyi səylər, BMT-nin cinayətkarlığa qarşı mübarizə üzrə hüquqi sənədlərinin ölkədə tətbiq olunma səviyyəsi, son illər Azərbaycan Respublikasının qarşılaşdığı çətinliklər istiqamətində məlumatlar verilib, yeni cinayət trendləri başlığı altında cinayətkarlar tərəfindən müasir vasitələr kimi yüksək texnologiyalar, süni intellekt, humanitar təşkilatlara yardım adı altında terrorçuluğun maliyyələşdirilməsi hallarının qarşısının alınması üzrə ölkə praktikası sessiya iştirakçılarına çatdırılıb.

## "Emosional-Psixoloji maarifləndirmə" sorğu layihəsi çərçivəsində tədbir keçirilib





Baş Prokurorluğun, Azərbaycan Respublikasının Gənclər Fondu, "Gənclərin İnkişafı" İctimai Birliyi və "UNİCEF"-in birgə təşkilatçılığı ilə "Emosional-Psixoloji maarifləndimə" sorğu layihəsi çərçivəsində tədbir keçirilib.



May ayının 21-də keçirilən tədbirdə Baş Prokurorluğun idarə prokuroru Nail Əliyev, Gənclər Fondunun məsul şəxsləri"UNİCEF"-in, "Gənclərin İnkişafı" İB-nin nümayəndələri və 15 nəfərdən ibarət gənc psixoloq mütəxəssislər iştirak edib.

Tədbir zamanı Baş Prokurorluq tərəfindən intihar hadisələri üzrə aparılan təhlillərə dair statistik məlumatlar iştirakçıların diqqətinə çatdırılıb.

Bildirilib ki, ölkə ərazisində intihar və intihara cəhd edilməsi hadisələrinin təhlilləri aparılıb, neqativ halların aradan qaldırılması məqsədilə dövlət qurumlarının birgə fəaliyyəti davam etdirilir.

Birgə qabaqlayıcı tədbirlərin görülməsinin əhəmiyyəti vurğulanaraq, qeyri-hökumət təşkilatları və medianın səyləri və imkanlarının birləşdirilməsinin zəruri olduğu nəzərə çatdırılıb.

# Baş Prokurorluğun əməkdaşı Səmərqənd şəhərində keçirilmiş beynəlxalq təlimdə iştirak edib





Cari ilin 22-24 may tarixlərində Özbəkistanın Səmərqənd şəhərində BMT-nin Narkotiklər və Cinayətkarlığa qarşı Mübarizə İdarəsi (UNODC) tərəfindən "Mütəşəkkil cinayətkarlığın qarşısının alınması və onunla mübarizədə gender və insan hüquqları faktorunun nəzərə alınması" mövzusunda tədbir keçirilib.

Tədbirdə Azərbaycan Respublikasının Baş Prokurorluğunu Hüquqi təminat və insan hüquqları idarəsinin prokuroru Tural Mürsəlov təmsil edib.

Tədbirdə beynəlxalq, hökümət və qeyri-hökümət təşkilatlarının ekspertlərinin iştirakı ilə mütəşəkkil cinayətkarlığa qarşı mübarizə sahəsində qanunvericilik və strateji bazanın genişləndirilməsi, BMT-nin "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı" Konvensiyasının Tərəflər Konfransının 11/2 nömrəli Qətnaməsinin həyata keçirilməsini dəstəkləmək məqsədilə ölkələrin gender və insan hüquqları aspektlərinin öz qanunvericiliklərində, proqramlarında, təşəbbüslərində əsas götürülməsi məsələləri müzakirə edilmişdir.





Tədbir zamanı Tural Mürsəlov tərəfindən Azərbaycan Respublikasının cinayət və cinayət-prosessual qanunvericiliyində gender və insan hüquqları aspektlərinin xüsusiyyətləri, Azərbaycan Respublikasının mütəşəkkil cinayətkarlıq, gender əsaslı cinayətlər sahəsində səyləri tədbir iştirakçılarının nəzərinə çatdırılıb, tədbirin gündəliyində yer alan məsələlər barəsində çıxışlar edilib.

## Baş Prokurorluğun əməkdaşı BMT tərəfindən təşkil olunan tədbirdə iştirak edib





Vyana şəhərində cari ilin 3-4 iyun tarixlərində BMT-nin Transmilli Mütəşəkkil Cinayətkarlığa qarşı Konvensiyasının (UNTOC) İştirakçılar Konfransının Texniki dəstək üzrə hökumət ekspertlərinin işçi qrupunun 15-ci sessiyası, 5-6 iyun tarixlərində Beynəlxalq əməkdaşlıq üzrə işçi qrupunun 15-ci sessiyası, 7 iyun tarixində isə sözügedən işçi qruplarının birgə konstruktiv dialoqu keçirilib.

Tədbirdə ətraf mühitə təsir edən cinayətlərin kriminallaşdırılması, mütəşəkkil dələduzluq, cinayətkarlıq məsələləri üzrə beynəlxalq əməkdaşlıqda texnologiyaların rolu və təsiri, ekstradisiya prosesində yaranan çətinliklərlə bağlı hüquqi və praktiki məsələlər mövzuları üzrə çıxışlar edilib və fikir mübadiləsi aparılıb.

Sessiyalarda və konstruktiv dialoqda Azərbaycan Respublikasının Baş Prokurorluğunu Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin prokuroru vəzifəsini icra edən Fuad Hüseynov təmsil edib.

Sessiyalar zamanı Fuad Hüseynov çıxış edərək ölkəmiz tərəfindən ekoloji cinayətlərlə mübarizə sahəsində görülən tədbirlər, o cümlədən ərazilərimizin işğaldan azad olunması ilə həmin ərazilərdə işğal dövründə törədilən ekoloji cinayətlərə son qoyulması, həmçinin ölkəmizdə cinayət prosesində istifadə olunan informasiya kommunikasiya texnologiyalarının, o cümlədən elektron prokurorluq informasiya sisteminin üstünlükləri barədə məlumat vermişdir.

Hər iki sessiyanın nəticəsində ölkəmizin mövqeyi nəzərə alınmaqla Konvensiya İştirakçılarının Konfransına təqdim ediləcək tövsiyələr qəbul edilmişdir.

## Azərbaycan və Rusiya prokurorluqları arasında hüquqi əməkdaşlıq genişlənir





Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev və Rusiya Federasiyasının Baş prokuroru İqor Krasnov arasında imzalanmış 2024-2025-ci illər üçün Əməkdaşlıq Proqramının icrası ilə bağlı iyunun 18-də Moskva şəhərində "Əhalinin sosial cəhətdən həssas kateqoriyalarının müdafiəsi" mövzusunda seminar və beynəlxalq məsələlərə məsul struktur qurum rəhbərlərinin ikitərəfli görüşü keçirilib.

Görüşdə Azərbaycan Prokurorluğunu Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin rəisi Erkin Əlixanovun rəhbərlik etdiyi və tərkibinə həmin idarənin prokuroru Nigar Yəhyazadə, Dövlət ittihamının müdafiəsi üzrə idarənin böyük prokuroru Emil Mirzəyev və Cinayət təqibindən kənar icraatlar idarəsinin prokuroru Hikmət Verdiyevdən ibarət nümayəndə heyəti təmsil edib. Qeyd olunan mövzu üzrə çıxışlar edilib və bu sahədə həyata keçirilən islahatlar barədə ətraflı məlumat verilib.

Cinayət işləri üzrə hüquqi yardım və ekstradisiya sahələrində əməkdaşlıq məsələlərinin müzakirəsi məqsədi ilə beynəlxalq struktur qurumların rəhbərləri arasında görüş keçirilərək tərəfləri maraqlandıran məsələlər ətrafında faydalı fikir mübadiləsi aparılıb.

# Azərbaycan Prokurorluğu nüfuzlu beynəlxalq təşkilat və xarici ölkələrin səlahiyyətli qurumları ilə qarşılıqlı əməkdaşlıq əlaqələrini davam etdirir





Prokurorluq əməkdaşlarının beynəlxalq təcrübəni öyrənməklə peşə hazırlığının yüksəldilməsi istiqamətində işlər daim diqqət mərkəzində saxlanılır.

Bu məqsədlə prokurorluq əməkdaşlarının təlim kurslarında, o cümlədən beynəlxalq tədbirlərdə iştirakı təmin olunur.

Cari ilin 08-20 iyun tarixlərində Koreya Respublikasının paytaxtı Seul şəhərində həmin ölkənin Korrupsiyaya qarşı mübarizə və Vətəndaş Hüquqları Komissiyası (ACRC) tərəfindən Azərbaycan, Özbəkistan və Tacikistan respublikalarının hüquq mühafizə orqanlarının əməkdaşları üçün korrupsiyaya qarşı mübarizə sahəsində təlim təşkil edilib.

Tədbirdə ölkəmizi Baş Prokurorluğun Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin prokuroru Murad Bayramlı, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin prokuroru Kamil Kamilli, Bakı Apelyasiya Məhkəməsinin hakimi Səməd Cəfərov, Məhkəmə-Hüquq Şurasının əməkdaşları Arzu Məmmədov və Seymur Həmidovdan ibarət nümayəndə heyəti təmsil edib.

Korrupsiyaya qarşı mübarizə siyasətinin həyata keçirilməsi, müvafiq sahədə maraqlar toqquşması hallarının qarşısının alınması, məlumatverən şəxslərin müdafiəsinin təmin edilməsi, bu qəbildən olan cinayət işlərinin istintaqının xarakterik xüsusiyyətləri, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına qarşı effektiv mübarizə, aktivlərin bərpası və idarə olunması, korrupsiyaya qarşı mübarizə sahəsində hüquqi yardım və ekstradisiya mövzularında qarşılıqlı müzakirələr keçirilib.

Tədbir çərçivəsində nümayəndə heyətini qəbul edən Komissiyanın sədri cənab Yu Çul Van seminarın qarşılıqlı münasibətlərin inkişafında vacib rol oynadığını qeyd edərək, korrupsiyaya qarşı mübarizədə əməkdaşlığın genişlənməsinin və birgə səylər göstərilməsinin əhəmiyyətini vurğulayıb.

Heyət tərəfindən ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində görülmüş işlər, bu sahədə mövcud müsbət təcrübə və əldə olunmuş nailiyyətlər barədə tədbir iştirakçılarına ətraflı məlumat verilib.

Tədbirin sonunda təlimi uğurlu şəkildə başa vurmuş Azərbaycan Respublikasının nümayəndə heyətinin üzvləri müvafiq sertifikatlarla mükafatlandırılıb.






# Prokurorluq əməkdaşı ətraf mühitin qorunması ilə bağlı beynəlxalq tədbirdə iştirak edib









Cari ilin 26 iyun tarixində BMT-nin ABŞ-nin Nyu-York şəhərində yerləşən mənzil qərargahında Azərbaycan Respublikası və Birləşmiş Ərəb Əmirliklərinin birgə təşkilatçılığı ilə “İqlim mühafizəsi üzrə Hüquq Mühafizə Orqanlarının Beynəlxalq Təşəbbüsü (I2LEC)” platforması tərəfindən “Ətraf mühitin qorunması üzrə beynəlxalq strategiyalar” adlı tədbir təşkil edilib.

Tədbirin məqsədi ətraf mühitin mühafizəsi fəaliyyətində hüquq-mühafizə orqanlarının iştirakının gücləndirilməsi ilə bağlı panel müzakirələrin aparılması olub.

BMT-nin Baş katibinin müavini Jean-Pierre Lacroix, BMT Baş katibinin köməkçisi Alexandr Zoyev, BMT-nin Narkotiklər və Cinayətkarlığa qarşı Mübarizə İdarəsinin (UNODC) və Beynəlxalq Polis Təşkilatının (İNTERPOL) nümayəndələrinin, müxtəlif ölkələrin nümayəndə heyətlərinin 60-dan çox üzvünün qatıldığı tədbirdə Azərbaycan Prokurorluğunu Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Preventiv tədbirlər və təhqiqat idarəsinin rəisi Səbuhi Alıyev təmsil edib.

Açılış nitqi ilə çıxış edən Səbuhi Alıyev ölkəmizin bu il BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-a ev sahibliyi edəcəyini, bunun Azərbaycanın yürütdüyü sülhün və təhlükəsizliyin təşviqinə yönəlmiş qlobal həmrəylik siyasətinə beynəlxalq aləm tərəfindən göstərilən diqqətin nümunəsi olduğunu, ərazilərinin böyük bir hissəsinin 30 illik işğalı dövründə ekoloji terrora məruz qalmış bir ölkə kimi Azərbaycanın ətraf mühitin qorunmasına və iqlim dəyişikliklərinin mənfi təsirlərinə xüsusi həssaslıqla yanaşdığını bildirib.

Bundan sonra keçirilmiş panel müzakirələrdə çıxış edən nümayəndəmiz ekoloji cinayətlərin aşkara çıxarılması, istintaqı və qarşısının alınmasında təcrübədə mövcud olan çətinliklər və onların həlli yollarına dair fikirlər səsləndirib.

# Prokurorluğun Mətbuat xidmətinin məlumatları

**#hüquqimaarifləmə #ailəhüququ – Məişət zəminində psixi zorakılıq hansı əməllərlə ifadə olunur? (2)**




16.04.2024

Məişət zəminində psixi zorakılıq dedikdə, bir yerdə yaşadığı ailə üzvü, yaxın qohumu, qanuni nikahda olmadığı və ya əvvəllər birgə yaşadığı şəxs tərəfindən psixi təzyiq göstərmə və ya dözülməz psixi şərait yaradılmasına yönəlmiş hərəkətlər başa düşülür.

Bu kateqoriyadan olan zorakılıq aktları qəsdən törədilir və bu hərəkətlərə yol verən şəxslərin məqsədi öz qurbanlarını alçaltmaq və ya qorxu aşılamaq, manipulyasiya etmək, onların üzərində güc və ya nəzarət göstərmək, psixi vəziyyətini idarə etmək və s. ibarət olur.

Nəzərə almaq lazımdır ki, psixi zorakılıq birbaşa sözlərdən istifadə etməklə yanaşı qurbanı qorxutmaq, idarə etmək və ya hədələmək üçün qorxuducu üz ifadələri, jestlər və ya bədən dilindən istifadə etməklə də törədilə bilər.

Məişət zorakılığında bəzi ümumi psixi zorakılıq hərəkətlərinə bunları misal göstərmək olar:

1. Şəxsi kobud və ya sözlərlə alçaltmaq, onun özünə hörmət hissi (ləyaqət) və başqalarının verdiyi dəyəri (şərəf) sarsıtmaq üçün daimi tənqid, istehza və ya digər bu kimi ifadələrdən istifadə etməklə təhqir etmək;

2. Faktları inkar etmək və ya təhrif etməklə şəxsin reallıq qavrayışını manipulyasiya etmək, onun yaddaşı, qavrayışı və ya ağlına şübhə ilə yanaşmaqla şəxsdə özünə şübhə və qeyri-reallıq hissini aşılamaq, bacarıqlarını inkar etməklə qurbanda acizlik hissi yaratmaq;

3. Qorxu və nəzarəti aşılamaq üçün şəxsin özünə və ya onun yaxınlarına zərər vurmaq, zorakılıq etmək və ya qisas almaqla hədələmək. Bu, əsasən əmlakın, şəxsi əşyaların məhv edilməsi, müxtəlif şayiələr və ya yalanların yayılması ilə təhdid etməkdə özünü göstərir. Həmçinin, hədə-qorxu qurbanın inancları, dəyərləri və ya istəklərinə zidd olan müxtəlif tələb və ya istəkləri yerinə yetirməyə məcbur etməklə bağlı ola bilər;

4. Şəxsin sosial qarşılıqlı əlaqələrinə, münasibətlərinə və fəaliyyətlərinə nəzarət etmək və ya məhdudlaşdırmaq. Bu, əsasən qurbanın dostları və ya ailəsi ilə görüşməsinə mane olmaq, onlarla ünsiyyətinə nəzarət etmək və ya davranışlarına ciddi qaydalar yaxud qadağalar tətbiq etməkdən, o cümlədən telefon zəngləri, e-poçtlar və ya sosial media hesablarına həddindən artıq nəzarət etmək, onların yerini izləmək və ya gündəlik iş rejimi və fəaliyyətini mütəmadi olaraq diktə etməkdən ibarət ola bilər;

5. Qurbanı istər şəxsi münasibətlərdə, istərsə də başqalarının gözü qarşısında utandırmaq və ya alçaltmaq. Bu, şəxsin ifadə etdiyi fikirlərə alçaldıcı şərhlər vermək, qurbanın görünüşünü və ya bacarıqlarını ələ salmaq və ya razılığı olmadan şəxsi məlumatları ifşa etməkdə ifadə oluna bilər;

6. Qəsdən şəxsi müxtəlif dəstək və ya yardım mənbələrindən təcrid etmək. Bu, şəxsin öz yaxınlarından, ailə üzvlərindən kömək istəməsinə maneələr yaratmaq, onu psixi cəhətdən qeyri-sabit biri kimi və ya etibarsız fərd kimi göstərməkdə ifadə oluna bilər;

7. Şəxsin emosional ehtiyaclarına, hisslərinə və ya narahatlıqlarına məhəl qoymamaq, ona laqeyd yanaşmaq, anlayış göstərməmək, qərəzli davranmaq (empatiya) yaxud dəstək verməkdən imtina etmək. Bu hərəkətlər qurbanda emosional boşluq, tənhalıq və laqeydlik hissi əmələ gəlməsi ilə nəticələnir;

8. Həmçinin, şəxsə cəza və ya nəzarət forması kimi sevgi yaxud hörmət göstərməmək, emosional dəstək verməmək, qurbanın emosional ehtiyaclarına məhəl qoymamaq, səssiz rəftar etmək və ya sevgi və yaxınlıqdan məhrum olmaqdan ibarət ola bilər;

9. Şəxsin təqsiri və ya günahı olmasa belə, mütəmadi olaraq hər hansı vəziyyət və ya xoşagəlməz nəticələr görə onu ittiham etmək, günahlandırmaq, ona qarşı qərəzli və yalan ittihamlar irəli sürmək;

10. Görünüşlər və ya jestlər vasitəsilə qorxutma: birbaşa sözlərdən istifadə etmədən qurbanı qorxutmaq, idarə etmək və ya hədələmək üçün qorxuducu üz ifadələri, jestlər və ya bədən dilindən istifadə etmək. Bu, qurbanda qorxu və narahatlıq hissi yarada bilər.




**Əmək hüquqlarının pozulması hallarına qarşı mübarizə tədbirləri davam etdirilir**

23.04.2024

"Enerji Construction" Qapalı Səhmdar Cəmiyyəti tərəfindən işçilərin əmək hüquqlarının pozulması barədə daxil olmuş vətəndaş müraciəti əsasında Tovuz rayon prokurorluğunda araşdırma aparılıb.

Araşdırma zamanı qeyd olunan hüquqi şəxs tərəfindən əmək qaunvericiliyində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi hüquqi qüvvəyə minmədən bir neçə şəxsin rayon ərazisində aparılan inşaat zamanı işlərin yerinə yetirilməsinə cəlb edilməsi müəyyən edilib.

Faktla bağlı Tovuz rayon prokurorluğunda QSC barəsində İnzibati Xətalar Məcəlləsinin 192.1-ci (əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi) maddəsi ilə inzibati xəta haqqında iş üzrə icraat başlanaraq baxılması üçün aidiyyəti üzrə məhkəməyə göndərilib, məhkəmənin qərarı ilə hüquqi şəxs 20 min manat məbləğində inzibati cərimə edilib.

Eyni zamanda Cəmiyyətin vəzifəli şəxsi Eldəniz Dadaşov barəsində həmin məcəllənin eyni maddəsilə inzibati xəta haqqında iş üzrə icraat başlanaraq baxılması üçün aidiyyəti üzrə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin Qazax-Tovuz regional şöbəsinə göndərilib, vəzifəli şəxs müvafiq qərarla 3 min 500 manat məbləğində inzibati cərimə edilib.

**#hüquqimaariflənmə #məişətzorakılığı #ailəhüququ – Uzunmüddətli mühafizə orderi**

23.04.2024

Məişət zorakılığı (fiziki, psixi, cinsi, iqtisadi xarakterli) törətmiş şəxsin zərər çəkmiş şəxsə qarşı edə biləcəyi hərəkətlərə müəyyən məhdudiyyətlər tətbiq oluna bilər. Bu məhdudiyyətlərin əks olunduğu sənəd (akt) mühafizə orderi adlanır.




Məişət zorakılığından zərər çəkmiş şəxsə qısamüddətli və ya uzunmüddətli mühafizə orderi verilə bilər.

Uzunmüddətli mühafizə orderində məişət zorakılığını törətmiş şəxsə aşağıdakılar qadağan edilə bilər:

1. məişət zorakılığını törətmiş şəxsin yetkinlik yaşına çatmamış uşaqları ilə ünsiyyət qaydaları;

2. yaşayış sahəsindən və ya birgə əmlakdan istifadə qaydalarının müəyyən edilməsi;

3. zərər çəkmiş şəxsə tibbi və hüquqi yardımın göstərilməsi ilə bağlı xərclərin məişət zorakılığını törətmiş şəxs tərəfindən ödənilməsi şərtləri;

4. mühafizə orderinin tələblərini icra etməyən şəxsin qanunvericiliyə uyğun olaraq məsuliyyətə cəlb olunmasının izah edilməsi haqqında məlumat.

Uzunmüddətli mühafizə orderi 60 gündən 180 gün müddətinə verilir.

Tərəflərin şəxsi və ailə həyatı sirrinin yayılmasının qarşısını almaq, habelə yetkinlik yaşına çatmamış şəxslərin maraqlarının təmin edilməsi məqsədi ilə uzunmüddətli mühafizə orderinin verilməsi barədə işə qanunvericiliklə müəyyən edilmiş qaydada qapalı məhkəmə iclasında baxıla bilər.

Uzunmüddətli mühafizə orderinin verilməsi barədə məhkəmə qərarı dərhal icraya yönəldilir və həmin vaxtdan uzunmüddətli mühafizə orderinin müddəti hesablanır.

Uzunmüddətli mühafizə orderinin verilməsi barədə qərardan şikayət verilə bilər. Yuxarı instansiya məhkəməsinə şikayətin verilməsi mühafizə orderi üzrə qərarın icrasını dayandırmır.

Uzunmüddətli mühafizə orderinin surəti onun çıxarıldığı gün tərəflərə verilməlidir.

**Azərbaycan Respublikasının Baş Prokurorluğu və Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının birgə məlumatı: Xocalı rayonunda insan qalıqları aşkar edilib**




25.04.2024

Aprel ayının 24-də işğaldan azad edilmiş Xocalı rayonunun Malıbəyli kəndi ərazisində insan qalıqlarının aşkar olunması barədə məlumat daxil olmuşdur.

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında (Dövlət Komissiyası) təmsil olunan qurumların, o cümlədən Baş Prokurorluq, Dövlət Komissiyasının İşçi qrupu, Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi, Fövqəladə Hallar Nazirliyi, ANAMA və Milli Elmlər Akademiyasının Arxeologiya və Antropologiya İnstitunun peşəkar mütəxəssis heyəti dərhal əraziyə ezam edilmişdir.





İlkin araşdırma zamanı məlum olmuşdur ki, işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq və abadlıq işləri zamanı Xocalı rayonunun Malıbəyli kəndi ərazisində (1988-ci ildə yeni salınmış “Məhəllə” adlanan ərazi) torpaq səthi üzərində insan qalıqları aşkar olunmuşdur.

Keçirilən baxış istintaq hərəkəti zamanı qazıntı işləri aparılarkən ən azı 6 nəfərə aid olduğu ehtimal edilən sümük fraqmentləri aşkar edilmişdir.

Hazırda ərazidə olan insan qalıqlarının tam aşkar edilməsi istiqamətində işlər davam etdirilməklə, sümük fraqmentləri üzrə zərərçəkmişlərin şəxsiyyətinin, onların torpaqda qalma müddətinin müəyyən edilməsi məqsədilə məhkəmə-tibb ekspertləri və mütəxəssislərin iştirakı ilə baxış davam etdirilir, eləcə də digər zəruri prosessual hərəkətlər icra edilir.

Faktla bağlı Baş Prokurorluğun Kriminalistika və informasiya texnologiyaları idarəsində araşdırma aparılır. Nəticəsi barədə ictimaiyyətə əlavə məlumatın verilməsi təmin ediləcəkdir.

**#hüquqimaarifləndirmə - Satınalma komissiyalarına münasibətdə xarakterik korrupsiya hüquqpozmaları hansılardır? (6)**




08.05.2024

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən aparılmış təhlillərə əsasən, dövlət satınalmaları sahəsində tender komissiyasının üzvləri tərəfindən rüşvət alınması müqabilində eyni şirkətin və ya eyni şəxsə məxsus olan şirkətin mütəmadi olaraq qalib elan edilməsi, prosedurun sonunda tərtib edilmiş qərar və ya protokolda imzaların saxtalaşdırılması, təchizatçılarla qohumluq və ya digər əlaqələrinin mövcudluğunun gizlədilməsi, qeyri-qanuni sövdələşmələr nəticəsində azad rəqabət mühitinin məhdudlaşdırılması və digər növ korrupsiya hüquqpozamalarına daha çox rast gəlinir.

Bundan başqa, bəzi hallarda “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müvafiq işlərin görülməsi üçün müvafiq olaraq tender və ya kotirovkaların keçirilməsi tələb olunduğu halda saxta sənədlərin tərtib edilməsi yolu ilə guya tenderin keçirilərək hər hansı şirkətin satınalma komissiyası tərəfindən həmin tenderdə qalib olması və ya qeyd edildiyi kimi zəruri prosedur qaydalarına riayət edilmədən görüntü yaratmaq məqsədilə saxta tenderlərin təşkil edilərək cinayətkar məqsədlərə nail olunması halları aşkar edilmişdir.

Sadalananlarla yanaşı, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən aparılmış ibtidai araşdırmalar zamanı satınalmalar çərçivəsində müqavilə qiymətlərinin real bazar

qiymətlərindən tamamilə fərqlənməsi, görülməli olan işlərin ayrılan vəsaitlərə uyğun olmaması, iş həcmi dəyərlərinə yerinə yetirilməmiş işlərin mövcudluğu, iş həcmi vahidinin qiymətlərinin düzgün tətbiq edilməməsi ilə yerinə yetirilmiş işlərin dəyərlərinin satınalma komissiyası və ya satınalan təşkilat tərəfindən artırılması və digər bu kimi qanun pozuntusu halları aşkar edilmişdir.




**#SORĞUYACAVAB – Xocalıda insana məxsus olması ehtimal edilən sümük fraqmentləri aşkar edilib**

09.05.2024

Daxil olmuş sorğulara cavab olaraq bildirilir ki, mayın 8-də işğaldan azad olunmuş Xocalı rayonunun Malıbəyli kəndi ərazisində həyata keçirilən tikinti-qazma işləri zamanı insana məxsus olması ehtimal edilən müxtəlif sümük fraqmentlərinin aşkar edilməsi faktı üzrə Xocalı rayon prokurorluğunda araşdırma aparılır.

**Beynəlxalq axtarışda olan 5 şəxsin ölkəmizə ekstradisiyası təmin edilib**




11.05.2024

"Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında" 07.10.2002-ci il tarixli Konvensiyanın tələblərinə uyğun olaraq Azərbaycan Respublikasının vətəndaşları Həsənov Elvin Valeh oğlu, Cavadov Emin Seyfulla oğlu, Məsimov Zabit Cəfər oğlu, Məmmədov Əli Teymur oğlu və Süleymanov Mikayıl Fikrət oğlunun ekstradisiyaları haqqında Baş Prokurorluğun vəsatətləri Rusiya Federasiyasının Baş Prokurorluğu tərəfindən təmin edilib.

Belə ki, Süleymanov Mikayıl Fikrət oğlunun satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri külli miqdarda əldə etmə, saxlama, hazırlama, emal etmə, daşıma cinayətini, Cavadov Emin Seyfulla oğlu, Məsimov Zabit Cəfər oğlu, Məmmədov Əli Teymur oğlu xeyli miqdarda, Həsənov Elvin Valeh oğlunun isə külli miqdarda ziyan vurmaqla dələduzluq cinayətlərini törətmələrinə əsaslı şübhələr müəyyən edildiyindən, barələrində təqsirləndirilən şəxs qismində cəlb etmə haqqında qərar qəbul edilib və onlar istintaqdan qaçıb gizləndiklərinə görə beynəlxalq axtarışa veriliblər.

Qeyd olunan şəxslər Rusiya Federasiyasının ərazisində saxlanılaraq mayın 8-də Ədliyyə Nazirliyi Penitensiar Xidmətin xüsusi konvoyunun müşayiəti ilə Azərbaycana gətiriliblər.




**Baş Prokurorluq və Səhiyyə Nazirliyinin birgə məlumatı: Estetik cərrahiyyə və kosmetoloji fəaliyyət sahəsində qanun pozuntularına yol verən şəxslər məsuliyyətə cəlb olunub**

13.05.2024

Azərbaycan Respublikasının Baş Prokurorluğu və Səhiyyə Nazirliyi tərəfindən əhalinin sağlamlığının qorunması sahəsində insan və vətəndaş hüquqlarının təmin olunması və etibarlı müdafiəsi, tibbi xidmətlərin icrası zamanı yol verilən qanunsuzluqların aşkar olunaraq qarşısının alınması, həmçinin hüquqpozmalara yol verən şəxslərin məsuliyyətə cəlb olunması istiqamətində mütəmadi olaraq kompleks tədbirlər həyata keçirilir.

Bu tədbirlərin davamı kimi, Baş Prokurorluğa və Səhiyyə Nazirliyinə estetik cərrahiyyə və kosmetoloji fəaliyyətlə bağlı daxil olmuş çoxsaylı müraciətlər əsasında tibb müəssisələrinin fəaliyyəti monitorinq edilib, qeyd olunan sahədə qanunvericiliyin tələblərinə riayət olunması istiqamətində birgə araşdırmalar aparılıb.

Araşdırmalar zamanı estetik cərrahiyyələri icra edən, kosmetoloji xidmətlər göstərən ümumlikdə 9 klinika və kosmetoloji mərkəz tərəfindən sağlamlığın qorunması sahəsində vətəndaşların hüquqlarının pozulması, yəni əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən fiziki şəxslərin işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi, lisenziya olmadan özəl tibbi fəaliyyətlə və ya əczaçılıqla məşğul olma, qanunvericiliyə uyğun olaraq sertifikasiyadan keçməyən şəxslərin (işçilərin) praktik tibb və əczaçılıq

fəaliyyətinə buraxılması halları müəyyən edildiyindən İnzibati Xətalar Məcəlləsinin 192.1, 210.1 və 215.4-cü maddələri ilə tibb müəssisələrinin vəzifəli şəxsləri barəsində inzibati xəta haqqında 14 icraat başlanıb.

Bundan başqa, "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 22-ci maddəsinə uyğun olaraq qanun pozuntularından çəkindirmək məqsədi ilə 8 halda vətəndaşlar və vəzifəli şəxslərə xəbərdarlıq edilib, habelə, həmin Qanunun 23-cü maddəsinə əsasən qanun pozuntularının, onları doğuran səbəb və şəraitin aradan qaldırılması üçün dövlət qurumlarına 7 təqdimat verilib.

Azərbaycan Respublikasının Baş Prokurorluğu və Səhiyyə Nazirliyi tibbi xidmətlərin icra vəziyyətinə dair müvafiq araşdırmaların davam etdiriləcəyini və hüquq pozuntularına yol verənlərin məsuliyyətə cəlb olunacağını bildirməklə, bu sahədə fəaliyyət göstərən tibb müəssisələri və şəxslərdən qanunvericiliyin tələblərinə dönmədən riayət olunmasını tələb edir.

**Qusarda baş vermiş ekoloji hüquqpozmalar və digər qanunsuzluqlarla bağlı cinayət işi başlanıb**




14.05.2024

Ətraf mühitin qorunması və ekoloji vəziyyətin yaxşılaşdırılmasına yönəlmiş dövlət siyasəti ölkəmizin dayanıqlı inkişaf strategiyasının mühüm tərkib hissəsidir və bu məqsədlə mövcud ekoloji problemlərin aradan qaldırılması, o cümlədən yaşıllıqların qorunması və bərpası naminə genişmiqyaslı işlər görülür.

Kompleks tədbirlərin davamı kimi, bu sahədə yol verilən qanun pozuntularının aşkar olunaraq qarşısının alınması və profilaktikası daim diqqət mərkəzində saxlanmaqla, təbiətin mühafizəsinin təkmilləşdirilməsi ilə bağlı prioritetlər üzrə dövlət qurumları, o cümlədən hüquq-mühafizə orqanları tərəfindən birgə fəaliyyət həyata keçirilir.

Belə ki, Qusar rayonunda ağacların qanunsuz kəsilməsi barədə daxil olmuş məlumatlar əsasında Baş Prokurorluqda araşdırma aparılıb.

Araşdırmalarla, vəzifəli şəxslər tərəfindən səlahiyyətlərindən sui-istifadə edilərək çoxillik ağaclarla əhatə olunmuş meşə fonduna aid 22,3 hektar (ha) torpaq sahəsinin təyinatının əsassız şəkildə dəyişdirilib yaşayış məntəqələrinin torpaqları kimi Qusar şəhər bələdiyyəsinin balansına verilməsinə, meşə fondunun ziyan və itkisinin natamam və qeyri-dəqiq hesablanmasına, vəzifə saxtakarlığına yol verilərək torpaq sahəsinin qanunsuz olaraq müxtəlif vətəndaşlara satılmasına, habelə torpaq sahələrində müxtəlif diametrli və cinsli ağacların qanunsuz kəsilməsi nəticəsində təbiətə külli miqdarda ziyan vurulmasına əsaslı şübhələr müəyyən edilib.

Qeyd olunanlar hadisə yerinə baxış və istintaq hərəkəti protokolları, fotoşəkillər, videgörüntülər, müxtəlif dövlət qurumlarının rəyləri, izahatlar və toplanmış digər sənədlərlə təsdiq olunub.

Toplanmış material əsasında Cinayət Məcəlləsinin 259.2.4 (külli miqdarda ziyan vurmaqla qanunsuz ağac kəsmə) və 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə), 313 (vəzifə saxtakarlığı) və 314.2-ci (səhlənkarlıq ağır nəticələrə səbəb olduqda) maddələri ilə cinayət işinin başlanıb və ibtidai istintaqın aparılması Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə tapşırılıb.

Cinayət işi nəzarətdə saxlanmaqla görülmüş tədbirlər, eləcə də ibtidai istintaqın gedişatı və nəticəsi barədə ictimaiyyətin məlumatlandırılması təmin ediləcəkdir.

**Təhsil müəssisəsində külli miqdarda mənimsəmə faktı ilə bağlı cinayət işi başlanıb**




15.05.2024

Abşeron-Xızı Regional Mədəniyyət İdarəsinin Sumqayıt şəhər Səid Rüstəmov adına 3 nömrəli Uşaq İncəsənət məktəbində yol verilən qanunsuzluqlarla bağlı müraciət əsasında şəhər prokurorluğunda araşdırma aparılıb.

Araşdırma zamanı həmin təhsil müəssisəsinin vəzifəli şəxsləri tərəfindən 2018-ci ilin sentyabr ayından 2023-cü ilin sentyabr ayınadək olan müddətdə faktiki olaraq əmək funksiyalarını icra etməyən müəllimlər tərəfindən

tədrisin aparılmasına dair rəsmi sənədlərə bilə-bilə yalan məlumatların daxil edilməsi və əsassız olaraq əmək haqqı ödənilməsi yolu ilə 188 min manatdan artıq pul vəsaitinin mənimsənilməsi və əsassız şəhadətnamələr verməklə vəzifə saxtakarlığı törədilməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

Faktla bağlı Sumqayıt şəhər prokurorluğunda Cinayət Məcəlləsinin 179.3.2 (külli miqdarda mənimsəmə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə cinayət işi başlanaraq istintaq aparılır.

### Baş Prokurorluq və Daxili İşlər Nazirliyinin birgə Məlumatı – 2 ay əvvəl itkin düşmüş qadının qəsdən öldürülməsi müəyyən olunub




16.05.2024

Lənkəran rayon prokurorluğu və rayon polis şöbəsi əməkdaşlarının birgə fəaliyyəti nəticəsində cari ilin mart ayında itkin düşmüş Cəlilabad rayon sakini, 2002-ci il təvəllüdlü Könül Ağayevanın qəsdən öldürülməsi müəyyən edilib.

Həyata keçirilmiş çoxsaylı istintaq və əməliyyat-axtarış tədbirləri nəticəsində 2003-cü il təvəllüdlü Lənkəran şəhər sakini Elvin İsmayılzadənin martın 1-də Lənkəran şəhəri ərazisində yerləşən evlərdən birində Könül Ağayevanı boğaraq qəsdən öldürməsi, növbəti gün cinayət hadisəsini gizlətmək üçün tanışı Xəyal Səmədovun köməkliyi ilə Könül Ağayevanın meyitini həmin fərdi yaşayış evinin birinci mərtəbəsində basdırmasına əsaslı şübhələr müəyyən edilib.

Könül Ağayevanın meyitinin basdırıldığı yer müəyyən olunaraq prokuror-kriminalistin və ekspertin iştirakı ilə çıxarılıb, iş üzrə zəruri ekspertizalar təyin olunmaqla intensiv istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Faktla bağlı Lənkəran rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsilə cinayət işi başlanıb.

Elvin İsmayılzadə polis əməkdaşları tərəfindən saxlanılaraq istintaqa təhvil verilib və prokurorluq tərəfindən şübhəli şəxs qismində tutulub.

Bağlı qalmış cinayət işləri, o cümlədən itkin düşmüş şəxslərin axtarışları daim diqqət mərkəzində saxlanılmaqla onların tapılması, cinayət əməlini törədən şəxslərin ifşa olunaraq məsuliyyətə cəlb olunması istiqamətində aidiyyəti dövlət qurumları tərəfindən mütəmadi olaraq birgə tədbirlər davam etdirilir.

### Eyni mənzilləri müxtəlif şəxslərə satmaqda təqsirləndirilən vəzifəli şəxslər barədə cinayət işi məhkəməyə göndərilib




12.06.2024

Çoxsaylı vətəndaş narazılığına səbəb olan "FAM-88" Məhdud Məsuliyyətli Cəmiyyətinin vəzifəli şəxslərinin qanunsuz əməlləri barədə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində başlanmış cinayət işinin ibtidai istintaqı yekunlaşıb.

İstintaqla "FAM-88" MMC-nin təsisçisi Hüseynov Fəxrəddin Balaxan oğlunun həmin cəmiyyətin direktoru Tağıyev Rafiq Nərçə oğlu ilə əlbir olaraq MMC tərəfindən inşa olunmuş yüksək mərtəbəli yaşayış binasında mənzil almaq üçün müraciət etmiş vətəndaşlara qanuni sahibləri olan mənzilləri saxta müqavilə və maliyyə arayışları tərtib edib təkrarən satmaqla 59 şəxsə məxsus ümumilikdə 2 milyon 400 min manatdan artıq pul vəsaitini ələ keçirmələrinə əsaslı şübhələr müəyyən edilib.

İstintaq dövründə zərərçəkmiş şəxslərə vurulmuş ziyanın qismən ödənilməsi təmin edilib.

Toplanmış sübutlar əsasında Fəxrəddin Hüseynov və Rafiq Tağıyevə Cinayət Məcəlləsinin 178.4 (dələduzluq, xüsusilə külli miqdarda ziyan vurmaqla törədildikdə), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə ittiham elan edilərək barələrində müstəntiqin vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Cinayət işi baxılması üçün aidiyyəti üzrə Sumqayıt Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

**#maariflənək – Azərbaycan Respublikası meşələrində yanğın təhlükəsizliyi**




21.06.2024

**Yanğın təhlükəsizliyinin əsas tələbləri.**

Meşədə aşağıdakılar qadağan edilir:




– Meşə sahələrində söndürülməmiş kibritin, yanan siqaret qalığının və ya kötüyünün atılması, eləcə də tonqalların yandırılması və ağac kömürü istehsal etmək üçün xüsusi ocaqxanaların təşkil edilməsi;

– Sürtkü yağı, benzin, ağ neft, dizel yanacağı, və digər yanar mayelərə bulaşmış əsgi və digər materialların atılması;

– Müəyyən olunmamış yerlərdə avtomobil, traktor və digər daxili yanma mühərrikli aqreqatların yanacaqla doldurulması, eləcə də onların yaxınlığında siqaret çəkilməsi, tonqal yandırılması və s;

– Dövlət meşə torpaq fondunun, habelə meşə torpaq fondu ilə həmsərhəd olan sahələrdə qurumuş otların, kövşənlərin müəssələr, idarələr, təşkilatlar və fermer təsərrüfatları, eləcə də əhali tərəfindən yandırılması;

– Aparılmış hər hansı tikinti işləri yerində, tikinti materiallarının qalıqlarının atılması və yandırılması;

– Yanacaq və sürtkü yağlarının açıq şəkildə saxlanılması.

**Meşələrdə yanğın təhlükəsizliyi tələblərinin pozulmasına görə məsuliyyət.**

Meşələrdə yanğın təhlükəsizliyi tələblərinin pozulmasına görə:




– Odvurma və ya odla ehtiyatsız davranma nəticəsində meşənin məhv edilməsinə və ya qismən yandırılmasına, habelə bu qaydada göstərilmiş yanğın təhlükəsizliyi tələblərinin pozulmasına, bununla da meşə yanğını törədilməsinə, yaxud onun geniş sahəyə yayılmasına görə təşkilati hüquqi və mülkiyyət formasından asılı olmayaraq idarə, müəssisə və təşkilatlar, vətəndaşlar və vəzifəli şəxslər Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən, müvafiq məsuliyyət daşıyırlar;

– Yuxarıda göstərilən yarımbəndi pozan vətəndaşlar və vəzifəli şəxslərin hərəkətlərində cinayət tərkibi olarsa, onlar qüvvədə olan qanunvericiliyə uyğun olaraq cinayət məsuliyyətinə cəlb edilirlər.

Azərbaycan Respublikası meşələrində yanğın təhlükəsizliyi qaydalarını pozan təşkilat, idarə, vətəndaş və vəzifəli şəxslərin cərimə verməsi onları dəyən ziyanın bərpa edilməsindən azad etmir.

Bu Qaydaların tələblərinin pozulması qanunvericiliklə nəzərdə tutulan məsuliyyətə səbəb olur.

**1 nəfəri qəsdən öldürməkdə, digər şəxsi isə qəsdən öldürməyə cəhd etməkdə şübhəli bilinən şəxslər tutulub**




25.06.2024

İyunun 24-ü Şabran rayonu ərazisində 1970-ci il təvəllüdlü Gülnarə Hüseynovanın öldürülməsi, onun əri 1966-cı il təvəllüdlü Arif Hüseynova isə xəsarət yetirilməsi barədə rayon prokurorluğuna məlumat daxil olub.

Araşdırma zamanı 1983-cü il təvəllüdlü Elçin Fərzəliyev və Murad Məmmədovun Şabran şəhəri Mirəsədulla Mirqasımov küçəsində yerləşən yaşayış evində dəmir predmetlə (mismarçıxaran) xəsarətlər yetirməklə Gülnarə Hüseynovanı qəsdən öldürməsi, onun əri Arif Hüseynovu isə öldürməyə cəhd etmələrinə əsaslı şübhələr müəyyən edilib.

Faktla bağlı Şabran rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.2.1 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən adam öldürmə) və 29, 120.2.7-ci (qəsdən 2 şəxsi öldürməyə cəhd etmə) maddələrilə cinayət işi basļanaraq ibtidai istintaq aparılır.

Cinayəti törətməkdə şübhəli bilinən Elçin Fərzəliyev və Murad Məmmədov polis əməkdaşları tərəfindən saxlanılaraq istintaqa təhvil verilib və rayon prokurorluğu tərəfindən iş üzrə şübhəli şəxs qismində tutulublar.

# Xarici ölkələrin qanunvericiliyi kontekstində şəxsi həyat anlayışı

Qloballaşma və informasiya cəmiyyətinin inkişafı şəraitində şəxsi həyatın hüquqi müdafiəsi və onu ehtiva edən əlamətlərlə bağlı məsələlər getdikcə daha böyük əhəmiyyət kəsb edir. Texnologiyaların və internetin sürətli inkişafı şəxsi məlumatların əlçatanlığını artırır və onları müxtəlif təhdidlərə qarşı daha həssas edir. Müxtəlif ölkələr şəxsi həyatın qorunması üçün fərqli yanaşmalar qəbul edirlər və özlərinə məxsus mexanizmlər və hüquqi normalar yaradırlar.

Bu məqalədə xarici ölkələrin qanunvericiliyindəki şəxsi həyat anlayışı və onun əlamətləri nəzərdən keçirilir, fərqli dövlətlərin şəxsi məlumatların qorunmasını necə tənzimlədiyini, qəbul olunmuş normaları və onların müasir informasiya cəmiyyəti şəraitində səmərəliliyini təhlil edilir.

Məqalənin məqsədi şəxsi həyatın qorunmasına dair müxtəlif ölkələrin yanaşmalarını müqayisəli təhlil etmək, ümumi meylləri və spesifik xüsusiyyətləri müəyyənləşdirmək, həmçinin mövcud hüquqi müdafiə mexanizmlərinin effektivliyini qiymətləndirməkdir. Tədqiqat nəticəsində beynəlxalq təcrübəni və ən yaxşı praktikanı nəzərə alaraq, şəxsi həyatın qorunması sahəsində qanunvericiliyin təkmilləşdirilməsi üçün optimal yolların müəyyən edilməsi nəzərdə tutulur.

Amerika Birləşmiş Ştatlarının qanunlarında şəxsi həyat aşağıdakı mənalarda başa düşülür:

⇨personal autonomy – insanın şəxsi muxtariyyəti;

⇨emotional release – müəyyən bir şəxslə ətrafındakı insanlar arasındakı psixoloji maneənin "məhv edildiyi" bir vəziyyəti nəzərdə tutan emosional azadlıq;

⇨self-evaluation – anonimlik, yəni bir insanın ictimai yerdə tanınmaz olmağa çalışdığı və özü haqqında həqiqətlərin açıqlanma dərəcəsini müstəqil olaraq qiymətləndirə biləcəyi bir vəziyyət;

⇨limited and protected communication – konkret şəxslərlə ünsiyyətin könüllü olaraq saxlanılması nəzərdə tutulan intimlik, qapalı ünsiyyət[1].

Yəni, şəxsi həyatın daxili tərkib hissələrinə bir insanın sərhədlərini müstəqil şəkildə təyin etdiyi bir vəziyyət daxildir. Xarici tərkib hissələrinə gəldikdə, dövlətin bu sahəyə icazə verilən müdaxiləsinin şəxsiyyətlə razılaşdırılmış həddi nəzərdə tutulur. Eyni zamanda, xarici və daxili sərhədlər arasında xüsusi xarakterli müxtəlif qarşılıqlı münasibətlər mövcuddur (ailədaxili, dostluq, iş münasibətləri və s.).

Uzun müddətdir ki, şəxsi həyat sahəsinin sərhədləri şərti fiziki ifadəyə malik idi. Onlar, evin divarları ilə məhdudlaşırdılar. Hazırda informasiya sərhədləri getdikcə daha çox əhəmiyyət kəsb edir. Yəni şəxsi həyat sosial bir hadisə kimi deyil, onun haqqında informasiya daha çox maraq yaratmış olur. Bu faktı nəzərə alaraq, məlumatın yayılması və üçüncü şəxslərə çatdırılması ciddi təhlükədir.

Təcrübə göstərir ki, son illərdə xarici ölkələrdə xüsusi xidmət orqanlarının vətəndaşların yazışmalarına qanunsuz müdaxiləsi halları artıb. Bundan əlavə, alınan məlumatlar üçüncü şəxslərə ötürülür və ictimaiyyətə açıqlanır ki, bu da şəxsi həyatın toxunulmazlığı prinsipinin birbaşa pozulmasıdır. Bu xüsusda, şəxsi həyatın toxunulmazlığı hüququ, şübhəsiz ki, hüquqi müdafiəni və qorunmanı tələb edir, çünki məlumatların asanlıqla yayılması imkanı insanın maraqlarına əlavə təhdidlər yaradır.

Qeyd etmək lazımdır ki, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı beynəlxalq səviyyədə informasiya mühitində şəxsi həyatın qorunması probleminə ilk diqqət yetirmiş təşkilatdır ki, bunun əsasında "Şəxsi həyatın toxunulmazlığının qorunması və beynəlxalq şəxsi məlumat mübadiləsi haqqında" Direktiv qəbul edilmişdir. Daha sonra elan edilmiş prinsiplər aşağıdakı sənədlərdə ətraflı izah edildi[2]:

⇨"Şəxsi məlumatların avtomatlaşdırılmış işlənməsi ilə bağlı şəxsiyyətin qorunması haqqında" Avropa Şurasının Konvensiyası;

⇨Avropa Birliyinin vətəndaşların şəxsi məlumatlarının işlənməsi baxımından qorunması haqqında Direktivi;

⇨Avropa Birliyi və parlamentin şəxsi məlumatların emalı və bu cür məlumatların sərbəst hərəkəti ilə əlaqədar fərdi şəxslərin hüquqlarının qorunmasına dair Direktiv;

⇨Telekommunikasiya sektorunda şəxsi məlumatların emalı, qorunması, məxfiliyi üzrə Direktiv.

Sadalanan sənədlərdə şəxsi məlumatların işlənməsinin təşkili və vətəndaşların şəxsi məlumatların qorunması hüququnun təmin edilməsinin əsas prinsipləri yer alıb. Onlara müvafiq olaraq[3]:

⇨şəxsi məlumatlar yalnız müəyyən məqsədlər üçün və qanuna uyğun olaraq toplanmalıdır;

⇨onlar tələblərə cavab verməli, dəqiq, tam və vaxtında yenilənməlidirlər;

⇨fəaliyyətə başlamazdan əvvəl müəyyənləşdirilməli və təsdiqlənməli və yalnız bu məqsədlər üçün istifadə edilməlidir;

1 Поздникин П.Ю. Информация и частная жизнь: проблемы, регулирование, взгляды // Проблемы в российском законодательстве. Юридический журнал. 2010. № 1.

2 Калашникова Е.Е. Уголовно-правовое обеспечение неприкосновенности информации о частной жизни: автореф. дис. ... канд. юрид. наук. М., 2001.

3 Калабаев О.У. Проблемы охраны тайны частной жизни в уголовном судопроизводстве. Ижевск, 2005.

⇨şəxsi məlumatların itirilməsinin və ya yanlış (və ya qərəzli) istifadəsinin qarşısını alan mexanizmlər tətbiq edilməlidir;

⇨şəxsi məlumatları ehtiva edən bazaları olan təşkilatların (həm dövlət, həm də özəl) fəaliyyəti açıq olmalıdır;

⇨şəxsi məlumatlara malik olan subyektlər bu prinsiplərə riayət olunmasını təmin etmək üçün nəzarət altında olmalıdırlar, bu məqsədlər üçün şəxsi məlumatların avtomatlaşdırılmış işlənməsində şəxsiyyətin qorunmasının vacib elementi kimi müstəqil nəzarət orqanının yaradılması təmin edilməlidir.

İnformasiya mühitində şəxsi həyatın hüquqi tənzimlənməsinin iki qrupunu: mərkəzləşdirilmiş və mərkəzləşdirilməmiş sistemləri ayırd edən A.V. Paraskevovun, A.V. Levçenkonun, Y.A. Kuxolun elmi mövqeləri xüsusi maraq doğurur. Sadalanan qrupların hər biri özünəməxsus xüsusiyyətlərə malikdir. Beləliklə, tənzimləmə vasitələrinin birinci qrupunun xarakterik xüsusiyyətləri[4]:

⇨sahə qanunvericiliyi çərçivəsində şəxsi məlumatların qorunmasına vahid yanaşma tamamilə yoxdur;

⇨şəxsi məlumatların qorunmasının tənzimlənməsi hərtərəfli qanunvericilik sahələrinin və ya müxtəlif hökumət səviyyələrində ixtisaslaşdırılmış normativ aktlar vasitəsilə həyata keçirilir;

⇨tövsiyə xarakterli sənədlər əsas rol oynayır (metodlar, sənaye standartları);

⇨vahid nəzarət orqanı yoxdur.

⇨Bu qrupun nümayəndələri ABŞ, Kanada və Avstraliyadır.

⇨Mərkəzləşdirilmiş sistemi müstəqil bir qrup kimi müəyyənləşdirməyə imkan verən səciyyəvi xüsusiyyətlər bunlardır[5]:

⇨dövlətlərin milli qanunvericiliyini uyğunlaşdıran beynəlxalq səviyyəli sənədlərin müddəalarının birbaşa təsiri;

⇨şəxsi məlumatların qorunması ilə bağlı ümumi məcburi normaları ehtiva edən milli sahəyə aid qanunlarının təsiri;

⇨vahid nəzarət orqanının yaradılması yolu ilə şəxsi məlumatların işlənməsinin tənzimlənməsi.

Şəxsi həyatın tənzimlənməsinin mərkəzləşdirilmiş sisteminə aid olan dövlətlər arasında Avropa Birliyinə daxil olan dövlətləri, Sinqapur, Meksika, İsrail, Honkonqu göstərmək olar.

Qloballaşma və inteqrasiyanın aktiv prosesləri ilə əlaqədar olaraq əvvəlki ikisinin kəsişməsində yerləşən başqa bir qrupu – qarışıq sistemi ayırd etmək məqsədəuyğun olar. Eyni zamanda, əsas fərqləndirici xüsusiyyət dövlətin şəxsi məlumatlarının qorunmasının hüquqi tənzimlənməsi sistemini mərkəzləşdirilmiş və ya mərkəzləşdirilməmiş kimi təsnif etməyə imkan verən bir və ya bir neçə əlamətin olmasıdır.

Bundan əlavə, müxtəlif ölkələrin timsalında cinayət işi üzrə icraat zamanı informasiya mühitində şəxsi həyatın qorunmasının xarici təcrübəsini nəzərdən keçirmək məqsədəuyğundur. Məsələn, Yaponiyada vətəndaşların şəxsi məlumatlarının qorunmasını tənzimləyən vahid qanunvericilik mövcuddur. Bu ölkədə şəxsi məlumatların toplanması və istifadəsi "Şəxsi məlumatların qorunması haqqında" Qanunla tənzimlənir. Burada icazələr, təhlükəsizlik və məlumatların verilməsi üçün əsas tələblər, habelə işçilərə və şəxsi məlumatların işlənməsi ilə məşğul olan üçüncü şəxslərə nəzarət üçün əlavə tələblər müəyyən edilir. Yəni demək olar ki, sözügedən sənədin müddəaları bütün növ məlumatların işlənməsinə təsir göstərir. Bütün subyektlər üçün məcburi olan qanunlarla yanaşı tövsiyə normalarından da istifadə olunur. Vahid nəzarət şöbələrinin olmamasını da göstərmək lazımdır.

Braziliyada informasiya sektorunda şəxsi həyatın tənzimlənməsi ümumi normalar, konstitusiya prinsipləri və qeyri-profilli qanunlar əsasında həyata keçirilir. Məsələn, mövcud qanunvericilikdə hər hansı bir vətəndaşın yaxınlaşan təhlükəni dərk edərkən kömək istəmək hüququna malik olduğu, eləcə də başqa bir şəxsin şəxsi hüquq və mənafelərinə qarşı təhlükəni dərk edərkən kömək istəyə biləcəyi də göstərilir. Bundan əlavə, qanunda fiziki şəxsin şəxsi həyatının toxunulmaz olduğu bildirilir. Xüsusi vurğulamaq lazımdır ki, bu ölkədə bütün göstərişlərin düzgün yerinə yetirilməsinə nəzarət edən vahid orqan fəaliyyət göstərir.

Almaniya ilə birlikdə Braziliyanın Birləşmiş Millətlər Təşkilatına internet məkanında şəxsi məlumatların qorunmasına həsr olunmuş ilk qətnaməni irəli sürməsi xüsusi diqqətə layiqdir. Onun müddəaları şəxsi həyatın toxunulmazlığı hüququnun yalnız real həyatda deyil, virtual dünyada da təmin edilməli olduğunu ifadə etdi. Elektron yazışmaların adi yazışmalarla eyni qaydalarla qorunduğu bir ölkə üçün bu heç də təəccüblü bir yanaşma deyil.

Müqayisə üçün Cənubi Afrika Respublikasında toplanmış informasiya mühitində şəxsi həyatın qorunması təcrübəsinə toxunmaq məqsədəuyğundur. Vurğulamaq lazımdır ki, məlumatların qorunmasını tənzimləyən hər hansı bir xüsusi qanun yoxdur. Eyni zamanda, Konstitusiyada məxfilik hüququ təsbit edilmişdir. Bundan əlavə, şəxsi məlumatların qorunması ilə birbaşa əlaqəli olan müddəalar Elektron rabitə və

---

4 Параскевов А.В., Левченко А.В., Кухоль Ю.А. Сравнительный анализ правового регулирования защиты персональных данных в России и за рубежом // Политематический сетевой электронный научный журнал Кубанского государственного аграрного университета. 2015. № 110.

5 Поздникин П.Ю. Информация и частная жизнь: проблемы, регулирование, взгляды // Проблемы в российском законодательстве. Юридический журнал. 2010. № 1.

əməliyyatlar Qanununda və İstehlakçı hüquqlarının müdafiəsi Qanununda yer alır.

Skandinaviya ölkələrinin təcrübəsi xüsusi maraq doğurur. Onların əksəriyyəti kompüter məlumat banklarının qorunması ilə bağlı müddəaları rəsmiləşdirdi. Məsələn, İsveç bu sahədə böyük uğurlar qazandı. Hələ 1766-cı ildə bu ölkədə "Nəşrlər azadlığı haqqında" Qanun qəbul edildi, daha sonra dəyişdirildi və "Mətbuat azadlığı" Qanununa çevrildi[6]. Hazırda İsveç Konstitusiyasında bütün İsveç vətəndaşlarının dövlət orqanlarında maraq doğuran məlumatları sərbəst şəkildə pulsuz almaq hüququna malik olduğuna dair zəmanətlər təsbit edilmişdir.

Bundan əlavə, İsveçin təcrübəsi o cəhətdən maraqlıdır ki, bu ölkə, ilk dəfə olaraq birbaşa kompüter məlumat banklarında saxlanılan şəxsi informasiyanın qorunması üzrə qanunvericiliyi tətbiq edib.

Səudiyyə Ərəbistanı ərazisində məlumatların qorunması ideyasını dəstəkləyən xüsusi qanunlar yoxdur. Bununla birlikdə, məxfilik hüququ bir sıra sənədlərdə təsbit edilmişdir.

Beləliklə, Səudiyyə Ərəbistanı hökumətinin "Əsas Qanunu"nda, subyektlər arasındakı bütün yazışmaların və bütün növ əlaqələrin ciddi şəkildə məxfi və açıqlanmayan olması prinsipi təsbit edilmişdir. Müvafiq qanun normalarının olmaması səbəbindən məhkəmələr qərar qəbul edərkən şəriət normalarını rəhbər tuturlar. Bunun əsasında, əgər açıqlama fiziki şəxsə zərər verərsə və ya ona ciddi ziyan vurarsa, fiziki şəxsin şəxsi məlumatlarının qanunsuz açıqlanması ilə əlaqədar vurulan ziyana görə iddia qaldırıla bilər[7]. İnformasiya mühitində şəxsi həyatın qorunmasında ən əhəmiyyətli uğurlar ABŞ tərəfindən əldə edilmişdir. Beləliklə, Amerika hakimiyyəti internet istifadəçilərinin şəxsi məlumatlarının qorunması zəmanətini əhəmiyyətli dərəcədə artırmaq üçün hazırlanmış "Online Personal Privacy Act" Qanununu qəbul etdi. Bu sənəd rəsmi olaraq internetdə işləyən və istifadəçilərdən şəxsi məlumat alan bütün şirkətlərin yalnız istifadəçilərin razılığı ilə istifadə edə biləcəyini təmin edir.

Vətəndaşların fərdi məlumatlarının qorunmasını gücləndirmək üçün qanun bütün məlumatların diferensiallaşdırmasını təmin edir, yəni[8]:

⇨kritik (istifadəçi müqaviləsi bağlanarkən internetdən toplanıla bilər. Bunlara sosial sığorta nömrəsi, tibbi və maliyyə məlumatları, milliyyət və s. daxildir);

⇨az kritik (internet alış-verişi haqqında məlumat. Bununla belə, hər halda şirkətlər şəxsi məlumatların verilməməsi də daxil olmaqla istifadəçilərin bütün istəklərini nəzərə almalıdırlar).

ABŞ-dən başqa, şəxsi həyatın hüquqi tənzimlənməsi baxımından uğurlu ölkələrdən biri Kanadadır. Onun ərazisində şəxsi məlumatların qorunması və özünüz haqqında məlumatları əldə etmək hüququnun kifayət qədər real effektiv mexanizmlərini təmin edən "Şəxsi məlumatların qorunması haqqında" Qanun mövcuddur. Bu sənəd əsasında şəxsi məlumatlar altında hər hansı bir formada qeyd olunan müəyyən bir şəxs haqqında məlumatları anlamaq məqsədəuyğundur. Söhbət milliyyət, irq, din, yaş, təhsil, sağlamlıq, maliyyə vəziyyəti və s. kimi məlumatlardan gedir[9].

Qanunun müddəalarına uyğun olaraq, şəxsi məlumatlar şəxsin razılığı olmadan və toplandığı məqsədlərdən başqa digər məqsədlər üçün istifadə edilə bilməz. Bununla belə, məhkəmə qərarı da daxil olmaqla məlumatların açıqlanacağı hallar var; konkret bir şəxsə kömək edən parlament üzvü üçün; arxivləşdirmə üçün; statistik məlumatların toplanması üçün və sair.

Qeyd edək ki, tamamilə bütün Kanada vətəndaşları və ya onun ərazisində daimi yaşayan vətəndaşlar özləri haqqında idarələrdə olan məlumatlara maneəsiz giriş əldə etmək hüququna malikdirlər. Bu vəziyyətdə, qeyri dəqiqliklər və ya səhvlər aşkar edilərsə, onları düzəltmək mümkündür.

Mübahisəli vəziyyətlər yaranarsa, mülki şəxslər hökumət strukturlarının hərəkətlərinə etiraz etmək hüququna malikdirlər. Bunun üçün müəyyən səlahiyyətlərə malik vəzifəli şəxs olan, şəxsi məlumatların qorunması üzrə Komissara ərizə ilə müraciət etmək tələb olunur. Onun birbaşa vəzifələrinə müştərilər və işçilər haqqında şəxsi məlumatların toplanmasına, istifadəsinə və dövlət tərəfindən yayımlanmasına nəzarət daxildir. Bundan əlavə, o, fiziki şəxslər tərəfindən verilmiş şikayətlərə baxa bilər.

Avropa ərazisində şəxsi həyat haqqında məlumatların hüquqi tənzimlənməsi sahəsində lider Almaniyadır. XX əsrin 70-ci illərində burada şəxsi məlumatların dövlət tərəfindən qorunması təmin edildi. Maraqlıdır ki, inzibati idarəçiliyi dövlət sektoruna aid olsa da, Almaniyanın 16 torpağının hər biri şəxsi məlumatların qorunması ilə bağlı öz qanunvericilik

6 Jonas Nordin "The Swedish Freedom of the Press Ordinance from 1766". 2023. URL: https://www.jonasnordin.eu/2023/03/27/the-swedish-freedom-of-the-press- ordinance-from-1766/

7 Новая парадигма защиты и управления персональными данными в Российской Федерации и зарубежных странах в условиях развития систем обработки данных в сети Интернет: монография / колл. авт. М.: Высшая Школа Экономики, 2016.

8 Олейник С.А., Мельничук М.А. Правовое регулирование доступа к информации на примере Канады (сравнительно-правовая характеристика) // Вестник Международного института экономики и права. 2016. № 4(25).

9 Иванская А.В., Ковалев С.И. Правовое регулирование защиты персональных данных в некоторых странах Евросоюза, США и Канады // Правовая инициатива. 2013. № 12.

bazasını yaratdılar. Bu qanunun icrasına nəzarət şəxsi məlumatların qorunması üzrə Federal komissiya tərəfindən həyata keçirilir. Eyni zamanda, korporativ sektorda nəzarət şəxsi məlumatların qorunması üzrə komissar tərəfindən həyata keçirilir. Bundan əlavə, demək olar ki, Almaniyanın bütün normativ hüquqi aktlarında ya şəxsi məlumatların qorunması ilə bağlı müvafiq qanuna istinadlar, ya da şəxsi həyatın toxunulmazlığı hüququnu əks etdirən şəxsi məlumatlarla işləmə qaydaları haqqında xüsusi müddəalar var[10].

Beləliklə, informasiya mühiti qanunvericilərdən və hüquq tətbiq edən orqanlardan xüsusi bir yanaşma tələb edən şəxsi həyatın tənzimlənməsinin olduqca mürəkkəb bir seqmentidir. Bununla belə, bu günə qədər inkişaf etmiş ölkələrin əksəriyyətində şəxsi həyat sahəsinin tənzimlənməsində böyük təcrübə toplanmış və informasiya məkanında onun qorunması üçün effektiv mexanizmlər hazırlanmışdır.

Müxtəlif ölkələrin qanunvericiliyinin təhlili göstərir ki, şəxsi məlumatların qorunması sahəsində çoxsaylı yanaşmalar mövcuddur və onların hər biri milli xüsusiyyətlər və beynəlxalq standartlarla bağlıdır.

ABŞ, Kanada və Avstraliya kimi ölkələr şəxsi məlumatların qorunması üçün mərkəzləşdirilməmiş sistemlərə üstünlük verirlər, burada müxtəlif hökumət səviyyələrində ixtisaslaşdırılmış normativ aktlar vasitəsilə tənzimlənmə həyata keçirilir. Bu yanaşma, tövsiyə xarakterli sənədlərin əsas rol oynadığı və vahid nəzarət orqanının olmadığı bir sistemdir.

Avropa Birliyi, Sinqapur və İsrail kimi ölkələr isə mərkəzləşdirilmiş sistemləri qəbul edirlər, burada şəxsi məlumatların qorunması ilə bağlı ümumi məcburi normaları ehtiva edən milli qanunlar və vahid nəzarət orqanları mövcuddur. Bu yanaşma, dövlətlərin milli qanunvericiliyini uyğunlaşdıran beynəlxalq səviyyəli sənədlərin birbaşa təsirinə əsaslanır.

Qloballaşma və inteqrasiya prosesləri nəticəsində yaranan qarışıq sistemlər də mövcuddur ki, bu sistemlərdə dövlətlərin şəxsi məlumatların qorunmasının hüquqi tənzimlənməsi sistemini mərkəzləşdirilmiş və ya mərkəzləşdirilməmiş kimi təsnif etməyə imkan verən bir və ya bir neçə əlamət mövcuddur.

Tədqiqat göstərir ki, inkişaf etmiş ölkələrin əksəriyyətində şəxsi həyatın tənzimlənməsində böyük təcrübə toplanmış və informasiya məkanında onun qorunması üçün effektiv mexanizmlər hazırlanmışdır. Bununla belə, informasiya mühiti qanunvericilərdən və hüquq tətbiq edən orqanlardan xüsusi bir yanaşma tələb edən şəxsi həyatın tənzimlənməsinin olduqca mürəkkəb bir seqmentidir.

Nəticə etibarilə, beynəlxalq təcrübəni və ən yaxşı praktikanı nəzərə alaraq, şəxsi həyatın qorunması sahəsində qanunvericiliyin təkmilləşdirilməsi üçün optimal yolların müəyyən edilməsi zəruridir. Bu, şəxsi məlumatların qorunmasını gücləndirəcək və vətəndaşların hüquqlarının təmin olunmasına daha effektiv töhfə verəcəkdir.

### İstifadə edilmiş ədəbiyyat


1. Jonas Nordin “The Swedish Freedom of the Press Ordinance from 1766”. 2023. URL: https://www.jonasnordin.eu/2023/03/27/the-swedish-freedom-of-the-press-ordinance-from-1766/
2. Горелихина О.А., Шлиньков А.А. Правовая защита персональных данных в Германии // Вопросы экономики и права. 2013. № 3.
3. Иванская А.В., Ковалев С.И. Правовое регулирование защиты персональных данных в некоторых странах Евросоюза, США и Канады // Правовая инициатива. 2013. № 12.
4. Калабаев О.У. Проблемы охраны тайны частной жизни в уголовном судопроизводстве. Ижевск, 2005.
5. Калашникова Е.Е. Уголовно-правовое обеспечение неприкосновенности информации о частной жизни: автореф. дис. ... канд. юрид. наук. М., 2001.
6. Новая парадигма защиты и управления персональными данными в Российской Федерации и зарубежных странах в условиях развития систем обработки данных в сети Интернет: монография / колл. авт. М.: Высшая Школа Экономики, 2016.
7. Олейник С.А., Мельничук М.А. Правовое регулирование доступа к информации на примере Канады (сравнительно-правовая характеристика) // Вестник Международного института экономики и права. 2016. № 4(25).
8. Параскевов А.В., Левченко А.В., Кухоль Ю.А. Сравнительный анализ правового регулирования защиты персональных данных в России и за рубежом // Политематический сетевой электронный научный журнал Кубанского государственного аграрного университета. 2015. № 110.
9. Поздникин П.Ю. Информация и частная жизнь: проблемы, регулирование, взгляды // Проблемы в российском законодательстве. Юридический журнал. 2010. № 1.
10. Поздникин П.Ю. Информация и частная жизнь: проблемы, регулирование, взгляды // Проблемы в российском законодательстве. Юридический журнал. 2010. № 1.



**Səbuhi Şahverdiyev**
**Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəis müavini,**
**II dərəcəli dövlət ədliyyə müşaviri**


10 Горелихина О.А., Шлиньков А.А. Правовая защита персональных данных в Германии // Вопросы экономики и права. 2013. № 3.

# Hüseyn Cavid yaradıcılığında ədalət axtarışı

XX əsrin otuzuncu illərində milli iftixar gücü ilə tanınan böyük mütəfəkkir Hüseyn Cavid "zamanın qadağa hökmü" ilə üz-üzə dayandı. Azad söz, azad fikir, sərbəst düşüncə sahibi diktatorun əmrləri ilə diktant-izahat yazmağa məcbur edildi. Tarixdə görünməmiş və fələyin də mat qaldığı bir fəlakət baş verdi: bu dəfə bütöv Zamanın mizan-tərəzisi pozuldu, bütöv bir yaradıcı nəsil torpaq altına gömüldü.

Böyük Hüseyn Cavid, Azərbaycan ədəbiyyatının və mədəniyyətinin ədalət carçısı, "ədalətsizliklə ədalətsizliyin dünyasında müttəhim kürsüsünə gətirildi". "Fələyin mat qaldığı", "zamanın mizan-tərəzisinin pozulduğu", "bütöv bir yaradıcı nəslin torpaq altına gömüldüyü dövrü sənət və mədəniyyət yaddaşının əzilən çağı bəşər tarixinin niskil və ağır səhifəsi" adlandıran bu dövrü, onu tədqiq edən alimlər belə qələmə almışdılar. "Bu çağ qaranlıq və zülmət gecə ilə üzbəüz dayanaraq, sözə ehya verən yuxusuz gecələrin, həyatın ləzzətindən kənarda doğulan şairin yaradıcılıq əzabının acı təəssüfə bürünmüş ölüm məqamıdır. O an intiharı yaxın buraxmayan mətin iradənin, nifrət və qəzəbdən ürəyi çəkilən cəsarətin çarmıxa çəkilən anıdır.

XX əsr 37 yaşını beləcə işgəncə və qətllərlə keçirdi. Bu zaman xalq öz tarixi deyiminə "el üçün ağlayanın kor olması" kəlamı Cavid əfəndinin taleyinə yazıldı. Hüseyn Cavid mütəfəkkir yazar kimi Azərbaycan ədəbiyyatında milli məfkurənin və ədalətin təbliğatçısı idi. O, dərin məzmunlu yaradıcılığı ilə çoxşaxəli ideyaların çatdırılmasına, ədəbiyyatımıza qazandırdığı janr müxtəlifliyinə görə də unudulmaz sənətkardır. Hüseyn Cavid yaradıcılığının əsasında ədibin özünün də dediyi kimi, həqiqət və ədalətin axtarışı, onun dərki məsələləri dayanır. Bu ali düşüncələrin axtarışında olmaq sənətkardan sonrakı minillikləri fikirləşən ideoloji və siyasi düşüncə tələb edirdi. Milli məfkurənin və həqiqətin, ədalətin təbliği böyük Cavidi sonrakı min illərin də daim oxunan müəlliflərdən biri etdi. Eyni zamanda, Hüseyn Cavid yaradıcılığı təbliğ etdiyi ədalətin həm tarixiliyinə, həm də müasirliyinə görə hər zaman bizim istinad mənbəyimiz oldu.

Həqiqətdir ki, dahi Hüseyn Cavidi Azərbaycan xalqına yenidən qaytaran, onun ədəbi-bədii irsinin araşdırılması, çapı haqqında tarixi sərəncamlar imzalayan Ulu Öndər Heydər Əliyev olub. Hüseyn Cavidin 100 illiyinin qeyd olunması haqqında verilən qərar, onun qəbrinin uzaq Sibirdən tapılıb Vətənə köçürülməsi, əslində, repressiyaya məruz qalmış türkçülüyün xilası yönündə atılmış ən ədalətli addım idi. Yəni, ədalət ədalətlə bərpa olundu!

Sonralar Ulu Öndər Hüseyn Cavidin qəbri üzərində məqbərə ucaltdı, ev muzeyini açdı, 2002-ci ildə Hüseyn Cavidin 120 illiyi münasibətilə sərəncam imzaladı. Ulu Öndər Heydər Əliyev deyirdi ki, Cavidi Şekspirlə müqayisə edirlər, amma mənə qalsa, onu Höte ilə müqayisə edərdim. Ulu Öndər Heydər Əliyev "Dünya romantizm poeziyası ilə qırılmaz tellərlə bağlı olan Hüseyn Cavid yaradıcılığı öz bədii-estetik qaynağını Azərbaycan mədəniyyətinin dərin qatlarından alır" – deyirdi.

Böyük mütəfəkkirə dərin ehtiram ölkə rəhbəri cənab İlham Əliyev tərəfindən davam etdirildi. Cənab Prezident 2007-ci ildə Hüseyn Cavidin 125 illiyinin, 2012-ci ildə 130 illiyinin, 2017-ci ildə 135, 2022-ci ildə 140 illiyinin keçirilməsi haqqında sərəncamlar imzaladı. Hüseyn Cavid irsinə qayıdış Ulu Öndərdən başlayaraq dövlət səviyyəsində bu gün də yüksək şəkildə davam edir. Hüseyn Cavidə qayıdış bizim bir millət kimi zənginləşməyimiz üçün çox gərəklidir. Çünki, Hüseyn Cavidə qayıdış, uzaq Sibirə sürgün olunmuş, repressiyalara məruz qalmış ədalətə qayıdış idi.

Böyük Cavidin Azərbaycan ədəbiyyatı tarixində yeni yüksəlişi məhz Ulu Öndərin ehtiramlı münasibətindən sonra başladı. Ulu Öndər Heydər Əliyev Hüseyn Cavid yaradıcılığını gözəl bilirdi. Ulu Öndər həm bədii keyfiyyətinə, həm fəlsəfi mahiyyətinə, həm də vətəndaşlıq münasibətinə görə Cavid yaradıcılığının təbliğ olunmasını tövsiyə edirdi. Onun yubileylərinin keçirilməsi, əsərlərinin nəşri və sair Ulu Öndərin diqqəti nəticəsində reallaşdı.

Hüseyn Cavid repressiya dövrünün yeganə yazarlarındandır ki, yaradıcılığının ali ideyası ilə şəxsiyyətinin bütövlüyü üst-üstə düşür. Xarakteri, mərdliyi, ədaləti, vicdanı ən çətin anda belə mənəvi müvazinət kimi qoruyub saxlamaq keyfiyyəti böyük Cavidi min illər sonra da sevdirdi. Cavidin ədəbiyyata gətirdiyi mövzular daim müasir qalacaq. Ədalətli düşüncə və məfkurə qaynağı Cavid ocağından köz götürdüyü üçün hər birimizin qəlbini daim işıqlandıracaq, yolumuzu aydınlaşdıracaq.

Dünyanın yaranışı, insanın ali varlıq kimi Tanrı ruhu ilə mükafatlandırılması, yaxud da İblisin insana səcdə etməkdən boyun qaçırması, insan və onun nəfsi kimi düşüncələr, ədalət axtarışı Hüseyn Cavid yaradıcılığında da aparıcı mövzulardır. Hüseyn Cavid "Hübuti-Adəm" şeirində həyatın yaranmasını, Adəmin cənnətdən qovulmasını belə ifadə edirdi:

**Nə buldun, qürbi-həqdən böylə sapdın?**
**Düşün! Naqis bəşər, bir bax nə yapdın!?**
**Bu gün qüdsiyyətin olmaqda bərhəm,**
**Yazıq! Aldandın, ey biçarə Adəm!**
**Təəssüf biəsər... Pək çox yanıldın,**
**Nədamət bisəmər... Pək gec ayıldın.**

Bəşəriyyətin, insanlığın günahının təməlində nəfsin durduğunu və şeytanın hər zaman fürsət düşdükcə insanı öz nəfsinə əsir edəcəyini ali ideya ilə çatdıran ən gözəl misralardır. Bəşəriyyətin yaranışı, insan, onun

nəfsi ilə mübarizə, kamilliyə çatmaq Cavidin yaradıcılıq kredosudur. "Mən məhəbbət və həqiqəti dərk etdim", – deyə Qurbanəli Şərifzadəyə yazdığı məktubdan göründüyü kimi, Cavid həm də bir irfan filosofu kimi düşünürdü. Əsərlərindən görürük ki, türkçülük məfkurəsi ilə yanaşı, İblisə uymamaq üçün əql, iradə nümayiş etdirmək dünyada ədalətsizliyə qarşı mübarizə etmək böyük Cavidi daha dərindən düşündürüb. Külli-kainatın harmoniyasının yalnız ədalət üzərində bərqərar olduğunu deyən Cavid çox böyük uzaqgörənliklə gələcəkdəki savaşların ədalətsizlikdən törəyəcəyini bildirirdi.

**Nədir bu xilqəti-bimərhəmət,**
**bu pərdəli hikmət?**
**Bu zülmə qarşı nolur bir də bir ədalət olaydı.**
**Tükəndi taqətü səbrim, ədalət! Ah, ədalət!**
**Nə öncə öylə səadət, nə böylə zillət olaydı.**

Bəli, ədalətin itdiyi yerdə İblis taxt qurur, xaos İblisin toy-bayramına çevrilir. Ədəbiyyatımızın əfəndisi Hüseyn Cavid Şərq müdrikliyini irfan ədəbiyyatı ilə birləşdirərək bizə ərmağan edib. Tanrısına tapınan, inanclı, ruhən daim yüksəlişi, kamilləşməyi qarşısına məqsəd qoyan böyük Cavid həm də oxucusuna övliya təsiri bağışlayır. Onun günah və haqsızlıqların baş alıb getdiyi bolşevik rejimində "Şeyx Sənan"da deyildiyi kimi öz mehrabı var ki, ora saf və təmiz düşüncəli, ədalətli olanlar daxil ola bilər:

**Yaqlaşma dur... çəkil asi!**
**Çünki Beytülharam demək burası,**
**Daxil olmaq yasaqdır əğyarə.**
**Sən ki məhrəm deyilsin əsrarə!**

Bu ideyalarla da o cəmiyyəti, bəşəriyyəti saflaşaraq yüksəlməyə səsləyirdi. Hüseyn Cavid "Peyğəmbər" əsərində "Məhəbbətdir ən böyük din" – deyə cəmiyyətə, insanlara ülvi hisslər aşılayırdı. Şair bütün əsərlərində şeytani nəfsə qalib gəlməyin yolunu kamilləşməkdə görürdü. İlahi eşqin Şeyx Sənanıdır, türkdür, millətinə gərəkli, bəşəriyyətə yüksəliş dərsində özü nümunə ola biləcək eşq yolçusudur, göylər şairidir.

**YüksəldilərIsa kibi,**
**İşgəncədən qurtuldular.**
**Ruhaşina röya kibi,**
**Kayboldular, kayboldular!**
**Yüksəldilər, yüksəldilər,**
**Cənnətdərahət buldular.**
**Yüksəldilər,yüksəldilər,**
**Kayboldular, kayboldular!**

Böyük Cavid Peyğəmbər mövzusuna müraciət etdi. Cavid 40 yaş ərəfəsində 40 yaşlı Məhəmməd peyğəmbərin İlahi tərəfindən peyğəmbər seçilməsi ilə İslam erasının, ərəb dünyasının cəhalətdən qurtuluş və tərəqqi dövrünün başlanmasını qələmə aldı. Dahi ədib bu əsərdə həmin dövrün bəlli qanunlarının insanlığı məhvə doğru aparmasına münasibətini bildirir, həm də öz dövrünün problemlərini də tarixi mövzuda yaradır:

**Öylə bir əsr içindəyəm ki, cihan**
**Zülmü vəhşətlə qavrulub yanıyor.**
**Yüz çevirmiş də Tanrıdan insan,**
**Küfrü haq, cəhli mərifət sanıyor.**

Peyğəmbərin ərəb cəhalətinə son qoymaq üçün qılınc və Quranla cəmiyyəti yenidən ədalətlə qurmaq, qanunlar yaratmaq və sülh tətbiq etmək məsələlərini Cavid tarixdən müasirliyə qaytardı:

**Kəssə hər kəs tökülən qan izini,**
**Qurtaran dahi odur yer üzünü.**

Bu dünyanın xalısını toxuyarkən həvəni naşıcasına vursan ilmələri doğrayar, yavaş vursan ilmə alınmaz, naxış əyri olar. Bəs nə etməli? Həvə ədalət yaradan alətdir, gözəlliklər yalnız onunla yaranacaq. Əks halda, naxışsız, yəni mənasız bir ömür yaşamış olarıq. Karvanın da, sarvanın da yükünü və yolunu yüngülləşdirən insanın əməlləridir, ədalətli həyat tərzidir.

Hüseyn Cavidin ideyalarındakı xüsusilə ədalətə ideyalarındakı yeganə düstur vicdanla həqiqətin cəmi, yəni vəhdəti idi. Ədalətə qəh-qəh çəkən, ədalətsizlik o zaman olur ki, Şər Xeyirə o zaman qalib gəlir ki, cəhalətin ən gözəl nümunəsi cahil insan, ölümünü, Tanrısını unudur, firon iddiası ilə ölümsüz olduğuna inanır, nəfsi gözünü bağlayır, ədalətsizliyə susur, bax, onda xaos başlayar, haqsızlıq baş alanda İblis insana aciz məxluq kimi rişxənd edir.

XX əsrin əvvəllərində Hüseyn Cavidin "Topal Teymur" əsərinin finalını xatırlayaq:

**Yıldırım: Düşünəcək bir şey yoq. Əvət, sən qalibsin. Lakin bu qələbə ədalətin qələbəsi deyil türk əqvamını deyil, yalnız fürsət bəkləyən qomşu hökumətləri məmnun etdi. (Acı bir kökus keçirdikdən sonra, çoq mütəəssir və şiddətli). Ah, daha doğrusu, İslam aləmini başsız qoydu.**

Hüseyn Cavidin "Qoca türkün vəsiyyəti" şeiri də məhz ədaləti təbliğ edirdi. Cavidin milli dəyərlərdən, kimlikdən uzaq düşməyi insanın "uçuruma" yuvarlamasının səbəbi kimi mənalandıran "Uçurum" əsəri hər zaman bizi mənəvi itkilərdən qoruyacaq. Şərq müdrikliyindən, adət-ənənəsindən, köklü ailə dəyərlərindən uzaq düşənlər üçün ağır itkinin nədən ibarət olmasının bu əsərdə şahidi oluruq. Əsərdə deyilən: "O gün ki, İstanbul fransızlaşdı, türk gəncliyi uçuruma yaklaşdı" ifadəsi öz həqiqətini bu günədək qoruyub saxlayır.

Cəlalın Qərb sevdası onun ailə faciəsinə, övlad itkisinə səbəb olur. Göyərçinin, türk anasının, Bosfora yuvarlanan körpə yavrusu, əslində, türk cəmiyyətinin milli mənəviyyatdan uzaqlaşaraq məhv olmaq təhlükəsi yaşayan, gələcəyimizin ifadəsidir. Mənəvi faciələr ruhun böhranına səbəb olur.

Cavid üçün Vətən təkcə Azərbaycan deyil, həm də bütün türkdilli xalqlar yaşayan Turan elidir. 1918-ci ildə yazılan "İblis" əsərində İblisin törətdikləri pislənir, müharibənin insanlara gətirdiyi səfalət və itkilərdən söz açılır. Eləcə də "Kars və Olti ətrafında səbəbsiz olaraq qətl və yağmalanan məzlumlara", "Hərb İlahi qarşısında", "Qaçqın", "Hərb və fəlakət" və sair poetik nümunələrdə Cavidin bütün bəşəriyyət üçün müharibə əleyhinə arzularını çatdırır:

**Bir zamanlar şərəfli Turanın,**
**O cahan qəriyu qovqanın,**
**Qəhrəman bərgüzida övladı,**
**Türklərin anlı, şanlı əcdadı,**
**Saldırıb titrədirdi yer yüzüni,**
**Hökm edər dinlədirdi hər sözüni.**
**Nə zaman kişnəsəydi türkün atı,**
**Kırılırdı bir ölkənin kanatı.**

Çünki Hüseyn Cavid faktiki olaraq bütün türk dünyasının şairi idi. O elə bir dildə yazırdı ki, həmin dili o zaman bütün türk xalqları başa düşürdü. Sərhədlərin ayrılmasından öncəki Cavid dili bütün türkləri birləşdirən bir dil idi. Cavid nə istəyirdi? O bütün insanların xoşbəxtliyini, insanların məhəbbətini istəyirdi. Böyük Hüseyn Cavid bu həyatdan mərhəmət yox, ədalət istəyirdi.

Hüseyn Cavid təxminən 30 yaşlarında türk dünyasına vəsiyyət yazıb. O burada türkçülük, elm, din, ailə, böyüklərə münasibət, yəni həyatımızı əhatə edən əxlaqi, siyasi, ideoloji kateqoriyaları əhatə edən hər bir məsələyə türk övladının necə ədalətlə yanaşmalı olduğunu ortaya qoyub. Onun əsərlərində insan və Tanrı, insan və cəmiyyət, vətəndaş və dövlət münasibətləri qoyulur və bütün bunlarda əsas ideya kimi insan nəzəriyyəsi göstərilir.

Ölkə Prezidenti cənab İlham Əliyevin bir fikri var ki, qara qızıl kapitalını insan kapitalına çevirməliyik. Biz Cavidi oxumadan, onu təbliğ etmədən bunu necə edə bilərik? Məhz kamil insanın necə olmasını Hüseyn Cavid çox gözəl şəkildə göstərir. Biz bəzən ümumi sözlərimizlə deyirik ki, böyük sənətkarlar zaman və məkana sığmırlar. Cavidin bədii zamanı sonsuzdur. Hüseyn Cavid o mövzulara, zamanlara müraciət edir ki, həmin zamanlar bəşəriyyət tarixinin ən önəmli xarakterik zamanlarıdır. Götürək, İran və Turan haqqında "Səyavuş" əsərini. Doğrudur, Cavid Firdovsinin yazdığı kimi onları qarşılaşdırmır, əksinə, bütöv görmək istəyir. İkinci böyük zaman peyğəmbərin zamanıdır. İslam dininin bərqərar olması Məhəmməd peyğəmbərin adı ilə bağlıdır ki, Hüseyn Cavid o zamanı "Peyğəmbər" əsərində əks etdirir. Bəşəriyyətin üçüncü böyük zamanını Cavid "Xəyyam" əsəri ilə diqqətə gətirir. Yeni zaman isə Şərqdən Qərbə hərəkət edən və öz əbədiyyətini öz əli ilə yazan bir zamandır və bu, "Topal Teymur" əsəri ilə bərqərar oldu. Bir də həmişə bizim narahatlığımızın zamanı var, bolşevizm zamanı. Hüseyn Cavid "Knyaz" əsəri ilə o dövrün möhürünü vurdu. Cavid bu böyük zamanlar içərisində olan bir sənətkardır. Bu zamanların bədii təfəkkürə sığışdırılmasının nə qədər çətin olduğu indi hər kəsə bəlli olur. Çünki o dövrlərin hər biri haqqında yazmaq həmin dövrü bütün incəliklərinə qədər bilmək deməkdir. Ona görə də bu böyük zamanları Hüseyn Cavid ədəbiyyata gətirdi və bu möhtəşəmliyi ilə nəinki Azərbaycan, eləcə də dünya ədəbiyyatında özünə böyük heykəl qoydu.

**"Tükəndi taqətü səbrim, ədalət! Ah, ədalət!"** – deyirdi böyük Cavid XX əsrin 37-ci illərində.

**Qoy ədalət zəfər çalsın!** 43 il bundan öncə verilmiş tarixi – aktual müsahibə isə Hüseyn Cavid yaradıcılığına böyük dəyər verən Ulu Öndər Heydər Əliyevin hələ sovetlər zamanı bütün məsələlərdə milli təəssübkeşliyini, xalqımızın milli varlığının qorunub saxlanılması naminə apardığı ədalətli mübarizənin bariz nümunəsidir. Sovet ideologiyasının hökm sürdüyü bir dövrdə belə bir müsahibəsinin mətbuatda işıq üzü görməsi Ulu Öndərin haqq-ədalət, halallıq uğrunda mücadilə vermiş böyük bir İnsan kimi də səciyyələndirir. Bu aktual müsahibəyə nəzər saldıqca, bir daha Nizami Gəncəvindən başlayaraq Hüseyn Cavidlə davam edən tarixi ənənənin Ulu Öndər Heydər Əliyev dühasının hər zaman ədalətin yanında olmasının bariz və tarixi nümunəsidir.

Ədalət isə XXI yüzilliyin 20-ci ilində külli-Qarabağda qalib gəldi! Dünyada isə ədaləti böyük Türk Dünyası həmrəyliyinin bərpa etməsi ümidi ilə...

### Ədəbiyyat siyahısı


1. Azərbaycan KP MK-də Hüseyn Cavidin anadan olmasının 100 illiyi haqqında qərar qəbul edilmişdir. Naxçıvan. İctimai, siyasi, ədəbi-bədii, elmi publisistik jurnal. Nax.MR. Ali Məclisinin orqanı. 2007, №16, s.12-14
2. Əsgərzadə Lütviyyə. Hüseyn Cavid və Azərbaycan ədəbiyyatşünaslığı. Bakı. Elm və Təhsil 2023
3. Cavid H. Əsərləri. 5 cilddə, II c. Bakı: Elm, 2007
4. Cavid H. Əsərləri. 5 cilddə, III c. Bakı: Elm, 2007
5. Cavid H. Əsərləri. 5 cilddə, IV c. Bakı: Elm, 2007
6. Cavid H. Əsərləri. 5 cilddə, V c. Bakı: Elm, 2007



**Faiq Səfərov**
**Naxçıvan Muxtar Respublikası**
**Prokurorluğunun şöbə rəisi,**
**baş ədliyyə müşaviri,**
**Prokurorluğun fəxri işçisi**



# O Günəşin zühuru...

1993-cü ilin yazı... Müstəqilliyimizin əldə olunmasından təxminən iki ilə yaxın vaxt keçib. Respublikada vəziyyət yeni mürəkkəb mərhələyə qədəm qoyub. Ölkə qaynayır, cəbhədə vəziyyət gərginləşir, siyasi dairələrdə qarşıdurmalar genişlənirdi. Torpaqlar parçalanma təhlükəsində idi və əslində parçalanmışdı. Ümidsizləşən insanlar, zəkalı ziyalılar, sadə kütlə də çıxış yolunu yeganə lider Heydər Əliyevin ölkəyə başçılıq etməsində görürdü. Artıq bu, istək yox, xalqın tələbinə çevrilirdi. İnsanlar o Günəşin zühuru ümidi ilə sabahlarını açırdılar...

Azərbaycan ötən yüzillikdə iki dəfə dövlət müstəqilliyi qazanıb. Müstəqilliyin dayaq sütunlarını, milli-ideoloji əsaslarını, suveren dövlətçilik institutlarını yaratmaq və onu həyata keçirmək güclü dövlət siyasətinin və eyni zamanda, milli liderin olmasını tələb edib. Məhz dövlət müstəqilliyini qoruyub saxlamaq, müstəqil dövlət quruluşu və atributlarını yaratmaq, ölkənin ərazi bütövlüyünü, tam suverenliyini təmin etmək, respublikanın vətəndaşlarının rifahını yaxşılaşdırmaq və digər ümummilli məqsədlər Azərbaycan xalqının təkidli tələbindən sonra 1993-cü ildə hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyevin gərgin və qətiyyətli əməyi sayəsində mümkün olmuşdur.

Böyük şəxsiyyət hələ 1969-cu il iyulun 14-də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi kimi ali vəzifəyə seçiləndə respublikada sosial-iqtisadi həyatın bütün sahələrində bir gerilik, ətalət hökm sürürdü, bu isə xalqın milli-mənəvi birliyinə öz mənfi təsirini göstərirdi. Ona görə də həmin vaxt dahi öndərin ən mühüm vəzifələrindən biri respublikada iqtisadi potensialın dağılmasının, ictimai-siyasi həyatda özünü kəskin büruzə verən tənəzzülün qarşısını almaqdan ibarət idi. O illərdə respublikada kosmopolit bir ovqat hökm sürdüyündən milli kadrların hazırlanmasına, milli dilin inkişaf etdirilməsinə və dövlət idarəetmə strukturlarında çalışan məmurların azərbaycanlı olmasına diqqət yetirilməsi istiqamətində ciddi addımlar atılmır, hətta bu yöndə irəli sürülən təşəbbüslərin qarşısı kəskin şəkildə alınırdı. Belə bir şərait isə şübhəsiz ki, milli şüura malik olan, milli düşüncə ilə yaşayan və milli mentalitetin daşıyıcısı sayılan kadrların yetişməsinə öz mənfi təsirini göstərirdi.

Respublikada yaşanan iqtisadi böhran nəticəsində əhalinin sosial durumu ağırlaşmışdı. Mövcud tənəzzülü aradan qaldırmaq üçün Ümummilli Liderin rəhbərliyi ilə, ilk növbədə, yeni konseptual səviyyədə yanaşma yolları işlənib hazırlandı, köklü struktur dəyişikliklərinə başlanıldı, təsərrüfatçılıqda və iqtisadi həvəsləndirmədə yeni üsulların tətbiqi diqqət mərkəzində saxlanıldı. Bununla da qısa müddət ərzində iqtisadi potensialın gücləndirilməsinə nail olundu. Azərbaycanın iqtisadi həyatında o vaxtadək nəzərə çarpmayan uğurlar əldə edildi.

Həmin illərdə Bakıda genişmiqyaslı tikinti-quruculuq, abadlıq işləri görüldü, müasir Azərbaycanın memarlıq ansamblı yaradıldı, qədim tarixə malik neçə-neçə memarlıq abidəsi isə bərpa edildi, paytaxtın ən görkəmli yerlərində xalqımızın milli varlığının daşıyıcısı olan tarixi şəxsiyyətlərin əzəmətli heykəlləri ucaldıldı, onların ev-muzeyləri fəaliyyətə başladı, yeni inzibati mərkəzlər, çoxsaylı yaşayış binaları tikilərək istifadəyə verildi.

O zaman Azərbaycanda ali təhsil müəssisələrinin, onların fakültə və ixtisaslarının sayı artırılmaqla bərabər, yüzlərlə gənc keçmiş sovetlər ittifaqının nüfuzlu ali məktəblərinə təhsil almağa göndərildi. Bununla Ulu Öndər Azərbaycanın elmi və kadr potensialını yüksəltmək, gələcəyin müstəqil ölkəsi üçün gərəkli kadrlar yetişdirmək, dəyərli təhsil ənənəsinin əsasını qoymaq, xalqımızın milli-mənəvi, əxlaqi dəyərlərinin təbliğini reallaşdırmaq məqsədi güdürdü.

Heydər Əliyev Respublikanı idarə etdiyi 1970 – 1980-ci illərdə azərbaycanlı hərbçi kadrların yetişdirilməsinə xüsusi önəm verməsinin nəticəsi idi ki, Cəmşid Naxçıvanski adına hərbi məktəbin açılması ilə sovet ordusu sıralarında azərbaycanlı zabitlərin çəkisi artdı və həmin zabitlər sonradan milli ordu quruculuğu prosesində mühüm rol oynadılar.

Ulu Öndər gələcəyin müstəqil Azərbaycanını düşünərək, xalqın milli dövlətçilik arzularının daha da güclənməsi üçün dövlət quruculuğu sahəsində də mühüm tədbirlər həyata keçirirdi. Keçmiş SSRİ-nin xarici siyasəti çərçivəsində Azərbaycanın xarici aləmdə



elmi-texniki, iqtisadi və mədəni əlaqələrinin genişlənməsinə böyük səy göstərirdi. Keçmiş SSRİ respublikalarında və xarici ölkələrdə də mütəmadi şəkildə Azərbaycan mədəniyyəti və incəsənəti günləri keçirilirdi. Bütün bunlar isə son nəticədə Azərbaycanın xarici ölkələrlə və orada yaşayan azərbaycanlılarla əlaqələrinin qurulması üçün zəmin yaradır, azərbaycanlıların özünəməxsus tarixi, mədəni ənənələri olan xalq olaraq tanınmasını, Bakının isə dünya miqyasında bir elm və mədəniyyət mərkəzinə çevrilməsini təmin edirdi.

Bəllidir ki, ədalətin, qanunçuluğun bərqərar, üstün olduğu dövlətdə yaşamaq bütün zamanlarda hər bir xalqın arzusu olub. Azərbaycan xalqı da XX əsrin sonunda dövlət müstəqilliyini bərpa edərkən bu idealla yaşayırdı. Lakin təəssüflər olsun ki, 1991 – 1992-ci illərdə Respublikadakı faktiki hakimiyyətsizlik, siyasi hərc-mərclik, cinayətkarlığın sürətlə artması haqq və ədalətin keşiyində durmalı olan dövlət qurumlarının fəaliyyətinin ciddi şəkildə aşınmasına, o cümlədən məhkəmə-hüquq sistemində qeyri-sağlam mühitin yaranmasına rəvac vermişdi. Heydər Əliyev 1993-cü ilin iyununda respublika rəhbərliyinə qayıdanda Azərbaycan, sözün həqiqi mənasında, iflas həddində idi, hüquqi dövlət, ədalət və qanunçuluqdan danışmaq isə, ümumiyyətlə, mümkün deyildi. Ermənistanın ölkəmizə qarşı işğalçı müharibəsinin davam etməsi, respublikada bütün sahələri bürüyən böhran, tənəzzül, siyasi didişmələr Azərbaycanı parçalanmaq və dövlət olaraq məhv olmaq təhlükəsi ilə üz-üzə qoymuşdu.

Belə bir zamanda ölkəyə rəhbərliyi, onun gələcək taleyi ilə bağlı tarixi məsuliyyəti üzərinə götürən Heydər Əliyev müdriklik, ədalət, həqiqət üzərində təşəkkül tapan dövlətçilik konsepsiyası ilə milli müstəqilliyimizi əbədi və sarsılmaz etdi. Məhz böyük öndərin iradəsi, siyasi zəkası, vətəndaşlıq hünəri sayəsində dövlətçiliyimizin inkişaf yolundakı maneələr aradan qaldırıldı. Belə ki, 1994-cü ilin oktyabr və 1995-ci ilin martında dövlət çevrilişi cəhdlərinin qarşısı alınandan, ölkədə ictimai-siyasi sabitlik təmin ediləndən və qanunsuz silahlı birləşmələrin fəaliyyətinə son qoyulandan sonra Azərbaycanın sosial-iqtisadi inkişafının möhkəm hüquqi bazası yaradılmağa başlandı.

Liberal bazar iqtisadiyyatının bütün komponentlərini həyata keçirməyi islahatların başlıca hədəflərinə çevirən Azərbaycan hökuməti 1994-cü ildən başlayan bərpa və dinamik inkişaf dövrünün tələblərinə uyğun qətiyyətli addımlar atdı. Dövlətin tabeçiliyində olan torpaq mülkiyyəti kəndlilərə verildi ki, bu sahədə respublikamız MDB-də ilk islahat aparan ölkə hesab olunur. Digər sahələrdə də özəlləşmənin həyata keçirilməsi nəticəsində iqtisadiyyatın strukturunda ciddi keyfiyyət dəyişiklikləri baş verdi və liberal iqtisadiyyatın formalaşması üçün əlverişli zəmin yarandı. Bunun nəticəsində ölkədə maliyyə vəziyyəti sabitləşdi, iqtisadiyyata cəlb olunan investisiyaların həcmi ildən-ilə artdı, xalqın həyat səviyyəsi yaxşılaşmağa başladı. İqtisadi transformasiyanın sürətləndirilməsi sayəsində planlı iqtisadi sistemdən liberal bazar iqtisadiyyatına keçid üçün münbit şərait formalaşdı. İqtisadiyyatın əsasını təşkil edən neft sektoru ilə yanaşı, digər sahələrdə də genişmiqyaslı islahatların təməli qoyuldu.

Ulu Öndərin atdığı qətiyyətli addım sayəsində 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" ölkənin neft-qaz sənayesinin dirçəlməsinə və Azərbaycanın gələcək rifahının başlanğıcı olmaqla respublikanın enerji sektorunun inkişafı iqtisadiyyatın qeyri-neft sahəsinin fəal artımına gətirib çıxarmışdır. Bu sazişin böyük iqtisadi faydası ilə yanaşı, daha bir əhəmiyyəti var idi: Saziş dünyanın aparıcı dövlət və şirkətlərini bir daha əmin etdi ki, Azərbaycan müstəqil və etibarlı tərəfdaşdır. Bu ölkədə işləmək və sərmayə qoymaq olar. "Əsrin müqaviləsi" bütün dünya dövlətlərinin Azərbaycana inamını artırdı və bir qədər sonra dünyanın ən böyük və tanınmış neft şirkətlərinin ölkəmizə axınına şərait yarandı. Bununla da Azərbaycan öz qapılarını xarici sərmayələr üçün taybatay açdı. Müqavilənin imzalanması Azərbaycan iqtisadiyyatının digər sahələrinə də xarici sərmayələr qoyuluşunda həlledici rol oynadı.

"Əsrin müqaviləsi"nin həyata keçirilməsinə başlanan vaxtdan Azərbaycan iqtisadiyyatında dönüş yarandı və böyük işlərə başlanıldı. 1999-cu ilin dekabrında Azərbaycanın ilk mənfəət nefti ilə doldurulmuş tankeri dünya bazarlarına çıxarıldı. Heydər Əliyevin neft strategiyasının əsas istiqamətlərindən biri Azərbaycan neftinin dünya bazarlarına nəqlinin təmin edilməsi idi. Ulu Öndərin əzmkarlığı və qətiyyəti nəticəsində Bakı-Tbilisi-Ceyhanın çəkilməsinə dair sazişin imzalanması mümkün oldu. Heydər Əliyevin qəti əzmkarlığı və Türkiyə, Azərbaycan və Gürcüstan dövlətlərinin birliyi nəticəsində çoxlarının əfsanə hesab etdiyi layihə reallığa, gerçəkliyə çevrildi. 2006-cı il mayın 28-də Azərbaycan nefti Ceyhan limanına çatdı və iyulun 4-də neftlə yüklənmiş ilk tanker buradan yola

salındı. İyulun 13-də Türkiyənin Ceyhan şəhərində XXI əsrin ən böyük enerji layihəsi olan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təntənəli açılış mərasimi keçirildi. BTC dünya dövlətləri ilə Azərbaycan dövlətinin yeni münasibətlərinin, dünya xalqları ilə Azərbaycan xalqının əlaqələrinin yenidən qurulmasına təkan verdi, Azərbaycanın xarici siyasətinin güclənməsinə və inkişaf etməsinə səbəb oldu.



Heydər Əliyev siyasi hakimiyyətə qayıdandan dərhal sonra bəyan etdi ki, qarşıda əsasən iki məsələ dayanır: dövlət müstəqilliyini əbədiləşdirmək və Azərbaycan vətəndaşı üçün xaos və anarxiyadan uzaq, firavan, ədalətin bərpa edildiyi bir cəmiyyət formalaşdırmaq. Bu isə Ulu Öndərin insan hüquqlarına və ədalətə nə dərəcədə önəm verdiyini göstərirdi. Məhz həmin önəmin nəticəsi idi ki, Ümummilli Lider dünyanın demokratik ölkələrində mövcud olan ən mükəmməl təcrübələri də nəzərdən keçirdikdən sonra Azərbaycanda möhtəşəm hüquq islahatlarına başladı.

Böyük öndərin rəhbərliyi altında hazırlanan, geniş ictimai müzakirələrdən keçərək 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul olunan yeni Konstitusiya ölkəmizdə dövlət quruculuğunda fundamental islahatlara yol açdı. Konstitusiyada müstəqil və şəffaf məhkəmə sisteminin fəaliyyətini müəyyənləşdirən əsas prinsip və normalar öz əksini tapdı.

Həmin islahatların ən mühüm tərkib hissələrindən olan məhkəmə hakimiyyəti sahəsində nəinki respublikamızda, həm də bütün postsovet məkanında misli olmayan yeniliklərə imza atıldı.

Qüdrətli şəxsiyyətin aşağıdakı sözləri də onun Azərbaycanda hüquqi dövlət quruculuğuna yetirdiyi diqqətin ən bariz ifadəsi idi: “Biz hüquqi dövlət qururuq. Hüquqi dövlətin əsasını təşkil edən qanunlardır. Biz qanunsuzluqları, ədalətsizlikləri aradan götürəcəyik, ancaq bir iş qanunsuz olarsa, o biri qanunsuz işlə qanunsuzluğu aradan götürmək olmaz. Bir şey ədalətsizliklə olubsa, ədalətsizliklə ədaləti bərpa etmək olmaz. Dövlət iki şeydən sarsıla bilər: günahkar cəzasız qalanda və günahsıza cəza veriləndə. Ədaləti bərpa etmək lazımdır”.

Heydər Əliyev yenidən siyasi hakimiyyətə qayıdandan sonra Azərbaycanın beynəlxalq aləmə inteqrasiyası prioritet istiqamət kimi diqqət mərkəzində idi. Çünki xarici investorlar o illərdə sovet dönəmindən qalan qanunlarla idarə edilən respublikaya sərmayə qoymaq istəmir, mövcud şəraitdə fəaliyyət göstərməyin mümkünsüzlüyünü bildirirdilər. Ona görə də Ulu Öndər sırf müstəqil Azərbaycan qanunlarını, hüquq sistemini yaratmaq üçün şəxsən özünün rəhbərliyi ilə siyasi-hüquqi fəaliyyətə başlamaq qərarını verdi.

1993-cü ilin ikinci yarısından başlayaraq, respublikamızda cinayətkarlıq və hüquq pozuntularına qarşı barışmaz mübarizə elan edildi. Bütün hüquq-mühafizə orqanlarının fəaliyyəti cinayətkar təzahürlərə, ilk növbədə, mütəşəkkil cinayətkarlığa, korrupsiyaya və terrorizmə, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəyə səfərbər olundu.

Bütün bunlar Azərbaycanda ardıcıl və sistemli surətdə hüquqi dövlət quruculuğu və vətəndaş cəmiyyətinin formalaşdırılması prosesinə başlamaq imkanı yaratdı. Ümummilli Lider sivil Qərb dəyərlərinin cəmiyyətdə tam mənimsənilməsinə, demokratik normaların daha möhkəm intişar tapmasına, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı təminatına xüsusi diqqət göstərirdi. Bu mənada Ulu Öndərin 1994-cü il avqustun 9-da imzaladığı “Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi tədbirləri haqqında” fərmanı ölkədə konstitusiyalı dövlət quruluşunun mühafizəsinə, insan hüquq və azadlıqlarının cinayətkar qəsdlərindən qorunmasına yönəldi və cinayətkarlığa qarşı mübarizədə əsaslı dönüş yaratdı.

Dahi rəhbərin 21 fevral 1996-cı il tarixli fərmanı ilə yaradılan Hüquq İslahat Komissiyası da bu və digər qanunların təkmil, beynəlxalq təcrübə əsasında, demokratik ideallara uyğun formada hazırlanmasını gerçəkləşdirdi. Ulu Öndərin “Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin fəaliyyətinin təmin edilməsi haqqında” və “Məhkəmələr və hakimlər haqqında Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi və məhkəmə islahatlarının həyata keçirilməsinə dair tədbirlər barədə” müvafiq fərmanları insan hüquq və azadlıqlarının təminatına xidmət sahəsində, məhkəmə-hüquq islahatlarının həyata keçirilməsində yeni səhifə açdı.

1998-ci il iyunun 18-də Ümummilli Liderin müvafiq fərmanı ilə təsdiq olunan “Azərbaycanda insan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı” isə hüquqi islahatlarda yeni mərhələ açdı. 1998-ci ildə Azərbaycanda məhkəmə-hüquq sisteminin ali instansiyası – Konstitusiya Məhkəməsi fəaliyyətə başladı.

Şərq aləmində ilk dəfə olaraq Azərbaycanda ölüm cəzasının ləğvi də Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu faktın özü Ümummilli Liderin nə qədər humanist bir insan olduğunu, onun yaratdığı dövlətin isə dünyəvi, demokratik, hüquqi dövlət quruculuğu yolu ilə inamla irəlilədiyini bir daha sübuta yetirdi. Heydər Əliyev bu barədə deyirdi: "Bütün bunlar Azərbaycan xalqının çoxəsrlik ənənələrindən irəli gəlir, ən yüksək dəyər olan insan həyatının qorunmasına təminat verir, cəmiyyətimizi insaniləşdirir, insan ləyaqətinə hörmət və ehtiramı, bütünlükdə ölkəmizdə demokratiyanın inkişafını nümayiş etdirir, xalqımızda nikbin gələcəyə inam yaradır. Mən cinayət-hüquq siyasətini hərtərəfli təhlil edərək, ədalət, azadlıq, humanizm və insanpərvərlik kimi yüksək ideallara sadiq qalaraq ölkəmizdə ölüm cəzasının ləğv edilməsi qənaətinə gəlib bu tarixi bəyanatı vermişəm. Ölüm cəzasının ləğvini məhz bu siyasətin məntiqi nəticəsi kimi qiymətləndirirəm".

Əsas Qanunda ilk dəfə olaraq respublikamızın dövlət quruluşu sistemində prokurorluğun layiqli yeri müəyyənləşdirilmiş, məhkəmə hakimiyyəti sisteminə daxil olan prokurorluq orqanlarının statusu, təşkili və fəaliyyət prinsipləri, səlahiyyət dairəsi və vəzifələri qanunvericilik qaydasında təsbit edilmişdir.



Həmin illərdə Respublikamızda separatçılıq meyllərinin və dövlət çevrilişinə cəhdlərin qarşısının alınmasında ölkə rəhbəri tərəfindən prokurorluq orqanlarının üzərinə mühüm vəzifələr qoyuldu. Prokurorluq orqanlarının əməkdaşları dövlətimizin suverenliyinə və müstəqilliyinə qarşı ağır cinayətlər törədən şəxslərin müəyyən olunub məsuliyyətə cəlb edilməsində tam məsuliyyəti ilə çalışaraq onlara göstərilən etimadı doğrultdular.

Ümummilli Lider Heydər Əliyev ölkəni ağır vəziyyətdən çıxarmaq, vətəndaş müharibəsinin qarşısını almaq, qanunsuz silahlı dəstələri aşkarlayaraq ləğv etmək, təhlükəli cinayətlər törədənləri yaxalamaq və bu kimi digər mühüm vəzifələrin yerinə yetirilməsində digər hüquq-mühafizə orqanları kimi, prokurorluğa da arxalanmış, ona inanmışdır.

Ulu Öndər dövlət başçısı kimi daim inandığı, güvəndiyi və arxalandığı prokurorluq orqanlarına, bu orqanlarda şərəflə çalışanlara qayğısını heç vaxt əsirgəməmişdir. Prokuror peşəsinə dərin hörmət və ehtiramının bariz təzahürü kimi o, hər il oktyabrın 1-nin prokurorluq işçilərinin peşə bayramı kimi qeyd edilməsi barədə 17 iyul 1998-ci il tarixli sərəncam imzalamış, həmçinin prokurorluq işçilərini dövlət təltiflərinə layiq görmüşdür. Fərəh və qürur hissi ilə qeyd olunmalıdır ki, MDB-də prokurorluğun peşə bayramı gününün təsis edildiyi ilk ölkə Azərbaycan olmuşdur. Ulu Öndər prokurorluq işçilərinin peşə fəaliyyətini yüksək qiymətləndirərək demişdir: "Prokurorluq peşəsi ağır, çətin peşədir. Amma eyni zamanda, çox şərəfli, hörmətli peşədir. Mən arzu edərdim ki, siz həmişə bu peşəni şərəflə daşıyasınız. Arzu edərdim, çalışasınız ki, Azərbaycan vətəndaşı kimi, eyni zamanda Azərbaycan prokuroru kimi hörmətli, şərəfli olasınız. Azərbaycan Prokurorluğunun inkişaf etməsinə dövlət qayğısı bu gün də, gələcəkdə də olacaqdır. Buna əmin ola bilərsiniz. Azərbaycan Prezidenti kimi mən Azərbaycan Prokurorluğuna inanıram, güvənirəm və arxalanıram".

Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında aparılan islahatlar nəticəsində prokurorluq orqanlarının səlahiyyətləri beynəlxalq standartlara uyğunlaşdırılmış, ölkədə qanunçuluğun möhkəmləndirilməsində, cinayətkarlığa qarşı mübarizədə bu orqanların rolu artırılmış, kadrların peşəkarlıq səviyyəsi yüksəldilmişdir. Konstitusiyanın qəbulundan sonra, onun müvafiq maddəsinə əsasən "Prokurorluq haqqında" Qanun layihəsinin hazırlanıb qəbul edilməsi və 7 dekabr 1999-cu il tarixdə qüvvəyə minməsi prokurorluğun totalitar rejimə xas bəzi funksiyalardan azad olunmasını, onun fəaliyyətinin forma və metodlarının demokratik dəyərlərə uyğunlaşdırılmasını təmin etmişdir. Azərbaycan prokurorluğunda demokratik, hüquqi dövlət quruculuğunun müasir tələblərinə cavab verən köklü islahatlar və səmərəli struktur dəyişikliklərinin əsası Ulu Öndər Heydər Əliyevin iştirakı ilə 26 aprel 2000-ci ildə keçirilən geniş müşavirədən sonra başlanmış və uğurla icra edilmişdir. Həmin müşavirədəki nitqində Ulu Öndər demişdir: "Sağlam mənəviyyat hər bir prokurorluq işçisi üçün, qanun keşiyində duran hər bir məmurumuz üçün əsas meyar olmalıdır. Əgər bu yoxdursa, o insan nə qədər yaxşı işləyirsə işləsin, bizim tələblərimizə cavab verə bilməyəcəkdir. Bizim tələblərimiz isə qanundur, qanunun aliliyidir".

Müdrik və uzaqgörən rəhbərin bu tələb və tövsiyəsi hər bir prokurorluq işçisi üçün həyat və fəaliyyət meyarıdır. Ölkəmizdə dövlət quruculuğu prosesinin dərinləşməsi prokurorluğun cəmiyyətdə və idarəçilik

sistemində rolunu daha artırmaq zərurəti yaratmış, 2002-ci il sentyabrın 19-da qüvvəyə minmiş "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" referendum aktına əsasən, prokurorluğa həm də qanunvericilik təşəbbüsü hüququ verilmişdir. Ulu Öndər Heydər Əliyevin Baş Prokurorluğa və onun dövlətçiliyimizin möhkəmləndirilməsindəki roluna verdiyi yüksək dəyərin təzahürü olan bu hüquq ictimai həyatın ayrı-ayrı sahələrinin hüquqi tənzimlənməsindəki çatışmazlıqlar haqqında Milli Məclisə məlumatların verilməsi, habelə müvafiq qanun layihələrinin ali qanunverici orqana təqdim edilməsi ilə gerçəkləşdirilir. Ulu Öndərin müstəqil, müasir dövlət quruculuğu konsepsiyasının tərkib hissəsi olan məhkəmə-hüquq islahatları Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında böyük uğurla davam etdirilmişdir. Bu baxımdan, dövlət başçısının prokurorluq orqanlarına inam və etimadının təzahürü olan qərarları da bu orqanların fəaliyyətinin təkmilləşdirilməsində və müasirləşdirilməsində mühüm əhəmiyyət kəsb etmişdir. Belə ki, ölkə Prezidentinin 3 mart 2004-cü il tarixli Sərəncamı ilə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi yaradılmış, 3 sentyabr 2004-cü il tarixli "Korrupsiyaya qarşı mübarizə üzrə dövlət proqramının (2004-2006-cı illər) təsdiq edilməsi barədə" Sərəncamda isə digər hüquq-mühafizə orqanları ilə yanaşı, prokurorluq işçilərinin də yüksək dövlət



məvacibi ilə təmin edilməsi, onların əməkhaqlarının mərhələlərlə artırılması, sosial təminatlarının yaxşılaşdırılması məsələləri əksini tapmışdır. "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009 – 2011-ci illər üçün Dövlət Proqramı"nın təsdiq olunması, korrupsiyaya qarşı ixtisaslaşmış cinayət təqibi orqanı olan Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin fəaliyyətinin tamamilə yeni müstəviyə qaldırılmaqla, strukturunun və iş metodlarının təkmilləşdirilməsi və bu quruma əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi səlahiyyətlərinin verilməsi möhtərəm Prezidentimizin prokurorluq orqanlarının dövlət idarəçiliyindəki roluna verdiyi dəyərin bariz göstəricisidir.

Heydər Əliyevin Azərbaycanın iqtisadi-sosial və siyasi-hüquqi sisteminin qurulmasında olduğu kimi, demokratik inkişafa, xüsusilə də, söz və mətbuat azadlığına olan diqqət-qayğısı da özünü yüksək nəticələrdə göstərirdi. Ulu Öndərin Azərbaycan mətbuatının inkişafında rolu özünü müstəqillik illərində xüsusilə nümayiş etdirib. Müstəqilliyimizin ilk illərində təsadüf nəticəsində hakimiyyətə gəlmiş iqtidarın hərbi və siyasi senzurasında boğulan Azərbaycan mətbuatı yalnız Ümummilli Lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra xilas oldu, inkişaf etdi.

Dahi liderin ölçüyəgəlməz səyləri nəticəsində Azərbaycanda mətbuat orqanlarının azad fəaliyyəti və inkişafı yolunda süni maneələrin aradan qaldırılması, qanunvericilik bazasının təkmilləşdirilməsi, kütləvi informasiya vasitələrinin maddi-texniki təchizatının yaxşılaşdırılması sahəsində ardıcıl tədbirlər həyata keçirildi. Vətəndaş cəmiyyəti quruculuğunu özünün inkişaf modeli kimi qəbul edən Azərbaycan Respublikası insan hüquqları, söz və mətbuat azadlığının təmin olunması ilə bağlı bir sıra beynəlxalq konvensiya və sazişlərə qoşuldu. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" 6 avqust 1998-ci il tarixli fərmanı KİV-in sərbəst inkişafı, cəmiyyətin dinamik şəkildə demokratikləşməsi yolunda dövlət siyasətinin həyata keçirilməsində mühüm addım oldu. Bu fərmanla Nazirlər Kabineti yanında mətbuatda və digər kütləvi informasiya vasitələrində Dövlət Sirlərinin Mühafizəsi Baş İdarəsi ləğv edildi, hərbi senzura yaradılması haqqında 16 aprel 1992-ci il tarixli fərman və bütün informasiya yayımı üzərində nəzarət tətbiq edilməsi ilə bağlı 15 aprel 1993-cü il tarixli sərəncam qüvvədən düşmüş hesab edildi. Həmçinin 1998-ci ildə senzuranın ləğvi müstəqil mətbuatımızı ictimai fikrə təsir edən və "dördüncü hakimiyyət" funksiyasını həyata keçirən real gücə çevirdi. Məhz bundan sonra mətbuatımızın azad cəmiyyətin və demokratik ölkənin formalaşdırılmasında rolu ortaya çıxdı, hərtərəfli şəkildə dövlət qayğısı ilə əhatələnən mediamız həmin dövrdə müstəqil Azərbaycanımızın atributuna çevrildi. Mətbuata dövlət nəzarəti olan senzuranın aradan qaldırılmasından sonra beynəlxalq standartlara cavab verən "Kütləvi informasiya vasitələri haqqında", "Məlumat azadlığı haqqında" Qanunlar qəbul edildi, KİV-nin təsis edilməsi və fəaliyyəti üçün qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində mühüm addımlar atıldı.

Tarixi, adət-ənənələri, milli fəlsəfi məfkurəni, təcrübəni və zəngin mədəniyyətimizin bütün çalarlarını özündə ehtiva edən azərbaycançılıq ideologiyasının

müəllifi də məhz Ümummilli Lider Heydər Əliyevdir. Azərbaycançılıq ideologiyası təkcə bu dövlətin ərazisində yaşayan şəxsləri yox, eyni zamanda bütün dünyada məskunlaşan azərbaycanlıları əhatə edən, dünya azərbaycanlılarını vahid ideologiya ətrafında birləşdirən milli məfkurəyə çevrildi. Ulu Öndər daim vurğulayırdı ki, azərbaycançılıq ideologiyası real müstəqilliyə nail olmaq, vahid, bölünməz Azərbaycanı qoruyub saxlamaq və möhkəmləndirmək üçün vasitədir. Heydər Əliyevin fəlsəfi baxışlarına görə, azərbaycançılıq milli mənsubiyyəti, milli-mənəvi dəyərləri qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək deməkdir. Xalqımızın milli-mənəvi dəyərlərini həm müdafiə etməyi, həm də qoruyub saxlamağı bacaran, dövlətlə vətəndaşların mənafeyini üzvi şəkildə birləşdirən azərbaycançılıq ideologiyası ölkədə vətəndaş birliyi üçün uğurlu təməldir: “Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq” deyən Heydər Əliyev azərbaycançılığı milli ideologiyaya çevirməklə cəmiyyətin həmrəylik və bütövlüyünə, mənəvi birliyinə nail olmuşdur.

Bir sözlə, Ümummilli Lider Heydər Əliyevin onillik prezidentliyi dövründə ölkə kökündən dəyişmiş, daxili və xarici siyasətin bir çox istiqamətlərində əhəmiyyətli uğurlar qazanılmışdır. Azərbaycan dövləti uzunmüddətli yaşamaq qabiliyyətini, cəmiyyət isə tarixi prosesin növbəti mərhələsində iştirak etməyə hazır olduğunu nümayiş etdirmişdir.



Aqillər dahi şəxsiyyətləri uca, möhtəşəm dağa bənzədirlər. Ondan uzaqlaşdıqca, əzəməti daha aydın nəzərə çarpır. Bu mənada Ulu Öndər Heydər Əliyevin fiziki yoxluğunu illər bizdən ayırdıqca, onun güc-qüdrəti, iradəsi, siyasi zəkası, vətəndaşlıq hünəri sayəsində gerçəkləşən ideyaları gözlərimiz önündə daha aydın canlanır. Ümummilli Liderin Vətən, xalq qarşısında böyük xidmətlərinə görə qərinələr, əsrlər boyu düşüncələrdə, qəlblərdə yaşayacağı qənaəti möhkəmlənir.

Müasir Azərbaycan tarixinin 30 ildən artıq bir dövründə respublikamıza rəhbərlik etmiş Heydər Əliyev dövlətçilik salnaməsində elə bir irs yaratmışdır ki, onun öyrənilməsinə, təbliğinə və tətbiqinə hələ uzun illər böyük ehtiyac olacaqdır. Onun müdrik dövlətçilik fəaliyyətinə xalqımız tərəfindən verilən yüksək qiymətin nəticəsidir ki, Ümummilli Liderin Azərbaycanda siyasi hakimiyyətə xilasedici qayıdışı – 1993-cü ilin 15 iyunu “Azərbaycan xalqının Milli Qurtuluş Günü” kimi hər il təntənə ilə qeyd edilir.

Bu gün xalqımız əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş siyasi və iqtisadi uğurlarını hiss edir, onunla yaşayır və faydalanır. Əldə edilən uğurların icraçısı isə Ulu Öndərin layiqli siyasi varisi möhtərəm Prezidentimiz İlham Əliyevdir. 1993 – 2003-cü illər Azərbaycan tarixinə dirçəliş, inkişaf illəri kimi daxil olub, 2003-cü ildən sonrakı dövr isə böyük yolun davamı kimi dəyərləndirilir. Bu gün Prezident İlham Əliyevin gördüyü işlər Azərbaycanın güclü, bütün məsələlərlə bağlı öz prinsipial mövqeyi olan, müstəqil siyasi iradə nümayiş etdirən ölkə kimi tanınmasını şərtləndirib. Həyata keçirilən uğurlu siyasət Azərbaycanı yalnız regionda deyil, həmçinin beynəlxalq miqyasda da söz sahibi olan bir ölkə kimi tanıtdırdı. 44 günlük İkinci Qarabağ – Vətən müharibəsində qazanılan möhtəşəm Qələbə bu uğurların məntiqi nəticəsidir.

Azərbaycan Respublikası Prezidentinin 29 sentyabr 2022-ci il tarixli Sərəncamına əsasən 2023-cü il “Heydər Əliyev İli” elan edilib. “Heydər Əliyev İli” bu dahi şəxsiyyətin həyatı, fəaliyyəti, mübarizəsi və idealları ilə əlaqədar bir çox mühüm məsələlərə yenidən və əsaslı qayıdışa şərait yaradacaqdır. Bu, həm də Ulu Öndərin Azərbaycanın ən yeni tarixinin 34 illik dövründə Azərbaycan xalqı, dövlətçiliyimiz, müstəqilliyimizin qorunması və möhkəmləndirilməsi uğrunda yorulmaz fəaliyyətinə və misilsiz xidmətlərinə verilən yüksək dəyərdir. Sevindirici haldır ki, Azərbaycan xalqı 2023-cü ili – “Heydər Əliyev İli”ni də doğma Qarabağımızın yenidən çiçəklənməsi və Böyük Qayıdışın davam edəcəyi il kimi qeyd etdi.

Azərbaycan xalqının Heydər Əliyevə olan məhəbbəti əbədidir. Xalqımız hər zaman öz xilaskarını dərin minnətdarlıq hissi ilə xatırlayacaqdır. Nə qədər Azərbaycan var, nə qədər bu xalq var, Heydər Əliyev də var olacaq və əziz xatirəsi qəlbimizdə hər zaman əbədi yaşayacaq.

**Adil Vəliyev**
**Saatlı rayon prokuroru,**
**baş ədliyyə müşaviri**

# Xalqımızın görkəmli şəxsiyyəti Heydər Əliyevin idarəçilik siyasəti




Yunan filosofu Platon hökmdarın, rəhbərin əsas cəhəti kimi kütlədən fərqləndiyi, xüsusi istedada və bacarığa, təcrübəyə, idarəetmə qabiliyyətinə malik olduğu qənaətini irəli sürmüş və öz düşüncələrini "Əsl usta – ədalətli qanunvericidir. Filosof – hakimdir!" mahiyyətində, ədalətlilik və filosofluq mənalarının daşıdığı məzmundan çıxış edərək birbaşa müdriklik kimi əsaslandırmışdır.

Problemə bu tarixi tipoloji qiymətləndirmələr kontekstindən və eləcə də müasir politoloji aspektlərdən yanaşdıqda xalqımızın görkəmli şəxsiyyəti Ulu Öndər Heydər Əliyevin yeritdiyi idarəçilik siyasət müdriklik keyfiyyətləri ilə diqqəti cəlb edir. Həm də xüsusilə vurğulamalıyıq ki, Heydər Əliyev müdrik siyasətçi Lider zirvəsinə heç də təsadüfi, "anidən" deyil, pillə-pillə, ömür sınaqları və iş təcrübələrindən inamla çıxmaqla, yüksək peşəkarlığa yiyələnməklə ucalmışdır. Ulu Öndər Heydər Əliyev siyasətinin müdriklik gücü Milli Dövlət ideyasını şərtləndirən ən əsas qayə əlbəttə ki, onun milli Lider missiyası idi və o bu missiyasını nəinki ölkəmizin müstəqillik əldə etdiyi mərhələdəki siyasi fəaliyyətində, hətta sərt totalitar sovet imperiyasında ən yüksək siyasi kürsülərdə təmsil olunduğu dövrdə nəhəng bir dövləti idarəetmə siyasətində xüsusi diqqətdə saxlamış, öz məqsəd və amalı olaraq dərk edib bütün qüvvəsilə həyata keçirmişdir. Bu ağır və ikiqat məsuliyyətli işin öhdəsindən o, məhz milli lider şəxsiyyətindən irəli gələn güclü iradə, mətinlik, qəhrəmanlıq keyfiyyətlərinin cəmləndiyi müdrik siyasət vasitəsilə gəlmişdir.

Tarixi faktlardan çıxış edərək deyə bilərik ki, Heydər Əliyevin 40 il qədər geniş bir dövrü əhatə edən müdrik siyasi fəaliyyəti konstitusiya, vətəndaş cəmiyyəti və onlarla digər sosial-mədəni və habelə iqtisadi sahədə olduğu kimi praktiki mahiyyətdə də Azərbaycanın milli dövlət quruculuğu salnaməsidir. Azərbaycan xalqına məxsus bütün geosiyasi yeraltı və yerüstü milli sərvətlər, milli iqtisadiyyatımız, milli mədəniyyətimiz, milli elmimiz, milli təhsilimiz, milli ədəbiyyatımız, milli teatrımız, milli musiqimiz, milli muzeylərimiz, milli məscidlərimiz, milli kitabxanalarımız, milli idmanımız, o sırada milli səhiyyəmiz və neçə-neçə sahəsi Heydər Əliyevin müdrik siyasəti, böyük zəhməti, peşəkar idarəçilik imkanları ilə sistemli şəkildə dəyərləndirilib, inkişaf etdirilərək milli dövlət ideyasına tam cavab verən səviyyəyə yüksəlmişdir.

Azərbaycan xalqının böyük oğlu, müstəqil Azərbaycan dövlətinin qurucusu, Azərbaycan siyasi sisteminin yaradıcısı, azərbaycançılıq ideologiyasının banisi, Azərbaycanda milli özünüdərk prosesinin başladıcısı və idarəedicisi Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqının dövlətçilik tarixində o qədər böyük yeniliklərə, o qədər böyük işlərə imza atıb ki, yuxarıda sadaladığımız titulların heç biri Onun fəaliyyətini tam əhatə etmir. Biz bu gün Azərbaycan tarixində Heydər Əliyev erasını yaratmış Ulu Öndər haqqında danışarkən, adətən, Onu bir Ümummilli Lider kimi səciyyələndiririk. Əlbəttə, bu, mübahisəsiz olaraq belədir. Amma bu zaman bizə elə gəlir ki, Heydər Əliyevin fəaliyyətini bir qədər məhdudlaşdırmış oluruq. Onun fəaliyyətinə bir qədər sırf milli kontekstdə yanaşmış oluruq. Lakin Heydər Əliyev şəxsiyyəti və Onun fəaliyyəti təkcə Azərbaycanın etnosiyasi coğrafiyası ilə bağlı deyil və Ulu Öndərin bir siyasətçi kimi fəaliyyəti də Azərbaycanın etnosiyasi coğrafiyası ilə məhdudlaşmır. O, istər Sovet xalqları müstəvisində və istərsə də Şərqi Avropadan tutmuş, hətta, Afrika ölkələrinə qədər olan xalqların tarixində rol oynamış, onların yaxından tanıdığı və onların həyatına təsir edəcək proseslərə imza atmış bir şəxsiyyətdir.

Ümumi yanaşma Ulu Öndər Heydər Əliyevin azərbaycançılıq ideologiyasını məhz Azərbaycanın siyasi rəhbərliyinə gəldikdən sonra başlatdığı yöndədir. Ancaq Ulu Öndər Heydər Əliyev azərbaycançılıq ideologiyasının əsaslarını, rüşeymlərini hələ Sovet dövründə Azərbaycanın Dövlət Təhlükəsizlik Komitəsinə rəhbərliyi dövründə başlamışdır. Dövlət Təhlükəsizlik Komitəsi Sovet dövrünün ideoloji və siyasi əsaslarını formalaşdıran, onu idarə edən və yönləndirən əsas orqan idi. Və təəssüf ki, Sovet Azərbaycanı dövründə Ulu Öndər Heydər Əliyevə qədər Dövlət Təhlükəsizlik



Rayon sakinləri ilə görüşdə, may 1973-cü il

Komitəsinə rəhbərlik edən azərbaycanlı olmamışdır. Azərbaycan xalqının, Azərbaycan ziyalısının, Azərbaycan dövlətçiliyinin, Azərbaycanın düşünən beyinlərinin başına gələn faciələrin əsas törədicisi və əsas ideyavericisi də, məhz, bu sistemdən doğurdu. Və biz bilirik ki, Sovet quruculuğu prosesində, 1937-ci il repressiyasında, həmçinin, ondan sonrakı dövrlərdə Azərbaycan xalqının ziyalılarına qarşı törətdiyi repressiyanın mərkəzi, məhz, təhlükəsizlik orqanları idi. Bu təhlükəsizlik orqanları sanki Azərbaycanın daxilində Antiazərbaycançı qüvvələrin mərkəzini, konsentrasiyasını təşkil edirdi. Bu yanaşma Ulu Öndər Heydər Əliyev milli təhlükəsizlik orqanlarına rəhbərlik edən günə qədər davam etdi. Onun rəhbərliyi dövründə isə respublikanın təhlükəsizlik orqanlarından Antiazərbaycançı qüvvələr, Azərbaycanı sevməyən müxtəlif xalqların nümayəndələri təmizlənməyə başlandı. Və azərbaycançılıq ideologiyasının rüşeymi də, milli özünüdərk prosesinin rüşeymi də elə oradan cücərməyə başladı. Bundan sonrakı mərhələdə Ulu Öndər öz fəaliyyətini siyasi sahəyə transfer etdikdən sonra, yəni, 1969-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildikdən sonra artıq bu rüşeym daha bir münbit sferaya düşməklə siyasi populyarlıq qazandı. Beləliklə, artıq 1978-ci ildə Ulu Öndərin həyata keçirdiyi fəaliyyət nəticəsində Azərbaycan dili Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili kimi Azərbaycan Konstitusiyasına düşdü. Hesab edirik ki, bu, Ulu Öndərin Azərbaycan xalqı qarşısındakı misilsiz xidmətlərindən biri idi.

Ötən əsrin 70-80-ci illərində Sovet Azərbaycanına rəhbərlik etdiyi dövrlərdə onun sosial, iqtisadi və mədəni inkişafına, əslində isə çoxlarının birmənalı şəkildə qeyd etdiyi kimi, intibahına nail olmuş Heydər Əliyev yeni tarixi şəraitdə xilaskarlıq missiyasını öz çiyinləri üzərinə götürdü.

Müasir tariximizə Heydər Əliyevin möhtəşəm qayıdışı kimi daxil olan dövr Azərbaycanın iqtisadiyyatının dinamik inkişafı, insanların rifahının yaxşılaşması, ölkənin simasının inanılmaz dərəcədə müasirləşməsi, dünya miqyasında nüfuzunun yüksəlməsi, ordumuzun qüdrətinin artması və digər uğurlarla müşayiət olunmuşdur. 1993-cü ilin 15 iyununda Heydər Əliyevin hakimiyyətə gəlişi ilə Azərbaycan tarixində yeni mərhələ başlandı, insanları narahat edən, xalqı vahiməyə salan təhlükələr dəf edildi, xaos, anarxiya, hakimiyyət böhranı aradan qaldırıldı. O zaman Azərbaycanın parçalanması təhlükəsini yaratmış separatizmin, vətəndaş müharibəsinin qarşısı alındı, erməni təcavüzünün dərinləşməsi dayandırıldı, cəbhədə atəşkəs razılaşmasına nail olundu. Ən başlıcası isə ölkəni bürümüş siyasi və iqtisadi tənəzzülə, hakimiyyət böhranına son qoyuldu. 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması Heydər Əliyevin müdrikliyinin və uzaqgörənliyinin ən bariz nümunəsinə çevrildi. Bu layihə Azərbaycana böyük iqtisadi və geopolitik dividentlər gətirdi.

Azərbaycan tarixində mühüm rol oynayan Heydər Əliyev dünya səviyyəsində tanınan və qəbul edilən siyasətçi idi. Təsadüfi deyil ki, dünya liderləri Heydər Əliyev haqda maraqlı fikirləri ilə yadda qalıb.



**ABŞ-nin keçmiş prezidenti Corc Buş:** "Heydər Əliyev Cənubi Qafqazda uzun müddət ərzində ən əsas şəxsiyyət olmuşdur. Bu günlərdə Amerika Birləşmiş Ştatları və Azərbaycanın bəhrələndiyi dostluq əlaqələrinin qurulmasında və Azərbaycanın müstəqilliyinin qorunmasında onun şəxsi səyləri həyati əhəmiyyət daşımışdır. Məhz onun rəhbərliyi altında Amerika Birləşmiş Ştatları və Azərbaycan, Əfqanıstan və İraqdakı əməliyyatlar da daxil olmaqla, terrorizmə qarşı mübarizədə tərəfdaş olmuşlar. Dağlıq Qarabağ faciəsinin sülh danışıqları vasitəsilə ədalətli və uzunmüddətli həllinə nail olmaq sahəsində onun nümayiş etdirdiyi qətiyyət regionda sülh və sabitliyin saxlanmasında mühüm əhəmiyyət kəsb etmişdir. Eyni zamanda, onun mövqeyi və göstərdiyi səylər Azərbaycanın iqtisadi inkişafını möhkəmləndirən böyük həcmli xarici sərmayələrin cəlb olunmasında əsas rol oynamışdır. Bu nailiyyətlər milyonlarla azərbaycanlının həyatını yaxşılaşdırmış və Azərbaycanın iyirmi birinci əsrə müasir dövlət kimi daxil olmasına imkan yaratmışdır".



**Fransanın keçmiş prezidenti Jak Şirak:** "Bu qeyri-adi şəxsiyyət Azərbaycanı çiçəklənmə yoluna gətirib çıxarıb. Müxtəlif görüşlərimiz zamanı, xüsusilə Dağlıq Qarabağ münaqişəsi ətrafında müzakirələr apararkən, münaqişənin sülh yolu ilə həllində onun cəsarətini, müdrikliyini və qətiyyətini yüksək qiymətləndirdim".



**Böyük Britaniyanın keçmiş baş naziri Toni Bleyer:** "Heydər Əliyev Azərbaycanın böyük lideri idi. O, böhranlar dövründə öz ölkəsinə sabitlik gətirdi. Azərbaycan xalqı onun qoyduğu irs ilə fəxr edə bilər. Onun Prezident kimi fəaliyyəti dövründə ölkələrimiz arasında münasibətlərdə tərəqqi yarandı və Azərbaycan Avropa ilə əlaqələrini daha da yaxınlaşdırdı. Onun 1998-ci ilin iyulunda Britaniyaya uğurlu səfəri, xüsusilə də, Dauninq küçəsi 10 ünvanında yerləşən iqamətgahımda bizim görüşümüz yaxşı yadımdadır. O, Azərbaycanla Birləşmiş Krallıq arasında hazırda mövcud olan güclü əlaqələrin təməlini qoydu. Fəxr edirik ki, Britaniya şirkətləri tərəfindən qoyulan böyük sərmayələr vasitəsilə Birləşmiş Krallıq Azərbaycanın gələcək tərəqqisinə töhfələr verir".

**Gürcüstanın sabiq prezidenti Eduard Şevardnadze:** "Qafqazın müstəqilliyi və azadlığı işində Heydər Əliyev fenomeninin indinin özündə nə qədər böyük rol oynadığını xalq hələ sonra biləcək. Heydər Əliyev dünya qarşısında xidmətlərinə görə beynəlxalq



aləmdə tanınmış siyasət və dövlət xadimi kimi, Gürcüstanın və gürcü xalqının dostu kimi bizə əziz və doğmadır. Qəzetlərimizin "polad iradəli Əliyev" yazdığı kimi, o, həqiqətən də polad iradəyə malik nadir şəxsiyyətdir. Məhz onun cəsarəti sayəsində Azərbaycan güclü, müstəqil, firavan bir ölkəyə çevrilməkdədir. Heydər Əliyev siyasət meydanına Azərbaycanın ağır, mürəkkəb vaxtında yenidən gəlmişdir, bir çox çətinliklərə sinə gərərək, Azərbaycanı böhranlı vəziyyətdən xilas etmişdir. Azərbaycan xalqının əsl xoşbəxtliyi ondan ibarətdir ki, xalqın, dövlətin ən çətin, böhranlı vaxtında görkəmli siyasətçi, böyük şəxsiyyət cənab Heydər Əliyev məsuliyyəti öz üzərinə götürmüşdür".



**Roma papası II İohan Pavel:** "Görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycan Respublikası son illər dünya birliyində layiqli yer tutmuşdur. Azərbaycanda hüquqi dövlət quruculuğu, iqtisadi islahatların uğurla həyata keçirilməsi sahəsində görülən işləri diqqətlə izləyir və onları dəstəkləyirəm".

Heydər Əliyev siyasi məktəbi zəngin bir xəzinədir. Məhz bu siyasət Azərbaycanı dünya miqyasında tanıdır, daim irəliyə doğru aparır, xalqın həyat səviyyəsini getdikcə yüksəldir. Sevinirik ki, bu gün müstəqil dövlətimizə rəhbərlik məhz bu siyasi məktəbin ən layiqli yetirməsi möhtərəm Prezidentimiz cənab İlham Əliyevə etibar edilib. Əlbəttə, bu, xalqın seçimi, etibarı, inamıdır. Möhtərəm Prezidentimiz Ümummilli Liderin müəllifi olduğu neft strategiyasının dönməz və ardıcıl



həyata keçirilməsində, Azərbaycanın Avropaya və dünya birliyinə uğurlu inteqrasiyasında, müstəqil dövlətimizin beynəlxalq aləmdə mövqelərinin daha da möhkəmləndirilməsində, torpaqlarımızın 20 faizini işğal etmiş Ermənistanın təcavüzkar dövlət kimi tanınmasında bütün bilik və bacarığından istifadə edib.

Fərəhli haldır ki, möhtərəm Prezidentimiz qarşısına qoyduğu vəzifələri layiqincə yerinə yetirir. Son illər Azərbaycanın xarici siyasət sahəsində bir-birinin ardınca uğurlar qazanması da xüsusi qeyd edilməlidir. Bu, bir daha təsdiqləyir ki, müstəqil dövlətimizin xarici siyasəti Ulu Öndərimizin uzaqgörənliyi sayəsində möhkəm, davamlı özüllər üzərində qurulub. Bu siyasətin layiqincə davam etdirilməsi, cənab Prezidentin düşünülmüş, məntiqli qətiyyətli addımları sayəsində bu gün dünyanın inkişaf etmiş qüdrətli dövlətləri Azərbaycanla hərtərəfli əməkdaşlığa böyük maraq göstərirlər.

Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin möhtərəm Prezidentimiz tərəfindən reallaşması və bu kəmərlər vasitəsi ilə Azərbaycanın təbii sərvətlərinin heç bir dövlətin vasitəçiliyi olmadan Avropaya və dünya bazarına çıxarılması Azərbaycanın beynəlxalq aləmdəki mövqelərini daha da möhkəmləndirdi, nüfuzunu yüksəkliklərə qaldırdı. Möhtərəm Prezidentimizin uğurlu diplomatik fəaliyyəti nəticəsində dünyanın bütün ölkələri, habelə tanınmış beynəlxalq qurumları Azərbaycanın ərazi bütövlüyü çərçivəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında Azərbaycan Prezidentinin mövqelərini dəstəkləyərək beynəlxalq hüququn norma və prinsipləri, dövlətlərin ərazi bütövlüyünə toxunulmadan həlli variantına üstünlük verirlər.

Azərbaycanın beynəlxalq aləmdəki nüfuzunun artmasından, milli-mənəvi dəyərlərimizin, adət-ənənələrimizin daha yaxından tanınmasından söhbət düşəndə bu sahədə xüsusi rolu olan Heydər Əliyev Fondunun prezidenti, Azərbaycan Respublikanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın əməyini xüsusi qeyd etmək istərdim. Onun təşkilatçılığı, bilavasitə rəhbərliyi ilə Azərbaycan musiqisi, mədəniyyəti, incəsənəti artıq bütün dünyada tanınır.

Bakıda keçirilən Beynəlxalq Muğam festivalı Azərbaycan musiqisini, xüsusilə muğamını beynəlxalq aləmdə daha yaxından tanıtdı. Dünyanın 17 ölkəsindən Bakıya gəlmiş qonaqlar Mehriban xanım Əliyevanın birbaşa himayəsi ilə son illər Azərbaycanda muğam sənətinin qorunması, inkişafı və təbliği sahəsində görülən böyük işlərlə yaxından tanış olmuşlar.

Ulu Öndərin siyasi məktəbinin ən layiqli yetirmələri olan möhtərəm Prezidentimiz cənab İlham Əliyev və Mehriban xanım Əliyeva ölkəmizin adının daha yüksəkliklərə qaldırılması üçün bilik və bacarıqlarını əsirgəmirlər. İnanırıq ki, yaxın gələcəkdə Azərbaycan dünyanın inkişaf etmiş ən qüdrətli dövlətləri ilə bir cərgədə olacaq.

**Leyla Əlizadə**
**Samux rayon prokurorunun köməkçisi,**
**III dərəcəli hüquqşünas**

# İnzibati xəta haqqında işlər üzrə icraatın başlanılmasında müddətlərin əhəmiyyəti

Məlum olduğu kimi inzibati xətalar haqqında işlər üzrə icraatın başlanması üçün səbəb və əsaslar olduqda inzibati xəta haqqında icraatın başlanması haqqında qərar qəbul edilir. Bununla yanaşı cinayət qanunvericiliyindən fərqli olaraq inzibati qanunvericilikdə məsuliyyətə cəlb etmə müddətlərinə daha çox diqqət yetirilməlidir. Ona görə ki, inzibati qanunvericilikdə məsuliyyətə cəlb etmə müddəti azdır.

Belə ki, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 38.1-ci maddəsində inzibati tənbehin inzibati xətanın törədildiyi gündən hansı müddət ərzində tətbiq oluna bilməsinin ümumi norması müəyyən edilmişdir. Həmin normanın tələbinə görə inzibati tənbeh inzibati xətanın törədildiyi gündən ən geci dörd ay keçənədək verilə bilər. Yol hərəkəti qaydaları, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və avtomobil yollarından istifadə qaydaları, gömrük qaydaları, ətraf mühitin qorunması qaydaları, maliyyə, vergilərin və rüsumların ödənilməsi qaydaları əleyhinə olan inzibati xətalara görə, xırda talamaya və s. inzibati xətalara görə inzibati tənbeh inzibati xətanın törədildiyi gündən ən geci bir il keçənədək verilə bilər.

Azərbaycan Respublikası İXM-in 38.6-cı maddəsində göstərilmişdir ki, İnzibati Xətalar Məcəlləsinin 122.1-ci maddəsində nəzərdə tutulmuş inzibati tənbeh vermə haqqında elektron qərar və onun əlavəsi (foto və ya video materiallar) inzibati xətanın törədildiyi gündən bir gün müddətində hər bir nəqliyyat vasitəsinin istifadəçisi üçün internet informasiya resursunda yaradılan elektron kabinetdə yerləşdirilmədikdə, şəxs inzibati məsuliyyətə cəlb oluna bilməz.

Azərbaycan Respublikası Prezidentinin 24 iyun 1997-ci il tarixli, 609 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları"nın 12.2-ci bəndində göstərilmişdir ki, hüquqi və fiziki şəxslər konsiqnasiya yolu ilə ixrac etdikləri malların müqabilində vəsaitlərin onların bəyan olunduğu gündən 180 gün ərzində Azərbaycan Respublikasındakı müvəkkil bankda olan hesablarına köçürülməsini təmin etməlidir. Həmin vəsaitin Azərbaycan Respublikasına köçürülməsinə və gətirilməsinə Azərbaycan Respublikasının Mərkəzi Bankı və Dövlət Gömrük Komitəsi nəzarət edir. Dövlət Gömrük Komitəsi bütün ixracatçılar tərəfindən gömrük bəyannamələri və ixrac müqavilələri də daxil olmaqla, ixrac olunan mallar barədə aidiyyəti məlumatların elektron gömrük xidməti vasitəsilə Mərkəzi Banka ötürülməsini təmin edir.

Müvəkkil banklar şəxslərin aidiyyəti hesablarına ixrac müqavilələri üzrə xarici valyutanın daxil olması barədə məlumatı Mərkəzi Bank tərəfindən müəyyən edilmiş formada və qaydada vəsait daxil olduğu gündən 3 (üç) iş günü ərzində Mərkəzi Banka ötürürlər.

Azərbaycan Respublikasının Mərkəzi Bankı müvəkkil banklardan daxil olmuş məlumatlar və elektron gömrük xidmətindən əldə olunmuş məlumatlar əsasında ixrac olunan malların müqabilində vəsaitlərin müəyyən olunmuş müddətdə ixracatçının müvəkkil bankdakı hesabına köçürülmədiyini müəyyən etdiyi halda ixracatçı barədə qanunvericiliklə müəyyən edilmiş nəzarət və digər tədbirlərin görülməsi məqsədilə 2 (iki) iş günü müddətində Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə məlumat verir.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 483-cü maddəsinin şərh edilməsinə dair" 17 may 2021-ci il tarixli qərarında göstərilmişdir ki, mallar (işlər, xidmətlər) bəyan edildiyi gündən Qaydalarla müəyyən edilmiş müddət ərzində (180 gün) ixrac olunan malların müqabilində məcburi qaydada köçürülməli olan valyuta vəsaiti geri qaytarılmadıqda, növbəti gün artıq inzibati xətanın törədildiyi gün kimi qəbul edilməlidir.

Göründüyü kimi, yol hərəkəti qaydaları əleyhinə olan (xüsusi texniki vasitələrin) və ya ixrac olunan malların müqabilində məcburi qaydada köçürülməli olan valyuta vəsaiti geri qaytarılmadıqda (elektron gömrük xidməti vasitəsilə) inzibati xətalar aşkar edilir. İnzibati xətaların texniki vasitələrin köməkliyi ilə aşkar edilməsinin sırasını artırmaq olar (məsələn; Gömrük ərazisinə gətirilən mal və nəqliyyat vasitələrinin müəyyən edilmiş müddət ərzində təyinat yerlərinə çatdırılmadıqda Vahid Avtomatlaşdırılmış İdarəetmə Sistemi vasitəsilə inzibati xətaların aşkar edilməsi və s).

Bilindiyi kimi qanunverici inzibati xətanın aşkar edilməsini müvafiq dövlət orqanlarının üzərinə vəzifə qoymuşdur. Yuxarıda göstərilən nümunələrdə isə inzibati xətaları texniki vasitələrin köməyi ilə aşkar edilməsindən söhbət gedir. Belə olan halda inzibati xətanı texniki vasitələrin köməyi ilə vaxtında aşkara çıxarılıb-çıxarılmamasından asılı olmayaraq müddətin hesablanması başlayır.

Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin inzibati məsuliyyətdən yayınmasının qarşısının alınması və hər hansı inzibati xəta törədildiyi halda inzibati məsuliyyətin labüdlüyünün təmin olunması üçün inzibati xəta törədilərkən onun müvafiq qaydada sənədləşdirilməsi aparılmaqla xətanı törətmiş şəxsin məsuliyyətə cəlb olunaraq qanunla müəyyən edilmiş müddət ərzində haqqında inzibati tənbehin təyin edilməsinə və onun icrasının təmin olunmasını təmin edilməlidir.

Şəxs konsiqnasiya yolu ilə ixrac etdikləri malların müqabilində vəsaitlərin onların bəyan olunduğu gündən 180 gün ərzində Azərbaycan Respublikasındakı müvəkkil bankda olan hesablarına köçürülməsini təmin etmədikdə, növbəti gün artıq inzibati xətanın (iyirmi min manatadək olduqda inzibati xəta sayılır) törədildiyi gün kimi qəbul edildiyindən müvafiq dövlət qurumları vaxtında inzibati xətanı aşkar edib qanunvericiliyə uyğun tədbirlər görməlidir.

İnzibati məsuliyyətə cəlb etmə müddətləri qəti xarakter daşıyır. Müddətlərin uzadılması, yaxud üzürlü səbəbdən keçdikdə bərpa edilərək keçməmiş hesab edilməklə müvafiq hüquqi nəticələrə səbəb olması qanunda nəzərdə tutulmamışdır. Konsiqnasiya və qeyd olunan digər texniki vasitələrin köməkliyi ilə aşkar edilən inzibati xətalar gecikmə hallarına yol vermədən inzibati icraat başlanmalıdır. Əks halda gecikmə halında başlanılmış inzibati icraat sonradan Azərbaycan Respublikası İXM-nin 53.1.6-cı maddəsinə əsasən (İXM-nin 38-ci maddəsində nəzərdə tutulmuş müddətlərinin başa çatması ilə əlaqədar) xitam verilməsinə səbəb olacaqdır.

Təcrübədə çətinlik yaradan digər bir məsələ inzibati xətanın uzanan inzibati xəta olub-olmamasıdır. Belə ki, Azərbaycan Respublikası İXM-in 38.2-ci maddəsinə əsasən İnzibati Xətalar Məcəlləsinin 38.1-ci maddəsində nəzərdə tutulan müddətlər uzanan inzibati xətalara münasibətdə xətanın aşkara çıxarıldığı gündən hesablanır (23.02.2021-ci tarixdə İXM-nə edilmiş dəyişiklə "davam edən" sözü "uzanan" sözü ilə əvəz edilmişdir).

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 528.1-ci maddəsinin həmin Məcəllənin 9.2 və 35-ci maddələri baxımından şərh edilməsinə dair" 04 sentyabr 2018-ci il tarixli qərarında göstərilmişdir ki, hüquq nəzəriyyəsində "davam edən hüquqpozuntuları" dedikdə, zaman baxımından ara verməklə vahid niyyətlə əhatə olunan mütəmadi törədilən eyni qanunsuz əməllər başa düşülür. "Davam edən hüquqpozuntuları" üçün aşağıdakı əlamətlər xasdır: bu hüquqpozuntuları bir-birindən zaman etibarilə ayrılan bir sıra eyni növdən olan müstəqil əməllərdir; bütün qanunsuz əməllər vahid niyyətlə bağlıdır; qanunsuz əməllərə görə qanunvericilikdə müvafiq hüquqi məsuliyyət nəzərdə tutulur.

"Uzanan hüquqpozuntuları" isə (cinayət, xəta) başlayır və uzanaraq müəyyən müddət ərzində fasiləsiz törədilir. "Uzanan hüquqpozuntusu"nun mahiyyəti onun fasiləsizliyində ifadə olunur və bu, onun əsas meyarıdır. İnzibati xətalar qanunvericiliyində uzanan inzibati xətaların təsnifatı və ya mahiyyəti açıqlanmasa da, nəzəri cəhətdən qeyd etmək olar ki, uzanan inzibati xəta bir müddət ərzində inzibati cəza təhdidi altında qanunverici tərəfindən müəyyən şəxsin üzərinə qoyulmuş öhdəliklərin hərəkət və ya hərəkətsizlik formasında yerinə yetirilməməsidir. "Uzanan hüquqpozuntuları"nın bəzi səciyyəvi xüsusiyyətləri ondan ibarətdir ki, onlar konkret məqamda – qanunla müəyyən edilmiş öhdəliklərin pozulması məqamında başlayır, o cümlədən hüquqazidd əməlin konkret bitmə məqamında – subyektin özü tərəfindən konkret hərəkətlərin dayandırılması məqamında başa çatır və ya bu hərəkət kənardan müdaxilə nəticəsində dayandırılır.

Uzanan xətanın davam edən xətadan əsas fərqi onda ifadə olunur ki, birinci əksər hallarda hərəkətsiz formada həyata keçirilir. Qeyd edildiyi kimi, davam edən xəta isə bir sıra oxşar əməllərin bir neçə dəfə eyni məqsədlər, subyektlər, hərəkət üsulu ilə və məcmu halında vahid qanun pozuntusu hesab edilməklə həyata keçirilməsidir. Yanğın təhlükəsizliyi qaydalarının pozulması və ya yerinə yetirilməməsi, sanitar qayda və normaların pozulması, qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olma və bir çox digər inzibati xətalar uzanan və ya davam edən inzibati xəta kimi də ifadə oluna bilər.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarının şərhindən sonra İnzibati Xətalar Məcəlləsinin xüsusi hissəsinin maddələrinin hansının uzanan inzibati xəta olmasını müəyyən etmək asanlaşmışdır. Fikrimcə, uzanan olmayan inzibati xəta törədilir və başa çatır (Azərbaycan Respublikası İXM-in 157-ci maddəsi). Uzanan inzibati xəta isə törədilir, lakin başa çatmır (İXM-in 159, 542-ci maddələri və sair). Şəxsə və ya dövlətə zərər vurması təhlükəsi hər an olur və dayandırılana qədər başa çatmır.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 75-ci maddəsində müəyyən edilmiş müddətlər keçdikdə şəxs cinayət məsuliyyətinə cəlb oluna bilməz. Cinayət Məcəlləsinin 75.1.4-cü maddəsində göstərilmişdir ki, xüsusilə ağır cinayətin törədildiyi gündən iyirmi il keçdikdə şəxs cinayət məsuliyyətinə cəlb oluna bilməz. Lakin Azərbaycan Respublikası İXM-in 38.2-ci maddəsində isə uzanan inzibati xətalara münasibətdə müddət nəzərdə tutulmamışdır. Bu isə o deməkdir ki, şəxs uzanan inzibati xəta törətsə və aşkar olunmasa 20 il keçsə də inzibati məsuliyyətə cəlb olunacaqdır. Məlum olduğu kimi inzibati xətalar cinayət əməlləri ilə müqayisədə daha az ictimai təhlükəli sayılır. Belə olan halda uzanan inzibati xətalara müddətin müəyyən edilməsi məqsədəuyğun olardı.

**İstifadə olunan ədəbiyyat siyahısı**

1. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi. "Hüquq yayın evi". Bakı. 2022.
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. "Hüquq yayın evi". Bakı. 2023.
3. Azərbaycan Respublikası Prezidentinin 24 iyun 1997-ci il tarixli, 609 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları"
4. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 528.1-ci maddəsinin həmin Məcəllənin 9.2 və 35-ci maddələri baxımından şərh edilməsinə dair" 4 sentyabr 2018-ci il tarixli Qərarı.
5. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 483-cü maddəsinin şərh edilməsinə dair" 17 may 2021-ci il tarixli Qərarı.
6. İnzibati xətalar haqqında qanunvericiliyin tətbiqi və icrasına prokuror nəzarətinin həyata keçirilməsinə dair metodiki vəsait. Mahir Tağıyev. Bakı-2018.

**Anar Məmmədov**
**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin rəisi, baş ədliyyə müşaviri**

# Mülkiyyət əleyhinə cinayətlərlə mübarizənin müasir problemləri

*(Mülkiyyət əleyhinə cinayətlərin istintaqı zamanı yaranan problemlər barədə müəllifin fikirlərini əks etdirən məqalənin ilk hissəsi jurnalın əvvəlki buraxılışlarında dərc edilib)*

**15.** Ziddiyyətli məsələlərdən biri də xüsusi tarixi, elmi, ədəbi və ya mədəni dəyəri olan əşyaların və ya sənədlərin talanması, eləcə də qəsdən məhv edilməsi və ya zədələnməsi cinayətləri ilə mübarizə sahəsindədir. Belə ki, Cinayət Məcəlləsinin 183-cü maddəsində talamanın xüsusi növü kimi "xüsusi tarixi, elmi, ədəbi və ya mədəni dəyəri olan əşyaları və ya sənədləri üsulundan asılı olmayaraq talama" ayrıca kriminallaşdırılmış, həmin əmələ və ağırlaşdırıcı hallarına görə 177-ci maddədə nəzərdə tutulmuş cəzalardan daha ağır cəzalar nəzərdə tutulmuşdur [8]. Lakin, əmlakı qəsdən məhv etmə cinayəti ilə bağlı qanunverici fərqləndirmə aparmadığından belə cinayət əməlləri CM-in yalnız 186-cı (əmlakı qəsdən məhv etmə və ya zədələmə) maddəsi ilə məsuliyyətə səbəb olur və həmin maddənin ağırlaşdırıcı hallarında da xüsusi dəyəri olan əşyaları məhv etmə və ya zədələmə nəzərdə tutulmamışdır. Baxmayaraq ki, CM-in 183.2.3-ci maddəsində xüsusi tarixi, elmi, ədəbi və ya mədəni dəyəri olan əşyaların və ya sənədlərin talanması həmin əşya və ya sənədlərin məhv olmasına, korlanmasına və ya dağıdılmasına səbəb olduqda ağırlaşdırıcı hal kimi nəzərdə tutulsa da, bu norma talama cinayəti törədilərkən belə nəticələrin baş verməsi halında tətbiq edilə bilər. Talama cinayətlərinin törədilməsi ilə bağlı olmadan, şəxs sair niyyətlərlə belə əşya və ya sənədi məhv etdikdə və ya zədələdikdə isə yuxarıda qeyd etdiyimiz kimi yalnız 186-cı maddə üzrə məsuliyyətə cəlb ediləcəkdir. *Yaranmış boşluğun aradan qaldırılması üçün CM-nə xüsusi tarixi, elmi, ədəbi və ya mədəni dəyəri olan əşyaları və ya sənədləri qəsdən məhv etmə və ya zədələməyə görə ayrıca cinayət məsuliyyəti müəyyən edən 186-1-ci maddəsi əlavə edilməlidir.* Xarici ölkələrin qanunvericiliyində belə təcrübə vardır. Məsələn, Qazaxıstan Cinayət Məcəlləsinin 203-cü maddəsində tarix, mədəniyyət abidələrini, təbiət komplekslərini və ya dövlət mühafizəsinə götürülmüş obyektləri, habelə xüsusi tarixi, elmi, bədii və ya mədəni dəyərə malik olan əşyaları və ya sənədləri qəsdən məhv etmə və ya zədələməyə görə məsuliyyət nəzərdə tutulmuşdur [13].

**16.** Dələduzluq cinayətləri ilə bağlı da bir sıra narahatedici məqamlar vardır. Belə ki, cinayət təqibi orqanları bir çox hallarda, xüsusən dələduzluq barədə şikayətlərin araşdırılması zamanı prosessual qərarların preyudisial əhəmiyyətini düzgün nəzərə almırlar. CPM-in 65.7-ci maddəsinə əsasən məhkəmənin mülki iş, kommersiya və ya inzibati mübahisə üzrə qanuni qüvvəyə minmiş qərarı cinayət prosesini həyata keçirən orqan və cinayət işinə baxan məhkəmə üçün yalnız hadisənin olub-olmaması hissəsində məcburidir. Həmin Məcəllənin 142.2-ci maddəsinə görə mülki iş, kommersiya və ya inzibati mübahisə üzrə qanuni qüvvəyə minmiş məhkəmənin qərarı cinayət işi üzrə icraatda təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəməyə yalnız hadisənin yaxud hərəkətin olub-olmaması hissəsində məcburidir və təqsirləndirilən şəxsin təqsirli olub-olmaması nəticəsini əvvəlcədən həll etmir [5]. Lakin təcrübədə cinayət təqibi orqanları səfhə yol verərək mülki qaydada baxılmış qərarları bütövlükdə preyudisial hesab edir, nəticədə ya cinayət işinin başlanmasının rədd edilməsi, ya da cinayət işi üzrə icraata xitam verilməsi haqqında qərarlar qəbul edirlər. *Halbuki, əgər məhkəmənin mülki iş, kommersiya və ya inzibati mübahisə üzrə qanuni qüvvəyə minmiş qərarında hadisənin yaxud hərəkətin olması (baş verməsi) təsdiq olunduğu halda, bu qərar cinayət təqibi üzrə həmin hadisə, yaxud hərəkətin olması hissəsində ən təkzibolunmaz sübut kimi qəbul edilməli, cinayət təqibi orqanı həmin hadisə, yaxud hərəkətin olmasının artıq sübut edildiyini qəbul etməli, bu hadisə və ya hərəkətdə şəxsin təqsirli (konkret halda əməldə dələduzluq cinayətinin tərkibinin) olub-olmadığını müəyyən etməlidir.*

**17.** Məlum olduğu kimi qüvvədə olan Cinayət Məcəlləsinin qəbul olunduğu vaxtdan keçən müddət ərzində dələduzluq cinayətlərinə dair işlər üzrə məhkəmə təcrübəsi haqqında Ali Məhkəmənin Plenumu tərəfindən 31 yanvar 2002-ci il və 11 iyun 2015-ci il tarixlərdə qərarlar qəbul edilmiş, hər iki qərar istintaq və məhkəmə təcrübəsində bir sıra məsələlərlə bağlı kifayət qədər narahatçılıqlar, ziddiyyətlər və qeyri-müəyyənliklər yaratmışdır. Xüsusən sonuncu qərarın 36-cı bəndində dələduzluq xarakterli əməllərin dələduzluq, rüşvət alma (passiv rüşvətxorluq), rüşvət vermə (aktiv rüşvətxorluq) və vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmə (nüfuz alveri) cinayətləri ilə tövsif edilməsi əsasları uğursuz qaydada müəyyən edilərək bu sahədə həmin vaxta qədərki təcrübəni tamamilə dəyişdirməyə, faktiki dələduzluğa məruz qalmış şəxslərin zərərçəkmiş şəxs qismində tanınma və maddi ziyanını tələb etmək imkanlarını aradan qaldırmağa yönəlmişdir [14]. Lakin, gözlənildiyi kimi, qərarın 36-cı bəndi təcrübədə demək olar ki, nəzərə alınmadı. Nəhayət, Azərbaycan Respublikası Baş Prokurorluğunun sorğusu əsasında Konstitusiya Məhkəməsi Plenumu tərəfindən 14 iyul 2022-ci il tarixdə Şuşa şəhərində qəbul edilmiş "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 73-1, 178-ci maddələrinin və 312-ci maddəsinin Qeyd hissəsinin əlaqəli şəkildə şərh edilməsinə dair" qərarı bu sahədəki qeyri-müəyyənliklərin aradan qaldırılmasına şərait yaratmış oldu. Həmin qərarda qeyd edilmişdir ki, "Azərbaycan Res-

publikası Konstitusiyasının 63-cü maddəsində təsbit edilmiş təqsirsizlik prezumpsiyası prinsipi baxımından rüşvət verən şəxs Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 312-ci maddəsinin Qeyd hissəsinə uyğun olaraq rüşvət vermə haqqında müvafiq dövlət orqanına könüllü məlumat verdiyinə görə cinayət məsuliyyətindən azad edildiyindən, barəsində törədilmiş dələduzluq cinayət işi üzrə onun zərərçəkmiş qismində tanınması mümkün hesab edilməlidir" [15]. Bundan sonra, Ali Məhkəmə Plenumu 19 may 2023-cü il tarixli 11/2023 nömrəli qərarı ilə 11 iyun 2015-ci il tarixli qərarının faktiki tətbiq edilməyən 36-cı bəndini tamamilə yeni redaksiyada verdi. Yeni redaksiyada olan 36-cı bənddə nəzərdə tutulmuşdur ki, "Bu xarakterli işlər üzrə zərərçəkmiş şəxs qismində tanınma, cinayət nəticəsində vurulmuş ziyanın ödənilməsi və yaxud ələ keçirilmiş əmlakın xüsusi müsadirəsi kimi məsələlər həll olunarkən Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 73-1, 178-ci maddələrinin və 312-ci maddəsinin Qeyd hissəsinin əlaqəli şəkildə şərh edilməsinə dair" 2022-ci il 14 iyul tarixli Qərarı rəhbər tutulmalıdır." [16].

**18.** Müasir dövrdə dələduzluq cinayətləri ilə mübarizə bütövlükdə cinayətkarlığa qarşı mübarizənin ən aktual sahələrindən biridir. İlk öncə ona görə ki, bu gün dələduzluq cinayətləri geniş yayılmış, həm də əksər cinayət əməllərindən fərqli olaraq hansı əməlin dələduzluq hesab edilməsi sahəsində birmənalı olmayan yanaşmalar, ziddiyyətli fikirlər bu mübarizəyə əhəmiyyətli surətdə mane olmaqdadır. Fikrimizcə, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 178.1-ci maddəsində dələduzluğa verilmiş anlayış hazırda bu sahədə cinayət təqibi orqanlarının cinayətkarlıqla mübarizə fəaliyyətinə mane olmaqdadır. Belə ki, CM-in 178.1-ci maddəsində dələduzluq, "etibardan sui-istifadə etmə və ya aldatma yolu ilə özgənin əmlakını ələ keçirmə və ya əmlak hüquqlarını əldə etmə" [8] kimi təsbit edilmişdir. Əvvəla, həmin maddədə istifadə edilmiş "özgə" sözünü doğru hesab etmirik (bunu məqaləmizin 2 və 12-ci bəndlərində geniş əsaslandırmağa çalışmışıq, ona görə də burada təkrarlamağa ehtiyac yoxdur). İkincisi, dələduzluq cinayətinin əmlak və ya əmlak hüquqlarını əldə etmə kimi ifadə edilməsi bu cinayətin müasir dövrdə bütün təzahür formalarına və törədilmə üsullarına reaksiya verməyə imkan vermir. Üçüncüsü, dələduzluğun həm də etibardan sui-istifadə etməklə törədilməsi barədə qanunvericilikdə ifadə edilmiş mövqe ilə bağlıdır. Belə ki, aldatma elementləri olmadan dələduzluq cinayətini təsəvvür etmək mümkün deyildir. Aralarında etibarlı münasibətlər olan (və ya ən azı zərərçəkmiş qarşı tərəfi etibarlı şəxs hesab etdiyi halda) şəxslərin birinin digərinə qarşı hansı hərəkəti aldatma elementləri olmadan dələduzluq kimi qiymətləndirilə bilər? Şəxs sahibini aldatmadan ona etibar edilən əşyanı necə ələ keçirə bilər? Hesab edirik ki, aldatmaya xas təzahür formaları, yalan vədlər, hiylə olmadan edilmiş hərəkətlər dələduzluq hesab edilə bilməz. Təsadüfi deyildir ki, Mülki Məcəllədə də mülki münasibətlər zamanı qanunazidd hərəkətlər olaraq etibardan sui-istifadə deyil, aldatmadan bəhs etmişdir. *Ona görə də, CM-in 178-ci maddəsinin mətnində "etibardan sui-istifadə etmə"nin nəzərdə tutulmasına ehtiyac yoxdur,* hər bir halda etibar edilən adam da olsa, kənar şəxs də olsa bu cinayətin törədilməsi zamanı təqsirkar hər bir halda zərərçəkmişi birbaşa və ya dolayı yolla aldadır. Əslində Ali Məhkəmə Plenumunun mövqeyi də belədir: "əmlak sahibi öz əmlakını və ya ona olan hüququnu başqa şəxslərə yalan vədlərin təsiri altında könüllü surətdə verir" [14]. Konstitusiya Məhkəməsinin də formalaşdırdığı hüquqi mövqeyə görə dələduzluq cinayəti digər talama cinayətlərindən fərqli olaraq, məhz aldatma və ya etibardan sui-istifadə etmə yolu ilə törədilir və əmlak sahibi öz əmlakını və ya ona olan hüququnu başqa şəxslərə yalan vədlərin təsiri altında könüllü surətdə vermiş olur. Təqsirkar şəxs etibardan sui-istifadə etmə və ya aldatma yolu ilə zərərçəkmiş şəxsi yanılma dərəcəsinə çatdırmaqla əmlakın ona verilməsinə nail olur. Məhkəmənin 31 oktyabr 2022-ci il tarixli qərarında etibardan sui-istifadəyə "etibarlı münasibətlərdən sui-istifadə" kimi anlayış verilərək faktiki olaraq eyni sözlər təkrarlanmış, eləcə də qeyd edilmişdir ki, "etibardan sui-istifadə, həmçinin şəxsin əmlakı və ya ona olan hüququ əvəzsiz şəkildə ələ keçirmək məqsədi ilə üzərinə götürdüyü hər hansı öhdəliyi yerinə yetirmək niyyətində olmadığı hallarda yaranmış olur" [17]. Əslində şəxsin üzərinə götürdüyü öhdəliyi yerinə yetirməməsi də aldatmadır, çünki şəxs hər hansı öhdəliyi yerinə yetirəcəyini vəd edib bunu etmədiyi halda zərərçəkmişi aldatmış olacaqdır. Bəzi keçmiş sovet respublikalarından fərqli olaraq bir sıra Avropa ölkələrinin də cinayət qanunvericiliklərində də dələduzluğun yalnız aldatma ilə bağlı olan cinayət olması qəbul edilir. Belə ki, dələduzluq Türk Cəza Qanunun 157-ci maddəsində "hiyləli davranışlarla bir kimsəyi aldadıb, onun və ya başqasının zərərinə olaraq, özünə və ya başqasına bir yarar təmin" etmə [11], Almaniya Federativ Respublikası Cəza Məcəlləsinin 263-cü maddəsində "özü və ya üçüncü şəxs üçün qeyri-qanuni maddi mənfəət əldə etmək məqsədilə yalan sözlər deməklə və ya faktları təhrif etməklə və ya gizlətməklə başqasının əmlakına zərər" vurma [18], Fransa Cinayət Məcəlləsinin 313-1-ci maddəsində "saxta addan və ya saxta statusdan istifadə etməklə, yaxud həqiqi statusdan sui-istifadə etməklə, yaxud aldadıcı fəndlərdən istifadə etməklə törədilən, hər hansı fiziki və ya hüquqi şəxsi yolundan azdırmaqla və bununla həmin şəxsi özünə və ya üçüncü şəxslərə ziyan vuran pul vəsaitlərini, qiymətli kağızları, qiymətli əşyaları və ya hə hansı digər əmlakı verməyə, xidmətlər göstərməyə və ya müqavilə bağlamağa, vəzifə müəyyən edilməyə yönələn və ya vəzifədən azad edən hərəkətlər etməyə yönəltmə [19], Gürcüstan Cinayət Məcəlləsinin 180-cı maddəsində "qanunsuz ələ keçirmək və ya əmlak hüququ əldə etmək məqsədilə başqasının əşyasına aldatma yolu ilə sahiblənmək" kimi təsbit edilmişdir [20]. Burada xüsusi olaraq qeyd

edilməlidir ki, əməlin dələduzluq kimi tövsif edilməsi üçün hər cürə aldatma, bəsit yalan deyil, məhz zərərçəkmiş şəxsi yanıldan aldatma, hiyləli davranışlarla aldatma baş verməlidir.

**19.** Nəzərə alınmalıdır ki, müasir dövrdə dələduzluq cinayətinin yeni-yeni təzahür formaları, həm də törədilmə üsulları meydana çıxır. Bunlardan şəxsin pulunun (və ya digər əşyasının) borc adı ilə, aylıq faiz (el arasında "sələm") adı ilə, birgə biznes qurmaq adı ilə götürüb qaytarmama hallarını da göstərmək olar. Bu kimi halların birmənalı olaraq dələduzluq kimi qiymətləndirilməməsi nəticəsində yaranmış cəzasızlıq şəraitində cinayətlərin artması, dələduzların bu vəziyyətdən sui-istifadə edərək cinayət təqibindən yayınmaları narahatedici hallardandır. Təcrübədə bəzi hallarda şəxs məhz dələduzluq niyyətini gizlətmək, bunu pərdələmək üçün zərərçəkmiş şəxsdən aldığı pulun bir qismi ilə müəyyən işlər görərək etibarlı insan, şirkət, tərəfdaş görüntüsü yaradır, lakin daha sonra vədinə əməl etməyərək pulu (və ya digər əşyanı) öz ehtiyacları üçün sərf edir. Digər halda şəxs pulu sahibindən borc adı ilə, ya aylıq faiz ödəmək, yaxud bizneslə məşğul olub "gəlir", "qazanc" vermək şərti ilə, ya da belə şərtlər olmadan sadəcə qısa müddət sonra qaytarmaq adı ilə alıb ələ keçirir. Bu zaman bəzi hallarda şəxs pul sahibini inandırıb ondan və ya sonuncunun tanışından əlavə pul əldə etmək, yaxud ondan şikayət etməsinin bir müddət qarşısını almaq və ya şikayət olunduqda mülki mübahisə kimi "don geyindirmək" üçün bir neçə ay ərzində vəd etdiyi aylıq faizi və ya "qazanc"ı verir. Ali Məhkəmə Plenumunun 11 iyun 2015-ci il tarixli məlum qərarında qeyd edilmişdir ki, mülki münasibətlərdən irəli gələn (məsələn, qanuna müvafiq olaraq bağlanmış borc, kredit, icarə və sair müqavilələr üzrə) öhdəliklərin yerinə yetirilməməsi yalnız o halda dələduzluq kimi qiymətləndirilə bilər ki, şəxsin həmin müqavilələri bağlamazdan əvvəl özgənin əmlakını və ya əmlaka olan hüququnu əvəzsiz olaraq ələ keçirmək niyyətində olması müəyyən edilmiş olsun. Qalan hallarda belə öhdəliklərin yerinə yetirilməməsi məsələsinə mülki mühakimə icraatı qaydasında baxıla bilər. Lakin fikrimizcə Ali Məhkəmə Plenumunun qərarında belə tələbin qoyulması dələduzluq cinayətləri ilə mübarizəyə mənfi təsir göstərməklə təcrübədə neqativ hallara da yol açmaqdadır. Şəxsin müqavilə bağlamazdan əvvəl belə niyyətdə olmasının müəyyən edilməsi tələbinin birmənalı olaraq müəyyən edilməsi fikrimizcə absurddur. Təbii ki, bu niyyətin əvvəldən olması halının müəyyən edilməsi yaxşı olardı, lakin hər fakt üzrə sübuta yetirilməsi faktiki olaraq mümkün deyildir. Fikrimizcə, dələduzluq cinayətinin sübuta yetirilməsində subyektiv cəhətin daha məcburi olan elementləri, əməlin qəsdən və tamah niyyəti ilə törədilməsi, şəxsin üzərinə götürdüyü vədi yerinə yetirmək səlahiyyət və ya imkanında olmaması və ya sonradan bu vədi faktiki yerinə yetirməməsi, belə səlahiyyət və ya imkanda olduğu halda özündən asılı olan hərəkətləri etməməsi və sair daha zəruri xüsusatlar nəzərə alınmalı, lakin hər bir faktın özünün, törədilmə üsullarının və metodlarının fərdi xüsusiyyətləri də üzə çıxarılmalıdır. *Ona görə hesab edirik ki, Ali Məhkəmənin Plenumu dələduzluğun müasir dövrdə yuxarıda qeyd etdiyimiz və ya digər yeni-yeni təzahür formalarına və törədilmə üsullarını nəzərə almaqla bunlarla mübarizəyə mane olmayan formada daha təkmil yeni qərar layihəsi (ya da 11 iyun 2015-ci il tarixli məlum qərarında əlavə və dəyişikliklər barədə qərar layihəsi) hazırlayıb hüquq tətbiqedənlərin müzakirəsinə çıxarmalıdır.*

**20.** Son illərdə təmir-tikinti, eləcə də mebel istehsalı və quraşdırılması ilə məşğul olan firmalar və ya şəxslər tərəfindən müştərilərin aldadılaraq pullarının ələ keçirilməsi, maddi ziyan vurulması halları geniş yayılmışdır. Lakin belə əməllərlə mübarizə heç də adekvat deyildir. Əsas problem belə xarakterli işlər üzrə bəraət hökmlərinin çıxarılması, hətta qətimkan tədbiri məsələsinə baxılarkən "bu cinayət deyil", "bəraətlik işdir" *(ağır cinayət ittihamına 3 nəfər hakimdən ibarət kollegial qaydada bir neçə ay, bəzən bir ildən artıq müddətdə baxılaraq, məhkəmə istintaqında ittiham və müdafiə tərəfinin təqdim etdiyi, eləcə də məhkəmənin təşəbbüsü ilə tələb edilmiş sübutlar tədqiq olunmaqla ittiham və ya bəraət hökmü çıxarıldığı halda, belə ittiham üzrə şəxsin barəsində həbs qətimkan tədbirinin seçilməsi məsələsinə baxan 1 nəfər hakim ən maksimum halda 1-2 saat davam edən prosesin nəticəsində şəxsin əməlinin mülki xarakterli olması qənaətinə gəlib həbsdən imtina haqqında bəraət hökmünə bənzər qərar qəbul etməsi nə dərəcədə doğrudur?)* kimi fikirlər formalaşdırması, nəticədə belə tipli şikayətlər əsasında toplanmış materialların və ya cinayət işlərinin prokurorluqda müzakirəsi zamanı məhkəmələrin mövqeyinin əsas gətirilərək rədd və ya xitam qərarlarının qəbul edilməsinə dair tapşırıqların verilməsidir. Burada qeyd olunmalıdır ki, konkret bir iş üzrə şirkət yaradaraq 6 şəxsi mənzillərini təmir edib təhvil vermək adı ilə aldadıb onların müxtəlif məbləğlərdə pullarını ələ keçirən şəxsə 2023-cü ilin yanvar ayında Nərimanov Rayon Məhkəməsində bəraət (bu hökmdə məhkəmənin gəldiyi nəticə kifayət qədər mübahisə doğurur) verildikdən sonra təcrübədə presedent kimi həmin hökmə əsaslanma halları da olduqca narahatedicidir. Belə halların olması və sonradan davam etməsi bunun tendensiya hal almasına gətirib çıxara bilər. Məlum olduğu kimi qitə hüquq sisteminə aid olan bizim hüquq sistemimizdə Ali Məhkəmə Plenumunun 30 mart 2006-cı il tarixli 5 nömrəli qərarına [21] əsasən İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentləri istisna olmaqla cinayət-prosessual qanunvericilik məhkəmə qərarlarının presedent kimi istifadə edilməsinə icazə vermir. CPM-in 142.1-ci maddəsinə görə cinayət təqibi üzrə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü cinayət təqibi üzrə icraatda həm müəyyən olunmuş hallara, həm də onların hüquqi qiymətinə görə təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmə üçün məcburidir [5]. Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 142-ci maddəsinin şərh edilməsinə dair" 08 yanvar 2020-ci il

tarixli qərarında müəyyən edilmişdir ki, preyudisiya, daha əvvəl baxılan iş üzrə sübutetmə predmetinə aid olan və qanuni qüvvəyə minmiş məhkəmə hökmü ilə müəyyənləşdirilən halların bir daha sübuta yetirilməsi zərurətindən azad olunmanı nəzərdə tutur. Qanuni qüvvəyə minmiş məhkəmə hökmünün preyudisiallığı, həmin hökmün çıxarıldığı şəxslərin dairəsi ilə məhdudlaşır [22].

Hesab edirik ki, etibarlı biznes mühitinin formalaşdırılması, qanuni və vicdanlı ticarət fəaliyyətinin təşviq edilməsi, qanuni və vicdanlı ticarət fəaliyyəti ilə məşğul olan şəxslərin insanları aldadaraq faydalananlardan fərqləndirilməsi, müştərilərin ticarətə, biznesə inamının möhkəmləndirilməsi üçün biznes sahəsində faktiki dələduzluq edən şəxslərin əməllərinin ifşa və məsuliyyətə cəlb edilməsi nəinki vacibdir, həm də belə əməllərə görə daha ciddi cəzaların real olaraq tətbiqi cinayətə görə məsuliyyətin labüdlüyünü (qaçılmazlığını) daha təsiredici formada təmin edir. Məlum olduğu kimi cəzaların məqsədi cinayət törətmiş şəxsi islah etmək, həm məhkumlar, həm də başqa şəxslər tərəfindən yeni cinayətlər törədilməsinin qarşısını almaqdır. *Ona görə də, ticarət sahəsində dələduzluq əməlləri ilə cinayət hüquqi mübarizənin daha ciddi aparılmasına, bu əməllərin ətraflı araşdırılmadan səhvən mülki xarakterli olması qənaətinə gəlinməsi kimi yanlış tendensiyanın aradan qaldırılması və həm də belə əməllərin CM-in 178.2-ci maddəsində tövsifedici əlamət kimi ayrıca kriminallaşdırılmasına ehtiyac vardır.*

Təsadüfi deyildir ki, bəzi xarici ölkə qanunvericiliklərində, o cümlədən Türk Cəza Qanununun 158-ci maddəsində ticarət fəaliyyət zamanı tacir və ya şirkət yönəticisi tərəfindən dələduzluq, eləcə də sərbəst məslək sahibləri tərəfindən, məsləklərindən dolayı onlara duyulan güvəndən sui-istifadə etməklə dələduzluq xüsusi olaraq fərqləndirilərək ağırlaşdırıcı hal kimi nəzərdə tutulmuş və belə əməllərə görə üç ildən on ilədək azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulmuşdur.

**21.** Dələduzluğun ən təhlükəli və son illərdə geniş yayılmış növlərindən biri də dövlət orqanlarının səlahiyyət dairəsinə aid olan məsələlərin həll edilməsi adı ilə vətəndaşların pulunun aldatma yolu ilə ələ keçirilməsi hallarıdır. Bunlardan işə düzəltmək, işə bərpa etdirmək, əlillik dərəcəsi, pensiya düzəltmək, ləğv edilmiş əlillik dərəcəsi və pensiyanı bərpa etdirmək, diplom təsdiq etdirmək, həbs edilmiş və ya azadlıqdan məhrum edilmiş şəxsi azad etdirmək, haqqında olan cinayət işini xitam etdirmək və sair göstərmək olar. Belə əməllərin dələduzluğun digər növlərindən fərqləndirilərək daha ciddi cəzalar müəyyən edilməsi olduqca vacibdir. Lakin CM-in 178-ci maddəsinin, onun tövsifedici əlamətləri və sanksiyalarındakı cəzalar bu növ dələduzluq əməlləri ilə mübarizə üçün əlverişli deyildir. Burada ən həssas məsələ odur ki, belə cinayətlər və onlarla mübarizə vətəndaşlarla dövlət orqanları, xüsusən hüquq-mühafizə və məhkəmə orqanları arasındakı münasibətlərə birbaşa təsir göstərir, bu cinayətlərə görə qanunvericilikdə yüngül cəzaların nəzərdə tutulması nəticəsində ciddi tədbirlərin görülməməsi insanların bu orqanlara inamını sarsıdır, cinayətkarların sanki "qorunduğu" görüntüsünü yaradır. Dövlətin, onun hüquq-mühafizə orqanları və məhkəmələrinin nüfuzunun möhkəmləndirilməsi, onlara olan güvənin sarsılmaması üçün cinayət törədən şəxslərin, o cümlədən dövlət orqanlarının səlahiyyətlərinə aid məsələlərin həlli edilməsi adı ilə dələduzluq edən şəxslərlə effektiv qətimkan tədbirləri və cəzalarla, cəzaların labüdlüyü və sərtliyi ilə mübarizə aparılmalıdır. *Bu məqsədlə ilk öncə dövlət orqanlarının səlahiyyət dairəsinə aid olan məsələlərin həll edilməsi adı ilə vətəndaşların pulunun aldatma yolu ilə ələ keçirilməsi tövsifedici əlamət kimi CM-in 178.3-cü maddəsində ayrıca kriminallaşdırılmalıdır.*

### İstifadə olunmuş mənbələr


1. https://constcourt.gov.az/az/decision/1246
2. https://e-qanun.az/framework/21300
3. https://www.constcourt.gov.az/az/decision/1242
4. https://e-qanun.az/framework/2938
5. https://e-qanun.az/framework/46950
6. https://e-qanun.az/framework/46944
7. https://supremecourt.gov.az/storage/pages/551/plenum-id-26.pdf
8. https://e-qanun.az/framework/46947
9. https://supremecourt.gov.az/storage/pages/570/plenum-id-45.pdf
10. https://constcourt.gov.az/az/decision/1199
11. https://www.mevzuat.gov.tr/mevzuatmetin/1.5.5237.pdf
12. https://e-qanun.az/framework/91
13. https://continent-online.com/Document/?doc_id=31575252#pos=203;-60
14. https://supremecourt.gov.az/storage/pages/530/plenum-id-7.pdf
15. https://www.constcourt.gov.az/az/decision/1303
16. https://supremecourt.gov.az/storage/pages/316/plenum-id-89.pdf
17. https://www.constcourt.gov.az/az/decision/1320
18. https://constitutions.ru/?p=24969
19. https://constitutions.ru/?p=25017
20. https://matsne.gov.ge/ru/document/view/16426?publication=254
21. https://www.constcourt.gov.az/az/decision/1103
22. https://supremecourt.gov.az/storage/pages/547/plenum-id-23.pdf


**Yasin Mikayıllı**
**Daxili İşlər Nazirliyi, Bakı Şəhər Baş Polis İdarəsinin İstintaq və təhqiqat idarəsinin rəis müavini, polis polkovniki**

# Narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı aparılan cinayət işlərində qeyri-aşkar istintaq hərəkətlərinin rolu, onun həyata keçirilməsi qaydası və nəticələri

Təqdirəlayiq haldır ki, son dövrlər bəzi dövlətlərin cinayət-prosessual qanunvericilyinə qeyri-aşkar istintaq hərəkətlərinin aparılması qaydası, müddətləri və nəticələri ilə bağlı yeni institut daxil edilmişdir.

Birinci qrupa daxil olan dövlətlərdə hüquq-mühafizə orqanlarının qeyri-aşkar metodlarla işi müstəsna olaraq əməliyyat-axtarış tədbirləri əsasındadır və cinayət prosesinin hissəsi hesab olunmur. Bu dövlətlərə Rusiya Federasiyası, Tacikistan, və Azərbaycan və digərləri aiddir. Əməliyyat-axtarış tədbirlərinə dair qanunlar model qanunvericiliyinin əlamətlərini daşımaqla, ümumi struktur və normativ material həcminə malikdirlər. Sadalanan dövlətlər qrupunda əməliyyat-axtarış qanunvericiliyində sistemləşdirilmə ilə bağlı problemlər mövcuddur.

İkinci qrupa daxil olan dövlətlər Almaniya, Fransa, Yunanıstan, Belçika, Gürcüstan, Latviya, Litva Respublikası, Moldova, Ukrayna, Qırğızıstan və Qazaxıstandır. Bu dövlətlərdə araşdırmanın qeyri-aşkar üsullarla həyata keçirilməsi cinayət-prosessual qanunvericiliyi ilə tənzimlənir. Həmin ölkələrdə əməliyyat-axtarış sahəsində profil qanunlar mövcud olsa da, onların əhatə dairəsi cinayətlərin açılmasını və araşdırılmasını istisna etməklə, yalnız cinayətlərinin qarşısının alınmasına yönələn preventiv tədbir kimi təsbit edilmişdir.

Cinayət prosesi ilə əməliyyat-axtarış tədbirlərinin inteqrasiyası bu qrup dövlətlərdə araşdırmanın qeyri-aşkar metodlarla həyata keçirilməsini məhkəmə nəzarətinin tətbiqi dairəsinə daxil edilmiş, şəxslər barəsində aparılan məxfi tədbirlər barədə onların məlumatlandırılmaması və qeyri-aşkar istintaq hərəkətlərinin protokollarının cinayət işi üzrə sübut kimi qəbul olunmasına zəmin yaradılmışdır.

Estoniya qanunvericisi isə daha irəli gedərək, ümumiyyətlə əməliyyat-axtarış fəaliyyəti haqqında qanundan imtina etmiş və bununla da milli cinayət prosesini beynəlxalq standartlara uyğunlaşdırmışdır.

Qeyri-aşkar istintaq hərəkətləri Estoniya CPM-də axtarış fəaliyyəti, Ukrayna CPM-də qeyri-aşkar istintaq və ya axtarış hərəkətləri, Gürcüstan CPM-də gizli istintaq hərəkətləri, Latviya CPM-də xüsusi istintaq hərəkətləri, Qazaxıstan Respublikasının CPM-də (7-ci maddə 12-ci bənd) isə qeyri-aşkar istintaq hərəkətləri kimi qeyd olunur.

2014-cü ilə kimi qeyri-aşkar araşdırma metodları əməliyyat-axtarış fəaliyyəti haqqında qanunla tənzimlənirdi. Həmin ildə Qazaxstan Respublikasında yeni Cinayət-Prosessual Məcəlləsi qəbul olunmuş və həmin Məcəlləyə qeyri-aşkar istintaq hərəkətləri institutu daxil edilmişdir. Bununla da əməliyyat-axtarış fəaliyyətinin cinayətlərin açılması kimi məqsədi aradan qaldırılmışdır.

Qazaxıstan Respublikasının CPM-də 30-cu fəsil qeyri-aşkar istintaq hərəkətlərinə həsr olunub. Həmin Məcəllənin 231-ci maddəsində 8 qeyri-aşkar istintaq hərəkəti göstərilir. Digər maddələrdə qeyri-aşkar istintaq hərəkətlərinin aparılması şərtləri, bu kimi istintaq hərəkətlərinin aparılmasına dair qərarın qəbul edilməsi əsasları, həmin hərəkətlərin sanksiyalaşdırılması, təxirəsalınmaz hallarda onların həyata keçirilməsi, müddəti, bu hərəkətlər nəticəsində əldə olunan sübutlar və onların qiymətləndirilməsi, hər bir qeyri-aşkar istintaq hərəkətinin aparılması qaydası müəyyən edilmişdir.

Maraq doğuran məsələlərdən biri həmin Məcəllənin 250-ci maddəsində nəzərdə tutulan malın qeyri-aşkar nəzarətli alışı qeyri-aşkar istintaq hərəkətidir.

**Статья 250. Негласный контрольный закуп**

1. Негласный контрольный закуп проводится с целью получения фактических данных о совершаемом или совершенном уголовном правонарушении путем создания ситуации мнимой сделки.

При этом у лица, в отношении которого имеются достаточные основания полагать о его причастности к уголовному правонарушению, возмездно приобретаются предметы или вещества, свободная реализация которых запрещена либо оборот которых ограничен законом, а также являющиеся объектами или орудиями преступных посягательств.

2.О выдаче сотруднику уполномоченного органа или лицу, добровольно изъявившему намерение участвовать в негласном следственном действии, научно-технических и иных средств фиксации его хода и результатов, а также денежных средств для возмездного приобретения предметов или веществ, свободная реализация которых запрещена либо оборот которых ограничен законом, или являющихся объектами и (или) орудиями преступных посягательств, составляются отдельные протоколы в соответствии со статьей 199 настоящего Кодекса.

3. О получении от сотрудника уполномоченного органа или лица, добровольно изъявившего намерение участвовать в негласном следственном действии, приобретенных предметов или веществ, а также результатах их осмотра составляется протокол в соответствии с правилами статей 199 и 219 настоящего Кодекса.

Moldova Respublikasının CPM-nin 5-ci hissəsi xüsusi axtarış fəaliyyətinə həsr olunmuş və həmin Məcəllənin 138.3-cü maddəsində nəzarət qaydasında al-

ma kimi hərəkətə dair xüsusi analoji müddəalar mövcuddur.

**Часть 5**
**Специальная розыскная деятельность**

**Статья 132.1. Общие положения о специальной розыскной деятельности**

(1) Специальная розыскная деятельность представляет собой совокупность действий по уголовному преследованию гласного и/или негласного характера, осуществляемых розыскными офицерами в рамках уголовного преследования только на условиях и в порядке, предусмотренных настоящим кодексом.

(2) Специальные розыскные мероприятия разрешаются и проводятся, если соблюдены в совокупности следующие условия:

1) иным путем невозможно реализовать цели уголовного судопроизводства, и/или может быть нанесен значительный ущерб сбору доказательств;

2) имеются обоснованные подозрения в подготовке или совершении тяжкого, особо тяжкого или чрезвычайно тяжкого преступления с установленными законом изъятиями;

3) действие является необходимым и соразмерным ограничению основных прав и свобод человека.

**Статья 132.3. Основания для проведения специальных розыскных мероприятий**

(1) Основаниями для проведения специальных розыскных мероприятий являются:

1) распорядительные процессуальные акты офицера по уголовному преследованию, прокурора или судьи по уголовному преследованию, относящиеся к уголовным делам, находящимся в их производстве;

2) запросы международных организаций и правоохранительных органов других государств в соответствии с международными договорами, стороной которых является Республика Молдова;

3) поручения о производстве процессуальных действий правоохранительных органов других государств в соответствии с международными договорами, стороной которых является Республика Молдова.

(2) Прокурор координирует, руководит и контролирует проведение специального розыскного мероприятия или назначает для осуществления этих действий офицера по уголовному преследованию.

**Статья 138.3. Контрольная закупка**

Контрольная закупка представляет собой приобретение услуг или товаров, находящихся в свободном, ограниченном или запрещенном обороте, в целях осуществления научно-технических исследований или судебных экспертиз либо для расследования преступления или установления личности его исполнителя.

Dünya ölkələrinin istintaq və məhkəmə təcrübəsinin təhlili göstərir ki, narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərlə əlaqədar malın nəzarət qaydasında alışı həm əməliyyat-axtarış tədbiri kimi, həmçinin ayrı-ayrı ölkələrin prosessual qanunvericiliyinə görə qeyri-aşkar istintaq hərəkəti kimi ən optimal hüquqi institutdur.

"Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinin 12-ci bəndində nəzarət qaydasında malın alınması əməliyyat-axtarış tədbiri kimi təsbit edilmişdir.

Bu baxımdan narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin artmasını və geniş vüsət almasını, qonşu dövlətlərdə mövcud cinayətkar birliklər tərəfindən ərazimizin tranzit kimi istifadəsində maraqlı olmasını nəzərə alaraq, yuxarıda qeyd olunan əməliyyat-axtarış tədbirinin müntəzəm olaraq həyata keçirilməsi əməliyyat-axtarış subyektlərinin prioritet vəzifəsinə çevrilməli, narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı olan cinayətlərlə əlaqədar məhz bu tədbir önə çəkilməlidir. Belə ki, məhz bu əməliyyat-axtarış tədbirlərinin tətbiqinə üstünlük verilməməsi bir sıra işlərdə narkotik vasitələrin mənbəyinin müəyyən olunmamasına səbəb olur və nəticədə narkotik vasitələrin yayılması öz axarında davam edir.

Məsələn, Özbəkistan Respublikası Ali Məhkəməsi Plenumunun 03 iyul 2020-ci il tarixli 12 nömrəli qərarında malın nəzarət qaydasında alınması tədbirinin tətbiqinə dair tövsiyəni özündə əks etdirən 33-cü bənd mövcuddur. Belə bir analoji bəndin Azərbaycan Respublikası Ali Məhkəməsinin 2011-ci il tarixli Plenum qərarına əlavə edilməsi məqsədəmüvafiq olardı.

**“33.** Судам следует иметь в виду, что в соответствии со статьей 14 Закона "Об оперативно-розыскной деятельности" государственными органами, осуществляющими такую деятельность может проводиться контролируемое приобретение, т.е. специальное мероприятие, заключающееся в приобретении, наркотических средств, их аналогов, психотропных веществ без цели потребления или сбыта для установления и документирования факта нарушения законодательства, который должен проводиться при строжайшем соблюдении соответствующих требований уголовно-процессуального законодательства. (пункт 33 в редакции постановления Пленума Верховного суда Республики Узбекистан от 3 июля 2020 года № 12)

Göstərilənlərə əsasən hesab edirəm ki, qeyri-aşkar istintaq hərəkətlərinin Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyndə əks olunması narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayət təqibinin müstəntiqin nəzarəti altında, prokurorun prosessual rəhbərliyi və məhkəmə nəzarəti qaydasında həyata keçirilməsinə xidmət etməklə, şübhəli və təqsirləndirilən şəxslərin bütün prosessual hüquqlarının təmin olunmasına yönələcək. Əvvəla, bu tədbirlər istintaq hərəkəti kimi yerinə yetiriləcək, bununla da

prosessual qanunvericiliyin tələblərinə tam əməl olunacaq və bu tədbir məhkəmə nəzarətinin predmeti olacaq.

Hal-hazırda narkotik vasitələrin alğı-satqısı ictimai təhlükəlilik baxımından daha aktual olduğundan, müstəntiq tərəfindən malın nəzarət qaydasında alınması ilə bağlı qərar qəbul olunmaqla, müvafiq orqana göndəriləcək, onun nəzarəti altında bu tədbir həyata keçiriləcək, əldə olunan nəticələr, o cümlədən protokollar istintaq hərəkəti kimi qeydə alınmaqla gələcəkdə bilavasitə sübut əhəmiyyətinə malik olacaq.

Qeyd edilməlidir ki, qeyri-aşkar istintaq hərəkətləri institutunun postsovet məkanında ilk dəfə 2012-ci ildə Ukraynada, 2019-cu ildə isə Qırğızıstan Respublikasında tətbiqinə başlanılmışdır. Əməliyyat-axtarış tədbirləri ilə qeyri-aşkar istintaq hərəkətləri ümumi məqsədlərə xidmət etsə də, aralarında bir sıra fərqlər mövcüddür.

Qeyri-aşkar istintaq hərəkətləri istintaq hərəkətlərinin bir növüdür, bu hərəkətlər məhkəməyədək icraat zamanı tətbiq olunur və maraqlı şəxslərdən xəbərsiz (gizli) yerinə yetirilir. Eyni zamanda, bu növ istintaq hərəkətləri CPM-də təsbit olunur.

Əməliyyat-axtarış tədbirləri istintaq hərəkəti hesab olunmur, bu tədbirlər yalnız buna səlahiyyəti olan orqanlar tərəfindən həyata keçirilir, vətəndaşların konstitusion hüquqlarına toxunur, bu fəaliyyətin operativ-axtarış məqsədlərini həll edir.

Qeyri-aşkar istintaq hərəkətləri bilavasitə Məcəllədə nəzərdə tutulduğu halda, əməliyyat-axtarış tədbirləri qanunla tənzimlənir, bu isə əsas mahiyyətcə bu institutların əsas fərqidir.

Qazaxıstan təcrübəsində qeyri-aşkar istintaq hərəkətlərinin və əməliyyat-axtarış tədbirlərinin təşəbbüskarları fərqlidir. Qeyri-aşkar istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri vətəndaşların konstitusion hüquqlarını məhdudlaşdırdığına görə, birincisi məhkəmə, ikincisi isə prokuror tərəfindən sanksiyalaşdırılır, habelə bu hərəkətlər cinayətlərin təsnifatı üzrə aparılır.

Bundan başqa, qeyri-aşkar istintaq hərəkətləri yalnız cinayət işi çərçivəsində aparıldığı halda, əməliyyat-axtarış tədbirləri ilkin məlumat əsasında da cinayət işi başlananadək həyata keçirilir. Digər fərq isə, hərəkətləri həyata keçirən subyektlərdir. Qeyri-aşkar istintaq hərəkətləri institut kimi müvafiq ölkələrin CPM-nə daxil edildikdən sonra əməliyyat-axtarış fəaliyyətinin cinayətlərinin açılması kimi məqsədi aradan qaldırılmışdır.

Göründüyü kimi, qeyri-aşkar istintaq hərəkətləri institutunun cinayət-prosessual qanunvericiliyinə daxil edilməsi əməliyyat-axtarış tədbirlərinin cinayət prosessual fəaliyyətlə inteqrasiyasına xidmət etməklə, vətəndaşların konstitusion hüquqlarının daha dolğun və etibarlı müdafiəsinə yönələcəkdir.

"Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramının 4.2.2-ci bəndində narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə sahəsində əməliyyat-axtarış tədbirlərinin səmərəliliyinin artırılmasına dair təkliflərin hazırlanması, 4.2.4-cü bəndində isə normativ hüquqi aktlarda əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanlar tərəfindən şəxsin üzərində hər hansı qanunsuz saxlanılan əşyanın aşkar edilib götürülməsinin prosedur qaydalarını dəqiq müəyyənləşdirəcək dəyişikliyin edilməsi, həmçinin Proqramın qeyd hissəsində Azərbaycan Respublikasının Ali Məhkəməsinə və Azərbaycan Respublikasının Baş Prokurorluğuna bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi işində iştirak etməsi tövsiyə olunmuşdur.

Yuxarıda göstərilənlərə əsasən, narkotik vasitələrin qanunsuz dövriyyəsi və narkomanlığa qarşı mübarizə sahəsində aşağıdakı təklifləri irəli sürürəm:

**1.** Mövcud təcrübəyə əsasən məhkəmə qərarı olmadan yalnız tutulmuş şəxsin şəxsi axtarışa məruz qalması barədə müddəalar qüvvəsində qalmalı, (Azərbaycan Respublikası CPM-nin 246.2.1 və Azərbaycan Respublikası Ali Məhkəməsinin 04 mart 2011-ci il tarixli 2 №-li qərarının 28-ci bəndi), İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin tövsiyələrinə əsasən isə CPM-nin 246.2.1-ci maddəsindən "və polis və ya digər hüquq-mühafizə orqanına gətirildikdə" sözləri çıxarılmalıdır. (Lahıcov Azərbaycana qarşı, Xudobin Rusiyaya qarşı, Veselov Rusiyaya qarşı Avropa məhkəməsinin qərarları).

Artıq 2011-ci ildən başlayaraq bu qəbildən olan işlərin sənədləşdirilməsində vahid istintaq və məhkəmə təcrübəsi formalaşdığından, pozuntuların heç də qüvvədə olan qanunvericiliyin mürəkkəbliyi ilə deyil, əməliyyat-axtarış fəaliyyəti subyektləri, təhqiqatçı və bəzən müstəntiqlərin qanuna zidd hərəkətləri, qərarları nəticəsində baş verməsi müşahidə edilir (şəxsin polisə gətirilərək, uzun müddət şəxsi axtarışın aparılmaması, şəxsin tutulduğu yerdə axtarışa məruz qalmaması, müdafiə hüquqlarının pozulması və s.)

**2.** "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunun 10-cu maddəsinin 12-ci bəndində nəzərdə tutulan nəzarət qaydasında malın alınması kimi əməliyyat-axtarış tədbiri bu qəbildən olan cinayətlərlə bağlı mübarizə sahəsində geniş tətbiq olunmalı, ayrıca bənd kimi Ali Məhkəmənin müvafiq Plenum qərarına əlavə olunmalıdır.

**3.** Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyinə yeni institut kimi qeyri-aşkar istintaq hərəkətlərinin daxil edilməsi məqsədə müvafiq olradı.Belə olan halda bu sahədə mübarizə daha kəsərli olmaqla, təqsirli şəxslərin hüquqları dolğun və etibarlı müdafiə olunmaqla, beynəlxalq standartlara uyğunlaşdırılmış olacaqdır.Avropa məhkəməsinin bərqərar olunmuş mövqelərinə uyğun tədbirlər məhkəmə nəzarəti altında prosessual təminatlar təmin olunmaqla, həyata keçiriləcəkdir.

**Sərdar İmanov**
**Bakı şəhəri Xətai rayon prokuroru**
**baş ədliyyə müşaviri**

# İtaliya Respublikasının Ali Kassasiya Məhkəməsinin Baş prokuroru Luici Salvatonun müsahibəsi




**Cənab prokuror, Azərbaycana xoş gəlmisiniz. Ölkəmizə ilk dəfə səfər edirsiniz. Səfərinizlə bağlı təəssüratlarınızı "Azərbaycan Prokurorluğu" jurnalının oxucuları ilə bölüşməyinizi xahiş etmək istərdik.**

Hər şeydən əvvəl, məni dəvət etdiyi və qəbul etdiyi üçün Azərbaycan Respublikası Baş prokuroruna bir daha təşəkkür etmək istəyirəm. Deməliyəm ki, Azərbaycan Respublikası Prokurorluğunun təşkil edilmə forması və inkişafı məni çox müsbət təəssüratlandırdı.

Görüş zamanı da mən bütün ölkələrin məhkəmə orqanları arasında əməkdaşlıq və qarşılıqlı bilik mübadiləsi rejiminin yaradılmasının vacibliyini vurğuladım. Çünki hüquq sistemlərinin müxtəlifliyinə baxmayaraq, biz hamımız bəzi fundamental prinsiplərin, xüsusən də insan hüquqları kimi əsas hüququn təminatının həyata keçirilməsində, həmçinin leqallıq və dövlət hüququnun təmin edilməsində əməkdaşlıq etməliyik.



**Azərbaycan və İtaliya prokurorluq orqanlarının əməkdaşlıq perspektivləri barədə fikirlərinizi bilmək istərdik.**

Ölkələrimizin əməkdaşlığı demək olar ki, qədim Roma dövründən başlayır və orta əsrlərdə inkişaf etmişdir. Gələcəkdə isə bu əməkdaşlıq qarşılıqlı bilik mübadiləsinin və əlaqələrin gücləndirilməsinin bir forması olmalıdır. Bizim vəzifəmiz mozaikanın parçalarını tamamlayaraq bütün xalqlar arasında sülh və demokratiyanı təmin etməkdir. Bu məqsədə çatmaq yalnız bütün ölkələrin ədliyyə (məhkəmə hakimiyyəti) orqanlarının bu məqsədə doğru birləşməsi ilə mümkündür.



**Bu il ölkəmiz nüfuzlu COP-29 tədbirinə ev sahibliyi edəcək. Azərbaycanda ekoloji təhlükəsizliyin, o cümlədən ekoloji cinayətlərə qarşı səmərəli mübarizənin təmin edilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Bu sahədə təcrübənizlə bölüşə bilərsinizmi?**

Təmsil etdiyim qurum ətraf mühitin mühafizəsi sahəsində mühüm təcrübələr qazanmışdır və biz bu sahədə müxtəlif İtaliya hakimiyyət orqanları ilə əhəmiyyətli protokollar, razılaşmalar imzalamışıq. Bizim aramızda İtaliyada ətraf mühitin mühafizəsi üzrə yüksək ixtisaslı mütəxəssislərdən olan bəzi hakimlər var.

Bu tədbir zamanı niyyətimiz bu təcrübələri bütün iştirakçılarla bölüşmək, onları hər kəsin istifadəsinə vermək və ən yaxşı əməliyyat metodlarını müəyyənləşdirməyə çalışmaqdır.

Texniki məsələlərlə bağlı müzakirələri tədbir zamanı nəzərdən keçirəcəyik. Lakin, hər kəsin istifadəsi üçün yetərincə təcrübə topladığımızı və onu paylaşmaq niyyətində olduğumuzu təsdiqləyə bilərik.

**Cənab prokuror, bu maraqlı müsahibəyə görə jurnalın redaksiya heyəti adından Sizə təşəkkürümüzü bildiririk.**

# Qulluqda olmanın son yaş həddinə çatmış prokurorluq işçiləri təltif olunub



Mayın 29-da Baş prokuror Kamran Əliyev rəhbər işçilərin iştirakı ilə "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununun 32.2-ci maddəsinə əsasən prokurorluqda qulluqda olmanın yaş həddinə çatmış Azərbaycan Respublikası Baş Prokurorluğunun Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin böyük prokuroru Fikrət Mahmudov və Baş Prokurorluğunun Rayon (şəhər) məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin Sumqayıt Apellyasiya Məhkəməsinin yurisdiksiyasına aid olan birinci instansiya məhkəmələri üzrə prokuroru Kamran Əhmədovu qulluq keçmələrinə xitam verilməsi ilə əlaqədar qəbul edib. Görüşdə Baş prokuror tərəfindən prokurorluqda uzunmüddətli qüsursuz və səmərəli fəaliyyətlərinə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində səmərəli fəaliyyətlərinə görə onlara "Prokurorluğun fəxri işçisi" döş nişanı və Azərbaycan Respublikası Prokurorluğunun Fəxri fərmanını təqdim edilib. Daha sonra tədbir iştirakçıları xatirələrini bölüşərək səmimi söhbətlər edib və xatirə şəkli çəkilib.







## Baş Prokurorluğun əməkdaşları prokurorluğun veteranları ilə görüşüb






Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən prokurorluq işçilərinə və prokurorluğun veteranlarına göstərilən diqqət və qayğının məntiqi davamı olaraq, Baş Prokurorluğun əməkdaşları Azərbaycan Prokurorluğunun veteranları Ələmdar Məmmədovun 75 illik və Arif Rzayevin 70 illik yubileyləri ilə əlaqədar aprelin 20-də onlarla görüşüb Azərbaycan Respublikası Baş prokurorunun və Baş Prokurorluğun kollektivinin təbriklərini və xoş arzularını çatdırmışlar.

Veteranlar Ələmdar Məmmədov və Arif Rzayev əməkdaşlarla xatirələrini bölüşüb səmimi söhbətlər etmiş və sonda xatirə fotoşəkili çəkilmişdir.

## Qulluqda olmanın son yaş həddinə çatmış prokurorluq işçisi təqaüdə çıxıb





Prokurorluqda qulluqda olmanın son yaş həddinə çatmış Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin şöbə prokuroru Rafiq Əliyev qulluq keçməsinə xitam verilməsi ilə əlaqədar qəbul edilib və ona Baş prokuror tərəfindən verilmiş Fəxri fərman və hədiyyə təqdim olunub.

Aprelin 25-də keçirilən görüş zamanı Rafiq Əliyevin prokurorluq orqanlarında keçdiyi uzunmüddətli xidmət illərinə nəzər salınaraq, prokurorluq orqanlarında səmərəli fəaliyyəti, cinayətkarlığa qarşı mübarizə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, habelə insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində əldə etdiyi nailiyyətlər qeyd edilib.

Rafiq Əliyev tədbir iştirakçıları ilə xatirələrini bölüşüb və sonda xatirə şəkli çəkilib.

## Baş Prokurorluğun əməkdaşları prokurorluğun veteranı ilə görüşüb




Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən prokurorluq işçilərinə və prokurorluğun veteranlarına göstərilən diqqət və qayğının məntiqi davamı olaraq, Baş Prokurorluğun əməkdaşları Azərbaycan Prokurorluğunun veteranı Vilayət Cəfərovun 65 illik yubileyi ilə əlaqədar onunla görüşüb Baş Prokurorluğun kollektivinin təbriklərini və xoş arzularını çatdırmışlar.

Azərbaycan Prokurorluğunun veteranı Vilayət Cəfərov əməkdaşlarla xatirələrini bölüşüb səmimi söhbətlər etmiş və sonda xatirə fotoşəkili çəkilmişdir.

## Prokurorluğun veteranları təltif edilib




Azərbaycan Prokurorluğunun veteranları Məhərrəm Məhərrəmov və Vaqif Axundovun 65 illik yubileylərinin tamam olması ilə əlaqədar Baş prokuror Kamran Əliyevin adından təbrik məktubları və hədiyyələr təqdim edilib.

Mayın 16-da keçirilən görüş zamanı veteranlar prokurorluq orqanlarındakı xatirələrini bölüşərək Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən göstərilən qayğı nəticəsində prokurorluq orqanlarının maddi-texniki bazasının möhkəmlənməsini, prokurorluq işçilərinin, onun veteranlarının maddi və sosial rifahının yüksəlməsini qeyd edib.

Söhbət zamanı dövlətçilik maraqlarının keşiyində hər zaman mətinliklə duran, şərəfli inkişaf yolu keçmiş, prokurorluğun adını daim uca tutan veteranlarımızın ömür yolunun gənc nəsil prokurorluq işçiləri üçün örnək olması vurğulanıb.

# Prokurorluğun veteranı Firəngiz Həsənovanın "Azərbaycan Prokurorluğu" jurnalına müsahibəsi



*Həsənova Firəngiz Rzaqulu qızı 1977-ci ildə Bakı Dövlət Universitetinin Hüquq fakültəsini bitirərək, müxtəlif təşkilatlarda hüquq məsləhətçisi kimi işləmişdir. Prokurorluq orqanlarında fəaliyyətinə isə 1992-ci ildən başlamış, 1993–2001-ci illərdə Respublika Prokurorluğunun Təşkilat-analitik idarəsinin Analitik informasiya şöbəsinin əvvəlcə prokuroru, sonra isə böyük prokuroru olmuşdur. 2001-ci ildən 2014-cü ilədək Baş Prokurorluğun Təşkilat-analitik idarəsinin prokuroru və böyük prokuroru vəzifələrində çalışmış, 03.11.2014-cü il tarixdə prokurorluqda qulluqda olmasının yaş həddinə çatdığına görə təqaüdə çıxmışdır.*

*Firəngiz Həsənova prokurorluqda işlədiyi müddət ərzində xidməti vəzifələrini nümunəvi icra etdiyi üçün, habelə qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsində peşəkarlıq göstərdiyinə görə "Prokurorluğun fəxri işçisi" döş nişanı və digər tədbirlərlə dəfələrlə həvəsləndirilmiş, ədliyyə müşaviri rütbəsində olmaqla təqaüdçüdür.*

**Firəngiz xanım, prokurorluqda işə başladığınız ilk günü necə xatırlayırsınız?**

1992-ci il idi, çox çətin vəziyyət idi. Azərbaycan dilinin latın qrafikasına keçid dövrü idi. Latın qrafikası ilə yazı yazan demək olar ki yox idi. Hamı gəlirdi ki, rus dilində yazdım, Azərbaycan dilində yaza bilmirəm. Mənim gəldiyim yerdə iki nəfər statistika üzrə Baş prokuror köməkçisi işləyirdi, biri böyük prokuror, o biri isə prokuror. Böyük prokuror rus idi, tez-tez Moskvaya gedərdi, digər prokurorun isə 60 yaşı var idi təqaüdə hazırlaşırdı və mənə heç nə öyrətmirdi. Bu prokurorların ikisi də xanım idi və bu sahə diqqət tələb edən iş idi, səbir tələb edən bir iş idi, ona görə də kişi prokurorlarını bu işə cəlb etmək çox çətin məsələ idi.

**Hüquqi statistika, təhlillər, statistik uçot və hesabatların tərtibi... İlk baxışdan çox maraqlı gəlməyən, lakin olduqca mürəkkəb və vacib olan bu sahədə çoxillik səmərəli fəaliyyətiniz yaşlı və orta nəsil bütün prokurorluq işçilərinin yaddaşına həkk olunub. Bu sahədə bilik və vərdişlərinizi necə mənimsəmisiniz?**

Mən Təşkilat-nəzarət idarəsinin texniki əməkdaşı olaraq gəldim, o idarənin adı çox dəyişib. Statistika sözü deyiləndə, mən yada düşürdüm. Məni öyrədən olmadı, sadəcə hesabatların blanklarını rus dilindən Azərbaycan dilinə tərcümə edərək baxırdım ki, harada nə varsa elə öyrənirdim. Mənim riyazi biliklərim yaxşı olduğundan bəzən sənədlərdə səhvlər aşkar edirdim. Bu səhvlərin qarşısını almaq üçün, müəyyən şeyləri dəyişmək lazım idi. Yavaş-yavaş öyrənərək sonradan həmin sahə üzrə təlimat hazırladım. Daha sonra işimizi rəqəmsallaşdırdıq, mənim yanımda Əli adında İT mütəxəssisi işləyirdi, hal-hazırda da işləyir və onunla birlikdə mən riyazi biliklərimi əlavə etməklə həmin işin rəqəmsallaşdırılmasını birlikdə həyata keçirdik.

İşin hüquqi tərəfini mən tənzimləyirdim, rəqəmsallaşdırma məsələsinə gəldikdə isə kompüter proqramları düzəliş verirdi, yəni səhv olduqda proqramda qırmızı işarələr yaranırdı. Xeyli iş azalmışdır, yüngülləşmişdir. İşin düzgün qaydasına qoymaq üçün və onun üçün mən nələr etdiyimi görəndə, yəni rəqəmləri necə oxuduğumu əməkdaşlar görəndə, çox adam təəccüblənirdi ki, bu sahə nə maraqlı imiş.

Mənə çətin gəlmirdi bu iş, bir işə gələndə sevinirdim, bir də evə gedəndə. İşə gələndə ev yadımdan çıxırdı, rahat işimi görürdüm, özü də ki, tək öz işimi görmürdüm... Mən kollegiya iclaslarında katib qismində də otururdum və tapşırıqların yerinə yetirilib-yetirilməməsini yoxlayırdım. O da az iş deyil, iki-üç adamın işi görülürdü. Məsələn, əvvəllər hesabatlar necə hazırlanırdı? Palaz kimi hesabatlar gəlirdi iki üzlü yazılarla, 66 rayon üzrə həm polisə aid olan, həm prokurorluğa aid olan. Onların hamısını ümumiləşdirmək lazım idi. Bu kağızları qatlaya-qatlaya yığırdıq, sətir-sətir, cərgə-cərgə hamısını yoxlayırdıq ki, arada səhv çıxmasın, digər məlumatlar itməsin. O halda ki, arada müəyyən bir sənəd görünməsəydi, artıq səhv çıxa bilərdi və bu səhvlərin qarşısını biz çox almışıq.

Hər dəfə də baxırdım ki, bunu necə etmək olar. Bütün idarə fəaliyyətini dayandırırdı, hamı bizə kömək edirdi. Başa düşən də, düşməyən də dəstək olurdu, kağızları qatlayırdı, rəqəmləri toplayırdı və sair. Nə isə, çox ağır işi yüngülləşdirdim.




Sonradan işi rəqəmsallaşdırdıq və bu işi görmək artıq çox asan oldu. Bizdə idarə rəisi İdris Qasımov işləyirdi, 40 ilin prokuroru idi, 22 yaşından prokurorluğa gəlmişdi. Həmin zamanlar üçün bu qədər böyük iş staji olan nadir adamlardan idi. O bizim idarənin rəisi idi və həmişə Baş prokurorun məruzəsini yazırdı. Onun ən birinci tələbi o idi ki, "mənə hesabatı verin ki, məruzəni hazırlayım". Hesabat olmadan məruzə yazmaq mümkün deyildi, hesabatı da hazırlayan biz idik.



Bir dəfə gəldi bizim iş otağımızın qarşısından keçəndə soruşdu: "hesabat hazırdır ya yox?" Mən dedim ki, rayonlardan hesabatlar səhvlərlə gəldiyi və pis işlənildiyi üçün ümumi hesabat hazır deyil. Dedi ki, pis işləyənlərin adını verin. Cavabım belə oldu: "İdris müəllim, gəlin mən sizə 2-3 nəfər yaxşı işləyənlərin adlarını verim, digərləri onsuz da pis işləyir". İdris müəllim getdi dəhlizin o biri başına və bir daha qayıtdı, sonra dedi: "Sən düz demirsən! Yaxşı işləmək hər bir prokurorun borcudur, pis işləmək haqqı yoxdur". Belə bir sərt adam idi.

Mən öz vaxtımda prokurorlara deyirdim ki, zəhmət çəkin işlər üzrə özünüz cavab verin. Rayon prokurorları ilə telefonla danışıqda hiss olunurdu ki, onların yanında kimsə oturub onlara məlumat verir, yəni özləri məlumatlı deyildilər. Mən özüm rayonlara gedirdim və yerlərdə özüm işi öyrədirdim. Hesabata baxanda mən onu rəqəm kimi oxumurdum, bir hadisə kimi görürdüm. Deyirdim ki, baxın bu yerdə qanunsuz tutma faktı var. Mənə deyirdilər ki, sizə onu kim deyib? Cavab olaraq göstərirdim ki, hesabatda bu rəqəmlə yazılıb. Təşvişə düşürdülər ki, sizə bunu kim xəbər verib? Onlara izah edirdim ki, heç kim xəbər verməyib, sizlər özünüz rəqəmlə hesabatda müəyyən qeyri-dəqiq məlumatları yazırsınızsa, deməli bu qanunsuz tutulma faktı olub, sonra isə adam buraxılıb və bu səbəbdən arayış tələb edirdim. İşi öyrətmək mənim üçün hər zaman xoş idi. Çox vaxtı gəlirdim hesabat tərtib edəndə əməkdaşın yanında oturardum və ona deyirdim necə yazmaq lazımdır və o da yazırdı.





Hesab edin ki, siz xəstəsiniz və gedirsiniz poliklinikaya, birinci, qan analizini verirsiniz və təhlillərə baxan həkim ancaq rəqəm görür, normadan artıq və ya normadan aşağı. Həkim də müəyyən əlamətlərin çoxluğuna və ya azlığına görə diaqnozu qoyur. Eyni şey də hüquqi statistikadır.

**Həmkarlarınızdan kimi xatırlamaq istərdiniz?**

Bütün kollektivimiz çox gözəl idi. Elə vaxt olub ki, biz gecə saat on iki-birə qədər işləmişik. Təşkilat-nəzarəti idarəsidirsə, işi həm təşkil edir, həm də nəzarət edir. Təşkilatçılıq da çox böyük məsuliyyət tələb edirdi, mən o işdə də iştirak edirdim. Rayonlara ezamiyyələrə gedərək iş öyrədirdim, yoxlamalar aparırdım. Biz həm işdə bir yerdə idik, həm də işdən sonra ad günlərimizi, xoş günlərimizi birgə keçirirdik. Çox mehriban idik.

Mənə əsas işi öyrədən idarəmizin rəisi Aslan Muradov oldu. Onun hesabatdan yaxşı anlayışı var idi, Bakıda işləyirdi və statistikaya baxırdı. Onun bir sözü yadımdan çıxmır. Deyirdi ki, “Əgər sən təhlil edirsənsə, prokurorun həm yaxşı işini göstər, həm pisini. İkisini də göstər ki, sən obyektiv olasan”. Mən də hər bir prokurorun hesabatlarını götürürdüm, cari illə keçən ili müqayisə edirdim və deyirdim ki, vəziyyət nə yerdədir.

Hazırkı Baş prokuror Kamran Əliyev Korrupsiyaya qarşı mübarizə idarəsinin rəisi olanda onun göndərdiyi hesabatları biz yoxlamırdıq, çünki onun hesabatları çox dəqiq olurdu və düzəlişə ehtiyac yaranmırdı. Yeganə idarə rəisi idi ki, onun göndərdiyi hesabatlarda səhv olmurdu.

**Xanım olaraq prokuror vəzifəsində işləmək Sizə həyatda hansı üstünlüklər və məhrumiyyətlər bəxş edib?**

Nə üstünlük olub, nə də məhrumiyyət. Mən işdən kənar vaxtlarda formanı geyinmirdim və heç kim mənim prokuror olduğumu bilmirdi. Düşünmürəm ki, onu bildirmək lazımdır, çünki vəzifə bu gün var, sabah yoxdur.

Mən ancaq işləmişəm. Tam məzuniyyətimi istifadə edə bilmirdim, çünki ayın 3-dən 15-dək istintaqın aylıq hesabatları gəlirdi, məzuniyyət isə 1 aydır. 15 gün mən məcburən işdə qalırdım ki, hesabatları toplayıb təqdim edim. Bu səbəbdən işlədiyim dövrdə məzuniyyətimin bütöv aldığım hal heç olmayıb, yalnız hissəvi olaraq dincələ bilmişəm.

Bu işi mən əzbərdən bildiyim üçün hətta təqaüdə çıxandan sonra da yeni əməkdaşlar mənə zəng vurub tez-tez məsləhət alırdılar. İndi isə mən dincəlirəm, bütün Avropanı gəzmişəm, Asiyaya səfər etməyi planlaşdırıram.

**Təqaüdə çıxdığınız dövrdə əmək və ya digər fəaliyyətlə məşğul olmusunuzmu?**

Mən işləyəndə gördüm ki, rəqəmlər məni artiq yorub. Odur ki, bütöv ştat üzrə işləmək istəməmişəm. Yalnız keçmiş Bakı Özəl Universitetində (indiki Naxçıvan Özəl Universiteti) cinayət prosesi fənnindən rus dilində dərs tədris etmişəm.

**Son illər prokurorluq orqanlarında kadr siyasətinin təkmilləşdirilməsi ilə həyata keçirilən islahatların mühüm hissəsi xanım həmkarlarımızın prokurorluqda vəzifədə irəli çəkilməsi ilə əlaqədar olmuşdur. Bu yeniliklər barədə məlumatınız varmı?**

Qadınların 4 rayon prokuroru təyin olunması çox böyük bir nailiyyətdir. Mən neçə illər işlədiyim dövrdə rəis xanımlardan ancaq Elmira Mirzəzadə idi, müavini də qadın olub. Rayonlarda iki qadın müstəntiqimiz var idi, özü də çox gözəl müstəntiq olublar. Son illərin təyinatları barədə yeni öyrəndim, düşünürəm ki, çox gözəldir. Adam birincisi, gərək özündə əmin olsun ki, çox məsuliyyətli işdir, üzdə olan adamsan və hamı səni görür və bu səbəbdən də məsuliyyəti çox ağırdır. Bizdə də vaxtı ikən Natəvan xanım var idi. Bakının 11 rayonunun polisinə nəzarət edirdi. Savadlı və möhkəm bir qadın idi. O təqaüdə çıxanda onun işini 11 nəfər arasında böldülər, onu kimi işi bacaran olmadı. Hər görülən işi də çox yaxşı yadında saxlayırdı.





**Ənənəvi sualımızı vermək istərdik. Həyatınızda ən yüksək nailiyyətiniz kimi nəyi qəbul edirsiniz?**

Mənim ən yüksək nailiyyətim ana olmaqdır. Yeddi nəvəm var. Hazırda mən onlarla məşğul oluram və düşünürəm ki, qadın üçün bu ən vacib şeydir. İndiki qadınlar vəzifədə lap yüksək nailiyyətlərə də çatırlar, lakin mənim üçün ailə birinci növbədə idi. İstəyim olsaydı mən vəzifə üzrə yüksəyə qalxa bilərdim, lakin istəyim olmayıb. Öz işimi bilirdim, o çox ağır idi və başqa şeyə mənim vaxtım qalmırdı. Mənim evdə anam var idi, o, mənə çox böyük köməklik göstərirdi, mən evə gələndə artıq hər şeyimi hazır edərdi. Evə aid doxsan faiz işi o görürdü. İndi isə həmin işi balalarım üçün mən görürəm, sadəcə müasir təhsil proqramı dəyişildiyi səbəbindən məktəb hazırlığından başqa (gülümsəyir).




**Firəngiz xanım, bir daha bu maraqlı və geniş müsahibəyə görə jurnalın redaksiya heyəti adından Sizə təşəkkürümüzü bildiririk.**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 14-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 10, maddə 836 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Preambuladan "yaxın" sözü çıxarılsın.

**2.** 1-ci maddə üzrə:

**2.1.** 1.0.1-ci maddədən "yaxın" sözü çıxarılsın və həmin maddədə "şamil edildiyi" sözləri "4-cü maddəsində göstərilən" sözləri ilə əvəz edilsin;

**2.2.** 1.0.2-ci maddədə "bir yerdə yaşadığı ailə üzvünün, yaxın qohumunun, qanuni nikahda olmadığı və ya əvvəllər birgə yaşadığı şəxsin ona" sözləri "bu Qanunun 4-cü maddəsində göstərilən şəxslərin birinin digərinə" sözləri ilə əvəz edilsin;

**2.3.** 1.0.3–1.0.6-cı maddələrdə "şamil edildiyi" sözləri "4-cü maddəsində göstərilən" sözləri ilə əvəz edilsin;

**2.4.** 1.0.8-ci maddədə "şəxslərə" sözü "şəxslərin müvəqqəti sığınacaqla təmin edilməsi, habelə onlara" sözləri ilə əvəz edilsin.

**3.** 4-cü maddə üzrə:

**3.1.** 4.0.1-ci maddəyə "habelə" sözündən əvvəl "ərin və arvadın yaxın qohumlarına," sözləri əlavə edilsin;

**3.2.** 4.0.4-cü maddədən "yaxın" sözü çıxarılsın.

**4.** 7-ci maddə üzrə:

**4.1.** 7.0.1-ci maddəyə "dövlət vəsaiti hesabına" sözlərindən sonra "hüquqi yardımla," sözləri əlavə edilsin;

**4.2.** 7.0.4-cü maddədən "və ailədə münasibətlərin bərpa olunmasına" sözləri çıxarılsın;

**4.3.** 7.0.6-cı maddədə "əziyyət çəkən" sözləri "zərər çəkmiş şəxsə və onun" sözləri ilə əvəz edilsin.

**5.** 8-ci maddə üzrə:

**5.1.** 8.0.7-ci maddədə "əziyyət çəkən" sözləri "zərər çəkmiş" sözləri ilə əvəz edilsin və həmin maddəyə "müdafiəsi" sözündən sonra ", o cümlədən Azərbaycan Respublikası Ailə Məcəlləsinin 72-ci maddəsi ilə müəyyən edilmiş əsaslar olduqda, uşağın valideynlərdən (onlardan birindən) və ya onu qəyyumluğa (himayəyə) götürmüş şəxslərdən təcili olaraq alınması" sözləri əlavə edilsin;

**5.2.** 8.0.8-ci maddədən "və ailə münasibətlərinin bərpa olunmasına" sözləri çıxarılsın;

**5.3.** aşağıdakı məzmunda 8.0.12-1-ci maddə əlavə edilsin:

**"8.0.12-1.** məişət zorakılığının qarşısının alınması üzrə bu Qanunda nəzərdə tutulmuş tədbirlərin monitorinqini və əlaqələndirilməsini təmin etmək;".

**6.** 9-cu maddə üzrə:

**6.1.** 9.0-cı maddəyə "qərarlardan biri" sözlərindən sonra "və ya bir neçəsi" sözləri əlavə edilsin;

**6.2.** 9.0.1-ci və 9.0.2-ci maddələrdən "ilə bağlı hərəkətlər" sözləri çıxarılsın;

**6.3.** 9.0.5-ci maddəyə "sığınacaqla" sözündən əvvəl "müvəqqəti" sözü əlavə edilsin.

**7.** 10-cu maddə üzrə:

**7.1.** 10.1-ci maddədə "verilə bilər" sözləri "verilir" sözü ilə əvəz edilsin;

**7.2.** 10.2-ci maddədə "edilə bilər" sözləri "edilir" sözü ilə əvəz edilsin;

**7.3.** 10.3-cü maddədə "10.1-ci" sözləri "10.2-ci" sözləri ilə, "aşağıdakılar nəzərdə tutula bilər" sözləri "aşağıdakılardan biri və ya bir neçəsi göstərilir" sözləri ilə əvəz edilsin.

**8.** 11-ci maddə üzrə:

**8.1.** 11.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"11.1.** Məişət zorakılığı törətmiş şəxsin hərəkətləri nəticəsində zərər çəkmiş şəxsin hüquqları və qanuni mənafeləri pozulduqda, müvafiq icra hakimiyyəti orqanı tərəfindən məişət zorakılığı törətmiş şəxsə məişət zorakılığının təkrarlanmaması barədə yazılı xəbərdarlıq edilir və zərər çəkmiş şəxsə qısamüddətli mühafizə orderi verilir.";

**8.2.** 11.2-ci maddə üzrə:

**8.2.1.** birinci cümlədə "30" rəqəmləri "60" rəqəmləri ilə əvəz edilsin;

**8.2.2.** ikinci cümləyə "edilməsindən" sözündən sonra "və qısamüddətli mühafizə orderinin verilməsindən" sözləri əlavə edilsin;

**8.3.** 11.3-cü maddədən "ilə bağlı hərəkətlər" sözləri çıxarılsın və həmin maddəyə "şəxsin" sözündən sonra "xəbərdarlığa və" sözləri əlavə edilsin.

**9.** 12-ci maddə üzrə:

**9.1.** 12.1-ci maddədən "ilə bağlı hərəkətləri" sözləri çıxarılsın və həmin maddəyə "xəbərdarlığa" sözündən sonra "və qısamüddətli mühafizə orderinin tələblərinə" sözləri əlavə edilsin;

**9.2.** 12.2-ci maddənin birinci cümləsində "30" rəqəmləri "60" rəqəmləri ilə, "müddətinə" sözü "müddətinədək" sözü ilə əvəz edilsin.

**10.** 14-cü maddə üzrə:

**10.1.** 14.0.4-cü maddəyə "şəxslərin" sözündən sonra "müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada" sözləri əlavə edilsin;

**10.2.** aşağıdakı məzmunda 14.0.6-1-ci maddə əlavə edilsin:

**"14.0.6-1.** qısamüddətli və uzunmüddətli mühafizə orderlərinin icrasının həyata keçirilməsi;";

**10.3.** 14.0.7-ci maddədən "ilə bağlı hərəkətləri" sözləri çıxarılsın.

**11.** Aşağıdakı məzmunda 16.2.4-1-ci və 19-1-ci maddələr əlavə edilsin:

**"16.2.4-1.** ümumi, peşə, orta ixtisas və ali təhsil pillələrində tədris olunan müvafiq fənn və dərsdənkənar məşğələlərin məzmununa təhsilalanların yaş xüsusiyyətləri nəzərə alınmaqla, qarşılıqlı hörmət, qarşılıqlı yardım, mübahisələrin qeyri-zorakı yollarla həlli, gender bərabərliyi və şəxsiyyətlərarası münasibətlərə dair mövzuların daxil edilməsi;";

**"Maddə 19-1. Məişət zorakılığının qarşısının alınması sahəsində tədbirlərin monitorinqi və əlaqələndirilməsi**

**19-1.1.** Məişət zorakılığının qarşısının alınması sahəsində hüquqi, sosial xarakterli və qabaqlayıcı tədbirlərin monitorinqi və əlaqələndirilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanları tərəfindən həmin tədbirləri həyata keçirən dövlət orqanlarının nümayəndələrindən ibarət monitorinq və əlaqələndirmə qrupları yaradılır. Həmin qrupların fəaliyyətinə qeyri-hökumət təşkilatlarının nümayəndələri, mütəxəssislər və ekspertlər də cəlb oluna bilərlər.

**19-1.2.** Məişət zorakılığının qarşısının alınması sahəsində monitorinq və əlaqələndirmə qruplarının fəaliyyət qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

**19-1.3.** Müvafiq icra hakimiyyəti orqanı monitorinq və əlaqələndirmə qruplarına metodoloji dəstək göstərir.".

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**
Bakı şəhəri, 23 fevral 2024-cü il
№ 1098-VIQD

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI**

## "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 23 fevral tarixli 1098-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, «Məişət zorakılığının qarşısının alınması haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2024-cü il 23 fevral tarixli 1098-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 9 avqust tarixli 444 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 8, maddə 670 (Cild I) ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi haqqında Əsasnamə»yə aşağıdakı məzmunda 8.11-1-ci bənd əlavə edilsin:

**«8.11-1.** məişət zorakılığının qarşısının alınması sahəsində qanunla müəyyən edilmiş tədbirlər görmək;».

**2.** Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 6, maddə 542 (Cild I) ilə təsdiq edilmiş «Yerli icra hakimiyyətləri haqqında Əsasnamə»yə aşağıdakı məzmunda 4.6.2-1-ci yarımbənd əlavə edilsin:

**«4.6.2-1.** müvafiq ərazidə məişət zorakılığının qarşısının alınması sahəsində qanunla müəyyən edilmiş tədbirlər görmək;».

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**
Bakı şəhəri, 15 aprel 2024-cü il
№ 32

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində və "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı və 14-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1**

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 17 (Cild I); 2024, № 1, maddə 13) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 50.2-ci maddəyə "habelə" sözündən sonra "Azərbaycan Respublikasının Ailə Məcəlləsi ilə müəyyən edilmiş hallarda şəxsin valideynlik hüquqlarından məhrum edilməsi və ya valideynlik hüquqlarının məhdudlaşdırılması üçün," sözləri əlavə edilsin;

**1.2.** 355-1.1-ci maddədə "və ya müvafiq icra hakimiyyəti orqanı" sözləri ", müvafiq icra hakimiyyəti orqanı və ya prokuror" sözləri ilə əvəz edilsin;

**1.3.** 355-3.2-ci maddənin birinci cümləsinə "törətmiş şəxsin" sözlərindən sonra ", prokuror tərəfindən verilən ərizəyə isə həmçinin prokurorun" sözləri əlavə edilsin;

**1.4.** 357.2-ci maddənin ikinci cümləsində, 403.3-cü və 423.3-cü maddələrdə "və 306-cı" sözləri ", 306-cı və 355-1.1-ci" sözləri ilə əvəz edilsin.

**Maddə 2**

Azərbaycan Respublikasının Ailə Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 126 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

**2.1.** 65-ci maddə üzrə:

**2.1.1.** 65.2-ci maddəyə "orqanının," sözündən sonra "prokurorun," sözü və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Valideynlik hüquqlarından məhrumetmə işinə baxılarkən müvafiq icra hakimiyyəti orqanının iştirakı təmin edilməlidir.";

**2.1.2.** 65.4-cü maddəyə "işinə" sözündən sonra "prokurorun iştirakı olmadan" sözləri əlavə edilsin;

**2.2.** 68.4-cü maddəyə "qohumları," sözündən sonra "prokuror," sözü əlavə edilsin.

**Maddə 3**

"Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 10, maddə 836 (Cild I) 12.1-ci maddəsində "və ya müvafiq icra hakimiyyəti orqanı" sözləri ", müvafiq icra hakimiyyəti orqanı və ya prokuror" sözləri ilə əvəz edilsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**
Bakı şəhəri, 29 mart 2024-cü il
№ 1110-VIQD

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

### "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində və "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1110-VIQD nömrəli Qanununun tətbiqi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində və "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1110-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**1.1.** Azərbaycan Respublikası Ailə Məcəlləsinin 65.2-ci maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanı barədə təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.2.** "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində və "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1110-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**
Bakı şəhəri, 1 may 2024-cü il
№ 106

**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

## Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1**

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (II kitab), maddə 585 (Cild I); 2024, № 1, maddə 4) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 131.1.1-ci maddəyə "tez" sözündən əvvəl "üzərinə həbs qoyulmamış" sözləri əlavə edilsin;

**1.2.** 248-ci maddə üzrə:

**1.2.1.** 248.1.2-ci maddəyə "etməkdən" sözündən sonra ", onun götürülməsindən və ya saxlanmaq üçün mülkiyyətçiyə və ya sahibə verilməsindən" sözləri əlavə edilsin;

**1.2.2.** 248.3-cü maddə üzrə:

**1.2.2.1.** ikinci cümlədə "cinayətin törədilməsində alət və ya vasitə kimi istifadə edilməsinə, cinayətin predmeti olmasına, cinayət yolu ilə əldə edilmiş əmlak hesabına əldə edilməsinə və ya artırılmasına" sözləri "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 99-1.1-ci maddəsinə əsasən müsadirə edilməli olan əmlak olmasına" sözləri ilə əvəz edilsin;

**1.2.2.2.** üçüncü cümlədə "Cinayət yolu ilə əldə edilmiş əmlak və ya cinayətin predmeti" sözləri "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 99-1.1-ci maddəsinə əsasən müsadirə edilməli olan əmlak" sözləri ilə əvəz edilsin;

**1.3.** aşağıdakı məzmunda 249.2-1-ci maddə əlavə edilsin:

**"249.2-1.** Bu Məcəllənin 249.2.1-ci maddəsində nəzərdə tutulmuş vəsatətdə və təqdimatda əmlak üzərinə həbsin qoyulmasına əsas verən hallar qeyd edilməli, bu Məcəllənin 248.1.2-ci maddəsində nəzərdə tutulmuş tətbiq edilməli olan konkret məhdudiyyətlər və belə məhdudiyyətlərin zərurəti əsaslandırılmalıdır.";

**1.4.** 249.3.6-cı maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 249.3.7-ci və 249.3.8-ci maddələr əlavə edilsin:

**"249.3.7.** əmlak üzərinə həbs qoyulması ilə əlaqədar bu Məcəllənin 248.1.2-ci maddəsində nəzərdə tutulmuş hansı məhdudiyyətlərin tətbiq edilməsi;

**249.3.8.** üzərinə həbs qoyulan cinayət yolu ilə əldə edilmiş əmlak hesabına gəlirlərin əldə edilməsi müəyyən olunduqda, həmin gəlirlərdən istifadə edilməsinə qadağanın qoyulması.";

**1.5.** aşağıdakı məzmunda 251.9-cu və 253-1-ci maddələr əlavə edilsin:

**"251.9.** Üzərinə həbs qoyulmuş əmlak saxlanılması üçün mülkiyyətçisinə və ya sahibinə verilmədiyi hallarda cinayət prosesini həyata keçirən orqan bu əmlakın mülkiyyətçisinin yazılı müraciəti və ya yazılı razılığı əsasında və onun hesabına həmin əmlaka qulluq olunmasını təmin edir. Üzərinə həbs qoyulmuş əmlakın idarə edilməsi çərçivəsində əmlakın satılmasına, icarəyə və ya idarəetməyə verilməsinədək əmlaka qulluqla əlaqədar tədbirlər cinayət prosesini həyata keçirən orqanın müraciətinə əsasən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təşkil edilir.";

**"Maddə 253-1. Üzərinə həbs qoyulmuş əmlakın idarə edilməsi**

**253-1.1.** Üzərinə həbs qoyulmuş əmlakın idarə edilməsi dedikdə daşınar əmlakın satılmasına, qeyri-yaşayış sahələri və kommersiya təyinatlı digər daşınmaz əmlakın icarəyə və ya idarəetməyə verilməsinə və əmlakın yaxşılaşdırılmasına dair tədbirlərin görülməsi başa düşülür.

**253-1.2.** Üzərinə həbs qoyulmuş əmlak mülki iddianın və xüsusi müsadirənin təmin edilməsi üçün görülən tədbirlərin səmərəliliyini artırmaq, habelə üzərinə həbs qoyulmuş əmlakın dəyərini itirməsinin qarşısını almaq məqsədilə idarə edilir.

**253-1.3.** Üzərinə həbs qoyulmuş əmlakın idarə edilməsi haqqında qərar məhkəməyədək icraat zamanı müstəntiqin əsaslandırılmış vəsatəti və Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən müvafiq səlahiyyət verilmiş prokurorun təqdimatı əsasında məhkəmə nəzarətini həyata keçirən məhkəmə, məhkəmə icraatı zamanı isə işə baxan məhkəmə tərəfindən qəbul edilir.

**253-1.4.** Bu Məcəllənin 253-1.5-ci maddəsində nəzərdə tutulan hallar istisna olmaqla, üzərinə həbs qoyulmuş daşınar əmlak mülkiyyətçinin yazılı müraciəti və ya yazılı razılığı ilə satıla bilər.

**253-1.5.** Üzərinə həbs qoyulmuş daşınar əmlak mülkiyyətçinin razılığı olmadan, yalnız tez xarab olan əşya olduqda və ya onun saxlanılması insanların həyatı, sağlamlığı və ya ətraf mühit üçün təhlükə yaratdıqda satıla bilər.

**253-1.6.** Müvafiq məhkəmə qərarı qüvvəyə mindikdən sonra üzərinə həbs qoyulmuş daşınar əmlakın hərracda satışı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təşkil edilir.

**253-1.7.** Üzərinə həbs qoyulmuş əmlakın dəyərini itirməsinin qarşısını almaq məqsədilə mülkiyyətçinin yazılı müraciəti və ya yazılı razılığı ilə onun yaxşılaşdırılması ilə əlaqədar tədbirlər görülə bilər. Mülkiyyətçinin razılığı olmadan əmlakın yaxşılaşdırılması ilə əlaqədar tədbirlər yalnız onun satılmasına dair qərar qüvvəyə mindikdən sonra və həmin qərarda müvafiq yaxşılaşdırma tədbirləri də nəzərdə tutulduqda görülə bilər. Üzərinə həbs qoyulmuş əmlakın yaxşılaşdırılması ilə əlaqədar tədbirlər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təşkil edilir.

**253-1.8.** Üzərinə həbs qoyulmuş qeyri-yaşayış sahələri və kommersiya təyinatlı digər daşınmaz əmlak mülkiyyətçinin yazılı müraciəti və ya yazılı razılığı ilə bu Məcəllənin 253-1.3-cü maddəsində nəzərdə tutulmuş qaydada icarəyə və ya idarəetməyə verilə bilər.

**253-1.9.** Üzərinə həbs qoyulmuş əmlakın icarəyə və ya idarəetməyə verilməsinə, bu tədbirlər həmin əmlakın sübut kimi istifadə edilməsinə və ya digər şəkildə cinayət mühakimə icraatının vəzifələrinə nail olunmasına mane olmadığı halda yol verilir.

**253-1.10.** Müvafiq məhkəmə qərarı qüvvəyə mindikdən sonra üzərinə həbs qoyulmuş əmlakın icarəyə və ya idarəetməyə verilməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təşkil edilir.

**253-1.11.** Üzərinə həbs qoyulmuş əmlakın icarəyə və ya idarəetməyə verilməsi ilə bağlı görülən tədbirlər həmin əmlakın dəyərinin azalmasına və bununla da bu Məcəllənin 248.1.1-ci maddəsində nəzərdə tutulmuş məqsədlərə nail olunmasına mane olmamalıdır. İcarəyə və ya idarəetməyə verilmiş əmlak ona istifadə nəticəsində vurula biləcək mümkün zərərin ödənilməsi məqsədilə sığorta etdirilməlidir.

**253-1.12.** Üzərinə həbs qoyulmuş əmlak cinayət prosesini həyata keçirən orqanlara, həmin orqanların əməkdaşlarına və onların yaxın qohumlarına satıla, onlara icarəyə, idarəetməyə və ya hər hansı digər şəkildə istifadəyə verilə bilməz.

**253-1.13.** Üzərinə həbs qoyulmuş əmlakın icarəyə və ya idarəetməyə verilməsi ilə əlaqədar görülən tədbirlər iş məhkəməyə göndərilənədək və hər bir halda ildə bir dəfədən az olmayaraq müstəqil auditor tərəfindən yoxlanılmalı, nəticələri məhkəməyədək icraat zamanı müstəntiqə və Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən müvafiq səlahiyyət verilmiş prokurora, məhkəmə icraatı zamanı işə baxan məhkəməyə təqdim edilməli və cinayət işinin materiallarına əlavə olunmalıdır.

**253-1.14.** Üzərinə həbs qoyulmuş əmlakın idarə edilməsi və ya bundan imtina edilməsi haqqında məhkəmənin qərarından bu Məcəllənin 452-ci maddəsində müəyyən edilmiş qaydada mülkiyyətçi, həmin qərarın hüquq və qanuni mənafelərinə toxunduğu digər şəxslər, Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən müvafiq səlahiyyət verilmiş prokuror və ya yuxarı prokuror müvafiq olaraq apellyasiya şikayəti və ya protesti verə bilərlər.

**253-1.15.** Üzərinə həbs qoyulmuş əmlakın yaxşılaşdırılması, satılması, icarəyə və ya idarəetməyə verilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**253-1.16.** Üzərinə həbs qoyulmuş əmlakın satışından, icarəyə və ya idarəetməyə verilməsindən əldə edilən vəsait (üzərinə həbs qoyulmuş əmlaka qulluq və onun idarə edilməsinin təşkili ilə əlaqədar çəkilmiş xərclər çıxılmaqla) iş üzrə məhkəmənin hökmü və ya digər yekun qərarı qüvvəyə minənədək müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) hesabında saxlanılır.

**253-1.17.** Məhkəmənin hökmü və ya digər yekun qərarı ilə xüsusi müsadirə tətbiq olunmadıqda və ya əmlakın üzərinə qoyulmuş həbs ləğv edildikdə, əmlakın satışından, icarəyə və ya idarəetməyə verilməsindən əldə edilmiş vəsait (üzərinə həbs qoyulmuş əmlaka qulluq və onun idarə edilməsinin təşkili ilə əlaqədar çəkilmiş xərclər çıxılmaqla) mülkiyyətçiyə qaytarılır. Məhkəmənin hökmü və ya digər yekun qərarı ilə xüsusi müsadirə tətbiq edildikdə və ya mülki iddia təmin olunduqda, əmlakın satışından, icarəyə və ya idarəetməyə verilməsindən əldə edilmiş vəsait (üzərinə həbs qoyulmuş əmlaka qulluq və onun idarə edilməsinin təşkili ilə əlaqədar çəkilmiş xərclər çıxılmaqla) bu Məcəllənin 248.1.1-ci maddəsində nəzərdə tutulmuş məqsədlərə yönəldilir.

**253-1.18.** Üzərinə həbs qoyulmuş girov və ya ipoteka ilə yüklü edilmiş əmlakın idarə edilməsi ilə əlaqədar qərar qəbul edilərkən girov saxlayanın (ipoteka saxlayanın) və əmlaka dair hüquqları olan digər şəxslərin hüquq və qanuni mənafeləri nəzərə alınmalıdır. Üzərinə həbs qoyulmuş əmlak girov və ya ipoteka ilə yüklü edilmişdirsə, həmin əmlak satıldıqda girov saxlayanın (ipoteka saxlayanın) yazılı razılığı alınmalı, həmin əmlak icarəyə və ya idarəetməyə verildikdə isə girov saxlayanın (ipoteka saxlayanın) üstünlük hüquqları gözlənilməlidir.";

**1.6.** 442.2.3-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 442.2.4-cü maddə əlavə edilsin:

**"442.2.4.** üzərinə həbs qoyulmuş əmlakın idarə edilməsi barədə vəsatət və təqdimatlara.";

**1.7.** aşağıdakı məzmunda 443.3 — 443.6-cı maddələr əlavə edilsin:

**"443.3.** Məhkəmə nəzarətini həyata keçirən məhkəmə bu Məcəllənin 443.2.2-ci maddəsində nəzərdə tutulmuş materialları aldıqdan sonra 48 saat müddətində məhkəmə qərarı olmadan aparılmış istintaq hərəkətinin qanuniliyini bu Məcəllənin 447-ci maddəsində nəzərdə tutulmuş qaydada yoxlayır.

**443.4.** Yoxlamanın nəticələrinə görə hakim istintaq hərəkətinin qanuni hesab edilməsi, yaxud qanunsuz hesab edildiyi halda məhkəmə qərarı olmadan istintaq hərəkətinin keçirilməsinə dair qərarın ləğv edilməsi barədə əsaslandırılmış qərar çıxarır.

**443.5.** İstintaq hərəkətinin qanuniliyinin yoxlanılmasının nəticələrinə dair hakimin qərarının surəti qərar çıxarıldıqdan dərhal sonra müvafiq istintaq hərəkətinin aparılmasına dair qərarı qəbul edən müstəntiqə, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora və həmin qərarla hüquqlarının məhdudlaşdırılması nəzərdə tutulan şəxsə, onun müdafiəçisinə və ya qanuni nümayəndəsinə göndərilir.

**443.6.** İstintaq hərəkətinin aparılmasına dair qərar qanunsuz hesab edildikdə, hakimin qərarına əsasən ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror və ya yuxarı prokuror təxirəsalınmadan şəxsin hüquq və azadlıqlarının yol verilmiş pozuntularına son qoyulması, pozulmuş hüquq və azadlıqların bərpa edilməsi üçün zəruri tədbirlər görür.";

**1.8.** 446-cı maddə üzrə:

**1.8.1.** adına, 446.1-ci maddənin birinci abzasına və 446.3-cü maddəyə "açılması" sözündən sonra ", üzərinə həbs qoyulmuş əmlakın idarə edilməsi" sözləri əlavə edilsin;

**1.8.2.** 446.1.5-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 446.1.6-cı maddə əlavə edilsin:

**"446.1.6.** üzərinə həbs qoyulmuş əmlakın idarə edilməsi üçün müstəntiqin əsaslandırılmış vəsatəti və Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən müvafiq səlahiyyət verilmiş prokurorun təqdimatı.";

**1.8.3.** aşağıdakı məzmunda 446.2-2-ci maddə əlavə edilsin:

**"446.2-2.** Üzərinə həbs qoyulmuş əmlakın idarə edilməsi üçün vəsatətdə bu Məcəllənin 446.2.1 — 446.2.3-cü maddələrində nəzərdə tutulan məlumatlarla yanaşı, həmin əmlakla bağlı hansı tədbirlərin görülməsinin (yaxşılaşdırılma, satılma, icarəyə və ya idarəetməyə verilmə) təklif edildiyi dəqiq göstərilməli, həmin tədbirlərin mülki iddianın və xüsusi müsadirənin təmin edilməsi üçün görülən tədbirlərin səmərəliliyini artırmaq, habelə üzərinə həbs qoyulmuş əmlakın dəyərini itirməsinin qarşısını almaq üçün zəruriliyi əsaslandırılmalı, müvafiq qərar qəbul edilməsi üçün əhəmiyyətli olan digər məlumatlar göstərilməli və vəsatətə müvafiq sənədlər, o cümlədən üzərinə həbs qoyulmuş əmlakın idarə edilməsini təşkil edən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) əmlakın idarə edilməsi ilə bağlı rəyi əlavə edilməlidir.";

**1.8.4.** 446.4-cü maddənin birinci cümləsinə "açılmasının" sözündən sonra ", üzərinə həbs qoyulmuş əmlakın idarə edilməsinin" sözləri əlavə edilsin;

**1.9.** 447-ci maddə üzrə:

**1.9.1.** adına, 447.1-ci və 447.5–447.7-ci maddələrə "açılması" sözündən sonra ", üzərinə həbs qoyulmuş əmlakın idarə edilməsi" sözləri əlavə edilsin;

**1.9.2.** 447.3-cü maddədə "və ya cinayət təqibi üzrə qiyabi icraatın açılması" sözləri ", cinayət təqibi üzrə qiyabi icraatın açılması və ya üzərinə həbs qoyulmuş əmlakın idarə edilməsi" sözləri ilə əvəz edilsin;

**1.9.3.** aşağıdakı məzmunda 447.3-1-ci maddə əlavə edilsin:

**"447.3-1.** Üzərinə həbs qoyulmuş əmlakın mülkiyyətçisinin əmlakın idarə edilməsi ilə bağlı notariat qaydasında təsdiq olunmuş müraciəti və ya razılıq ərizəsi vəsatətə əlavə edilmədikdə mülkiyyətçinin, onun müdafiəçisinin və ya qanuni nümayəndəsinin bu Məcəllənin 447.1-ci maddəsində nəzərdə tutulmuş məhkəmə iclasında iştirakı məcburidir.";

**1.10.** 448-ci maddə üzrə:

**1.10.1.** adına və 448.1-ci maddənin birinci abzasına "açılması" sözündən sonra ", üzərinə həbs qoyulmuş əmlakın idarə edilməsi" sözləri əlavə edilsin;

**1.10.2.** 448.1.3-2-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 448.1.3-3-cü maddə əlavə edilsin:

**"448.1.3-3.** üzərinə həbs qoyulmuş əmlakın idarə edilməsi (yaxşılaşdırılma, satılma, icarəyə və ya idarəetməyə verilmə tədbirlərindən hansına icazə verildiyi dəqiq göstərilməklə) və ya bundan imtina edilməsi barədə.";

**1.10.3.** 448.4-cü maddəyə "açılmasına" sözündən sonra ", üzərinə həbs qoyulmuş əmlakın idarə edilməsinə" sözləri əlavə edilsin;

**1.10.4.** aşağıdakı məzmunda 448.6-3-cü maddə əlavə edilsin:

**"448.6-3.** Üzərinə həbs qoyulmuş əmlakın idarə edilməsi məsələsi ilə bağlı məhkəmə qərarının surəti, həmin qərar çıxarıldıqdan sonra 3 (üç) gündən gec olmayaraq vəsatəti vermiş şəxsə, Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən müvafiq səlahiyyət verilmiş prokurora, təqsirləndirilən şəxsə, onun müdafiəçisinə və ya qanuni nümayəndəsinə, əmlakın mülkiyyətçisinə, əmlaka dair hüquqları olan digər şəxslərə, habelə üzərinə həbs qoyulmuş əmlakın idarə edilməsini təşkil edən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məhkəmə tərəfindən göndərilir.";

**1.10.5.** 448.8-ci maddəyə "açılmasına" sözündən sonra ", üzərinə həbs qoyulmuş əmlakın idarə edilməsinə" sözləri, "açılmasının" sözündən sonra ", üzərinə həbs qoyulmuş əmlakın idarə edilməsinin" sözləri əlavə edilsin;

**1.11.** 454-cü maddəyə "açılması" sözündən sonra ", üzərinə həbs qoyulmuş əmlakın idarə edilməsi" sözləri əlavə edilsin.

**Maddə 2. Keçid müddəa**

Bu Qanunun 1.1–1.6-cı və 1.8–1.11-ci maddələri üzərinə həbs qoyulmuş əmlakın yaxşılaşdırılması, satılması, icarəyə və ya idarəetməyə verilməsi qaydaları ilə eyni gündə qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**
Bakı şəhəri, 29 mart 2024-cü il
№ 1114-VIQD

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI**

## "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1114-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1114-VIQD nömrəli Qanununun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

**1.1.** Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 251.9-cu maddəsinin ikinci cümləsində, 253-1.6-cı maddəsində, 253-1.7-ci maddəsinin üçüncü cümləsində, 253-1.10-cu, 253-1.15-ci, 253-1.16-cı, 446.2-2-ci və 448.6-3-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

**1.2.** həmin Məcəllənin 253-1.15-ci maddəsində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**2.1.** üç ay müddətində:

**2.1.1.** Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1114-VIQD nömrəli Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**2.1.2.** Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 253-1.15-ci maddəsinə uyğun olaraq, üzərinə həbs qoyulmuş əmlakın yaxşılaşdırılması, satılması, icarəyə və ya idarəetməyə verilməsi qaydalarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

**2.2.** Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 251.9-cu maddəsinin ikinci cümləsində, 253-1.6-cı maddəsində, 253-1.7-ci maddəsinin üçüncü cümləsində, 253-1.10-cu, 253-1.16-cı, 446.2-2-ci və 448.6-3-cü maddələrində nəzərdə tutulmuş "orqan (qurum)" barədə təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**2.3.** "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1114-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**3.** "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 610 (Cild I); 2024, № 1, maddələr 24, 33) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**3.1.** üçüncü abzasa "Məcəlləsinin" sözündən sonra "251.9-cu maddəsinin ikinci cümləsində, 253-1.6-cı maddəsində, 253-1.7-ci maddəsinin üçüncü cümləsində, 253-1.10-cu, 253-1.15-ci, 253-1.16-cı, 446.2-2-ci, 448.6-3-cü," sözləri əlavə edilsin;

**3.2.** beşinci – iyirmi üçüncü abzaslar müvafiq olaraq altıncı – iyirmi dördüncü abzaslar hesab olunsun və aşağıdakı məzmunda beşinci abzas əlavə edilsin:

"həmin Məcəllənin 253-1.15-ci maddəsində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;".

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**
Bakı şəhəri, 19 aprel 2024-cü il
№ 40

**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

## "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1**

"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 413 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 86-cı maddə üzrə:

**1.1.1.** maddənin adı aşağıdakı redaksiyada verilsin:

**"Maddə 86. Məhkəmələrin fəaliyyətinin təşkili";**

**1.1.2.** birinci hissəyə "artırılması" sözündən sonra "(Məhkəmə-Hüquq Şurasının müraciətinə əsasən)" sözləri əlavə edilsin;

**1.1.3.** ikinci hissənin birinci cümləsində "Müvafiq icra hakimiyyəti orqanı" sözləri "Məhkəmə-Hüquq Şurası" sözləri ilə əvəz edilsin və həmin cümlədən "məhkəmə qərarlarının icrası," sözləri çıxarılsın;

**1.1.4.** ikinci hissənin ikinci cümləsində "Müvafiq icra hakimiyyəti orqanı" sözləri "Məhkəmə-Hüquq Şurası" sözləri ilə əvəz edilsin və həmin cümlədən ", hakim öz vəzifələrini yerinə yetirə bilmədikdə və ya hakim vəzifəsi vakant olduqda isə hakimin vəzifələrinin icrasını müvəqqəti olaraq digər müvafiq məhkəmənin hakimlərindən birinə" sözləri çıxarılsın;

**1.1.5.** üçüncü hissədə "Müvafiq icra hakimiyyəti orqanı Azərbaycan Respublikasının Ali Məhkəməsi ilə birlikdə" sözləri "Məhkəmə-Hüquq Şurası" sözləri ilə əvəz edilsin;

**1.1.6.** dördüncü hissə ləğv edilsin;

**1.2.** 87-ci maddə üzrə:

**1.2.1.** maddənin adı aşağıdakı redaksiyada verilsin:

**"Maddə 87. Məhkəmələrin fəaliyyətinə dair statistika";**

**1.2.2.** ikinci hissədə "Müvafiq icra hakimiyyəti orqanı" sözləri "Məhkəmə-Hüquq Şurası" sözləri ilə əvəz edilsin;

**1.2.3.** üçüncü hissədə "Müvafiq icra hakimiyyəti orqanı" sözləri "Məhkəmə-Hüquq Şurası" sözləri ilə əvəz edilsin və həmin hissədən ", bu barədə Məhkəmə-Hüquq Şurasını məlumatlandırır" sözləri çıxarılsın;

**1.3.** 88-ci maddə üzrə:

**1.3.1.** dördüncü hissədən ", işçilərinin əmək haqqını" sözləri çıxarılsın və həmin hissədə "isə strukturunu, ştat cədvəlini, xərc smetasını, işçilərin əmək haqqını" sözləri "strukturunu, ştat cədvəlini Məhkəmə-Hüquq Şurası, xərc smetasını isə" sözləri ilə əvəz edilsin;

**1.3.2.** beşinci hissəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Məhkəmə aparatı işçilərinin peşə hazırlığına və ixtisasının artırılmasına cəlb edilməsi Məhkəmə-Hüquq Şurasının müraciəti əsasında həyata keçirilir.";

**1.4.** 91-ci maddədən "və müvafiq icra hakimiyyəti orqanı", "və Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi" sözləri çıxarılsın və həmin maddədə "keçirirlər" sözü "keçirir" sözü ilə əvəz edilsin;

**1.5.** 93-cü maddənin birinci hissəsindən "yaşı 30-dan aşağı olmayan," sözləri çıxarılsın;

**1.6.** 97-1-ci maddə üzrə:

**1.6.1.** birinci hissənin birinci cümləsində "2" rəqəmi "1" rəqəmi ilə əvəz edilsin və həmin cümlədən ", habelə müvafiq icra hakimiyyəti orqanının müraciəti olduqda, tədris fəaliyyətində və ya birinci və apellyasiya instansiyası məhkəmələrində bu Qanunun 86-cı maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş sahələr üzrə işin təşkili vəziyyətinin yoxlanılmasında iştirak etmək üçün həmin quruma" sözləri çıxarılsın;

**1.6.2.** birinci hissənin ikinci cümləsində "2" rəqəmi "1" rəqəmi ilə əvəz edilsin;

**1.6.3.** ikinci hissədən "və ya müvafiq icra hakimiyyəti orqanına" sözləri çıxarılsın;

**1.6.4.** aşağıdakı məzmunda dördüncü hissə əlavə edilsin:

"Birinci instansiya məhkəməsinin hakimi öz vəzifələrini yerinə yetirə bilmədikdə və ya hakim vəzifəsi vakant olduqda, Məhkəmə-Hüquq Şurası həmin məhkəməyə digər müvafiq məhkəmənin hakimini onun razılığı ilə 1 ilədək müddətə ezam edə bilər.";

**1.7.** 107-ci maddənin ikinci hissəsində "müvafiq icra hakimiyyəti orqanı" sözləri "Məhkəmə-Hüquq Şurası" sözləri ilə əvəz edilsin;

**1.8.** 112-ci maddə üzrə:

**1.8.1.** birinci hissənin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Bu Qanunla müəyyən edilmiş səbəblər və intizam məsuliyyətinə cəlb edilmə əsaslarının əlamətləri olduqda Məhkəmə-Hüquq Şurası öz təşəbbüsü ilə intizam icraatını başlamalı, Ali Məhkəmənin, apellyasiya məhkəmələrinin və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədrləri isə intizam icraatının başlanılması barədə Məhkəmə-Hüquq Şurasına müraciət etməlidirlər.";

**1.8.2.** altıncı hissə ləğv edilsin;

**1.8.3.** üçüncü – beşinci hissələr müvafiq olaraq dördüncü – altıncı hissələr hesab edilsin və aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

"Məhkəmə-Hüquq Şurası öz təşəbbüsü ilə birinci, apellyasiya və kassasiya instansiyaları məhkəmələrinin hakimləri haqqında intizam icraatına başlayır.";

**1.9.** 112-1-ci maddənin ikinci hissəsinə "maddəsinin" sözündən sonra "ikinci hissəsinin" sözləri əlavə edilsin;

**1.10.** 114-cü maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"Bu Qanunun 113-cü maddəsinin ikinci hissəsinin 6-cı, 7-ci, 8-ci (hakimin başqa dövlətin vətəndaşlığını qəbul etməsi və ya digər dövlət qarşısında öhdəlik götürməsi hallarında), 10-cu və ya 11-ci bəndlərində nəzərdə tutulmuş əsaslar olduqda hakimin səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi üçün Məhkəmə-Hüquq Şurası öz təşəbbüsü ilə intizam icraatına başlayır, Ali Məhkəmənin sədri isə intizam icraatının başlanılması haqqında Məhkəmə-Hüquq Şurasına müraciət edir.

İntizam icraatı nəticəsində bu Qanunun 113-cü maddəsinin ikinci hissəsinin 6-cı, 7-ci, 8-ci (hakimin başqa dövlətin vətəndaşlığını qəbul etməsi və ya digər dövlət qarşısında öhdəlik götürməsi hallarında), 10-cu və ya 11-ci bəndlərində nəzərdə tutulmuş əsasların mövcudluğu müəyyən edildikdə, habelə bu Qanunun 113-cü maddəsinin ikinci hissəsinin 12-ci bəndində nəzərdə tutulmuş əsas olduqda, Məhkəmə-Hüquq Şurası hakimin səlahiyyətlərinə xitam verilməsi barədə müvafiq icra hakimiyyəti orqanına təklif verilməsi haqqında qərar qəbul edir. Hakimin səlahiyyətlərinə onu təyin etmiş orqan tərəfindən vaxtından əvvəl xitam verilir.

Bu Qanunun 113-cü maddəsinin ikinci hissəsinin 1-ci, 3–5-ci, 8-ci (hakimin Azərbaycan Respublikası vətəndaşlığına xitam verilməsi halında) və ya 9-cu bəndlərində nəzərdə tutulmuş əsaslar olduqda hakimin səlahiyyətlərinə Məhkəmə-Hüquq Şurası tərəfindən vaxtından əvvəl xitam verilir.".

**Maddə 2**

Bu Qanun 2024-cü il iyunun 1-dən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**
Bakı şəhəri, 29 mart 2024-cü il
№ 1115-VIQD

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

## Şuşa şəhərinin 2024-cü il üçün "İslam Əməkdaşlıq Təşkilatının gənclər paytaxtı" seçilməsi ilə bağlı tədbirlər haqqında

2023-cü il noyabrın 10-da Türkiyə Respublikasının İstanbul şəhərində keçirilmiş İslam Əməkdaşlıq Təşkilatının Gənclər Forumu İcraiyyə Şurasının 11-ci iclasında Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri yekdilliklə İslam Əməkdaşlıq Təşkilatının "Gənclər Paytaxtı 2024" Beynəlxalq Proqramına 10-cu ev sahibi seçilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**1.1.** Şuşa şəhərinin 2024-cü il üçün "İslam Əməkdaşlıq Təşkilatının gənclər paytaxtı" seçilməsi ilə bağlı fəaliyyət planı hazırlayıb həyata keçirsin;

**1.2.** bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**
Bakı şəhəri, 17 aprel 2024-cü il
№ 89

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

## Xankəndi Şəhər Prokurorluğunun yaradılması haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Xankəndi Şəhər Prokurorluğu yaradılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**2.1.** Xankəndi Şəhər Prokurorluğunun yaradılması ilə əlaqədar həmin qurumun bina, avadanlıq, rabitə, nəqliyyat vasitələri ilə təmin edilməsi və digər maddi-texniki təminatı məsələlərinin həlli üçün zəruri tədbirlər görsün;

**2.2.** bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**
Bakı şəhəri, 4 may 2024-cü il
№ 110

**AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN**

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun**
**QƏRARI**

## Azərbaycan Respublikası Konstitusiyasının 133-cü və "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci maddələri baxımından "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 29.2 və 29.5-ci maddələrinin şərh edilməsinə dair

**16 aprel 2024-cü il** **Bakı şəhəri**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Humay Əfəndiyeva, Rövşən İsmayılov, Ceyhun Qaracayev (məruzəçi-hakim), Rafael Qvaladze, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 32-ci maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında Azərbaycan Respublikası Konstitusiyasının 133-cü və "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci maddələri baxımından "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 29.2 və 29.5-ci maddələrinin şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim C.Qaracayevin məruzəsini, maraqlı subyektlər Azərbaycan Respublikası Baş Prokurorluğunun və Azərbaycan Respublikası Milli Məclisi Aparatının mülahizələrini, Bakı Apellyasiya Məhkəməsinin və Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin mütəxəssis mülahizələrini, ekspert Bakı Dövlət Universitetinin Konstitusiya hüququ kafedrasının müəllimi, hüquq üzrə fəlsəfə doktoru G.Cəbinin rəyini və iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu **müəyyən etdi:**

Azərbaycan Respublikasının Prokurorluğu (bundan sonra – Prokurorluq) Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) sorğu ilə müraciət edərək "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra – "Dövlət qulluğu haqqında" Qanun) 29.2 və 29.5-ci maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra – Konstitusiya) 133-cü və "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra – "Prokurorluq haqqında" Qanun) 2-ci maddələri baxımından şərh edilməsini xahiş etmişdir.

Sorğuda göstərilmişdir ki, "Dövlət qulluğu haqqında" Qanunun 29.2-ci maddəsinin birinci hissəsinə əsasən, 1–5-ci kateqoriya dövlət orqanlarında (yerli icra hakimiyyəti orqanlarının rəhbərlərinin müavinləri vəzifələri və Azərbaycan Respublikasının xarici ticarət nümayəndələri vəzifələri istisna olmaqla) inzibati vəzifələrin birinci-yeddinci təsnifatlarına uyğun olan vəzifələrin tutulması həmin dövlət orqanı rəhbərinin qərarı əsasında bu Qanunun 28-ci maddəsində nəzərdə tutulmuş qaydada müsabiqə və ya bu Qanunun 29.3-29.9-cu maddələrinə uyğun olaraq müsahibə yolu ilə həyata keçirilir. 1–5-ci kateqoriya dövlət orqanının rəhbəri inzibati vəzifələrin birinci-yeddinci təsnifatlarına uyğun olan vakant vəzifə yarandığı gündən bir ay ərzində müsabiqənin, ümumi müsahibənin və ya daxili müsahibənin keçirilməsi barədə qərar qəbul etməlidir. Müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum və müsabiqə (müsahibə) barədə qərar qəbul edən müvafiq dövlət orqanı həmin müsabiqə və müsahibələrin ədalətli, şəffaf və operativ keçirilməsini təmin etməlidir.

Həmin Qanunun 29.5-ci maddəsinin birinci hissəsinə görə, müsahibədə barəsində müsahibə elan edilən vəzifənin təsnifatından ən çoxu iki təsnifat aşağı inzibati vəzifələrdə qulluq keçən dövlət qulluqçuları, habelə ən çoxu iki təsnifat aşağı inzibati vəzifələrdə qulluq keçmiş şəxslər iştirak edə bilərlər.

Qeyd olunan maddənin üçüncü hissəsində bu qaydadan istisna kimi Qanunun 28.12-ci maddəsinin ikinci hissəsində müəyyən edilmiş vəzifələrin tutulması, habelə məhkəmə hakimiyyəti orqanlarında inzibati vəzifələrin beşinci-yeddinci təsnifatlarına uyğun olan vəzifələrin həmin orqanlarda qulluq keçən şəxslərin iştirakı ilə tutulması müəyyən edilmişdir.

Sorğuverən hesab edir ki, "Dövlət qulluğu haqqında" Qanunun 29.5-ci maddəsinin 3-cü hissəsi məhkəmə hakimiyyəti orqanlarında, o cümlədən prokurorluq orqanlarında qulluq keçən şəxslərin inzibati vəzifələrin beşinci-yeddinci təsnifatlarına uyğun olan vəzifələrin tutulmasının müsahibə yolu ilə həyata keçirilməsi imkanını müəyyən edir.

Belə ki, Konstitusiyanın VII fəslinin müvafiq müddəalarına əsasən, məhkəmə hakimiyyəti sistemi iki

qrup orqanlardan - bilavasitə məhkəmələrin özləri və prokurorluqdan ibarətdir.

Sorğuda qeyd edilmişdir ki, prokurorluğun konstitusion statusu nəzərə alınaraq həmin orqanın məhkəmə hakimiyyəti orqanları sırasında olmasına dair normalar digər qanunvericilik aktlarında da əks olunmuşdur. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra – "Məhkəmələr və hakimlər haqqında" Qanun) 106-cı maddəsinin ikinci hissəsində hakim vəzifəsinə təyin edilmiş prokurorluq işçilərinin prokurorluq orqanlarında xidmət illəri hakim stajı ilə bərabər hesab edilərək eyni maddi təminatlar müəyyən edilmiş, hərbi vəziyyət dövründə isə prokurorluq orqanlarının fəaliyyəti "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikası Qanununun "Hərbi vəziyyət dövründə qanunvericilik və məhkəmə hakimiyyəti orqanlarının, habelə Azərbaycan Respublikasının İnsan hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) fəaliyyətinin xüsusiyyətləri" adlanan 4-cü fəslinin 23-cü maddəsində tənzimlənmişdir.

Göstərilənlərlə yanaşı, Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 27 sentyabr tarixli, 3065 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı"nın 1.11-ci bəndində də müəyyən edilən tədbirin məqsədi kimi "məhkəmə hakimiyyəti orqanlarının müasirləşdirilməsinə yönəlmiş məhkəmə hüquq islahatlarının tərkib hissəsi kimi prokurorluq orqanlarının işinin səmərəliliyinin artırılması", 3.1-ci bəndində isə "məhkəmə hakimiyyətinə daxil olan prokurorluq orqanları işçilərinin vəzifə maaşları sisteminin təkmilləşdirilməsi" nəzərdə tutulmuşdur.

Sorğuverənin qənaətinə görə, qanunvericilikdə prokurorluğun məhkəmə hakimiyyəti sisteminə daxil olan orqan kimi təsbit olunması nəzərə alınaraq, prokurorluq orqanlarında inzibati vəzifələrin beşinci-yeddinci təsnifatlarına uyğun olan vəzifələrin həmin orqanlarda qulluq keçən şəxslərin iştirakı ilə tutulmasının müsahibə yolu ilə həyata keçirilməsinin mümkünlüyü məsələsinə aydınlıq gətirilməsi zərurəti yaranmışdır.

Konstitusiya Məhkəməsinin Plenumu sorğu ilə əlaqədar aşağıdakıların qeyd edilməsini vacib hesab edir.

Konstitusiyanın 55-ci maddəsinə əsasən, Azərbaycan Respublikası vətəndaşlarının dövlətin idarə olunmasında iştirak etmək hüququ vardır. Bu hüququ onlar bilavasitə və ya nümayəndələri vasitəsilə həyata keçirə bilərlər. Azərbaycan Respublikasının vətəndaşları dövlət orqanlarında qulluq etmək imkanına malikdirlər. Dövlət orqanlarının vəzifəli şəxsləri Azərbaycan Respublikasının vətəndaşları sırasından təyin edilirlər. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər dövlət qulluğuna qanunla müəyyənləşdirilmiş qaydada qəbul edilə bilərlər

Azərbaycan Respublikasında dövlət qulluğunun hüquqi, təşkilati və maliyyə-iqtisadi əsasları "Dövlət qulluğu haqqında" Qanunla müəyyən edilir.

Həmin Qanunun 1.1.1 və 1.1.2-ci maddələrində dövlət qulluğu Azərbaycan Respublikasının Konstitusiyasına və digər normativ hüquqi aktlarına uyğun olaraq dövlətin məqsəd və funksiyalarının həyata keçirilməsi sahəsində dövlət qulluğu vəzifəsində xidmət kimi müəyyən edilmişdir. Dövlət qulluğunun xüsusi növü isə xüsusi, hərbi və ya diplomatik rütbə nəzərdə tutulan vəzifələrdə dövlət qulluğu keçməni ehtiva edir.

Sorğuda qaldırılan məsələ ilə bağlı, ilk növbədə, qeyd edilməlidir ki, "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra – "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Qanun) 1.1-ci maddəsində Azərbaycan Respublikasının prokurorluq orqanlarında qulluq prokurorluğun fəaliyyət istiqamətləri üzrə prokurorluq işçilərinin səlahiyyətlərini yerinə yetirmələri ilə əlaqədar həyata keçirdikləri dövlət qulluğunun xüsusi növü kimi göstərilmişdir.

Prokurorluq işçiləri dedikdə, prokurorlar, prokurorluğun müstəntiqləri, prokurorluğun əməliyyatçıları və prokurorluğun stajorları nəzərdə tutulur və tutduqları vəzifələrə və iş stajına müvafiq olaraq xüsusi və ya hərbi rütbələr yalnız prokurorlara, prokurorluğun müstəntiqlərinə və əməliyyatçılarına verilir ("Prokurorluq haqqında" Qanunun 1-ci maddəsi və 35-ci maddəsinin birinci hissəsi).

Nəzərə alınmalıdır ki, "Dövlət qulluğu haqqında" Qanun ilə dövlət qulluğunun xüsusi növü nəzərdə tutulan dövlət orqanlarında çalışan və məhz xüsusi, hərbi və ya diplomatik rütbəsi olmayan şəxslərin (dövlət qulluqçusu olmayan digər işçilər istisna olmaqla) qulluq keçməsi tənzimlənir ("Dövlət qulluğu haqqında" Qanunun 2.3-cü maddəsinin ikinci cümləsi və "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Qanunun 3.3-cü maddəsi).

"Dövlət qulluğu haqqında" Qanunun müddəalarına əsasən, xüsusi rütbələr nəzərdə tutmayan vəzifələr həmin vəzifələrin funksiyalarının məzmunundan, səlahiyyətlərinin mənbəyindən və tutulması üsullarından asılı olaraq inzibati və yardımçı vəzifələrə bölünür.

Sorğuda aydınlıq gətirilməsi məqsədi ilə qaldırılan məsələ də prokurorluq orqanlarında məhz xüsusi rütbələr nəzərdə tutulmayan inzibati vəzifələrin beşinci-yeddinci təsnifatlarına uyğun olan vəzifələrin tutulmasının "Dövlət qulluğu haqqında" Qanunun 29.2 və 29.5-ci maddələrinə müvafiq olaraq müsahibə yolu ilə həyata keçirilməsinin mümkünlüyü ilə bağlıdır.

Bununla bağlı göstərmək lazımdır ki, dövlət qulluğu haqqında qanunvericilikdə 1–5-ci kateqoriya dövlət orqanlarında (yerli icra hakimiyyəti orqanlarının rəhbərlərinin müavinləri vəzifələri və Azərbaycan Respublikasının xarici ticarət nümayəndələri vəzifələri istisna olmaqla) inzibati vəzifələrin birinci-yeddinci təsnifatlarına uyğun olan vəzifələrin tutulması qaydası həmin dövlət orqanı rəhbərinin qərarı əsasında aşağıdakı kimi müəyyən edilmişdir:

– "Dövlət qulluğu haqqında" Qanunun 28-ci maddəsində nəzərdə tutulmuş test imtahanı və müsahibədən ibarət müsabiqə yolu ilə;

– "Dövlət qulluğu haqqında" Qanunun 29.3-29.9-cu maddələrinə uyğun olaraq müsahibə yolu ilə.

Qanunverici ümumi müsahibəni və daxili müsahibəni fərqləndirərək, daxili müsahibəni 1-5-ci kateqoriya

dövlət orqanlarında inzibati vəzifələrin birinci-yeddinci təsnifatlarına və həmin Qanunun 28.12-ci maddəsinin ikinci hissəsində müəyyən edilmiş vəzifələrə iddia edən, həmin dövlət orqanlarında inzibati vəzifələrdə qulluq keçən şəxslərin iştirakını nəzərdə tutan müsahibə kimi göstərmişdir.

Göstərilməlidir ki, inzibati vəzifələrin dördüncü-yeddinci təsnifatlarına və Qanunun 28.12-ci maddəsinin ikinci hissəsində müəyyən edilmiş vəzifələrə uyğun olan vakant vəzifənin tutulması üçün, ilk növbədə, daxili müsahibə keçirilə bilər.

Daxili müsahibə nəticəsində müvafiq inzibati vəzifə tutulmadıqda, dövlət orqanı rəhbərinin müvafiq qərarı əsasında həmin Qanunun 29.3-cü maddəsinin birinci hissəsində nəzərdə tutulmuş digər şəxslərin iştirakını nəzərdə tutan ümumi müsahibə və ya Qanunun 28-ci maddəsində nəzərdə tutulmuş qaydada müsabiqə keçirilə bilər.

Qeyd edilməlidir ki, "Dövlət qulluğu haqqında" Qanunun 29.5-ci maddəsində müsahibədə iştirakın şərti kimi barəsində müsahibə elan edilən vəzifənin təsnifatından ən çoxu iki təsnifat aşağı inzibati vəzifələrdə qulluq keçmə müəyyən edilmişdir. Bu şərtdən istisna isə həmin Qanunun 28.12-ci maddəsinin ikinci hissəsində müəyyən edilmiş vəzifələrin tutulmasına, habelə sorğuda da vurğulandığı kimi, məhkəmə hakimiyyəti orqanlarında inzibati vəzifələrin beşinci-yeddinci təsnifatlarına uyğun vəzifələrin həmin orqanlarda qulluq keçən şəxslər tərəfindən tutulmasına şamil olunmadığı təsbit edilmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu "Dövlət qulluğu haqqında" Qanunun 29.5-ci maddəsində məhkəmə hakimiyyəti orqanlarında inzibati vəzifələrdə qulluq keçən şəxslər dedikdə, prokurorluq orqanlarında çalışan dövlət qulluqçularının da ehtiva edilib-edilməməsi ilə bağlı aşağıdakıların qeyd olunmasını vacib hesab edir.

Azərbaycan Respublikasında dövlət hakimiyyətinin hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edilməsi Konstitusiyanın 7-ci maddəsinin III hissəsində öz əksini tapmışdır. Bu prinsip qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinin öz səlahiyyətləri çərçivəsində müstəqil fəaliyyət göstərmələrini nəzərdə tutur.

Həmin prinsipə əsasən Konstitusiyanın "Məhkəmə hakimiyyəti" adlı VII fəslində məhkəmə hakimiyyətinə iki qrup orqanlar – məhkəmələr və vahid mərkəzləşdirilmiş orqan kimi müəyyən edilən prokurorluq aid edilmişdir.

Məlum olduğu kimi, Azərbaycan Respublikasında məhkəmə hakimiyyətini ədalət mühakiməsi yolu ilə yalnız məhkəmələr həyata keçirirlər. Məhkəmələr ədalət mühakiməsini həyata keçirərkən Azərbaycan Respublikası Konstitusiyasında təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını, mülkiyyət formasından asılı olmayaraq bütün müəssisə, idarə və təşkilatların, siyasi partiyaların, ictimai birliklərin, digər hüquqi şəxslərin hüquqlarını və qanuni mənafelərini hər cür qəsdlərdən və qanun pozuntularından müdafiə edir, Azərbaycan Respublikasının Konstitusiyasında və bu qanunda nəzərdə tutulmuş digər vəzifələri həyata keçirirlər (Konstitusiyanın 125-ci maddəsinin I hissəsi və "Məhkəmələr və hakimlər haqqında" Qanunun 3-cü maddəsi).

Beləliklə, məhkəmə hakimiyyəti ədalət mühakiməsi yolu ilə mülki və cinayət məhkəmə icraatı vasitəsilə və qanunla nəzərdə tutulmuş digər vasitələrlə məhkəmələr tərəfindən həyata keçirilir.

Azərbaycan Respublikasının Prokurorluğu isə Konstitusiyanın 133-cü maddəsinin I hissəsində təsbit edildiyi kimi, qanunla nəzərdə tutulmuş qaydada və hallarda qanunların icra və tətbiq olunmasına nəzarət edir, qanunla nəzərdə tutulmuş hallarda cinayət işləri başlayır və istintaq aparır, məhkəmədə dövlət ittihamını müdafiə edir, məhkəmədə iddia qaldırır, məhkəmə qərarlarından protest verir.

Beləliklə, prokurorluğun səlahiyyətləri və fəaliyyət istiqamətləri baxımından ədalətin təmin edilməsində əhəmiyyətli iştirakı nəzərə alınaraq, habelə prokurorluğun müstəqilliyinin təmin edilməsi nöqteyi-nəzərindən bu dövlət orqanı Əsas Qanunda digər hakimiyyət qollarına dair fəsildə deyil, məhz məhkəmə hakimiyyəti fəslində nəzərdə tutulmuşdur.

Müvafiq olaraq "Prokurorluq haqqında" Qanunun 2-ci maddəsində də prokurorluq məhkəmə hakimiyyəti sisteminə daxil olmaqla ərazi və ixtisaslaşdırılmış prokurorluqların Azərbaycan Respublikasının baş prokuroruna tabeliyinə əsaslanan vahid mərkəzləşdirilmiş orqan kimi təsbit edilmişdir.

Həmçinin Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 aprel tarixli "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanında məhkəmə hakimiyyəti sisteminə aid edilmiş orqan olaraq prokurorluğa müvafiq məsələlərlə bağlı tövsiyələr də verilmişdir.

Ədalət mühakiməsinin həyata keçirilməsində prokurorun iştirakını və dövlət ittihamının müdafiəsini tənzimləyən "Prokurorluq haqqında" Qanunun 19-cu maddəsinə görə, hakimlərin müstəqilliyi və onların yalnız qanuna tabe olması prinsipinə dönmədən əməl edilməklə prokurorlar Azərbaycan Respublikasının prosessual qanunvericiliyində nəzərdə tutulmuş qaydada və hallarda məhkəmələrdə cinayət işlərinə birinci instansiya, apellyasiya və kassasiya qaydasında baxılmasında tərəf kimi iştirak edir, rəy verir, dövlət ittihamını müdafiə edir, məhkəmədə iddia qaldırır, mülki və kommersiya mübahisələrinə dair işlərə baxılmasında iddiaçı qismində iştirak edir, məhkəmə qərarlarından protest verir.

Göstərilən normalardan çıxış edərək Konstitusiya Məhkəməsinin Plenumu bir sıra Qərarlarında prokurorluğun konstitusion statusunu məhkəmə hakimiyyətinə aid edilmiş orqan, prokurorluq işçilərini isə məhkəmə hakimiyyəti daxilində hakimlərlə oxşar vəziyyətdə olan şəxslər kimi ifadə etmişdir (Konstitusiya Məhkəməsi Plenumunun "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 109-cu maddəsinin beşinci hissəsinə və həmin Qanunun "Keçid müddəaları"nın 7-ci bəndinə dair" 2003-cü il 29 aprel və R.Cəfərovun iddiasına dair 2012-ci il 18 may tarixli Qərarları).

Sorğu ilə əlaqədar Konstitusiya Məhkəməsi Plenumuna təqdim edilmiş mütəxəssis mülahizələrində və ekspert

rəylərində də məhkəmə hakimiyyəti sisteminə iki qrup orqanların – bilavasitə məhkəmə orqanları və prokurorluğun daxil olduğu ifadə olunmuşdur.

O da qeyd edilməlidir ki, prokurorluq orqanlarında çalışan, xüsusi və hərbi rütbəsi olmayan şəxslər bilavasitə məhkəmələrdə (Azərbaycan Respublikasının apellyasiya məhkəmələri, ümumi məhkəmələr və digər ixtisaslaşdırılmış məhkəmələrdə) qulluq keçən dövlət qulluqçuları ilə oxşar hüquqi statusda olmaqla, bərabər hüquq və imkanlara malikdirlər.

Konstitusiyanın tələblərindən irəli gələrək "Dövlət qulluğu haqqında" Qanunun 4-cü maddəsində dövlət qulluğunun əsaslandığı prinsipləri sırasında dövlət qulluqçularının hüquq bərabərliyi prinsipi müəyyən edilmişdir.

Konstitusiya Məhkəməsi Plenumunun Konstitusiyanın 25-ci maddəsində göstərilən bərabərlik prinsipinin məzmununa dair ifadə etdiyi hüquqi mövqeyinə görə, eyni və ya oxşar vəziyyətdə olan şəxslərə eyni rəftarın göstərilməsi tələb olunur. Belə şəxslərə qarşı fərqli rəftar yalnız o halda mümkündür ki, bunun üçün obyektiv və ağlabatan əsas olsun (Konstitusiya Məhkəməsi Plenumunun O.Gərəkməzlinin şikayəti üzrə 2014-cü il 25 fevral tarixli Qərarı).

Bu baxımdan, məhkəmə hakimiyyəti sisteminə aid olan orqanlar daxilində oxşar vəziyyətdə olan şəxslərə münasibətdə inzibati vəzifələrin beşinci-yeddinci təsnifatlarına uyğun olan vəzifələrin tutulması ilə bağlı qaydalarda hər hansı fərqləndirmənin aparılması obyektiv səbəblərə əsaslanmayaraq dövlət qulluğu ilə bağlı qanunvericilik prinsiplərinin pozulmasına şərait yaratmış olur.

Göstərilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticəyə gəlir:

Konstitusiyasının 133-cü maddəsinin və "Prokurorluq haqqında" Qanunun 2-ci maddəsinin hüquqi məzmunu baxımından "Dövlət qulluğu haqqında" Qanunun 29.5-ci maddəsinin üçüncü hissəsinin "məhkəmə hakimiyyəti orqanlarında qulluq keçən şəxslər" müddəası məhkəmə hakimiyyəti sisteminə aid olan orqanlar daxilində oxşar hüquqi vəziyyətdə olan prokurorluq orqanlarında çalışan xüsusi və ya hərbi rütbəsi olmayan şəxsləri də ehtiva edir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsini və "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu **qərara aldı:**

**1.** Azərbaycan Respublikası Konstitusiyasının 133-cü maddəsinin və "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinin hüquqi məzmunu baxımından "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 29.5-ci maddəsinin üçüncü hissəsinin "məhkəmə hakimiyyəti orqanlarında qulluq keçən şəxslər" müddəası məhkəmə hakimiyyəti sisteminə aid olan orqanlar daxilində oxşar hüquqi vəziyyətdə olan prokurorluq orqanlarında çalışan xüsusi və ya hərbi rütbəsi olmayan şəxsləri də ehtiva edir.

**2.** Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**3.** Qərar Azərbaycan Respublikasının rəsmi dövlət qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi internet saytında yerləşdirilsin.

**4.** Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr Fərhad ABDULLAYEV**

**AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN**

## Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun
## Q Ə R A R I

### Azərbaycan Respublikası Konstitusiyasının 17-ci maddəsinin IV və VI hissələri baxımından Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 32.2, 84.1 və 170-ci maddələrinin əlaqəli şəkildə şərh olunmasına dair

**6 may 2024-cü il** **Bakı şəhəri**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Humay Əfəndiyeva (məruzəçi-hakim), Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 32-ci maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında Azərbaycan Respublikası Konstitusiyasının 17-ci maddəsinin IV və VI hissələri baxımından Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 32.2, 84.1 və 170-ci maddələrinin əlaqəli şəkildə şərh olunmasına dair konstitusiya işinə baxdı.

İş üzrə hakim H.Əfəndiyevanın məruzəsini, maraqlı

subyektlər Azərbaycan Respublikası Prokurorluğunun və Azərbaycan Respublikası Milli Məclisi Aparatının mülahizələrini, Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının, Bakı Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasının və Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyətinin mütəxəssis mülahizələrini, ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Cinayət hüququ və kriminologiya kafedrasının müdiri, hüquq elmləri doktoru, professor Ş.Səmədovanın rəyini və iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu müəyyən etdi:

Azərbaycan Respublikasının Prokurorluğu (bundan sonra – Prokurorluq) Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) sorğu ilə müraciət edərək Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra – Cinayət Məcəlləsi) 32.2, 84.1 və 170-ci maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra – Konstitusiya) 17-ci maddəsinin IV hissəsi ilə əlaqəli şəkildə şərh edilməsini xahiş etmişdir.

Sorğuda göstərilmişdir ki, Cinayət Məcəlləsinin 84.1-ci maddəsinə əsasən, cinayət törədərkən on dörd yaşı tamam olmuş, lakin on səkkiz yaşına çatmayan şəxslər yetkinlik yaşına çatmayanlar hesab olunur.

Həmin Məcəllənin 170.1-ci maddəsi ilə on səkkiz yaşına çatmış şəxs tərəfindən yetkinlik yaşına çatmayanı aldatma, vədlər vermə, hədə-qorxu vasitəsilə cinayətkar fəaliyyətə cəlb etməyə görə cinayət məsuliyyəti müəyyən edilmişdir.

Cinayət Məcəlləsinin 20-ci maddəsinə görə, cinayət törədənədək on altı yaşı tamam olmuş şəxs cinayət məsuliyyətinə cəlb edilir. On dörd yaşı tamam olmuş şəxs yalnız qəsdən adam öldürməyə, qəsdən sağlamlığa az ağır və ya ağır zərər vurmağa, adam oğurlamağa, zorlamağa, seksual xarakterli zorakılıq hərəkətlərinə, oğurluğa, soyğunçuluğa, quldurluğa, hədə-qorxu ilə tələb etməyə, talama məqsədi olmadan qanunsuz olaraq avtomobil və ya başqa nəqliyyat vasitəsi ələ keçirməyə, ağırlaşdırıcı hallarda əmlakı qəsdən məhv etməyə və ya zədələməyə, terrorçuluğa, adamları girov götürməyə, ağırlaşdırıcı hallarda xuliqanlığa, odlu silahı, döyüş sursatını, partlayıcı maddələri və qurğuları talamağa və ya hədə-qorxu ilə tələb etməyə, narkotik vasitələri və ya psixotrop maddələri talamağa və ya hədə-qorxu ilə tələb etməyə, nəqliyyat vasitələrini və ya yolları yararsız vəziyyətə salmağa görə cinayət məsuliyyətinə cəlb edilir.

Sorğuverənin qənaətinə görə, təcrübədə cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmayan yetkinlik yaşına çatmayanı aldatma, vədlər vermə, hədə-qorxu vasitəsi ilə cinayətkar fəaliyyətə cəlb etməyə görə Cinayət Məcəlləsinin 170-ci maddəsi ilə cinayət məsuliyyətinin yaranıb-yaranmaması mübahisəlidir.

Belə ki, bir yanaşmaya görə, yetkinlik yaşına çatmayanı aldatma, vədlər vermə, hədə-qorxu vasitəsi ilə cinayətkar fəaliyyətə cəlb etmə yetkinlik yaşına çatmayanın cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatıb-çatmamasından asılı olmayaraq, Cinayət Məcəlləsinin 170-ci maddəsi ilə cinayət məsuliyyəti yaradır. Çünki, maddənin dispozisiyasında "yetkinlik yaşına çatmayan" anlayışından istifadə edilmişdir və Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra – Cinayət-Prosessual Məcəlləsi) 7.0.33-1-ci və "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Azərbaycan Respublikası Qanununun 1.0.1-ci maddələrinə əsasən yetkinlik yaşına çatmayanlar – on səkkiz yaşınadək olan şəxslərdir. Ona görə də 13 və ya 15 yaşlı şəxsi, məsələn aldatma yolu ilə cinayətkar fəaliyyətə cəlb etmə hər bir halda Cinayət Məcəlləsinin 170-ci maddəsi ilə cinayət məsuliyyəti yaratmalıdır.

Digər yanaşma isə ondan ibarətdir ki, Cinayət Məcəlləsinin 170-ci maddəsinin dispozisiyasında əks olunan "yetkinlik yaşına çatmayan" özü cinayət törətmiş şəxsdir. Buna görə də, cinayət törətmiş "yetkinlik yaşına çatmayan" şəxsin müəyyən edilməsi üçün Cinayət Məcəlləsinin 84.1-ci maddəsinə istinad etmək lazımdır ki, həmin maddəyə əsasən də cinayət törədərkən on dörd yaşı tamam olmuş, lakin on səkkiz yaşına çatmayan şəxslər yetkinlik yaşına çatmayanlar hesab olunur. Həmin mövqeyə görə, cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmayan yetkinlik yaşına çatmayanı aldatma, vədlər vermə, hədə-qorxu vasitəsi ilə cinayətkar fəaliyyətə cəlb etmə Cinayət Məcəlləsinin 170-ci maddəsi ilə cinayət məsuliyyəti yarada bilməz. Bu halda şəxs Cinayət Məcəlləsinin 32.2-ci maddəsinə əsasən cinayət məsuliyyətinə cəlb edilə bilməyən şəxslərdən istifadə etməklə cinayəti törətdiyinə görə cinayətin icraçısıdır və yalnız törədilmiş cinayətin icraçısı olaraq cinayət məsuliyyətinə cəlb olunmalıdır.

Bu yanaşmanın tərəfdarları hesab edirlər ki, cinayətin subyekti olmayan şəxsin cinayətkar fəaliyyətə cəlb edilməsi halında cinayət məsuliyyəti ona görə istisna olunur ki, cinayətkar fəaliyyətə cəlb olunan şəxs belə bir fəaliyyətə cəlb olunduğunu özü dərk etmir.

Göstərilənlərə əsasən, Prokurorluq yetkinlik yaşına çatmayan şəxslərin qanuni mənafelərinin qorunması, onların mühafizəsinə yönəlmiş qanunvericilik normalarının hüquq tətbiqedənlər tərəfindən vahid qaydada tətbiqinin təmin edilməsi məqsədilə müvafiq maddələrin şərh edilməsinin zəruriliyi qənaətinə gəlmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu sorğu ilə əlaqədar aşağıdakıları qeyd edir.

Konstitusiyanın 17-ci maddəsi ilə cəmiyyətin əsas özəyi kimi ailənin dövlətin xüsusi himayəsində olduğu bəyan edilmişdir. Uşaqları onların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən fəaliyyətə cəlb etmək qadağandır. Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarət edir.

"Uşaq hüquqları haqqında" Konvensiyanın 3-cü maddəsinin 2-ci bəndinə uyğun olaraq, iştirakçı dövlətlər uşağın valideynlərinin, qəyyumlarının və ya qanuna görə onun üçün məsuliyyət daşıyan digər şəxslərin hüquq və vəzifələrini nəzərə alaraq, uşağı onun rifahı üçün zəruri olan müdafiə və qayğı ilə təmin etməyi öhdələrinə götürür və bu məqsədlə bütün qanunvericilik tədbirlərini və inzibati tədbirləri görürlər.

Konstitusiya və beynəlxalq-hüquqi aktlar ilə dövlətin üzərinə uşaq hüquqlarının həyata keçirilməsinə nəzarət etmək kimi pozitiv öhdəliyin qoyulması uşaqlıq dövrünün şəxsiyyətin formalaşmasının mühüm mərhələsi olmasından, məhz bu ərəfədə insanın mənəviyyatının, dünya görüşünün inkişaf etməsi, psixi və fiziki sağlamlığının bünövrəsinin qoyulmasından irəli gəlir. Bu pozitiv öhdəliyin icrasının təmin edilməsi üçün uşaqların üstün mənafelərinin müdafiəsinə yönələn səmərəli hüquq siyasətinin həyata keçirilməsi tələb olunur.

"Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə uyğun olaraq uşaq hüquqlarının həyata keçirilməsi, uşaqların yüksək mənəviyyatlı, hərtərəfli şəxsiyyət kimi formalaşmasına şərait yaradılması Azərbaycan Respublikasının dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Uşaqlar barəsində dövlət siyasəti hər bir uşağın zəruri maddi və məişət şəraitində böyüyüb tərbiyə olunmasının, mütərəqqi tələblər əsasında təhsil almasının, layiqli vətəndaş kimi formalaşmasının təmin edilməsinə yönəldilir.

Həmin Qanunun 28-ci maddəsinə görə, dövlət sosial, hüquqi, iqtisadi, tibbi və tərbiyəvi vasitələrlə uşaqları istismarın bütün növlərindən, ağır, zərərli və təhlükəli əməkdən və təsirlərdən mühafizə edir.

Dövlət tərəfindən uşaqların hüquqlarının və üstün mənafelərinin səmərəli təmin edilməsi məqsədi ilə onların inkişafına təsir edə biləcək neqativ təsirlərdən müdafiəsinə dair müvafiq tənzimetmə və mexanizmlərin qanunvericilik qaydasında müəyyən edilməsi mütləqdir.

Bu baxımdan qüvvədə olan qanunvericilikdə həm cinayət törətməkdə təqsirli olan yetkinlik yaşına çatmayanların məsuliyyətə cəlb olunması və cəzalandırılmasının xüsusiyyətləri, həm də yetkinlik yaşına çatmayanların cinayətkar qəsdlərdən mühafizəsi məsələləri tənzimlənmişdir.

Cinayət Məcəlləsinin "Şəxsiyyət əleyhinə olan cinayətlər" adlanan VIII bölməsində yerləşən "Yetkinlik yaşına çatmayanlar və ailə münasibətləri əleyhinə olan cinayətlər" adlanan 22-ci fəsli ilə xüsusi olaraq yetkinlik yaşına çatmayanların əlverişli şəraitdə böyüyüb-inkişaf etməsi əleyhinə olan cinayət əməlləri müəyyən edilmişdir.

Qeyd edilməlidir ki, Konstitusiyanın 17-ci maddəsinin IV hissəsindən irəli gələrək "uşaqların onların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən fəaliyyətə cəlb edilməsi" Cinayət Məcəlləsinin 22-ci fəslində müvafiq olaraq ayrıca cinayət əməlləri kimi nəzərdə tutulmaqla yanaşı, bir sıra digər cinayət tərkiblərində tövsifedici əlamət (məsələn, Məcəllənin 114.2, 283-1.2-ci və s. maddələri) formasında təsbit edilmiş, habelə müvafiq hallarda cəzanı ağırlaşdıran hal kimi nəzərə alınması müəyyən edilmişdir.

Uşaqların cinayət-hüquqi müdafiəsinin təmin edilməsi məqsədilə Cinayət Məcəlləsinin 170-ci maddəsində yetkinlik yaşına çatmayanı cinayətkar fəaliyyətə cəlb etmə cinayət əməli kimi təsbit edilmişdir. Bu norma yetkinlik yaşına çatmayanların cinayətkarlığının qarşısının alınmasına yönəlməklə, ikili prevensiyaya malikdir.

Cinayətin obyekti yetkinlik yaşına çatmayanların normal inkişafı və tərbiyəsi, şəxsiyyətinin formalaşmasının fiziki, mənəvi, əxlaqi, sosial və intellektual tərəfi ilə bağlı yaranan ictimai münasibətlərdir.

Həmin cinayətin ictimai təhlükəliliyi ondan ibarətdir ki, yetkinlik yaşına qədər şəxsiyyətin formalaşması yekunlaşmamış hesab edilir. Uşaq psixikası yetişkənsizliyi və xarici təsirə davamsızlığı ilə səciyyələndiyindən, yetkinlik yaşına çatmayanın cinayət fəaliyyətinə cəlb edilməsi nəinki onu hüquqazidd davranışa təhrik edir, onun normal sosiallaşması və mənəvi-psixi inkişafına da neqativ təsir göstərir.

Cinayətin obyektiv cəhətini yetkinlik yaşına çatmayanın cinayətkar fəaliyyətə cəlb edilməsi təşkil edir ki, bu da şəxsdə cinayətkar fəaliyyətlə məşğul olmaq arzu və qətiyyətinin yaradılmasına yönələn fiziki və psixi təsirlərlə (aldatma, vədlər vermə, hədə-qorxu) müşayiət olunan hərəkətlərdə təzahür edir.

Cinayətkar fəaliyyətə cəlb etmənin üsulu kimi aldatma yetkinlik yaşına çatmayan üçün əhəmiyyət kəsb edən hallar haqqında yalan məlumatların verilməsi, təhrik edilən əməlin cinayət olmaması barədə yanlış təsəvvürün yaradılması və bu kimi digər hərəkətləri ehtiva edir. Vəd vermə – yetkinlik yaşına çatmayanı sövq edildiyi əməli törədəcəyi təqdirdə onun mənafeyinə uyğun şəkildə davranılacağına inandırmaqdır. Hədə qorxu - əksinə yetkinlik yaşına çatmayanı onun mənafeyinə zidd davranışın həyata keçiriləcəyinə inandırmaqda ifadə olunur.

Cinayət Məcəlləsinin 170-ci maddəsi ilə nəzərdə tutulmuş cinayətdən zərərçəkmiş şəxs kimi yetkinlik yaşına çatmayan şəxslər çıxış edir.

Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 12.2, 87.2 və 106.1-ci maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair" 2014-cü il 15 aprel tarixli Qərarında ifadə etdiyi hüquqi mövqeyinə əsasən, Konstitusiya və beynəlxalq-hüquqi sənədlərin müvafiq müddəaları dövlətin yalnız şəxsə zərər və mənəvi sarsıntı vuran cinayət əməllərinin qarşısını almaq vəzifəsini deyil, habelə cinayət əməli nəticəsində zərər çəkmiş şəxsin qanunla nəzərdə tutulmuş üsul və vasitələrlə öz hüquqlarını və qanuni mənafelərini müdafiə etmək imkanını təmin etmək vəzifəsini nəzərdə tutur.

Bu baxımdan, "zərər çəkmiş şəxs" anlayışının cinayət-hüquqi və cinayət-prosessual mənaları fərqləndirilməlidir. Cinayət hüququnda zərərçəkmiş şəxs dedikdə, cinayət qanunu ilə qorunan ictimai münasibətlərin subyekti qismində çıxış edən və fiziki, əmlak, mənəvi və digər ziyan vurulmuş şəxs başa düşülür.

Cinayət-prosessual hüququnda isə zərərçəkmiş şəxs dedikdə, cinayət əməli nəticəsində ziyan vurulduğu ehtimal olunan proses iştirakçısı nəzərdə tutulur. Cinayət-Prosessual Məcəlləsinin 87.1-ci maddəsinə əsasən, cinayət qanunu ilə nəzərdə tutulmuş əməl nəticəsində fiziki şəxsə birbaşa mənəvi, fiziki və ya maddi ziyan vurulmasına kifayət qədər əsaslar olduqda o, zərər çəkmiş şəxs qismində tanınır.

Göründüyü kimi, cinayət-hüquqi mənada cinayətdən zərər çəkmiş şəxs anlayışı cinayət-prosessual hüquqi mənada zərər çəkmiş şəxs anlayışından geniş olmaqla,

həm cinayət-prosessual mənada zərər çəkmiş qismində tanınmış şəxsi, həm də zərər çəkmiş şəxs qismində tanınana qədər bu və ya digər səbəbdən ölmüş şəxsi özündə ehtiva edir.

Cinayət əməli nəticəsində zərər çəkmiş şəxsin Konstitusiya və beynəlxalq-hüquqi sənədlərdən irəli gələn hüquq və vəzifələri Cinayət-Prosessual Məcəlləsində öz əksini tapmışdır.

Həmin Məcəllənin 12.2-ci maddəsinə əsasən, cinayətin əlamətləri olan əməldən zərər çəkmiş şəxsin bu Məcəllədə nəzərdə tutulmuş qaydada cinayət təqibinin başlanılmasını tələb etməyə, onun həyata keçirilməsində zərər çəkmiş şəxs və ya xüsusi ittihamçı qismində iştirak etməyə, habelə vurulmuş mənəvi, fiziki və maddi ziyana görə kompensasiya almağa hüququ vardır.

Cinayət prosesi gedişində hər kəsin özünün Konstitusiya ilə təsbit edilmiş hüquq və azadlıqlarını qanunla qadağan edilməyən bütün üsul və vasitələrlə müdafiə etməyə hüququ vardır (Cinayət-Prosessual Məcəlləsinin 12.3-cü maddəsi).

Cinayət Məcəlləsinin 170-ci maddəsində nəzərdə tutulmuş "yetkinlik yaşına çatmayan" ifadəsinin məhz hansı yaşda olan uşaqları ehtiva etməsi ilə bağlı sorğuda qaldırılan məsələyə gəlincə, ilk növbədə, nəzərə alınmalıdır ki, cinayət qanunvericiliyində bu ifadə üç fərqli anlamda işlənilmişdir: cinayətin subyekti qismində, cinayətdən zərər çəkmiş şəxs mənasında və cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmayan şəxs kimi.

Cinayət Məcəlləsinin 84.1-ci maddəsinə görə, cinayət törədərkən on dörd yaşı tamam olmuş, lakin on səkkiz yaşına çatmayan şəxslər yetkinlik yaşına çatmayanlar hesab olunur. Həmin maddənin adından (Yetkinlik yaşına çatmayanların cinayət məsuliyyəti) görünür ki, bu maddə məhz cinayət əməlinin subyekti qismində çıxış edə bilən yetkinlik yaşına çatmayanları, yəni on dörd yaşı tamam olmuş, lakin on səkkiz yaşına çatmayan şəxsləri nəzərdə tutur. Belə ki, on dörd yaşı tamam olmamış şəxs, ümumiyyətlə cinayətin subyekti ola bilmədiyindən və müvafiq olaraq cinayət məsuliyyətinə cəlb edilə bilmədiyindən (Cinayət Məcəlləsinin 20-ci maddəsi), qanunverici 84.1-ci maddənin kontekstində (cinayətin subyekti) "yetkinlik yaşına çatmayanlar" ifadəsindən istifadə edərkən on dörd yaşına çatmış, lakin on səkkiz yaşı tamam olmamış şəxsləri nəzərdə tutmuşdur.

Lakin Cinayət Məcəlləsinin 170-ci maddəsi ilə nəzərdə tutulmuş əməlin obyekti, ictimai təhlükəliliyi və törədilmə üsulları, bu əməl nəticəsində nəinki cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatan şəxslərə, həmçinin 14 yaşına çatmayan şəxslərə də birbaşa mənəvi, fiziki və ya maddi ziyanın vurulmasını mümkün edir. Hətta, 14 yaşına çatmayan uşaqların psixi, emosional və intellektual inkişaf baxımından 14 yaşına çatmış uşaqlar ilə müqayisədə daha həssas olması və daha zəif iradəyə malik olması həmin əməlin onlara qarşı törədilməsini daha yüksək ictimai təhlükəli edir.

O da nəzərə alınmalıdır ki, Cinayət Məcəlləsinin 170-ci maddəsi ilə nəzərdə tutulmuş əməl yetkinlik yaşına çatmayanın cinayət fəaliyyətində iştirak etməyə cəlb edildiyi anda başa çatır. Bu zaman yetkinlik yaşına çatmayanı cinayətkar fəaliyyətə cəlb etməni bitmiş əməl hesab etmək üçün, törədilməsinə sövq edilən cinayətin baş tutması tələb olunmur. Belə ki, yetkinlik yaşına çatmayanda cinayətkar fəaliyyət göstərməklə bağlı istək və qətiyyətin formalaşdırılmasına yönəlik hərəkətlər (170-ci maddədə nəzərdə tutulmuş üsullarla) özü-özlüyündə onun normal psixi və mənəvi inkişafına zərər vurur.

Oxşar yanaşma "Yetkinlik yaşına çatmayanların cinayətləri barədə işlər üzrə məhkəmə təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun 2008-ci il 30 iyun tarixli Qərarının 8-ci bəndində də ifadə edilmişdir. Həmin bəndə görə Cinayət Məcəlləsinin 170 və 171-ci maddələri ilə məsuliyyət nəzərdə tutan cinayətlər yetkinlik yaşına çatmayanların cinayət fəaliyyətinə və digər hüquqazidd hərəkətlərə cəlb edildiyi andan başa çatmış hesab olunur. Bu zaman yetkinlik yaşına çatmayanların təhrik edildikləri hüquqazidd hərəkətləri törədib-törətməməsinin əhəmiyyəti yoxdur.

Qeyd olunanları nəzərə alaraq, Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, Cinayət Məcəlləsinin 170-ci maddəsində əks olunan "yetkinlik yaşına çatmayan" ifadəsi cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatıb-çatmamasından asılı olmayaraq, 18 yaşına çatmayan hər bir şəxsi ehtiva edir.

Əks yanaşma, Konstitusiyanın 17-ci maddəsinin IV və VI hissələrinə uyğun olmamaqla, həmçinin 14 yaşına çatmayan uşaqların Cinayət Məcəlləsinin 170-ci maddəsində nəzərdə tutulmuş cinayətdən zərər çəkmiş şəxs qismində tanınmaqla, bu statusdan irəli gələn hüquqlarının da pozulmasına gətirmiş olar.

Həmçinin qeyd edilməlidir ki, cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmayan şəxslərin cinayət törətməyə cəlb olunmasının Cinayət Məcəlləsinin 61.1.5-ci maddəsi ilə ağırlaşdırıcı hal olaraq nəzərdə tutulması həmin Məcəllənin 170-ci maddəsində əks olunmuş "yetkinlik yaşına çatmayan" ifadəsinin yalnız cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatan şəxsləri ehtiva etməsi kimi qiymətləndirilə bilməz.

Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 177-ci maddəsinin "Qeyd" hissəsinin 3-cü bəndinin şərh edilməsi haqqında" 2013-cü il 4 mart tarixli Qərarında qeyd etdiyi hüquqi mövqeyə əsasən, Konstitusiyada və cinayət qanununda təsbit edilmiş bir cinayətə görə təkrarən məhkum etməyə yol verilməməsini əks etdirən non bis in idem prinsipi yalnız şəxsin eyni bir cinayət əməlinə görə təkrar məhkum edilməsinin və cəzalandırılmasının qarşısını alan qayda kimi dar mənada təfsir olunmur.

Bu prinsip həm də cinayət-hüquqi əhəmiyyəti olan eyni bir halın iki dəfə, həm cinayətin tövsifi zamanı, həm də cəza təyin edilməsi zamanı nəzərə alınmasını istisna edir. Belə ki, bu prinsip hər hansı bir cinayət-hüquqi xarakterli tədbirin cinayət əməlinə hüquqi qiymət verilərkən təkrarən tətbiq olunmasına qadağa qoyur.

Qeyd olunan prinsipin yuxarıda göstərilən əlamətlərindən bəziləri Azərbaycan Respublikasının

cinayət qanunvericiliyində də öz əksini tapmışdır. Belə ki, Cinayət Məcəlləsinin 61.3-cü maddəsinə əsasən, bu Məcəllənin Xüsusi hissəsinin müvafiq maddəsində cinayət tərkibinin əlaməti kimi nəzərdə tutulmuş cəzanı ağırlaşdıran hal cəza təyin edilərkən təkrar nəzərə alına bilməz.

Lakin vurğulamaq lazımdır ki, cinayətkar fəaliyyətə cəlb etmə Cinayət Məcəlləsinin 170.1-ci maddəsinin dispozisiyasında göstərilmiş üsullardan (aldatma, vədlər vermə, hədə-qorxu) və 170.3-cü maddədə göstərilən "zor tətbiq etməklə və ya zor tətbiq etmək hədəsi ilə" kimi tövsifedici əlamətlərdən fərqli üsullarla həyata keçirilə bilər ki, (məsələn, qisas və ya paxıllıq hissinin oyadılması, cinayətkar həyat tərzinin romantikləşdirilməsi və s.) bu zaman 170-ci maddə üzrə cinayət tərkibi yaranmadığından, şəxs müvafiq cinayət əməlinə görə məsuliyyətə cəlb edilərkən Cinayət Məcəlləsinin 61.1.5-ci maddəsinin tətbiqi mümkün olacaqdır.

Həmçinin, Cinayət Məcəlləsinin 61.1.5-ci maddəsində nəzərdə tutulan "cinayət törətməyə cəlb olunma" ifadəsi həmin Məcəllənin 170.1-ci maddəsindəki "cinayətkar fəaliyyətə cəlb etmə" əlamətindən məzmunca daha genişdir.

Belə ki, "yetkinlik yaşına çatmayanı cinayətkar fəaliyyətə cəlb etmə" ifadəsi Cinayət Məcəlləsinin 170-ci maddəsində göstərilən üsullarla yetkinlik yaşına çatmayan şəxsdə hər hansı cinayətin törədilməsinə istək və qətiyyətin yaradılması məqsədilə sövq edilməsini ehtiva etdiyi halda, həmin Məcəllənin 61.1.5-ci maddəsi göstərilənlərlə yanaşı, həm də müvafiq istək formalaşdırmadan da yetkinlik yaşına çatmayanın cinayətə bu və ya başqa şəkildə cəlb olunmasını ehtiva edir.

Bu halda Cinayət Məcəlləsinin 170-ci maddəsi üzrə cinayət tərkibi yaranmadığından, konkret cinayət əməlinin cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmayanın cəlb edilməsi ilə törədilməsi cəzanı ağırlaşdırıcı hal kimi nəzərə alınacaqdır.

Şərh olunan məsələ ilə əlaqədar o da nəzərə alınmalıdır ki, Cinayət Məcəlləsinin 32.2-ci maddəsinə əsasən, cinayəti bilavasitə törətmiş və ya başqa şəxslərlə birlikdə onun törədilməsində bilavasitə iştirak etmiş şəxs (birgə icraçılıq), eləcə də bu Məcəllə ilə nəzərdə tutulmuş hallarda cinayət məsuliyyətinə cəlb edilə bilməyən şəxslərdən istifadə etməklə cinayəti törətmiş şəxs icraçı sayılır.

Lakin bu halda yetkinlik yaşına çatmış şəxsin müvafiq cinayətin icraçısı hesab edilməsi, onu Cinayət Məcəlləsinin 170-ci maddəsində göstərilən əmələ görə məsuliyyətdən azad etmir. Belə ki, göstərilən maddə ilə qorunan ictimai münasibətlərə qəsd edən təqsirli əməl cinayət-hüquqi qiymətini almalı, bununla da cinayət hüququnun qanunçuluq, ədalət, təqsirə görə məsuliyyət və cəzanın qaçılmazlığı prinsipləri təmin edilməlidir.

Beləliklə, cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmayan şəxsi müvafiq üsullarla cinayətkar fəaliyyətə cəlb etmiş şəxs Cinayət Məcəlləsinin 170-ci maddəsi ilə yanaşı, cinayət məsuliyyəti daşımayan yetkinlik yaşına çatmayan şəxsdən cinayətin törədilməsində vasitə kimi istifadə etdiyindən, həmin cinayətin icraçısı kimi məsuliyyət daşıyır və onun əməli cinayətlərin məcmusu üzrə tövsif olunur.

Cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatan yetkinlik yaşına çatmayan şəxsi müvafiq üsullarla cinayətkar fəaliyyətə təhrik edən yetkinlik yaşına çatan şəxs Cinayət Məcəlləsinin 170-ci maddəsi ilə yanaşı, həm də törədilən konkret cinayətin iştirakçısı sayılır (maddə 32.4) və onun əməli cinayətlərin məcmusu üzrə tövsif olunur.

O da qeyd edilməlidir ki, Cinayət Məcəlləsinin 170-ci maddəsi ilə müəyyən edilmiş cinayət əməlinə görə cinayət məsuliyyətinə cəlb etmə müddəti ötürüldükdə, digər cinayətə görə cəza təyin edildikdə də həmin Məcəllənin 61.1.5-ci maddəsi tətbiq olunacaqdır.

Nəzərə alınmalıdır ki, Cinayət Məcəlləsinin 170-ci maddəsində təsbit edilmiş əməl hər bir halda onu törədən şəxsin fiziki və ya psixoloji təsir ilə müşayiət olunan aktiv hərəkətləri nəticəsində və təqsirkar şəxs üçün aşkar surətdə yetkinlik yaşına çatmayana qarşı törədilir. Yetkinlik yaşına çatan şəxsin yetkinlik yaşına çatmayanla birlikdə cinayət əməlinin törədilməsində iştirak etməsi faktı isə özü-özlüyündə həmin Məcəllənin 170-ci maddəsi ilə nəzərdə tutulmuş cinayətin tərkibini yaratmır.

Göstərilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticəyə gəlir:

– Konstitusiyanın 17-ci maddəsinin IV və VI hissələrinin hüquqi mahiyyəti və təyinatı baxımından Cinayət Məcəlləsinin 170-ci maddəsində əks olunan "yetkinlik yaşına çatmayan" ifadəsi cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatıb-çatmamasından asılı olmayaraq, 18 yaşına çatmayan hər bir şəxsi ehtiva edir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu **qərara aldı:**

**1.** Azərbaycan Respublikası Konstitusiyasının 17-ci maddəsinin IV və VI hissələrinin hüquqi mahiyyəti və təyinatı baxımından Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 170-ci maddəsində əks olunan "yetkinlik yaşına çatmayan" ifadəsi cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatıb-çatmamasından asılı olmayaraq, 18 yaşına çatmayan hər bir şəxsi ehtiva edir.

**2.** Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**3.** Qərar Azərbaycan Respublikasının rəsmi dövlət qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi internet saytında yerləşdirilsin.

**4.** Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr Fərhad ABDULLAYEV**

**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU**

**Ə M R**
**№ 150/51**

**Azərbaycan Respublikası Baş prokurorunun 14 sentyabr 2020-ci il tarixli 15/2 nömrəli əmri ilə təsdiq edilmiş Bakı şəhər prokurorluğunun "İşin Təşkili Qaydaları"nda dəyişiklik edilməsi haqqında**

**06 aprel 2024-cü il** **Bakı şəhəri**

Azərbaycan Respublikası Baş Prokurorluğunun Kollegiyasının 30 iyul 2020-ci il tarixli 02 nömrəli qərarı ilə təsdiq edilərək Azərbaycan Respublikası Baş prokurorunun 30 iyul 2020-ci il tarixli 10/82 nömrəli əmri ilə icraya yönəldilmiş Azərbaycan Respublikası Baş Prokurorluğunun "İşin Təşkili Qaydaları"nda Azərbaycan Respublikası Baş Prokurorluğunun Kollegiyasının 26 dekabr 2023-cü il tarixli 04 nömrəli qərarı ilə təsdiq edilmiş dəyişikliklərə uyğun olaraq Bakı şəhər prokurorluğunun "İşin Təşkili Qaydaları"nda dəyişikliklərin edilməsi zərurəti yaranmış və Baş Prokurorluq üzrə 29 dekabr 2023-cü il tarixli 150/47 nömrəli əmrin 3-cü bəndinin icrası ilə əlaqədar Bakı şəhər prokurorluğu tərəfindən müvafiq layihə hazırlanaraq təsdiq olunması üçün Azərbaycan Respublikasının Baş Prokurorluğuna təqdim edilmişdir.

Qeyd olunanlara əsasən, "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** Azərbaycan Respublikası Baş prokurorunun 14 sentyabr 2020-ci il tarixli 15/2 nömrəli əmri ilə təsdiq edilərək icraya yönəldilmiş Bakı şəhər prokurorluğunun "İşin Təşkili Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 4.2-ci bəndin ikinci cümləsində "surəti" sözündən sonra "elektron qaydada" sözləri əlavə edilsin;

**1.2.** 6.3-cü bəndin birinci cümləsində "Elektron cinayət" proqramının imkanlarından istifadə etməklə" sözləri "EPİS-in müvafiq modulları vasitəsilə" sözləri ilə əvəz edilsin;

**1.3.** 6.4-cü, 6.5-ci və 6.10-cu bəndlərdə "rəhbərliyi" sözü "nəzarəti" sözü ilə əvəz edilsin;

**1.4.** aşağıdakı məzmunda 6.15-ci bənd əlavə edilsin:

**"6.15.** Şöbəyə bilavasitə daxil olan, yaxud şöbə prokurorları tərəfindən cinayət işlərinin və ya araşdırma materiallarının öyrənilməsi zamanı, habelə istintaq hərəkətlərinin aparılmasında iştirak edərkən vəzifəli şəxslər tərəfindən işgəncə, işgəncə hesab olunmayan qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəza tətbiq edilməsinə dair aşkar olunan məlumatlar Bakı şəhər prokurorunun aidiyyəti müavini vasitəsilə Bakı şəhər prokuroruna məruzə edilməklə həmin məlumatların araşdırılması üçün təxirə salınmadan Xidməti araşdırmalar idarəsinə verilməsi məqsədilə Baş Prokurorluğun Sənədlərlə və müraciətlərlə işin təşkili idarəsinə göndərilir.";

**1.5.** 7.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

**"7.3.** İnsan hüquq və azadlıqlarına hörmət edilməsini təmin edir, onların pozulmasının, o cümlədən işgəncə, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar, vəzifədən sui-istifadə və digər bu kimi halların qarşısının alınması üçün tədbirlər görür, daxili işlər orqanlarının vəzifəli şəxsləri tərəfindən işgəncə, işgəncə hesab olunmayan qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəza tətbiq edilməsi barədə məlumat daxil olduqda, Bakı şəhər prokurorunun aidiyyəti müavini vasitəsilə Bakı şəhər prokuroruna məruzə edilməklə həmin məlumatların araşdırılması üçün təxirə salınmadan Xidməti araşdırmalar idarəsinə verilməsi məqsədilə Baş Prokurorluğun Sənədlərlə və müraciətlərlə işin təşkili idarəsinə göndərilməsini təmin edir.";

**1.6.** 7.20-ci bəndə və 26.1.6-cı yarımbəndin birinci cümləsinə "qətimkan tədbirinin" sözlərindən sonra "müddətinin" sözü əlavə edilsin;

**1.7.** 7.29-cu bənddə "bu sahədə prosessual rəhbərliyi" sözləri "bu sahədə prosessual nəzarəti" sözləri ilə əvəz edilsin;

**1.8.** 9.1-ci, 9.4-cü, 9.6-cı və 9.8-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

**"9.1.** Bakı şəhər prokurorluğuna daxil olmuş sənədlərin qeydiyyatı, dövriyyəsi və kargüzarlığın aparılması işini kağız və elektron formada təşkil edir və bu sahədə fəaliyyətin qanunvericiliyin tələblərinə uyğun həyata keçirilməsini təmin edir. Bakı şəhər prokurorluğunda sənədlər və müraciətlərlə işi təşkil edir və bu işə nəzarəti həyata keçirir.

**9.4.** Kargüzarlıq haqqında qaydaların tələblərinə müvafiq olaraq sənədlərin qəbulunu, ilkin işlənməsini, EPİS-də qeydiyyatını, çeşidlənməsini və elektron qaydada aidiyyəti üzrə göndərilməsini, sənədlərin əsllərinin isə (prosessual və digər zəruri sənədlər, o cümlədən cinayət işləri və materiallar istisna olmaqla) Sənədlərlə və müraciətlərlə işin təşkili şöbəsinin Dəftərxana və arxiv sektoruna təhvil verilməsini təmin edir.

**9.6.** Daxil olmuş sənədlərin EPİS-də qeydiyyatını həyata keçirir və avtomatlaşdırılmış mesaj sistemi vasitəsilə vətəndaşlara müraciətlərinin dövriyyəsinə dair məlumat verir.

**9.8.** Müraciətlərin öyrənilməsi, habelə vətəndaşların qəbulu ilə əlaqədar EPİS vasitəsilə və ya Bakı şəhər prokurorluğunun struktur qurumlarından və tabe prokurorluqlardan müvafiq nəzarət icraatlarını, arayışları və digər zəruri sənədləri tələb etməklə öyrənir, aşkar etdiyi süründürməçilik və digər pozuntu hallarını məruzə edir.";

**1.9.** 9.12-ci bənddə "göndərilməsini," sözündən sonra "icrasına nəzarəti," sözləri əlavə edilsin;

**1.10.** 12.2-ci bəndin birinci cümləsində "vahid reyestri" sözləri "EPİS-də vahid elektron reyestri" sözləri ilə əvəz edilsin;

**1.11.** 13.2-ci bənddə "bir qayda olaraq, elektron formada" sözləri "EPİS vasitəsilə" sözləri ilə əvəz edilsin;

**1.12.** 14.5-ci bənddə "bir qayda olaraq, elektron," sözləri "EPİS vasitəsilə," sözləri ilə əvəz edilsin;

**1.13.** 14.7-ci bənddə "Elektron cinayət" proqramından istifadə edilməklə" sözləri "EPİS-in müvafiq modulları vasitəsilə" sözləri ilə əvəz edilsin;

**1.14.** 14.8-ci bənd aşağıdakı redaksiyada verilsin:

**"14.8.** Cinayət işləri və cinayət xarakterli materiallar üzrə prosessual və digər sənədlər EPİS-in müvafiq modulları vasitəsilə tərtib edilir, imzalanır və çap edilir.";

**1.15.** 14.8.1-ci, 14.8.2-ci və 14.8.3-cü yarımbəndlər ləğv edilsin;

**1.16.** 15.1-ci bənddə "Elektron cinayət" proqramının imkanlarından istifadə etməklə nəzarət edilir." sözləri "EPİS-in müvafiq modullarından istifadə edilməklə real vaxt rejimində nəzarət edilir." sözləri ilə əvəz edilsin;

**1.17.** 15.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

**"15.2.** EPİS-in müvafiq modulları vasitəsilə cinayət işi, eləcə də törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumatlara baxılması zamanı qəbul edilmiş qərarların qanuniliyi və əsaslılığı yoxlanılır:

**15.2.1.** cinayət işi və ya material üzrə ibtidai araşdırmanın qeyri-obyektiv və ya tam və hərtərəfli aparılmaması barədə müraciət daxil olduqda;

**15.2.2.** cinayət işinin ibtidai istintaq müddətinin uzadılması barədə vəsatət və təqdimat daxil olduqda;

**15.2.3.** müstəntiqin cinayət işi üzrə həbsdə saxlanılma müddətinin uzadılması barədə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorla razılaşdırılmış vəsatəti daxil olduqda;

**15.2.4.** cinayət işi və ya materialın araşdırılması Bakı şəhər prokurorluğunun və Baş Prokurorluğun rəhbərliyi tərəfindən nəzarətə götürüldükdə;

**15.2.5.** ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora verilmiş etiraza baxılarkən;

**15.2.6.** ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təşəbbüsü və ya Baş prokurorun, Baş prokurorun birinci müavinin, Baş Prokurorluğun Prokurorluqda istintaqa nəzarət idarəsi rəisinin, Bakı şəhər prokuroru, Bakı şəhər prokurorunun müavini və şöbə rəisinin müvafiq göstərişi olduqda.";

**1.18.** 15.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

**"15.4.** İcraatına xitam verilmiş və icraatı dayandırılmış cinayət işləri EPİS-in "İstintaq" modulundan istifadə edilməklə öyrənilir, qəbul edilmiş xitam və dayandırma qərarlarının qanuniliyi və əsaslılığı yoxlanılır, qanunsuz və ya əsassız qərar qəbul olunduğu müəyyən edildiyi halda, həmin qərarın ləğv edilməsi və əlavə araşdırma aparılması üçün müvafiq qərar layihəsi EPİS vasitəsilə hazırlanır və Bakı şəhər prokuroru (o cümlədən bu sahə üzrə məsul olan müavini) tərəfindən elektron imza ilə imzalandıqdan sonra tabe prokurorluğa elektron qaydada göndərilir;";

**1.19.** 15.5-ci bənddə "şöbə prokuroru və şöbə rəisi tərəfindən imzalanmaqla rəy tərtib edilir və həmin rəy PDF formatında" sözləri "elektron qaydada rəy tərtib edilməklə" sözləri ilə əvəz edilsin;

**1.20.** 15.7-ci bəndin birinci cümləsində "Elektron cinayət" proqramındakı" sözləri "EPİS-in müvafiq modullarındakı" sözləri ilə, ikinci cümləsində "Elektron cinayət" proqramında" sözləri "EPİS-in müvafiq modullarında" sözləri ilə əvəz edilsin;

**1.21.** 16.3-cü bənddə "Elektron Cinayət" proqramından" sözləri "EPİS-in müvafiq modullarından" sözləri ilə əvəz edilsin;

**1.22.** 17.2-ci bənddə "Elektron Cinayət" proqramı" sözləri "EPİS-in müvafiq modulları" sözləri ilə əvəz edilsin;

**1.23.** 19.1-ci bənddən "Bakı şəhər prokurorunun müavini və ya" sözləri çıxarılsın;

**1.24.** 20.1-ci bəndin üçüncü və dördüncü cümlələri çıxarılsın;

**1.25.** 20.2-ci bənd ləğv edilsin;

**1.26.** 22.13-cü bənd aşağıdakı redaksiyada verilsin:

**"22.13.** İbtidai araşdırma zamanı vəzifəli şəxslər tərəfindən işgəncə, işgəncə hesab olunmayan qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəza tətbiq edilməsi barədə daxil olmuş müraciətlərin araşdırılması üçün, belə hallar rayon prokurorluqlarında istintaqı aparılan cinayət işi üzrə araşdırma zamanı aşkar edildikdə isə müvafiq materialların ayrılaraq Bakı şəhər prokurorunun aidiyyəti müavini vasitəsilə Bakı şəhər prokuroruna məruzə edilməklə həmin məlumatların araşdırılması üçün təxirə salınmadan Xidməti araşdırmalar idarəsinə verilməsi məqsədilə Baş Prokurorluğun Sənədlərlə və müraciətlərlə işin təşkili idarəsinə göndərilməsinə nəzarət edir.";

**1.27.** 23.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

**"23.3.** Xarici dövlətin müvafiq orqanına göndəriləcək ekstradisiya müraciətinə Azərbaycan Respublikası Baş Prokurorluğunun "İşin Təşkili Qaydaları"nın 178.4.1-ci bəndində göstərilən sənədlər (gerbli möhürlə təsdiqlənməklə, Azərbaycan dilində və müvafiq xarici dildə) əlavə edilir.";

**1.28.** 23.7-ci bənddə "Azərbaycan Respublikası hüquq mühafizə orqanlarının" sözləri "Tabe rayon prokurorluqlarının" sözləri ilə əvəz edilsin, "daxil olmuş" sözlərindən sonra "və icraatı rayon prokurorluqlarında aparılan" sözləri əlavə edilsin;

**1.29.** 24.3-cü və 29.2-ci (ikinci halda) bəndlərdən "pul vəsaitlərinin və ya digər" sözləri çıxarılsın;

**1.30.** 25.2.7-ci və 25.2.8-ci yarımbəndlərə "ev dustaqlığı" sözlərindən sonra "qətimkan" sözü əlavə edilsin;

**1.31.** 25.2.24-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

**"25.2.24.** idarə prokuroru cinayət işlərinin və ya araşdırma materiallarının öyrənilməsi zamanı, habelə istintaq hərəkətlərinin aparılmasında iştirak edərkən daxili işlər orqanlarının vəzifəli şəxsləri tərəfindən işgəncə, işgəncə hesab olunmayan qəddar, qeyri- insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəza tətbiq edilməsi barədə məlumat aşkar etdikdə, Bakı şəhər prokurorunun aidiyyəti müavini vasitəsilə Bakı şəhər prokuroruna məruzə edilməklə həmin məlumatların araşdırılması üçün təxirə salınmadan Xidməti araşdırmalar idarəsinə verilməsi məqsədilə Baş Prokurorluğun Sənədlərlə və müraciətlərlə işin təşkili idarəsinə göndərilməsini təmin edir.";

**1.32.** 33.2-ci və 33.3-cü bəndlər aşağıdakı redaksiyada verilsin:

**"33.2.** Cinayət işləri üzrə beynəlxalq istintaq tapşırıqlarının göndərilməsi zərurəti yarandıqda, müstəntiq tərəfindən hüquqi yardımın göstərilməsinə dair tərtib edilən sorğunun və ona əlavə edilən sənədlərin Baş Prokurorluğun "İşin Təşkili Qaydaları"nın 177.1-ci bəndinə uyğun olmasına idarə tərəfindən nəzarət edilməklə, sənədlər idarə rəisinin müşayiət məktubu ilə sorğu edilən dövlət qarşısında məsələ qaldırılması üçün Baş Prokurorluğun Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinə göndərilir.

**33.3.** Xarici dövlətin müvafiq orqanına göndəriləcək ekstradisiya müraciətinə Baş Prokurorluğun "İşin Təşkili Qaydaları"nın 178.4.1-ci yarımbəndində göstərilən sənədlər (gerbli möhürlə təsdiqlənməklə, Azərbaycan dilində və müvafiq xarici dildə) əlavə edilir.";

**1.33.** 33.7-ci bənddə "Azərbaycan Respublikası hüquq mühafizə" sözləri "Daxili işlər" sözləri ilə əvəz edilsin;

**1.34.** 33.8-ci bənddə "istintaq orqanı" sözləri "rayon prokurorluqları" sözləri ilə əvəz edilsin;

**1.35.** 34.11-ci bənddə "hər rüb üzrə" sözləri "yarımillik" sözü ilə əvəz edilsin;

**1.36.** 38.1.1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

**"38.1.1.** nəzarətə götürülmüş sənədlərə EPİS vasitəsi ilə müvafiq olaraq "xüsusi nəzarətdədir", "nəzarətdədir" statusları müəyyən olunur.";

**1.37.** 39.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

**"39.2.** Müəyyən edilmiş müddət ərzində nəzarətə götürülmüş sənəd və tapşırıqlar icra olunduqda onların nəzarətdən çıxarılması və yaxud nəzarətə götürülmüş sənədlərin və tapşırıqların müəyyən edilmiş müddətlərdə icrası qeyri-mümkün olduğu hallarda icra müddətinin uzadılması məsələsi Bakı şəhər prokuroru tərəfindən nəzarətə götürülən sənəd və tapşırıqlara münasibətdə Bakı şəhər prokurorluğunun idarə, şöbə rəislərinin, şəhər prokurorunun aidiyyəti müavinləri ilə razılaşdırılmış arayışı əsasında Bakı şəhər prokuroru tərəfindən, Bakı şəhər prokurorunun müavinlərinin nəzarətə götürdüyü sənəd və tapşırıqlar üzrə isə Bakı şəhər prokurorluğunun struktur qurumları rəhbərlərinin arayışı əsasında Bakı şəhər prokurorunun aidiyyəti müavinləri tərəfindən həll edilməklə bütün hallarda müvafiq arayışların bir nüsxəsi elektron qaydada Təşkilat və icraya nəzarət şöbəsinə göndərilir. Nəzarətə götürülmüş müraciət müvafiq arayışlarla onu nəzarətə götürən Bakı şəhər prokuroruna və ya müavinlərinə məruzə olunduqdan sonra həmin gün və yaxud növbəti iş günündən gec olmayaraq müraciət müəllifinə cavab məktubunun göndərilməsi təmin olunmalıdır.";

**1.38.** 39.3-cü və 39.6-cı bəndlər ləğv edilsin;

**1.39.** 39.10-cu və 39.12-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

**"39.10.** Bakı şəhər prokuroru tərəfindən nəzarətə götürülmüş tapşırıqlar məruzədən sonra nəzarətdən çıxarılmadığı hallarda, şöbə tərəfindən nəzarətin son məruzəyə qədər həyata keçirilməsi təmin olunur.

**39.12.** Bakı şəhər prokuroru tərəfindən nəzarətə götürülmüş sənədlərin və tapşırıqların müəyyən edilmiş icra müddətləri ərzində tam həcmdə yerinə yetirilməsinin mümkün olmadığı, icra ilə əlaqədar əlavə məsələlərin həllinə zərurət ortaya çıxdığı, habelə qeyd olunan sənədlərin cinayət təqibi, inzibati xəta haqqında iş üzrə icraat materiallarına əlavə olunmaqla araşdırıldığı hallarda Bakı şəhər Prokurorluğunun əlaqədar struktur qurumları tərəfindən həmin sənəd və tapşırıqların icra vəziyyəti Bakı şəhər prokurorunun aidiyyəti müavinləri ilə razılaşdırılmaqla şəhər prokuroruna məruzə olunur və bu barədə Təşkilat və icraya nəzarət şöbəsinə məlumat verilir. Nəzərdə tutulan bütün məsələlər həll olunduqdan sonra əlaqədar struktur qurumlar sənəd və tapşırıqların icrasını yenidən məruzə edərək onların nəzarətdən çıxarılmasını təmin edirlər." ;

**1.40.** 39.13-cü və 39.14-cü bəndlərdə "üzərində Bakı şəhər prokurorunun dərkənarı olan" sözləri "müvafiq" sözü ilə əvəz edilsin;

**1.41.** aşağıdakı məzmunda 39-1-ci bənd əlavə edilsin:

**"39-1.** Nəzarətə götürülmüş sənədlərin icrasına nəzarət

**39-1.1.** Nəzarətdə olan sənədlərin icrasına görə prokurorluqların və struktur qurumların rəhbərləri məsuliyyət daşıyırlar. Sənədlərin icrasına bilavasitə nəzarət onları icra edən qurumların kargüzarlıq xidmətləri tərəfindən təmin edilir.

**39-1.2.** Bakı şəhər prokurorunun və onun müavinlərinin nəzarətə götürdüyü sənədlərin icra edilməsinə nəzarət Bakı şəhər prokurorluğunun Təşkilat və icraya nəzarət şöbəsi tərəfindən həyata keçirilir.

**39-1.3.** Təşkilat və icraya nəzarət şöbəsi EPİS-in "RİM Nəzarət hesabatı" modulundan istifadə etməklə nəzarətə götürülmüş sənədlərin icrasını nəzarətdə saxlayır, sənədlərin icrasını, habelə məruzə edilməsini gecikdirən struktur qurumlar və şəxslər barədə nəzarətə götürmüş şəxsə məlumat verir. Kobud və ya davamlı nöqsanlar aşkar etdikdə həmin struktur qurumda işin təşkili vəziyyətinin yoxlanılması barədə, konkret icraçıların barəsində isə xidməti yoxlamanın aparılması barədə Bakı şəhər prokuroru Baş prokuror qarşısında məsələ

qaldırır. Şöbə prokuroru təsdiq edilmiş vəzifə bölgüsünə uyğun olaraq EPİS-in "RİM nəzarət hesabatı" modulu vasitəsilə icraya nəzarəti həyata keçirərək mütəmadi olaraq məsul icraçı ilə əlaqə saxlamaqla icra vəziyyətini öyrənir, icra müddətinin pozuntusu halını aşkar etdikdə dərhal şöbə rəisini məlumatlandırır, yekun məruzəyə qədər nəzarəti həyata keçirir." ;

**1.42.** 41.7.1-ci və 41.8.7-ci yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

**"41.7.1.** "Xüsusi məlumatların verilməsi nəzərdə tutulan hadisələrin və cinayətlərin Siyahısı"ndakı fövqəladə hadisələr və cinayətlər barədə dərhal qeydiyyat aparmalı və hadisə barədə birbaşa tabe olduqları prokurorlara məlumat verməklə müvafiq məlumatları, hadisə yerlərinin və əhəmiyyət daşıyan predmetlərin fotoşəkilləri də daxil olmaqla, EPİS-in "Cinayət xəritəsi" moduluna yükləməli;

**41.8.7.** növbənin əvvəlində EPİS-in "Cinayət xəritəsi" moduluna daxil olmalı, növbə ərzində daxil olan informasiyanı işləməli, yaddaşa yazmalı və saxlamalı, növbənin sonunda EPİS-in "Cinayət xəritəsi" moduluna növbə ərzində daxil olmuş məlumat əsasında sistemdə formalaşmış informasiya məhsulunun çap və ya elektron formasını Bakı şəhər prokuroruna, onun müavinlərinə, idarə və şöbə rəislərinə verməli;";

**1.43.** 41.8.1-ci yarımbənddə "Xüsusi məlumat" informasiya sisteminə" sözləri "EPİS-in "Cinayət xəritəsi" moduluna" sözləri ilə əvəz edilsin;

**1.44.** 41.8.8-ci yarımbənd və 43-cü bənd ləğv edilsin;

**1.45.** 41.8.10-cu yarımbənddə hər iki halda "Xüsusi məlumat" informasiya sisteminə" sözləri "EPİS-in "Cinayət xəritəsi" moduluna" sözləri ilə əvəz edilsin;

**1.46.** 45.3-cü, 45.4-cü, 45.8-ci bəndlər və 45.6.6-cı yarımbənd ləğv edilsin;

**1.47.** 45.7-ci bənd aşağıdakı redaksiyada verilsin:

**"45.7.** Prokurorluq işçilərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi zamanı komissiya və ya işçi qrupunun üzvləri, təhvil verən və təhvil alan prokurorluq işçiləri tərəfindən EPİS-də təsdiq edilən və Bakı şəhər prokurorluğu və şəhərin rayon prokurorluqları üzrə Bakı şəhər prokuroru tərəfindən imzalanan elektron formatlı təhvil- təslim aktı tərtib edilir və surəti elektron qaydada Təşkilat və icraya nəzarət şöbəsinə göndərilir.";

**1.48.** 51.1-ci bəndin ikinci və üçüncü cümlələri aşağıdakı redaksiyada verilsin:

"Sənədlərin qəbulu, ilkin qeydiyyatı, EPİS-ə daxil edilməsi, çeşidlənməsi, Dəftərxana və arxiv sektoruna verilməsi, zəruri hallarda isə sənədlərin kağız formasında icraçılara çatdırılması dəftərxana işçiləri tərəfindən həyata keçirilir. Sənədlər Bakı şəhər prokurorluğuna daxil olduğu gün EPİS-də qeydiyyata alınaraq icraya yönəldilməsi təmin edilir." ;

**1.49.** 51.3-cü və 51.4-cü bəndlərin birinci cümlələrində və 51.5-ci bənddə ismin müvafiq hallarında "Sənədlər" sözü ismin müvafiq hallarında "Kağız formatında olan sənədlər" sözləri ilə əvəz edilsin;

**1.50.** 51.6-cı bənd aşağıdakı redaksiyada verilsin:

**"51.6.** Baş prokurorun əmr, sərəncam və göstərişləri, təşkilati xarakterli digər sənədlər, habelə şəhər prokurorunun əmr, sərəncam və göstərişləri zəruri hallarda kağız formasında tanış olunmaq üçün verildiyi zaman işçilər sənədlərin özündə və ya tanış olma barədə ayrıca vərəqədə imza edirlər.";

**1.51.** 52.8-ci bəndin birinci cümləsində "sənədlərin" sözü "sənədlər EPİS vasitəsilə qeydiyyata alınır və ya zəruri hallarda həmin sənədlərin" sözləri ilə əvəz edilsin;

**1.52.** 53.1-ci və 53.4-cü bəndlər aşağıdakı redaksiyada verilsin:

**"53.1.** Bakı şəhər prokurorluğuna daxil olan sənədlər EPİS-də (zəruri hallarda isə əvvəlcə müvafiq qeydiyyat kitablarında) qeydiyyata alınır. Struktur qurumları olan prokurorluq orqanının kargüzarlıq xidməti tərəfindən Bakı şəhər prokurorluğuna kağız formatda verilmiş sənədlər həmçinin Bakı şəhər prokurorluğunun qeydiyyat kitablarında qeydiyyata alınır.

**53.4.** Hər bir sənəd Bakı şəhər prokurorluğunda ancaq bir dəfə qeydə alınır. Daxil olan sənədlər onların Bakı şəhər prokurorluğuna daxil olduğu gün EPİS-də qeydiyyata alınır və icraya yönəldilir. Göndərilən və daxili sənədlər isə EPİS-də tərtib edilir, imzalandıqdan və ya təsdiq edildikdən sonra EPİS-dən istifadə etməklə elektron qaydada və ya kağız formasında çap edilərək Bakı şəhər prokurorluğunun ekspedisiyası vasitəsilə aidiyyəti üzrə göndərilir.";

**1.53.** 53.2.1-ci yarımbənddən ", o cümlədən nəzarətdə olan müraciətlərin qeydiyyatı kitabı" sözləri çıxarılsın;

**1.54.** 53.2.3-cü yarımbənd ləğv edilsin;

**1.55.** 53.5-ci bənddə "ilk növbədə verilir" sözləri "EPİS-də ilk növbədə qeydiyyata alınır və icraya yönəldilir" sözləri ilə əvəz edilsin;

**1.56.** 56.2-ci bənddə "Daxil olan" sözləri "Kağız formatda daxil olan" sözləri ilə əvəz edilsin, "icraçılara" sözündən sonra "zəruri hallarda" sözləri əlavə edilsin;

**1.57.** 56.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

**"56.4.** Kağız formatda verilməli olan sənədin icrası bir neçə idarə, şöbə və ya vəzifəli şəxsə həvalə olunduqda, dərkənara əsasən sənədlərin surətlərinin çıxarılması və bütün icraçılara təqdim edilməsi dəftərxana tərəfindən həyata keçirilir. İcraçılar arasında birinci göstərilmiş şəxs (və ya ayrıca göstərilmiş məsul icraçı) sənədin əsas icraçısı olmaqla digər icraçılarla əlaqəli şəkildə ilkin cavabların göndərilməsini, zəruri hallarda icra müddətlərinin uzadılmasını, yoxlamanın nəticələri barədə yekun arayışlar təqdim olunmasını və mahiyyəti üzrə cavab verilməsini təmin edir. Əsas icraçı sənədin icrası ilə əlaqədar rəhbərliyə məlumat üçün EPİS-də hazırlanmış arayışı digər icraçı (icraçılar) ilə razılaşdırmalıdır. Digər icraçı (icraçılar) arayışla razı olmadıqda, EPİS vasitəsilə ayrıca arayış tərtib edir və rəhbərliyə məlumat üçün göndərir.";

**1.58.** 56.5-ci bəndin birinci cümləsinə "göstərişi əsasında" sözlərindən sonra "EPİS-də və ya" sözləri, üçüncü cümləsinə "bu barədə" sözlərindən sonra "EPİS-də və ya" sözləri əlavə edilsin;

**1.59.** 56.6-cı bəndin birinci cümləsində "Sənəd" sözü "Kağız formatda sənəd" sözləri ilə əvəz edilsin;

**1.60.** 56.7-ci bəndə "tərəfindən" sözündən sonra "elektron qaydada" sözləri əlavə edilsin;

**1.61.** 56.8-ci, 56.9-cu və 56.10-cu bəndlər ləğv edilsin;

**1.62.** 58-ci bəndin adı və 58.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"Kağız formatda dövriyyəsi aparılan sənədlərin icrasına nəzarət

**58.1.** Sənədlərin icrasına nəzarəti şəhər prokurorluğunun struktur qurumlarının rəhbərləri EPİS vasitəsilə həyata keçirirlər. Kağız formasında verilən sənədlərin icrasına bilavasitə nəzarət onları icra edən qurumların dəftərxanası tərəfindən təmin edilir. Bakı şəhər prokurorluğunun rəhbərliyinin nəzarətində olan sənədlərin icrasına nəzarət həmin sənədləri icra edən struktur qurumların rəhbərləri, habelə nəzarət xidməti funksiyasını icra edən Təşkilat və icraya nəzarət şöbəsi, tabe rayon prokurorlarının nəzarətində olan sənədlərin icrasına bilavasitə nəzarət EPİS vasitəsilə müvafiq rəhbər şəxslər, kağız formasında icraya verildiyi zaman isə həmin qurumların kargüzarlıq xidmətləri tərəfindən həyata keçirilir.";

**1.63.** 58.7-ci, 58.8-ci, 58.10-cu və 58.12-ci bəndlər ləğv edilsin;

**1.64.** 69.3-cü bəndə "qəbuldan"," sözündən sonra "şəxsi qəbuldan" sözləri əlavə edilsin.";

**1.65.** aşağıdakı məzmunda 70.10-cu bənd əlavə edilsin:

**"70.10.** Prokurorluq orqanlarında məxfi kargüzarlıq işinin qanunvericiliklə müəyyən edilmiş qaydada təşkili və tətbiqinə, o cümlədən məxfi sənədlərin icra vəziyyətinə nəzarət Sənədlərlə və müraciətlərlə işin təşkili şöbəsinin dəftərxana və arxiv sektoru tərəfindən aparılır." ;

**1.66.** 72.2-ci, 72.4-cü, 72.5-ci, 72.6-cı və 72.8-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

**"72.2.** "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununun 6-cı maddəsi ilə müəyyən edilmiş tələblərə cavab verən yazılı və şifahi formatda daxil olan müraciətlər Bakı şəhər prokurorluğu tərəfindən qəbul edilməli və daxil olduğu gün Bakı şəhər prokurorluğunda birbaşa olaraq EPİS-də, tabe prokurorluqlarda isə əvvəlcə müraciətlərin qeydiyyatı kitabında, daha sonra isə EPİS-də qeydiyyata alınmalıdır.";

**72.4.** Prokurorluq orqanlarında sənədlər Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15.09.2022-ci il tarixli 350 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və dövlət adından yaradılan publik hüquqi şəxslər və komissiyalar üçün müəyyən edilmiş vahid indekslərin Siyahısı"nda qeyd olunan qaydalara uyğun formada qeydiyyata alınır.

**72.5.** Bakı şəhər prokurorluğunun indeksləri aşağıdakılardır:

**72.5.1.** 2-2-300 Bakı şəhər prokurorluğunun rəhbərliyi, böyük köməkçisi;

**72.5.2.** 2-2-301 Bakı şəhər prokurorunun köməkçisi - Mətbuat xidmətinin rəhbəri;

**72.5.3.** 2-2-302 Bakı şəhər prokurorluğunun Prokurorluqda istintaqa nəzarət şöbəsi;

**72.5.4.** 2-2-303 Bakı şəhər prokurorluğunun Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi;

**72.5.5.** 2-2-304 Bakı şəhər prokurorluğunun Təşkilat və icraya nəzarət şöbəsi;

**72.5.6.** 2-2-305 Bakı şəhər prokurorluğunun Sənədlərlə və müraciətlərlə işin təşkili şöbəsi;

**72.5.7.** 2-2-306 Bakı şəhər prokurorluğunun Maddi-texniki təminat şöbəsi.";

**72.6.** Bakı şəhər prokurorluğunda müraciətlər bir struktur qurumundan digərinə şəhər prokurorluğunun rəhbərliyinin razılığı ilə struktur qurumun rəhbərinin imzaladığı xidməti məktubla, EPİS və ya zəruri hallarda EPİS-də geri qaytarma funksiyası tətbiq edilmədiyi hallarda şəhər prokurorluğunun kargüzarlıq xidməti vasitəsilə müvafiq qeydiyyat sənədlərində (kitablarında) qeyd aparılmaqla təqdim olunur.";

**72.8.** Bakı şəhər prokurorluğuna elektron formada (elektron poçt və ya rəsmi internet saytı vasitəsilə) daxil olan müraciətlərin vaxtında qəbul edilib qeydiyyata alınmasının təmin edilməsi məqsədilə şəhər prokurorluğunun elektron poçtu (rəsmi internet saytının müvafiq bölməsi) gündəlik olaraq dəftərxana tərəfindən yoxlanılır və daxil olmuş müraciətlər EPİS-də qeydiyyata alınır.";

**1.67.** 72.3-cü bənd ləğv edilsin;

**1.68.** aşağıdakı məzmunda 72-1-ci bənd əlavə edilsin:

**"72-1.** Bakı şəhər prokurorluğuna daxil olmuş sənədlərin elektron qeydiyyatının xüsusiyyətləri

**72-1.1.** Bakı şəhər prokurorluğunda elektron qaydada sənədlərin dövriyyəsi Sənədlərlə və müraciətlərlə işin təşkili şöbəsinin Dəftərxana və arxiv sektoru tərəfindən təmin edilir.

**72-1.2.** Bakı şəhər prokurorluğuna müxtəlif dövlət qurumlarından sənədlər poçt, feldyeger, xüsusi rabitə sistemləri, veb-sayt, elektron poçt, faks, telefonoqram, telefaksoqram və digər üsullarla yanaşı, həmçinin Elektron Hökumət İnformasiya Sisteminin Rəqəmsal Sənəd Dövriyyəsi altsistemi vasitəsilə də daxil olur.

**72-1.3.** Bakı şəhər prokurorluğuna daxil olmuş bütün sənədlər (müraciətlər, xidməti sənədlər, cinayət işləri və materiallar) dərhal Sənədlərlə və müraciətlərlə işin təşkili şöbəsinin müvafiq mütəxəssisləri tərəfindən sürətli skaner aparatları vasitəsilə skan edildikdən sonra (dövlət qurumlarından Rəqəmsal Sənəd Dövriyyəsi altsistemi vasitəsilə daxil olan sənədlər istisna olmaqla) EPİS-də qeydiyyata alınır və onlara dair zəruri informasiyalar müvafiq bazaya əlavə edilir.

**72-1.4.** EPİS-də qeydiyyata alınaraq müvafiq bazaya əlavə edilmiş sənədlər dərhal şöbənin mütəxəssisləri tərəfindən öyrənilərək onlara dair təsnifat, sahə və qurum kimi bir sıra parametrlər üzrə çeşidlənir və sənədin icrasının həvalə ediləcəyi aidiyyəti qurum müəyyənləşdirilərək şöbənin prokurorları tərəfindən öyrənilməsi üçün EPİS-də müvafiq bazaya yerləşdirilir.

**72-1.5.** Şöbənin prokurorları Bakı şəhər prokurorluğuna daxil olan sənədlərin müvafiq əməkdaşlar tərəfindən EPİS-də düzgün qaydada qeydiyyata alınması və çeşidlənməsi vəziyyətini öyrənir, daha sonra EPİS vasitəsilə Bakı şəhər prokurorluğunun rəhbərliyinə məruzə edilməsi zəruri olan sənədləri şöbənin rəisinə, digər sənədləri isə aidiyyəti üzrə Bakı şəhər prokurorluğunun struktur

qurumlarına və ya Bakı şəhər prokurorluğunun struktur qurumlarının rəis müavinlərinin imzaları ilə təsdiq edilmiş müvafiq məktubları əsasında tabe prokurorluqlara, mərkəzi və yerli icra hakimiyyəti orqanlarına, məhkəmələrə və digər təşkilatlara göndərir.

**72-1.6.** Sənədlərlə və müraciətlərlə işin təşkili şöbəsinin müvafiq mütəxəssisləri tərəfindən EPİS-də skan edildikdən sonra şöbənin Dəftərxana və arxiv sektorunun mütəxəssislərinə qaytarılmış prosessual və digər zəruri sənədlər, o cümlədən cinayət işləri və materiallar aidiyyəti üzrə icraçılara, qalan sənədlər isə şöbənin Dəftərxana və arxiv sektoruna təhvil verilir.

**72-1.7.** Dəftərxana və arxiv sektoruna təhvil verilmiş sənədlər tarix, əlifba və bir sıra digər parametrlər üzrə kataloqlaşdırılaraq müvafiq rəflərə düzülür.

**72-1.8.** Dəftərxana və arxiv sektoruna təhvil verilmiş və müvafiq struktur qurumlar tərəfindən sorğular əsasında tələb edilmiş sənədlər şöbə rəisinin razılığı ilə yalnız müvafiq qeydiyyat kitabına imza etdirilməklə təhvil verilə bilər.";

**1.69.** 73.9-cu və 73.11-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

**"73.9.** Müraciətlərə baxılması zamanı icraçılar aidiyyətin müəyyən edilməsi və digər hallarla bağlı EPİS-də əks olunan məlumatların düzgünlüyünə fərdi məsuliyyət daşıyırlar.

**73.11.** Bakı şəhər prokurorluğuna nəzarətlə daxil olmuş və ya Bakı şəhər prokurorluğunda nəzarətə götürülmüş müraciətlərin nəzarətdə olması EPİS-də müvafiq rənglər formasında, həmçinin axtarış filtrləri əsasında göstərilir.";

**1.70.** aşağıdakı məzmunda 74.2-ci bənd əlavə edilsin:

**"74.2.** Bakı şəhərinin tabe rayon prokurorluqlarına işgəncə, işgəncə hesab olunmayan qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəza tətbiq edilməsi barədə müraciətlər daxil olduqda təxirəsalınmadan Baş Prokurorluğun Xidməti araşdırmalar idarəsinə göndərilməsi təmin olunmalıdır.";

**1.71.** 76.5-ci bənd aşağıdakı redaksiyada verilsin:

**"76.5.** Müraciətlərdə korrupsiya cinayətləri, habelə ağır və xüsusilə ağır cinayət əməlləri haqqında məlumatlar əks olunduqda, müraciət Baş Prokurorluğun "Çağrı Mərkəzi" əlaqə mərkəzi vasitəsilə və ya Baş Prokurorluğun "İşin Təşkili Qaydaları"nın 237.1-ci bəndində göstərilmiş vəzifəli şəxslərdən və qurumlardan daxil olduqda, eləcə də müraciətdə olan məlumatlarla əlaqədar təxirəsalınmaz tədbirlərin görülməsi zərurəti yarandıqda, onların dərhal rəhbərliyə təqdim olunması və verilmiş göstərişlərə əsasən araşdırmanın təşkili üçün şəhər prokurorluğunun müvafiq struktur qurumlarına verilməsi, yaxud tabe prokurorluqlara və ya aidiyyəti hüquq mühafizə orqanlarına göndərilməsi təmin edilməlidir. Rəhbərliyin müvafiq göstərişi olduqda, müraciətlərin bilavasitə şəhər prokurorluğunun struktur qurumlarında araşdırılması təmin olunmalıdır.";

**1.72.** 79.2-ci bənddə hər iki halda "Qəbul şöbəsinin" sözləri "şöbənin" sözü ilə əvəz edilsin;

**1.73.** 79.6-cı bəndin birinci cümləsindən "əlifba və qeydiyyat-nəzarət vərəqələrində, eləcə də" sözləri çıxarılsın;

**1.74.** 79.8-ci bənd aşağıdakı redaksiyada verilsin:

**"79.8.** Şəhər prokurorluğunda videoqəbullar, o cümlədən onlayn konfranslar keçirildikdə vətəndaşlar tərəfindən edilən müraciətlər müvafiq qaydada EPİS-də qeydiyyata alınır. Videoqəbul zamanı vətəndaşın müraciəti ilə bağlı lazımi sənədlərin təqdim edilməsi zərurəti yarandıqda, vətəndaşa həmin sənədləri Bakı şəhər prokurorluğunun elektron poçt ünvanına göndərməsi tövsiyə olunur. Videoqəbul formasında edilmiş müraciətlərin cavablandırılması və baxılmamış saxlanılması "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada həyata keçirilir.";

**1.75.** 18-ci fəslin adına və 80.1-ci bəndə "Bakı şəhər prokurorluğunda" sözlərindən sonra "elektron olmayan" sözləri əlavə edilsin;

**1.76.** 81.2-ci bənddə "şəhər prokurorunun bu sahəyə nəzarəti həyata keçirən müavini" sözləri "şəhər prokuroru" sözləri ilə əvəz edilsin;

**1.77.** 82.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

**"82.3.** Əməliyyat müşavirələrinin təşkilati təminatı Təşkilat və icraya nəzarət şöbəsi tərəfindən bu Qaydaların Ümumi hissəsinin müvafiq bəndində nəzərdə tutulan tədbirlərin icrası ilə həyata keçirilir. Müşavirələrin protokolları Baş Prokurorluğun Kollegiya protokolları üçün nəzərdə tutulmuş qaydada və müddətdə tərtib edilir və imzalanır. Əməliyyat müşavirəsinin protokolunda onun hansı vəzifəli şəxsin yanında nə vaxt keçirilməsi, müşavirədə iştirak edən, dəvət olunan struktur qurumları və prokurorluqların adları, müzakirə olunan məsələlər, qəbul edilən qərarlar yazılmaqla, müşavirə protokolu qeydə alınır və zəruri olduqda icra üçün prokurorluğun müvafiq qurumlarına göndərilir. Bakı şəhər prokurorluğunun ayrı-ayrı struktur qurumlarının şəhər prokurorluğunun rəhbərliyinin iştirakı ilə keçirilən əməliyyat müşavirələrinin protokolları həmin qurumlar tərəfindən tərtib edilir." ;

**1.78.** 82.4-cü bənddə "struktur qurumu ilə" sözləri "struktur qurumu və ya" sözləri ilə əvəz edilsin";

**1.79.** 82.6-cı bəndə "Əməliyyat müşavirələrinin qərarları" sözlərindən sonra "bilavasitə və ya" sözləri əlavə edilsin;

**1.80.** 82.10-cu bənddə "qurumları" sözü "qurumlara" sözü ilə əvəz edilsin.

**2.** Əmrin icrasına nəzarət Bakı şəhər prokuroru və onun müavinlərinə, Bakı şəhər prokurorluğunun Təşkilat və icraya nəzarət şöbəsinə həvalə edilsin.

**3.** Əmr elan və icra olunması üçün Baş Prokurorluğun struktur qurumlarına, Bakı şəhər prokurorluğuna və tabe rayon prokurorluqlarına göndərilsin, "Azərbaycan Prokurorluğu" jurnalında dərc edilsin və "Prokurorluğun Normativ Xarakterli Hüquqi Sənədlərinin Reyestri"nə daxil edilsin.

**Azərbaycan Respublikasının Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri**
**Kamran Əliyev**

**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU**

**Ə M R**

**№ 2-2-100/257-k**

## Azərbaycan Respublikasının Baş Prokurorluğu üzrə "Azərbaycan Respublikası Prokurorluğunun rəhbərliyi arasında vəzifə bölgüsü barədə" 16 iyun 2020-ci il tarixli 11/398-k nömrəli əmrdə dəyişiklik edilməsi haqqında

**29 aprel 2024-cü il** **Bakı şəhəri**

Azərbaycan Respublikasının prokurorluğu orqanlarında işin daha da təkmilləşdirilməsi məqsədilə "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutaraq

**Ə M R E D İ R Ə M :**

**1.** Azərbaycan Respublikasının Baş Prokurorluğu üzrə "Azərbaycan Respublikası Prokurorluğunun rəhbərliyi arasında vəzifə bölgüsü barədə" 16 iyun 2020-ci il tarixli 11/398-k nömrəli əmrdə aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 1-ci bəndin üçüncü abzasında "işinin təşkilinə rəhbərlik" sözləri çıxarılsın və "texnologiyalarının" sözündən sonra ", həmçinin Ali Attestasiya Komissiyasının işinin təşkili məsələlərinə rəhbərlik" sözləri əlavə edilsin;

**1.2.** 1-ci bəndin dördüncü abzasında ", həmçinin Ali Attestasiya Komissiyasının işinin təşkili" sözləri çıxarılsın;

**1.3.** Aşağıdakı məzmunda yeni 1-1 və 1-2-ci bəndlər əlavə edilsin:

**"1-1.** Baş Prokurorluğun müvafiq idarələrinin əməkdaşlarının ölkədaxili ezamiyyə məsələləri aşağıdakı rəhbər vəzifəli şəxslər tərəfindən əmr verilməklə həyata keçirilsin:

**1-1.1.** Bilavasitə Azərbaycan Respublikası Baş prokurorunun və Baş prokurorun birinci müavininin nəzarət sahəsinə daxil olan Baş Prokurorluğun müvafiq idarələrinin əməkdaşlarına münasibətdə E.M.Məmmədov;

**1-1.2.** Baş Prokurorluğun digər idarələrinin əməkdaşlarına münasibətdə nəzarət sahəsindən asılı olaraq Baş prokurorun müavinləri E.H.Camalov və H.V.Məmmədov.

**1-2.** Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin əməkdaşlarına münasibətdə ölkədaxili ezamiyyə məsələləri Azərbaycan Respublikası Baş prokurorunun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi N.H.Rəcəbov tərəfindən əmr verilməklə həyata keçirilsin."

**2.** Əmr elan olunması üçün Baş Prokurorluğun struktur qurumlarına və bütün tabe prokurorluqlara göndərilsin, "Azərbaycan Prokurorluğu" jurnalında dərc edilsin və "Prokurorluğun Normativ Xarakterli Hüquqi Sənədlərinin Reyestri"nə daxil edilsin.

**Azərbaycan Respublikasının**
**Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri**
**Kamran Əliyev**

**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU**

**Ə M R**

**№ 150/52**

## Azərbaycan Respublikası Baş prokurorunun 26 sentyabr 2020-ci il tarixli 15/6 nömrəli əmri ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin "İşin Təşkili Qaydaları"nda dəyişiklik edilməsi haqqında

**23 may 2024-cü il** **Bakı şəhəri**

Baş Prokurorluqda idarəçilik, icra və əmək intizamı, kadrlarla iş, elektron sənəd dövriyyəsi, prosessual rəhbərlik və nəzarət fəaliyyətinin təşkili məsələlərini, həmçinin Baş Prokurorluğun struktur qurumları və prokurorluq sisteminə daxil olan digər qurumları arasında, o cümlədən tabe prokurorluqlar ilə münasibətləri, tabe prokurorluqlarda işin təşkili və iş bölgüsünün əsaslarını tənzimləyən Azərbaycan Respublikası Baş Prokurorluğunun "İşin

Təşkili Qaydaları" Azərbaycan Respublikası Baş Prokurorluğunun Kollegiyasının 30 iyul 2020-ci il tarixli 02 nömrəli qərarı ilə təsdiq edilmiş və Azərbaycan Respublikası Baş prokurorunun 30 iyul 2020-ci il tarixli 10/82 nömrəli əmri ilə icraya yönəldilmişdir.

Ötən müddət ərzində qanunvericiliyə edilmiş dəyişikliklər, o cümlədən Qaydaların tətbiqi prosesində ortaya çıxan çətinliklərin aradan qaldırılması məqsədilə Qaydalara normayaratma fəaliyyətinin mütənasiblilik, sistemlilik və digər prinsipləri, o cümlədən informasiya sisteminin tətbiqi insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi, prokurorluğa müraciət imkanlarının genişlənməsi, prokurorluğun fəaliyyətinin səmərəliliyinin və şəffaflığının artırılması, süründürməçilik və sui-istifadə hallarının qarşısının alınması, aşkarlığın və operativliyin təmin edilməsi, prokurorluq işçilərinin fəaliyyətinə nəzarətin effektivliyinin artırılması, elektron kargüzarlığın və elektron sənəd dövriyyəsinin təmin olunması ilə bağlı dəyişiklikləri zəruri etmiş, Baş Prokurorluğun Kollegiyasının 26 dekabr 2023-cü il tarixli 04 nömrəli qərarı ilə Baş Prokurorluğun "İşin Təşkili Qaydaları"nda dəyişikliklər təsdiq edilmiş və həmin dəyişikliklər 01 yanvar 2024-cü il tarixdən qüvvəyə minmişdir.

Həmin qərarın 2-ci bəndinə əsasən Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin "İşin Təşkili Qaydaları"nda müvafiq dəyişikliklər layihəsi hazırlanaraq təsdiq olunması üçün Azərbaycan Respublikasının Baş Prokurorluğuna təqdim edilmişdir.

Qeyd olunanlara əsasən "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutaraq,

**ƏMR EDİRƏM:**

**1.** Azərbaycan Respublikasının Baş Prokurorluğu üzrə 26 sentyabr 2020-ci il tarixli 15/6 nömrəli əmrlə təsdiq edilərək icraya yönəldilmiş Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin "İşin Təşkili Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 3.9-cu bənddə "xidməti sirrlərin" sözləri "xidməti sirlərin" sözləri ilə əvəz edilsin;

**1.2.** 3.10-cu bənddə "kütləvi informasiya vasitələrinə" sözləri "mediaya" sözü ilə əvəz edilsin;

**1.3.** 3.11-ci bənddə "kütləvi informasiya vasitələri" sözləri "media" sözü ilə, "kütləvi informasiya vasitələrindəki" sözləri isə "mediadakı" sözü ilə əvəz edilsin;

**1.4.** 3.16.2-ci bənddən "pul vəsaitlərini və ya digər" sözləri çıxarılsın;

**1.5.** 10.11-ci bənddə "plan tədbirləri" sözləri "tədbirlər" sözü ilə əvəz edilsin;

**1.6.** 10.14-cü bənd aşağıdakı redaksiyada verilsin:

**"10.14.** Baş İdarədə sənədlərin dövriyyəsi (cinayət işləri, materiallar, məxfi və digər zəruri sənədlər istisna olmaqla) yalnız "Elektron prokurorluq" informasiya sistemi (bundan sonra – EPİS) vasitəsilə təmin edilir və elektron imza ilə təsdiq edilmiş sənədlər kağız daşıyıcıda olan sənədlərə bərabər tutulur."

**1.7.** 12.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

**"12.1.** Əməliyyat müşavirələrinin təşkili və keçirilməsi Təşkilati və informasiya təminatı idarəsi tərəfindən bu Qaydaların müvafiq bəndində nəzərdə tutulan formada həyata keçirilir. Müşavirələrin protokolları Baş Prokurorluğun Kollegiya protokolları üçün nəzərdə tutulmuş qaydada və müddətdə tərtib edilir və imzalanır. Əməliyyat müşavirəsinin protokolunda onun hansı vəzifəli şəxsin yanında nə vaxt keçirilməsi, müşavirədə iştirak edən, dəvət olunan struktur qurumların adları, müzakirə olunan məsələlər, qəbul edilən qərarlar yazılmaqla, müşavirə protokolu qeydə alınır və zəruri olduqda icra üçün prokurorluğun müvafiq qurumlarına göndərilir. Baş İdarənin ayrı-ayrı struktur qurumlarının Baş Prokurorluğun rəhbərliyinin iştirakı ilə keçirilən əməliyyat müşavirələrinin protokolları həmin qurumlar tərəfindən tərtib edilir."

**1.8.** 12.2-ci bənddə "aidiyyəti  struktur qurumu ilə" sözləri "aidiyyəti struktur qurumu və ya" sözləri ilə əvəz edilsin";

**1.9.** 12.4-cü bənddə "Əməliyyat müşavirələrinin qərarları" sözlərindən sonra "bilavasitə və ya" sözləri əlavə edilsin;

**1.10.** 12.11-ci bənddə "müşavirələr" sözü "iclaslar" sözü ilə əvəz edilsin;

**1.11.** 14.2-ci bənddə dördüncü cümlə aşağıdakı redaksiyada verilsin:

"Təşkilati və informasiya təminatı idarəsi tərəfindən Baş İdarə rəisinin Baş İdarənin fəaliyyəti ilə əlaqədar imzaladığı əmr və göstərişlərinin Baş İdarənin əməkdaşları tərəfindən öyrənilməsinin təmin edilməsi məqsədi ilə həmin sənədlər EPİS vasitəsilə hər bir əməkdaşa birbaşa çatdırılır."

**1.12.** 15.5-ci bənddə "xidməti məktubu ilə" sözlərindən sonra "EPİS vasitəsilə" sözləri əlavə edilsin;

**1.13.** 15.6-cı bənddən "Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğuna" sözləri çıxarılsın;

**1.14.** 15.11-ci bənddə "Törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumatların qeydiyyatı" kitabında qeydə alınmalı" sözləri "Törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumatların qeydiyyatı" kitabında və EPİS-də qeydiyyata alınmalı" sözləri ilə əvəz edilsin;

**1.15.** 15.14-cü bənd aşağıdakı redaksiyada verilsin:

"Araşdırmanın nəticələri üzrə tərtib edilmiş arayış EPİS vasitəsilə idarə və ya şöbə rəisinə təqdim edilir. Müvafiq olaraq eyni qayda ilə idarə və ya şöbə rəisi və Baş İdarənin rəis müavini ilə razılaşdırıldıqdan sonra arayış Baş İdarənin rəisi tərəfindən EPİS vasitəsilə Baş prokurora təqdim edilir. Araşdırmanın nəticələri üzrə tərtib edilmiş arayış Baş prokurora məruzə olunduqdan sonra müvafiq qərar qəbul olunur. Araşdırmanın nəticələri barədə məlumat "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi

ilə əlaqəli cinayətlərin vahid məlumat bazası"na daxil edildikdən sonra material müvafiq idarə və şöbə rəisinin dərkənarı ilə dəftərxanaya təhvil verilir. Hər ay dəftərxanaya təhvil verilmiş materialların siyahısı araşdırmaların qısa məzmunu qeyd edilməklə (gecikdirilən materiallar üzrə gecikmə səbəbləri əsaslandırılmaqla) idarə və şöbələr tərəfindən növbəti ayın ilk iş həftəsi ərzində Təşkilati və informasiya təminatı idarəsi vasitəsilə Baş İdarə rəisinə təqdim edilir."

**1.16.** 16.1-ci bəndin beşinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Qaynar xətt" əlaqə mərkəzinin aylıq növbətçilik qrafikinin Baş İdarənin əməkdaşlarına elan edilməsinin təmin edilməsi məqsədi ilə həmin qrafik EPİS vasitəsilə Baş İdarənin müvafiq struktur qurumlarına təqdim edilir və yaxud hər bir əməkdaşa birbaşa çatdırılır."

**1.17.** 16.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

**"16.3.** Növbənin sonunda gün ərzində daxil olmuş hər bir müraciətə dair növbətçi tərəfindən tərtib edilmiş təqrir EPİS vasitəsilə real vaxt rejimində avtomatik olaraq qeydiyyata alınır, həmin müraciətlərin aidiyyət məsələsi Baş prokuror tərəfindən EPİS vasitəsilə müəyyən edilir."

**1.18.** 16.4-cü bənddə "tərəfindən" sözündən sonra "EPİS vasitəsilə" sözləri əlavə edilsin, "prokurorluğun əlaqədar struktur qurumlarına" sözlərindən sonra "Baş İdarəyə" sözləri çıxarılsın;

**1.19.** 16.8-ci bənddə "rəisinin" sözündən sonra "EPİS vasitəsilə" sözləri əlavə edilsin, "Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğuna" sözləri isə çıxarılsın;

**1.20.** 16.9-cu bənd aşağıdakı redaksiyada verilsin:

**"16.9.** "Qaynar xətt" əlaqə mərkəzinə daxil olmuş müraciətlərə "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinə müvafiq olaraq 20 iş günü ərzində baxılır."

**1.21.** Aşağıdakı məzmunda 16.14-cü bənd əlavə edilsin:

**"16.14.** Növbətçilər mərkəzə edilən zənglər zamanı qanunçuluğun və vətəndaş məmnunluğunun təmin edilməsi üçün müraciət müəllifi ilə təmkin və nəzakətlə davranmalı, fiziki və hüquqi şəxslərin müraciətlərinə həssaslıqla yanaşmalıdırlar."

**1.22.** 17.3-cü bənddə "arayış", "göndərilməsi" və "qərar" (hər iki halda) sözlərindən sonra "EPİS vasitəsilə" sözləri əlavə edilsin;

**1.23.** 17.4-cü bənddə "pul vəsaitlərini və ya digər" sözləri çıxarılsın;

**1.24.** 17.9-cu bənddə "qərarlar" sözündən sonra "EPİS vasitəsilə" sözləri əlavə edilsin;

**1.25.** 18.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

**"18.1.** Korrupsiya ilə əlaqədar hüquqpozmalar haqqında daxil olan məlumatlar üzrə ilkin yoxlamanın aparılması, əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi və ya korrupsiya ilə bağlı cinayətlərin istintaqı zamanı qeyd olunan məlumat bazaları, informasiya sistemləri və reyestrlərindən lazımi məlumatların (EPİS-in sorğulama modulu vasitəsilə əldə edilən məlumatlar istisna olmaqla) əldə edilməsinə zərurət yarandıqda müvafiq ilkin yoxlamanı və istintaqı aparan Baş İdarənin struktur qurumu Təşkilati və informasiya təminatı idarəsinə EPİS vasitəsilə (təxirəsalınmaz hallar istisna olmaqla) sorğu göndərir. Təşkilati və informasiya təminatı idarəsi həmin məlumatların əldə olunmasına dair daxil olmuş müraciətlərin tərtibatının düzgünlüyü yoxlanıldıqdan sonra Təşkilati və informasiya təminatı idarəsi tərəfindən həmin mənbələrdən məlumatların əldə olunması təmin edilir və qeyd olunan məlumatlar EPİS vasitəsilə idarə rəisi tərəfindən xidməti məktubla Baş İdarənin müvafiq struktur qurumuna göndərilir. Daxil olmuş müraciətin tərtibatında səhvlər müəyyən edildiyi təqdirdə sorğu edən struktur qurum məlumatlandırılır və sorğunun icrası səhvlər aradan qaldırılanadək təxirə salınır."

**1.26.** 18.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

**"18.2.** Korrupsiya ilə əlaqədar hüquqpozmalar haqqında daxil olan məlumatlar üzrə ilkin yoxlamanın aparılması, əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi və ya korrupsiya ilə bağlı cinayətlərin istintaqı zamanı qeyd olunan məlumat bazaları, informasiya sistemləri və reyestrlərinə lazımi məlumatların daxil edilməsinə zərurət yarandıqda müvafiq ilkin yoxlamanı və istintaqı aparan Baş İdarənin struktur qurumu Baş İdarə rəisinin müvafiq müavini ilə razılaşdırmaqla təsdiq edilmiş bildirişi xidməti məktuba əlavə edərək EPİS vasitəsilə (təxirəsalınmaz hallar istisna olmaqla) Təşkilati və informasiya təminatı idarəsinə göndərir. Müvafiq bildiriş icraata daxil olduqdan sonra Təşkilati və informasiya təminatı idarəsi həmin məlumatların daxil edilməsinə dair daxil olmuş bildirişin tərtibatının düzgünlüyünü yoxlayır. Daxil olmuş bildirişin tərtibatının düzgünlüyü yoxlanıldıqdan sonra Təşkilati və informasiya təminatı idarəsi tərəfindən icrası təmin edilir. Daxil olmuş tərtibatında səhvlər müəyyən edildiyi təqdirdə sorğu edən struktur qurum məlumatlandırılır və sorğunun icrası səhvlər aradan qaldırılanadək təxirə salınır.

**1.27.** 19-cu bənddə "pul vəsaitlərinin və digər" sözləri çıxarılsın;

**1.28.** 19.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

**"19.1.** Təşkilati və informasiya təminatı idarəsi Baş İdarənin nəzdində təsis edilmiş "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə əlaqəli cinayətlərin vahid məlumat bazası"nın işinin təşkilini həyata keçirir. Baş İdarənin idarə və şöbə rəisləri tərəfindən məlumatların müvafiq məlumat bazalarına vaxtlı-vaxtında daxil edilməsinə nəzarət edilir."

**1.29.** 20-ci bənd aşağıdakı redaksiyada verilsin:

**"20.** Baş İdarədə informasiya texnologiyalarının tətbiqi

**20.1.** Cinayət işləri və cinayət təqibi ilə bağlı digər materiallar üzrə araşdırmanın və həmin araşdırmaya prosessual rəhbərlik və nəzarətin effektivliyinin artırılması, bu sahədə şəffaflığın və operativliyin təmin edilməsi,

aparılan kargüzarlığın sistemləşdirilməsi və optimallaşdırılması məqsədi ilə Baş İdarədə Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 07 may tarixli Fərmanı ilə yaradılmış "Elektron prokurorluq" informasiya sistemi (EPİS) fəaliyyət göstərir.

**20.2.** İcraatında cinayət işi, törədilmiş və ya hazırlanan cinayətlərə baxılması barədə material olan hər bir əməkdaş cinayət işləri və cinayət xarakterli materiallar üzrə prosessual və digər sənədləri "EPİS"-in müvafiq modulları vasitəsilə tərtib edir, imzalayır və çap edir, struktur qurumların rəhbərliyi tərəfindən bu işə mütəmadi nəzarət olunur.

**20.3.** Hər ayın sonunda bu sahədə görülmüş işlər, yol verilmiş nöqsanlar İdarənin struktur qurumlarında müzakirə olunmaqla, işin keyfiyyətinin artırılması ilə bağlı tədbirlər görülür.

**20.4.** Korrupsiya ilə əlaqədar cinayətlərin vahid uçotu, korrupsiya ilə əlaqədar cinayətlər, onları törətmiş şəxslər və bu növ cinayət işlərinin istintaqı və məhkəmə baxışının nəticələri barədə məlumatların mərkəzləşdirilmiş qaydada qeydiyyata alınması və uçotunun aparılması "EPİS"-in müvafiq modulları vasitəsilə həyata keçirilir."

**1.30.** Aşağıdakı məzmunda 20-1-ci bənd əlavə edilsin:

**"20-1.** EPİS-dən istifadə

**20-1.1.** EPİS-dən vəzifə öhdəlikləri daxilində istifadə bütün prokurorluq əməkdaşları (prokurorluq işçiləri və dövlət qulluqçuları) üçün məcburidir. EPİS-də hər bir işçiyə şəxsi hesab açılır.

**20-1.2.** İnformasiya sistemindən istifadə etməmə əmək funksiyalarını icra etməmə kimi qiymətləndirilir və intizam məsuliyyətinə səbəb olur.

**1.31.** Aşağıdakı məzmunda 20-2-ci bənd əlavə edilsin:

**"20-2.** Hesaba giriş və təhlükəsizlik

**20-2.1.** Baş İdarənin əməkdaşları EPİS-ə fərdi identifikasiya nömrəsi (FİN) və unikal şifrədən və ya elektron imzadan istifadə etməklə daxil olurlar.

**20-2.2.** Əməkdaşlar tərəfindən EPİS-ə daxil olmaq üçün istifadə edilən hesablar haqqında məlumatlar, həmçinin elektron imza məxfidir, paylaşılması və başqa şəxsə verilməsi yolverilməzdir.

**20-2.3.** Əməkdaşların istifadələrində olan proqram təminatının düzgün və mütəmadi işlədilməsinə, xidməti kompüterdə, digər elektron daşıyıcılarda, o cümlədən xidməti proqramlarda olan məlumatların yayılmamasına cavabdehlik daşıyır."

**1.32.** Aşağıdakı məzmunda 20-3-cü bənd əlavə edilsin:

**"20-3.** Konfidensiallıq

**20-3.1.** Əməkdaş tərəfindən EPİS vasitəsilə əldə edilmiş məlumatlar xidməti məlumatlar hesab edilməklə konfidensialdır və üçüncü şəxslərə verilə bilməz.

**20-3.2.** Xidməti məlumatların şəxsi kompüterlərdə və mobil cihazlarda saxlanılması qadağandır."

**1.33.** Aşağıdakı məzmunda 20-4-cü bənd əlavə edilsin:

**"20-4.** EPİS-in funksional imkanlarından istifadə

**20-4.1.** Əməkdaş sistemdən yalnız ona verilmiş səlahiyyətlər daxilində və xidməti məqsədlər üçün istifadə etməlidir.

**20-4.2.** Əməkdaşlar işin effektiv təşkili, məlumatların saxlanılması və axtarılması üçün EPİS-in bütün mümkün funksional imkanlarından istifadə edirlər.

**20-4.3.** Zəruri hallar istisna olmaqla, Baş İdarədə məxfi olmayan bütün kargüzarlıq EPİS vasitəsilə aparılır.

**20-4.4.** EPİS-də tərtib edilən bütün sənədlər kağız daşıyıcıda tərtib edilən sənədlərə bərabər tutulur və keyfiyyətli tərtib edilməli, bütün zəruri rekvizitlərə malik olmalıdır.

**20-4.5.** EPİS-də imzalanan və çap olunaraq kağız daşıyıcıda müvafiq ünvanlara göndərilməli olan sənədlərin çap olunub qurumun kargüzarlıq xidmətinə təhvil verilməsinə sənədin icrası həvalə olunmuş (sənədi tərtib etmiş) şəxs məsuliyyət daşıyır.

**20-4.6.** Əməkdaş EPİS vasitəsilə icrası ona həvalə edilmiş sənədlərin və tapşırıqların vaxtında icra edilməsi məqsədilə mütəmadi olaraq sistemə daxil olmalı və izləməlidir.

**20-4.7.** Daxil olmuş sənədlərin və tapşırıqların icra müddəti onların əməkdaşa həvalə edildiyi vaxtdan (icraatına qəbul etmə vaxtından asılı olmayaraq) hesablanır və üzrsüz səbəbdən vaxtında icra edilməməsinə görə işçi məsuliyyət daşıyır.

**20-4.8.** Struktur qurumların rəhbərləri üzrlü səbəblər istisna olmaqla, daxil olmuş sənədlərin və tapşırıqların icrasının vaxtında əməkdaşlara həvalə edilməməsinə görə məsuliyyət daşıyırlar."

**1.34.** Aşağıdakı məzmunda 20-5-ci bənd əlavə edilsin:

**"20-5.** Texniki dəstək

**20-5.1.** EPİS-in işində texniki xəta baş verdikdə və ya digər problemlər yarandıqda əməkdaş texniki dəstək üzrə mütəxəssislərə və ya işlədiyi struktur qurumun rəhbərinə dərhal müraciət etməlidir."

**1.35.** Aşağıdakı məzmunda 20-6-cı bənd əlavə edilsin:

**"20-6.** Qanunvericiliyə riayət edilməsi

**20-6.1.** Əməkdaşlar tərəfindən EPİS-dən istifadə edilərkən informasiya sahəsində qanunvericilik aktlarına, o cümlədən "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "İnformasiya əldə etmək haqqında", "Fərdi məlumatlar haqqında", "Dövlət sirri haqqında" və digər Azərbaycan Respublikasının qanunlarına riayət edilməli, hamı üçün açıq olan məlumatlar istisna olmaqla, şəxsi məqsədlər üçün dövlət informasiya ehtiyatlarından və sistemlərindən istifadə edilməməlidir.

**20-6.2.** EPİS-in elektron sorğu modulu vasitəsilə digər dövlət informasiya ehtiyatları və sistemlərindən məlumatların əldə edilməsi zamanı sui-istifadə hallarının

qarşısının alınması məqsədilə EPİS-də texniki xarakterli müvafiq tədbirlər tətbiq olunur və monitorinqlər aparılır.

**20-6.3.** Cinayət işləri və cinayət təqibi ilə bağlı digər materiallar üzrə konfidensial informasiyanın mühafizəsinə dair tələblər müvafiq qanunvericiliklə tənzimlənir."

**1.36.** Aşağıdakı məzmunda 20-7-ci bənd əlavə edilsin:

**"20-7.** EPİS-dən istifadəyə nəzarət və monitorinq

**20-7.1.** EPİS-də sənəd və tapşırıqların icrasına nəzarətin və mütəmadi olaraq monitorinqin keçirilməsi məqsədilə Baş İdarənin struktur qurumlarına, habelə sənədlərlə və müraciətlərlə işin təşkilini həyata keçirən Təşkilati və informasiya təminatı idarəsinə müvafiq texniki imkanlar yaradılır, o cümlədən icra müddətinin başa çatmasına 5 gün qalmış və ya icra müddəti pozulmuş sənədlər barədə xəbərdarlıq servisləri yaradılır.

**20-7.2.** EPİS-də sənəd və tapşırıqların icrasına və daxil olmuş vətəndaş müraciətlərinə vaxtında baxılaraq cavab verilməsinə bilavasitə nəzarəti struktur qurumların rəhbərləri həyata keçirirlər. Onlar həmçinin sənədlərin keyfiyyətli tərtibinə nəzarət edirlər.

**20-7.3.** Struktur qurumlarda daxil olmuş elektron sənədlərin ilkin öyrənilməsi, sənədlərin məzmununa və işçilər arasında vəzifə bölgülərinə əsasən sənədin icraçısının və ilkin olaraq dərkənarların layihələrinin müəyyən edilməsi, habelə icraçılara verilmiş sənədlərin vaxtında icra edilməsinə nəzarət həmin qurumun kargüzarlıq xidməti və ya kargüzarı tərəfindən həyata keçirilir. Bu məqsədlə EPİS-də müvafiq texniki imkan yaradılır.

**20-7.4.** Nəzarətin həyata keçirilməsi zamanı kobud pozuntular aşkar edildikdə xidməti yoxlamanın aparılması barədə məsələ qaldırılır."

**1.37.** 21.2.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

**"21.2.1.** İcraya nəzarətin düzgün təşkili məqsədilə nəzarətə götürülmüş sənədlərə EPİS vasitəsilə müvafiq olaraq "xüsusi nəzarətdədir", "nəzarətdədir" statusları müəyyən olunur;"

**1.38.** 22.1-ci bənddə "Baş prokurorun əmr" sözlərindən sonra "sərəncam" sözü əlavə edilsin;

**1.39.** 22.3-cü bənddə "Baş Prokurorluğun" sözləri "Baş İdarənin" sözləri ilə əvəz edilsin, "struktur qurumunda" sözlərindən sonra "nəzarət vərəqələri doldurulmaqla" sözləri çıxarılsın;

**1.40.** 22.5-ci bənd aşağıdakı redaksiyada verilsin:

**"22.5.** Təşkilati və informasiya təminatı idarəsi ali hakimiyyət orqanlarının, Baş Prokurorluğun normativ sənədlərinin, kollegiya və əməliyyat müşavirəsi qərarlarının, nəzarətə götürülmüş tapşırıq və digər sənədlərin ayrıca kitabda uçotunu aparmaqla, EPİS-in müvafiq modullarından istifadə etməklə icranı nəzarətdə saxlayır."

**1.41.** 22.9-cu bənd aşağıdakı redaksiyada verilsin:

**"22.9.** Baş prokuror tərəfindən nəzarətə götürülmüş tapşırıqlar məruzədən sonra nəzarətdən çıxarılmadığı hallarda, Təşkilati və informasiya təminatı idarəsi tərəfindən nəzarətin son məruzəyə qədər həyata keçirilməsi təmin olunur."

**1.42.** 22.10-cu bənd aşağıdakı redaksiyada verilsin:

**"22.10.** Nəzarətə götürülmüş sənədlərin və tapşırıqların müəyyən edilmiş icra müddətləri ərzində tam həcmdə yerinə yetirilməsinin mümkün olmadığı, habelə icra ilə əlaqədar əlavə məsələlərin həllinə zərurət ortaya çıxdığı, habelə qeyd olunan sənədlərin cinayət təqibi üzrə icraat materiallarına əlavə olunmaqla araşdırıldığı hallarda Baş İdarənin əlaqədar struktur qurumları tərəfindən həmin sənəd və tapşırıqların icra vəziyyəti Təşkilati və informasiya təminatı idarəsi vasitəsilə Baş İdarə rəisinə məruzə edilir. Nəzərdə tutulan bütün məsələlər həll olunduqdan sonra əlaqədar struktur qurumlar sənəd və tapşırıqların icrasını yenidən məruzə edərək onların nəzarətdən çıxarılmasını təmin edirlər."

**1.43.** 22.13-cü bənddə "onlar" sözündən sonra "EPİS vasitəsilə" sözləri əlavə edilsin;

**1.44.** Aşağıdakı məzmunda 22-1-ci bənd əlavə edilsin:

**"22-1.** Nəzarətə götürülmüş sənədlərin icrasına nəzarət

**22-1.1.** Nəzarətdə olan sənədlərin icrasına görə Baş İdarənin struktur qurumlarının rəhbərləri məsuliyyət daşıyırlar. Sənədlərin icrasına bilavasitə nəzarət onları icra edən qurumların kargüzarlıq xidmətləri tərəfindən təmin edilir.

**22-1.2.** Azərbaycan Respublikası Baş prokurorunun nəzarətə götürdüyü sənədlərin icra edilməsinə nəzarət Təşkilati və informasiya təminatı idarəsi tərəfindən həyata keçirilir.

**22-1.3.** Təşkilati və informasiya təminatı idarəsi EPİS-in "RİM Nəzarət hesabatı" modulundan istifadə etməklə nəzarətə götürülmüş sənədlərin icrasını nəzarətdə saxlayır, sənədlərin icrasını, habelə məruzə edilməsini gecikdirən struktur qurumlar və şəxslər barədə nəzarətə götürmüş şəxsə məlumat verir. Kobud və ya davamlı nöqsanlar aşkar etdikdə Baş İdarə rəisi qarşısında məsələ qaldırır. İdarə prokuroru təsdiq edilmiş vəzifə bölgüsünə uyğun olaraq EPİS-in "RİM nəzarət hesabatı" modulu vasitəsilə icraya nəzarəti həyata keçirərək mütəmadi olaraq məsul icraçı ilə əlaqə saxlamaqla icra vəziyyətini öyrənir, icra müddətinin pozuntusu halını aşkar etdikdə dərhal İdarə rəisini məlumatlandırır, yekun məruzəyə qədər nəzarəti həyata keçirir."

**1.45.** 23.3-cü bənddə "xidməti məktubla" sözləri "EPİS vasitəsilə elektron qaydada" sözləri ilə əvəz edilsin;

**1.46.** Aşağıdakı məzmunda 23.4-cü bənd əlavə edilsin:

**"23.4.** Təşkilati və informasiya təminatı idarəsi tərəfindən hesabatların hazırlanması zamanı digər prokurorluq orqanlarından korrupsiyaya qarşı mübarizə ilə bağlı məlumatlar əldə edilə bilər."

**1.47.** 25.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

**"25.2.** Baş İdarədə mülki müdafiə işinin təşkili Baş İdarə rəisinin "Mülki müdafiə sahəsində qarşıda duran vəzifələr haqqında" və "Baş İdarədə hərbiləşdirilməmiş mülki müdafiə dəstələrinin tərkibinin təsdiq edilməsi haqqında" dövri əmrlərinə əsasən həyata keçirilir."

**1.48.** 25.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

**"25.3.** Baş İdarə rəisinin "Mülki müdafiə sahəsində qarşıda duran vəzifələr haqqında" və "Baş İdarədə hərbiləşdirilməmiş mülki müdafiə dəstələrinin tərkibinin təsdiq edilməsi haqqında" dövri əmrlərinə əsasən Baş İdarənin mülki müdafiə qərargahının rəisi, rəis müavini, qərargahın üzvləri və Təşkilati və informasiya təminatı idarəsi mülki müdafiə işinin təşkili ilə əlaqədar:"

**1.49.** 28.3-cü bənd ləğv edilsin.

**1.50.** Aşağıdakı məzmunda 29.6-cı bənd əlavə edilsin:

**"29.6.** Baş İdarə tərəfindən üzərinə həbs qoyulan və məhkəməyə göndərilən işlər üzrə xüsusi müsadirəyə təklif olunan əmlaklar barədə məlumatlar hər ay üzrə növbəti ayın 5-dən gec olmayaraq uçotunun aparılması üçün Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsinə göndərirlər."

**1.51.** 33.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

**"33.2.** Baş İdarədə uğurlu istintaq təcrübələrinə dair metodiki vəsaitlərin və ya hər hansı nümunələrin hazırlanması Elm-Tədris Mərkəzinin rəyi əsasında həyata keçirilir."

**1.52.** 35.11-ci bənd aşağıdakı redaksiyada verilsin:

**"35.11.** Korrupsiya ilə əlaqədar cinayətlər barədə vahid informasiya bazasının işini təşkil edir.

**1.53.** 35.12-ci bənddən "pul vəsaitlərinin və digər" sözləri çıxarılsın, "PL/TM" sözləri "ƏL/TM" sözləri ilə əvəz edilsin;

**1.54.** 35.16-cı bənddə "əsaslılığına" sözü "düzgün tərtibinə" sözləri ilə əvəz edilsin;

**1.55.** 35.24-cü bənd aşağıdakı redaksiyada verilsin:

**"35.24.** Yeni qəbul edilmiş normativ-hüquqi aktların, onlara olan dəyişikliklərin, Konstitusiya Məhkəməsinin qərarlarının, Ali Məhkəmənin Plenum qərarlarının və insan hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarının Baş İdarənin əməkdaşları tərəfindən öyrənilməsinin təmin edilməsi məqsədilə həmin sənədlərin EPİS vasitəsilə Baş İdarənin idarə və şöbələrinə göndərilməsini təmin edir."

**1.56.** 35.27-ci bənddə "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin;

**1.57.** 35.28-ci bənddə "səhifəsində" sözü "saytında" sözü ilə əvəz edilsin;

**1.58.** 35.32-ci bənd ləğv edilsin;

**1.59.** 35.45-ci bənddə "treninqlər" sözü "treninq" sözü ilə əvəz edilsin;

**1.60.** 35.39-cu bənddə "kütləvi informasiya vasitələrinin" sözləri "medianın" sözü ilə əvəz edilsin;

**1.61.** 35.61-ci bənd aşağıdakı redaksiyada verilsin:

**"35.61.** Baş İdarə rəisinin "Mülki müdafiə sahəsində qarşıda duran vəzifələr haqqında" və "Baş İdarədə hərbiləşdirilməmiş mülki müdafiə dəstələrinin tərkibinin təsdiq edilməsi haqqında" dövri əmrlərinə əsasən Baş İdarədə mülki müdafiə işini təşkil edir."

**1.62.** 36.2-ci bənddə "təmin edir" sözlərindən sonra "Baş İdarənin daxili sənəd dövriyyəsi ilə bağlı sektorda toplanmış" sözləri əlavə edilsin:

**1.63.** 37.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

**"37.1.** İnformasiya texnologiyaları təminatı sektoru Baş İdarədə olan kompüterlərin, informasiya-kommunikasiya avadanlıqlarının, Baş İdarənin serverlərinin və internet şəbəkəsinin işlək vəziyyətdə olmasını təmin edir."

**1.64.** 37.2-ci bənd ləğv edilsin;

**1.65.** 37.11-ci bənd aşağıdakı redaksiyada verilsin:

**"37.11.** Əməkdaşların üz tanıma sistemi ilə təchiz edilmiş turniketlər vasitəsilə inzibati binaya giriş-çıxışının, binadaxili girişi məhdudlaşdırılmış yerlərə daxil olmaq üçün verilmiş barmaq izi məlumatlarının və identifikasiya kartlarının, bununla bağlı müvafiq uçotun aparılmasını, zərurət yarandıqda əməkdaşların işə da¬va¬miy¬yətinə dair məlumatların Baş İdarənin rəhbərliyinə təqdim edilməsini təmin edir."

**1.66.** 38.2-ci bənddə "sanitar qaydaların, avadanlıqların" sözləri "sanitar qurğu və avadanlıqların" sözləri ilə əvəz edilsin;

**1.67.** 38.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

**"38.4.** Baş İdarənin Baş Prokurorluğun Mətbəəsi ilə fəaliyyətini əlaqələndirir."

**1.68.** 38.8-ci bənddən "sektor" sözü çıxarılsın;

**1.69.** 39.12-ci bənddə "tətbiq" sözü "tərtib" sözü ilə, "hazırlayır" sözündən sonra qoyulmuş "nöqtəli vergül" işarəsi "vergül" işarəsi ilə əvəz edilsin;

**1.70.** Aşağıdakı məzmunda 39.27-ci bənd əlavə edilsin:

**"39.27.** Korrupsiyaya şərait yaradan halların aradan qaldırılması məqsədi ilə müvafiq orqan və qurumlara təqdimatlar göndərir, həmin təqdimatlara baxılmasında iştirak edir və bu barədə görülmüş tədbirləri izləyir."

**1.71.** Aşağıdakı məzmunda 39.28-ci bənd əlavə edilsin:

**"39.28.** Qanunvericiliyə müvafiq olaraq digər vəzifələri yerinə yetirir."

**1.72.** 40.1-ci bənddə "istintaqının" sözü "istintaqını" sözü ilə əvəz edilsin;

**1.73.** 40.3-cü bənddə "məcburi gətirmə" sözləri "məcburi gətirilmə" sözləri ilə əvəz edilsin;

**1.74.** 40.9-cu bənd ləğv edilsin;

**1.75.** 40.13-cü bənd aşağıdakı redaksiyada verilsin:

**"40.13.** Korrupsiya ilə bağlı cinayət işlərinin istintaqı zamanı cinayətin törədilməsinə şərait yaradan halları müəyyən edir və onların aradan qaldırılması məqsədi ilə hüquqi və ya vəzifəli şəxslərə təqdimatlar göndərir, həmin təqdimatlara baxılmasında iştirak edir və bu barədə görülmüş tədbirləri izləyir."

**1.76.** Aşağıdakı məzmunda 40.20-ci bənd əlavə edilsin:

**"40.20.** Baş İdarə tərəfindən üzərinə həbs qoyulan və məhkəməyə göndərilən işlər üzrə xüsusi müsadirəyə təklif olunan əmlaklar barədə məlumatlar hər ay üzrə növbəti ayın 5-dən gec olmayaraq uçotunun aparılması üçün Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsinə göndərirlər."

**1.77.** Aşağıdakı məzmunda 40.21-ci bənd əlavə edilsin:

**"40.21.** Qanunvericiliyə müvafiq olaraq digər vəzifələri yerinə yetirir."

**1.78.** 41.8-ci bənddən "pul vəsaitlərinin və digər" sözləri çıxarılsın;

**1.79.** Aşağıdakı məzmunda 41.21-ci bənd əlavə edilsin:

**"41.21.** Əməliyyat-axtarış fəaliyyətinin konfidensiallığı pozulmadığı hallarda korrupsiyaya şərait yaradan halların aradan qaldırılması məqsədi ilə hüquqi və ya vəzifəli şəxslərə təqdimatlar göndərir, həmin təqdimatlara baxılmasında iştirak edir və bu barədə görülmüş tədbirləri izləyir."

**1.80.** Aşağıdakı məzmunda 41.22-ci bənd əlavə edilsin:

**"41.22.** Qanunvericiliyə müvafiq olaraq digər vəzifələri yerinə yetirir."

**1.81.** Aşağıdakı məzmunda 42.22-ci bənd əlavə edilsin:

**"42.22.** Əməliyyat-axtarış fəaliyyətinin konfidensiallığı pozulmadığı hallarda korrupsiyaya şərait yaradan halların aradan qaldırılması məqsədi ilə hüquqi və ya vəzifəli şəxslərə təqdimatlar göndərir, həmin təqdimatlara baxılmasında iştirak edir və bu barədə görülmüş tədbirləri izləyir."

**1.82.** Aşağıdakı məzmunda 42.23-cü bənd əlavə edilsin:

**"42.23.** Qanunvericiliyə müvafiq olaraq digər vəzifələri yerinə yetirir."

**1.83.** Aşağıdakı məzmunda 43.11-ci bənd əlavə edilsin:

**"43.11.** Qanunvericiliyə müvafiq olaraq digər vəzifələri yerinə yetirir"

**1.84.** Aşağıdakı məzmunda 45.5-ci bənd əlavə edilsin:

**"45.5.** Baş İdarə əməkdaşlarının icra və əmək intizamı, o cümlədən xidməti geyim formasından istifadə qaydalarına riayət olunması məqsədilə giriş-çıxış sistemində olan məlumatların Təşkilati və informasiya təminatı idarəsi tərəfindən real vaxt rejimində əldə olunması təmin edilir.

**1.85.** 46.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

**"46.2.** Şəxslərin inzibati binaya giriş-çıxışı üz tanıma sistemi ilə təchiz olunmuş turniketlər vasitəsilə həyata keçirilir.

**1.86.** 46.3.1-ci bənd ləğv edilsin;

**1.87.** 46.3.2-ci bənddən "şəxsi" sözü çıxarılsın;

**1.88.** 46.3.3-cü bənd ləğv edilsin;

**1.89.** 46.3.5-ci bənddə "bir" sözü "altı" sözü ilə əvəz edilsin;

**1.90.** 46.5-ci bənd ləğv edilsin;

**1.91.** 46.6-cı bənddən "şəxsi" sözü çıxarılsın və "inzibati binaya" sözlərindən sonra "və binadaxili girişi məhdudlaşdırılmış yerlərə" sözləri əlavə edilsin;

**1.92.** 46.7-ci bənd aşağıdakı redaksiyada verilsin:

**"46.7.** Buraxılış kartları Baş İdarə əməkdaşlarına kartın qəbul olunması haqqında müvafiq jurnala imza etdirilməklə təqdim olunur. Onların əvəz edilməsinə yalnız sahibinin adının, soyadının dəyişdirilməsi, kartın zədələnməsi və ya digər səbəbdən istifadə üçün yararsız vəziyyətə düşməsi və itirilməsi hallarında yol verilir.

**1.93.** 46.9-cu bənddən "adsız" sözü çıxarılsın;

**1.94.** 46.10-cu bənddə "Respublikası" sözü "Respublikasının" sözü ilə əvəz edilsin, həmin bənddən "Prokurorluğunun" sözü çıxarılsın;

**1.95.** 46.10.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

**"46.10.3.** "Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin məsul işçiləri"

**1.96.** 46.10.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

**"46.10.4.** "Azərbaycan Respublikası Milli Məclisinin rəhbərliyi və Milli Məclisin deputatları;"

**1.97.** 46.10.12-ci bənd aşağıdakı redaksiyada verilsin:

**"46.10.12.** Azərbaycan Respublikasının Ədliyyə, Daxili İşlər, Müdafiə, Xarici İşlər, Fövqəladə Hallar nazirliklərinin, Dövlət Təhlükəsizliyi, Sərhəd, Vergi, Miqrasiya Xidmətlərinin, Dövlət Gömrük Komitəsinin rəhbərləri və digər mərkəzi icra hakimiyyəti orqanlarının rəhbər heyəti;

**1.98.** 46.10.13-cü bənd ləğv edilsin;

**1.99.** 46.12-ci bənddə "böyük müstəntiqləri, müstəntiqləri" sözləri "mühüm işləri üzrə böyük müstəntiqləri, müstəntiqləri" sözləri ilə, "böyük əməliyyatçıları, əməliyyatçılarının" sözləri "mühüm işlər üzrə böyük əməliyyatçıları, əməliyyatçılarının" sözləri ilə əvəz edilsin;

**1.100.** 46.13-cü bənddə "böyük müstəntiqləri, müstəntiqləri" sözləri "mühüm işləri üzrə böyük müstəntiqləri, müstəntiqləri" sözləri ilə, "böyük əməliyyatçıları, əməliyyatçılarının" sözləri "mühüm işlər üzrə böyük əməliyyatçıları, əməliyyatçılarının" sözləri ilə əvəz edilsin;

**1.101.** 46.14-cü bənddə "kütləvi informasiya vasitələrinin" sözləri "medianın" sözü ilə əvəz edilsin;

**1.102.** 46.21-ci bənddən "adsız" sözü çıxarılsın;

**1.103.** 46.23-cü bənddən "adsız" sözü çıxarılsın;

**1.104.** 46.24-cü bənddən "adsız" sözü çıxarılsın;

**1.105.** 47.3.1-ci bənddə "cəlb edilmiş" sözlərindən sonra "və ya dəvət olunmuş" sözləri əlavə edilsin;

**1.106.** 47.8-ci bənddən "adsız" sözü çıxarılsın, həmin bənddə "elektron buraxılış kartı ilə" sözlərindən sonra "şəxsi" sözü əlavə edilsin;

**1.107.** 47.11-ci bənddə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Vərəqənin kötükləri və müvafiq qeydiyyat jurnalı hər ayın sonunda Təşkilati və informasiya təminatı idarəsinə təhvil verilir."

**1.108.** 48.5-ci bənd aşağıdakı redaksiyada verilsin:

**"48.5.** İAMAS-ın Baş İdarədə olan avtomatlaşdırılmış məlumat-axtarış sistemindən məlumatların sistemə daxil edilib-çıxarılması qurumun İstintaq, Preventiv tədbirlər və təhqiqat, Əməliyyat idarələri, Əməliyyat təminatı və Mütəxəssis təhlilləri şöbələrinin rəisləri tərəfindən Təşkilati və informasiya təminatı idarəsinin rəisinin adına yazılmış və EPİS vasitəsi ilə (təxirəsalınmaz hallar istisna olmaqla) təsdiq olunaraq və ya imzalanaraq göndərilən xidməti məktuba əlavə edilmiş, imza ilə təsdiq olunmuş bildiriş blankları (forma əlavə olunur № 9) əsasında həyata keçirilir."

**1.109.** 48.8-ci bənd aşağıdakı redaksiyada verilsin:

**"48.8.** Şəxs haqqında və sərhəd keçməyə dair məlumatlar sorğu edən qurumun rəhbərinin EPİS vasitəsi ilə (təxirəsalınmaz hallar istisna olmaqla) təsdiq olunaraq və ya imzalanaraq göndərilən xidməti məktubu, "Qadağandır", "İzlə", "Saxla" məhdudiyyət növünün tətbiq edilməsinə dair sorğular isə həmçinin həmin xidməti məktuba əlavə edilmiş Baş İdarə rəisinin müvafiq müavini tərəfindən təsdiq edilmiş bildiriş əsasında icra edilir."

**1.110.** 48.15-ci bənd aşağıdakı redaksiyada verilsin:

**"48.15.** Sorğu edilən obyektin nəzarət siyahısında olduğu dəqiqləşdirildikdən sonra məsul şəxs tərəfindən sorğu edən struktur quruma zəng olunaraq, məhdudiyyət qoyulması səbəbi, növü və lazım gələrsə, digər zəruri məlumatlar öyrənilir, qeydiyyat kitabında bu məlumatların verilmə vaxtı göstərilməklə müvafiq qeydlər aparılır."

**1.111.** 48.19-cu bənd aşağıdakı redaksiyada verilsin:

**"48.19.** Xəstəliyi, habelə xidməti vəzifələrini icrası ilə əlaqədar məsul prokuror, əməliyyatçı və məsləhətçinin dərhal digər əməkdaşlarla əvəz edilməsi məqsədilə Təşkilati və informasiya təminatı idarəsinin, Əməliyyat idarəsi və Əməliyyat təminatı şöbəsinin rəisləri müvafiq tədbirlər görməlidirlər."

**1.112.** 20-ci fəslin adından "pul vəsaitlərinin və digər" sözləri çıxarılsın;

**1.113.** 49.1-ci bənddən "pul vəsaitlərinin və ya digər" (hər iki halda) sözləri çıxarılsın, "PL/TM" (hər iki halda) sözləri "ƏL/TM sözləri ilə əvəz edilsin;

**1.114.** 49.2-ci bənddə "PL/TM" sözləri "ƏL/TM" sözləri ilə əvəz edilsin;

**1.115.** 49.3-cü bənddə "194-ci" sözü "194-cü" sözü ilə, "pul vəsaitləri və ya digər" sözləri isə "əmlakın" sözü ilə əvəz edilsin;

**1.116.** 50.1-ci bənddə "PL/TM" sözləri "ƏL/TM" sözləri ilə əvəz edilsin;

**1.117.** 50.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

**"50.3.** İş üzrə məhkəmələr tərəfindən yekun qərar qəbul edildikdən sonra Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsi, Azərbaycan Respublikasının Hərbi və Naxçıvan Muxtar Respublikası prokurorluqlarının dövlət ittihamının müdafiəsi üzrə şöbələri tərəfindən bu barədə məlumat verilir."

**1.118.** 50.5-ci bənddə "PL/TM" sözləri "ƏL/TM" sözləri ilə əvəz edilsin;

**1.119.** 51.1-ci bənddə "VMB-da" sözü "VMB-də" sözü ilə əvəz edilsin;

**1.120.** 51.2-ci bənddə "VMB-ya" sözü "VMB-yə" sözü ilə, "PL/TM" sözləri isə "ƏL/TM" sözləri ilə əvəz edilsin;

**1.121.** 51.3-cü bənddə "VMB-dan" sözü "VMB-dən" sözü ilə əvəz edilsin;

**1.122.** 51.4-cü bənddə "VMB-nın" sözü "VMB-nin" sözü ilə, "intizamın" sözü "intizam" sözü ilə əvəz edilsin;

**1.123.** 51.5-ci bənddə "PL/TM" sözləri "ƏL/TM" sözləri ilə əvəz edilsin;

**1.124.** 51.6-cı bənd aşağıdakı redaksiyada verilsin:

**"51.6.** VMB-də sənəd dövriyyəsinin təhlükəsizliyi və mühafizəsini Baş Prokurorluğun müvafiq idarəsi həyata keçirir."

**1.125.** 51.7-ci bənddə "VMB-da" sözü "VMB-də" sözü ilə əvəz edilsin;

**1.126.** 51.9-cu bənddə "VMB-ya" sözü "VMB-yə" sözü ilə əvəz edilsin;

**1.127.** 52.6.1-ci bənddə "kütləvi informasiya vasitələrindən" sözləri "mediadan" sözləri ilə əvəz edilsin;

**1.128.** 60.1.2-ci bənddə "üzərilərinə" sözü "üzərlərinə" sözü ilə əvəz edilsin;

**1.129.** 60.1.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

**"60.1.4.** İnzibati binaya buraxılışın yalnız üz tanıma sistemi ilə təchiz edilmiş turniketlər vasitəsilə həyata keçirilməsini və Qaydaların 2 və 3-cü bəndləri ilə müəyyən edilmiş vəzifələrin icrasını təmin etməklə, pozuntular və nasazlıqlar barədə aidiyyəti üzrə Təşkilati və informasiya təminatı idarəsinə məlumat verməli;"

**2.** Əmrin icrasına nəzarət Azərbaycan Respublikası Baş prokurorunun müavini - Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisinə həvalə edilsin.

**3.** Əmr elan olunması üçün Baş Prokurorluğun struktur qurumlarına və bütün tabe prokurorluqlara göndərilsin, "Azərbaycan Prokurorluğu" jurnalında dərc edilsin və "Prokurorluğun Normativ Xarakterli Hüquqi Sənədlərinin Reyestri"nə daxil edilsin.

**Azərbaycan Respublikasının Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri**
**Kamran Əliyev**